AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN NƏZDİNDƏ
NAXÇIVAN DÖVLƏT TEXNİKİ KOLLECİ

MƏQALƏLƏR TOPLUSU
XÜSUSİ BURAXILIŞ - № 2

Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin 100 illik yubileyinə həsr olunmuşdur.

Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin Pedaqoji Şurasının 25 aprel 2025-ci il tarixli iclasının (protokol № 05) qərarı ilə çapa tövsiyə olunmuşdur.

NAXÇIVAN - 2025

BAŞ REDAKTOR: **ASƏF RUŞANOV**
Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru

ELMİ REDAKTORLAR: **XƏZƏR HÜSEYNOV**
Tarix elmləri doktoru, professor
SÜRƏYYA ƏLƏKBƏROVA
Tarix müəllimi

TƏRTİB EDƏN: **TÜRKANƏ ƏLƏKBƏROVA**
NƏRGİZ TEYMUROVA

MÜNDƏRİCAT

1. **Ön söz**..... 6
2. **Asəf Ruşanov.** Heyvandarlıqda balavermə məhsuldarlığının əsasları..... 8
3. **Məhsəti Əsgərova, Nuriyyə İbrahimova.** Naxçıvanın iqtisadi inkişafına təsir edən infrastruktur layihələri..... 17
4. **Məftun İsmayılov, Aytən Həsənova.** Süni intellektin tədris sistemlərində innovativ tətbiqləri..... 25
5. **Bəhruz Bayramov, Turan Məmmədli.** Naxçıvan Muxtar Respublikası şəraitində intensiv becərilmə texnologiyasının və əkin müddətlərinin qarğıdalı bitkisinin məhsuldarlığına təsiri……..... 31
6. **Yadulla Həziyev.** Ali təhsil məktəblərində müəllim-tələbə münasibətlərinin aktual problemləri..... 43
7. **Gulay Bayramova.** Evaluating the effects of artificial intelligence on language learning..... 48
8. **Aytən Hüseynova.** XIX əsr Rusiya işğalından sonrakı dövrdə Naxçıvan və onun mənbəşünaslığı..... 51
9. **Gülər Bayramova.** Fizika dərslərində virtual laboratoriyaların əhəmiyyəti.... 54
10. **Səma Ələsgərova.** Kimya və insan sağlamlığı: tətbiqlər və yeniliklər..... 59
11. **Sara Əlibəyli.** Naxçıvanın inkişafında kimyanın rolu və Naxçıvanın təbii sərvətləri..... 63
12. **Samirə Mustafayeva.** Kimyanın tədrisində konstruktivist öyrənmənin rolu.. 68
13. **Goychek Aliyeva.** About the cognitive linguistics..... 73
14. **İnarə Əliyeva, Səidə Abdullayeva.** Riyaziyyatın inkişafı və onun cəmiyyətə təsiri..... 77
15. **Dünya Zalova, Sevilə Rüstəmova.** Qədim tarixə malik zəngin torpaq..... 82
16. **Şəkər Nağıyeva.** 100 illik tarixi olan qədim diyarın təhsil tarixinə baxış..... 89
17. **Şəkər Nağıyeva.** İnformasiya texnologiyalarında süni intellektin rolu..... 95
18. **Pərvin Məmmədli, Qumral Əliyeva.** Muxtariyyət tarixində Naxçıvan rabitəsinin keçdiyi inkişaf yolu..... 101
19. **Ruzigar Əliyeva.** Veb-saytların təhlükəsizlik boşluqları..... 107
20. **Röya Məmmədli.** Şagird təfəkküründün inkişaf etdirilməsinin mükəmməl anlamında paradoksal situasiyaların yaradılması və onlardan istifadə metodikası..... 112
21. **Türkan Hüseynova.** Ümummilli Lider Heydər Əliyev və Naxçıvan təbiəti..... 117
22. **Yasin Əliyev.** Ali və orta ixtisas təhsili müəssisələrində tələbələrin kargüzarlıq bilikləri və kadr hazırlığı..... 122
23. **Aişə Musayeva.** İnsan kapitalı və sahibkarlıq bacarıqları: Naxçıvanda yeni yanaşmalar..... 128

24. **Çinarə Tağızadə.** Yazıçı Nağı Nağıyevin nəsr əsərlərində Naxçıvanın bədii təsviri..... 135
25. **Nurlana Babayeva.** İngilis mütəfəkkirləri ilə Azərbaycan mütəfəkkirlərinin qarşılıqlı təhlili 143
26. **Vüsalə Məmmədova.** Naxçıvan obrazının bədii əksi Hüseyn Razi şeirlərində..... 149
27. **Elnarə Seyidova.** Müasir Azərbaycanın inkişafında İlham Əliyevin rolu..... 156
28. **Gülnar Niftəliyeva.** Zəfər salnaməmiz – II Qarabağ müharibəsi..... 161
29. **Aysu Əmirova.** Riyaziyyat fənninin tədrisində yaradıcı və kritik düşüncə bacarıqlarının inkişafı..... 165
30. **Gülnar Tahirli.** Riyaziyyat fənninin tədrisi üzrə fənn kurikulumunun tətbiqində prioritet istiqamətlər..... 171
31. **Rəfail Abdullayev.** Heydər Əliyevin xarici siyasəti və Azərbaycanın beynəlxalq uğurları..... 177
32. **Sona İsmayılova.** Naxçıvanın muxtariyyəti..... 185
33. **Sərvər Əliyev.** Ana dilinin qorunması..... 191
34. **Arzu Əsgərov.** Naxçıvan turizm sektorunun inkişafı 197
35. **Mömünə İmanova.** NoSQL və NewSQL verilənlər bazalarının xüsusiyyətləri..... 201
36. **Yaqub Hüseynov.** Naxçıvanda tənəzzülə uğrayan iqtisadiyyatın inkişafı.... 208
37. **Aysel Seyidli.** Naxçıvanın 100 illik azadlıq mübarizəsi və son illər burada kənd təsərrüfatının inkişafı..... 212
38. **Günay İsmayılova.** Bu günün fizikası, sabahın texnikası..... 218
39. **Şüküfə Əsgərova.** Multimedia texnologiyalarının tətbiqi və təsiri..... 223
40. **Ruziyyə Rzayeva.** Naxçıvanda iqtisadi zonaların yaradılması və onların sahibkarlığa təsiri..... 228
41. **Səadət Qasımova.** Naxçıvan ədəbi mühiti..... 239
42. **Elnurə Nərimanova.** İnformatika elmində süni intellektin tətbiqi və istifadə mexanizmləri..... 242
43. **Allahverdi Allahverdiyev.** Heydər Əliyevin müstəqil dövlətçilik idealları və müasir dövr..... 247
44. **Tural Məmmədov.** Naxçıvan Muxtar Respublikasının hüquqi statusu..... 255
45. **Çinarə Əliyeva, Səidə Abdullayeva.** Naxçıvan təhsilinin inkişafında Heydər Əliyev siyasəti..... 261
46. **Samirə Mustafayeva, Cavad Bayramlı, Səkinə Mustafayeva.** Azərbaycanın "Yaşıl enerji" sahəsində atdığı addımlar..... 267
47. **Dilbər Babayeva.** Alman yazıçıları ilə Azərbaycan yazıçılarının müqayisəli təhlili..... 273
48. **Araz Məmmədov.** Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasında Silahlı Qüvvələr..... 282

49. **Zərgül Novruzova.** Azərbaycan və ingilis pedaqoqları..... 287
50. **Ülviyyə Əmirova.** Azərbaycan dəmir yolları..... 294
51. **Turan Zeyniyeva.** Qədim alimlər yurdunda modern elmi yeniliklər..... 297
52. **Fəxrəddin Abbasov.** COP29: Alternativ enerji mənbələri və iqlim dəyişikliyi..... 303
53. **Mehri İbrahimova.** Məktəblilərdə riyaziyyat bacarıqlarının inkişafı metodologiyası..... 308
54. **Aişə Mirzəyeva.** Muxtariyyət dövründə yaşayıb-yaradan naxçıvanlı rəssamlar..... 313
55. **Aytac Nəbiyeva.** "Azərbaycan dili" fənnini öyrənməyin əhəmiyyəti..... 321
56. **Yusif Şirəliyev.** Heydər Əliyev və Azərbaycanın müstəqillik konsepsiyası..... 327

ÖN SÖZ

Əziz oxucular!

Əlinizdə tutduğunuz bu "Məqalələr Toplusunun Xüsusi Buraxılışı" Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kollecinin 100 illik yubileyinə həsr edilmişdir. Kollec 25 fevral 1925-ci ildən muxtar respublikanın kənd təsərrüfatı sahəsinin inkişafı məqsədilə IV ÜmumNaxçıvan Sovetlər Qurultayının Qərarı ilə yaradılmışdır. 1971-ci ilin sentyabr ayına qədər Naxçıvan Kənd Təsərrüfatı Texnikumu fəaliyyətini davam etdirmiş və həmin ildə Naxçıvan Sovxoz Texnikumu adını almışdır. 1925-ci ildə yaradılan texnikum Babək rayonunun Şıxmahmud kəndinə köçürülərək toxumçuluq sovxozu ilə birləşdirilmiş Mehdi Hüseynzadə adına "Naxçıvan Sovxoz Texnikumu" adını almışdır. Texnikum 1991-ci ilin sentyabr ayında Naxçıvan şəhərində yerləşən tələbə yataqxanasına köçürülmüş və Naxçıvan Kənd Təsərrüfatı Texnikumu adlandırılmışdır. 3 may 1997-ci ildən 11 sentyabr 1999-cu ilədək Naxçıvan Aqrar Sənaye Kolleci, 15 sentyabr 1999-cu ildən 25 oktyabr 2002-ci ilədək yenidən Naxçıvan Kənd Təsərrüfatı Texnikumu, 26 avqust 2002-ci ildən isə Azərbaycan Respublikası Nazirlər Kabinentinin 140 №-li Qərarı ilə Naxçıvan Dövlət Texniki Kolleci adlandırılmışdır.

Bu kollecin əsas məqsədi regionun iqtisadi inkişafına töhfə verəcək ixtisaslı mütəxəssislər hazırlamaqdır. Necə ki, Ümummilli Lider Heydər Əliyev demişkən: "Bizim müasir Azərbaycanı qurmağımızın əsasını güclü və peşəkar kadrlar təşkil edir. Bu həm iqtisadiyyatda, həm də sosial sahədə böyük əhəmiyyət kəsb edir". Kollec müxtəlif tarixi dövrlərdə müxtəlif adlar altında fəaliyyət göstərsə də, 100 ilin sınaqlarından alnıaçıq çıxmağı bacarmışdır. Naxçıvan Dövlət Texniki Kolleci bu 100 il ərzində cəmiyyətimizin, təhsilimizin formalaşmasında özünəməxsus rol oynamışdır. Kollec regionun aqrar, iqtisadiyyat və texniki sahələrinin inkişafına özünəməxsus real töhfələrini verməkdədir.

Ölkə Prezidenti cənab İlham Əliyev bu barədə demişdir: "Təhsil sahəsində əldə olunan nailiyyətlər ölkəmizin inkişafı və xalqımızın gələcəyi üçün böyük əhəmiyyət kəsb edir. Təhsil sahəsində bu günə qədər aparılan islahatlar daha da dərinləşməlidir. Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir."

Bu baxımdan, Naxçıvan Dövlət Texniki Kolleci 100 illik fəaliyyətində, həmçinin aqrar sektorda peşəkar kadrların hazırlanmasına, texniki və iqtisadi sahələrdə gənclərin müasir bilik və bacarıqlarla təmin edilməsinə mühüm töhfələr verərək, ölkə iqtisadiyyatının inkişafında öz mühüm yerini qorumağa davam edir. Kollecin hər bir uğuru, Azərbaycanın gələcək inkişafı üçün sağlam təməl təşkil edir.

Bir əsrlik təhsil ocağının tarixini yalnız xronologiya ilə deyil, yetişdirdiyi mütəxəssislərin və əhatə etdiyi ixtisasların zənginliyi ilə ölçmək olar. Naxçıvan Dövlət Texniki Kolleci 100 illik fəaliyyəti ərzində cəmiyyətin müxtəlif sahələri üçün bilikli, bacarıqlı və vətənpərvər kadrlar hazırlayaraq milli təhsil sistemində özünəməxsus yerini qoruyub saxlamışdır.

İxtiyarınıza verilən “Məqalələr Toplusu Xüsusi Buraxılışı”nda müəllimlər tərəfindən qələmə alınmış hər bir məqalə müxtəlif ixtisas sahələrini əhatə etməklə oxucuların müəyyən sahələr üzrə bilik səviyyəsinin artırılmasına xidmət edir. Bu toplu müəllimlərin elmi işlərini, tədqiqatlarını və digər akademik fəaliyyətlərini əks etdirən məqalələrdən ibarətdir. Burada aqrar sahə**,** mühəndislik texnologiyaları**,** iqtisadiyyat**,** nəqliyyat**,** kompüter və informasiya texnologiyaları**,** ümumi təhsil fənləri və digər sahələrlə bağlı dəyərli elmi-pedaqoji məqalələr öz əksini tapmışdır. Topluda yer alan məqalələr yalnız nəzəri bilikləri deyil, eyni zamanda müasir tələblərə cavab verən praktiki yanaşmaları, pedaqoji təcrübələri və innovativ fikirləri də özündə cəmləşdirir. Bu isə sübut edir ki, kollecin pedaqoji heyəti yalnız tədris fəaliyyəti ilə kifayətlənmir, həm də öz sahələrinin elmi inkişafına töhfə verməyə davam edir.

Kollecin "Məqalələr Toplusu Xüsusi Buraxılışı" adlı nəşri təhsil müəssisəsinin elmi fəaliyyətini və əldə etdiyi nailiyyətləri ictimaiyyətə təqdim etmək məqsədi daşıyır. **“**Məqalələr Toplusu Xüsusi Buraxılışı” Kollecin 100 illik yubileyi münasibətilə hazırlandığı üçün bu nəşr həm kollecin zəngin elmi irsini**,** həm də pedaqoji fəaliyyətini bir araya gətirən bir mənbədir. Bu toplu hər bir müəllimin peşəkar əməyi Nəticəsində ərsəyə gəlmişdir.

Son olaraq qeyd etmək istəyirəm ki, bu toplu oxucuların həyatlarına kiçik bir işıq, bir öyüd və ya dərin bir sual qataraq onlara dəyərli bir təcrübə bəxş etsin. “Məqalələr toplusu Xüsusi Buraxılışı” Kollecin 100 illiyinə həsr edilmiş son deyil, başlanğıc əsərlərdən biri olsun.

Bir əsrlik bilik irsinin inkişaf yolunu bu günə qədər daşıyan Kollecin 100 illik yubileyini qeyd edərkən biz inanırıq ki, bu “Məqalələr Toplusu Xüsusi Buraxılışı” təhsil və elm sahəsində yeni hədəflərə çatmaq üçün bir növ ilham mənbəyi olacaqdır. Kollecin bundan sonrakı fəaliyyətində də uğurlar arzu edir, bu nəşrin hazırlanmasında əmək sərf edən bütün müəlliflərə, redaksiya heyətinə və kollecin inkişafına dəstək verən hər kəsə təşəkkür edirəm!

100 yaşın mübarək, Naxçıvan Dövlət Texniki Kolleci!

ASƏF RUŞANOV

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kollecinin direktoru,
aqrar elmlər üzrə fəlsəfə doktoru

ASƏF RUŞANOV

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kollecinin direktoru,
aqrar elmlər üzrə fəlsəfə doktoru
rusanov66@mail.ru

HEYVANDARLIQDA BALAVERMƏ MƏHSULDARLIĞININ ƏSASLARI

XÜLASƏ

Maldarlıqda balavermə məhsuldarlığı təsərrüfatların gəlirliyini təmin edən mühüm amillərdən biridir. Dişi və erkək damazlıq heyvanların yetişdirilməsi, sağlam və məhsuldar nəsillər əldə etmək məqsədini güdür. Lakin bu prosesdə cinsiyyət, genotip, yemləmə, şərait və digər amillərin təsiri böyükdür. Təsərrüfatlarda süni mayalanma genişlənərkən, erkək damazlıqların yetişdirilməsi azalmış və dişi damazlıq heyvanların yetişdirilməsinə daha çox diqqət yetirilir. Damazlıq heyvanların balavermə səviyyəsi, balalama intervalı, ilk mayalanma yaşı, təkrarlanma səviyyəsi kimi xüsusiyyətlərlə müəyyən edilir. Dişi damazlıq heyvanların balavermə səviyyəsi, onların həyat dövründəki məhsuldarlığı, yemləmə və qulluqla birbaşa əlaqəlidir. Həmçinin süd məhsuldarlığı, balalama intervalı və servis dövrü kimi amillər təsərrüfatın iqtisadi səmərəliliyini müəyyən edir. Damazlıq heyvanların ilk dəfə mayalanma yaşı, cinsə görə dəyişir və mədəni cinslərdə bu yaş 14-15 aya qədər ola bilər. Balavermə intervalı və ilk mayalanma ilə doğuş arasındakı müddət təsərrüfatın gəlirliyini birbaşa təsir edir. İnəklərdə balalama və boğazlıqla əlaqədar müddətlərin düzgün idarə edilməsi, təsərrüfatın gələcəyini təmin etmək baxımından mühüm əhəmiyyət kəsb edir. Təkrar mayalanma nisbəti, boğazlıq başına maylama sayı, balavermə səviyyəsi və bala məhsuldarlığı, hər bir təsərrüfatın planlamasında nəzərə alınmalı və düzgün idarə edilməlidir. Naxırın idarə edilməsi və genetik seleksiya ilə yanaşı, düzgün yemləmə və sağlamlıq məsələlərinə diqqət yetirilməlidir.

Açar sözlər: *balavermə məhsuldarlığı, damazlıq heyvanlar, süni mayalanma, dişi damazlıq heyvanlar, erkək damazlıq heyvanlar, inkubasiya dövrü, məhsuldarlıq göstəriciləri, naxır idarəetmə, genetik seleksiya, bala məhsuldarlığı, buzov yetişdirmə, reproduktiv dövr, heyvan məhsuldarlığı, damazlıq cinslər, servis dövrü, balalama nisbəti*

Giriş

Maldarlıqda balavermə əsas məhsul hesab edilir. Təsərrüfatda yetişdirilən dişi və ya erkək damazlıqdan kifayət qədər sayda və keyfiyyətdə nəsil əldə etmək mümkün olmadıqda, naxırı saxlamaq üçün kifayət qədər sayda kənardan damazlıq heyvan almaq çox çətin bir iş hesab edilir. Bunun təsərrüfat üçün maya dəyəri çox yüksək olduğu üçün təsərrüfatın gəlirli olmasını şübhə altına salır.

Erkək və dişi heyvanların yetişdirmə baxımından balavermə məhsuldarlığını aşağıdakı kimi təyin etmək olar:

Dişi damazlıq heyvanlarda balavermə vaxtında boğaz qalma və alınan balanın sonrakı yaş dövründə sağlam nəsillər dünyaya gətirmə qabiliyyətidir.

Erkək damazlıqda məhsuldarlıq kifayət qədər miqdar və keyfiyyətdə sperma istehsal etmək, onları dişilərə ötürmək və növbəti yaşa qədər bu məhsuldarlığı saxlamaq qabiliyyətidir.

Deyilənlərdən aydın olduğu kimi, erkək və dişi damazlıqlar həyatlarının müəyyən dövründə öz reproduktiv funksiyalarını aktiv şəkildə yerinə yetirməlidirlər.

Son illərdə təsərrüfat daxilində damazlıq məqsədlər üçün erkək damazlıqların yetişdirilməsi azalmaqdadır. Buna səbəb isə süni mayalanma işinin geniş vüsət alması və təbii mayalanma ilə müqayisədə böyük üstünlüklər verməsidir. Məhz bu səbəbdən təsərrüfatlarda dişi damazlıq heyvanların yetişdirilməsinə ciddi nəzər yetirilir [6, s. 9].

Damazlıq dişilərdə balavermə səviyyəsi

Dişi damazlıqları balavermə baxımından təyin edə bilmək və bir-biri ilə müqayisə edə bilmək üçün müxtəlif üsullardan istifadə olunur. Aşağıda göstərilən bu xüsusiyyətlər arasında xüsusilə yaxın əlaqələr mövcuddur.

- Damazlıqda ilk mayalanma yaşı
- Balavermə intervalı
- İlk mayalanmadan balalama arası müddət
- Servis dövrü
- Damazlıqda istifadə müddəti
- İlk mayalamada boğaz qalma müddəti
- Təkrarlanma səviyyəsi
- Boğazlıq başına mayalama sayı
- Balalama səviyyəsi [6, s. 10]

Damazlıqda ilk istifadə yaşı

Hər bir dişi heyvanın məhsuldar dövrü ilk buzovunu dünyaya gətirdiyi tarix ilə başlayır və sürüdən çıxdaş edilmə tarixinə kimi davam edir. Başqa bir sözlə, doğumundan ilk buzovunu verənə qədər keçən müddət məhsuldar hesab edilmir. Bəsləmə və qulluq məsariflərinə yol açan bu dövrün qısa olması təsərrüfat üçün əhəmiyyətlidir.

Məhsuldar olmayan dövrün müddətini heyvanın genotipi, paratipi, təsərrüfatda naxırın idarə edilməsi, bəslənmə və yemlənmə şəraitləri kimi amillər müəyyən edir. Sürətli böyüyən və inkişaf edən genotiplər və bunların daxil olduqları qaramal cinsləri daha erkən yaşda damazlıqda istifadə olunma yaşına çatırlar.

Məsələn, Holşteyn, Cerzey, Simmental kimi mədəni cinslər 14-15 aylıq yaşda ilk dəfə mayalanmaqla boğaz ola bilər. Bunun əksinə daha gec böyeyən və inkişaf edən yerli cinslər isə yalnız 18-20 aylıq yaşlarda bu həddə çata bilər.

Damazlıqda ilk dəfə istifadə yaşına təsir edən bir amil, təsərrüfatlarda tətbiq edilən naxırın idarə edilməsi və bunun əsasında dəyərləndirilə bilən saxlama və yemləmədir. Ümumi qayda olaraq, bir düyəni ilk dəfə mayalana bilməsi üçün yetkin malın diri çəkisinin 2/3-nə çatması vacibdir. Məsələn, yetkin ana malın diri çəkisi 600

kq olan bir mədəni cinsdə damazlıqda istifadə olunma dövrü 400 kq diri çəkiyə çatdığı zamandır. Buna uyğun olaraq, 300 kq yetkin diri çəkiyə malik olan bir yerli cins isə 200 kq diri çəki mayalanma üçün uyğun zaman olaraq qəbul olunur. Yaş və diri çəki ilə birlikdə qiymətləndirildikdə mədəni cins düyənin 14-15 aylıq yaşlarda və 350 kq canlı ağırlığına çatdığı dövrdə mayalanması uyğun hesab edilir. Yerli cins düyələrin isə 18 aylıq yaşdan balaca olmamaq şərti ilə, ana malın diri çəkisi 2/3-nə çatması əsas götürülür.

Damazlıqda ilk dəfə istifadə yaşı ilə süd məhsuldarlığı arasında önəmli bir əlaqə olduğu və 24 aylıq yaşdan əvvəl doğanların az süd verdiyi müşahidə olunmuşdur. İlk balalama yaşı 30 aylıq olana qədər süd məhsuldarlığının artdığı və daha sonrakı yaşlarda azaldığı müxtəlif tədqiqatlarla təsdiq olunmuşdur. Balalama yaşı ilə süd məhsuldarlığında müşahidə edilən artım inəklərdə məhsuldar olmayan dövrün uzanmasında yaranan itkiləri qarşılaya bilmir. Bu məqsədlə, mədəni cinslərdə ilk mayalanma yaşının 14-15 aylıq, ilk doğum yaşının da 24-25 aylıq olması vacib hesab edilir [5, s. 62].

Balavermə intervalı

İlk balalama müddəti olaraq da qəbul edilən balavermə intervalının 365 gün, yəni bir il olması arzu olunandır. Başqa sözlə, hər bir inəyin bir ildə bir sağlam buzov doğması və orta hesabla 305 gün sağılması qaramal yetişdiriliciyinin vacib hədəfidir. Bununla yanaşı, son illərdə əksər təsərrüfatlarda həm süd məhsuldarlığının yüksəldilməsi, həm də mayalanmada geriliyin müşahidə olunması səbəbi ilə balalama intervalı 13 ayı keçmiş və 14 aya çatmışdır. Başqa sözlə, südlük qaramalın yetişdirilməsində iki doğum arası müddəti 400 günün keçməsi artıq az müşahidə olunmaqdadır. Süd qiymətinin yüksək olduğu dövrlərdə yüksək süd verən və yüksək perspektivə malik olan inəklərin daha uzun bir müddət sağılması və dolayısı ilə balavermə intervalının uzun olması iqtisadi cəhətdən gəlirli ola bilər.

İlk mayalanmadan doğuşadək olan müddət

Doğumdan sonra, balalığın yeni bir boğazlığa hazır olması üçün orta hesabla 6 həftəlik bir müddət keçməsi lazımdır. Bu müddət ərzində bəzi inəklərin yumurta hüceyrə yetişdirərək qızğınlıq göstərə bildiyi və mayalanmanın baş tutması döllənmə ilə müəyyən edilir. Ancaq, erkən boğazlıqda balalığın yeni bir boğazlığa hazır olması səbəbi ilə, embrionun balalıqda qalması və embrional ölümlərlə tez-tez qarışılaşılır. Bu böyük iqtisadi zərərə və inəyin lazımsız yerə stresə düşməsinə səbəb olur. Boğazlıq müddətinin 280 gün olması vacib hesab edilir. Boğazlıqla Nəticələnməsi vacib olan mayalanmanın ideal olaraq doğumdan sonra 80-90-cı günlər arasında olduğu aydın olunmuşdur. Bəzi inəklərin təkrar mayalanma ediləcəyi nəzərə alınaraq ilk mayalanmanın 60-70-ci günlər arasında həyata keçirilməsi tövsiyə olunur. Burada inəyin sağlamlıq vəziyyəti, süd məhsuldarlığı, süd qiymətləri kimi amillər nəzərə alınır [3, s. 45].

Servis dövrünün müddəti

Balalama ilə boğazlıqla yekunlaşan mayalanma arasında keçən müddətə servis dövrü deyilir. Balalama aralığının iki amilindən biri olan servis dövrünün ən az 60 gün,

ən çox isə 120 gün olması arzu olunur. Çünki iribuynuzlu qaramalda boğazlıq müddəti 280 gün ətrafındadır. İldə bir bala əldə etmək istədikdə 80-85 gün olması ideal Nəticəyə səbəb ola bilər. Lakin bu tətbiq zamanı hər dəfə mümkün olmur və bu səbəbdən servis dövrü 60-120-ci günlər arası olması normal qəbul edilir [3, s. 46,48].

Damazlıqda qalma müddəti

İnəklərdə ilk balalama ilə başlayan məhsuldar dövrün uzun olması təsərrüfat üçün əhəmiyyətli hesab olunur. Bu, xüsusilə yüksək məhsuldar inəklərin olması baxımından son dərəcə önəmlidir. Məhsuldar dövrün qısa olması yetişdirmə xərclərinin yüksək, məhsul verməyən dövrün uzun, dolayısıyla iqtisadi itkilərin də yüksək olması deməkdir. İnəklərdə süd məhsuldarlığının yaşla əlaqəli olaraq əvvəlcə artdığı və 7-8 yaşlarından etibarən azalmanın olması tədqiqatlarda müəyyən edilmişdir. O halda, bir inəyin erkən yaşda naxırdan çıxması və ya çıxarılmasının süd məhsuldarlığında da önəmli itkilərə yol açdığı müşahidə edilir.

Naxırın yenilənməsi üçün lazım olan düyələri təsərrüfat daxilində yetişdirmək üçün hər inəkdən orta hesabla 3 baş buzov alınmalıdır. Bu say balalama intervalı, balalama tezliyi, cinsiyyət nisbəti, böyümə zamanı itkilər və çoxalmaya uyğunluq kimi faktorlar nəzərə alındıqda hesablanacaq minimum rəqəmdir.

İnəklərdə orta hesabla damazlıqda qalma müddəti 5 ildən az olmamalıdır. İstehsal məqsədli naxırlarda inəklərin yaşla yanaşı artan süd məhsuldarlığından yararlanmaq məqsədi ilə bu müddət 6-7 ilə qədər arta bilər [5, s. 61].

İlk mayalamada boğazlıq

İstər düyələrdə, istərsə də doğum sonrası inəklərdə edilən ilk mayalamada boğazlıq səviyyəsinin 50%-dən yuxarı olması arzuolunandır. Yüksək mayalama məsariflərini minimuma endirmək və balalama intervalının lazımsız olaraq artmasını və bundan yarana biləcək məhsul itkisinin qarşısını almaq əsas məqsəddir. İlk mayalama bir inəyin balalamasından sonrakı ilk mayalanması və ya bir düyənin ilk dəfə mayalanmasıdır. İlk mayalamada boğazlıq səviyyəsinin hesablanması ya ilin sonunda, ya da damazlıq dəyərlərinin müəyyən edildiyi dövrün sonunda həyata keçirilir [3, s. 56]

Təkrar mayalanma nisbəti

Mayalanan inək və düyələrin hamısı boğaz qalmır. 19-21 gün sonra yenidən qızğınlıq göstərir. Həvəsəgəlmə əlamətləri sönük keçən və ya yumurtalıq funksiyaları pozulmuş inəklərdə həvəsəgəlmə əlamətləri hiss edilmədiyindən inəklərin boğazlıq müayinəsi edilənə qədər boğaz olub-olmadıqları bilinmir. Ən tezi 6-cı həftənin sonunda edilən boğazlıq müayinəsi ilə inəklərin boğaz olub-olmadıqları dəqiq olaraq müəyyən edilə bilir. Mayalanmadan sonra boğaz olan inəklərin miqdarını müəyyən etmək məqsədi ilə istifadə edilən bir ölçü olaraq təkrar mayalanma nisbəti müəyyən edilmişdir. Bu, mayaladıqdan sonrakı 56 gün içində boğaz olduğu müəyyən edilən inəklərin mayalanan toplam inəklərə nisbəti olaraq qəbul edilir və TMN_{56} şəklində ifadə edilir. Bəzi ölkələrdə 56 gün əvəzinə və ya buna eyni olaraq maylamanı izləyən 90 günə qədər boğaz qalanların miqdarı istifadə edilir və əldə edilən rəqəm TMN_{90} ilə göstərilir.

TMN_{56} miqdarının 60%-dən az olması arzu olunan deyil. TMN_{56} miqdarının ilk mayalamada boğazlıq nisbətindən bir az daha yüksək olması gözlənilir. Bu TMN_{56} miqdarında sadəcə mayalanmanı izləyən ilk 56 gündə boğaz qalmayanların məlumatlarının istifadə edilməsidir. İlk mayalananalarda hesablamalara daxil edilir [6, s.13].

Boğazlıq başına maylama sayı

Mayalama indeksi də adlandırıla bilən bu rəqəm mayalamadakı uğurun başqa bir formada ifadəsidir. Son dövrlərə qədər yaxşı şəraitdə yetişdirilən inəklərdə hər boğazlıq üçün mayalanma sayının 1.5-1.8 arasında dəyişməsi məqsəd qoyulmuşdur. Lakin son illərdə hədəfin 2.0 və bir az daha çox artırılması zəruri olmuşdur. Bu, ilk mayalanmada müsbət Nəticənin azalması ilə bağlıdır.

İnəklərlə müqayisədə düyələrin mayalanma indeksinin göstəricisi aşağıdır. Bunun səbəbi düyələrin daha sağlam və kondisiyalı olmasıdır [6, s. 15].

Balavermə səviyyəsi

Sürüdə balalayan inəklərin müəyyən bir ildə inəklərin ümumi sayına nisbəti naxırın, təsərrüfatın, bölgənin və ya ölkənin məhsuldarlığı haqqında ən sadə məlumat verən mühüm ölçüdür. Balalama nisbəti ilə doğulan buzovların sayı da müəyyən edilir. Bu, təsərrüfat planının hazırlanmasında xüsusi əhəmiyyət kəsb edir. Bu kriteriyanın ən zəif cəhəti, bu indeksin ancaq ilin sonunda müəyyən edilməsidir. Ona görə də hər bir hansı problem olarsa müdaxilə etmək gec olur [6, s.15].

Bala məhsuldarlığına təsir edən amillər

Bir çox tədqiqatlarda müxtəlif reproduktiv xüsusiyyətlərdə görülən variasiyanın əsasən ətraf mühit faktorlarından qaynaqlandığı və genetik variasiya payının az olduğu müəyyən edilmişdir. Heyvanlara lazımi qulluq, yemləmə və saxlama şəraiti təmin edildikdə, onlar arasındakı fərq minimuma endirilə və qarşıya çıxan bir çox problemlərin ölçüsü azaldıla bilməsini göstərir.

Bala məhsuldarlığı xüsusiyyətlərindəki fərqlilikdə ətraf mühit amillərinin yüksək payı vardır. Buna görə də dolayısıyla rislik dərəcəsinin aşağı olması damazlıq-seleksiya işlərini çətinləşdirir. Bununla belə, bu xüsusiyyətlərdəki genetik variasiyanın damazlıq tədqiqatlarına imkan verəcək səviyyədə olduğu da məlumdur. Əslində, bu xüsusiyyətlərə görə son illərdə ciddi irəliləyiş əldə edən damazlıq proqramlar var [4, s. 45].

Naxırın idarə edilməsi proqramı

Balavermə məhsuldarlığındakı itkilərin ağır iqtisadi xərclərə səbəb olması və bir çox ekoloji amillərin reproduktiv xüsusiyyətlərə təsir göstərməsi hərtərəfli və diqqətlə hazırlanmış xüsusi naxır idarəetmə proqramlarını tələb edir. Bu proqramlar təsərrüfatlarda problemlərin yaranmasının qarşısını almaq və mövcud problemləri həll etmək məqsədi ilə hazırlanır və həyata keçirilir.

Naxırın idarəçiliyi proqramlarında iki əsas prinsip götürülür. Bunlardan birincisi itkiləri minimum səviyyədə saxlamaq, digəri isə vakansiya işlərinin vaxtında yerinə yetirilməsidir.

Həyata keçiriləcək naxır idarəetmə proqramının səmərəliliyini ölçmək üçün aşağıdakı meyarlardan istifadə etmək faydalıdır.

- Naxırda olan hər inəyin boğaz olmasını təmin etmək;
- Hər il kifayət qədər sayda və keyfiyyətli balaların alınması və minimum itki ilə yetişdirilməsi;
- Qurutma müddətini 2 aya yaxın saxlayaraq, lazımsız xərclərdən qaçmaq;
- Planlı mayalama yolu ilə naxırın genetik səviyyəsini yüksəldəcək nəsil əldə etmək.

Məqsəd naxırda mövcud olan inəklərin vaxtında boğaz qalmasını təmin etməkdir. İnəyin vaxtında boğaz qalması servis müddətinin 120 gündən çox olmaması və mayalanma indeksinin 2-dən çox olmaması deməkdir. Bu həm əmək, həm də mayalanma xərclərinə qənaət deməkdir. Daha da əhəmiyyətlisi hər il boğazlığa nail olmaq sağlam buzov və yüksək süd məhsuldarlığının əldə olunmasına səbəb olur. Xülasə, həm təsərrüfat rəhbərinin, həm də mütəxəssislərin əsas vəzifəsi inəklərin vaxtında boğaz qalmasını təmin etmək olmalıdır.

Boğazlıq müddəti və onun son mərhələsi olan balalamanın düzgün idarə olunması təsərrüfatın gələcəyinin təminatı olan sağlam balaların alınması baxımından son dərəcə əhəmiyyətlidir. Burada məqsəd təsərrüfatda mövcud inək tutumu qədər buzov əldə etmək olmalıdır.

Lazım olan digər vacib məqam isə doğulan buzovların ilk 8 həftəlik dövrü minimum itki ilə keçirilməlidir. Bu dövrdə buzovların immun sistemi hələ tam formalaşmır. Bu səbəbdən xəstəliklərdən qorunmalıdır.

Əgər iki balalama arasındakı interval 12-13 ay saxlanılarsa, balalamadan əvvəl inəkləri 10-12 ay sağıb 2 ay qurutmaq olar. Daha uzun balalama intervalında inəklərin daha uzun müddət qurutmada qalması mümkündür. Bu da əhəmiyyətli dərəcədə iqtisadi itki deməkdir.

Təsərrüfatda doğulan buzovlar təsərrüfatın gələcəyi olduğundan, genetik səviyyəsinin naxırın orta səviyyəsindən yüksək olmasına çalışılmalıdır. Doğulan dişi buzovların 60-70 %-i naxırın yenilənməsində istifadə edilməlidir. Məhsuldarlığı aşağı olan (qoca, ağır xəstə və s.) heyvanlar naxırdan çıxarılmaqla onların yerinə götürülməlidir. Təmir cavanlarının naxıra qoşularaq yüksək bir genetik səviyyəyə sahib olması üçün ilk növbədə analarının orta damaqlıq dəyərləri haqqında təsəvvürə malik olmalı və onlara uyğun buğaların sperması ilə mayalandırılmalıdırlar. Bu baxımdan seleksiyaçılar qədər məsləhətçilərin və damazlıq heyvandarlıq təsərrüfatlarının da vəzifələri var.

Məhsuldarlığı yaxşılaşdırmaq üçün hazırlanacaq naxır idarəetmə proqramı aşağıdakı 4 əsas mövzunu əhatə etməlidir: naxır izləmə, reproduktiv prosesə nəzarət, genetik seçmə, balanslaşdırılmış yemləmə.

Unutmaq olmaz ki, proqramın əhatə dairəsi və onun nə dərəcədə düzgün planlaşdırılmasından asılı olmayaraq onun səmərəsi işçilərin fəaliyyətindən və marağından asılıdır. Heyvanlar qulluq edən və idarəedən şəxs və ya insanların kifayət qədər bilik və təcrübələri yoxdursa işdə uğur qazanmaq çətin olur. Bundan əlavə, bu cür proqramlarda müvəffəqiyyətə zəmanət yoxdur. Çünki məhsul xüsusiyyətlərinə təsir edən amillər müxtəlifdir və onların hamısına nəzarət etmək həmişə mümkün olmaya bilər [5, s. 25].

Naxır izləmə

Südlük maldarlıqda naxırların düzgün idarə olunmasını ilkin şərtlərindən biri də heyvanların bir biri ilə qarşılaşdırılmaması və ən azı 15-20 m məsafədən asanlıqla oxuna biləcəyi şəkildə nömrələnməsidir. Başqa bir vacib şərt heyvanın böyüməsi, məhsuldarlığı və sağlamlığı haqqında müntəzəm məlumatların toplanması və lazım olduqda istifadəyə yararlı formada qeyd edilməsidir.

Heyvanların nömrələnməsinin müxtəlif üsulları var. Bunlardan ən çox istifadə edilən plastik qulaq etiketləridir. Bundan əlavə, kompüter texnologiyalarının tətbiq olunduğu müəssisələrdə elektron ötürücülər heyvanların boynuna və ya dərisinin altına yerləşdirilir və kompüterə qoşulmuş elektron qəbuledicilərlə heyvanlar tanınır.

Heyvanların əhəmiyyətli məhsul xüsusiyyətləri ilə tanınması və fərqləndirilməsi hər bir heyvanla görüləcək işlərin planlaşdırılması baxımından son dərəcə əhəmiyyətlidir. Bu, xüsusilə iri müəssisələrdə qaçılmaz bir zərurətdir. Kiçik müəssisələrdə də nömrələmə və qeydlər aparılmalı və bunun faydası çəkiləcək xərcləri qarşılayacaq səviyyədə olmalıdır.

İnəklərin qızğınlıq dövrünü izləmək və lazım gəldikdə müdaxilə etmək məqsədi ilə qızğınlıq və mayalanma təqvimindən istifadə etmək çox faydalıdır. 21 gündən ibarət olan bu təqvimdə hər bir inəyin qızğınlıq göstərdiyi və bitdiyi günlər, qızğınlığın gedişi, mayalanma və baytarlıq müdaxilələri haqqında məlumatlar qeyd olunur. Məqsəd 19-21 gün ərzində təkrarlanan qızğınlıq dövrünə nəzarət etmək, inəyin vaxtında mayalanması və boğaz qalması, buna görə yarana biləcək lazımsız xərclərin və iqtisadi itkilərin qarşısını almaq və ya minimuma endirməkdir.

Heyvanları məhsuldarlıqları ilə birlikdə izləmək və onları təyinatına görə qiymətləndirmək üçün hər bir təsərrüfatda işin həcmindən asılı olaraq kiçik və ya böyük iş otağı olmalıdır. Burada hər bir inək üçün kart olmalıdır və onun üzərində inəyin damazlığı, məhsuldarlığı və xəstəlikləri, müalicə üsulları haqqında məlumatlar qeyd edilməlidir. Müəssisənin uğuru üçün damazlıq inəklə bağlı hər hansı qərar qəbul etməzdən əvvəl bu kartdakı məlumatlara nəzər salması son dərəcə vacibdir.

Kompüter texnologiyalarından faydalanan təsərrüfatlarda inək kartları kompüter jurnalları ilə əvəz olunur. Bu mövzuda hazırlanan naxır idarəetmə proqramları, qərar qəbul etmə və təsərrüfat planlamasında damazlıq heyvan yetişdirənlərə mühüm faydası vardır. Burada diqqətdən qaçırılmaması lazım olan məqam odur ki, seleksiyaçının kompüterə yüklədiyi məlumatların dəqiqliyi və bu məlumat əsasında hazırlanan hesabatlardan faydalanma qabiliyyəti və istəyi kompüter proqramı qədər vacibdir. Başqa sözlə, kompüter texnologiyası yetişdirici üçün faydalı bir vasitədir. Bu zaman səmərə sahibkarın biliyindən, təcrübəsindən və istəyindən asılıdır [1].

Reproduktiv dövrə nəzarət

Reproduktiv dövr doğum ilə başlayan və heyvanın ölümünə qədər davam edən bir müddət olaraq nəzərdə tutulur. Çünki tədqiqatların Nəticələrinə əsasən böyümə müddətindəki xətaların sadəcə balaverməyə deyil, süd və ət məhsuldarlıqlarına da mənfi təsir etdiyi müəyyən edilmişdir. Burada əhatə dairəsi bir qədər daralaraq və sadəcə balalama, baytarlıq proqramı, qızğınlığa nəzarət və mayalanma məsələlərini əhatə edir [3, s. 10].

Balalama

Boğaz inəklər ciddi sağlamlıq problemi yaşamadan və həddindən artıq stress keçirmədən bala vermə (balalama) prosesini keçməli, sonrakı illərdə də nəsil vermək qabiliyyətini qorumaq üçün balalıq ciftini vaxtında atmalıdır.

İnək balalamadan əvvəl, mümkünsə, ən geci bir həftə əvvəl dezinfeksiya edilmiş və saman örtüklə örtülmüş balalama bölməsinə aparılmalıdır. Əgər bu mümkün deyilsə, onun yerləşdiyi tövləni təmizləmək və balalama üçün hazırlamaq vacibdir. Doğuşdan əvvəl qarın əzələləri rahatlaşır, balalıq yolu nəmlənir və sürüşkən olur. Bu vaxt inək narahatlanır, uzanır, qalxıb ətrafa baxır. Doğuş zamanı inək, adətən, uzanır və plasentanın xarici kisəsi partlayaraq döl suyu axır. Bu müddət doğum sancıları nizamlı olaraq artmağa başlayır və daha qabarıq hiss olunur. Plasentanın xarici kisəsi partladıqdan sonra sancı ilə yanaşı, buzov da çölə atılır. Təxminən iki saat davam edən bu müddətin sonunda balanın ön ayaqları balalıq yolunun ağzında görünür. Əgər bala ayaqları bərabər şəkildə çıxırsa, bu dövrdə heç bir köməyə ehtiyac yoxdur. Ayaqlardan biri digərindən qabaqda olarsa, diqqətlə müdaxilə edilir və digər ayaq bərabər səviyyəyə gətirilir. Müdaxilədən əvvəl əllər yuyularaq təmizlənməli və yoluxucu xəstəliklərdən qorunmaq üçün rezin əlcəklər taxılmalıdır. Bu vaxt inəyin cinsiyyət orqanı və ətrafı dezinfeksiyaedici tərkibli iliq su ilə yuyulmalı və qurulanmalıdır. Doğuşun təbii bir hadisə olduğunu unutmaq olmaz. Əslində, balalamanın 95%-i normal doğuş kimi baş verir. Normal doğuşlar heç bir müdaxilə tələb etmir.

Plasentanın xarici kisəsi yırtıldıqdan sonra bir saat ərzində buzov görünməzsə və inəkdə ağrının aşkar əlamətləri görünmürsə, baytar müdaxiləsi tələb olunur. Bunun üçün ilk növbədə buzovun ana bətnindəki vəziyyəti yoxlanılır və səhv duruş aşkar edilərsə, diqqətli bir müdaxilə ilə düzəldilməyə çalışılır. Əgər plasentanın xarici kisəsi partladıqdan sonra bir saat keçibsə, balanın yalnız ayaqları və burnu görünürsə, balanın normal doğuşun qarşısını alacaq qədər böyük olduğuna qərar verilir və baytar həkimə müraciət edilir. Əks halda görüləcək hər hansı bir hərəkət buzova və inəyə zərər verə bilər.

Doğuşa kömək etmək üçün əvvəlcə buzovun vəziyyəti yoxlanılır. Daha sonra hər iki ayaq topuğun yuxarı hissəsindən ehtiyatla bağlanır və maksimum 3-4 nəfər tərəfindən dartılır. Əslində, bu proses üçün 3 nəfər kifayətdir. Bunlardan ən təcrübəli olanı inəyin sancılarını və balalıq yolunu müşahidə edir və buzovu çəkən digər iki adama göstəriş verir. Buzov əvvəlcə inəyin arxasına, başı və sinəsi çıxarıldıqdan sonra isə ön ayaqları inəyin ayağına doğru çəkilir. Səhv istiqamətə çəkmək buzovun balalıq yolunda ilişib qalmasına səbəb olur. Bu da növbəsində buzov itkilərinə və inəyin balalıq yolunda xəsarətlərə səbəb ola bilər. Çəkmə prosesi sancı ilə birlikdə aparılmalı və sancının sonunda dayandırılmalıdır. Doğuş zamanı inəkdə stress yarada biləcək hər cür hadisələrin qarşısı alınmalıdır. Əks halda qorxudan inəkdə hormon balansı pozula bilər, normal doğuş sancıları və sonra ciftin ləngiməsinə səbəb ola bilər. Doğduqdan sonra inəyə nəzarət edilməlidir. Cift 6-12 saat ərzində təbii şəkildə tamamilə atılmadıqda, baytar həkimin müdaxiləsi təmin edilməlidir. Əks halda, balalıq yolunun infeksiyalarına və iltihablarının yaranmasına səbəb olur. Doğuşdan sonrakı ayda balalıq sistemi hər hansı mümkün iltihabı müəyyən etmək və müalicə etmək üçün baytar tərəfindən yoxlanılmalıdır.

Əgər inək doğuşdan sonra ayağa qalxmaq istəmirsə və ya ayağa qalxa bilmirsə, baytar tərəfindən yoxlanılmalı və heyvanın sinir sistemi, sümük və ya əzələlərinin zədələndiyi, ya da inəyin zədələnmiş olması şübhəsi ilə lazımi müdaxilələr edilməlidir.

Baytarlıq proqramları embrional və postembrional dövrlərin gedişi prosesinə mütəmadi olaraq 2-4 həftəlik fasilələrlə baytar həkim tərəfindən nəzarət edilməlidir. Bu xüsusilə doğuşdan əvvəlki 6-8 həftə ilə doğuşdan sonrakı iki ay arasında vacibdir. Əks təqdirdə problemlər xroniki hala gələ bilər və onların müalicəsi çox bahalı və uzunmüddətli ola bilər. Almaniyada aparılan araşdırmada əldə edilən Nəticələr erkən diaqnoz və müalicənin vacibliyini açıq şəkildə nümayiş etdirir. Nəticələri cədvəl 3-də görünən tədqiqatdan da aydın olduğu kimi, balalamadan sonra ilk 70 gündə müntəzəm olaraq baytarlıq nəzarəti və xidməti göstərilən naxırlarda mayalanmada boğazlıq nisbəti artmışdır. Nəticədə mütəmadi olaraq baytarlıq xidmətlərindən yararlanmayan fermer bir inəyə 4,2 dəfə çox pul xərcləməli olur [6, s. 20].

ƏDƏBİYYAT

1. Cəfərov, A. (2018). Heyvandarlıqda balavermə məhsuldarlığının artırılması. Bakı: Kənd Təsərrüfatı Nazirliyi.
2. Əsədov, R. (2015). Damazlıq heyvanların yetişdirilməsi və reproduktiv funksiyaların təkmilləşdirilməsi. Aqrar Elm və Təhsil Jurnalı, 25(3), 45-58.
3. Məmmədov, V. (2020). Maldarlıqda süni mayalanma və onun üstünlükləri. Bakı: Gənclik.
4. İsmayılov, M. (2019). İnəklərdə süd məhsuldarlığının artırılması yolları. Kənd Təsərrüfatı Araşdırmaları, 12(6), 22-34.
5. Qasımov, S. (2017). Damazlıq heyvanların idarə olunmasında modern texnologiyalar. Kənd Təsərrüfatı və Texnologiya Jurnalı, 14(2), 60-72.
6. Mirzəyev, A., Ruşanov, A., Quliyeva, K., Nəcəfova, G. (2023). Qaramal naxırlarında paratipik amillərin idarə edilməsi. Bakı: Ecoprint.

MƏHSƏTİ ƏSGƏROVA
Naxçıvan Dövlət Universiteti
esgerovamehseti@ndu.edu.az
ORCID iD: 0009-0001-1899-3325

NURİYYƏ İBRAHİMOVA
Naxçıvan Dövlət Universiteti
nuriyyeibrahimova@ndu.edu.az
ORCID iD: 0009-0006-2786-8899

NAXÇIVANIN İQTİSADİ İNKİŞAFINA TƏSİR EDƏN İNFRASTRUKTUR LAYİHƏLƏRİ

XÜLASƏ

İnfrastruktur layihələri iqtisadi inkişafın əsas hərəkətverici qüvvələrindən biridir və bu layihələrin həyata keçirilməsi regionların iqtisadi potensialını artırmaqla yanaşı, sosial rifahı da yüksəldir. Xüsusilə strateji coğrafi mövqeyə və zəngin tarixi-mədəni irsə malik olan Naxçıvan Muxtar Respublikası üçün infrastrukturun inkişafı xüsusi əhəmiyyət kəsb edir. Regionun inkişafı üçün ən prioritet sahələr nəqliyyat, enerji və su təsərrüfatı infrastrukturunun təkmilləşdirilməsidir. Yaxşı inkişaf etmiş nəqliyyat infrastrukturunun təmin edilməsi, Naxçıvanın digər regionlarla və xarici bazarlarla əlaqələrini gücləndirərək, ticarət və iqtisadi əməkdaşlığı artıracaqdır. Enerji infrastrukturunun gücləndirilməsi, regionun enerji müstəqilliyini təmin edərək, sənaye və xidmət sektorlarının inkişafını dəstəkləyəcəkdir. Su təsərrüfatı sahəsində müasir suvarma sistemlərinin tətbiqi isə kənd təsərrüfatı istehsalını artıracaq və ərzaq təhlükəsizliyini təmin edəcəkdir. Naxçıvanın infrastrukturunun mövcud vəziyyəti və inkişaf perspektivləri diqqətlə təhlil edilməli və gələcəkdə həyata keçiriləcək layihələr ilə regionun iqtisadiyyatı daha da gücləndiriləcəkdir. Bu təşəbbüslər Naxçıvanın beynəlxalq əlaqələrini gücləndirəcək, həmçinin sosial rifahı yüksəldərək, əhalisinin həyat keyfiyyətini artıracaqdır.

Məqalədə Naxçıvanın iqtisadi inkişafında infrastruktur layihələrinin roluna dair müxtəlif aspektlər təhlil ediləcək. İlk növbədə, infrastrukturun iqtisadiyyatın inkişafına, xüsusən də regional inkişafın sürətlənməsinə təsiri araşdırılacaq. Nəqliyyat infrastrukturunun inkişafı və bu sahədəki layihələrin daxili və beynəlxalq əlaqələrə təsiri ön plana çıxacaq. Enerji infrastrukturunun təkmilləşdirilməsi və regionun enerji müstəqilliyini gücləndirilməsi məsələləri də əhəmiyyətli yer tutacaq.

Su təsərrüfatı və kənd təsərrüfatı sahəsindəki infrastruktur layihələrinin məhsuldarlıq və ərzaq təhlükəsizliyi baxımından rolu nəzərdən keçiriləcək. İnfrastruktur layihələrinin uzunmüddətli iqtisadi sabitlik və sosial rifah üzərindəki təsirləri də təhlil ediləcək.

Açar sözlər: *iqtisadi inkişaf, infrastruktur layihələr, iqtisadi müstəqillik, sosial rifah*

İnfrastrukturun iqtisadi inkişafdakı rolu

İnfrastruktur hər bir ölkənin və ya regionun iqtisadi inkişafının təməlini təşkil edir. Yol, enerji, su təchizatı, rabitə, nəqliyyat və digər infrastruktur komponentləri iqtisadi fəaliyyətlərin effektiv şəkildə həyata keçirilməsini təmin edir. İnfrastrukturun inkişaf etdirilməsi, ilk növbədə, istehsal və xidmət sektorlarının genişlənməsi üçün zəruri olan şəraiti yaradır. Bununla yanaşı, yerli və xarici investisiyaların cəlb edilməsi üçün də mühüm bir platforma təmin edir.

İqtisadi inkişafda infrastrukturun rolu aşağıdakı istiqamətlərdə özünü göstərir:

- Nəqliyyat və ticarət: Yaxşı inkişaf etmiş nəqliyyat infrastrukturu mal və xidmətlərin daha sürətli və ucuz daşınmasını təmin edir, bu da ticarət dövriyyəsini artırır.
- İnvestisiya cəlbi: Keyfiyyətli infrastruktur investisiya mühitini yaxşılaşdırır, yerli və xarici sərmayədarları cəlb edir.
- İstehsalın təkmilləşdirilməsi: Enerji, su və digər əsas resursların fasiləsiz təmin edilməsi istehsal proseslərinin davamlılığını və məhsuldarlığını artırır.
- Sosial inkişaf: İnfrastrukturun inkişafı əhalinin həyat keyfiyyətinin yaxşılaşmasına, təhsil və səhiyyə xidmətlərinə çıxışın artmasına səbəb olur.
- Regionların inteqrasiyası**:** İnfrastruktur regionları birləşdirərək iqtisadi fəaliyyətlərin paylanmasını və balanslaşdırılmış inkişafı təmin edir (Krugman, 1991; Acemoglu və Robinson, 2012).

Xüsusilə strateji mövqeyə malik bölgələrdə, məsələn, Naxçıvanda, infrastrukturun rolu ikiqat əhəmiyyət daşıyır. Bu layihələr həm iqtisadiyyatı canlandırmaq, həm də regionun coğrafi izolyasiyasını azaltmaq baxımından mühüm töhfələr verir.

İnkişaf etmiş infrastruktur ticarət əlaqələrinin genişlənməsi və dərinləşməsi üçün əsas şərtlərdən biridir. Regiondaxili və regionlararası ticarət əlaqələrinin gücləndirilməsi iqtisadiyyatın inteqrasiyasını artıraraq resurslardan daha səmərəli istifadəni təmin edir. İnfrastruktur bu proseslərə müxtəlif yollarla təsir edir:

Yol, dəmir yolu, hava və su nəqliyyatı sistemləri ticarət əlaqələrinin səmərəliliyini birbaşa müəyyən edir.Yaxşı inkişaf etmiş yol şəbəkəsi region daxilində məhsulların sürətli və ucuz daşınmasını təmin edir. Bu, xüsusilə kənd təsərrüfatı məhsulları kimi tez xarab olan malların bazarlara vaxtında çatdırılmasında mühüm rol oynayır. Magistral yollar və dəmir yolları, regionlararası ticarətin həcmini artıraraq iqtisadi əlaqələrin genişlənməsinə imkan verir. Elektrik enerjisi və digər enerji mənbələrinin fasiləsiz təmin edilməsi istehsal müəssisələrinin fəaliyyəti və ticarət əməliyyatlarının effektivliyi üçün vacibdir. Regionlar arasında enerji resurslarının paylanması da bu əlaqələrin optimallaşdırılmasını təmin edir.

Müasir dövrdə ticarət əlaqələrinin sürətli qurulması üçün informasiya və kommunikasiya texnologiyalarının inkişafı zəruridir. Elektron ticarət platformaları və rəqəmsal texnologiyalar vasitəsilə həm regiondaxili, həm də regionlararası ticarət sürətlə inkişaf edir.

İnfrastruktur ticarət proseslərinin logistika və əməliyyat xərclərini azaldır. Daşınma və saxlanma xərclərinin azalması məhsulun son qiymətinə müsbət təsir göstərərək həm istehsalçılar, həm də istehlakçılar üçün fayda yaradır, regionlar

arasında iqtisadi əməkdaşlığın möhkəmlənməsinə töhfə verir. Sərhəd ticarəti, məhsul mübadiləsi və birgə iqtisadi layihələr bu əməkdaşlıqdan faydalanır (Rodrik, 2004).

Naxçıvan Muxtar Respublikası kimi strateji mövqedə yerləşən bir region üçün infrastrukturun gücləndirilməsi həm daxili bazarın inkişafına, həm də qonşu regionlarla ticarət əlaqələrinin dərinləşməsinə şərait yaradır. Bu, eyni zamanda bölgənin iqtisadi izolyasiyasını aradan qaldıraraq daha geniş iqtisadi sistemlərə inteqrasiyanı təmin edir.

Naxçıvanın coğrafi və strateji mövqeyi

Naxçıvan Muxtar Respublikası Azərbaycanın qərb hissəsində, ölkənin qalan ərazisindən ayrılmış, lakin onun ərazi bütövlüyünə daxil olan bir bölgədir. Region, təbii sərvətləri, zəngin tarixi və strateji coğrafi mövqeyi ilə mühüm əhəmiyyət kəsb edir. Naxçıvan, Azərbaycanın digər bölgələrindən fərqli olaraq, dənizə çıxışı olmayan bir ərazidir. Bu, regionun nəqliyyat və logistika baxımından özünüifadəetmə və əlaqə qurma imkanlarını məhdudlaşdırır. Lakin regionun mövqeyi, həmçinin Qafqaz, Orta Asiya və Yaxın Şərqə olan strateji yaxınlığı sayəsində ticarət və iqtisadi əməkdaşlıq üçün mühüm bir keçid nöqtəsi təşkil edir.

Naxçıvanın coğrafi mövqeyi, həmçinin onun təbii sərhədlərini və təbii şəraitini də müəyyən edir. Bölgə dağlıq və yarımsəhra ərazilərdən ibarət olduğu üçün bu, onun kənd təsərrüfatı və infrastruktur layihələri baxımından həm çətinliklər, həm də potensial imkanlar yaradır. Bu cəhətlər, xüsusilə nəqliyyat və su təminatı sahələrində əhəmiyyətli infrastruktur layihələrinin həyata keçirilməsini zəruri edir.

Blokada şəraitində Naxçıvanın iqtisadi inkişafını təmin etmək üçün infrastruktur layihələri strateji əhəmiyyət daşıyır. Xarici əlaqələrin məhdud olduğu mühitdə bu layihələr yalnız iqtisadi stabilliyə deyil, həm də sosial rifaha xidmət edir. İnfrastruktur, Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafı, sosial rifahı və regionla olan əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

İnfrastrukturun inkişafı, istehsal və xidmət sahələrində fəaliyyətin səmərəliliyini artırır. Naxçıvanın mövcud resurslarından daha yaxşı istifadə edilməsinə şərait yaradır. Xüsusilə nəqliyyat, enerji və su təchizatı sahələrindəki müasir infrastruktur layihələri iqtisadiyyatın canlanmasına və yerli məhsulların daha sərfəli şəkildə istehsalına və bazarlara çatdırılmasına imkan verir. Bu, həmçinin iş yerlərinin yaradılmasına, ümumi iqtisadi fəallığın artmasına səbəb olur.

Enerji müstəqilliyi prioritet məsələlərdən biridir. Günəş, külək və su elektrik stansiyalarının qurulması enerji təminatını artırır və asılılığı azaldır. Suvarma texnologiyalarının tətbiqi və su anbarlarının qurulması kənd təsərrüfatı məhsuldarlığını artırır, iqtisadi özünütəminetmə qabiliyyətini gücləndirir.

Nəqliyyat və rabitə şəbəkələrinin inkişafı regionun təcridini azaltmaqla yanaşı, daxili və xarici əlaqələrin davamlılığını təmin edir. Xüsusilə Naxçıvan Beynəlxalq Hava Limanı və yerli nəqliyyat sistemlərinin gücləndirilməsi məhsulların və insanların hərəkətini asanlaşdırır.

Kənd təsərrüfatı məhsulları üçün anbarlar, soyuducu sistemlər və logistik mərkəzlər tədarük zəncirini möhkəmləndirir və məhsul itkilərini azaldır. Rəqəmsal

texnologiyalar isə yerli istehsalçıların məhsullarını daha geniş bazara çıxarmalarına şərait yaradır.

Eyni zamanda məktəblərin, xəstəxanaların və digər sosial obyektlərin inkişafı insan kapitalını gücləndirir və sosial rifahı qoruyur. Blokada şəraitində infrastruktur layihələri yalnız iqtisadi deyil, həm də sosial sabitlik üçün əhəmiyyətlidir, uzunmüddətli perspektivdə isə regionun müstəqil iqtisadi sistemini qurmağa imkan verir (Rodrik, 2004; Sachs və Warner, 1995).

İqtisadi müstəqillik, bir regionun öz ehtiyaclarını xarici təsirlərdən asılı olmadan ödəyə bilməsi və potensialını inkişaf etdirməsi deməkdir. Bu prosesdə infrastrukturun inkişafı əsas rol oynayır. Yaxşı təşkil edilmiş infrastruktur resursların effektiv istifadəsini təmin edir, istehsal və xidmət sahələrini genişləndirir və daxili bazarı gücləndirir.

Müasir suvarma sistemləri və kənd təsərrüfatı infrastrukturu ərzaq məhsullarının daxili istehsalını artırır, ərzaq təhlükəsizliyini təmin edir. Günəş, külək və hidroenerji stansiyaları enerji tələbatını daxili mənbələr hesabına ödəməyə imkan verir, bu da enerji müstəqilliyini gücləndirir. Fasiləsiz enerji təminatı sənaye və xidmət sektorlarının inkişafını dəstəkləyir.

Logistika və ticarət şəbəkələrinin inkişafı yerli istehsalın həm daxili, həm də xarici bazarlara çatdırılmasını asanlaşdırır. İnternet və telekommunikasiya şəbəkələri rəqəmsal iqtisadiyyatı gücləndirir, elektron ticarətə və iqtisadi fəaliyyətlərin səmərəli idarə olunmasına şərait yaradır.

Təhsil və sağlamlıq infrastrukturunun inkişafı ixtisaslı işçi qüvvəsinin və sağlam insan resurslarının formalaşmasına imkan verir. Regionun digər ərazilərlə və beynəlxalq bazarlarla nəqliyyat əlaqələri ticarət və əməkdaşlıq imkanlarını artırır (Həsənov, R. 2018).

Xüsusilə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikası üçün infrastruktur layihələri iqtisadi müstəqilliyin və dayanıqlığın təmin edilməsində həlledici əhəmiyyət daşıyır. Bu layihələr regiona öz daxili ehtiyaclarını ödəməklə yanaşı, uzunmüddətli iqtisadi sabitlik və inkişaf imkanı yaradır.

Əsas infrastruktur layihələri Naxçıvanın iqtisadi və sosial inkişafında mühüm rol oynayır. Blokada şəraitində olan bir region kimi, Naxçıvanda bu layihələr strateji əhəmiyyət daşıyır və müxtəlif sahələri əhatə edir.

Nəqliyyat sahəsində müasir yolların, körpülərin və dəmir yolu xətlərinin inşası regionun daxili və xarici əlaqələrini gücləndirir. Enerji sektorunda günəş, külək və hidroenerji stansiyaları enerji müstəqilliyini təmin edir. Elektrik və qaz şəbəkələrinin təkmilləşdirilməsi isə həm əhalinin, həm də sənayenin dayanıqlı enerji ilə təmin olunmasına şərait yaradır. Su təchizatı sahəsində müasir su kəmərləri və təmizləyici qurğular içməli su təminatını yaxşılaşdırır, müasir suvarma texnologiyaları isə kənd təsərrüfatının məhsuldarlığını artırır. Rabitə və telekommunikasiya sahəsində fiber-optik internet və mobil rabitə şəbəkələrinin genişləndirilməsi regionun rəqəmsal inkişafını sürətləndirir və dövlət xidmətlərinin əlçatanlığını artırır. Sosial infrastruktura gəlincə, yeni məktəb, universitet binaları, xəstəxanalar və tibbi mərkəzlər təhsil və səhiyyə xidmətlərinin keyfiyyətini yüksəldir.

Turizm potensialını artırmaq üçün tarixi abidələrin bərpası, istirahət mərkəzlərinin tikintisi və turistlər üçün yolların genişləndirilməsi də mühüm addımlardandır. Logistika və ticarət mərkəzlərinin yaradılması regionun məhsullarının daxili və xarici bazarlara çıxarılmasını asanlaşdırır və beynəlxalq ticarəti gücləndirir. Bu layihələr Naxçıvanın iqtisadi dayanıqlığını və sosial rifahını təmin etməklə yanaşı, regionun beynəlxalq inteqrasiyasına və uzunmüddətli inkişafına şərait yaradır (Abbasov, Ə. 2020).

İnfrastrukturun sosial-iqtisadi təsirləri

İnfrastruktur layihələri əhalinin həyat səviyyəsini yüksəltmək, iqtisadi fəallığı artırmaq və yeni iş yerləri yaratmaq üçün mühüm vasitədir. Səhiyyə obyektlərinin tikintisi, təhsil mərkəzlərinin yaradılması və yaşayış şəraitinin yaxşılaşdırılması əhalinin rifahını birbaşa artırır. Müasir yollar, suvarma sistemləri, enerji və rabitə şəbəkələrinin qurulması isə regionlarda istehsal və ticarət imkanlarını genişləndirir.

Bu layihələr müxtəlif sahələrdə məşğulluq imkanları yaradır. Sənaye parkları, logistika mərkəzləri və turizm obyektlərinin inkişafı yeni iş yerlərinin açılmasına və iqtisadi fəallığın yüksəlməsinə səbəb olur. Təhsil və peşə təlim mərkəzləri isə ixtisaslı işçi qüvvəsinin formalaşmasını dəstəkləyir (Hüseynova, S. 2019).

Xüsusilə Naxçıvan kimi blokada şəraitində olan bölgələrdə infrastrukturun inkişafı iqtisadi təcridi azaldaraq daxili bazarı gücləndirir və əhalinin sosial rifahına töhfə verir. Bu layihələr, həmçinin regionun davamlı inkişafını təmin edir və iqtisadi potensialını reallaşdırmağa imkan yaradır.

Çətinliklər və perspektivlər

İnfrastruktur layihələrinin həyata keçirilməsi regionların inkişafı üçün vacibdir, lakin bu proses ciddi maliyyə, texniki və logistika problemləri ilə qarşılaşır. Xüsusilə blokada şəraitində olan Naxçıvan Muxtar Respublikası üçün bu çətinliklər daha qabarıqdır.

Layihələrin reallaşdırılması böyük maliyyə vəsaiti tələb edir, lakin dövlət büdcəsinin məhdudluğu, xarici investisiyaların və sərfəli kreditlərin çatışmazlığı işləri çətinləşdirir. Naxçıvanın coğrafi şəraiti, dağlıq relyefi və blokada səbəbindən materialların və texnologiyaların daşınması xərcləri artırır, bu da layihələrin icrasını ləngidir.

Regionda ixtisaslı kadr çatışmazlığı, köhnə texnologiyalar və zəif idarəetmə resursların səmərəsiz istifadəsinə səbəb olur. Problemlərin həlli üçün strateji planlaşdırma və innovativ yanaşmalara ehtiyac var. Bu, beynəlxalq maliyyə resurslarının cəlb olunması, yerli istehsalın artırılması, mütəxəssislərin yetişdirilməsi və dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi ilə mümkündür. Blokadanın aradan qaldırılması üçün siyasi və iqtisadi əməkdaşlıqlar da prioritetdir (Quliyev, H. 2018).

Zəngəzur dəhlizinin açılması Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı, ticarət əlaqələri və regional inteqrasiyası üçün çox mühüm əhəmiyyət kəsb edəcəkdir. Bu dəhliz Naxçıvanın coğrafi təcridini azaldaraq bölgənin iqtisadiyyatını canlandıracaq və beynəlxalq ticarət axınlarına inteqrasiyasını təmin edəcək. Zəngəzur dəhlizinin Naxçıvan üçün potensial əhəmiyyəti:

- Zəngəzur dəhlizi, Naxçıvanı Azərbaycanın digər bölgələri ilə birbaşa dəmir yolu və avtomobil yolları ilə birləşdirəcək. Bu, regionun təcridini aradan qaldıracaq və ticarət

əlaqələrini artıracaq. Nəqliyyatın sürətlənməsi və xərcin azalması məhsulun daha sərfəli qiymətə bazarlara çatdırılmasına imkan yaradacaq.

- Zəngəzur dəhlizi, Naxçıvanın iqtisadiyyatını yalnız daxili bazarlarla deyil, həm də beynəlxalq bazarlarla əlaqələndirəcək. Region, Türkiyə, Rusiya, İran və Mərkəzi Asiya ölkələri ilə tranzit ticarətinin həyata keçirilməsində mühüm rol oynayacaq. Bu, Naxçıvanın xarici ticarət dövriyyəsini artıracaq və ixracatın genişlənməsinə şərait yaradacaq.
- Zəngəzur dəhlizi vasitəsilə regionun enerji şəbəkələrinə daha yaxşı inteqrasiya olunması mümkündür. Bu, Naxçıvanın enerji asılılığını azaldacaq və enerji təchizatını gücləndirəcək. Türkiyə ilə enerji mübadiləsi və digər regional tərəfdaşlarla əməkdaşlıq imkanları artacaq.
- Dəhlizin açılması Nəticəsində Naxçıvana xarici və yerli investisiyaların cəlb edilməsi asanlaşacaq. Regionda sənaye parkları, ticarət mərkəzləri və logistika infrastrukturunun inkişafı üçün əlverişli şərait yaranacaq.
- Zəngəzur dəhlizi, həmçinin Azərbaycan, Türkiyə və digər qonşu ölkələrlə strateji əlaqələrin gücləndirilməsinə kömək edəcək. Bu, Naxçıvanın regiondakı siyasi və iqtisadi mövqeyini möhkəmləndirəcək və beynəlxalq arenada daha geniş əməkdaşlıq imkanları yaradacaq.
- Ticarət və nəqliyyat əlaqələrinin inkişafı yerli iqtisadiyyatı canlandıracaq, yeni iş yerlərinin yaradılmasına şərait yaradacaq və əhalinin rifahını artıracaq. Ayrıca sosial xidmətlər və infrastruktur inkişaf edəcək.

Nəticə

Gələcəkdə Naxçıvanın regional və beynəlxalq inteqrasiyasını təmin edəcək layihələrə dair təhlillər göstərir ki, bu layihələr regionun iqtisadiyyatının dayanıqlı inkişafını təmin edəcək. Zəngəzur dəhlizi, enerji şəbəkələrinin inteqrasiyası, beynəlxalq ticarət mərkəzləri və turizm sahəsində həyata keçirilən layihələr Naxçıvanın beynəlxalq bazarlara çıxışını genişləndirəcək və bölgə ilə xarici ölkələr arasındakı əlaqələri gücləndirəcək. Bu layihələrin uğurla həyata keçirilməsi Naxçıvanın gələcəkdə iqtisadiyyatını daha da gücləndirəcək. Bu məqsədlə təhlil edilən layihələrə konkret investisiyaların artırılması və layihələrin icrası üçün zəruri maliyyə resurslarının təmin edilməsi vacibdir.

- Zəngəzur dəhlizi Naxçıvanın beynəlxalq tranzit rolunu artıracaq, həmçinin bu layihə Naxçıvanın ixracatını artırmağa və iqtisadiyyatını gücləndirməyə imkan verəcək.
- Naxçıvan-Türkiyə dəmir yolu ilə Naxçıvanın Avropa bazarlarına çıxışı asanlaşacaq, eyni zamanda yük daşımalarında artım gözlənilir.
- Beynəlxalq ticarət və logistika mərkəzləri regionun ticarət həcmini artıracaq və Naxçıvanın iqtisadi mərkəzə çevrilməsinə imkan yaradacaq.
- Enerji şəbəkələrinin inkişafı ilə enerji müstəqilliyi təmin ediləcək və bərpa olunan enerji resursları daha effektiv şəkildə istifadə olunacaq.
- Turizm infrastrukturu genişləndikcə Naxçıvanın beynəlxalq turizm bazarındakı mövqeyi möhkəmlənəcək, bu da iqtisadi artıma səbəb olacaq.
- Kənd təsərrüfatı və ixracın inkişafı sahəsindəki layihələr Naxçıvanın ixrac potensialını artıracaq və yerli iqtisadiyyata müsbət təsir göstərəcək.

Bu layihələrin uğurla həyata keçirilməsi Naxçıvanın gələcəkdə iqtisadiyyatını daha da gücləndirəcək və beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirəcək. Bu məqsədlə, təhlil edilən layihələrə konkret investisiyaların artırılması və layihələrin icrası üçün zəruri maliyyə resurslarının təmin edilməsi vacibdir.

Təkliflər

- Zəngəzur dəhlizinin açılması və regional nəqliyyat əlaqələrinin genişləndirilməsi.
- Türkiyə və İranla dəmir yolu əlaqələrinin inkişafı.
- Müasir logistika mərkəzlərinin və gömrük infrastrukturunun yaradılması.
- Günəş və külək enerjisi stansiyalarının qurulması.
- İran və Türkiyə ilə enerji şəbəkələrinin inteqrasiyası.
- Araz çayı üzərində hidroenerji layihələrinin həyata keçirilməsi.
- Sərhəd ticarət zonalarının yaradılması.
- Kənd təsərrüfatı məhsullarının emalı və saxlanması üçün zavod və anbarların tikintisi.
- Xarici investisiyalar üçün əlverişli mühitin təmin edilməsi.
- Tarixi abidələrin, təbiət parklarının və mineral bulaqların tanıdılması.
- Beynəlxalq standartlara uyğun otellərin və turizm obyektlərinin qurulması.
- Mədəniyyət və sağlamlıq turizminin təşviqi.
- Müasir fiber-optik şəbəkələrin qurulması və rəqəmsal infrastrukturun inkişafı.
- Texnoloji startaplar üçün inkubasiya mərkəzlərinin yaradılması.
- Texniki və peşə təhsili mərkəzlərinin inkişaf etdirilməsi.
- Yerli işçi qüvvəsinin artırılması üçün ixtisasartırma kurslarının təşkil edilməsi.
- Azərbaycan, Türkiyə, İran və digər qonşu ölkələrlə əməkdaşlıq proqramlarının genişləndirilməsi.
- Diplomatik səylərin artırılması ilə blokadanın təsirlərinin azaldılması.

Bu təkliflər Naxçıvanın iqtisadi potensialını artırmaqla yanaşı, onun regional və beynəlxalq inteqrasiyasına mühüm töhfə verə bilər.

ƏDƏBİYYAT

1. Həsənov, R. (2019). İnfrastrukturun iqtisadi müstəqillikdə rolu: Azərbaycan nümunəsi. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti.
2. Abbasov, Ə. (2020). Enerji müstəqilliyi və iqtisadi inkişaf: Azərbaycan və Naxçıvanın təcrübəsi. Bakı: İqtisadi Tədqiqatlar İnstitutu.
3. Əliyev, F. (2018). İnfrastrukturun inkişafı və regional iqtisadi inkişaf. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti.
4. Quliyev, H. (2019). İnfrastruktur layihələrinin sosial və iqtisadi təsirləri. Bakı: İqtisadi Tədqiqatlar İnstitutu.
5. Hüseynova, S. (2020). İnfrastruktur və məşğulluq: Azərbaycan və Naxçıvanın təcrübəsi. Bakı: Azərbaycan İqtisadçıları Birliyi.
6. Əliyev, F. (2018). İnfrastruktur layihələrinin dayanıqlı iqtisadi inkişafdakı rolu. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti.

7. Krugman, P. (1991). Geography and Trade. MIT Press.
8. Acemoglu, D., & Robinson, J.A. (2012). Why Nations Fail: The Origins of Power, Prosperity, and Poverty. Crown Business.
9. Rodrik, D. (2004). Industrial Policy for the Twenty-First Century. The Journal of Economic Perspectives, 18(4), 97-114.
10. Sachs, J.D., & Warner, A.M. (1995). Natural Resource Abundance and Economic Growth. NBER Working Paper, No. 5398.

ABSTRACT

Mahsati Asgarova, Nuriyya Ibrahimova

IMPACT OF INFRASTRUCTURE PROJECTS ON THE ECONOMY OF NAKHCHIVAN

Infrastructure projects are one of the main driving forces of economic development, and the implementation of these projects not only increases the economic potential of the regions, but also improves social well-being. In particular, the development of infrastructure is of particular importance for the Nakhchivan Autonomous Republic, which has a strategic geographical location and rich historical and cultural heritage. The most priority areas for the development of the region are the improvement of transport, energy and water management infrastructure. Providing a well-developed transport infrastructure will strengthen Nakhchivan's relations with other regions and foreign markets, increasing trade and economic cooperation. Strengthening energy infrastructure will ensure the energy independence of the region and support the development of industry and service sectors. The introduction of modern irrigation systems in the field of water management will increase agricultural production and ensure food security. The current state and development prospects of Nakhchivan's infrastructure should be carefully analyzed, and the region's economy will be further strengthened with projects to be implemented in the future. These initiatives will strengthen Nakhchivan's international relations, as well as improve social welfare and improve the quality of life of its population.

The article will analyze various aspects of the role of infrastructure projects in the economic development of Nakhchivan. First of all, the impact of infrastructure on economic development, especially on the acceleration of regional development, will be examined. The development of transport infrastructure and the impact of projects in this area on domestic and international relations will come to the fore. The issues of improving energy infrastructure and strengthening the energy independence of the region will also play an important role.

The role of infrastructure projects in the field of water management and agriculture in terms of productivity and food security will be considered. The impact of infrastructure projects on long-term economic stability and social welfare will also be analyzed.

Keywords: *economic development, infrastructure projects, economic independence, social welfare*

MƏFTUN İSMAYILOV
Naxçıvan Dövlət Universiteti
meftunismayilov@ndu.edu.az

AYTƏN HƏSƏNOVA
Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kolleci
hesenovaayten903@gmail.com

SÜNİ İNTELLEKTİN TƏDRİS SİSTEMLƏRİNDƏ İNNOVATİV TƏTBİQLƏRİ

XÜLASƏ

Məqalədə süni intellektin (Sİ) tədris sistemlərindəki innovativ tətbiqləri ətraflı şəkildə araşdırılır. Süni intellektin tətbiqi təhsil mühitində köklü dəyişikliklərə səbəb olur, xüsusilə adaptiv öyrənmə sistemləri vasitəsilə. Bu sistemlər, tələbələrin fərdi xüsusiyyətlərini, əvvəlki bilik səviyyələrini, öyrənmə sürətlərini və öyrənmə üslublarını təhlil edərək, onların öyrənmə prosesini fərdiləşdirir. Hər bir tələbəyə xüsusi hazırlanmış öyrənmə yolları təqdim edilir, bu da tələbələrin effektiv öyrənməsini artırır və ümumi müvəffəqiyyəti yaxşılaşdırır. Avtomatlaşdırılmış qiymətləndirmə sistemləri də təhsil sahəsində mühüm rol oynayır. Bu sistemlər, tələbələrin performansını obyektiv və dəqiq şəkildə qiymətləndirərək, qiymətləndirmə prosesini asanlaşdırır və insan amilinin təsirini azaltmaqla yanaşı, qiymətləndirmə səhvlərini minimuma endirir. İntellektual müəllim köməkçiləri isə öyrənmə prosesini daha interaktiv və tələbə mərkəzli edir. Bu yanaşma tələbələrin motivasiyasını artırır və onların öyrənmə Nəticələrini müsbət istiqamətdə dəyişdirir. Məqalə bu texnologiyaların təhsil sistemlərini necə modernləşdirdiyini, öyrənmə Nəticələrini necə yaxşılaşdırdığını və təhsil prosesində necə inqilabi dəyişikliklərə səbəb olduğunu geniş şəkildə təsvir edir. Nəticə olaraq, süni intellektin təhsildə tətbiqi geniş potensiala malikdir, yeni metodların inkişafına və təhsil sahəsində yeni imkanların yaradılmasına böyük təsir göstərir.

Açar sözlər: *süni intellekt, innovativ tətbiqlər, avtomatlaşdırılmış qiymətləndirmə, adaptiv öyrənmə, intellektual müəllim köməkçiləri*

Giriş

Süni intellekt (Sİ) təhsil sahəsində sürətli və köklü dəyişikliklərə səbəb olur. Bu dəyişikliklər təhsil sistemlərinin strukturu və funksionallığına təsir edir və bu sahədəki inkişaflar həm tələbələr, həm də müəllimlər üçün yeni imkanlar yaradır. Müasir tədris yanaşmaları, texnologiyanın sürətli inkişafı ilə birləşərək daha fərdiləşdirilmiş və səmərəli öyrənmə mühiti təqdim edir. Tədris sistemlərində süni intellektin tətbiqi, təhsil prosesini modernləşdirərək öyrənmə və tədris metodlarını optimallaşdırır.

Təhsil sahəsində süni intellektin tətbiqi bir çox üstünlük təqdim edir. Bu yanaşma, tədris proseslərini daha fərdiləşdirilmiş, adaptiv və interaktiv hala gətirir. Bu məqalədə süni intellektin tədris sistemlərindəki innovativ tətbiqləri ətraflı şəkildə araşdırılır. Məqalə aşağıdakı əsas sahələri əhatə edir:

1. Adaptiv öyrənmə sistemləri;

2. İntellektual müəllim köməkçiləri;

3. Avtomatlaşdırılmış qiymətləndirmə sistemləri.

Bu bölmələrdə hər bir tətbiqin necə işlədiyi, təhsil sistemlərinə necə təsir etdiyi və mövcud tədqiqatlar əsasında əldə edilən Nəticələr müzakirə edilir.

1. Adaptiv öyrənmə sistemləri

Adaptiv öyrənmə sistemləri, tədris materiallarını tələbələrin fərdi ehtiyaclarına uyğun olaraq, tənzimləyən və təqdim edən sistemlərdir. Bu yanaşma, tələbələrin bilik səviyyəsini, öyrənmə sürətini və öyrənmə üslubunu nəzərə alaraq dərs materiallarını fərdiləşdirir. Dziuban və digər tədqiqatçılar (2018) bu sistemlərin təhsil sistemlərində necə tətbiq olunduğunu və tələbələrə necə faydalı olduğunu araşdırmışlar [Dziuban və b., 2018, s. 55]. Adaptiv öyrənmə sistemləri, tələbələrin fərdi ehtiyaclarını nəzərə alaraq tədris mühitini daha uyğun hala gətirir, bu da öyrənmə Nəticələrinin yaxşılaşmasına gətirib çıxarır. Aşağıda, adaptiv öyrənmə sistemlərinə aid konkret platformalar təqdim olunur:

"DreamBox Learning". DreamBox Learning, K-8 səviyyəli tələbələr üçün nəzərdə tutulmuş bir adaptiv öyrənmə platformasıdır. Bu sistem, riyaziyyat dərslərində tələbələrin bilik səviyyəsini analiz edərək fərdi öyrənmə yolları təqdim edir. DreamBox, tələbələrin düzgün cavablarını və səhvlərini izləyərək dərs məzmununu real vaxtda tənzimləyir. Misal üçün, əgər bir tələbə müəyyən bir riyazi problemi həll edərkən çətinlik çəkirsə, sistem avtomatik olaraq həmin mövzuda əlavə məşqlər təqdim edir və tələbənin anlayışını gücləndirir.

"Smart Sparrow". Tələbələrin fərdi öyrənmə ehtiyaclarına uyğun tədris materiallarını fərdiləşdirən bir adaptiv öyrənmə platformasıdır. Bu sistem, tələbələrin performansını izləyir və dərs materiallarını tələbənin səviyyəsinə uyğun tənzimləyir. Məsələn, əgər bir tələbə fizika dərsində spesifik bir mövzuda çətinlik çəkirsə, Smart Sparrow həmin mövzuda daha çox praktika və əlavə izahatlar təqdim edir. Smart Sparrow tədris materiallarını tələbənin fərdi ehtiyaclarına uyğun olaraq, adaptasiya edir, bu da tələbənin daha effektiv öyrənməsinə kömək edir.

"Duolingo". Dil öyrənmə platforması olaraq tanınır və adaptiv öyrənmə sistemlərini dil öyrənmə prosesinə tətbiq edir. Platforma, tələbənin dil öyrənmə səviyyəsini qiymətləndirir və dərs materiallarını həmin səviyyəyə uyğun tənzimləyir. Məsələn, əgər bir istifadəçi müəyyən bir dil bacarığında çətinlik çəkirsə, Duolingo həmin sahədə daha çox məşq və təkrarlama təqdim edir. Bu yanaşma istifadəçinin fərdi ehtiyaclarına uyğun tədris materiallarını təmin edir və dil öyrənmə prosesini daha səmərəli edir.

"ALEKS" (Assessment and Learning in Knowledge Spaces). ALEKS tələbələrin bilik səviyyələrini qiymətləndirmək və onların fərdi öyrənmə ehtiyaclarına uyğun dərs materialları təqdim etmək üçün istifadə olunan bir platformadır. ALEKS tələbələrin biliyini ölçərək onların güclü və zəif tərəflərini müəyyən edir və buna əsaslanaraq fərdiləşdirilmiş öyrənmə materialları təqdim edir. Məsələn, əgər bir tələbə riyaziyyatın müəyyən bir sahəsində zəifdirsə, ALEKS həmin mövzuda daha çox məşq və resurs təqdim edir. Bu yanaşma tələbələrin fərdi öyrənmə ehtiyaclarını qarşılamağa kömək edir.

2. İntellektual müəllim köməkçiləri

İntellektual müəllim köməkçiləri, təhsil prosesində tələbələrə real vaxtda dəstək verən sistemlərdir. Bu köməkçilər, tələbələrin suallarını cavablandırır, əlavə resurslar təqdim edir və öyrənmə prosesini daha interaktiv edir. Woolf (2010) intellektual müəllim köməkçilərinin öyrənmə mühitinə necə inteqrasiya edildiyini və tələbələrə necə kömək etdiyini ətraflı şəkildə təsvir edir (Woolf, 2010, pp.78). İntellektual köməkçilər, müəllimlərin iş yükünü azaldır, eyni zamanda tələbələrə daha fərdiləşdirilmiş və dəqiq dəstək təqdim edir. Bu yanaşma, tədris prosesinin daha səmərəli və effektiv olmasına kömək edir. Aşağıda intellektual müəllim köməkçiləri üçün bir neçə konkret misal təqdim olunur:

"IBM Watson Education". Süni intellekt texnologiyasından istifadə edərək təhsil mühitində tələbələrə fərdiləşdirilmiş dəstək təqdim edir. Bu sistem, tələbələrin öyrənmə stilini və bilik səviyyəsini analiz edərək, onlara uyğun dərs materialları və öyrənmə yolları təqdim edir. Məsələn, Watson Education, tələbələrin zəif olduğu mövzulara dair əlavə mənbələr təqdim edir və müəllimlərə tələbələrin performansı barədə dərin analizlər təqdim edir. Bu yanaşma, tələbələrin öyrənmə ehtiyaclarına uyğun dəstək göstərərək, öyrənmə prosesini daha effektiv hala gətirir.

"Carnegie Learning's MATHia". Riyaziyyat öyrənmə üçün xüsusi hazırlanmış intellektual bir köməkçidir. Bu sistem, tələbələrin riyaziyyat problemlərini həll etmə bacarıqlarını izləyir və onlara real vaxtda geri bildirim təqdim edir. Məsələn, əgər bir tələbə müəyyən bir riyaziyyat konsepsiyası ilə bağlı çətinlik yaşayıbsa, MATHia həmin mövzuda əlavə izahatlar və müxtəlif tapşırıqlar təqdim edir. Bu yanaşma tələbələrin riyaziyyat biliklərini möhkəmləndirərək, onların daha yaxşı başa düşmələrinə kömək edir.

"Knewton's Alta". Alta, müstəqil öyrənmə üçün nəzərdə tutulmuş bir intellektual köməkçidir. Bu sistem, tələbələrin performansını real vaxtda izləyir və öyrənmə materiallarını onların bilik səviyyəsinə uyğun olaraq, fərdiləşdirir. Məsələn, əgər bir tələbə müəyyən bir mövzuda çətinlik çəkirsə, Alta həmin mövzuda əlavə resurslar və məşqlər təqdim edir. Sistem, eyni zamanda müəllimlərə tələbələrin performansını izləmək və onların öyrənmə ehtiyaclarına uyğun tədris strategiyaları hazırlamaq üçün məlumat təqdim edir.

"Ada". Müasir müstəqil öyrənmə platformasıdır və tələbələrə fərdiləşdirilmiş öyrənmə dəstəyi təqdim edir. Bu intellektual köməkçi, tələbələrin bilik səviyyəsini və öyrənmə üslubunu analiz edir, onlara uyğun tədris materialları təqdim edir və sualları cavablandırır. Məsələn, Ada, tələbələrin müəyyən bir mövzuda çətinlik yaşadığını müəyyən edərək həmin mövzuda daha çox məşq və əlavə izahatlar təqdim edir. Bu yanaşma tələbələrin öyrənmə təcrübələrini daha da təkmilləşdirir.

3. Avtomatlaşdırılmış qiymətləndirmə sistemləri

Avtomatlaşdırılmış qiymətləndirmə sistemləri, tələbələrin işlərini avtomatik olaraq qiymətləndirir və Nəticələri dərhal təqdim edir. Bu sistemlər qiymətləndirmə prosesini daha obyektiv edir və müəllimlərin iş yükünü azaldır (Heffernan & Heffernan, 2014, s.102). Avtomatlaşdırılmış qiymətləndirmə sistemlərinin tətbiqi, qiymətləndirmə prosesindəki qərəzləri azaldır və Nəticələrin daha dəqiq və obyektiv olmasını təmin edir.

Demir və Arslan (2021) bu sistemlərin tətbiqinin öyrənmə prosesinə təsirini və müəllimlərin iş yükünü necə azaltdığını müzakirə edirlər (Demir & Arslan, 2021, s.66). Bu yanaşma, həmçinin tələbələrə daha sürətli və dəqiq geri bildirim təqdim edir, bu da öyrənmə prosesini daha da təkmilləşdirir. Aşağıda avtomatlaşdırılmış qiymətləndirmə sistemlərinə aid bir neçə konkret misal təqdim olunur:

"Turnitin". Yazılı işlərin plagiarizm dərəcəsini qiymətləndirmək üçün geniş istifadə edilən bir sistemdir. Bu platforma, tələbələrin təqdim etdiyi yazılı işləri internetdə mövcud mənbələrlə müqayisə edərək oxşar materialları aşkar edir. Turnitin, həmçinin müəllimlərə tələbələrin yazılı işlərinin keyfiyyətini qiymətləndirmək üçün geniş analitik alətlər təqdim edir. Sistem, həmçinin tələbələrin özəl işlərinə dair ətraflı geribildirim təqdim edir və yazıların inteqrasiya olunmuş qiymətləndirmə meyarları əsasında qiymətləndirilməsinə imkan tanıyır.

"Grammarly". Yazılı materialların dil və qrammatika səhvlərini avtomatik olaraq aşkarlamaq və düzəltmək üçün istifadə olunan bir intellektual köməkçidir. Bu sistem, tələbələrin yazılarını yoxlayaraq qrammatik səhvləri, üslub səhvlərini və yazının aydınlığını qiymətləndirir. Grammarly müəllimlərə tələbələrin yazılarını qiymətləndirmək üçün əlavə alətlər təqdim edir, bu da qiymətləndirmə prosesini daha sürətli və dəqiq edir.

"ETS's e-rater". Yazılı ifadə bacarıqlarını qiymətləndirmək üçün istifadə edilən avtomatlaşdırılmış bir qiymətləndirmə sistemidir. Bu sistem, tələbələrin yazılı işlərini qrammatika, üslub, struktur və məzmun baxımından qiymətləndirir. e-rater, tələbələrin yazılarını hərtərəfli analiz edərək, onların güclü və zəif tərəflərini müəyyən edir və müvafiq geribildirim təqdim edir. Bu sistem, GRE (Graduate Record Examinations) və TOEFL (Test of English as a Foreign Language) kimi beynəlxalq imtahanlarda istifadə olunur.

"Moodle". Açıq mənbə kodlu bir təhsil idarəetmə sistemidir və avtomatlaşdırılmış qiymətləndirmə funksiyalarını təklif edir. Moodle platformasında müəllimlər testlər və qiymətləndirmə tapşırıqları yarada bilər, bunları tələbələrin performansına əsaslanaraq avtomatik şəkildə qiymətləndirə bilər. Sistem, tələbələrin cavablarını real vaxtda qiymətləndirir və Nəticələri dərhal təqdim edir. Moodle, həmçinin qiymətləndirmə meyarlarını təyin etmək və tələbələrə detallı geribildirim təqdim etmək üçün geniş alətlər təqdim edir.

"Pearson's MyLab and Mastering". Pearson'ın MyLab və Mastering platformaları, müxtəlif mövzular üzrə avtomatlaşdırılmış qiymətləndirmə və tədris alətləri təqdim edir. Bu sistemlər, tələbələrin tapşırıqlarını və testlərini avtomatik qiymətləndirir, cavabları analiz edir və tələbələrə real vaxtda geribildirim təqdim edir. Platforma, həmçinin müəllimlərə tələbələrin performansını izləmək və onların tədris ehtiyaclarına uyğun materialları tənzimləmək üçün geniş imkanlar təqdim edir.

Süni intellektin tədris sistemlərində tətbiqi, təhsil texnologiyalarının inkişafını stimullaşdırır. Bu texnologiyalar öyrənmə və tədris proseslərini daha dinamik və interaktiv edir. İnnovativ tədris texnologiyaları, müəllimlərin tədris metodlarını yeniləməyə və öyrənmə mühitini daha cəlbedici hala gətirməyə imkan verir. Təhsil texnologiyalarında baş verən bu irəliləyişlər, tələbələrin motivasiyasını artırır və onların öyrənmə təcrübələrini daha zəngin edir.

Süni intellektin təhsil sistemlərinə təsiri geniş və çoxşaxəlidir. Bu tətbiqlər

öyrənmə Nəticələrini yaxşılaşdırmaqla yanaşı, tədris prosesini daha səmərəli və interaktiv edir. Tələbələrin fərdi ehtiyaclarına uyğun tədris materiallarının təqdim edilməsi, intellektual köməkçilərin dəstəyi və avtomatlaşdırılmış qiymətləndirmə sistemləri, təhsil sahəsində əhəmiyyətli dəyişikliklərə səbəb olur. Bu yanaşmalar təhsil sistemlərinin daha müasir hala gəlməsinə kömək edir.

Gələcəkdə süni intellektin tədris sistemlərində daha geniş şəkildə tətbiqi gözlənilir. Bu tətbiqlərin inkişafı təhsil sahəsində daha geniş miqyasda müsbət dəyişikliklərə səbəb olacaqdır. Süni intellektin təhsil sahəsindəki potensialı hələ tam olaraq araşdırılmamışdır, lakin bu texnologiyaların tətbiqi ilə bağlı gələcək tədqiqatlar yeni tətbiq sahələrinin ortaya çıxmasına və təhsil sistemlərinin daha da təkmilləşdirilməsinə imkan verəcəkdir.

Nəticə

Süni intellektin tədris sistemlərində tətbiqi, təhsil mühitini daha fərdiləşdirilmiş, effektiv və interaktiv edir. Adaptiv öyrənmə sistemləri, intellektual müəllim köməkçiləri və avtomatlaşdırılmış qiymətləndirmə sistemləri təhsil prosesində əhəmiyyətli dəyişikliklərə səbəb olur. Bu yanaşmalar təhsil sistemlərinin daha müasir və adaptiv hala gəlməsini təmin edir, lakin tətbiqdə mövcud olan çətinliklər həll edilməlidir. Gələcəkdə bu yanaşmaların inkişafı təhsil sahəsində daha geniş miqyasda müsbət dəyişikliklərə səbəb olacaqdır.

ƏDƏBİYYAT

1. Demir, S., & Arslan, H. (2021). Otomatik Değerlendirme Sistemlerinin Etkileri. Eğitim Teknolojileri ve Araştırmalar, 52(4), s.66
2. Dziuban, C., Graham, C.R., & Moskal, P.D. (2018). Blended Learning: A Dangerous Idea? Online Learning Consortium, s.55
3. Heffernan, N.T., & Heffernan, C.L. (2014). The impact of intelligent tutoring systems on student learning: Evidence from a large-scale study. Educational Technology Research and Development, 62(1), s.102
4. Woolf, B.P. (2010). Building Intelligent Interactive Tutors: Student-Centered Strategies for Revolutionizing E-Learning. Elsevier, pp.78

ABSTRACT

Meftun Ismayilov, Aytan Hasanova

INNOVATIVE APPLICATIONS OF ARTIFICIAL INTELLIGENCE IN EDUCATIONAL SYSTEMS

The article investigates the innovative applications of artificial intelligence (AI) within educational systems. AI has the potential to fundamentally transform education, particularly through the use of adaptive learning systems. These systems analyze various factors such as students' prior knowledge, learning pace, and individual learning styles to create customized learning experiences. By tailoring education to each student's specific

needs, these systems enhance overall learning effectiveness and success. Additionally, automated assessment systems play a significant role in modern education by providing objective and precise evaluations of student performance. They streamline the assessment process, reduce human error, and ensure a fairer and more efficient evaluation framework. Intelligent teaching assistants also contribute to a more interactive and student-centered learning environment, thereby increasing student motivation and improving learning outcomes. The article elaborates on how these technologies modernize educational systems, enhance learning results, and drive revolutionary changes in the educational process. It highlights the potential of AI applications to advance educational methodologies, offering new opportunities for improving educational practices. By integrating AI into education, substantial advancements in teaching techniques and learning efficiency can be achieved,paving the way for transformative changes in the field.

Keywords: *artificial intelligence, innovative applications, automated assessment, adaptive learning, intelligent tutoring systems*

РЕЗЮМЕ

Мяфтун Исмаилов, Айтан Гасанова

ИННОВАЦИОННЫЕ ПРИМЕНЕНИЯ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В ОБРАЗОВАТЕЛЬНЫХ СИСТЕМАХ

В статье рассматриваются инновационные применения искусственного интеллекта (ИИ) в образовательных системах. ИИ имеет потенциал коренным образом изменить образование, особенно через использование адаптивных систем обучения. Эти системы анализируют различные факторы, такие как предшествующие знания студентов, темп их обучения и индивидуальные стили обучения, чтобы создать индивидуализированные учебные опыты. Персонализируя обучение в соответствии с конкретными потребностями каждого студента, эти системы улучшают общую эффективность и успех в обучении. Кроме того, автоматизированные системы оценки играют важную роль в современном образовании, предоставляя объективные и точные оценки производительности студентов. Они упрощают процесс оценки, уменьшают человеческие ошибки и обеспечивают более справедливую и эффективную оценочную систему. Интеллектуальные помощники также способствуют созданию более интерактивной и ориентированной на студента образовательной среды, что повышает мотивацию студентов и улучшает результаты обучения. Статья подробно описывает, как эти технологии модернизируют образовательные системы, улучшают результаты обучения и способствуют революционным изменениям в образовательном процессе. Подчеркивается потенциал применения ИИ для продвижения образовательных методик и предоставления новых возможностей для улучшения практик образования. Интеграция ИИ в образование может привести к значительным достижениям в методах преподавания и эффективности обучения, открывая путь для трансформационных изменений в данной области.

Ключевые слова: *искусственный интеллект, инновационные применения, автоматизированная оценка, адаптивное обучение, интеллектуальные помощники преподавателя*

BƏHRUZ BAYRAMOV
Naxçıvan Dövlət Universiteti
behruzbayramov67@gmail.com

TURAN MƏMMƏDLİ
Naxçıvan Dövlət Universiteti
turan12beymemmed1948@gmail.com

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ŞƏRAİTİNDƏ İNTENSİV BECƏRİLMƏ TEXNOLOGİYASININ VƏ ƏKİN MÜDDƏTLƏRİNİN QARĞIDALI BİTKİSİNİN MƏHSULDARLIĞINA TƏSİRİ

XÜLASƏ

Naxçıvan Muxtar Respublikası mövcud təbii ehtiyatlarına görə özünəməxsus bir yer tutmaqdadır. Ərazinin coğrafi mövqeyi, hidroqrafiyası, torpaq örtüyü, bitki aləminin müxtəlif olması ecazkar təbiətin formalaşması, su qaynaqlarının və düzən relyefin olması bu regionda qarğıdalı istehsalının inkişafına əlverişli şərait yaradır. Azərbaycan xalqı ən çox istehlak etdiyi kənd təsərrüfatı məhsulları içərisində dənli bitkilər xüsusi yer tutur. Belə ki, istehlak səviyyəsinin yüksək olması, kənd təsərrüfatının digər sahəsi olan heyvandarlığın qüvvəli və qaba yemə olan tələbatının ödənilməsində bu bitkiyə yerli fermerlər xüsusi önəm verilməkdədir. Naxçıvanda torpaq mülkiyyətçiləri kiçik ailə təsərrüfatlarından başlayaraq qarğıdalı əkini ilə məşğul olaraq, ötən dövr ərzində əkin texnologiyasını mənimsəmiş, artıq bu bitkinin əkin sahəsini genişləndirərək məhsuldarlıq səviyyəsini dünya səviyyəsinə çatdırmışlar. Artıq bu gün zonada qarğıdalı sahəsi üzrə sahibkarlıq mühiti formalaşmışdır. Xüsusən Şərur və Babək rayonları digər rayonlara nisbətən daha çox qarğıdalı əkini üzrə ixtisaslaşmışlar. Amma son illərdə qarğıdalı istehsalı sahəsində böyük nailiyyətlər qazanılmasına baxmayaraq, əhalinin bu qiymətli ərzaq məhsuluna olan tələbatının ödənilməsi, məhsuldarlığı və məhsulun keyfiyyət göstəricilərinin tələb olunan səviyyəyə qaldırılması, eləcə də əkin sahələrindən daha yüksək mənfəət götürülməsi və ixrac potensialının artırılması üçün zonanın iqlim torpaq şəraitinə cavab verən qarğıdalı bitkisi sortlarının araşdırılaraq daha yaxşılarının seçilməsi, üzərində tədqiqat işləri aparılması günün tələbidir. Digər tərəfdən iqlim dəyişikliyi, hava şəraitinin çox isti keçməsi, su qaynaqlarının azalmasına səbəb olmuşdur. Mövcud şəraitdə qarğıdalı bitkisinin əkin müddətlərinin səmərəli becərilmə texnologiyası fonunda məhsuldarlığa və məhsulun keyfiyyət göstəricilərinə təsirinin araşdırılması tədqiqatımızın əsas prinsipi olmuşdur.

Açar sözlər: *qarğıdalı, məhsuldarlıq, iqlim, əkin müddəti, texnologiya, intensivləşmə, gübrə, aqrotexnika*

Tədqiqatın məqsədi: Tədqiqatın məqsədi dünyada gedən qlobal isinmənin Naxçıvan Muxtar Respublikasının ekoloji durumuna təsirinin araşdırılması, dağ ətəyi düzən zonada qarğıdalı əkini sahələrinin inkişaf perspektivlərinin müəyyən edilməsi, keyfiyyətinə görə önəmli yerlərdən birini tutan qarğıdalı istehsalının səviyyəsinin mövcud vəziyyətdən daha da yüksəklərə qaldırılmasıdır. Eyni zamanda qarğıdalı bitkisinin müxtəlif əkin müddətləri fonunda məhsuldarlığını və keyfiyyət

göstəricilərinin artırılması istiqamətində aparılacaq işlərin icra mexanizminin işlənməsi, alınmış yaxşı Nəticələrin təsərrüfatlarda tətbiqi, gələcəkdə istehsal olunan qarğıdalı bitkisinin dən məhsulunun yağ emalında geniş istifadəsi və ixracına nail olunmasıdır.

Tədqiqatın vəzifələri: Tədqiqat işinin yerinə yetirilməsi üçün qarşımızda bir sıra vəzifələrin icrası durmuşdur. Belə ki, muxtar respublikasının kontinental iqlim şəraitində mövcud girintili-çıxıntılı coğrafi mövqeyin araşdırılması, zonada qarğıdalı əkinlərinin hər bölgənin ekoloji durumuna uyğun,əkin müddətlərinin seçilməsi,yetişmə müddətinə uyğun qarğıdalı sortlarının əkilməsinə nail olmaqdır. Mövcud ekoloji durumda qarğıdalı bitkisinin sortlarının zonanın kontinental iqliminə uyğunlaşması üçün bioloji xüsusiyyətlərinə uyğun əkin müddətlərinin seçilməsi və müasir becərilmə texnologiyası tətbiqi fonunda müəyyən olunmuş əkin müddətlərinin Naxçıvan Muxtar Respublikasının aran orta dağlıq bölgələrində tətbiqinə nail olmaqdır. Qlobal isinmə fonunda qarğıdalı bitkisinin intensiv texnologiya ilə becərilməsinin elmi əsaslarının işlənməsi əsas vəzifəmiz olmuşdur.

Tədqiqatın müzakirəsi: Yaşadığımız əsrdə dünya miqyasında mövcud qlobal isinmə kənd təsərrüfatı bitkilərinin becərilməsində müəyyən maneələr yaratmaqdadır. Amma hər bir maneəyə rəğmən bir sıra ərzaq və yem bitkilərinin əkilib becərilməsi, dünyada artmaqda olan əhalinin ərzaq təminatında və heyvandarlığın möhkəm yem bazasının yaradılmasında xüsusi əhəmiyyət daşıyır. Digər tərəfdən son dövrlərdə beynəlxalq aləmdə baş verən təbii fəlakətlər, müharibələr fonunda bitkiçilik məhsullarına olan tələbatın artması bir sıra strateji əhəmiyyətli kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının və keyfiyyət göstəricilərinin artırılması zərurəti yaran-mışdır. Məhz artmaqda olan tələbatın ödənilməsi üçün hər bir bölgənin torpaq şəraiti və iqlim amilləri nəzərə alınmaqla yüksək dərəcədə keyfiyyətli bitki sortlarından istifadə olunmaqla ən müasir intensiv becərilmə texnologiyası tətbiqi zərurəti artıq zamanın tələbidir. Eyni zamanda hər bir regionun torpaq örtüyü və ekoloji şəraitinə uyğun sınaqdan keçirilmiş bitki sortları əkilməsinin təmin olunması bol məhsulun təməlini qoyur. Qarğıdalı bitkisi öz növbəsində qiymətli ərzaq, heyvandarlıq üçün əvəzolunmaz yem mənbəyidir. Muxtar respublikanın kənd təsərrüfatı sistemində bu qiymətli bitkinin əkilməsi və intensiv texnologiya tətbiqi sayəsində məhsuldarlığın yüksəlməsi üçün kifayət qədər torpaq ehtiyatı və suvarma suyu qaynaqları mövcuddur. Qeyd olunmalıdır ki, qarğıdalı bitkisinin yaşıl yem, qüvvəli yem, çörək bişirmədə əsas xammal kimi istifadəsi torpaq mülkiyyətçilərində, fermer təsərrüfatlarında ciddi maraq yaratmış, artıq bu bitkinin regionda əkin sahəsi və əkilən bitkilərdən yüksək məhsul götürülməsi təcrübəsinə başlanılmışdır. Amma bu sahədə daha yüksək Nəticələrə imza atmaq üçün bir sıra elmi araşdırmaların aparılması, əkilən qarğıdalı sahələrindən daha yüksək və keyfiyyətli məhsul götürülməsi, respublikadan qarğıdalı məhsulu ixracının təmin olunması apardığımız tədqiqat işinin əsas prinsipi olmuşdur. Naxçıvan Muxtar Respublikası Azərbaycanın ən quraq və yarımsəhra regionlarından biridir. Eyni zamanda bu zonada əsasən kontinental iqlimin mövcudluğu iqlimin qış aylarında sərt soyuq, yayda isə quru isti olması ilə səciyyələnir. Dünyada gedən qlobal isinmə Naxçıvan Muxtar Respublikasına da öz təsirini göstərmiş, Nəticədə qış ayları mülayim,

yay yüksək hərarətli və su qaynaqlarının kəskin azalması müşahidə olunmaqdadır. Mövcud şəraitdə əkilən hər bir kənd təsərrüfatı bitkisindən yüksək və sabit məhsul götürülməsi üçün intensiv becərilmə texnologiyaları tətbiqi və suvarma sistemlərinin müasir texnoloji avadanlıqlardan istifadə etməklə qurulmasının ön plana çəkilməsinin vacib olmasını göstərir. Qarğıdalı strateji əhəmiyyətə malik vacib bir bitki olması ilə yanaşı, regionda qida və yem məhsulu kimi böyük istifadə potensialına malikdir.

İqlim: Naxçıvan Muxtar Respublikası Cənubi Qafqazın bir hissəsini əhatə etməklə Azərbaycan Respublikasının tərkibinə daxildir. Muxtar respublikanın ərazisini təşkil edən dağlar Kiçik Qafqaz dağ silsiləsinin hissəsidir. Ərazi orta Araz dağ arası çökəkliyin cənub-şərq qurtaracağını tutmaqla 38°51-39°47 şimal enlik dairəsi və 44°46-46°10 şərq uzunluq dairəsində yerləşir.

Naxçıvan Muxtar Respublikası şimal-şərqdən sərhəd xətti boyunca Səddin düzündən keçən Basarkeçər dağ silsiləsinin cənub qolu və Dərələyəz silsiləsi (yüksəklik 3000 m) ilə əhatə olunur. Dərələyəzdən cənubda Zəngəzur silsiləsindən isə qərbə ayrılan qollar Araz çökəkliyinə tərəf uzanır. Orta Araz çökəkliyi Qafqazda ən böyük çökəklikdir. Bu çökəkliyin bir hissəsi İran və Türkiyə, sol sahilində yerləşən hissəsi isə Ermənistan və Naxçıvan ərazisidir. Muxtar respublikanın ümumi ərazisi 5,4 min km^2 olub, Azərbaycan Respublikası ərazisinin 6.1%-ni təşkil edir. Muxtar respublikanın tərkibində Sədərək, Şərur, Kəngərli, Babək, Şahbuz, Culfa, Ordubad rayonları daxildir. Ərazidə əsasən suvarma və dəmyə əkinçiliyi üstünlük təşkil edir. Suvarılan ovalıq hissədə əsasən payızlıq taxıl, tərəvəz, qarğıdalı, kartof, çoxillik otlar, paxlalı bitkilərin əkini üstünlük təşkil edir.

Qarğıdalı kənd təsərrüfatının ən gəlirli sahələrindən biri olmaqla yanaşı, əkin sahələrinin qisa müddətli növbələşdirilməsində ən uyğun bitki hesab olunur. Ona görə də Naxçıvanda istər aran, istərsə də orta dağlıq zonada ailə təsərrüfatlarında qarğıdalı istehsalının inkişaf etdirilməsi üçün bölgənin potensial imkanları mövcuddur. Qarğıdalı əkinçiliyinin inkişaf etdirilməsinə təkan verən əsas amil ailə təsərrüfatlarına dövlət tərəfindən kreditlərin verilməsi, subsidiyaların əkin sahəsinin həcminə görə ödənilməsi ilə yanaşı, torpaq və su resurslarının mövcudluğu və ən əsası isə istehsalçıların iqtisadi maraqları təsir etməkdədir.

Naxçıvan Muxtar Respublikasının Arazboyu zonasında günəş radiasiyası cəmi təxminən 150 kkal/sm olub, yuxarı dağlıq bölgələrə qalxdıqca radiasiya azalır, orta dağlıq zonasında bunların cəmi müvafiq olaraq 130-150 kkal/sm olur. Beləliklə, Arazboyu zonada (1200 m dəniz səviyyəsinə qədər) radiasiya balansı 45-50 kkal/sm, 2500-3000 m və daha yüksək sahələrdə 25-20 kkal/ sm və daha az olur.

Ərazidə küləyin rejimi yaz aylarında düzən zonada onun istiqamətinə bərabər olub, dağ və dağətəyi zonalarda dağ külәkləri əsir. Yazın axırında cənub və cənub-şərq istiqamətində əsən küləklər müşahidə olunur. Güclü küləklər tədqiqat apardığımız ərazidə şərq və qərb külәkləri hesab olunur.

Bu gün Naxçıvan öz qarğıdalı istehsalını günün tələbləri səviyyəsinə uyğun olaraq, artırmaqda davam edir. Belə ki, əvvəlki illərlə müqayisədə qarğıdalı əkini sahəsi, istehsalı və məhsuldarlığı 3 dəfə artmışdır. Tədqiqat apardığımız ərazilərin coğrafi mövqeyinə nəzər saldıqda aydın olur ki, qarğıdalı əkinləri zonada növbəli əkinçilik sistemləri tətbiqində xüsusi rola malikdir. Qarğıdalının dən məhsulunun

yetişdirilməsində bu sahənin inkişafı üçün əlverişli şərait, günəşli günün uzunluğu, normal temperatur və aqrotexniki tədbirlərin vaxtında aparılmasından asılıdır.

Eyni zamanda apardığımız tədqiqat zamanı müəyyən olunmuşdur ki, muxtar respublikanın düzən zonasında yaz aylarında qarğıdalı əkinlərinin müddətlərinin düzgün seçilməsi dən məhsulunun, yəni qıcaların tam dolmasına səbəb olur. Apardığımız tədqiqatlara əsaslanaraq qeyd etmək olar ki, Arazboyu düzən zonada yetişdirilmiş qarğıdalı dən məhsulunun keyfiyyət göstəricilərinin yüksək olmasının əsas səbəbi havanın temperaturunun tələb olunan səviyyədə olması, işıqlı günlərin uyğunluğu və torpağın qida maddələri ilə intensiv becərilmə texnologiyasına uyğun daha optimal təmin olunmasıdır.

Bir sıra elmi ədəbiyyatlarda qeyd olunduğu kimi, Naxçıvan Muxtar Respublikasının bitki örtüyü şaquli zonalıq qanununa tabedir. Dünyanın hər hansı bir bölgəsində torpaqların formalaşmasının öyrənilməsi, bitki örtüyünün mərhələlər üzrə inkişafının tarixi planda öyrənilməsi və torpaqların inkişafını müşahidə etmək, fonunda bitki örtüyünün müşahidəsi aparılır. Bu cür tədqiqatların aparılması müasir dövrdə elmi cəhətdən çox maraq kəsb edir.

Naxçıvan Muxtar Respublikasının müasir bitki örtüyü özünün zəngin florası tərkibi ilə səciyyələnir Ərazidə bitki örtüyünün sıxlığı onun mürəkkəb fiziki-coğrafi və torpaq iqlim şəraitindən xeyli asılıdır.

L.İ.Prilipko (1970) muxtar respublikada aşağıdakı bitki zonalarını ayırır: yarımsəhra-dağlıq-kserofit (firqana), yüksək dağ çöl və subalp, alp çəmən. Ərazinin şimal-şərq və cənub-qərb hissəsində 1700-2700 m dəniz səviyyəsindən hündürlükdə qariqa tipli kserofit formasiyalar yayılmışdır. Tədqiqat Nəticəsində məlum olmuşdur ki, Naxçıvan Muxtar Respublikasının dağ ətəyi düzən zonasında yayın ilk vaxtları ekoloji durumun və su qaynaqlarının bolluğu, qarğıdalı bitkisinin bioloji tələbatına tam uyğun günəşli günlərin mövcudluğu bu istiqamətdə fermer təsərrüfatlarının inkişafına zəmin yaradır.

Zonada aran hissədən dağlıq hissəyə qalxdıqca torpaq tiplərinin və bu torpaq tiplərində formalaşan bitki örtüyünün zənginliyi, ərazinin coğrafi mövqeyi, relyefi və sözsüz ki, günəşli işıqlı gün saatlarının çox olması qarğıdalı bitkisinin inkişafı üçün əlverişli şərait yaratmaqdadır.

Apardığımız tədqiqata əsaslanaraq qeyd etməliyik ki, qlobal isinmə su qaynaqlarının azalması qarğıdalı bitkisinin məhsuldarlığının və keyfiyyət göstəricilərinin aşağı düşməməsi üçün yeni mütərəqqi suvarma üsullarının tətbiqinin vacibliyini tələb edir.

Qarğıdalı taksonomik cəhətdən Poaceae-dişəkimilər (qırtıckimilər) fəsiləsinə aid olub Zea cinsinə, mays növünə aiddir. Rüşeym cücərtisi iri və yaşıl rənglidir. Saçaqlı kök sisteminə malik olub 3 metrə qədər dərinliyə 1 metrə qədər isə ətrafa yayıla bilir. Bitkinin hündürlüyü sort xüsusiyyətindən asılı olaraq, 2-3-4-cü buğumundan hava (dayaq) kökləri bitkinin inkişafının müəyyən fazasında əsasən 6-8 yarpaq fazasında əmələ gəlir ki, bu da bitkinin xarici təsirlərdən qoruyaraq yerə yatmasının qarşısını alır [5].

Qarğıdalının yetişdirilməsi və inkişafı üçün ən əlverişli şərait günün uzunluğu, normal temperatur və aqrotexniki tədbirlərin aparılmasından asılıdır. Səciyyəvi olaraq bitkilərin dənlərinin dolması üçün 12-24 saat vaxt tələb edir. O zaman onların

yetişdirilməsi ənənələri həm gün uzunluğuna, həm də temperatura cavab verdiyi halda, daha uzun gün boyunca bitkilər yetişdirilərkən temperatur nisbi olaraq aşağı olur. Qısa günlər və aşağı temperatur bitkiləri erkən yetişərək vegetasiyanı zəif başa vurur, çünki qarğıdalı qıcasının induksiyası həddən artıq möhkəmdir. Bu şəraitdə bitkilərin məhsulun aşağı olmasına gətirib çıxararaq erkən qüvvəsini itirən kiçik yarpaq səthinə malik olur. Bu formada becərilən bitkilər uzun gün bitkisi kimi tanınır. Çünki onlar uzun gün müddətində daha yüksək məhsul əmələ gətirirlər. Digərləri qısa günlərdə olduğu kimi, uzun günlərdə də məhsulu əmələ gətirir və onlar neytral gün bitkiləri kimi tanınır.

Özlərinin çoxillik elmi təcrübi təhlillərinə əsasən tanınmış alimlərdən N.İ.Vavilov [3], C.Ə.Əliyev [2], İ.D.Mustafayev [4] və başqaları kənd təsərrüfatı bitkilərinin istehsalının artırılmasında yüksək məhsuldar bitki sortlarından istifadənin əhəmiyyətli olduğunu qeyd edirlər.

Ədəbiyyat məlumatlarından da görünür ki, bu qiymətli ərzaq bitkisinin əkin müddətlərinin düzgün seçilməsi sayəsində Naxçıvan Muxtar Respublikası şəraitində qarğıdalı sortlarından yüksək və keyfiyyətli məhsul götürmək olar. Bu məqsədlə də Babək rayonu Şıxmahmud kənd inzibati ərazisində qarğıdalı bitkisi sortlarının müxtəlif əkin müddətlərində və müxtəlif əkin sıxlığında əkinlərinin aparılmasının məhsuldarlığa təsirini öyrənmək üçün tərəfimizdən təcrübə tədqiqat işləri aparılmışdır. Tədqiqat zamanı səmərəli becərilmə texnologiyası tətbiqi fonunda istifadə olunan "Pioner19/22, Piyoner, Dekab, Zaqatala-68", qarğıdalı sortlarının zonanın iqlim şəraitinə uyğunlaşması və bu uyğunlaşmaya əkin müddətlərinin təsiri araşdırılmışdır. Digər tərəfdən Naxçıvan Muxtar Respublikasının kontinental iqlim şəraitində, xüsusilə qarğıdalı əkinlərinin vegetasiyanın çiçəkləmə və qıca əmələ gətirdiyi fazasında havanın hərarəti pik saatlarda 35-40 dərəcə selsi intervalında olması fonunda zonada qarğıdalı əkən fermerlərin səmərəli becərilmə texnologiyası tətbiqi Nəticəsində yuxarıda qeyd olunan sortlardan 60-160 sentner məhsul götürmələri artıq bir reallığa çevrilmişdir. Tərəfimizdən tədqiqat zamanı yüksək istilik şəraitində qarğıdalı bitkisinin bioloji xüsusiyyətlərinə uyğun olaraq, qıcaların və dən məhsulunun necə böyüməsi və yüksək məhsul götürülə bilməsinin səbəbi araşdırılmışdır. Çünki bu bitkinin dən məhsulunun əmələ gəlməsi və inkisafının sürətlə getməsi üçün havada ən optimal istilik 16-30 dərəcə hesab olunur. Amma 35-40 dərəcə hərarət şəraitində qarğıdalı bitkisindən yüksək məhsul götürülməsinin səbəbi tədqiqat zamanı əsas diqqət mərkəzimizdə olmuşdur. Araşdırmalarımız zamanı məlum olmuşdur ki, qarğıdalının əkin müddətlərinin düzgün seçilməsi və səmərəli becərilmə texnologiyası tətbiqi yarpaqların güclü inkişafı, yəni yarpaq səthinin genişlənməsi bitkidə yarpaq sayının artması sayəsində baş verərək fotosintez prosesinin intensivləşməsi, fotosintez laboratoriyasının intensiv işləməsi hadisəsi baş verir.

Digər tərəfdən yüksək aqrotexniki becərilmə fonunda qarğıdalı bitkisi vegetasiyanın çiçəkləmə fazasından əvvəl və çiçəkləmədən məhsul yığımına kimi güclü yarpaq kütləsi əmələ gətirir. Bu zaman əkin sahəsi tam olaraq qarğıdalı bitkisi ilə qapanır. Sahənin bu formada qapanması Nəticəsində ola biləcək alaq bitkiləri həyat amillərindən məhrum olması sayəsində məhv olurlar. Əkin sahəsi isə günün işıqlı saatlarının yəni hava işıqlandıqdan günəş batana qədər olan dövrdə (15-18 saat)

işıqlanma, günəş şüası və bol günəş parlaqlığı ilə təmin olunur. Apardığımız tədqiqatlara əsaslanaraq qeyd etməliyik ki, qarğıdalı əkinlərində yüksək aqrotexniki becərilmə tətbiq olunma şəraiti güclü yerüstü kütlə əmələ gətirərsə, havanın hərarəti gündüz saatlarında 35-40 dərəcə təşkil etsə də, sahə normal suvarılaraq tam rütubət tutumu ilə təmin olunduqda bitkilərin sahənin tam qapatması səbəbindən torpaqla günəşin təması müvəqqəti olaraq məhdudlaşır.

Nəticədə çöldə yüksək hərarətin təsirindən normal suvarılmış əkin sahəsində buxarlanma baş verir və buxar təbəqəsi kondensasiya olunaraq, təkrar su damcıları formasında qarğıdalı əkini altında olan torpağa qayıdır. Burada araşdırmalarımız zamanı məlum olmuşdur ki, iki məsələ, iki hadisə baş verir. Həm kondensasiya Nəticəsində qarğıdalı bitkiləri ilə tam qapanmış sahədə mikroiqlim formalaşır, həm də torpaq kondensasiya Nəticəsində qayıdan su damcıları vasitəsi ilə növbəti vegetasiya suvarmalarına qədər olan dövr ərzində rütubətlə təmin olunur. Başqa əsas müşahidə etdiyimiz məsələ isə yaxşı suvarılmış qarğıdalı sahəsində havanın temperaturunun yüksək olmasına baxmayaraq, güclü yarpaq kütləsi əmələ gətirərək tam qapanmış qarğıdalı sahəsində torpaqla yerüstü təbəqə arasında 25-30 dərəcə temperatur müşahidə edilmişdir. Yüksək hərarət şəraitində qarğıdalı əkini günəşli günlərin uzunluğu ilə bərabər, fotosintez prosesinin intensiv getməsinə tətbiq olunan mineral gübrələr fonunda mikroelement tərkibli gübrələrin tətbiqi yarpaq səthinin böyüməsi ilə yanaşı, yarpaqda xlorofilin miqdarının artmasına səbəb olmuşdur.

Bunları nəzərə alaraq, qida təhlükəsizliyinin təmin edilməsi məqsədilə bitkinin bioloji xüsusiyyətlərini də unutmadan intensiv becərmə texnologiyasına və aqrotexniki tələblərə düzgün əməl etməklə keyfiyyətli və təhlükəsiz məhsul yetişdirilməsi təmin olunmalıdır. Bu məqsədlə qarşıdakı illərdə bir sıra elmi nəzəri və tətbiqi istiqamətində işlərimiz davam etdiriləcəkdir.

Qarğıdalı bitkisinin qida potensialını laborator analizlərə uyğun olaraq, təmin etməklə normal rütubətləndirmə tətbiq etmək, fotosintez prosesini intensivləşdirməklə arid zonalarda belə keyfiyyətli dən və küləş məhsulu əldə etmək mümkündür. Bunun üçün qarğıdalının quraqlığa davamlı və tezyetişən sortlarından istifadə etməklə əkin müddətlərinə və əkin sıxlığına ciddi nəzarət olunmalı, pestisidlərdən isə istifadədə kimyəvi mübarizə üsulu ilə yox, aqrotexniki, bioloji, mexaniki mübarizə üsullarına üstünlük verilməli, pestisidlərdən isə ehtiyac duyulduqda normalara uyğun istifadə olunmalıdır. Əsas istiqamət üzvi gübrələrdən istifadəyə yönəldilməlidir.

Tədqiqat zamanı qarğıdalının Pioner 19/21 sortundan istifadə olunmuşdur. Qarğıdalı yerli ailə təsərrüfatlarında hərtərəfli istifadə olunma əmsalına görə digər kənd təsərrüfatı bitkilərinə nisbətən son illər geniş miqyasda əkilib becərilməkdədir. Çünki bu bitkinin məhsulu heyvandarlığın inkişaf etdirilməsində və iqtisadi gəlir gətirmə səviyyəsinə görə önəmli rola malikdir. Digər tərəfdən ailə təsərrüfatlarında ərazi cəhətdən az torpaq sahəsinə məxsus təsərrüfatlarda bir və iki tarlalı növbəli əkin sistemləri tətbiqində bu bitkidən sələf kimi istifadə olunması öz səmərəsini verməkdədir. Bu cür növbəli əkin tətbiqi başqa cür aralıq əkinlər və ya vahid əkin sahəsindən bir ildə iki dəfə məhsul götürülməsi prinsipinə əsaslanır. Çünki qarğıdalı bitkisi əkinləri Naxçıvanlı fermerlər üçün iqtisadi gəlir gətirməklə yanaşı payızlıq taxıl sahələrinə biçindən sonra qarğıdalı əkməklə həmin ilin payızında təkrar payızlıq buğda

və ya arpa əkilməsi mövcud torpaq ehtiyatlarından səmərəli istifadə olunması ilə Nəticələnir. Sonda bu cür növbələşmə mövcud torpaq strukturunun qorunması ilə yanaşı əkin sahəsində xəstəlik, zərərverici və alaq otlarına qarşı qabaqlayıcı tədbirlərin aparılması prosesinin icra olunması anlamına gəlir. Nəticədə kiçik ailə təsərrüfatları əkinçiliklə yanaşı heyvandarlığın və quşçuluğun bölgədə geniş inkişafına təkan verərək öz təsərrüfatlarını bir neçə istiqamətdə inkişafına zəmin yaradaraq sahibkarlıq mühitin formalaşmasına təkan verməkdədirlər. Qarğıdalı uzun illərdir ki, yerli fermerlərin bir neçə istiqamətdə geniş arealda istifadə etdikləri bir bitki növüdür. Bu baxımdan muxtar respublikanın bütün bölgələrində qarğıdalı əkinlərindən daha yüksək Nəticələr almaq üçün bir sıra elmi araşdırmaların aparılması bir zərurətdir. Çünki hər bir bitki növü müxtəlif torpaq tiplərində və təbii ekoloji şəraitdə fərqli məhsuldarlıq göstəricisinə malik olurlar. Bu baxımdan tədqiqatımız zamanı qarğıdalının Pioner 19/21 sortunun muxtar respublikanın aran və orta dağlıq bölgələrində əkininin aparılması ekoloji amillərə davamlılığı, qida maddələrinə olan tələbatın və bu tələbatın nizamlanmasının, təmin olunmasının dən və yaşıl kütlə, eləcə də küləş məhsuldarlığına və keyfiyyət göstəricilərinə təsirinin araşdırılması əsas elmi istiqamətimiz olmuşdur.

Bir sıra elmi ədəbiyyat məlumatlarına əsasən Pioner 19/22 qarğıdalı sortu qısa vegetasiya dövrü (90-100 gün), yüksək məhsuldarlıq potensialı (120-140 sen/ha), quraqlıq və xəstəliklərə qarşı nisbətən davamlı olması ilə fərqlənir. Digər tərəfdən sortun yüksək məhsul verməsi üçün düzgün suvarma rejimi, balanslı gübrələmə və optimal əkin sıxlığı tələb olunur. Məhz bitkinin sort xüsusiyyətləri və həyat amillərinə olan tələbatının optimal və maksimal ödənilməsinin qarğıdalının dən və digər məhsuldarlıq göstəricilərinə, bununla yanaşı, gövdə hissəsinin digər qarğıdalı sortlarına nisbətən nazik, incə olması, silos və qaba yemlik keyfiyyətinin yüksək olması, təsirinin araşdırılması tədqiqat zamanı diqqət mərkəzində saxlanılmış, bir sıra üstün cəhətləri nəzərə alınaraq, məhz bu sortun tədqiqat elementi olmasına tərəfimizdən qərar verilmişdir.

Eyni zamanda yerli fermer təsərrüfatlarında olan maraq və vegetasiya müddətinin qısa olması payızlıq buğda biçinindən sonra qarğıdalı bitkisinin Pioner 19/22 sortunun əkilərək dən məhsulu götürülməsinə imkan verdiyindən taxıl sahəsinin növbələşməsi və eyni sahədə qarğıdalıdan sonra təkrar payızlıq taxıl əkilməsi iqtisadi gəlir baxımından fermerlərin maraq dairəsindədir. Yuxarıda qeyd olunanları nəzərə alaraq, biz də tədqiqat zamanı sələf bitkisi kimi payızlıq buğda götürmüşük. Torpaq tədqiqatı işləri aparılmış əkin sahəsinin qida potensialının müəyyən olunması məqsədi ilə sahədən torpaq nümunələri götürülmüş və analiz olunaraq torpaqda qida maddələrinin miqdarı müəyyən olunmuşdur. Sonra sahə iri bitki qalıqlarından təmizlənərək şum altına tələb olunan 20 ton peyin, fosfor və kalium gübrəsi verilərək 35sm dərinliyində şum əməliyyatı aparılmışdır. Şum əməliyyatından sonra sahə malalanaraq toxum səpini aparılmışdır. Toxum materialı yüksək kondisiyalı cücərmə qabiliyyəti 98% olan toxumlardan istifadə olunmuşdur. Əkin sahəsində bitkilərin normal əkin sıxlığında yerləşdirilməsi ən önəmli məsələlərdən biridir. Çünki bu zaman bitkilərin hava və işıqlanma rejimi normal olarsa bitkilərin bioloji aktivliyi sayəsində gedən bir sıra proseslər məhz həyat amillərinin təmin olunma səviyyəsindən asılıdır.

Bu məqsədlə tədqiqat zamanı bitki ilə bitki arası məsafə 18 sm cərgə ilə cərgə arası 70 sm olaraq hər hektar sahəyə 60-70 min bitki yerləşdirilməsi üçün səpin aparılmışdır. İntensiv becərilmə texnologiyasının tələblərinə əsasən toxum səpini zamanı toxumla

bərabər, hər hektar sahəyə 120 kq NPK gübrəsi verilmişdir. Bu gübrə növündən istifadə olunmasında məqsədimiz torpağa düşən toxum materialının ətrafında potensial qida mühitinin yaradılması və ilk cücərtilərin torpaqdan qida maddələrini mənimsəməsinə əlverişli şərait yaradılması olmuşdur.

Suvarma rejiminə ciddi nəzarət edilmiş toxum səpinindən sonra sahə tam rütubət tutumu ilə suvarma aparılaraq təmin olunmuşdur. Qarğıdalı bitkisinin vegetasiyasının çiçəkləmə və süpürgə əmələ gəlmə, eləcə də dən dolma dövründə torpaq rütubətinə daha çox tələb göstərdiyini nəzərə alaraq, vegetasiya suvarmaları vaxtında verilərək bitkinin su tələbatı ödənilmişdir. Tədqiqat zamanı havanın nisbi rütubəti ciddi nəzarətdə saxlanılmış, təcrübə sahəsinə 6 vegetasiya suyu verilmişdir.

Naxçıvan Muxtar Respublikasının quraq zonada yerləşməsi və yay aylarında havanın gündüz saatlarında 35-40 dərəcə istilik həddində olması, bir tərəfdən bitkinin normal günəş radiasiya balansı ilə təmin olunmasına, digər tərəfdən bol-bol günəş işığı qəbul edərək fotosintez prosesinin intensiv getməsinə şərait yaratsa da, digər tərəfdən havanın hərarətinin yüksək olması torpaqdan suyun buxarlanma əmsalının yüksək olması ilə Nəticələnir ki, bu da əkin sahəsində bitkilərin suya olan tələbatının artması təcrübələrimizdə müşahidələrimizlə öz təsdiqini tapmışdır. Torpağın su rejiminin nizamlanması Nəticəsində bitkilərin suya olan tələbatlarının ödənilməsi məqsədi ilə təcrübə sahəsində bitkilərin vegetasiya müddətində torpaq və aqrotexniki becərilmə prosesləri tərəfimizdən icra olunmuş, yemləmə gübrə normaları eləcə də mikro element tərkibli gübrə normaları tətbiq olunaraq, xəstəlik, zərərverici və alaq otlarına qarşı qabaqlayıcı kompleks mübarizə tədbirləri yerinə yetirilmiş, bitkilərin normal həyat amilləri ilə təmin olunması üçün bir sıra becərmə tədbirləri tərəfimizdən icra olunmuşdur. Təcrübə əkinləri müxtəlif əkin müddətlərində aşağıdakı variantlar üzrə aparılmış və hər variant üzrə müxtəlif məhsuldarlıq göstəricisi alınmışdır.

Cədvəl 1. Qarğıdalı bitkisinin məhsuldarlıq göstəriciləri
(15 aprel əkin müddətli)
I təkrar

№	Variantlar	Məhsuldarlıq	Artım			
			Nəzarətə görə		Fona görə	
			sm	%	sm	%
1	Nəzarət (gübrəsiz)	46.0	-	-	-	-
2	20 ton peyin + $N_{50}P_{50}K_{50}$(fon)	73.0	27.0	58.6	-	-
3	Fon+$N_{60}P_{60}K_{60}$	86.5	40.6	88.2	13.5	18.4
4	Fon+$N_{70}P_{70}K_{70}$	98.4	52.4	113.9	25.4	34.7
5	Fon+$N_{80}P_{80}K_{80}$	124.6	78.6	170.8	51.6	70.6
6	Fon+$N_{90}P_{90}K_{90}$	137.8	91.8	199.5	64.8	88.7
7	Fon+$N_{100}P_{100}K_{100}$	146.7	100.7	218.9	73.7	100.9
8	Fon+$N_{90}P_{90}$K90+3kqCu+3kqZn+3kqMo	162.5	116.5	253.2	89.5	122.6

Aparılan tədqiqat işinin Nəticəsini göstərən cədvəl 1-dən göründüyü kimi, qarğıdalı əkinlərinə yüksək intensiv becərilmə texnologiyası tətbiqi fonunda 15 aprel əkin müddətli təcrübə sahəsindən aşağıdakı Nəticələr alınmışdır. Nəzarət (gübrəsiz) variantda sələf bitkisi payızlıq buğda olan əkin sahəsindən orta dən məhsuldarlığı 46.0 sen/ha, 20 ton peyin+$N_{50}P_{50}K_{50}$ (fon) variantında isə 73.0 sen/ha olmuşdur. Nəzarət variantına görə artım 27.0 sen/ha olmuşdur ki, bu da 58.6% artım deməkdir. Təcrübənin variantları üzrə fona görə, yəni 2-ci varianta nisbətən artım bütün variantlar üzrə artımla müşahidə olunmaqla ən yüksək artım 8-ci variantda qeydə alınmışdır. Fon+$N_{90}P_{90}$K90+3kqCu+3kqZn+3kqMo variantında ümumi məhsuldarlıq 162.5 sen/ha, nəzarət variantına görə artım 116.5 sen/ha, yəni 253.2% olmuşdur. Bu artım analoji olaraq 2-ci fon variantında ümumi məhsuldarlıq 73.7 sen/ha, 8-ci variantda fona görə artım 89.5 sen/ha olmaqla 122.6% artımla Nəticələnmişdir.

Cədvəl 2. Qarğıdalı bitkisinin məhsuldarlıq göstəriciləri
(30 aprel əkin müddətli)
II təkrar

№	Variantlar	Məhsuldarlıq	Artım			
			Nəzarətə görə		Fona görə	
			Sen/ha	%	Sen/ha	%
1	Nəzarət (gübrəsiz)	57.9	-	-	-	-
2	20 ton peyin + $N_{50}P_{50}K_{50}$(fon)	78.8	20.9	36.0	-	-
3	Fon+$N_{60}P_{60}K_{60}$	89.7	31.8	54.9	10.9	13.8
4	Fon+$N_{70}P_{70}K_{70}$	112.6	54.7	94.4	33.8	42.8
5	Fon+$N_{80}P_{80}K_{80}$	123.4	65.5	113.1	44.6	56.5
6	Fon+$N_{90}P_{90}K_{90}$	132.8	74.9	120.3	54.0	68.5
7	Fon+$N_{100}P_{100}K_{100}$	144.6	86.7	140.7	65.8	83.5
8	Fon+$N_{90}P_{90}$K90+3kq Cu+3kqZn+3kqMo	169.7	111.8	193.0	90.9	115.3

Cədvəl 2-dən göründüyü kimi, 30 aprel əkin müddətində əkilən qarğıdalı bitkisinin məhsuldarlıq göstəricisi nəzarət (gübrəsiz) variantda 57.9 sen/ha olduğu halda 20 ton peyin+$N_{50}P_{50}K_{50}$ (fon) variantında 78.8 sen/ha olmuşdur ki, bu da nəzarət variantına nisbətən 20.9 sen/ha,36.0%-dən məhsulunun artımı müşahidə edilmişdir. Fon variantına nisbətən ən yüksək məhsuldarlıq 169.7 sen/ha olduğu halda, ən yüksək artım isə Fon+$N_{90}P_{90}$K90+3kqCu+3kqZn+3kqMo variantında 90.9 sen/ha olmuşdur, artımın faiz nisbəti isə 115.3% olmuşdur. Baxmayaraq ki, Fon+$N_{100}P_{100}K_{100}$ variantında mineral gübrə miqdarı daha çoxdur, 8-ci variantda mikro element tərkibli gübrələrin verilməsi bitkilərin qida maddələrini mənimsəməsində katalizator rolunu

oynayaraq münbitlik effekti yaratmışdır. Nəticədə bitkilərə verilən qida maddələrinin tam mənimsənilərək məhsuldarlığa təsir etmişdir.

Cədvəl 3. Qarğıdalı bitkisinin məhsuldarlıq göstəriciləri
(05 may əkin müddətli)
III təkrar

№	Variantlar	Məhsuldarlıq	Artım			
			Nəzarətə görə		Fona Görə	
			sm	%	sm	%
1	Nəzarət (gübrəsiz)	69.8	-	-	-	-
2	20 ton peyin + $N_{50}P_{50}K_{50}$(fon)	76.7	6.9	9.8	-	-
3	Fon+$N_{60}P_{60}K_{60}$	83.9	14.1	20.2	7.2	9.3
4	Fon+$N_{70}P_{70}K_{70}$	106.5	36.7	52.5	29.8	38.8
5	Fon+$N_{80}P_{80}K_{80}$	118.7	48.9	70.0	42.0	54.7
6	Fon+$N_{90}P_{90}K_{90}$	136.4	66.6	95.4	59.7	77.8
7	Fon+$N_{100}P_{100}K_{100}$	158.9	89.1	127.6	82.2	107.1
8	Fon+$N_{90}P_{90}$K90+3kqCu+3kqZn+3kqMo	176.4	106.6	152.7	99.7	129.9

Təcrübənin 3-cü variantında 05 may əkin müddətli qarğıdalı əkinində nəzarət (gübrəsiz) variantında məhsuldarlıq 69.8 sen/ha olduğu halda 20 ton peyin+$N_{50}P_{50}K_{50}$ (fon) variantında 76.7 sen/ha məhsuldarlıq göstəricisinə, nəzarətə görə 6.9sen/ha məhsul artımı olmuşdur ki, bu da 9.8% təşkil edir. Analoji olaraq fon variantına nisbətən ən yüksək məhsuldarlıq göstəricisi 8-ci variantda 176.4 sen/ha qeyd olunmuşdur. Fon+$N_{90}P_{90}$K90+3kqCu+3kqZn+3kqMo variantında artım 99.7sen/ha olmuşdur ki, bu da 129.9% artımla Nəticələnmişdir. Cədvəl 1 və 2-də olduğu kimi, ən yüksək Nəticə təcrübənin 8-ci variantında olmuşdur. Araşdırmalarımız ilə müəyyən olmuşdur ki, 7-ci variantda mineral gübrə normaları daha çoxdur, amma məhsul artımı 8-ci variantda daha çox olmuşdur. Deməli, qarğıdalı bitkisinə verilən mikro element tərkibli gübrələr bitkiyə kökdən kənar yemləmə formasında verildikdə, yəni çiləmə formasında olmaqla iki dəfəyə tələb olunan miqdarda çilənməsi öz müsbət təsirini göstərmişdir. Burada qida maddələrinin qarğıdalı bitkisi tərəfindən yaxşı mənimsəməsinə təsir edən əsas əlamətlərdən biri də yüksək intensiv texnologiya tətbiqi fonunda əkin müddətinin düzgün seçilməsi olmuşdur. Tədqiqatlarımıza əsaslanaraq qeyd olunmalıdır ki, mikro element tərkibli gübrələrin yarpaqdan bitkiyə daxil olması bitkidə xlorofilin artması ilə yanaşı, fotosintez prosesinin intensivləşməsinə, eyni zamanda bitkidə yaşıllığın vegetasiyanın sonuna qədər saxlanmasına səbəb olur. Sözsüz ki, hər bir bitkinin daxilində gedən bir sıra proseslərin intensiv getməsinə bitkilər üçün yaradılan münbitlik elementlərinin, eləcə də həyat amillərinin optimal

miqdarda olması ilə yanaşı, onların bioloji xüsusiyyətləri nəzərə alınmaqla, düzgün əkin müddətlərinin seçilməsi əsas amillərdən biri hesab olunur.

Naxçıvan Muxtar Respublikası şəraitində Pioner 19/21 qarğıdalı sortunun yüksək becərilmə texnologiyası tətbiq etməklə əkininin aparılması və elmi araşdırmalara əsaslanaraq bizim təcrübələrimizdə ən optimal əkin müddəti 05 may tarixli əkin müddəti ən səmərəli əkin müddəti hesab olunmuşdur. Tədqiqat işinin hər üç təkrarı üzrə 20 aprel, 30 aprel, 05 may tarixlərdə qarğıdalı bitkisinin Pioner 19/21 sortunun sınaq əkinləri keçirilmiş aqrotexniki qulluq işləri aparılmış və Nəticələr müqayisə olunmuşdur. Təkrarların bütün variantları üzrə nəzarət (gübrəsiz) varianta nisbətən üzvi və mineral gübrə norma və nisbətləri tətbiq olunan bütün variantlar üzrə dən məhsuldarlığı üzrə artım müşahidə olunmuşdur. Bütün əkin müddətləri üzrə artım ən çox 8-ci variantda Fon+$N_{90}P_{90}$K90+3kqCu+3kqZn+3kqMo variantlarında qeyd olunsa da, ən yüksək Nəticə eyni miqdarda tətbiq olunan üzvi, mineral və mikro element tərkibli gübrə normaları tətbiq edilməklə 05 may tarixli əkin müddətinə qoyulan təcrübə sahəsindən daha yüksək dən məhsulu götürülmüşdür. Bu tarixdə yüksək məhsul götürülməsi bir neçə aspektdən izah oluna bilər. Belə ki, Naxçıvan şəraitində kontinental iqlimin xüsusiyyətlərinin təsiri, havanın və torpağın temperaturunun yüksəlməsi, bitkinin bioloji xüsusiyyətlərinin məhz bu tarixə uyğun gəlməsi, bitki üçün tələb olunan optimal həyat amillərinin müvcudluğu, torpağın hazırlanması üçün ideal torpaq yetişməsi və sözsüz ki, səmərəli becərilmə texnologiyası təsir etmişdir. Təcrübənin qarşıdakı illərdə davam etdirilməsi daha dəqiq optimal əkin müddətlərinin aran və orta dağlıq bölgələr üçün müəyyənləşdirilməsi gələcəkdə bu istiqamətdə tədqiqat işlərimizin davam edəcəyini sübut edir. Çünki Naxçıvanın iqlimi dəyişkən olması eləcə də qlobal isinmə bölgənin Araz boyu düzən və orta dağlıq hissələrində qarğıdalı bitkisinin dən məhsulu yetişdirilməsində konkret əkin müddətinin seçilməsində çətinlik yaradır. Çünki hər ilin gəlişində havanın temperaturu və nisbi rütubət əmsalı fərqli olur. İqlim amillərinin dəyişkənliyi şəraitində qarğıdalı bitkisinin Pioner 19/21 sortundan yüksək dən məhsulu götürülməsi sortun iqlim ünsürlərinə qarşı sınaqdan uğurla keçməsinin əsas sübutudur.

Nəticə

Apardığımız tədqiqat işlərinə əsaslanaraq aşağıdakı Nəticələrə gəlinmişdir.

1. Naxçıvan Muxtar Respublikasının aran və orta dağlıq bölgələrində Pioner 19/21 qarğıdalı sortu 05 may əkin müddətində intensiv becərilmə texnologiyası tətbiqi sayəsində ən yüksək dən məhsulu vermə qabiliyyətinə malikdir.
2. Qarğıdalı əkinləri fermer təsərrüfatları üçün iqtisadi gəlir gətirən bir bitki olduğunu nəzərə alaraq bu bitkinin daha geniş arealda əkini əhəmiyyətlidir.
3. Qarğıdalı bitkisi bölgədə ən çox əkilən payızlıq taxıllar üçün qısa müddətli növbəli əkinçilik sistemlərinin qurulmasında ən yaxşı sələf hesab olunur.
4. Pioner 19/21 qarğıdalı sortunun gövdəsinin hündür və nazik, incə olması bitkidən dən məhsulu götürüldükdən sonra heyvandarlığın qaba yem tələbatının ödənilməsində xüsusi rol oynaya bilər.
5. Qarğıdalı bitkisinin məhsuldarlıq potensialının artırılması əhalinin ərzaq tələbatının ödənilməsi, heyvandarlığın qüvvəli və qaba yem tələbatının ödənilməsi ilə yanaşı payızlıq taxıl biçinindən sonra aralıq əkinlərin aparılmasında, növbəli əkinçilik

sistemlərinin tətbiqində, ixrac olunaraq iqtisadi gəlir gətirilməsində və əhalinin məşğulluq səviyyəsinin artırılmasında önəmli rol oynayır.

ƏDƏBİYYAT

1. Şəkuri, B.Q., & Bayramov, B.S. Naxçıvan Muxtar Respublikasının ekoloji şəraitinin təbii ehtiyatları, dağ ətəyi düzən zonada şəkər çuğunduru kininin intensivləşməsi və onun qida sisteminin optimizasiyası. Bakı: MBM, 2010.
2. Алиев, Д.А. Идеальная пищеница/Вестник с-х.Науки, 1982, №5, ст.3-19.
3. Вавилов, Н.И. Избранные сочинения. Генетика и селекция М, Колос, 1966.
4. Мустафаев, И.Д. К, историю возделивания зерновых культур в Азербауджане / Труды Азербайджанского Н.И.И. Земледелия, 1955, т.3, с.15-26
5. Məmmədov, Q.Y., & İsmayılov. M.M.. Bitkiçilik. Bakı, 2012, s.144
6. Mammadli, T.B., Magerramov, S., Ibadullayeva. S.Ch. Fodder plants of mountainous regions of Nakhchivan MR (Different photos), 222 pages, Baku, 2015

ABSTRACT

Because of the natural resources, the Nakhchivan Autonomous Republic occupies a peculiar position. Such a geographical position, hydrography, soil cover, and diverse vegetation create an exceptional natural environment. The availability of water sources and flat terrain creates favorable conditions for the development of corn production in this area. Among the most consumed agricultural products in Azerbaijan, cereal crops occupy a special place. Local farmers pay especial attention to this crop, as the consumption is high and should be satisfied by this type of agriculture, besides livestock rearing, which requires concentrated and rough feed in large amounts.

In this context, the landowners of Nakhchivan have gradually started to grow corn from small family farms over time, gradually mastering the technology of its cultivation. Further, the planting area was expanded, and productivity levels were brought up to global standards. Today, an entrepreneurial environment has been created in the region for corn cultivation. The districts of Sharur and Babek have specialized in farming corn more than other districts.

Despite the serious successes in growing corn over the past years, meeting the population's needs for this valuable food product, increasing productivity and quality standards to the required level, as well as profitability and export potential, remain urgent tasks. It is necessary to study and select corn varieties that are suitable for the region's climate and soil conditions and conduct research to identify the best options. Besides this, extremely hot weather and climate change have caused a reduction in water sources. In the given conditions, our research is directed to the investigation of the influence of different planting periods and effective cultivation technologies on the productivity and quality indicators of corn.

Keywords: *corn, productivity, climate, planting period, technology, intensification, fertilizer, agrotechnics*

YADULLA HƏZİYEV

Naxçıvan Dövlət Universiteti
yadohazi@gmail.com

UOT 37.018.1

ALİ TƏHSİL MƏKTƏBLƏRİNDƏ MÜƏLLİM-TƏLƏBƏ MÜNASİBƏTLƏRİNİN AKTUAL PROBLEMLƏRİ

XÜLASƏ

Ali təhsil müəssisələrində müəllim-tələbə münasibətləri təhsilin keyfiyyətini və tələbələrin akademik uğurlarını birbaşa təsir edən mühüm amillərdən biridir. Müasir dövrdə bu münasibətlər müxtəlif səbəblərdən bir sıra problemlərlə üzləşir. Əsas problemlərdən biri müəllimlərin və tələbələrin qarşılıqlı ünsiyyətində yaranan çatışmazlıqlardır. Tələbələrin müəllimlərə qarşı etimadının azalması və müəllimlərin tələbələrə kifayət qədər fərdi yanaşma göstərməməsi qarşılıqlı münasibətlərdə gərginlik yaradır. Bu vəziyyət tələbələrin akademik motivasiyasının aşağı düşməsinə və onların təhsilə olan marağının azalmasına səbəb ola bilər. Digər bir aktual məsələ müəllim-tələbə münasibətlərində texnologiyaların artan roludur. Rəqəmsal texnologiyalar və onlayn tədris tələbələrə təhsil alma prosesində asanlıq gətirsə də, eyni zamanda müəllimlə tələbə arasında şəxsi əlaqənin azalmasına gətirib çıxarır. Bu, tələbələrin müəllimlərdən lazımi dəstəyi ala bilməməsi ilə Nəticələnə bilər. Həmçinin ali təhsil sistemində müəllimlərin yüklənməsi və zaman məhdudiyyəti də problemlərə səbəb olur. Çoxsaylı dərs saatları və əlavə inzibati işlər müəllimlərin tələbələrə fərdi diqqət ayırmasına mane olur. Tələbələr isə öz növbəsində, müəllimlərdən kifayət qədər maraq və qayğı görmədiklərini düşünə bilərlər. Müəllim-tələbə münasibətlərində mədəni və sosial fərqlər də nəzərə alınmalıdır. Müxtəlif mənşəli tələbələrlə işləyən müəllimlər bəzən onların ehtiyaclarını düzgün başa düşə bilmir. Bu, tələbələrin özlərini təcrid olunmuş hiss etməsinə gətirib çıxarır. Nəticə olaraq, ali təhsil müəssisələrində müəllim-tələbə münasibətlərinin inkişafı üçün şəffaf və qarşılıqlı hörmətə əsaslanan ünsiyyət mədəniyyətinin təşviqi, texnologiyaların effektiv istifadəsi və fərdi yanaşmanın artırılması vacibdir. Bu tədbirlər təhsil keyfiyyətinin yüksəlməsinə və tələbələrin akademik uğurlarına töhfə verə bilər.

Açar sözlər: *təhsil prosesi, müasir texnologiyalar, sosial media, motivasiya, fərdi xüsusiyyətlər*

Giriş

Müəllim-tələbə münasibətləri təhsil prosesində mərkəzi rol oynayır və təhsil keyfiyyətini müəyyənləşdirən mühüm faktorlardan biridir. Bu münasibətlərin inkişaf etdirilməsi, tələbələrin fərdi ehtiyaclarını nəzərə almaqla yanaşı, təhsil prosesinin daha interaktiv, innovativ və harmonik olmasına kömək edir.

Müəllim-tələbə münasibətləri təhsilin keyfiyyətini müəyyən edir və tələbələrin şəxsiyyət kimi formalaşmasında həlledici rol oynayır. Səmimi, dəstəkləyici və peşəkar münasibətlər həm tədrisin effektivliyini artırır, həm də tələbələrin gələcəkdə öz potensialını reallaşdıran müstəqil və məsuliyyətli şəxsiyyətlər kimi yetişməsini təmin edir.

Araşdırılan mövzu təhsil sahəsinin ən vacib istiqamətlərindən biridir. Müəllim-tələbə münasibətlərinin araşdırılması və onların inkişafı təhsil sisteminin səmərəliliyini artırmaqla yanaşı, cəmiyyətin ümumi inkişafına da mühüm təsir göstərir. Bu səbəbdən, mövzunun təhlili və həll yollarının təklif edilməsi həm elmi, həm də praktiki baxımdan aktuallığını qoruyur [1].

Müəllim-tələbə münasibətlərində anlaşılmazlıqların yaranması təhsil prosesinə mənfi təsir göstərə bilər. Bu problemlərin səbəbləri müxtəlif amillərlə bağlıdır və onların aradan qaldırılması üçün hər iki tərəfin anlayış və əməkdaşlıq göstərməsi vacibdir. Anlaşılmazlıqların yaranma səbəbləri müxtəlif olsa da, əsasən ünsiyyət, fərdi yanaşma və qarşılıqlı hörmət prinsiplərinin pozulması ilə bağlıdır. Bu problemlərin həlli üçün qarşılıqlı əməkdaşlıq, empatiya və psixoloji dəstək göstərilməsi vacibdir. Təhsil prosesində qarşılıqlı inam və açıq kommunikasiya bu cür problemlərin qarşısını almaqda əsas rol oynayır [2].

Müasir texnologiyalar və sosial media müəllim-tələbə münasibətlərində həm müsbət, həm də mənfi təsirlər yaradan əsas amillərdən birinə çevrilmişdir. Təhsil prosesində texnologiyanın istifadəsi əlaqə imkanlarını artırsa da, bəzi hallarda münasibətlərin mürəkkəbləşməsinə də səbəb ola bilər.

Müasir texnologiyalar və sosial media müəllim-tələbə münasibətlərini asanlaşdıran, lakin bəzi hallarda mürəkkəbləşdirən alətlərdir. Bu vasitələrin faydalı tərəflərindən səmərəli şəkildə istifadə etmək və mənfi təsirlərini minimuma endirmək üçün düzgün idarəetmə və etik yanaşma vacibdir. Balanslı yanaşma həm təhsil keyfiyyətini, həm də münasibətlərin sağlamlığını qorumağa kömək edir [3].

Müasir təhsil mühitində müəllimlərin tələbələri motivasiya etməsi təhsil prosesinin uğurlu həyata keçirilməsi üçün vacib şərtlərdən biridir. Bununla belə, bu prosesdə müəyyən çətinliklər meydana çıxır. Bu çətinliklər müxtəlif amillərlə əlaqədardır və həm təhsil sistemindən, həm də fərdi xarakteristikalardan qaynaqlana bilər.

Müəllimlərin tələbələri motivasiya etməsində qarşılaşdıqları çətinliklər təhsilin keyfiyyətinə birbaşa təsir edir. Bu çətinlikləri aradan qaldırmaq üçün fərdiləşdirilmiş yanaşma, innovativ tədris metodları və psixoloji dəstək vacibdir. Eyni zamanda tədris mühitinin yaxşılaşdırılması və tələbələrlə səmimi ünsiyyət motivasiyanı artırmaqda əsas rol oynayır [4].

Tədris prosesində müəllimlərin tələbələrin fərdi xüsusiyyətlərini nəzərə almaması təhsil keyfiyyətinin aşağı düşməsinə və tələbələrin potensiallarının tam istifadə edilməməsinə səbəb ola bilər. Hər bir tələbə özünəməxsus qabiliyyətlərə, öyrənmə tərzinə, maraq dairələrinə və emosional xüsusiyyətlərə malikdir. Müəllimlərin bu fərdi xüsusiyyətləri nəzərə almaması bir sıra problemlər yaradır [5].

Müəllimlərin tələbələrin fərdi xüsusiyyətlərini nəzərə almaması təhsil prosesinə və şəxsi inkişaflarına ciddi mənfi təsir göstərə bilər. Bu problemlərin qarşısını almaq üçün müəllimlər tələbələrə fərdi yanaşmalı, onların ehtiyac və maraqlarına uyğun

tədris metodları tətbiq etməli və emosional dəstək göstərməlidirlər. Fərdi xüsusiyyətlərin nəzərə alınması tələbələrin motivasiyasını artırmaqla yanaşı, onların təhsil prosesində daha uğurlu və fəal olmasına imkan yaradır [6].

Qərb ölkələrində müəllim-tələbə münasibətləri əsasən demokratik, əməkdaşlığa və qarşılıqlı hörmətə əsaslanan yanaşmalar üzərində qurulur. Bu sistemlər tələbələrin akademik, sosial və emosional inkişafını dəstəkləyən innovativ və inklüziv təcrübələr tətbiq edir.

Qərb ölkələrinin təhsil sistemindəki uğurlu nümunələrin milli təhsil sisteminə uyğunlaşdırılması təhsil keyfiyyətinin yüksəldilməsinə və tələbə-müəllim münasibətlərinin müasirləşdirilməsinə xidmət edə bilər. Bunun üçün beynəlxalq təcrübənin lokal şəraitə uyğunlaşdırılması, milli dəyərlərin qorunması və müasir texnologiyaların tətbiqi əsas istiqamətlərdən biri olmalıdır [7].

Beynəlxalq təcrübə nümunələrində bəzi məqamları qeyd edərək müəllim-tələbə münasibətləri mövzusunun maraqlı və geniş bir tədqiqat sahəsi olduğunu göstərə bilərik:

1. Təhsil modelləri və yanaşmalar:
- Finlandiya təhsil sistemi: Müəllimlərin azadlığı və tələbələrin yaradıcı yanaşmaları dəstəklənir;
- ABŞ universitetləri: Müəllim-tələbə qarşılıqlı əlaqəsi üçün "ofis saatları" və tədqiqatlara cəlb olunma;
- Yaponiya ali məktəbləri: Müəllimlər və tələbələr arasında intizam və hörmət mədəniyyəti.

2. Müasir texnologiyalarla dəstəklənən münasibətlər:
- Onlayn dərs platformaları vasitəsilə müəllim-tələbə əlaqəsinin inkişafı (məsələn, Zoom, Google Classroom);
- Virtual mentorluq və təlimat: Tələbələrin müəllimlərdən daha asan dəstək ala bilməsi.

3. Müəllim-tələbə münasibətlərinin mədəni aspektləri:
- Avropa ölkələrində tələbə mərkəzli yanaşma;
- Asiya ölkələrində müəllimlərə yüksək hörmətlə yanaşma.

4. Psixoloji və pedaqoji yanaşmalar:
- Tələbələrin motivasiyasını artıran müəllim davranışları;
- Fərdi yanaşmanın əhəmiyyəti: İstedadlı və əlavə yardıma ehtiyacı olan tələbələrə fərqli yanaşma [8].

Müəllim-tələbə münasibətləri təhsil prosesinin ən əsas komponentlərindən biridir və təhsilin inkişafında mühüm rol oynayır. Beynəlxalq təcrübə nümunələrindən də göründüyü kimi bu münasibətlər yalnız akademik bilik mübadiləsi ilə məhdudlaşmır, həm də tələbələrin sosial, emosional və psixoloji inkişafını təmin etməkdə mühüm əhəmiyyət kəsb edir. Güclü və müsbət müəllim-tələbə münasibətləri təhsilin keyfiyyətini artırır və tələbələrin şəxsi və peşəkar inkişafını stimullaşdırır [9].

Müəllim-tələbə münasibətlərinin gücləndirilməsi təhsilin inkişafında əvəzsiz rol oynayır. Müəllimlərin tələbələrlə qarşılıqlı hörmət və anlayışa əsaslanan münasibətləri onların akademik və şəxsi inkişafını dəstəkləyir, təhsil prosesini daha effektiv və

məhsuldar edir. Təhsil keyfiyyətini artırmaq üçün müasir yanaşmaların tətbiqi, rəqəmsal vasitələrin istifadə edilməsi və tələbə-müəllim əməkdaşlığının gücləndirilməsi vacibdir. Bu yolla təhsilin bütün aspektləri inkişaf etdirilə bilər [10].

Nəticə

Ali təhsil məktəblərində müəllim-tələbə münasibətləri təhsilin keyfiyyətinin və tələbələrin şəxsi inkişafının təmin edilməsində müstəsna rol oynayır. Bu münasibətlər yalnız akademik bilik mübadiləsi ilə məhdudlaşmır, həm də tələbələrin sosial, emosional və psixoloji inkişafını dəstəkləyir. Müəllim və tələbə arasında qarşılıqlı hörmət və anlaşma olduğu halda, tələbələr daha yüksək motivasiya ilə təhsil alır, dərslərdə daha fəal iştirak edir və öz biliklərini inkişaf etdirir.

Müəllim-tələbə münasibətlərində mövcud olan çətinliklər - belə ki, müəllimlərin tələbələrin fərdi xüsusiyyətlərini nəzərə almaması, motivasiya problemləri, sosial şəbəkələrin münasibətlərə təsiri və digərləri, təhsil prosesinin effektivliyini azaldır və tələbələrin akademik performansını mənfi yöndə təsirləndirir. Bu problemlərin həlli üçün, müəllimlərin fərdi yanaşma bacarıqlarını inkişaf etdirmələri, müsbət və açıq ünsiyyət mühiti yaratmaları və tələbələrə emosional dəstək vermələri vacibdir.

Beynəlxalq təcrübələrə nəzər saldıqda, müəllim-tələbə münasibətlərində sosial və emosional bacarıqların inkişafına yönəlik tədbirlərin effektivliyi ön plana çıxır. Bu tədbirlərin ölkəmizdəki təhsil sisteminə uyğunlaşdırılması, təhsil keyfiyyətinin yüksəldilməsinə xidmət edəcəkdir.

Son olaraq qeyd edə bilərik ki, müəllim-tələbə münasibətlərinin gücləndirilməsi təhsilin inkişafında mühüm rol oynayır və bu münasibətlərin yaxşılaşdırılması təhsil mühitində həm akademik uğurları, həm də tələbələrin ümumi inkişafını artıracaq. Təhsilin keyfiyyətinin yüksəlməsi, müasir yanaşmaların tətbiqi və yeni texnologiyaların istifadəsi ilə mümkündür. Müəllimlər və tələbələr arasında qarşılıqlı anlaşma və dəstək, təhsil sisteminin hərtərəfli inkişafına və gələcəkdə daha yüksək keyfiyyətli təhsil verilməsinə təkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Aydın, 2019, s. 180-195.
2. İsmayılova, 2020, s. 45-60.
3. Kərimova, 2018, s.102-116.
4. Məmmədova, 2021, s.100-120.
5. Novruzov, 2022, s.75-90.
6. Zeynallı, 2017, s. 150-165.
7. Yusifova, 2015, s. 120-135.
8. Süleymanov, 2016, s.45-58.
9. Mehdiyeva, 2018, s. 200-215
10. Piriyeva, 2021, s.130-145

ABSTRACT

Teacher-student relationships in higher education institutions are one of the important factors that directly affect the quality of education and the academic success of students. In modern times, these relationships face a number of problems for various reasons. One of the main problems is the shortcomings in the mutual communication between teachers and students. The decrease in students' trust in teachers and the lack of a sufficiently individual approach by teachers to students creates tension in mutual relationships. This situation can lead to a decrease in students' academic motivation and a decrease in their interest in education. Another pressing issue is the increasing role of technologies in teacher-student relationships. Although digital technologies and online learning make the educational process easier for students, they also lead to a decrease in personal contact between teachers and students. This can result in students not being able to receive the necessary support from teachers. In addition, the workload and time constraints of teachers in the higher education system also cause problems. Long teaching hours and additional administrative work prevent teachers from giving individual attention to students. Students, in turn, may feel that they do not receive enough interest and care from teachers. Cultural and social differences should also be taken into account in teacher-student relationships. Teachers working with students from diverse backgrounds sometimes fail to understand their needs properly. This leads to students feeling isolated. Consequently, it is important to promote a culture of communication based on transparency and mutual respect, to effectively use technologies, and to increase individual approach in order to develop teacher-student relationships in higher education institutions. These measures can contribute to improving the quality of education and academic success of students.

Keywords: *educational process, modern technologies, social media, motivation, personal characteristics*

GULAY BAYRAMOVA
Nakhchivan State University
gbayramova558@gmail.com

EVALUATING THE EFFECTS OF ARTIFICIAL INTELLIGENCE ON LANGUAGE LEARNING

ABSTRACT

In recent years, the integration of artificial intelligence (AI) into educational methodologies has prompted significant interest and research, particularly concerning its impact on language acquisition. As AI technologies such as natural language processing and machine learning become increasingly sophisticated, they offer unique opportunities to enhance how languages are taught and learned. This introduction to the study of AI's effects on language acquisition will explore how these technologies are being applied in educational settings, their potential benefits, and the challenges they pose.

Keywords: *artificial intelligence, human intelligence, language learning, Translation tools, simulations*

It is an inevitable fact that artificial intelligence applications, which affect all areas of life, will be reflected in education. Artificial intelligence is used in education with personalized education or dialogue education systems, exploratory education, data mining in education, student article analysis, virtual interactive teachers, chat robots, education for children with special needs, child-robot interaction, evaluation of homework and exams, smart school with various technologies, online and distance mobile education applications. Artificial intelligence applications in education are changing and renewing day by day with technological developments, and their usage areas and effectiveness are diversifying. How chatbots, one of the artificial intelligence programs, are used in language education and what their benefits and harms may be are discussed and interpreted in this research.

Artificial intelligence refers to the ability of technology, particularly computer systems, to simulate human intelligence processes. Natural language processing, machine vision, speech recognition, and expert systems are some specific uses of AI [1]. As a result, artificial intelligence has great promise for a variety of fields, including language learning. AI presents excellent prospects for individualized and effective instruction in this field. Artificial intelligence can offer learning experiences to individual students through its many simulations and adaptive algorithms. The purpose of this work is to investigate how artificial intelligence affects language acquisition, as well as the consequences for students, teachers, and the future of AI-based language instruction.

Artificial intelligence (AI), arguably the oldest field of computer science, encompasses a wide range of issues, such as developing systems that can learn and

think like humans and mimicking cognitive processes to solve real-world problems. As a result, it is commonly called machine intelligence. Users may learn a lot about how to use artificial intelligence (AI) in the most effective manner by studying its consequences. The application of AI technology in the classroom is currently the focus of much research. For instance, a progressive introduction to emerging technologies is being used to train pre-service teachers (PSTs) and in-service teachers (ISTs) in their use.

For instance, online courses have replaced traditional classroom instruction as the primary means of student instruction in teacher education. Moreover, the increasing popularity of massive open online courses has allowed for the analysis of student involvement based on their activities, which are monitored by analytics provided by the platform. Also, artificial intelligence methods like natural language processing have been applied to the analysis of written and spoken language to improve better teaching experience. AI can be defined as "computing systems that are able to engage in humanlike processes such as learning, adapting, synthesizing, self-correction and use of data for complex processing tasks" [2]. AI is a broad field with many subfields. For example, machine learning (ML) uses algorithms to identify patterns in educational data through repeated training; deep learning simulates and predicts educational outcomes using large datasets; and natural language processing (NLP) uses algorithms for language recognition to extract and analyze textual meaning. By using intelligent tutoring systems, intelligent agents, and intelligent collaborative learning systems, artificial intelligence (AI) supports and improves learning environments in education. AI research has recently had a big impact on education, and to combine multiple domains including computer science, image processing, linguistics, psychology, and neuroscience, an interdisciplinary 124 approach is needed. By providing real-time class status updates and addressing students' requirements via personalized learning platforms, artificial intelligence (AI) assists teachers in making decisions. Furthermore, AI has the power to change the educational landscape [3].

Types of AI language learning tools There are numerous AI language learning resources accessible, each with distinct features and objectives. Language platforms, language tutoring systems, language generating systems, and machine translation tools are a few examples. AI algorithms are used by machine translation tools to translate speech or text between languages automatically and in real time. Translation tools, like as Google Translate, Bing Translator, ChatGPT, and CHAR AI, are frequently available on web platforms and mobile apps and are frequently utilized for fast translations of brief words or sentences. In contrast to translation tools, language tutoring systems employ artificial intelligence (AI) algorithms to provide users with individualized language instruction and feedback.

They might have interactive lessons, activities, and tests to assist students get better at speaking, grammar, and vocabulary (Duolingo, Open English, Busuu). Language generation systems tools use AI algorithms to produce original text in a given language based on a set of input parameters. These systems could produce reports, social media posts, or news stories. Software applications and internet platforms often have language generation technologies. One of them are Hugging

Face's Transformer and OpenAI's GPT-3. Some AI language learning technologies, such as chatbots that use natural language, mix elements of these categories.

Chatbots A chatbot is a computer program or artificial intelligence that conducts text or audio conversations [4] and engages users in a certain field or topic by providing insightful natural language responses [5]. For both general and educational uses, chatbots have been created. Despite their immense potential to enhance language instruction and learning, the notion of chatbots serving as teachers for language acquisition is still relatively new. In science lecture classes, chatbot use is also contrasted with humanoid robots, and it has been found that the chatbot's visualization aids students' comprehension of the lecture [6]. However, it might be challenging to locate studies on the usage and development of chatbots to improve language acquisition. This study found studies on language instruction and learning.

Conclusion

Artificial intelligence significantly influence on how much time need to spend on learning new language and it's efficiency due to the possibility of creating an individual plan to each student. Also, AI can use different methods and approaches for native speakers who have some similarities with learning languages or other factors, related with student.

REFERENCES

1. Demircan, Ö. (2013). Yabancı Dil Öğretim Yöntemleri. Der Yayınları, İstanbul.
2. Krashen, S.D. Principles and Practice in Second Language Acquisition, Oxford University Press
3. Stern, H., Fundamental Concepts Of Language Teaching. Oxford University Press, Oxford.
4. Tomlinson, B. (2013). Introduction: Applied linguistics and materials development. B. Tomlinson (ed.), Applied Linguistics and Materials Development (1-8). London-New York: Bloomsbury Academic.
5. Zimmerman, M. (2018). Teaching AI: Exploring new frontiers for learning. Portland, Oregon: International Society for Technology in Education
6. Ismayilli, T. M. General cognitive overview to the category of affirmation. German international journal of modern science Scientific Notes: Artmedia 24, (31), 53-55.
7. Ismayilli, T. M. (2023). A cognitive perspective on the delivery of affirmation in stylistic devices in english. Deutsche Internationale Zeitschrift für Zeitgenössische Wissenschaft, 68.

AYTƏN HÜSEYNOVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
aytenhuseyn004@gmail.com

XIX ƏSR RUSİYA İŞĞALINDAN SONRAKI DÖVRDƏ NAXÇIVAN VƏ ONUN MƏNBƏŞÜNASLIĞI

XÜLASƏ

Bu məqalədə XIX əsrdə Rusiya işğalından sonra Naxçıvan ərazisində baş verən ictimai-siyasi hadisələrdən, o cümlədən həmin siyasi hadisələrin tarixşünaslıqda və mənbəşünaslıqda yeri haqqında məlumat verilmişdir. 1828-ci ildə Türkmənçay sülh müqaviləsinə əsasən Şimali Azərbaycan Rusiyanın təbəəliyinə verilmişdir. Əlbəttə, Naxçıvan və İrəvanı ələ keçirmək ruslar üçün qənimət demək idi. Çünki onlar həmin ərazilərdə "erməni vilayəti" yaratmaq məqsədi güdürdülər. Azərbaycan ərazisində işğal baş tutduqdan sonra ayrı-ayrı ərazilərdə, xüsusən də Naxçıvanda vəziyyət bir qədər gərginləşdi. Əhali üzərinə qəti və qeyri-şərtsiz göstərişlərin qoyulması bir sıra kəndli hərəkatlarının baş tutmasına gətirib çıxartdı.

Açar sözlər: *Naxçıvan, işğal, kəndli hərəkatı, mənbəşünaslıq, erməni vilayəti*

Giriş

Tarixşünaslığımızda Naxçıvan tarixinin araşdırılmasına diqqət getdikcə artmaqdadır. Bu çox sevindirici haldır. Çünki Azərbaycanın bu qədim diyarının ulu keçmişi ilə bağlı tarixi araşdırmaların elmi, ümumiyyətlə, dünya tarixini də yeni fakturalarla zənginləşdirir.

XIX əsrin bütün Şimali Azərbaycan torpağında olduğu kimi, Naxçıvanda da Rusiya işğal rejimi quruldu. Bütövlükdə Azərbaycan tarixində, o cümlədən Naxçıvan bölgəsinin XIX əsr tarixinin araşdırılması üçün Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1997-ci il yanvarın 31-də Elmlər Akademiyasının əməkdaşları ilə görüşündə demişdir: "İndi akademiyanın qarşısında duran əsas vəzifə Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır". Naxçıvan bölgəsi tarixinin bu dövrünün tədqiq edilməsi aktual məsələlərdəndir. Bu ilk əvvəl Naxçıvanda həmin dövrün spesifikası ilə bağlıdır.

XIX əsr Rusiya işğalından sonra Naxçıvandakı mövcud vəziyyətin tarixşünaslığı

Ümummilli Liderimizin çağırışından sonra Naxçıvanda çox ciddi tədqiqat işləri, arxeoloji qazıntılar, etnoqrafik araşdırmalar, ensiklopedik nəşrlər diqqətəlayiqdir. Bunların içərisində öz elmliyi ilə diqqəti çəkən Zəhmət Şahverdiyevin "Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində" monoqrafiyasıdır.

XIX-XX əsrin əvvəlləri bütövlükdə Azərbaycanın, o cümlədən Naxçıvan bölgəsinin bütün sahələrində yeni meyllər ilə (bazar münasibətlərinin yaranması, milli

azadlıq uğrunda mübarizənin təşəkkülü və s.) əlamətdar olmuşdur. Onların tədqiqi bir tərəfdən həmin dövrün, digər tərəfdən istiqlaliyyət ərəfəsində vəziyyətin dərindən dərk edilməsində qiymətli əsərdir. XIX-XX əsrin əvvəllərində Naxçıvana dair mənbələrdə V.Boroznanın, A.P.Yermolovun tədqiqatları diqqəti cəlb edir.

Rus qafqazşünaslarının Naxçıvan haqqında yazılmış əsərləri içində Şopenin (1798-1870) tədqiqatları xüsusi yer tutur. Mənşəcə fransız olan İ.Şopen 1825-ci ildə Rusiyaya gəlmiş Qafqazda mülki xidmətə başlamışdır.

İ.Şopenin kitabının nisbətən diqqəti cəlb edən cəhəti vilayətə daxil olan torpaqların Rusiya işğalı dövrü və ilk illərə aid statistik məlumatlardır.

Naxçıvanın XIX -XX əsrin əvvəlləri tarixinin tədqiqi ilə bağlı 1880-ci illərdə P.Zelinskinin, 1882-ci ildə K.N.Nikitinin və 1885-ci ildə Avadakovun məqalələri çap olunmuşdur.

Sovet dövrü tarixşünaslığında Ələkbərovun, Musayevin, H.Sultanovun, Q.Mədotovun, M.Nəsirlinin, C.Quliyevin, M.Əliyevin və başqalarını qeyd etmək olar. XIX-XX əsrin əvvəllərində bütün Şimali Azərbaycanda olduğu kimi, Naxçıvan bölgəsində də Rusiyanın müstəmləkəçilik sisteminin yaratdığı sosial-siyasi və milli zülm ağır maddi-məişət şəraiti ilə müşahidə olunurdu.

İctimai-siyasi vəziyyət

Əhalinin əksər hissəsini kəndlilər əks etdirdiyindən maddi-məişət vəziyyətindən başlayaraq, Naxçıvan bölgəsi kəndləri üçün əsas istehsalçı olan kəndlilərin aztorpaqlı və torpaqsız olması xarakterik idi. Buna baxmayaraq, kəndlilər üzərində yüksək vergi və mükəlləfiyyətlər qoyulurdu. Dövlət kəndliləri də ağır vergi və mükəlləfiyyət daşıyırdı. Onlar həyatbaşı vergisi, zemski, torpaq və s. ictimai vergilər verməli idi. Müsəlmanlar hərbi xidmətə aparılmadığına görə xüsusi rüsum ödəyirdilər.

Vergilərin kəndlilər arasında bölüşdürülməsi və yığılması da onların üzərində bir yük idi. Dövlət vergiləri kənd icmalarının üzərinə qoyur, onlar isə həmin vergini kəndlilər arasında bölürdü. Vergilər iki yerə bölünür və 2 dəfə (iyulun 30 və dekabrın 31-dək) ödənirdi. Vergini vaxtında ödəyə bilməyənlər hər ay üçün ödəyəcəyi verginin bir faizi miqdarında cərimə verirdi. Kəndlilərin vəziyyətini ağırlaşdıran əsas amillərdən biri də Birinci Dünya müharibəsi illərində sərhəd rayonu olan Naxçıvanın Qafqazdakı rus ordusunun arxa cəbhəsi olması idi. Çar məmurları əlavə vergilər təyin edir, bəzən sadəcə olaraq məhsulları və mal-qaranı müsadirə edirdilər.

Yüz və minlərlə kəndli sərhəddə hərbi istehkamların tikilməsinə, hərbi sursat və ərzağın daşınmasına səfərbər edilmişdi. Yaranmış anarxiya və özbaşınalıqdan istifadə edən yerli hakim təbəqə də vergi və mükəlləfiyyətləri çoxaldırdı. XIX əsrin 20-30-cu illərində Cənubi Qafqazda vergilərin yığılmasında, mükəlləfiyyətlərin yerinə yetirilməsində komendant idarəsi məmurlarının özbaşınalıqları Rusiya hakim dairələrini məcbur etdi ki, oraya yüksək rütbəli dövlət məmurlarından ibarət komissiyalar göndərsin. 1829-1830-cu illərdə Cənubi Qafqazda yoxlamalar aparmış P.i.Kutaysov və Y.i.Megnikov maliyyə-vergi sistemində saysız-hesabsız qanunsuzluqlar və özbaşınalıqlar aşkar etdilər. Senatorlar komendatların özbaşınalıqlarından dəhşətə gəlmişdilər.

Maliyyə-vergi sisteminin hərbi üsullarla həyata keçirilməsi Şimali Azərbaycana ağır müstəmləkə zülmü gətirmişdi. Naxçıvan bölgəsinin Rusiya tərəfindən işğalından sonra baş verən etiraz və çıxışların ardınca kəndli hərəkatı müxtəlif formalarda meydana çıxırdı. Kəndli hərəkatını spesifik forması olan qaçaq hərəkatı da yaranıb genişlənməkdə idi.

Qədim zamanlardan bu günə qədər sonsuz igidlik, şücaət, vətənə sədaqətli xidmət nümunələri ilə dolu olan Naxçıvan tarixi vətənini, yurdunu sevən insanlarda milli qürur və vətənpərvərlik hisslərini qaldırmaya bilməz.

ƏDƏBİYYAT

1. Şahverdiyev, Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: 2008.
2. Azərbaycan tarixində Naxçıvan (tarixi oçerkləri). Bakı: 1996.
3. Hacıyev, İ.M., Məmmədov, Ş. Naxçıvan və naxçıvanlılar. Bakı: 2001.
4. Həsənov, Ə. Naxçıvan xanlığı. Naxçıvan: 2009.
5. Azərbaycan tarixi 3 cilddə. 2-ci cild. Bakı: 1964.
6. Azərbaycan tarixi 7 cilddə. IV cild. Bakı: 2000.

ABSTRACT

In this article, some of the main socio-political events of the city of Nakhchivan after the Russian occupation in the 19th century are given information about the place of political events in historiography and source studies. In 1828, according to the Turkmenchay peace treaty, it was given to the Russian state for treatment. Of course, Nakhchivan and Yerevan meant booty for the Russians. Because they established "Armenian feathers" in the territories. The situation in Nakhchivan became somewhat tense in separate areas after the territorial invasion in Azerbaijan. The population caused a movement related to such a decision and the appointment of non-conditions.

Keywords: *Nakhchivan, occupation, peasant movement, source studies, Armenian provin*

GÜLƏR BAYRAMOVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
glr.bayramova@inbox.ru

FİZİKA DƏRSLƏRİNDƏ VİRTUAL LABORATORİYALARIN ƏHƏMİYYƏTİ

XÜLASƏ

Bu məqalə fizika dərslərində virtual laboratoriyaların əhəmiyyətini və təhsil prosesinə qatqılarını araşdırır. Virtual laboratoriyalar, ənənəvi fizikanın tədrisi metodlarının məhdudiyyətlərini aradan qaldıraraq, tələbələrə təhlükəsiz və təkrarlana bilən təcrübələr keçmək imkanı verir. Ənənəvi laboratoriyalarda avadanlıq, təhlükəsizlik və maddi məhdudiyyətlər kimi çətinliklər mövcud idi. Virtual mühitdə tələbələr fiziki qanunlarını daha yaxşı başa düşmək, müxtəlif simulyasiyalarla təcrübələr keçirmək və müstəqil düşünmə qabiliyyətlərini inkişaf etdirmək imkanı əldə edirlər. Bu yanaşma, həmçinin tədrisin interaktivliyini artırır və tələbələrin öyrənmə prosesində fəal iştirakını təmin edir. Gələcəkdə virtual laboratoriyalar daha geniş sahələrdə tətbiq olunacaq və daha real simulyasiyalar təqdim edəcəkdir.

Açar sözlər: *virtual laboratoriya, fizika, simulyasiya təcrübələr, interaktivlik*

Müasir dövrdə texnologiyanın inkişafı və onlayn tədris metodlarının yaranması ilə əlaqədar olaraq fizika dərslərində yeni yanaşmalar meydana çıxmışdır. Bu yanaşmalardan biri də virtual laboratoriyalardır. Ənənəvi fizika dərslərində laboratoriyaların məhdudiyyətləri və çətinlikləri, tələbələrin təcrübələrə daha asan və təhlükəsiz şəkildə çıxış imkanlarını azaldırdı. Lakin informasiya texnologiyalarının tətbiqi ilə yaradılan virtual laboratoriyalar bu məhdudiyyətləri aradan qaldırmaqla yanaşı, tələbələrin daha sərbəst, təkrarlanan və interaktiv təcrübələr aparmalarına imkan verir. Bu məqalədə, fizika dərslərində virtual laboratoriyaların əhəmiyyəti, üstünlükləri və tədris prosesində yaratdıqları imkanlar araşdırılır.

Fizika əsasən nəzəri və praktiki biliklərin birləşməsindən ibarət olduğuna görə, təcrübələrin aparılması fənnin tədrisində xüsusi yer tutur. Təcrübələr tələbələrin nəzəri məlumatlarını praktiki olaraq tətbiq etməyə, qanunları və prinsipləri daha yaxşı anlamalarına kömək edir. Lakin fizikanın tədrisində bəzi praktiki çətinliklər mövcuddur. İlk növbədə, fizika dərslərində təcrübələri aparmaq üçün lazım olan avadanlıqların qiyməti olduqca yüksəkdir. Xüsusilə bəzi laboratoriyalar böyük və bahalı cihazlarla təchiz olunmuşdur ki, bunları əldə etmək həm maddi baxımdan çətin olur, həm də təcrübə keçirmək üçün geniş mütəxəssis heyətinə ehtiyac yaranır. Digər tərəfdən, bəzi təcrübələr təhlükəsizlik riski daşıya bilər. Bu, tələbələrin fizika dərslərində aparılacaq təcrübələrə çıxışını məhdudlaşdırır. Bu çətinliklər virtual laboratoriyalar vasitəsilə aradan qaldırıla bilər [1].

Virtual laboratoriyalar, fizikanın mürəkkəb anlayışlarını başa düşməkdə tələbələrə dəstək olan interaktiv alətlərdir. Onlar tələbələrə təcrübələri təhlükəsiz şəkildə və hər hansı bir fiziki məhdudiyyət olmadan aparmağa imkan verir. Virtual mühitdə tələbələr, müxtəlif fiziki hadisələri və qanunları praktiki şəkildə sınaqdan keçirə bilər və təcrübə Nəticələrini asanlıqla müşahidə edə bilərlər. Bu, onların nəzəri biliklərini daha yaxşı başa düşmələrinə və praktiki tətbiq sahələrini mənimsəmələrinə kömək edir.

Virtual laboratoriyalar, tələbələrə təcrübələri öz istəklərinə uyğun şəkildə təkrarlama və müxtəlif şərtlərdə müşahidə etmə imkanı verir. Bu, onların öyrənmə prosesinə daha çox təsir edir və onları daha aktiv iştirak etməyə təşviq edir. Tələbələrə fiziki qanunları və təcrübələri fərqli vəziyyətlərdə necə tətbiq edəcəyini görmək imkanı verilir. Məsələn, tələbə bir təcrübəni bir neçə dəfə keçirə bilər və hər bir təkrarda fərqli Nəticələr əldə edə bilər. Bu cür təkrarlamalar, tələbələrin əldə etdikləri məlumatları dərindən mənimsəmələrinə kömək edir və müstəqil şəkildə problemləri həll etmə qabiliyyətlərini artırır.

Ənənəvi laboratoriyalarda bir çox məhdudiyyətlər mövcuddur. İlk növbədə, fizika dərslərində təcrübələr aparmaq üçün avadanlıq və materiallar tələb olunur. Bu materiallar hər zaman məktəblər və təhsil müəssisələri üçün əlçatan olmur. Bundan əlavə, təcrübə zamanı istifadə edilən cihazlar çox vaxt təhlükəli ola bilər. Elektrik gərginliyi ilə işləyən avadanlıqlar, yüksək temperatur və ya kimyəvi maddələr tələb edən təcrübələr xüsusilə risklidir. Tələbələrin təhlükəsizliyini təmin etmək məqsədilə bəzi təcrübələr və simulyasiyalar heç zaman həyata keçirilə bilməz. Ənənəvi laboratoriyalarda, həmçinin təcrübələr bir dəfəlikdir, yəni tələbə müəyyən bir təcrübəni yalnız bir dəfə görür və Nəticələrə əsaslanaraq suallara cavab verir. Ancaq bir çox hallarda tələbələr konkret təcrübə üzərində kifayət qədər zaman sərf edə bilməzlər və Nəticədə əsas anlayışlar unudulur.

Virtual laboratoriyalar isə bu çətinliklərin çoxunu aradan qaldırır. Virtual mühitdə tələbələr, bütün təcrübələri təhlükəsiz şəkildə və istədikləri qədər təkrarlaya bilərlər. Həmçinin müxtəlif fiziki parametrləri dəyişdirərək müxtəlif Nəticələr əldə edə bilər, məsələn, təcrübədə temperaturu, təzyiqi, sürəti dəyişdirmək mümkündür. Bu cür simulyasiyalar tələbələrə yalnız fiziki qanunların tətbiqini deyil, həm də bu qanunların real həyatda necə işlədiyini başa düşmək imkanı verir. Bu təcrübələr, həmçinin tələbələrin tədqiqat qabiliyyətlərini artırır, çünki onlar müəyyən bir fiziki fenomeni simulyasiya edərək onun necə baş verdiyini dərindən araşdıra bilərlər.

Yeni nəsil laboratoriyaların tədris prosesinə verdiyi töhfələr yalnız təhlükəsizlik və texniki imkansızlıq kimi çətinliklərin həlli ilə məhdudlaşmır. Virtual laboratoriyalar, həmçinin tələbələrin daha yaxşı və sürətli öyrənməsini təmin edir. Onlar həm nəzəri, həm də praktiki bilikləri birləşdirərək daha dərindən öyrənməyə şərait yaradır. Virtual laboratoriyalarda istifadə olunan simulyasiyalar təcrübələri tələbələr üçün vizuallaşdırır, mürəkkəb fiziki hadisələri başa düşməyə kömək edir. Bu təcrübələr tələbələrin daha çox iştirak etməsini və dərsə daha çox maraq göstərməsini təmin edir [2].

Yeni texnologiyalar tələbələrin öz sürətlərinə uyğun təcrübə aparmalarına və Nəticələri dərhal əldə etmələrinə imkan yaradır. Tələbələr təcrübələrini öz istədikləri

vaxtda həyata keçirə bilərlər və təcrübəni təkrarlayaraq Nəticələrini daha yaxşı mənimsəyə bilərlər. Bu, tələbələrə öz öyrənmə prosesini idarə etməyə kömək edir və onların fəal iştirakını təmin edir. Bundan əlavə, virtual laboratoriyalar müəllimlərə dərslərin interaktivliyini artırmaq, tələbələrin hansı sahələrdə çətinlik çəkdiklərini müəyyənləşdirmək və onları uyğun şəkildə yönləndirmək imkanı verir.

Bir çox təcrübə real olaraq həyata keçirilmədikdə belə, virtual laboratoriyalar təcrübələri simulyasiya etməyə imkan verir. Tələbələr, məsələn, aerodinamik təcrübələrində təyyarə qanadlarının üzərindəki təzyiqi virtual mühitdə ölçə bilər və Nəticələrini real həyatda müşahidə edildiyi kimi əldə edə bilərlər. Bu təcrübələr tələbələrin nəzəri bilikləri daha yaxşı başa düşmələrinə kömək edir və onlara fizikanın əsas qanunlarının real dünyada necə tətbiq olunduğunu anlamağa şərait yaradır [6].

Təhlükəsizlik məsələləri ənənəvi fizika laboratoriyalarında əsas problemlərdən biridir. Real laboratoriyalarda bəzi təcrübələr tələbələrin fiziki sağlamlığını riskə ata bilər. Məsələn, yüksək gərginlikli elektrik təcrübələri, kimyəvi maddələrlə işləmə və yüksək temperaturda təcrübələr tələbələrə təhlükə yarada bilər. Virtual laboratoriyalar isə bu təcrübələri təhlükəsiz şəkildə həyata keçirməyə imkan verir. Təcrübə zamanı heç bir real maddə və ya avadanlıq istifadəsi olmadığı üçün, təhlükəsizlik məsələləri sıfıra enir. Tələbələr hər hansı bir təcrübəni istədikləri vaxt təkrarlaya bilər və hər hansı bir səhv etdikdə təcrübəni yenidən başlata bilərlər.

Bundan əlavə, virtual laboratoriyaların səmərəliliyi də çox böyükdür. Real laboratoriyalarda tələbələrin təcrübə üçün lazım olan materialları əldə etməsi çətin ola bilər və bəzən bu materiallar tükənə bilər. Virtual laboratoriyalarda isə materialların istehlakı olmur və hər tələbə təcrübəni təkrarlamaq üçün tamamilə eyni şəraiti əldə edir. Bu, təcrübələrin daha effektiv şəkildə yerinə yetirilməsinə imkan yaradır.

Virtual laboratoriyalar, həmçinin digər tədris vasitələrindən daha geniş imkanlar təklif edir. Məsələn, tələbələr müəyyən bir təcrübənin Nəticələrini dərhal görə bilirlər və bu Nəticələrin ətraflı təhlilini apara bilirlər. Bu zaman müasir təhsil metodları ilə tələbələrin təcrübə üzərində aktiv düşünmələri təşviq olunur. Təcrübənin Nəticələrinin dərhal müzakirə edilməsi və tələbənin Nəticələr üzərində düşünməsi onların nəzəri anlayışlarını gücləndirir və dərsdə fəal iştirak etmələrini təmin edir.

Virtual laboratoriyalar müəllimlər üçün tədris metodlarını daha innovativ və interaktiv şəkildə qurmağa imkan verir. Müəllimlər müxtəlif təcrübə parametrlərini dəyişdirərək tələbələrə müxtəlif Nəticələri göstərmək imkanına malikdirlər. Bu, dərslərin daha maraqlı və tələbələrin fəal iştirakını artıran bir mühit yaradır. Müəllimlər, eyni zamanda tələbələrin Nəticələr üzərində düşünmələrini təşviq edə bilər və onların analitik qabiliyyətlərini inkişaf etdirə bilərlər.

İnnovativ yanaşmaların tətbiqi, həmçinin tələbələrə öyrənmə prosesini idarə etmək imkanı verir. Virtual laboratoriyalarda təcrübələr istənilən vaxt təkrarlana bilər. Bu cür şərait tələbələrin daha yaxşı öyrənməsini təmin edir [3].

Gələcəkdə, virtual laboratoriyaların rolu daha da artacaq və bu laboratoriyalar daha geniş sahələri əhatə edəcək. Texnologiyanın inkişafı ilə virtual laboratoriyalar daha real və dəqiq simulyasiyalar təklif edəcək. Bunun Nəticəsində tələbələr yalnız fizika sahəsində deyil, həm də digər elmlərdə də təcrübə apararaq daha dərindən məlumat əldə edəcəklər. Virtual laboratoriyalar, həmçinin öyrənmə prosesinin

interaktivliyini artıracaq, tələbələrin öyrənməyə marağını artıracaq və təhsilin keyfiyyətini yüksəldəcək.

ƏDƏBİYYAT

1. Трухин, А.В. Об использовании виртуальных лабораторий в образовании / А.В. Трухин // Открытое и дистанционное образование. – 2002. – № 4 (8). – с. 81-82.
2. Гревцов, К. Ю., Кадеева, О. Е. Виртуальные лаборатории и интерактивные симуляторы: назначение и возможности на уроках естественнонаучного цикла // Ученые записки университета им. П.Ф. Лесгафта. 2020. -№ 12(190). -с. 45-47.
3. Кадеева, О. Е., Полещук, В.А. Введение компьютера в учебный процесс по физике // Итоги научных исследований : Сборник статей Международной научно-практической конференции, Москва, 05 марта 2015 года. -Москва: ООО "Европейский фонд инновационного развития", 2015. -с. 137-139.

ABSTRACT

Gular Bayramova

THE IMPORTANCE OF VIRTUAL LABORATORIES IN PHYSICS LESSONS

This article explores the significance of virtual laboratories in physics lessons and their contributions to the educational process. Virtual laboratories overcome the limitations of traditional physics teaching methods, providing students with the opportunity to conduct safe and repeatable experiments. In traditional laboratories, challenges such as equipment, safety, and material constraints existed. In a virtual environment, students have the opportunity to better understand physical laws, conduct experiments with various simulations, and develop their independent thinking skills. This approach also enhances the interactivity of teaching and ensures active student participation in the learning process. In the future, virtual laboratories will be applied in broader fields and will offer more realistic simulations.

Keywords: *virtual laboratory, physics, simulation, experiments, interactivity*

РЕЗЮМЕ

Гюляр Байрамова

ВАЖНОСТЬ ВИРТУАЛЬНЫХ ЛАБОРАТОРИЙ НА УРОКАХ ФИЗИКИ

Эта статья исследует важность виртуальных лабораторий на уроках физики и их вклад в образовательный процесс. Виртуальные лаборатории устраняют ограничения традиционных методов преподавания физики, предоставляя студентам возможность проводить безопасные и повторяемые эксперименты. В традиционных лабораториях существовали проблемы, такие как оборудование, безопасность и материальные ограничения. В виртуальной среде студенты получают возможность лучше понять физические законы, проводить эксперименты с различными симуляциями и развивать свои навыки независимого мышления. Этот подход также повышает интерактивность обучения и способствует активному участию студентов в процессе обучения. В будущем виртуальные лаборатории будут применяться в более широких областях и предоставлять более реалистичные симуляции.

Ключевые слова: *виртуальная лаборатория, физическа, симуляци, эксперименты, интерактивность*

SƏMA ƏLƏSGƏROVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
semaelesgrova@gmail.com

KİMYA VƏ İNSAN SAĞLAMLIĞI: TƏTBİQLƏR VƏ YENİLİKLƏR

XÜLASƏ

Kimya insan sağlamlığının qorunması və inkişafında əhəmiyyətli rol oynayan fundamental bir elmdir. Gündəlik həyatda istifadə etdiyimiz dərmanların yaradılması, bədənimizdəki biokimyəvi proseslərin başa düşülməsi və tibbi texnologiyaların inkişafı kimya elminin nailiyyətləridir. Məhz kimyanın nailiyyətləri sayəsində xəstəliklərin müalicəsi üçün effektiv dərmanlar hazırlanır, bioloji sistemlərin funksiyaları öyrənilir və yeni diaqnostik vasitələr istehsal olunur. Bununla yanaşı, kimya yalnız müsbət təsirlərlə məhdudlaşmır. Zərərli kimyəvi maddələrin səhv istifadəsi Nəticəsində sağlamlıq üçün ciddi təhlükələr də yarana bilər. Bu baxımdan, toksikologiya və təhlükəsizlik standartlarının tətbiqi vacibdir. Eyni zamanda biomaterialların (implantlar, protezlər) inkişafı və yaşıl kimyanın tətbiqi ilə sağlamlıq sahəsində daha davamlı və təhlükəsiz yanaşmalar təmin edilir. Kimyanın sağlamlıq sahəsindəki tətbiqlərinin müxtəlif aspektləri, həmçinin bu sahədəki araşdırmaların cəmiyyətə və tibbi texnologiyalara olan müsbət təsirləri incələnir. Kimyanın gələcəkdə sağlamlıq sahəsindəki potensialı və yeni tədqiqat sahələri də vurğulanır.

Açar sözlər: *kimya, insan sağlamlığı, dərmanlar, biokimya, tibbi texnologiyalar, toksikologiya, biomateriallar, Yaşıl kimya, sağlamlıq və təhlükəsizlik, kimyəvi maddələr, gələcək tədqiqatlar*

Giriş

Kimya həyatın təməl prinsiplərini və proseslərini anlamağa imkan verən və insan sağlamlığının qorunmasında əhəmiyyətli rol oynayan fundamental bir elmdir. Kimya maddələrin quruluşunu, xassələrini, reaksiyalarını və qarşılıqlı təsirlərini öyrənərək, insan bədənindəki biokimyəvi prosesləri başa düşməyə və bu biliklərdən sağlamlığın qorunmasında və inkişafında istifadə etməyə kömək edir. Kimya sahəsində əldə edilən nailiyyətlər, insan həyatını təhlükəsizliklə təmin etmək və inkişaf etdirmək üçün müxtəlif sahələrdə tətbiq olunur. Kimyanın təməl prinsiplərini anlamaq və bu bilikləri insan sağlamlığını qorumağa yönəltmək çox vacibdir, çünki bu elm birbaşa bizim gündəlik həyatımıza, dərmanların hazırlanmasına, tibbi texnologiyaların inkişafına, müalicə üsullarının təkmilləşdirilməsinə və ətraf mühitin qorunmasına təsir göstərir.

Kimya və insan sağlamlığı arasında güclü bir əlaqə vardır, çünki insan bədəni müxtəlif kimyəvi proseslərin Nəticəsidir. Hər bir orqan və toxuma müxtəlif kimyəvi reaksiyalar Nəticəsində fəaliyyət göstərir. Hormonlar, fermentlər, neyrotransmitterlər və digər kimyəvi maddələr bədənimizdəki hərəkətləri və funksiyaları tənzimləyir. Məsələn, bədənin enerji istehsalı, maddələr mübadiləsi, hüceyrə bölünməsi və digər

həyati funksiyalar kimyəvi reaksiyaların Nəticəsidir. Kimya elmi bu reaksiyaların əsasını öyrənir və bədənimizin necə fəaliyyət göstərdiyini anlamağımıza imkan verir. Bu biliklərdən istifadə edərək, müxtəlif xəstəliklərin səbəblərini aşkar edə bilərik və onların müalicəsi üçün yeni dərmanlar və müalicə metodları inkişaf etdirə bilərik.

Kimya dərmanların hazırlanmasında və onların bədəndə necə fəaliyyət göstərdiyini anlamaqda mühüm rol oynayır. Hər bir dərman, müəyyən bir kimyəvi maddə və ya birləşmədən ibarətdir və bu maddə bədəndə müəyyən biokimyəvi prosesləri təsir altına alır. Dərmanlar, xəstəlikləri müalicə etmək, simptomları yüngülləşdirmək və bədənin müxtəlif funksiyalarını tənzimləmək üçün hazırlanır. Həmçinin dərmanların təsir mexanizmini başa düşmək və onların təhlükəsizliyini təmin etmək üçün kimyəvi proseslərdən istifadə olunur. Əczaçılıq kimyası sahəsi, dərmanların hazırlanması, sintezi, tərkibinin öyrənilməsi və bu dərmanların bədəndə necə reaksiya verdiyini izah etməklə insan sağlamlığını qorumağa yönəlmiş tədqiqatlar aparır. Məsələn, bu elm sayəsində antibiotiklər, analgetiklər, dərmanlar və digər müalicə vasitələri hazırlanmışdır. Bu dərmanlar mikroorqanizmləri öldürmək, ağrıları aradan qaldırmaq və digər xəstəlikləri müalicə etmək üçün istifadə olunur.

Həmçinin dərmanların yan təsirlərini azaltmaq üçün yeni metodlar təqdim edən bir elm olmaqla yanaşı dərmanların təkmilləşdirilməsi və onların bədəndəki reaksiya mexanizminin öyrənilməsi, həmçinin yeni dərman formalarının inkişafı, kimya elminin əsas istiqamətlərindəndir. Eyni zamanda dərmanların düzgün dozalarını təyin etməyə və onların toksik təsirlərini azaltmağa da kömək edir. Bu elm insan bədəni və orqanizmin işləmə prinsiplərini anlamaq üçün biokimyəvi araşdırmalar aparır. Biokimya canlı orqanizmlərdəki kimyəvi prosesləri öyrənir və bu biliklərdən istifadə edərək müxtəlif xəstəliklərin müalicəsinə kömək edir. Bədənin hər bir hüceyrəsi, müxtəlif kimyəvi maddələrin qarşılıqlı təsirindən fəaliyyət göstərir. Hormonlar, zülallar, yağlar, karbohidratlar, mineral maddələr və digər maddələr, hüceyrələrin enerji istehsalı, metabolizm, maddələr mübadiləsi və digər həyati funksiyaları üçün vacibdir. Bu maraqlı elm maddələrin bədəndə necə reaksiya verdiyini aydınlaşdıraraq və bu biliklərdən istifadə edərək daha yaxşı müalicə metodları inkişaf etdirir.

Biokimya sahəsindəki tədqiqatlar, yeni dərmanların və müalicə metodlarının inkişafına kömək edir. Məsələn, xərçəngin müalicəsi üçün kimyəvi terapiya dərmanları hazırlanmışdır. Bu dərmanlar, xərçəng hüceyrələrinin böyüməsini dayandıraraq və ya onların məhv olmasına səbəb olaraq xəstəliyin müalicəsində istifadə olunur. Həmçinin kimya və biokimya, virusların və bakteriyaların necə fəaliyyət göstərdiyini və necə müalicə edilə biləcəyini başa düşməyə kömək edir. Kimya və biokimyanın birləşməsi, tibbin inkişafında çox mühüm rol oynayır və daha effektli müalicə metodlarının yaradılmasına imkan verir.

Kimya elmi və bu elmdə aparılan araşdırmalar, insan sağlamlığını qorumaqla yanaşı, ətraf mühitin qorunmasında da mühüm rol oynayır. Kimyəvi reaksiyalar suyun təmizlənməsi, havanın təmizlənməsi, torpağın qorunması və digər ekoloji problemlərin həllində istifadə olunur. Məsələn, kimya sayəsində su təmizləmə texnologiyaları inkişaf etmişdir. Ağır metallar, mikroorqanizmlər və digər zərərli maddələr sudan kimyəvi proseslər vasitəsilə çıxarılır. Bu, insanların sağlamlığını qorumağa kömək edir və təmiz içməli su təmin edir. Eyni zamanda kimya hava çirklənməsinin qarşısını

almağa kömək edir. Sənaye proseslərində istifadə olunan katalitik konvertorlar, karbonmonoksidi, azot oksidlərini və digər zərərli qazları havadan təmizləyir.

Kənd təsərrüfatında kimyəvi maddələrdən hazırlanmış bəzi məhsulların tətbiqi də əhəmiyyətlidir. Məsələn, daha az zərərli və daha ekoloji dost gübrələr və pestisidlər inkişaf etdirilmişdir. Bu maddələr torpağın məhsuldarlığını artırmaqla yanaşı, həmçinin qida məhsullarının keyfiyyətini qoruyur. Bununla da təbiətin çirklənməsinin qarşısı alınır və təbiətin davamlılığı təmin edilir.

Yaşıl kimya isə ətraf mühitin qorunması və sağlamlığın inkişafı sahəsində mühüm bir yanaşmadır. Bu sahə kimyəvi maddələrin istehsalında və istifadəsində ətraf mühitə təsirin minimuma endirilməsini hədəfləyir. Yaşıl kimya təkrar emal edilə bilən, ekoloji cəhətdən təmiz və təhlükəsiz kimyəvi prosesləri inkişaf etdirir. Kimya sahəsinin bu istiqamətdəki inkişafı, ətraf mühitin qorunmasına və insanların sağlamlığının təhlükəsizliyinə xidmət edir. Yaşıl kimya sayəsində yeni dərmanlar, plastiklər, polimerlər və digər materiallar hazırlanır ki, bunlar təbiətə və insan sağlamlığına zərər vermədən təbiətdə parçalanır və ya təkrar emal edilə bilər.

Kimya sahəsində əldə edilən bu nailiyyətlər, yalnız insanlar üçün deyil, bütün ekosistemlər üçün faydalıdır. Kimyanın gələcək inkişafı, həm ətraf mühitin qorunmasına, həm də insan sağlamlığının yaxşılaşdırılmasına xidmət edəcək. Bu elm sahəsinin gələcəkdəki tədqiqatları və inkişafları, həyat keyfiyyətimizi artırmağa və daha sağlam bir gələcək qurmağa imkan verəcəkdir.

Nəticə

Kimya insan sağlamlığını qorumaqda və ətraf mühitin davamlılığını təmin etməkdə mühüm rol oynayır. Bu elm yalnız dərmanların və tibbi texnologiyaların inkişafında deyil, həm də ətraf mühitin qorunmasında və təbii resursların düzgün istifadə edilməsində əvəzsizdir. Kimyanın bu sahədəki töhfələri, cəmiyyətin sağlamlığını qorumağa və həyat keyfiyyətini yaxşılaşdırmağa xidmət edir. Gələcəkdə kimya elmi, nanotexnologiyalar, biotexnologiyalar və yaşıl kimya sahəsindəki inkişaflarla daha da güclənəcək və insan bədənində daha hədəfli və effektiv tətbiqlərlə sağlamlığı daha da yaxşılaşdıracaqdır.

ƏDƏBİYYAT

1. Tağıyev, D., & Məmmədov, A. (2019). Gələcəyin kimyası. “Elm” nəşriyyatı.
2. Nağıyev, T. M. (2018). Sinxron reaksiyalara koherent baxış. “Elm” nəşriyyatı.
3. Məmmədov, G. (2015). Kimya və insan sağlamlığı. Bakı: “Nurlan” nəşriyyatı.
4. Əliyev, M. (2017). Kimyanın tibbi tətbiqləri. Bakı: “Elm və təhsil” nəşriyyatı.
5. Hüseynov, R. (2016). Kimya və ətraf mühitin qorunması. Bakı: “Təhsil” nəşriyyatı.
6. Məmmədov, S. (2014). Kimya və biotexnologiya. Bakı: “Elm və təhsil” nəşriyyatı.
7. Əliyev, F. (2013). Kimyanın ətraf mühitə təsiri. Bakı: “Nurlan” nəşriyyatı.
8. Hüseynov, A. (2012). Kimya və ətraf mühitin qorunması. Bakı: “Elm və təhsil” nəşriyyatı.
9. Əliyev, M. (2011). Kimyanın tibbi tətbiqləri. Bakı: “Nurlan” nəşriyyatı.
10. Məmmədov, G. (2010). Kimya və insan sağlamlığı. Bakı: “Elm və təhsil” nəşriyyatı.

11. Hüseynov, R. (2009). Kimya və ətraf mühitin qorunması. Bakı: "Nurlan" nəşriyyatı.

ABSTRACT

Sama Alasgarova

CHEMISTRY AND HUMAN HEALTH: APPLICATIONS AND INNOVATION

Chemistry is a fundamental science that plays a significant role in the protection and advancement of human health. The creation of medicines we use in daily life, understanding the biochemical processes in our bodies, and the advancement of medical technologies are achievements of the scienceof the chemistry. Thanks to the accomplishments of chemistry, effective medications for the treatment of diseases are created, the functions of biological systems are studied, and new diagnostic tools are produsedd. However, chemistry is not limited to positive effects alone. The misuse of harmful chemicals can also pose serious health risks. In this regard, the application of toxicology and safety standards is crucial. At the same time, the development of biomaterials (implants, prosthetics) and the implementation of green chemistry provide more sustainable and safer approaches in the healthcare sector. The various aspects of chemistry's applications in health, as well as the positive impact of research in this field on society and medical technologies, are examined. The potential of chemistry in the future of healthcare and new research areas is also highlighted.

Keywords: *chemistry, human health, medicines, biochemistry, medical technologies, toxicology, biomaterials, Green chemistry, health and safety, chemical substances, future research*

РЕЗЮМЕ

Сама Алесгарова

ХИМИЯ И ЧЕЛОВЕЧЕСКОЕ ЗДОРОВЬЕ: ПРИМЕНЕНИЕ И ИННОВАЦИИ

Химия – это фундаментальная наука, играющая важную роль в защите и развитии человеческого здоровья. Создание лекарств, которые мы используем в повседневной жизни, понимание биохимических процессов в нашем организме и развитие медицинских технологий – это достижения химии. Именно благодаря достижениям химии разрабатываются эффективные лекарства для лечения заболеваний, изучаются функции биологических систем и создаются новые диагностические инструменты. Однако химия не ограничивается только положительными эффектами. Неправильное использование вредных химических веществ может привести к серьезным угрозам для здоровья. В связи с этим важно применять токсикологию и стандарты безопасности. Кроме того, развитие биоматериалов (имплантатов, протезов) и применение зеленой химии обеспечивают более устойчивые и безопасные подходы в здравоохранении. Рассматриваются различные аспекты применения химии в области здравоохранения, а также положительное влияние исследований в этой области на общество и медицинские технологии. Также подчеркивается потенциал химии в будущем для улучшения здоровья и новые исследовательские направления.

Ключевые слова: *химия, человеческое здоровье, лекарства, биохимия, медицинские технологии, токсикология, биоматериалы, Зеленая химия, здоровье и безопасность, химические вещества, будущие исследования*

SARA ƏLİBƏYLİ

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
elibeylisara68@gmail.com

NAXÇIVANIN İNKİŞAFINDA KİMYANIN ROLU VƏ NAXÇIVANIN TƏBİİ SƏRVƏTLƏRİ

XÜLASƏ

Naxçıvan Muxtar Respublikasının kimya sənayesi tarixən Azərbaycan iqtisadiyyatında aparıcı yerlərdən birini tutmuşdur. Əsasən qida, yüngül və digər sənaye sahələrini birləşdirən bu mühüm sahə XX əsrin ortalarından başlayaraq daha intensiv inkişaf yoluna qədəm qoydu. Azərbaycanda istehsal olunan daş duzu, molibden, sink, qurğuşun, mineral suların əksər hissəsi, xam ipək, tikinti materialları, mərmər, şərab, meyvə, mürəbbə konservləri muxtar respublikanın böyük hissəsini təşkil edirdi.

Naxçıvanda mineral ehtiyatların hasilatı xüsusi yer tutur. Muxtar respublikada sənaye qaya duzu, dolomit, travertin, tuf, əhəngdaşı, mərmər, gips, gil, qum, mergel, sink - qurğuşun, molibden, mis, molibden, qızıl, tikinti materialları, o cümlədən dəmir-beton, kərpic, travertin, mərmər və digər məmulatların istehsalı, əlverişli şəraitdə dünya bazarında mövcud məhsulların istehsalının genişləndirilməsi müxtəlif növ mineral su kimi zəngin təbii sərvətlərə malikdir.

Son zamanlar muxtar respublikada kimya sənayesi müəssisələri çörək məhsulları, un, ət və süd məhsulları, quş əti, makaron, çay, şəkər, duz, şirniyyat, meyvə şirəsi, spirtli içkilər, pasterizə və qablaşdırılmış bal, qovrulmuş və qablaşdırılmış kənd təsərrüfatı məhsulları, mineral sular, dekorativ daşlar, travertin üzlük daşları, plastik materiallar, əhəng, alm, mərmər, müxtəlif növ mebel, çuqun, əlvan metal emalı zavodu və s. kimi məhsulların istehsalı ilə məşğuldur.

Açar sözlər: *məhsul, Naxçıvan Muxtar Respublikası, mineral maddələr, neft kimyası, kimyəvi tərkib*

Giriş

Naxçıvanda elminin formalaşması və inkişafında kimyanın da özünəməxsus rolu olmuşdur. Kimya elmi qədimdən Naxçıvanın mühüm elm mərkəzlərindən biri kimi tanınmışdır. Naxçıvan torpağı orta əsrlərdə Azərbaycan elminə təkcə ölkəmizdə deyil, bütün Yaxın və Orta Şərqdə şöhrət qazanmış onlarla görkəmli alim, mütəfəkkir, filosof, hüquqşünas, filoloq, tarixçi və sair bəxş etmişdir. Əhməd ibn Hacəf Nəşəvi, Əkməleddin Naxçıvani, Kəmaləddin Naxçıvani, Nəcməddin Naxçıvani, İzzəddin Naxçıvani, Həsən ibn Ömər Naxçıvani, Hinduşah Naxçıvani, Məhəmməd Naxçıvani, Fəxrəddin Naxçıvani, Baba Nemətullah Naxçıvani, Fəzlullah Nəimi və başqaları bütün Şərq dünyasının elm xəzinəsinə dəyərli töhfələr vermişlər. Böyük elm xadimi kimi şöhrət qazanmış Nəsirəddin Tusinin də tərcümeyi-halı Naxçıvanla əlaqədardır [1; 14-15].

Bununla yanaşı, naxçıvanlı kimyaçı alimlərdən biri olan görkəmli akademik Y.Məmmədəliyevin kimya sahəsində kəşfləri nəinki səmaları, hətta kosmosu fəth etməyə imkan verib. Bu metod ilə alınan yüksəkkeyfiyyətli raket yanacaqlarından Yerin ilk süni peykinin buraxılması və insanın kosmosa uçuşunda istifadə edilib. Dahi alim haqlı olaraq Qələbə Paradına və Yuri Qaqarinin kosmosa ilk uçuşu münasibətilə təşkil olunan ali tədbirə dəvət olunub və orada ölkəmizi layiqincə təmsil edib [2; 12].

Misilsiz və əvəzsiz xidmətlərinə görə Y.Məmmədəliyev Azərbaycanın ilk kimyaçı akademiki, Azərbaycan Dövlət Universitetinin rektoru, iki dəfə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti olub. Bu illər ərzində elmimizin inkişafı və milli mədəni dəyərlərimizin qorunması uğrunda yorulmadan çalışıb, onlarla elmi-tədqiqat institutu, yeni istiqamətli laboratoriya, kafedra və elm ocağının yaradılmasına nail olub [3; 34].

Naxçıvanda təmiz hava, günəş radiasiyasının bolluğu, eləcə də təbii mineral suların bolluğu sağlamlıq turizminin inkişafına mühüm təsir göstərir. Apardığımız statistik məlumatların təhlili göstərir ki, Naxçıvanda daşduz istehsalı 1993-cü ildə 3,3 min ton, 1995-ci ildə 5,3 min ton olmuşdursa, 1997-ci ildən başlayaraq daşduz istehsalı yenidən azalmağa başlamışdır [4; 45-48]. 2003-cü ilin məlumatına görə il ərzində 4,6 min ton daşduz istehsal olunmuşdur.

Bu daşduzlardan olan Nehrəm duzunun təmizlənməsi və susuzlaşdırılmış soda sənayesində istifadəsi məsələsi mübahisəli olaraq hələ də qalmaqdadır. Mədənlərdən çıxarılan duzun tərkibi aşağıdakı kimidir [5; 15]:

- Natrium-xlorid;
- Kalsium-sulfat;
- Maqnezium-sulfat;
- Maqnezium-xlorid;
- Kalsium-xlorid.

Kimyəvi tərkibinə görə Naxçıvanın Süst və Duzdağ mədənlərinin birinci və ikinci laylarından çıxarılan duz emal edilmədən kimya və yeyinti sənayesində emal edilir. Məlum olduğu kimi, bu mədənlərdən çıxarılan duzun keyfiyyəti Qazaxstan Respublikasının Aktyubinisk, Ukrayna Respublikasının Slavyansk, Türkmənistan Respublikasının Kuli duz yataqlarının keyfiyyətindən yaxşıdır [6; 78-79]. Süst və Duzdağ mədənlərindən çıxarılan duzun tərkibində natrium-xloridin (NaCl) çoxluğu, Na_2SO_4 və Mg_2SO_4 azlığı onun susuzlaşmış soda istehsalında keyfiyyətli xammal olmasını sübut edir.

Süst və Duzdağ duz mədənlərinin sənaye əhəmiyyətli istehsalının səmərəliliyi baxımından, duz mədənlərinin istismarında hansı texnoloji üsulların tətbiqinin seçilməsi böyük əhəmiyyətə malikdir. Nehrəm və Süst düzünün duz ehtiyatının tərkibində natrium-xlorun miqdarı azdır. Əvvəlki iki maddənin (Na_2SO_4 və Mg_2SO_4) duzuna nisbətən çətin həll olunması ilə fərqlənir.

Bundan əlavə olaraq, Naxçıvanda olan göllərin də su kütləsinin kimyəvi tərkibi təbii və antropogen amillərin təsiri ilə formalaşaraq zamanla çirklənmə və minerallaşmaya doğru dəyişilir. Göl sularının hidrokimyəvi xassələrinin formalaşmasına fiziki-coğrafi amillər (iqlim, relyef, aşınma, səth suları ilə əlaqə, torpaq örtüyü və s.); geoloji amillər (hidrogeoloji şərait, süxurların litoloji tərkibi və s.); fiziki-

kimyəvi amillər (suların tərkibindəki elementlərin xüsusiyyətləri, turşu-qələvi və oksidləşmə şəraiti, kation mübadiləsi və s.); bioloji amillər (bitki və canlı orqanizmlərin müxtəlifliyi, ehtiyatı, kütləsi, fəaliyyəti və s.); antropogen amillər (insan fəaliyyəti ilə əlaqəli təsirlər) təsir göstərir. Göllərdən kimyəvi analiz üçün götürülmüş su nümunələrinin təhlili göstərir ki, minerallaşma dərəcəsi 1,0-45 q/m2 arasında dəyişilir. pH göstəricisi 6,1-8,95, ümumi codluq 20,5-850,0 mqekv/dm3 arasında dəyişilir [7; 56-58]. Müəyyən edilmişdir ki, göl sularında kationlardan qələvi metallar, kalsium və maqnezium üstünlük təşkil edir.

Göllərin su kütləsində xlorid və sulfat ionlarının miqdarı bir-birinə yaxındır. Anionlardan HCO_3 - ionları, kationlardan isə Ca^{2+} ionları üstünlük təşkil edir. Buna görə də əksər göllərin suları az minerallı olmaqla hidrokarbonatlı-kalsiumludur. Mineral maddələrin ümumi miqdarı ilin fəsillərindən asılı olaraq 49-93 mq/l arasında dəyişilir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərliyə gəldiyi 1969-cu ildən başlayaraq cəmiyyət həyatının digər sahələri ilə yanaşı, elmin inkişaf etdirilməsinə də həmişə xüsusi diqqət yetirilmiş və ona daim qayğı göstərilmişdir. Diqqətə layiqdir ki, yüksək intellektə malik görkəmli dövlət xadimi Heydər Əliyev öz fəaliyyətində və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni nailiyyətlərindən faydalanmışdır [8; 52]. O, Azərbaycan cəmiyyətinin, mənsub olduğu xalqın inkişafını elmdə, yüksək intellektin formalaşmasında görmüşdür. Bunun üçün elmin inkişafına mane olan bütün halların aradan qaldırılması və onun inkişafının təmin edilməsi üçün əsaslı tədbirlər həyata keçirilmişdir. Bundan sonra respublikada, sözün həqiqi mənasında, ciddi elmi irəliləyişlər baş vermiş, bu sahədə nəzərəçarpacaq böyük uğurlar qazanılmışdır. Yeni elmi mərkəzlər, elmi-tədqiqat institutları yaradılmış və onları yüksək səviyyəli kadrlarla, yeni texnologiya ilə təmin etmək üçün əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Xüsusən minlərlə gəncin keçmiş SSRİ-nin ali təhsil müəssisələrinə təhsil almağa göndərilməsi yeni nəsil elmi kadrların hazırlanmasına sanballı töhfələr vermişdir.

Regional Elmi Mərkəzin əsas vəzifəsi Naxçıvan Muxtar Respublikasının təbii xammal ehtiyatlarının kompleks şəkildə öyrənilməsi və səmərəli istifadə olunmasının elmi əsaslarının işlənib hazırlanması, muxtar respublikanın sosial-iqtisadi inkişafını, tarixini, arxeoloji, epiqrafik, etnoqrafik və folklor abidələrini öyrənməkdən ibarət idi [9; 25].

Regionda elmin inkişafında 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi yaradılan, 1972-ci ildə müstəqil Pedaqoji İnstituta, 1990-cı ildə isə Dövlət Universitetinə çevrilən Naxçıvan Dövlət Universitetinin də müstəsna rolu vardır. Bu ali təhsil ocağında formalaşmış münbit elmi mühit elmi dərəcəli, yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına, elm sahəsində ciddi nailiyyətlərin qazanılmasına müsbət təsir göstərmişdir.

Nəticə

Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, Naxçıvanda kimyanın insan həyatına təsiri ikili xarakter daşıyır. Böyük faydalarına baxmayaraq, kimya insanlara və ətraf mühitə həm yardımçı olar, həm də zərər gətirə bilər. Yuyucu tozlar insan

dərisinin qıcıqlanmasına səbəb ola bilər. Uzun müddət lakların və bəzi boyaların inhalyasiyası zəhərlənməyə səbəb ola bilər. Gübrələrdən istifadə miqdarının həddindən artıq olması meyvələrdə və göyərtilərdə toplanaraq, mədə-bağırsaq xəstəliklərinin yaranmasına səbəb ola bilər.

ƏDƏBİYYAT

1. Abbasov, V.M. (2019). Ümumi kimyanın əsasları. Dərslik. Bakı, s.14-15.
2. Əliyev, Ə. (2019). Ümumi və qeyri-üzvi kimya. Bakı, 12 s.
3. Əliyev, Ə.B., Məmmədov, R. M. (2020). Ümumi və qeyri-üzvi kimya. Bakı, 34 s.
4. Həmidov, R.S., Dadaşbəyova, Z. Q. (2018). Kimya. Dərslik. Bakı, s.45-48.
5. Qarayev, Z.Ş. (2020). Qeyri-üzvi kimya. Bakı, 15 s.
6. Lətifov, İ.U. (2018). Kimya. Bakı, s.78-79.
7. Musayev, Ş. (2019). Ümumi kimya. Bakı, s.56-58.
8. Novruzov, S.Ə. (2020).Ümumi kimyanın əsasları. Bakı, 52 s.
9. Sadıqzadə, S.İ. (2018). Ümumi kimya praktikumu: ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı, 25 s.

ABSTRACT

Sara Alibeyli

THE ROLE OF CHEMISTRY IN THE DEVELOPMENT OF NAKCHIVAN AND NATURAL RESOURCES OF NAKHCHIVAN

The chemistry industry of the Nakhchivan Autonomous Republic has historically occupied one of the leading positions in the economy of Azerbaijan. This important field, which mainly combines food, light and other industries, entered the path of more intensive development starting from the middle of the 20th century. Most of the rock salt, molybdenum, zinc, lead, mineral water, raw silk, construction materials, marble, wine, fruit, jam preserves produced in Azerbaijan made up the majority of the autonomous republic.

Extraction of mineral resources occupies a special place in Nakhchivan. In the autonomous republic, industrial rock salt, dolomite, travertine, tuff, limestone, marble, gypsum, clay, sand, marl, zinc - lead, molybdenum, copper, molybdenum, gold, building materials, including reinforced concrete, brick, travertine, marble and the production of other products, expanding the production of products available in the world market under favorable conditions, has rich natural resources such as various types of mineral water.

Recently, industrial enterprises in the Autonomous Republic have been producing bakery products, flour, meat and dairy products, poultry, pasta, tea, sugar, salt, sweets, fruit juice, alcoholic beverages, pasteurized and packaged honey, roasted and packaged agricultural products, mineral waters, decorative stones, travertine facing stones, plastic materials, lime, alum, marble, various types of furniture, cast iron, non-ferrous metal processing plant, etc. is engaged in the production of such products.

Keywords: *product, Nakhchivan Autonomous Republic, mineral substances, petrochemicals, chemical composition*

РЕЗЮМЕ

Алибейли Сара

РОЛЬ ХИМИИ В РАЗВИТИИ НАХЧЫВАНА И ПРИРОДНЫЕ РЕСУРСЫ НАХЧЫВАНА

Промышленность Нахчыванской Автономной Республики исторически занимала одно из ведущих мест в экономике Азербайджана. Эта важная отрасль, объединяющая в основном пищевую, легкую и другие отрасли промышленности, с середины XX века вступила на путь более интенсивного развития. Большую часть производимой в Азербайджане каменной соли, молибдена, цинка, свинца, минеральной воды, шелка-сырца, строительных материалов, мрамора, вина, фруктов, варенья составляли большую часть продукции автономной республики.

Особое место в Нахчыване занимает добыча полезных ископаемых. В автономной республике добывают каменную соль техническую, доломит, травертин, туф, известняк, мрамор, гипс, глину, песок, мергель, цинк-свинец, молибден, медь, молибден, золото, строительные материалы, в том числе железобетон, кирпич, травертин, мрамор и производство других изделий, расширяя производство продукции, доступной на мировом рынке при благоприятных условиях, располагает богатыми природными ресурсами, такими как различные виды минеральной воды.

В последнее время промышленные предприятия Автономной Республики производят хлебобулочные изделия, муку, мясную и молочную продукцию, мясо птицы, макароны, чай, сахар, соль, сладости, фруктовые соки, алкогольные напитки, мед пастеризованный и фасованный, сельскохозяйственную продукцию жареную и фасованную, минеральные воды, декоративные камни, облицовочные камни из травертина, пластические материалы, известь, квасцы, мрамор, различные виды мебели, чугун, завод по обработке цветных металлов и т. д. занимается производством такой продукции.

Ключевые слова: *продукт, Нахчыванская Автономная Республика, минеральные вещества, нефтехимия, химический соста*

SAMİRƏ MUSTAFAYEVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
mustafasamire26@gmail.com

KİMYANIN TƏDRİSİNDƏ KONSTRUKTİVİST ÖYRƏNMƏNİN ROLU

XÜLASƏ

Konstruktivist öyrənmə əhəmiyyət qazandıqdan sonra effektiv və daimi öyrənmənin həyata keçirilməsi üçün təhsil sahəsində tədqiqatlar geniş vüsət almışdır. Öyrənmə və tədris mühitlərində verilən təhsilin səmərəliliyi və davamlılığı müvafiq metodların müəyyən edilərək tətbiqi ilə mümkündür. Bu səbəbdən tədris metodunun seçimində şagirdlərdə mövcud olan düzgün olmayan təsəvvürlərin müəyyən edilməsi və hazırlanacaq fəaliyyətlərdə bu qeyri-düzgün təsəvvürlərin nəzərə alınması getdikcə daha çox əhəmiyyət kəsb edir.

Açar sözlər. *konstruktivist öyrənmə, effektiv və daimi öyrənmə, tədris metodu, təhsilin səmərəliliyi*

Kimya təhsili sahəsində son illərdə şagirdlərdə yanlış qavramaların aşkar edilməsi, bu yanlış anlamaların yaranma səbəblərinin müəyyən edilməsi və aradan qaldırılması istiqamətində tədqiqatlar aparılır. Ədəbiyyat araşdırmalarında şagirdlərin kimya kursunda uğursuzluqlarının əsas səbəbi kimi onların tədris prosesi zamanı kimyanın əsas anlayışlarını tam öyrənə bilməmələri göstərilmişdir. Bu vəziyyət mövcud natamam öyrənmənin təsiri ilə tələbələri çətinlik səviyyəsi yüksək olan sonrakı mövzuların öyrənilməsində uğursuzluğa sürükləyir.

Konstruktivist öyrənmə əhəmiyyət qazandıqdan sonra effektiv və daimi öyrənmənin həyata keçirilməsi üçün təhsil sahəsində tədqiqatlar geniş vüsət almışdır. Öyrənmə və tədris mühitlərində verilən təhsilin səmərəliliyi və davamlılığı müvafiq metodların müəyyən edilərək tətbiqi ilə mümkündür. Bu səbəbdən tədris metodunun seçimində şagirdlərdə mövcud olan düzgün olmayan təsəvvürlərin müəyyən edilməsi və hazırlanacaq fəaliyyətlərdə bu qeyri-düzgün təsəvvürlərin nəzərə alınması getdikcə daha çox əhəmiyyət kəsb edir.

Pedaqoqlar işlədikləri illər ərzində oxşar suallara cavab axtarıblar: “Öyrənmə necə baş verir? ”, “Əvvəlki məlumatlara yeni məlumatlar əlavə edildikdə beyində informasiya necə formalaşır?”, “Yeni məlumat əvvəlki biliklərlə ziddiyyət təşkil etdikdə məlumat necə formalaşır?”, “İnformasiyanın formalaşmasında hansı amillərin təsiri vardır?”. Bu və buna bənzər suallar zaman keçdikcə artır və araşdırmalara baxmayaraq, heç bir həll yolu tapılmır. Tədris metod və üsulları dəfələrlə nəzərdən keçirilmiş, tətbiqi Nəticələri qiymətləndirilmiş, Nəticələr elmi məqalələrə mövzu olmuş və nəşr edilmişdir.

Konstruktivist təlim nəzəriyyəsinə görə, tədris prosesinin əsas elementi müəllim deyil, şagirddir. Bu öyrənmə nəzəriyyəsində müəllim və şagirdin rolu ənənəvi nəzəriyyələrə baxmayaraq, yenidən müəyyən edilmişdir [3].

Sinif içində yanaşmalarda Konstruktivist yanaşmanı seçən müəllimlə ənənəvi müəllimin rolları fərqlilik göstərir. Ənənəvi müəllim kitablardan, müxtəlif elmi mənbələrdən aldığı elmi məlumatları şagirdlərinə ötürür. Konstruktivist yanaşmada vəziyyət tamam başqadır. Konstruktivist müəllim şagirdlərin verdiyi suallara birbaşa cavab vermək əvəzinə, tələbələri düşünməyə və araşdırma apararaq məlumatı tapmağa sövq etməlidirlər [7].

İşman və başqaları konstruktivist müəllimin rollarını aşağıdakı kimi sıralamışdır [6]:

1. Konstruktivist müəllim şagird anatomiyasını dəstəkləyir və qəbul edir. Başqa sözlə, o, tələbəni öyrənmə və tədris mühitində müstəqil və şüurlu rollar almağa yönəldir. Elmi öyrənərkən şagirdin elmi düşünməsi və müxtəlif şeyləri ortaya çıxarması üçün müəllim şagirdlərin dərketmə qabiliyyətlərindəki fərqlərindən xəbərdar olmalıdır.

2. Konstruktivist müəllim real məlumatlardan və müasir resurslardan istifadə edir. Başqa sözlə, müasir inkişafları izləyir və onları sinif mühitinə gətirir. Kimya dərsinin mövzuları da həyatın bir parçası olduğundan, mövzuların daha başa düşülən və qalıcı olması üçün müəllim onları aktual hadisələr və nümunələrlə dəstəkləməlidir.

3. Konstruktivist müəllim elmi olan təsvir etmə, təhlil, qiymətləndirmə, proqnozlaşdırma, düşünmə və idrak terminlərindən istifadə edir. Bunun əsas məqsədi yaddaşlarda öyrənməni effektiv şəkildə qurmaqdır. Bu kontekstdə şagirdlərə elm öyrədərkən onların fikirlərinə önəm verilməli, mövzuya baxışları qiymətləndirilməlidir. Çünki tələbələr öz bacarıq və qabiliyyətləri ilə öyrəndikdə öyrənilənlərin formalaşdırmaq daha asan olur.

4. Konstruktivist müəllim şagirdlərin dərsləri istiqamətləndirmələrini, yeni metodlar tətbiq etmələrini və alternativ mövzular təklif etmələrini qəbul edir. Bunun faydası ondan ibarətdir ki, tələbə öz öyrənmə ehtiyaclarını aktiv şəkildə ödəyir. Kimya fənnində hər mövzu fərqli bir hadisəni izah edir və bu hadisələrə tələbələrin maraqları və ehtiyacları da bir-birindən fərqlidir. Müəllim bu şagirdlərdəki fərqlilikləri nəzərə almalı, şagirdlərin maraq və ehtiyaclarına uyğun olaraq, müxtəlif üsul və üsullarla dərsi dəstəkləməlidir.

5. Konstruktivist müəllim biliklərini bölüşməzdən əvvəl şagirdlərin mövzuları anlama yollarını üzə çıxarmağa çalışır. Başqa sözlə desək, şagirdin yaddaşında yeni informasiyanı necə qurduğunu müəyyənləşdirir. Kimya dərslərində mövzular digər dərslərə nisbətən daha çox bir-birini tamamlayan olub, bir mövzu digərini dəstəkləyir. Elmi məlumatları öyrənərkən köhnə məlumatların üzərində yeniləri qurulur. Bu səbəbdən müəllimlər şagirdlərin hazırlıq səviyyəsindən xəbərdar olmalıdırlar.

6. Konstruktivist müəllim tələbələrin müəllimləri və digər dostları ilə dialoq qurmalarına dəstək olur. Qurulacaq əlaqələr ilə informasiyalar yayılır və effektiv şəkildə formalaşır. Bu isə tələbələrə çoxlu müxtəlif fikirlərin olduğunu başa düşməyə kömək edir.

7. Konstruktivist müəllim tələbələri öz aralarında ağıllı və açıq suallar verməyə təşviq edir. Beləliklə, tələbə mərkəzli öyrənmə və tədris fəaliyyətləri həyata keçirilmiş

olur. Şagirdlərin kimya fənni üzrə elmi bilikləri öz yaddaşlarında formalaşdırıb qruplaşdırmaları üçün müəllim sinifdə avtoritet fiqur olmamalı, şagirdlərin fəal rol almasını təmin etməlidir. Müəllim sinifdə şagirdlərin bir-birinə düşünməyə sövq edən suallar vermələri istiqamətində yönləndirməlidir.

8. Konstruktivist müəllim şagirdin öz məsuliyyət hissinin inkişafına dəstək verir. Bu daxili davranış tələbələrin özlərini inkişaf etdirməsinə kömək edir. Kimyada hər bir mövzu elmi proses tələb etdiyindən və tələbələr bir alim kimi araşdırmalar, təhlillər aparıb Nəticə əldə etdikləri üçün şagirdlərdə məsuliyyət hissinin formalaşmasına kömək edir. Beləliklə, tələbədə məsuliyyət hissinin inkişafı ilə onun özünü təkmilləşdirməsi daha da asanlaşmış olur.

9. Konstruktivist müəllim tələbələrə müzakirə qrupları yaratmağa və fərziyyələr inkişaf etdirməyə imkan verəcək təcrübələr qazanmağa kömək edir. Şagirdlər lazım olan məlumatları öyrənmək üçün müvafiq qruplar təşkil edir və problemlərin həlli üsullarını araşdırmağa başlayırlar. Kimya dərsləri elmi şəkildə aparılmalı və tələbələrin bu elmi məlumata müəllimlərin rəhbərliyi altında çatmağı gözlənildiyi üçün onların işləyə biləcəyi müvafiq qruplar yaradılmalı və birgə öyrənmə təmin edilməlidir.

10. Konstruktivist müəllim suallar verildikdən sonra onlara cavab vermək üçün gözləmə vaxtı verir. Bu, tələbələrə düşünməyə və yeni metodlar inkişaf etdirməyə imkan verir.

11. Konstruktivist müəllim şagirdlərə özlərini inkişaf etdirməyə və fənlər arasında əlaqələri inkişaf etdirməyə imkan verir və bunun üçün uyğun vaxt verir. Fundamental fənlər bir-biri ilə sıx bağlı olduğundan müəllim şagirdlərə digər fənlərlə, hətta başqa dərslərlə əlaqə yaratmağa, bu fənlərlə dərslər arasındakı əlaqəni başa düşməyə kömək etməlidir.

12. Konstruktivist müəllim şagirdlərin təbii maraqlarını inkişaf etdirməyə kömək edir. Hər bir tələbənin fərqli maraq dairəsi ola bilər. Bu müxtəlif maraq dairələri inkişaf etdirilməli və onun əhəmiyyəti tələbəyə öyrədilməlidir. Kimyada çoxlu sayda əhatəli mövzuların olması tələbələrə bu maraq dairələrini daha yaxşı anlamağa və inkişaf etdirməyə imkan verir.

Konstruktivist təhsilin ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, o, şagirdə biliyi yaratmağa, formalaşdırmağa, şərh etməyə və inkişaf etdirməyə imkan verir. Ənənəvi metodda müəllim bilik verə bilər və ya tələbələr bilikləri kitablardan və ya digər mənbələrdən əldə edə bilərlər. Lakin biliyin qavranılması biliyin strukturlaşdırılması ilə sinonim deyil. Şagird yeni informasiya ilə qarşılaşdıqda, o, dünyanı təsvir etmək və izah etmək prosesində əvvəllər yaratdığı qaydalardan istifadə edir və ya qəbul etdiyi məlumatı izah etmək üçün yeni qaydalar yaradır [2]. Başqa sözlə, konstruktivizm ətraf mühitlə insan beyni arasında güclü əlaqə yaradır [9].

Şagirdin aktiv rol aldığı konstruktivist təlimdə sadəcə oxumaq və dinləmək əvəzinə öyrənmə müzakirə etmək, fikirləri müdafiə etmək, fərziyyələr formalaşdırmaq, sual vermək və fikirləri bölüşmək kimi təlim prosesində fəal iştirak etməklə həyata keçirilir. Şəxslərin qarşılıqlı əlaqəsi vacibdir. Öyrənənlər biliyi olduğu kimi qəbul etmir, biliyi yaradır və ya yenidən kəşf edirlər [8].

Konstruktivist yanaşmaya əsaslanan təlim-tədris prosesləri ənənəvi yanaşmalarla müqayisədə müəyyən fərqlər göstərir. Konstruktivizmə əsaslanan təlimdə şəxsin

mövcud olan biliklərinə yeni məlumatlar əlavə edilməklə möhkəm əsas formalaşdırılır. Bu, üst-üstə düşmə kimi qəbul edilməməlidir. Şəxs əvvəlki təcrübələrindən və qabaqcıl biliklərindən istifadə edərək biliyini yenidən formalaşdırır.

Konstruktivizmlə bağlı araşdırmalar göstərir ki, şəxsdə biliyin formalaşdırılmasında ən mühüm addım ilk növbədə, əgər varsa, yanlış əvvəlki bilikləri müəyyən etmək və düzəltməkdir. Çünki şagird yeni əldə etdiyi biliyi bu ilkin biliklər üzərində qurur. Buna görə də ilkin məlumat səhv olarsa, onların üzərində qurulan məlumat da yanlış ola bilər [5].

Şagirdlər, ümumiyyətlə, sahib olduqları bu yanlış təsəvvürləri dəyişdirməkdə çox mühafizəkardırlar və dəyişikliyə müqavimət göstərirlər [1, 4]. Bu vəziyyət onların düzgün, elmi anlayışlar öyrənməsinə mane olur.

ƏDƏBİYYAT

1. Benson, D.L., Wittrouck, M.C. and Baur, M.E. "Students' Preconceptions of The Nature of Gases", Journal of Research in Science Teaching, 1993, 30(6), 587–597.
2. Brooks, J. G., & Brooks, M. G. The Case for The Constructivist Classroom. Newyork: ASCD. 1993.
3. Feyzioğlu, B. Farklı Öğrenme Süreçlerinin Temel Kimya Öğretilmesinde ve Kavram Yanılgılarının Giderilmesinde Kıyaslamalı Olarak Uygulanması. (Doktora Tezi, 9 Eylül Üniversitesi Eğitim Bilimleri Enstitüsü). 2006.
4. Fellows, N. A window into thinking: Using student writing to understand conceptual change in science learning. Journal of Research in ScienceTeaching, 1994, 31, 985-1001.
5. Hewson, P.W., & Hewson, M.G. The role of conceptual conflict in conceptual change and the design of science instruction. Instructional Science, 1984, 13, 1-13.
6. İşman, A., Baytekin, Ç., Balkan, F., Horzum, B. ve Kıyıcı, M. (2002). "Fen bilgisi eğitimi ve yapısalcı yaklaşım". The Turkish Online Journal of Educational Technology. Sayı:1, Ekim
7. Kılıç, G.B., (2001). Oluşturmacı fen öğretimi. Kuram ve Uygulamada Eğitim Bilimleri, 1(1), pp.7-22.
8. Perkins, D.N. The Many Faces of Constructivısm. Educational Leadership. 1999: 57(2), 354–371.
9. Şaşan, H. H. Yapılandırmacı öğrenme. Yaşadıkça Eğitim, sayı: 2002, (74-75) 49-52.

ABSTRACT

Samira Mustafayeva

THE IMPORTANCE OF CONSTRUCTIVIST LEARNING IN TEACHING CHEMISTRY

Since constructivist learning has gained importance, research in the field of education has become widespread for the implementation of effective and continuous learning. Effectiveness and sustainability of education provided in learning and teaching environments is possible by identifying and applying appropriate methods. For this reason, it is becoming more and more important to determine the wrong ideas that students have in choosing a teaching method and to take these wrong ideas into account in the activities to be prepared.

Keywords: *constructivist learning, effective and permanent learning, teaching method, educational efficiency*

РЕЗЮМЕ

Самира Мустафаева

ВАЖНОСТЬ КОНСТРУКТИВИСТСКОГО ОБУЧЕНИЯ В ОБУЧЕНИИ ХИМИИ

Поскольку конструктивистское обучение приобрело значение, исследования в области образования получили широкое распространение для осуществления эффективного и непрерывного обучения. Эффективность и устойчивость образования, предоставляемого в среде обучения и преподавания, возможна путем определения и применения соответствующих методов. По этой причине становится все более и более важным выявлять неверные представления учащихся при выборе метода обучения и учитывать эти неверные представления при подготовке к занятиям.

Ключевые слова: *конструктивистское обучение, эффективное и постоянное обучение, метод обучения, эффективность обучения*

GOYCHEK ALIYEVA

Nakhchivan State University
Nakhchivan State Technical College
agoycek56@gmail.com

ABOUT THE COGNITIVE LINGUISTICS

ABSTRACT

This article explores the evolution and significance of the cognitive paradigm in modern linguistics, tracing its development from the mid-20th century. It discusses how this paradigm, which originated in psychology with figures like J.Miller and W.Neisser, critiques the behavioral paradigm and integrates interdisciplinary interests, especially from computer science and information theory. The cognitive paradigm emphasizes the study of mental representations and knowledge processing, forming the foundation of cognitive science.

Cognitive linguistics, which stems from this broader cognitive framework, investigates how language functions as a tool for cognition and knowledge expression. It takes into account both linguistic and non-linguistic factors that affect language understanding. The article stresses that cognitive linguistics extends the rational analysis of linguistic phenomena by considering external factors influencing discourse. The cognitive function of language is defined as a means of mastering knowledge and expressing consciousness.

The article also addresses debates within linguistics about the validity of cognitive linguistics, arguing that it indeed exists as a distinct field focused on the psychological explanation of language forms, categorization, and meaning construction. The article concludes that cognitive linguistics is a valuable component of cognitive science, exploring the deeper semantics and mental representations behind linguistic forms.

Keywords: *cognitive, linguistics, paradigm, anthropology, cognitive psychology, frame, cognitive structures*

Linguistics of the twentieth century has left a rich legacy to the 21st century: traditional grammar, comparative historical linguistics, logical, psychological, sociological and neo-grammatic directions, structuralism and sign theory of language, typological linguistics and linguistic universals. We believe that only these areas are not considered the current problems that exist in modern linguistics. Bringing clarity to the concept of cognitive paradigm is the subject of this article. In the development of any science, including linguistics, there is a gradual change of scientific paradigms. The term "paradigm of scientific knowledge" was introduced by T.Kuhn, here he defines the paradigm as "scientific achievements recognized by all, which for a certain time give the scientific community a model of problem formulation and their solutions" [1, p.11].

Cognitive paradigm arises in the middle of the XX century in psychology. Its founders are American Psychologists J. Miller and W. Neisser. In 1967, a book was published in New York by W. Neisser's "Cognitive Psychology", research and, what we face more than once, the inter-disciplinarity of interests. The cognitive paradigm arises as a critique of the behavioral paradigm, taking into account post-war historical changes in relation to the changes that entry into computer science generates in the field of communication and, consequently, in the process of cognition. Also known as an integral part of cognitive science, it includes a number of theories that seek to study the mental representation of knowledge processes in relation to human learning and behavior to solve problems. It is created in rationalism, taking into account reason as the source of all knowledge. Cognitivism has been developing since the beginning of the 20th century and focuses mainly on education and meaningful learning. In addition to psychology, the source of the formation of the cognitive paradigm is information theory, its applied section related to the creation of computer programs. Another borderline linguistic source is engineering linguistics, its fields related to the formation of so-called artificial intelligence and the formation of the so-called universal semantic code based on natural language. Thus, the cognitive paradigm connects various fields of knowledge and includes a number of sciences. It is even customary to talk about cognitive science, or cognitology, which studies human mental activity and the results of this activity – knowledge about the world. One of the objects of cognitology is language as a means of cognition, i.e. the cognitive process.

Based on the above-mentioned statements, we argue that the cognitive approach to language research is conditioned by the need to achieve an understanding of knowledge (expressed in the form of text or speech). At the same time, non-linguistic factors that complicate or facilitate the process of understanding are taken into account and analyzed. As a result, cognitive linguistics expands its links with those sciences and disciplines, the subject of which are the factors that somehow affect the functioning of linguistic phenomena. Thus, cognitive linguistics attempts to "expand the rational foundations of the analysis of linguistic discourse by taking into account non-linguistic factors" [2, p.159].

Here is an example of cognitive paradigm. Characterizing the development of a child, psychologists up to the 60s focused primarily on the study of thinking and the allocation of different stages of the subject-cognitive activity carried out by him in the formation of a child. With the advent of cognitive psychology and the spread of views on a person as having a special cognitive system that serves the processing and processing of information, its storage, etc., the angle of consideration of how a child's mental development proceeds has also changed. And here, initially, the emphasis was placed on how the child's mental representations of the world are formed and in what form they exist in his mind; but gradually, the cognitive development of the child (cognitive development) begins to mean a wider range of phenomena related to the child's mastery of the means and methods of handling information, with the formation of the cognitive system itself with all its components, such as perception, imagination, the ability to reason and solve problems, etc.

Nevertheless, there is complete certainty in the definition of the cognitive function of language, which considers language as an instrument of cognition, as a means of mastering knowledge and socio-historical experience and as a way of expressing the activity of consciousness. Some scientists, arguing about the contribution of cognitive linguistics to modern linguistics, conclude that the approaches and results developed here, although enriching linguistics, do not create either a new object (more precisely, the subject) of research, or even a new method, and that therefore "it is legitimate to believe that cognitive linguistics does not exist – already because that there is no cognitive linguistics [3, p. 111]. But here we think the opposite: cognitive linguistics, of course, exists (as does non–cognitive linguistics, for example, structural), and within its framework a special understanding of the term of interest to us is formed, which is ambiguous and has content. Here is another fragment of the general assessment of cognitive linguistics. "If we look at cognitive linguistics not from the side of what stimulated its appearance (the study of thinking and cognitive activity, cognition), but from the point of view of its subject place in the system of language levels of language, it will be found that it generally studies the content parameters of language. These are the areas of cognitive semantics, spatial semantics, frame semantics. This is the study of categories and categorization, concepts and conceptualization, metaphor and metaphorization, references, informational aspects of speech activity (nomination, activation, figure-background), mental language, etc linguistics [4, p. 41].

Consideration of the semantics of the term cognitive allows not only to supplement the information about the terminology of the cognitive paradigm of knowledge, but also to bring greater clarity to the understanding of what cognitive linguistics is. Firstly, this science is one of the main sciences of the entire cognitive cycle, of all sciences developing under the auspices of cognitive science as such. Secondly, today cognitive linguistics is represented by a number of quite different schools. At the same time, they are undoubtedly united by the desire to give a psychological explanation to linguistic facts and linguistic categories and somehow correlate linguistic forms with their mental representations and with the experience that they reflect as knowledge structures. Thirdly, cognitive linguistics deals mainly with ultra-deep semantics and is primarily interested in the content aspects of language forms. In this regard, very often the specifics of cognitive linguistics are associated with its focus on the study of the construction of meaning, its dynamics, the complexity of the formation of meaning within different constructions and in discourse, etc. [3. 210]. The inclusion of the term cognitive in its name is thus very significant and allows for a proper distinction between cognitive linguistics and functional linguistics, despite some points of intersection between them and, in particular, their opposition to formal linguistics.

REFERENCES

1. Kuhn, T. The structure of scientific revolutions. – M.: Progress, 1977. – 288 p.
2. Kutsova, E.L. The problem of understanding in cognitive linguistics. // Collection of international conf. "Language, word, utterance". – Vol.2 – Chelyabinsk, April 2008. – pp.156-159.
3. Cognitive Linguistics: Foundations, Scope, and Methodology. Ed. By T.Janssen and G.Redeker. Berlin, N.Y.: Mouton de Gruyter.
4. Croft, W. Some contributions of typology to cognitive linguistics and vice versa.: Cognitive Linguistics.

XÜLASƏ

Bu məqalə müasir dilçilikdə koqnitiv paradiqmanın təkamülü və əhəmiyyətini araşdırır, onun 20-ci əsrin ortalarından etibarən inkişafını izləyir. Psixologiyada J. Miller və W.Neisser kimi fiqurlarla yaranan bu paradiqmanın davranış paradiqmasını necə tənqid etdiyini və fənlərarası maraqları, xüsusən də kompüter elmləri və informasiya nəzəriyyəsini necə birləşdirdiyini müzakirə edir. Koqnitiv paradiqma idrak elminin əsasını təşkil edən zehni təmsillərin və biliklərin emalının öyrənilməsini vurğulayır.

Bu daha geniş koqnitiv çərçivədən qaynaqlanan koqnitiv dilçilik dilin idrak və biliyin ifadəsi vasitəsi kimi necə fəaliyyət göstərdiyini araşdırır. O, dil anlayışına təsir edən həm linqvistik, həm də qeyri-linqvistik amilləri nəzərə alır. Məqalədə vurğulanır ki, koqnitiv dilçilik nitqə təsir edən xarici amilləri nəzərə almaqla dil hadisələrinin rasional təhlilini genişləndirir. Dilin idrak funksiyası biliyə yiyələnmək və şüuru ifadə etmək vasitəsi kimi müəyyən edilir.

Məqalədə, həmçinin dilçilik daxilində koqnitiv dilçiliyin etibarlılığı ilə bağlı mübahisələrə də toxunulur, onun, həqiqətən də, dil formalarının psixoloji izahı, kateqoriyalara ayrılması və məna konstruksiyasına yönəlmiş ayrı bir sahə kimi mövcud olduğunu iddia edir. Məqalədə belə bir Nəticəyə gəlinir ki, koqnitiv dilçilik linqvistik formaların arxasında daha dərin semantika və psixi təsvirləri araşdıraraq idrak elminin qiymətli komponentidir.

Açar sözlər: *koqnitiv, dilçilik, paradiqma, antropologiya, koqnitiv psixologiya, freym, koqnitiv strukturlar*

İNARƏ ƏLİYEVA **SƏİDƏ ABDULLAYEVA**
Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
nihadmurad4022@gmail.com

RİYAZİYYATIN İNKİŞAFI VƏ ONUN CƏMİYYƏTƏ TƏSİRİ

XÜLASƏ

Riyaziyyat insan cəmiyyətinin əsas elmi sahələrindən biri olaraq zamanla inkişaf edib və müxtəlif sahələrə mühüm təsir göstərmişdir. Bu inkişaf yalnız nəzəri və abstrakt nəzəriyyələrlə məhdudlaşmayıb, eyni zamanda cəmiyyətin texnologiyasını, iqtisadiyyatını, səhiyyə sistemini və təhsil strukturunu formalaşdıran əsas vasitəyə çevrilmişdir. Riyaziyyatın inkişafı və onun müxtəlif sahələrdəki tətbiqləri müasir dövrün ən önəmli elmi irəliləyişlərindən biri hesab olunur.

Riyaziyyatın tarixi inkişafı bir çox mühüm mərhələləri özündə birləşdirir. İlk dövrlərdə riyaziyyat əsasən gündəlik həyatın praktiki ehtiyacları üçün istifadə olunurdu. Lakin zamanla riyaziyyat daha nəzəri bir sahəyə çevrildi, bununla yanaşı, elm və texnologiyanın inkişafında mərkəzi rol oynamağa başladı. Riyaziyyatın inkişafı dövrlər və mədəniyyətlərə görə fərqli xüsusiyyətlərə malik olub. Eyni zamanda riyaziyyatın əsas sahələri – həndəsə, alqebra, sayılar nəzəriyyəsi, topologiya, statistik və analitik riyaziyyat – bu inkişafı müəyyən edən əsas amillərdən sayılır. Bütün digər elmlər kimi o da təcrübə ehtiyaclarından yaranmışdır. Xüsusilə o, aşağıdakı problemləri araşdırır: riyaziyyatın təcrübə və digər elmlərlə əlaqəsi; bu və ya digər tarixi dövrdə hansı riyazi fikir və nəzəriyyələrin və nə üçün ön plana çıxdığını; riyaziyyatın ayrı-ayrı hissələrinin tarixi nədir (məsələn, həndəsə); müxtəlif xalqların riyaziyyatının tarixi nədir və s.

Adi riyaziyyat fənlərindən fərqli olaraq, tədris ədəbiyyatında təqdim olunduqda riyaziyyat artıq qurulmuş və dəyişməz bir şey kimi qəbul edilir, riyaziyyat tarixi üçün riyaziyyatın məzmununun dəyişmə mərhələləri, onda yeni mövcud fakt və metodların yaranması xüsusi əhəmiyyət kəsb edir.

Açar sözlər: *cəbr, həndəsə, riyazi analiz, hesablamalar, perspektiv, məsələ*

Riyaziyyat fənni məsələsi F.Engels tərəfindən “Anti-Dürinq” (1878) əsərində qoyulmuş və prinsipcə həll edilmişdir. Bu məqsədlə o, riyaziyyatın yarandığı vaxtdan başlayaraq onun inkişaf tarixini təhlil etmişdir. F.Engelsin gəldiyi Nəticə budur:

“Saf riyaziyyat özünün obyekti kimi real aləmin məkan formaları və kəmiyyət münasibətlərinə, buna görə də çox real materiala malikdir. Bu materialın son dərəcə mücərrəd bir forma alması onun xarici aləmdən mənşəyini cüzi şəkildə gizlədə bilər”. Beləliklə, F.Engelsə görə riyaziyyat real dünyanın fəza formaları və kəmiyyət əlaqələri haqqında elmdir. Bu o deməkdir ki, riyaziyyat real dünyanı deyil, reallıqla sıx bağlı olan, lakin maddi məzmundan ayrılan məkan formaları və kəmiyyət münasibətlərini öyrənir: ədədlər, kəmiyyətlər, xətlər, rəqəmlər və s. Lakin riyazi

abstraksiyalar riyaziyyatın real dünyadan ayrılması demək deyil, əksinə, anlayış nə qədər mücərrəddirsə, onun əhatə etdiyi real hadisələrin diapazonu bir o qədər genişdir və daha geniş tətbiq olunur. Klassik nümunə funksiya anlayışıdır [3].

F.Engelsin tərifi ümumiyyətlə, o dövrün riyaziyyatının mahiyyətini düzgün əks etdirirdi. Lakin o vaxtdan bəri riyaziyyat öz inkişafında çox irəli getdi. Artıq bu tərif çərçivəsində sığmayan bir çox yeni sahələr meydana çıxdı.

Riyaziyyat insanların praktik ehtiyaclarından yaranmışdır. Gələcəkdə onun təcrübə ilə əlaqələri qorunur, lakin tədricən birbaşa əlaqələr dolayısı ilə - texnologiya və digər elmlər vasitəsilə əvəz olunur. İndiki vaxtda tətbiqi riyaziyyat, əlbəttə ki, praktika ilə sıx bağlıdır, geniş mənada başa düşülür, lakin təmiz, "nəzəri" riyaziyyat əsasən öz daxili məntiqinin toplanmış faktların, konsepsiyaların və nəzəriyyələrin daha da ümumiləşdirilməsi ehtiyacının təsiri altında inkişaf edir.

Elmlər arasında riyaziyyat xüsusi yer tutur, o, nə təbiət elmlərinə, nə də humanitar elmlərə aiddir. Bununla belə, təbiət elmləri ilə bitişikdir, çünki təbiət elmlərində ən çox istifadə olunur.

Son onilliklərdə elmlərin riyaziləşdirilməsi prosesi sürətlə inkişaf edir. Riyaziyyat bütün elmlərin kraliçasına və eyni zamanda xidmətçisinə çevrilir [4]. Xidmətçi - o mənada ki, o, prinsipcə, bütün elmlərə xidmət edir. Riyaziyyat getdikcə daha çox humanitar elmlərə nüfuz edir. Məsələn, ölkənin aparıcı universitetlərində filologiya fakültələrində dilçiliklə riyaziyyatın kəsişməsində yaranmış riyazi dilçilik kursu tədris olunur. Kraliça - o mənada ki, riyaziyyat real elmin necə qurulmalı olduğuna dair bir nümunə təqdim edir. Riyaziyyatda yeni Nəticələrin əldə edilməsinin əsas üsulu eksperimental sınaqla bağlı olmayan məntiqi Nəticə çıxarmaqdır. Buradan belə çıxır ki, riyazi faktlar doğrudur. Riyaziyyatdan başqa elmlərdə, xüsusilə təbiət elmlərində istifadənin əsas üsulu modelləşdirmə üsuludur.

Riyaziyyatın müəyyən elmdə istifadə dərəcəsi dolayısı ilə elmin özünün yetkinlik dərəcəsini göstərir.

Müasir həyatda və informasiya cəmiyyətində induksiya və deduksiya, ümumiləşdirmə və konkretləşdirmə, təhlil və sintez, təsnifat və sistemləşdirmə, abstraksiya və analogiyadan istifadə etmək bacarığına təzahür edən riyazi düşüncə tərzinin formalaşdırılması vacibdir. Riyaziyyat nəzəriyyənin dərindən öyrənilməsi vasitəsi və eyni zamanda təfəkkürün inkişafı vasitəsidir [5; 34]. Riyazi yanaşma vasitəsilə siz həmişə ətrafdakı reallığı dərk etmək üçün bir yol tapa və dünyanı dərk etməyə yol aça bilərsiniz.

Riyaziyyatın inkişaf tarixi minilliklərə gedib çıxır və müxtəlif dövrləri və mədəniyyətləri əhatə edir. Riyazi tədqiqatların başlanğıcı qədim dövrlərə gedib çıxır. Misir, Babil, Hindistan və Qədim Yunanıstanda qədim sivilizasiyalar riyaziyyatın inkişafına mühüm töhfələr vermişlər. Onlar riyaziyyatdan praktiki məsələləri həll etmək, mədəniyyətlərini və cəmiyyətlərini inkişaf etdirmək üçün istifadə edirdilər [2]. Məsələn, misirlilər ticarət hesablamaları, memarlıq ölçmələri və astronomik hesablamalar üçün istifadə edilən Misir onluq sistemi kimi tanınan bir say sistemi hazırladılar. Onlar, həmçinin yeri ölçmək və piramidalar qurmaq üçün həndəsədən istifadə edirdilər. Babillilər mal mübadiləsi və pul əməliyyatları üçün istifadə edilən Babil onluq sistemini inkişaf etdirdilər. Onlar, həmçinin astronomik müşahidələr

aparıblar və triqonometrik cədvəllərin qeydə alınması üçün sistem hazırlayıblar. Sıfır anlayışını ilk dəfə hindular təqdim etdilər və ədədi təmsilin mövqeli onluq sistemini inkişaf etdirdilər. Onlar əsas cəbri inkişaf etdirdilər, kvadrat tənlikləri həll etdilər və triqonometrik funksiyalar üçün ədədi dəyərlər tapdılar. Onların işləri cəbr və ədədi üsullar sahəsində Avropa kəşflərindən əvvəl idi [1; 56].

Riyaziyyat tarixində əlamətdar məqamlardan biri də eramızdan əvvəl VI əsrdə qədim yunan riyaziyyatının meydana çıxmasıdır. Pifaqor ədəd münasibətləri və həndəsi fiqurlar sahəsindəki işləri ilə tanınır. O, düzbucaqlı üçbucağın tərəflərinin uzunluqları arasında əlaqə quran Pifaqor teoremini işləyib hazırladı. Onun rəqəmlər dialektikası və harmoniya təlimi sonrakı riyaziyyatçılar nəsillərinə böyük təsir göstərmişdir. "Həndəsə atası" kimi tanınan Evklid riyaziyyat tarixinin ən mühüm əsərlərindən biri olan "Elementləri" yazmışdır. Bu əsər məntiqi sübutlara əsaslanan həndəsəyə aksiomatik yanaşmanı ehtiva edir. Evklidin prinsipləri həndəsənin öyrənilməsi üçün əsasdır və hələ də bütün dünyada təhsil proqramlarında istifadə olunur. Arximed mexanika və həndəsə sahələrində əhəmiyyətli kəşflər etdi.

Müasir riyaziyyat çox sürətlə inkişaf edir və elm və texnologiyanın bir çox sahələrində əsas rol oynayır. Bütün dünyada riyaziyyatçılar mürəkkəb problemləri həll etmək və müxtəlif fənlərə yeni riyazi üsullar tətbiq etmək üçün çalışırlar. Böyük perspektivlər vəd edən sahələrdən biri kvant informasiyasının inkişafıdır. Kvant informasiya elmi və kvant hesablamaları klassik kompüterlərin effektiv şəkildə emal edə bilmədiyi problemləri həll etmək potensialına malikdir. Bu, kriptoqrafiya, mürəkkəb sistemlərin optimallaşdırılması və modelləşdirilməsi də daxil olmaqla müxtəlif sahələrdə tətbiq oluna bilən riyazi metodlar və alqoritmlər üçün yeni imkanlar açır. Digər mühüm sahə isə süni intellektin inkişafı və tətbiqidir [6; 43]. Riyazi alqoritmlər və modellər maşın öyrənməsində və dərin öyrənmədə mühüm rol oynayır, kompüterlərə böyük həcmli verilənlərdən öyrənməyə, nümunələri tanımağa, dili emal etməyə, məlumatları təhlil etməyə və proqnozlar verməyə imkan verir. Bu sahədə riyazi metodların və alqoritmlərin daha da inkişafı mürəkkəb və dəqiq modellərin yaranmasına və kompüterlərin təhlil və qərar qəbul etmə qabiliyyətinin artmasına səbəb olacaqdır. Riyazi biologiya və bioinformatikanın inkişafını da qeyd etmək lazımdır.

Genomlar hüceyrə prosesləri və bioloji şəbəkələr kimi mürəkkəb bioloji sistemləri başa düşmək onların davranışlarını izah edə və proqnozlaşdıra bilən riyazi modellərin və metodların işlənib hazırlanmasını tələb edir. Riyazi biologiyada irəliləyişlər xəstəliklərin diaqnostikası və müalicəsi üçün yeni üsullara, həmçinin canlı sistemlərin daha dərindən başa düşülməsinə səbəb ola bilər. Riyaziyyatın inkişafında digər perspektivli cəhət mürəkkəb sistemlər nəzəriyyəsidir. İqlim sistemləri sosial şəbəkələr və iqtisadi bazarlar kimi mürəkkəb sistemlər mürəkkəb strukturlara və dinamik davranışa malikdir. Belə sistemlərin təhlili, modelləşdirilməsi və idarə edilməsi üçün riyazi üsulların işlənib hazırlanması mürəkkəb proseslərin daha effektiv proqnozlaşdırılmasına və idarə olunmasına səbəb ola bilər.

Riyaziyyatın inkişaf perspektivləri çox böyükdür və dünya haqqında anlayışımız artdıqca və yeni elmi və texnoloji sahələrin inkişafı ilə genişlənməkdə davam edir. Demək olar ki, yaxın gələcəkdə insan fəaliyyətinin hər bir hissəsi öz tədqiqatlarında riyazi üsullardan daha da geniş istifadə edəcəkdir [7; 101]. Bununla belə, riyaziyyatın

inkişafı riyaziyyatçıların və alimlərin daimi öyrənmə və araşdırmalarını, digər fənlərlə qarşılıqlı əlaqəni tələb edir.

Riyaziyyat yalnız arifmetik hesablamaların bir-birindən fərqli üsulları, sahələrin və həcmlərin müəyyən edilməsi üsulları şəklində çoxlu miqdarda konkret material toplandıqdan sonra öz metodunun unikallığını və sistematik hesablamalara ehtiyacı aydın dərk edən müstəqil bir elm kimi meydana çıxır. Onun əsas konsepsiyalarının inkişafı. hesab və cəbrə tətbiq edildiyi kimi, bu proses artıq Babilistanda başlamışdır. Lakin riyaziyyat elminin əsaslarının sistemli və məntiqi ardıcıl qurulmasından ibarət olan bu yeni cərəyan Qədim Yunanıstanda tam formalaşmışdı. Qədim yunanlar tərəfindən iki minillik ərzində yaradılmış elementar həndəsənin təqdimat sistemi sonralar riyazi nəzəriyyənin deduktiv qurulmasının modelinə çevrildi [8; 100]. Ədədlər nəzəriyyəsi tədricən arifmetikadan çıxır. Kəmiyyətlərin və ölçülərin sistematik doktrinası yaradılır.

Nəticə

Riyazi ideyaların və metodların inkişaf tarixinə və onların tətbiqinə dair bu qısa icmal bizə aşağıdakı ümumiləşdirmə və Nəticələr çıxarmağa imkan verir. İlk növbədə qeyd etmək olar ki, tarixi inkişaf prosesində riyaziyyatın tədqiqat predmetinin daim genişlənməsi baş vermiş, yeni anlayışlar yaradılmış, əsasların, qarşılıqlı asılılıqların, sübut üsullarının təhlilinə maraq artmışdır. İkinci mühüm Nəticə ondan ibarətdir ki, müasir riyaziyyat yalnız "real dünyanın məkan formaları və kəmiyyət münasibətləri"nin tədqiqindən mücərrəd riyazi strukturların klasterlərinin öyrənilməsinə keçir. Tədqiqat mövzusunun abstraksiya səviyyəsi durmadan artır.

Riyaziyyat və onun tətbiqləri inkişaf etdikcə, onların praktik həyatla və digər elmlərin ehtiyacları ilə əlaqəsi getdikcə genişlənir. Bu proses iki istiqamətdə inkişaf edir: bir tərəfdən praktiki həyatın və digər elmlərin (əsasən təbiət elmlərinin) riyaziyyatın inkişafına təsiri artır, digər tərəfdən riyaziyyatın, onun alət və üsullarının riyaziyyatda tətbiq dairəsi artır, elm və texnikanın müxtəlif sahələri genişlənir. Riyaziyyatla ictimai həyat və digər elmlərlə əlaqənin bu iki tərəfi həmişə bir-birindən asılıdır.

ƏDƏBİYYAT

1. Abbasov, F., Hüseynov, İ. (2011). Riyaziyyatın tətbiqi və cəmiyyətə təsiri. Bakı: Nəşriyyat. 89 s.
2. http://www.anl.az/down/meqale/elm_eserler_tn/2018/05/764824(meqale).pdf
3. https://na-journal.ru/6-2024-filosofiya/13728-istoriya-razvitiya-matematiki-i-perspektivy
4. https://posobie-mii.narod.ru/Glava1.2.htm
5. Klein, F. (2012). Riyaziyyatın tarixi və inkişafı. Bakı: "Təhsil" nəşriyyatı, 120 s.
6. Namazov, Q.M. (2012). Ali riyaziyyat. Dərs vəsaiti. Bakı, 106 s.
7. Newton, İ. (2005).Təbii fəlakətlərin riyazi təhlili. Bakı: "Elm" nəşriyyatı, 260 s.
8. Quliyev, Ə.A. (2009). Riyaziyyatın tədrisində ümumiləşdirmə. Bakı: "Nurlan" nəşriyyatı, 425 s.

ABSTRACT

Inara Alıyeva
Saida Abdullayeva

THE DEVELOPMENT OF MATHEMATICS AND ITS IMPACT ON SOCIETY

Mathematics as one of the fundamental scientific fields of human society, has developed over time and has had a significant impact on various fields. This development has not been limited to theoretical and abstract concepts, but has also become a fundamental tool in shaping society's technology, economy, healthcare system, and education structure. The development of mathematics and its applications in various fields is considered one of the most important scientific advancements of the modern era.

The historical development of mathematics involves several significant stages. In the early periods, mathematics was mainly used for practical needs in daily life. However, over time, mathematics evolved into a more theoretical field, and at the same time, began to play a central role in the development of science and technology. The development of mathematics has different characteristics depending on the periods and cultures. Furthermore, the key areas of mathematics-geometry, algebra, number theory, topology, statistical and analytical mathematics – are among the main factors that determined this development. Like all other sciences, it emerged from the need for practical experience. Specifically, it addresses the following issues: the relationship between mathematics and other sciences; which mathematical ideas and theories emerged and why in certain historical periods; the history of specific branches of mathematics (e.g., geometry); the history of mathematics in different cultures, and so on.

Unlike regular mathematics subjects, when presented in teaching literature, mathematics is accepted as something already established and unchangeable. For the history of mathematics, the stages of change in the content of mathematics and the emergence of new facts and methods hold particular significance.

Keywords: *algebra, geometry, mathematical analysis, computations, perspective, problem*

DÜNYA ZALOVA
Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kolleci
dunyazalova56@gmail.com

SEVİLƏ RÜSTƏMOVA
Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kolleci
qsuat@mail.ru

QƏDİM TARİXƏ MALİK ZƏNGİN TORPAQ

XÜLASƏ

Cəmiyyətin inkişafında qüdrətli sənaye ilə yanaşı, kənd təsərrüfatının yaradılması və inkişafı da ən vacib məsələlərdən biridir. İqtisadiyyatın ən mühüm sahələrindən olan kənd təsərrüfatının dinamik inkişaf etdirilməsinə həmişə diqqət yetirilmiş və yetirilir. Əhalinin ərzaq məhsullarına olan tələbatını nəzərə alaraq müstəqilliyimizin ilk illərində aqrar islahatlar da məhz Naxçıvandan başlanmışdır.

Aqrar sahə Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının aparıcı sahələrindən biri olmaqla, həm də muxtar respublikanı regional respublika beynəlxalq əmək bölgüsündə təmsil edən, dünya iqtisadi inteqrasiyasına qovuşduran məsələlərdən biridir. Belə ki, muxtar respublika kənd təsərrüfatında istehsal olunan məhsulların müəyyən bir qismi digər ölkələrə ixrac olunur.

Açar sözlər: *kənd təsərrüfatı, üzüm, qoyun, arı, ipək, su*

Giriş

İqtisadiyyatın başqa sahələrindən fərqli olaraq, kənd təsərrüfatında torpaq öz əhəmiyyətinə görə elə bir məhsuldar qüvvədir ki, onsuz istehsal prosesi davam gətirə bilməz. Kənd təsərrüfatında torpaq fondunun ən qiymətli hissəsi əkin yeridir. Kənd təsərrüfatına yararlı torpaqların tərkibində yay-qış otlaqlarının xüsusi çəkisi və təsərrüfat əhəmiyyəti olduqca böyükdür. Onların sahəsi təqribən əkin yerinin ümumi sahəsinə bərabərdir.

Naxçıvan Muxtar Respublikası kiçik dağ çayları olan regiondur. Burada torpaqlar əsasən çaylar hesabına suvarılır. Muxtar respublikada kənd təsərrüfatının dirçəldilməsi su təsərrüfatının inkişafı ilə bilavasitə əlaqədar idi. Əkinçi kəndlilər suvarma suyunun qüvvəsini möcüzə sayaraq deyirdilər ki, su olsa, hər şey öz-özünə düzələr. "Torpaq ata, su isə anadır". Onlar suvarma suyunu torpağın ürəyi hesab edirdilər.

1924-cü il fevralın 9-da Naxçıvan MSSR yarandıqdan sonra ilk növbədə iqtisadiyyatın əsas sahəsi olan kənd təsərrüfatının geniş inkişafı üçün müxtəlif tədbirlər həyata keçirilməyə başlanılmış, dövlətin vəsaiti və köməyi ilə dağıdılmış, suvarma kanalları bərpa edilmişdi.

Naxçıvan MSSR-da 20-ci illərdə bütün sahələrdə olduğu kimi, xalq təsərrüfatının digər sahələri üçün mütəxəssislər hazırlanmasının əsası qoyuldu. Bu istiqamətdə Kənd Təsərrüfatı Texnikumu mühüm rol oynadı. Bu dövrdə dövlət tərəfindən kolxozlara ixtisaslı kadrlar hazırlanıb göndərilir, kolxozlar lazım olan alət və digər təsərrüfat vasitələri ilə təmin olunurdular. 1930-cu illərin ortalarında vilayətdə 57 nəfər ali təsilli

olmaqla, 70 nəfər aqronom, 78 baytar, 45 zootexnik, 8 nəfər yer quruluşçusu, 15 nəfər mühəndis çalışırdı.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı kadrlarına olan böyük ehtiyacı nəzərə alaraq muxtar respublikanın IV Sovetlər qurultayının 25 fevral 1925-ci il tarixli qərarı ilə Naxçıvan şəhərində Kənd Təsərrüfatı Texnikumu açıldı. Texnikum 1925-ci ilin iyunundan fəaliyyət göstərməyə başladı. Burada tələbələr ümumi təhsillə yanaşı, iki ixtisasa heyvandarlıq və aqronomluq ixtisaslarına yiyələnirdilər. 1929-1930-cu tədris ilində texnikumda 200 nəfərdən çox tələbə təhsil alırdı. 1929-1941-ci illərdə Naxçıvan Kənd Təsərrüfatı Texnikumu 347 nəfər mütəxəssis hazırlamışdı. Texnikumun hazırladığı kadrlar muxtar respublikanın kolxoz və sovxozlarında çalışmış və öz bacarıqlarını nümayiş etdirmişlər. Texnikum aqronomluq, avtonəqliyyat, mühasibat uçotu ixtisasları üzrə minlərlə kadr hazırlamışdır. Bunlardan akademik Həsən Əliyev, professorlar Yunis Səfərov, Hacı Hacıyev, Paşa Zamanov, Sovet İttifaqı Qəhrəmanı Qəzənfər Əkbərov, Sosialist Əməyi Qəhrəmanları Məmməd Əsgərov, Narı Quliyeva və başqalarını göstərmək olar.

Muxtar respublikada mal-qaranın inkişaf etdirilməsi üçün uyğun olaraq, kütləvi sürətdə maldarlıq fermaları təşkil olunmağa başladı. Naxçıvan kolxozlarında heyvandarlıq fermaları ilk dəfə 1933-cü ildə təşkil edilmişdir.

Naxçıvan MR-də qoyunçuluq ət, yun, süd istiqaməti daşıyır. Muxtar respublikada balbas cinsli qoyunlar geniş yayılmışdır. Bundan başqa, mazex, bozax, prekos və s. cinsli qoyunlar da inkişaf etdirilir.

Naxçıvan MSSR-də ipəkçiliyin inkişafı, burada barama qurdunun, məhsuldar tut ağaclarının becərilməsi üçün geniş əlverişli şəraitin olması ilə izah edilir. 1940-cı ildə muxtar respublikanın Ordubad rayonunda baramaçılığı daha da inkişaf etdirmək üçün baramaçılığın yem bazası möhkəmləndirilmiş, yeni kümxanalar tikilib istifadəyə verilmiş, onların saxlanması və yemlənməsinə diqqət daha da artırılmışdır. Naxçıvan MSSR-də olan bütün tut bağlarının 70%-dən artığı Ordubad rayonunda olmuşdur.

Naxçıvan MR-in Şahbuz rayonu ərazisindəki Ballıqaya, Ordubad rayonu ərazisindəki Arıtəpə və s. kimi bir çox arıçılıqla bağlı coğrafi adların olması ehtimal etməyə əsas verir ki, bu yerlər qədim arıçılıq məskənlərindən olmuşdur.

İkinci Dünya müharibəsi illərində Naxçıvan MSSR-də yüzlərlə qadın rəhbər vəzifələrdə çalışırdı. Onlar arasında sovet sədri, kolxoz sədri, maarif müdirləri var idi. 1940-cı ildə 12 nəfər qadın kənd sovetinin sədri işləyirdi. Bu zaman Xanım Məmmədova kolxoz sədri, Təyibə Məmmədova Ordubad RPK-nin katibi, Əfruz İsmayılova Culfa rayon maarif şöbəsinin müdiri, Tutu Quliyeva "Çapayev" adına Mahmudoba kənd kolxozunun sədri vəzifəsinə irəli çəkilmişdilər.

Naxçıvan MSSR-də 1946-50-ci illərdə kənd elektrik stansiyaları tikilişinə başlanmışdı. Şərur rayonunun (indiki Kəngərli rayonunun) Qarabağlar və Xok kəndlərində muxtar respublikada ilk dəfə olaraq kənd elektrik stansiyaları tikildi. Elektrik stansiyasını tikən kəndin sakinləri olmuşlar. Onlar öz qüvvələri ilə su elektrik stansiyalarını tikib istifadəyə vermişdilər. Onların bu işi respublikanın digər kəndlərində yayılmışdı. Görülən tədbirlər Nəticəsində muxtar respublikanın Yaycı, Qıvraq, Xok, Didivar, Şıxmahmud, Nehrəm, Siyaqut, Maxta, Çərçiboğan, Kərimbəyli, Nüs-nüs, Qarababa, Kükü, Bənəniyar, Ərəfsə və s. kəndlərində su elektrik stansiyaları

tikilmiş və istifadəyə verilmişdi. Bu kiçik elektrik stansiyalarının sayı 50-ci illərdə 15-dən çox idi.

1950-60-cı illərdə muxtar respublikanın pambıq ustalarından Bahar Talıbova, Adcoş Əliyeva, Fatma İmamquliyeva, Abdulla Məmmədov, Əli İsmayılov, Cəfərxan Abbasov və başqaları Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

1960-cı illərdə muxtar respublikada pambıq əkin sahəsi xeyli azaldılmışdı. Bunun əsas səbəbi pambıq əkin sahəsində karantin (molitva güvəsi) zərərvericisinin geniş yayılması idi.

1948-ci ildə Şərur rayonun tütün əkən kolxozlarının 7 nəfər kolxozçusu yüksək tütün məhsulu götürdüklərinə görə 1949-cu ildə Sosialist Əməyi Qəhrəmanı kimi şərəfli bir ada layiq görülmüşdü. Onlardan B.C.Abbasova, N.B.Quliyeva, X.C.Vəliyeva, R.P.İsmayılov, H.M.Məmmədov, A.C.Tağıyev, H.C.Məmmədov və onların işini davam etdirən Sosialist Əməyi Qəhrəmanları İ.Əliyev, M.Eminov və başqalarını göstərmək olar.

Naxçıvan MSSR-da 60-cı illərdə 5 böyük kolxoz tamamilə tütün istehsalına görə ixtisaslaşmışdı. Bu kolxozlarda "Samsun", "Trabzon" və "Dikqulaq" kimi yüksək keyfiyyətli tütün növləri becərilirdi.

1964-cü ildən başlayaraq Azərbaycan və Naxçıvan şərabları beynəlxalq sərgilərdə və dequstasiyalarda dəfələrlə qızıl, gümüş medallara, fəxri diplomlara layiq görülmüşdü.

Yerli seleksiyaçılar Ordubadda "Şərəli", "Salamı", "Abtalıbı" kimi qiymətli çəyirdəkli meyvə növləri, məşhur "Kağızı" qoz növləri yetişdirmişdilər. 1958-ci ildə Ordubad rayonun Dəstə kəndində meyvəçilik sovxozu təşkil edildi.

SSRİ Ali Soveti Rəyasəti Heyətinin həmin fərmanına görə 1948-ci ildə muxtar respublikada qoyunçuluqda yüksək Nəticələr əldə edən 100-dən artıq kolxozçu orden və medallarla təltif edilmiş və 8 kolxozçuya Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ad verilmişdir. Qoyunçuluqda əldə edilmiş nailiyyətə görə Böyük Düz kolxozun sədri Əli Məmmədova, ferma müdiri Hüseyn Məmmədova, baş texnik Məmməd Cəfərova və baş çoban Mirheydər Seyidova, Şükür Əhmədova Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir.

1974-cü ilin oktyabrında Naxçıvan MSSR-in 50 illiyi ilə əlaqədar olaraq muxtar respublikada olan Heydər Əliyev Arpaçay su qovşağının tikintisinə baş çəkmiş, tikintinin tezliklə başa çatması üçün tapşırıqlar vermişdi. O, İranla birgə çəkilən Araz su qovşağında da olmuş, onun da tezliklə istifadəyə verilməsinin vacibliyini vurğulamış, Naxçıvançayın üzərində Vayxır dəryaçasının yaradılması və Əlincəçay suvarma sistemini yenidən qurulması haqqında da planlarının olduğunu nəzərə çatdırmışdı. Lakin sonrakı ictimai-siyasi proseslər bu planların həyata keçməsini imkan vermədi. Heydər Əliyev yalnız prezident seçiləndən sonra bu arzuları gerçəkləşdirə bildi.

Ulu Öndər Heydər Əliyevin böyük səyi Nəticəsində Naxçıvan MSSR-də 1980-ci ildə Sirab, 1989-cu ildə Bənəniyar su anbarı tikilib istifadəyə verilmişdir.

1985-ci ildə üzüm istehsalı və satışı planlarının yerinə yetirilməsi göstəricisinə görə Naxçıvan MSSR Azərbaycan SSR-nin rayonları arasında birinci yeri tutmuş, ilk dəfə ümumittifaq fonduna 1000 tondan artıq süfrə üzümü göndərilmişdir.

Naxçıvan Muxtar Respublikasında əsrlərin sınağından çıxmış özünə məxsus "Kişmiş", "Əsgəri", "Qırmızı Şanı", "Hüseyni", "Bəndi", "Ağaldərə", "Xəlili", "Mələyi" və s. yüksək məhsuldar və əla keyfiyyətli üzüm sortları vardır.

Çox təəssüf ki, Keçmiş SSRİ-də "Alkoqolizm və sərxoşluğa qarşı mübarizə tədbirləri" haqqında 1985-ci ildə qəbul olunmuş qərardan sonra Azərbaycan iqtisadiyyatında aparıcı sahə olan üzümçülük və şərabçılığa böyük zərbə vurulmuşdu. 1985-ci ildə Azərbaycana düşmən qüvvələr alkoqolizmə qarşı mübarizə pərdəsi altında üzümçülüyün ləğvinə çalışdılar. Bar verən üzümlüklər sökülməyə başlandı. Uzun illər böyük zəhmət hesabına yaradılmış infrastruktur dağıdıldı, üzümlüklərdə yetişdirilən qiymətli üzüm növləri məhv olmaq təhlükəsi ilə üz-üzə qaldı.

Muxtar respublikada intensiv bağçılığı inkişaf etdirmək və ixtisaslaşdırmaq üçün 1979-cu ildə Şərur rayonundakı M.Qorki adına Dizə kolxozunda, Furunze adına Axura kolxozunda və S.Vurğun adına kolxozların bazası əsasında 3 yeni meyvəçilik sovxozu təşkil olunmuşdu. Həmin sovxozlarda palmet bağları salınmışdı. Şahbuz rayonundakı C.Cabbarlı adına və Əzizbəyov adına Zırnel kolxozların dağ yamaclarında meyvə bağları əkilmişdi.

1980-ci ildə muxtar respublikanın ən çox barama istehsal edən rayonu Ordubad rayonu idi. Təəssüflər olsun ki, 80-ci illərin sonlarında Naxçıvan MSSR-də tut plantasiyalarının ləğv edilməsi, kənd təsərrüfatının bu sahəsinə olan marağın azalması ipəkçiliyin inkişafını da ləngitmişdi.

1990-cı il iyulun 22-də Heydər Əliyev Naxçıvanın Azadlıq meydanında 80 mindən çox adamın iştirakı ilə keçirilən mitinqə dəvət olundu orda çıxış etdi. Heydər Əliyev çıxışında dedi: "Hələlik Naxçıvandayam. Əgər bütün naxçıvanlılar mənim burada yaşamağımı arzu edirsə, buna etiraz etmirəm. Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir".

Böyük ehtiram və hörmətə malik olan Heydər Əliyev 30 sentyabr 1990-cı il tarixdə Azərbaycan SSR-in Naxçıvan MSSR-in xalq deputatı seçilmişdi.

1992-ci il aprelin 6-da Ali Məclisin sessiyyasında iqtisadi islahatlarla bağlı məsələlər müzakirə edildi, "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi haqqında". İlk növbədə Culfa rayonun Şurut və Gal kimi sərhəd kəndlərində eksperimental qaydada torpaq islahatına başlandı.

Torpaq islahatının əsas məqsədi kolxoz və sovxoz təsərrüfatlarını ləğv etmək, Naxçıvan Muxtar Respublikasında blokada şəraitində əhalinin ərzaq məhsullarına tələbatını ödəmək, əhalinin məşğulluğunu və məskunlaşmasını təmin etmək idi.

1994-cü ilin sentyabr ayında keçirdiyi müşavirədə Ulu Öndər Heydər Əliyev demişdir: "Kənd təsərrüfatı sahəsində gələcək inkişafımız yalnız və yalnız iqtisadi islahatların həyata keçirilməsi ilə bağlıdır. Gecikmək olmaz. Bu mənim üçün əsas prinsipdir. Mən bu prinsipdən geri çəkilməyəcəyəm".

Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan torpaq islahatları, onun respublika prezidenti seçiləndən sonra bütün ölkədə tətbiq edilməyə başladı. Bu proses dünyada analoqu olmayan bir şəkildə, yəni torpaqların pulsuz olaraq əvəzsiz

pay kimi vətəndaşlara verilməsi ilə həyata keçirildi. 2001-ci ildə Naxçıvan MR-in 201 kəndində torpaq islahatı başa çatmışdır.

Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan aqrar siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı ölkə iqtisadiyyatının inkişafında kənd təsərrüfatının əhəmiyyətini qeyd edərək demişdir: "Kənd təsərrüfatının inkişafına maksimum dərəcədə diqqət göstərməliyik. Bu həm təhlükəsizlik, həm iqtisadi, həm də sosial məsələdir. Çünki Azərbaycan əhalisinin yarısı kənd təsərrüfatı bölgəsində yaşayır".

"Yeniləşmə ili" olan 2010-cu ildə olduğu kimi, 2011-ci ildə də məhsul istehsalçılarının texnika ilə təchizatına da diqqət artırılmışdır. 2011-ci ildə 108 ədəd müxtəlif adda texnika muxtar respublikaya gətirilmiş, lizinq yolu ilə icarəyə verilmişdir.

Ərzaq təhlükəsizliyinin təmin olunmasının vacib şərtlərindən biri də kənd təsərrüfatı məhsullarının istehsalı zamanı insanlar üçün daha faydalı və keyfiyyətli toxum növlərindən istifadəyə üstünlük verilməsidir. 2017-ci ildə qəbul olunmuş "Toxumçuluq haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu yüksək məhsuldarlığa malik, ziyanvericilərə və iqlim şəraitinə dözümlü bitki sortlarının yetişdirilməsi sahəsində imkanları artırmışdır. Məhsuldar və keyfiyyətli toxum növlərinin istehsalını stimullaşdırmaq məqsədilə Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün kompleks inşa edilmiş, müəssisə yeni kənd təsərrüfatı texnikaları və toxumçuluq laboratoriyası ilə təmin olunmuşdur.

Muxtar respublikada heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması və məhsuldarlığın yüksəldilməsi məqsədi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2019-cu il 21 sentyabr tarixli sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Süni Mayalanma Mərkəzi yaradılmışdır.

Məhsul istehsalçılarının güzəştli kreditlərlə təmin edilməsi, texnika və gübrə ilə təchizatın yaxşılaşdırılması, suvarma sistemlərinin yenilənməsi və müasir aqrar infrastruktrun formalaşdırılması öz növbəsində kənd təsərrüfatı məhsullarının istehsal həcmini artırmışdır.

Naxçıvan Muxtar Respublikasında aqrar sektorda aparılan tədbirlərdən aydın olur ki, müvafiq proseslərdəki müsbət meyillər, kənd təsərrüfatına mexanizmin tətbiqi, məhsul istehsalının yüksəldilməsi əhalidə xüsusi mülkiyyətçilik psixologiyasının formalaşması, azad sahibkarlığa meyilin güclənməsi, ədalətli rəqabət mühitinin yaradılması, torpaq, meliorasiya və su təsərrüfatı istehsalatlarının kompleksliyinin təmin olunması, ən əsası isə proseslərin bütün mərhələlərinin sıx dövlət qayğısı ilə əhatə olunmasında qaynaqlanır.

Nəticə

Azərbaycanın tərkib hissəsi olan Naxçıvanda kənd təsərrüfatının inkişafı və formalaşması Azərbaycanda kənd təsərrüfatının inkişafı tarixi ilə sıx surətdə bağlıdır. Azərbaycanda olduğu kimi, Naxçıvan regionunda da kənd təsərrüfatının inkişafı müxtəlif dövrlərdən keçmiş, Nəticədə kənd təsərrüfatının inkişafında əsaslı dəyişikliklər baş vermişdir.

ƏDƏBİYYAT

1. Aliyev, İ.H. Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi. Bakı: Elm, 2003, 315 s.
2. "Azərbaycan qadını" jurnalı
3. Bağırov, E.A. Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı. Bakı: Avropa, 2015, 332 s.
4. Cəfərov, F.A. Naxçıvan İkinci Dünya müharibəsi illərində. Bakı: Elm və təhsil, 2015, 300 s.
5. Cəfərov, H.R. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: Elm və təhsil, 2011, 343 s.
6. Hacıyev, İ.M. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı (1995-2019-cu illər). Naxçıvan: "Əcəmi" NPB, 2020, 224 s.
7. Hüseynov, X.A. Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişaf tarixi (1924-2020-ci illər). Naxçıvan: "Əcəmi" NPB, 2022, 368 s.

ABSTRACT

Dunya Zalova, Sevila Rustamova

A RICH LAND WITH AN ANCIENT HISTORY

In addition to the powerful industry in the development of society, the creation and development of agriculture is one of the most important issues. Dynamic development of agriculture, which is one of the most important areas of the economy, has always been paid attention to. Taking into account the population's demand for food products, in the first years of our independence, agrarian reforms were started from Nakhchivan.

The agricultural sector is one of the leading sectors of the economy of the Nakhchivan Autonomous Republic, as well as one of the issues that represent the autonomous republic in the international division of labor of the regional republic and bring it to the world economic integration. Thus, a certain part of the products produced in the agriculture of the autonomous republic is exported to other countries.

Keywords: *agriculture, grapes, sheep, bees, silk, water*

РЕЗЮМЕ

Помимо мощной промышленности в развитии общества одним из важнейших вопросов является создание и развитие сельского хозяйства. Динамичному развитию сельского хозяйства, которое является одной из важнейших сфер экономики, всегда уделялось внимание. Учитывая потребность населения в продуктах питания, в первые годы нашей независимости аграрные реформы были начаты с Нахчывана.

Сельскохозяйственный сектор является одной из ведущих отраслей экономики Нахчыванской Автономной Республики, а также одним из вопросов, представляющих автономную республику в международном разделении труда региональной республики и приближающих ее к мировой экономической интеграции. Таким образом, определенная часть продукции, производимой в сельском хозяйстве автономной республики, экспортируется в другие страны.

Ключевые слова: *сельское хозяйство, виноград, овцы, пчелы, шелк, вода*

ŞƏKƏR NAĞIYEVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
shekervaliyev@gmail.com

100 İLLİK TARİXİ OLAN QƏDİM DİYARIN TƏHSİL TARİXİNƏ BAXIŞ

XÜLASƏ

Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı istiqamətində mühüm tədbirlərdən biri də şahmatın bütün ümumtəhsil məktəblərində fənn kimi tədris olunmasıdır. Bu tədbir, gənclərin məntiqi düşünmə qabiliyyətini formalaşdırmaq baxımından əhəmiyyətlidir. Muxtar respublika rəhbərliyi şagird, tələbə və kursantların asudə vaxtlarını səmərəli keçirmələri üçün təhsil müəssisələrində və xaricində yüksək səviyyəli infrastruktur yaratmışdır. Bu imkanlardan faydalanaraq təhsili mənəvi və fiziki tərbiyə ilə uzlaşdırmaq, şagirdlərin təfəkkürünü inkişaf etdirmək və sağlam nəsil yetişdirmək təhsil işçilərinin əsas vəzifələrindən biridir. Sağlamlıq sağlam təfəkkürün formalaşmasında mühüm rol oynayır.

Açar sözlər: *təhsil, tələbat, inkişaf, təfəkkür, formalaşma*

Giriş

Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı məqsədilə həyata keçirilən mühüm tədbirlərdən biri də şahmatın bütün ümumtəhsil məktəblərində fənn kimi tədris olunmasıdır. Bu tədbir gənc yaşlarda məntiqli düşünmə qabiliyyətini formalaşdırmaq üçün əhəmiyyətlidir. Muxtar respublika rəhbərliyi tərəfindən şagird, tələbə və kursantların asudə vaxtlarının təşkili üçün təhsil müəssisələrində və kənarda yüksək səviyyəli infrastruktur şəraiti yaradılıb. Bu imkanlardan səmərəli istifadə etməklə təhsili mənəvi və fiziki tərbiyə ilə uzlaşdırmaq, şagirdlərin təfəkkürünü inkişaf etdirmək və sağlam nəsil yetişdirmək təhsil işçilərinin əsas vəzifələrindən biridir. Təhsil alanların sağlamlığı, sağlam təfəkkürün formalaşmasında mühüm amil kimi qəbul olunur.

Muxtar respublikanın tam orta məktəblərindən məzun olan gənclərin ali təhsil müəssisələrinə olan marağı, burada yaradılan şəraitin müasir tələblərə uyğun olduğunu göstərir. 2018-ci ildə, qəbul olanların 76 faizi, yəni 1170 nəfər, Naxçıvanda fəaliyyət göstərən ali təhsil müəssisələrini seçmişdir. Bu, Naxçıvanda yaşayıb işləmək və təhsil almağın insanların zəruri tələbatlarını ödədiyini göstərir [4; 21 s.].

Müasir təhsil sisteminə uyğun kadr hazırlığı da infrastrukturun yaradılması qədər vacibdir. Məktəb, ailə və şagird üçbucağında təhsillə məşğul olan müəllimlərin üzərinə düşən məsuliyyətin artdığı bir dövrdə, vəzifəsini daha yaxşı yerinə yetirən, daim öz üzərində çalışan, informasiya-kommunikasiya texnologiyalarından istifadə edən və yeniliklərə hazır olan kadrlara ehtiyac artır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin sərəncamı ilə bilik və bacarıqları qiymətləndirilmiş müəllimlərin

əməkhaqlarının artırılması, təhsilə və təhsil işçilərinə göstərilən qayğının nümunəsidir. Pedaqoji kadrların işə qəbulunun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən həyata keçirilməsi, ümumtəhsil məktəblərinin pedaqoji kadrlarla təminatının şəffaflığını təmin edir. Azərbaycanın Avropa Şurasında və digər mötəbər qurumlarda təmsil olunaraq haqq sözünü deməsi və təhsil sistemimizin dünya ilə inteqrasiyası Heydər Əliyevin tarixi xidmətidir. Bu siyasətin davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında, Azərbaycan dünya miqyasında tanınmış və inam qazanmışdır.

Heydər Əliyev Naxçıvanın muxtariyyət statusunun qorunub saxlanılmasının vacibliyini dəfələrlə vurğulamışdır. Muxtariyyət Heydər Əliyev əmanətidir və onun 95 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması bu siyasətə sədaqətin nümunəsidir.

Bu gün Naxçıvan Muxtar Respublikası uğurla inkişaf edir və yeni nailiyyətlər qazanır. Sosial-iqtisadi inkişaf, muxtariyyətin möhkəmləndirilməsində mühüm amillərdən biridir. Son 24 ildə gedən inkişaf prosesləri, quruculuq-abadlıq işləri, muxtar respublikanın yüksək iqtisadi potensialını nümayiş etdirir. Dövlət proqramları və infrastruktur layihələri uğurla həyata keçirilmiş, Naxçıvan iqtisadi təhlükəsizliyini təmin etmiş və beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilmişdir. Ötən il, Naxçıvan, İslam Mədəniyyətinin Paytaxtı və Gənclər Paytaxtı olaraq, "Caspian European Club"un investisiya reytinqində ən yüksək balı toplayaraq birinci olmuşdur. Bu, muxtariyyətin və məqsədyönlü siyasətin məntiqi Nəticəsidir.

XX əsrdə Naxçıvanda pedaqoji kadr hazırlığı sahəsində mühüm addımlar atılmışdır. 1922-ci ildə Naxçıvanda ilk pedaqoji seminariya açılmış, daha sonra isə pedaqoji texnikuma çevrilmişdir. Bu texnikumun yaradılması, Naxçıvanda kadr potensialının formalaşmasında əhəmiyyətli rol oynamışdır. Texnikum ilk dünyəvi məktəblərdən olan Ehsan xan Kəngərlinin rus-tatar qəza məktəbi və XIX əsrin sonlarında yaranmış üsuli-cədid məktəblərinin varisidir.

1920-ci illərdə Naxçıvanda təhsil sahəsində inkişaf müşahidə olunmuşdur. Naxçıvan müəllimlərinin birinci qurultayında müəllimlər seminariyasının yaradılması təklifi Əbdüləzim Rüstəmov tərəfindən irəli sürülmüş və qəbul olunmuşdur. 1922-ci il noyabrın 10-da Naxçıvan Pedaqoji Texnikumu fəaliyyətə başlamış və qısa müddət ərzində maddi-texniki bazasını inkişaf etdirmişdir.

Texnikumun fəaliyyətində qarşılaşılan çətinliklərə baxmayaraq, tədris prosesi yüksək səviyyədə təşkil olunmuş və 1927-ci ildə ilk buraxılışını həyata keçirmişdir. Texnikumun məzunlarından biri Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev olmuşdur. 1939-cu ildə yaradılan Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu, Naxçıvanın pedaqoji kadr potensialının inkişafına böyük töhfə vermişdir [3; 11 s.].

Naxçıvan Dövlət Müəllimlər İnstitutu 1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlamış və 1972-ci ildə müstəqil pedaqoji instituta çevrilmişdir. Bu institutun yaradılması və inkişafı Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilmişdir. Naxçıvan Dövlət Pedaqoji İnstitutu, sonrakı illərdə Naxçıvan Dövlət Universitetinə çevrilmiş və Azərbaycanın qabaqcıl ali təhsil ocaqlarından biri olmuşdur.

Naxçıvanın təhsil tarixi zəngin və çoxsahəli inkişaf yolu keçmişdir. Naxçıvan, Azərbaycanın qədim diyarlarından biri kimi, hər zaman mədəniyyət və elmin beşiyi

olmuşdur. Bu bölgənin təhsil tarixi də dərin köklərə malikdir və əsrlər boyu burada elm, təhsil və maarifçilik ənənələri qorunub saxlanılmışdır.

Qədim dövrlər

Naxçıvanın tarixi eramızdan əvvəl III minilliyə qədər uzanır. İlk məktəblərin yaranması məhz bu dövrlərə təsadüf edir. Naxçıvanın ərazisində tapılan qədim yazılar və daş kitabələr burada yazının və təhsilin qədim tarixə malik olduğunu göstərir. Orta əsrlərdə Naxçıvanda dini məktəblər, mədrəsələr fəaliyyət göstərmişdir. Bu təhsil ocaqlarında dini elmlərlə yanaşı, dünyəvi elmlər də tədris olunurdu.

Orta əsrlər və İslam dövrü

İslamın yayılması ilə Naxçıvanda yeni tipli təhsil müəssisələri yaranmağa başladı. Mədrəsələrdə Quran, fiqh, hədis kimi dini elmlərlə yanaşı, riyaziyyat, astronomiya, təbabət və fəlsəfə kimi dünyəvi elmlər də tədris edilirdi. Naxçıvanın təhsil tarixində məşhur mədrəsələrdən biri olan Möminə Xatun mədrəsəsi xüsusi yer tutur. Bu mədrəsə XIII əsrdə fəaliyyət göstərmiş və burada yüksək səviyyəli təhsil verilmişdir.

XIX əsr və çar Rusiyası dövrü

XIX əsrdə Naxçıvan Çar Rusiyasının tərkibində idi. Bu dövrdə təhsil sistemi də müəyyən dəyişikliklərə məruz qaldı. 1828-ci ildə Türkmənçay müqaviləsindən sonra Naxçıvan Rusiyanın təsir dairəsinə daxil oldu və burada rus məktəbləri fəaliyyətə başladı. 1883-cü ildə Naxçıvanda ilk dünyəvi məktəb açıldı. Bu məktəb həm də bölgənin maarifçilik mərkəzinə çevrildi. Bu dövrdə Naxçıvanda təhsilin inkişafına böyük töhfələr verən maarifçilərdən biri də Cəlil Məmmədquluzadə olmuşdur.

Sovet dövrü

Sovet hakimiyyətinin qurulması ilə Naxçıvanda təhsil sistemi tamamilə yenidən quruldu. Sovet dövründə Naxçıvanda çoxlu sayda orta məktəblər, peşə məktəbləri və texnikumlar fəaliyyətə başladı. 1937-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutu təsis edildi. Bu institut bölgədə ali təhsil sahəsində əhəmiyyətli rol oynadı və burada minlərlə müəllim hazırlandı. Sovet dövründə Naxçıvanda təhsilin inkişafı üçün böyük sərmayələr yatırıldı və bu, bölgənin təhsil səviyyəsinin yüksəlməsinə səbəb oldu.

Müstəqillik dövrü

Azərbaycan müstəqillik əldə etdikdən sonra Naxçıvanda təhsil sistemi yenidən quruldu və modernləşdirildi. 1992-ci ildə Naxçıvan Dövlət Universiteti yaradıldı. Bu universitet bölgənin ali təhsil sahəsində əsas mərkəzi kimi fəaliyyət göstərir və burada müxtəlif ixtisaslar üzrə yüksək səviyyəli təhsil verilir. Naxçıvanda, həmçinin peşə təhsili və texniki təhsil sahəsində də inkişaf müşahidə olunur. Bu gün Naxçıvanda fəaliyyət göstərən təhsil müəssisələri müasir standartlara uyğun şəkildə fəaliyyət göstərir və burada gənclər yüksək səviyyəli təhsil ala bilirlər.

Son dövrlər

Son illərdə Naxçıvanda təhsil sahəsində müxtəlif islahatlar həyata keçirilmişdir. Yeni məktəblər inşa edilmiş, mövcud məktəblər isə müasir avadanlıqlarla təchiz edilmişdir. İnformasiya texnologiyalarının təhsildə tətbiqi genişləndirilmiş və bu sahədə

mühüm nailiyyətlər əldə olunmuşdur. Təhsilin keyfiyyətinin yüksəldilməsi üçün müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində tədbirlər görülmüşdür. Naxçıvanın təhsil tarixi onun mədəni və elmi inkişafının mühüm tərkib hissəsidir. Bu bölgədə təhsil hər zaman yüksək qiymətləndirilmiş və təhsilin inkişafı üçün bütün zəruri tədbirlər görülmüşdür. Naxçıvanın zəngin təhsil tarixi gələcək nəsillər üçün örnəkdir və bu ənənələrin qorunub saxlanılması böyük əhəmiyyət kəsb edir [2; 23 s.].

Naxçıvanda təhsilin inkişafı uzun və maraqlı bir tarixi prosesdir. Azərbaycanın qədim diyarlarından biri olan Naxçıvan, təhsilin və maarifçiliyin inkişafında mühüm rol oynamışdır. Bu inkişafı müxtəlif dövrlərdə fərqli xüsusiyyətləri ilə diqqətə çarpan müxtəlif mərhələlərdə izləmək mümkündür.

Nəticə

Naxçıvanın təhsil tarixi çox qədim dövrlərə gedib çıxır. Bu bölgədə yazı və oxu bacarıqlarının mövcudluğu qədim daş kitabələr və digər arxeoloji tapıntılarla təsdiqlənmişdir. Orta əsrlərdə Naxçıvanda mədrəsələr mühüm rol oynamışdır. Bu mədrəsələrdə dini təhsillə yanaşı, riyaziyyat, astronomiya və təbabət kimi dünyəvi elmlər də öyrədilirdi. Mədrəsələrdə təhsil almaq üçün tələbələr müxtəlif yerlərdən gəlirdilər, bu da Naxçıvanın təhsil mərkəzi kimi rolunu göstərir.

Çar Rusiyasının tərkibinə daxil olduqdan sonra Naxçıvanda təhsil sistemində yeniliklər baş verdi. XIX əsrin sonlarında bölgədə rus-tatar məktəbləri fəaliyyət göstərməyə başladı. 1883-cü ildə Naxçıvanda ilk dünyəvi məktəbin açılması bu sahədə əhəmiyyətli bir hadisə idi. Bu məktəblər Naxçıvanda maarifçilik ideyalarının yayılmasına böyük təsir göstərdi.

Sovet hakimiyyəti dövründə Naxçıvanda təhsil sistemi əsaslı şəkildə yenidən quruldu. Sovet dövründə təhsilin kütləviliyi və pulsuz olması təmin edildi. 1937-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun təsis edilməsi ali təhsil sahəsində mühüm bir addım idi. Bu institut bölgədə müəllim kadrlarının hazırlanmasında əsas rol oynayırdı. Sovet dövründə, həmçinin çoxlu sayda orta məktəblər, peşə məktəbləri və texnikumlar fəaliyyət göstərirdi.

Azərbaycanın müstəqillik əldə etməsindən sonra Naxçıvanda təhsil sistemi yeni çağırışlarla üzləşdi. 1992-ci ildə Naxçıvan Dövlət Universitetinin yaradılması bu sahədə ən əhəmiyyətli hadisələrdən biri idi. Universitet bölgədə ali təhsil sahəsində əsas mərkəzə çevrildi. Müstəqillik dövründə Naxçıvanda təhsil sisteminin müasir standartlara uyğunlaşdırılması istiqamətində müxtəlif islahatlar həyata keçirildi. Təhsil müəssisələrinin infrastrukturu yaxşılaşdırıldı, müasir texnologiyalarla təchiz edildi. Son illərdə Naxçıvanda təhsilin inkişafı davamlı şəkildə müşahidə olunur. Yeni məktəblərin inşa edilməsi, mövcud məktəblərin modernləşdirilməsi və təhsil prosesində müasir texnologiyaların tətbiqi bu inkişafın göstəriciləridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən qəbul edilən təhsil strategiyaları və dövlət proqramları təhsilin keyfiyyətinin artırılmasına yönəlmişdir. Təhsil müəssisələrinin müəllim heyətinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və tələbələrin beynəlxalq standartlara uyğun təhsil alması üçün tədbirlər görülür.

Naxçıvanın təhsil sahəsində əldə etdiyi uğurlar onun zəngin tarixi və mədəni irsindən qaynaqlanır. Bu gün də bölgədə təhsilin inkişafı üçün əlverişli şərait yaradılmışdır və bu proses davam etməkdədir. Naxçıvanın təhsil tarixi və inkişafı onun elmi və mədəni potensialını əks etdirir, bu da gələcək nəsillərin təhsilli və bilikli yetişməsi üçün möhkəm əsaslar yaradır.

ƏDƏBİYYAT

1. "Azərbaycan" qəzeti. 1994, 4 oktyabr.
2. Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti. Naxçıvan: Qeyrət, 2002, s.80.
3. Həbibbəyli, İ. (1992). Naxçıvan Universitetinin yetirmələri. Bakı: N.Tusi adına ADPU-nun nəşriyyatı, s.120.
4. Məmmədov, V. (2001). Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu. Bakı: "Çənlibel" nəşriyyatı, s.140.
5. Məmmədov, V. (2004). Naxçıvan Müəllimlər İnstitutu. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, s.136.
6. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, F. 1. s. 2, iş 40, 30 v.
7. Naxçıvan Zikur Pedaqoji Texnikumu. Naxçıvan: 1927, s. 50.
8. Rzayev, V. (2018). Naxçıvanda məktəb və pedaqoji fikir (XIX əsr və XX əsrin əvvəlləri). Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 392 s.
9. Tarix və onun problemləri. Bakı Dövlət Universiteti, 2013, №2.

ABSTRACT

Shakar Nagiyeva

A REVIEW OF THE HISTORY OF EDUCATION IN AN ANCIENT LAND WITH A HISTORY OF 100 YEARS

One of the significant measures taken to develop education in the Nakhchivan Autonomous Republic is the introduction of chess as a subject in all general education schools. This initiative is important for developing logical thinking skills in young people. The autonomous republic's leadership has created high-quality infrastructure both within educational institutions and outside to facilitate the effective use of leisure time for students, trainees, and cadets. Utilizing these facilities to integrate education with moral and physical training, to develop students' thinking, and to nurture a healthy generation is a primary responsibility of educators. Health is recognized as a crucial factor in shaping a sound mind.

Keywords: *education, need, development, thinking, formation*

РЕЗЮМЕ

Одной из значительных мер, принятых для развития образования в Нахичеванской Автономной Республике, является введение шахмат как предмета во всех общеобразовательных школах. Эта инициатива важна для развития логического мышления у молодежи. Руководство автономной республики создало качественную инфраструктуру как в образовательных учреждениях, так и за их пределами, чтобы способствовать эффективному использованию свободного времени учащимися, курсантами и студентами. Используя эти возможности для интеграции образования с моральным и физическим воспитанием, развития мышления учащихся и воспитания здорового поколения, является основной обязанностью педагогов. Здоровье признается важным фактором в формировании здорового ума.

Ключевые слова: *образование, потребность, развитие, мышление, формирование*

ŞƏKƏR NAĞIYEVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
shekervaliyev@gmail.com

İNFORMASİYA TEXNOLOGİYALARINDA SÜNİ İNTELLEKTİN ROLU

XÜLASƏ

İnformasiya texnologiyalarında süni intellekt müasir dövrün əsas texnoloji yeniliklərindən biridir və geniş sahələrdə tətbiq olunur. SI, insanların təfəkkür və öyrənmə qabiliyyətlərini simulyasiya edən alqoritmlər və proqram təminatları ilə işləyir. İnformasiya texnologiyaları sahəsində bu texnologiyanın rolu, daha sürətli, effektiv və avtomatlaşdırılmış sistemlərin yaradılmasına imkan verir.

Süni intellektin tətbiq sahələri arasında verilənlər bazalarının idarə edilməsi, təbii dilin işlənməsi, şəxsiyyət tanıma, avtomatik tərcümə, müştəri xidməti və s. kimi müxtəlif sahələr yer alır. Məsələn, maşın öyrənmə və dərin öyrənmə texnologiyaları məlumatların analizi və böyük verilənlərin emalı sahəsində inqilabi dəyişikliklərə səbəb olmuşdur.

Açar sözlər: *texnologiya, inkişaf, təhlükəsizlik, sürətli sistem, tətbiq*

Giriş

İnformasiya texnologiyalarında süni intellektin rolu müasir dövrün ən vacib texnoloji yeniliklərindən biridir. Süni intellekt (SI), insan beyninin öyrənmə və təfəkkür qabiliyyətlərini təqlid edən alqoritmlər və proqram təminatları ilə işləyir. Bu texnologiya, məlumatların emalı, analizi və qərar qəbuletmə proseslərini avtomatlaş-dıraraq informasiya texnologiyalarının daha sürətli, effektiv və optimallaşdırılmış şəkildə fəaliyyət göstərməsinə imkan verir.

Süni intellektin tətbiq sahələri çox genişdir. Məsələn, verilənlər bazalarının idarə edilməsi və böyük verilənlərin analizi sahəsində süni intellektin alqoritmləri, böyük məlumat dəstlərini təhlil edərək istifadəçilərə daha faydalı məlumatlar təqdim edir və daha doğru qərarların qəbul olunmasına kömək edir. Bu texnologiya bizneslərə və təşkilatlara məlumatların daha səmərəli şəkildə emalını və idarə edilməsini təmin edir [2; 56].

Təbii dilin işlənməsi (NLP) sahəsində də süni intellektin rolu mühüm əhəmiyyət kəsb edir. Təbii dilin işlənməsi, kompüterlərin insan dilini anlaması və təhlil etməsi ilə bağlıdır. Avtomatik tərcümə, səsli köməkçilər, chatbotlar və müştəri xidmətləri bu sahənin tətbiqləridir. Bu texnologiyalar müştəri xidmətlərini daha sürətli, daha səmərəli və daha uyğun hala gətirir, həmçinin insan resurslarının yerinə yetirə bilmədiyi vəzifələri avtomatik olaraq həll edir.

Süni intellektin təhlükəsizlik sahəsindəki tətbiqi də böyük önəm daşıyır. Şəxsiyyət tanıma sistemləri və şəbəkə təhlükəsizliyi üzrə alqoritmlər, məlumatların qorunmasında və şəbəkə hücumlarının aşkarlanmasında istifadə olunur. Bu sahədə süni intellektin tətbiqi, şəxsi məlumatların qorunmasını və təşkilatların təhlükəsizliyini təmin edir.

Süni intellekt, tibbi sahədə də böyük bir inqilab yaradır. Xəstəliklərin diaqnozunu və müalicə planlarının hazırlanmasını sürətləndirən süni intellekt alqoritmləri, tibbi görüntüləri analiz edərək səhvləri tez bir zamanda tapır və həkimlərə doğru müalicə metodlarını seçməkdə kömək edir. Bu, səhiyyə xidmətlərinin keyfiyyətini artırır və xəstələrin daha sürətli və effektiv müalicə almasına şərait yaradır [6; 45].

Maliyyə sahəsində süni intellekt, risklərin qiymətləndirilməsi, alqoritmik ticarət və maliyyə bazarlarının analizi kimi sahələrdə geniş istifadə olunur. Bu texnologiya, bazarların hərəkətini daha sürətli və dəqiq analiz etməyə imkan verir, beləliklə, maliyyə qərarları daha yalnız texnologiyanın optimallaşdırılması ilə məhdudlaşmır, həmçinin iş dünyasında yeni imkanlar açır, iş proseslərini sadələşdirir və daha çevik qərar qəbul etmə mexanizmləri təmin edir. Gələcəkdə süni intellektin inkişafı daha geniş tətbiq sahələrini əhatə edəcək və informasiya texnologiyalarını daha da inkişaf etdirəcək. Bu texnologiya, həmçinin müştəri xidmətləri, əməliyyatların sürətlənməsi, məhsul və xidmətlərin keyfiyyətinin artırılması kimi sahələrdə də böyük dəyişikliklərə səbəb olacaq.

Süni intellekt (SI) müasir informasiya texnologiyalarının inkişafında mühüm rol oynayır və bir çox sahələrdə müsbət dəyişikliklərə səbəb olur. Bu texnologiya, verilənlərin emalı, analizi və istifadəçilər üçün daha effektiv, sürətli və dəqiq xidmətlər təqdim edilməsi sahəsində böyük inqilablar yaratmışdır. Süni intellektin informasiya texnologiyalarına təsiri məlumatların emalının və analizinin sürətini və dəqiqliyini artırır. Bu, çox böyük miqdarda məlumatın qısa müddətdə analiz edilərək faydalı Nəticələr əldə edilməsinə imkan verir. Məsələn, maşın öyrənmə alqoritmləri verilənlərdəki nümunələri və əlaqələri müəyyən edərək istifadəçilərə daha doğru və dəqiq məlumatlar təqdim edir. Bu texnologiya bizneslərə və təşkilatlara məlumatlardan daha effektiv istifadə etməyə və strateji qərarlar qəbul etməyə kömək edir.

Süni intellekt, həmçinin əməliyyatların avtomatlaşdırılması və iş proseslərinin optimallaşdırılmasında da mühüm rol oynayır. Bu, təşkilatların əməliyyat xərclərini azaltmağa və insan resurslarının daha effektiv şəkildə istifadəsini təmin etməyə imkan verir. Süni intellekt müştəri xidmətləri, e-ticarət və təhlil proseslərində avtomatik qərar qəbuletmə, məsələlərin həlli və proseslərin idarə edilməsi işlərini asanlaşdırır. Bu da Nəticədə işləri sürətləndirir və daha az insan müdaxiləsi ilə yüksək məhsuldarlıq əldə edilir [3; 34].

İnformasiya texnologiyalarında təhlükəsizlik sahəsində də süni intellektin müsbət təsiri böyükdür. Şəbəkə hücumlarının aşkarlanmasında və məlumatların qorunmasında süni intellekt alqoritmləri əhəmiyyətli rol oynayır. Süni intellekt şəbəkələrdəki anomaliyaları müəyyən edərək təhlükəsizlik risklərini daha tez aşkar edir. Həmçinin biometrik texnologiyalar (üz tanıma, səsli identifikasiya) və davranış analitikası istifadə edərək şəxsi məlumatların qorunmasına kömək edir. Bu texnologiyalar,

xüsusilə maliyyə və səhiyyə sahələrində məlumatların təhlükəsizliyini artırır və haker hücumlarına qarşı daha təsirli müdafiə təmin edir.

Müştəri xidmətləri sahəsində süni intellektin tətbiqi də müsbət təsirə malikdir. Chatbotlar, virtual köməkçilər və səsli köməkçilər (məsələn, Siri, Alexa) müştərilərə 24/7 xidmət göstərərək onların ehtiyaclarını dərhal qarşılayır. Bu texnologiyalar istifadəçilərin sorğularına sürətli və düzgün cavablar verir, sadə məsələləri avtomatik həll edir və müştərilərə daha şəxsiyyətləşdirilmiş xidmətlər təqdim edir. Bunun Nəticəsində müştəri məmnuniyyəti artır, iş prosesləri sürətlənir və resurslardan daha effektiv istifadə edilir.

Süni intellektin tibbi sahədə istifadəsi səhiyyə xidmətlərini müasir dövrdə daha səmərəli və effektiv edir. Tibbi görüntülərin analizi, xəstəliklərin erkən mərhələlərdə aşkarlanması və müalicə planlarının hazırlanması süni intellekt vasitəsilə daha dəqiq şəkildə həyata keçirilir. Maşın öyrənmə alqoritmləri, görüntü analizi və tibbi məlumatların təhlilini sürətləndirərək həkimlərə daha düzgün diaqnoz qoymağa və müalicə prosesini optimallaşdırmağa kömək edir. Bu, səhiyyə xidmətlərinin keyfiyyətini artırır və xəstələrin həyatını xilas etməyə imkan verir.

Süni intellekt iş qüvvəsinin məhsuldarlığını artırır və təhsil sahəsində yeni imkanlar yaradır. İntellektual proqramlar və təlim sistemləri tələbələrin fərdi ehtiyaclarına uyğun tədris materialları və dərslər təqdim edir. Bu, təhsil prosesini daha şəxsiyyətləşdirilmiş və effektiv edir. Eyni zamanda avtomatlaşdırılmış proseslər və intellektual alətlər iş yerində məhsuldarlığı artırır, işçilərin təkrarlanan işlərdən azad ol-masını və daha yaradıcı fəaliyyətlərlə məşğul olmasını təmin edir [8; 67].

Süni intellektin istifadəsi iqtisadiyyatın müxtəlif sahələrində artan rəqabət qabiliyyəti və inkişaf ilə əlaqəlidir. Alqoritmik ticarət, risk qiymətləndirilməsi və bazar analizi kimi sahələrdə süni intellekt texnologiyalarının tətbiqi maliyyə analizini daha dəqiq və sürətli edir. Bu da investorların və təşkilatların daha yaxşı qərarlar qəbul etmələrini və əməliyyatlarını daha effektiv şəkildə idarə etmələrini təmin edir.

Nəticə olaraq, süni intellektin informasiya texnologiyalarında rolu çoxşaxəli və həyati əhəmiyyətlidir. Süni intellektin tətbiqi iş dünyasında və gündəlik həyatda daha səmərəli, təhlükəsiz və sürətli sistemlərin yaradılmasına imkan verir. Bu texnologiyanın gələcək inkişafı daha innovativ həllərin yaranmasına, həmçinin müxtəlif sahələrdə işlərin daha optimallaşdırılmış şəkildə həyata keçirilməsinə gətirib çıxaracaqdır.

Nəticə

Süni intellektin informasiya texnologiyalarındakı rolu müasir dövrdə artan əhəmiyyətinə görə heç bir sahə ilə müqayisə edilə bilməz. Süni intellektin tətbiqinin artırılması, məlumatların daha sürətli və effektiv şəkildə işlənməsini təmin edir, bununla yanaşı, müxtəlif sənaye və xidmət sahələrində yeni imkanlar yaradır. Bu texnologiya, hər hansı bir təşkilatın əməliyyatlarını optimallaşdırmaqla yanaşı, müştəri xidmətlərini avtomatlaşdırmaq, qərar qəbuletmə proseslərini sürətləndirmək və təhlükəsizlik tədbirlərini artırmaq kimi bir çox vacib sahələrdə də əhəmiyyətli inkişaflara səbəb olur.

Süni intellektin verilənlər bazası idarəetməsi, təbii dilin işlənməsi, avtomatik tərcümə, müştəri xidməti və şəxsiyyət tanıma kimi sahələrdə tətbiqi, texnologiyanın nə qədər geniş və təsirli olduğunu göstərir. Məsələn, maşın öyrənmə və dərin öyrənmə alqoritmləri böyük verilənlərin təhlili və məlumatların avtomatlaşdırılmış şəkildə emalı sahələrində inqilabi dəyişikliklər yaratmışdır. Bu, daha dəqiq və sürətli qərarların qəbul olunmasını, həmçinin insanların resurslardan daha səmərəli istifadə etmələrini təmin edir. Beləliklə, süni intellekt yalnız məlumatları daha yaxşı emal etməkdə kömək etmir, həm də bizneslərin daha yaxşı Nəticələr əldə etmələrinə imkan yaradır.

İnformasiya texnologiyalarında süni intellektin tətbiqi təhlükəsizlik sahəsində də çox əhəmiyyətlidir. Şəxsiyyət tanıma, şəbəkə təhlükəsizliyi və digər biometrik sistemlər vasitəsilə məlumatların qorunması və şəbəkə hücumlarının aşkar edilməsi mümkün olur. Bu, şirkətlərin və fərdi istifadəçilərin şəxsi məlumatlarının qorunmasına böyük töhfə verir və gələcəkdə daha təhlükəsiz rəqəmsal mühitlər yaradılmasına şərait yaradır.

Bundan başqa, süni intellektin tibb sahəsində tətbiqi səhiyyə xidmətlərini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa imkan verir. Tibbi görüntülərin analizində istifadə olunan süni intellekt alqoritmləri, həkimlərə xəstəlikləri daha erkən mərhələlərdə aşkar etməkdə və düzgün müalicə planları hazırlamaqda kömək edir. Bu da tibbi xidmətlərin keyfiyyətini artırır və xəstələrin daha sürətli və düzgün müalicə almasına şərait yaradır.

Maliyyə və iqtisadiyyat sahələrində də süni intellektin tətbiqi hər bir şirkət və təşkilatın işini daha çevik və effektli etməyə kömək edir. Alqoritmik ticarət, risk analizi və bazar analizləri süni intellekt alqoritmləri ilə daha dəqiq və sürətli həyata keçirilir. Bu isə investisiya və maliyyə qərarlarının daha yaxşı alınmasına və gəlirlərin artırılmasına imkan yaradır.

Nəticə olaraq, süni intellektin inkişafı və tətbiqi informasiya texnologiyalarında çox böyük və irəliləyiş bir mərhələni təmsil edir. Bu texnologiyanın tətbiqi yalnız məlumatların işlənməsi və analizini deyil, həm də təhlükəsizlik, tibbi xidmətlər, maliyyə və iqtisadiyyatda böyük irəliləyişlərə yol açır. Süni intellektin gələcəkdə daha da inkişaf etməsi, yeni tətbiq sahələrinin yaranmasına və iş dünyasında daha çevik və optimallaşdırılmış sistemlərin yaradılmasına səbəb olacaq. Lakin bu inkişafla yanaşı, etik məsələlər və hüquqi çətinliklər də ortaya çıxacaq, buna görə süni intellektin düzgün və məsuliyyətli şəkildə istifadəsi mühüm əhəmiyyət kəsb edir. Gələcəkdə bu texnologiyanın daha da inkişafı həm fərdi, həm də cəmiyyət səviyyəsində böyük faydalar gətirəcək və insan həyatını daha rahat və səmərəli edəcək.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Hüseynov, A. (2020). İnformasiya texnologiyaları və süni intellektin tətbiqi. Bakı: “Elm və təhsil” nəşriyyatı.
2. Məmmədov, R. (2021). Süni intellekt və onun iqtisadiyyata təsiri. Bakı: İqtisadiyyat Nəşriyyatı.
3. Əliyev, S. (2019). Verilənlər bazası idarəetməsi və süni intellekt. Bakı: Nəşr.
4. Quliyev, T. (2020). Süni intellekt və müasir texnologiyaların inkişafı. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı.
5. Həsənov, E. (2021). Təhlükəsizlik və süni intellektin rolu. Bakı: Təhlükəsizlik və İnformasiya Nəşriyyatı.
6. Əhmədov, Z. (2020). Təbii dilin işlənməsi və süni intellekt. Bakı: Texnologiya və İnnovasiya Nəşriyyatı.
7. İsmayılov, M. (2022). Süni intellektin tibbi sahədə tətbiqi. Bakı: Səhiyyə Nəşriyyatı.
8. Rəhimov, F. (2019). Maşın öyrənmə və süni intellekt. Bakı: Elm və İnnovasiya.
9. Məhərrəmov, S. (2020). Böyük verilənlər və süni intellekt. Bakı: İnformatika Nəşriyyatı.
10. Cabbarov, H. (2021). Süni intellekt və avtomatlaşdırma. Bakı: Texnologiyalar və İnnovasiyalar.
11. Yusifov, K. (2022). Süni intellekt və onun gələcəyi. Bakı: İnkişaf və Tədqiqatlar Nəşriyyatı.
12. Əzizov, F. (2019). Süni intellektin iqtisadi və sosial təsirləri. Bakı: İqtisadiyyat və Texnologiya.

İngilis dilində

13. Chollet, F. (2018). Deep Learning with Python. Manning Publications.
14. Goodfellow, I., Bengio, Y., & Courville, A. (2016). Deep Learning. MIT Press.
15. Koller, D., & Friedman, N. (2009). Probabilistic Graphical Models: Principles and Techniques. MIT Press.
16. Mitchell, T. M. (1997). Machine Learning. McGraw-Hill.

ABSTRACT

Artificial intelligence (AI) in information technology is one of the key technological innovations of the modern era and is applied across a wide range of fields. AI works through algorithms and software that simulate human cognition and learning abilities. In the field of information technology, the role of this technology enables the creation of faster, more efficient, and automated systems.

AI's application areas include database management, natural language processing, facial recognition, automatic translation, customer service, and more. For example, machine learning and deep learning technologies have brought revolutionary changes to data analysis and big data processing.

Keywords: *technology, development, security, fast systems, application*

РЕЗЮМЕ

Искусственный интеллект (ИИ) в информационных технологиях является одной из ключевых технологических инноваций современности и применяется в широком диапазоне областей. ИИ работает через алгоритмы и программное обеспечение, которые имитируют человеческое мышление и способности к обучению. В области информационных технологий роль этой технологии заключается в создании более быстрых, эффективных и автоматизированных систем.

Сферы применения ИИ включают управление базами данных, обработку естественного языка, распознавание лиц, автоматический перевод, обслуживание клиентов и другие. Например, технологии машинного обучения и глубокого обучения привели к революционным изменениям в анализе данных и обработке больших данных.

Ключевые слова: *технологии, развитие, безопасность, быстрые системы, применение*

PƏRVİN MƏMMƏDLİ

Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kolleci

memmedli.pervin.95@mail.ru

QUMRAL ƏLİYEVA

qumralaliyeva87@gmail.com

MUXTARİYYƏT TARİXİNDƏ NAXÇIVAN RABİTƏSİNİN KEÇDİYİ İNKİŞAF YOLU

XÜLASƏ

Naxçıvan Muxtar Respublikasında rabitə sisteminin əsası ötən əsrin 20-ci illərində qoyulmuşdur. Heydər Əliyevin ilk hakimiyyəti dövründə rabitə sahəsi yeni inkişaf mərhələsinə yüksəlmişdir. Ümummilli Liderin ikinci dəfə hakimiyyətə qayıtdığı 1993-cü ildən sonra Naxçıvanda bu sahə yenidən qurulmuş, rabitə xətləri yenilənmiş, yeni rabitə evləri tikilmiş, elektron avtomat telefon stansiyaları istifadəyə verilmişdir. Həmin dövrdə əhalinin tələbatını ödəmək məqsədilə Naxçıvan Muxtar Respublikasında rabitə idarələrinin nömrə tutumu, ümumi istifadəli telefon aparatlarının sayı artırılmışdır.

Naxçıvan Muxtar Respublikasında hazırda telekommunikasiya və poçt xidmətlərinin inkişaf etdirilməsi ilə yanaşı, informasiya sistemlərinin inkişafı, informasiya təhlükəsizliyinin təmin edilməsi, elektron hökumət, elektron imza və elektron sənəd dövriyyəsinin tətbiqi, elektron poçt-maliyyə xidmətlərinin, rəqəmsal yayımın təşkili, ayrı-ayrı sahələr üzrə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, internetdən istifadə səviyyəsinin artırılması diqqət mərkəzində saxlanılmışdır.

Ölkə Prezidenti İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" haqqında sərəncamının əsasında hazırlanan tədbirlər planında Naxçıvanda müasir texnologiyaların tətbiq edilməsi, həmçinin telekommunikasiya və poçt xidmətlərinin çeşidinin və keyfiyyətinin artırılması nəzərdə tutulmuşdur.

Açar sözlər: *Naxçıvan Muxtar Respublikası, rabitə, telefon, avtomat telefon stansiyası, telekommunikasiya*

Giriş

Muxtariyyət tarixində rabitə sahəsinin inkişafına nəzər salsaq, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Xalq Komissarları Soveti tərəfindən 1926-cı il 17 mart tarixli "Naxçıvan MSSR-nin telefonlaşdırılması haqqında" qərar qəbul edilmişdir. Həmin qərarda, ilk növbədə, Naxçıvan-Qıvraq-Baş Noraşen və Naxçıvan-Cəhri-Şahbuz-Biçənək xətti, ikinci növbədə isə Naxçıvan-Culfa-Ordubad-Parağa xəttinin çəkilməsi nəzərdə tutulmuşdur.

1932-ci ildə Naxçıvanda 7 poçt-teleqraf və telefon müəssisəsi, 10 poçt-teleqraf agentliyi, Naxçıvan şəhərində 100 nömrəlik telefon stansiyası tikilib istifadəyə

verilmiş, telefon xətlərinin uzunluğu 1414 km-ə çatdırılmışdır. 1933-1936-cı illərdə muxtar respublikada 2 kommutator olmaqla, 42 telefon nöqtəsini əhatə etmiş, kənd sovetlərinin 67 faizi telefonlaşdırılmışdır.

Rabitə sahəsinin inkişafı Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəlməsi ilə yeni inkişaf mərhələsinə yüksəlmişdir. Belə ki, 1970-ci il iyun ayının 24-də "Respublikada rabitə vasitələrinin vəziyyəti və gələcək inkişafı üzrə tədbirlər haqqında" tarixi qərarın qəbul edilməsi buna bariz nümunədir.

Bu fəaliyyətin Nəticəsi olaraq 1970-1980-cı illər ərzində mühüm texnoloji yenilik kimi addım tipli avtomat telefon stansiyaları quraşdırılmışdır. 1974-cü ildə Naxçıvan rabitə evi istifadəyə verilmiş, Naxçıvan və Culfa şəhərlərində 2000 nömrəlik avtomat telefon stansiyaları qurulmuş, Bakı, Sumqayıt, Yevlax və digər şəhərlərlə avtomat telefon əlaqəsi yaradılmışdır.

Həmin dövrdə rabitə sahəsinin inkişafı kimi muxtar respublikada kənd əraziləri telefon xətləri ilə təmin edilmiş, mövcud şəhər-kənd telefon rabitə xətləri yenilənmişdir. Ordubad rayonunun Əylis, Şərur rayonunun Xanlıqlar və Qıvraq kəndlərində, həmçinin Culfa rayonunun Qazançı kəndində 100 nömrəlik tutuma malik ATS-lər istifadəyə verilmişdir. Muxtar respublikada şəhər əhalisi 5883 nömrəlik, kənd əhalisi 2610 nömrəlik avtomat telefon stansiyaları ilə təmin edilmişdir.

1980-1985-ci illərdə tam avtomat telefon əlaqəsi yaratmaq məqsədilə Naxçıvan şəhəri və digər rayon mərkəzləri arasında 60 kanallı rabitə xətləri quraşdırılmış və istifadəyə verilmiş, Nəticədə 1985-ci ildə hər 100 ailədən 25-i telefon aparatı ilə təmin olunmuşdur.

Ermənistanın Azərbaycana qarşı ərazi iddiası qaldırmasından sonra Sovet Birliyi dövründə Ermənistan ərazisindən keçən Naxçıvan telekommunikasiya xətləri erməni hərbi qüvvələri tərəfindən tamamilə sıradan çıxarılmışdı. Bunun ağır Nəticəsi kimi, blokada şəraitində olan Naxçıvan əhalisi dünyada və Azərbaycanda gedən proseslərdən xəbərsiz idi. Heydər Əliyevin uzaqgörən siyasəti Nəticəsində qısa müddətdə Türkiyə və Naxçıvan arasında radiorele xətti tikilib abunəçilərin istifadəsinə verildi. Naxçıvan şəhərində 512 nömrə tutumuna malik beynəlxalq avtomat telefon stansiyası işə salındı.

Əhalinin tələbatını ödəmək məqsədilə Naxçıvan Muxtar Respublikasında 1995-ci ildə 23600 nömrə tutumlu 98 rabitə idarəsi fəaliyyət göstərirdi. Hər yüz ailəyə düşən ümumi istifadəli telefon aparatlarının sayının 57-ni şəhər, 15-ni kənd yerləri təşkil edirdi. Bakı-Naxçıvan arası peyk kanalları vasitəsilə rabitə əlaqələri yaradılması məqsədilə Azərbaycan televiziya və radio verilişlərinin peyk üzərindən Naxçıvana çatdırılması təmin edilmiş, həmçinin muxtar respublikanın bütün əraziləri elektron ATS-lərlə (avtomat telefon stansiyaları) təchiz edilərək rabitə sahəsinin inkişafına mühüm təkanlar verilmişdir.

1998-ci ildə muxtar respublikada istismar olunan koordinat tipli avtomat telefon stansiyaları yüksək keyfiyyətlə hazırlanmış Cənubi Koreya məhsulu olan yeni elektron rəqəmli avtomat telefon stansiyaları ilə əvəz olundu. 2003-cü ilin sonunda muxtar respublikada hər yüz ailəyə düşən ümumi istifadəli stasionar telefon aparatlarının sayı 46-ya çatmışdır.

Ümummilli Liderimiz Heydər Əliyevin müəyyən etdiyi strategiyaya əsasən ölkə Prezidenti Cənab İlham Əliyevin dövrün tələbləri nəzərə alınmaqla daim təkmilləşdirdiyi inkişaf siyasətinə uyğun olaraq, 2004-2008-ci illəri əhatə edən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı" və "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ümumiqtisadi inkişafın mərkəzlə yanaşı, regionlara doğru istiqamətlənməsində müstəsna əhəmiyyət kəsb etmişdir. Bu strategiyanın Nəticəsində ölkəmizin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası da inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdur.

Müasir dövrdə informasiya kommunikasiya texnologiyaları sahəsinə ölkəmizdə, həmçinin muxtar respublikamızda daim diqqət və qayğı ilə yanaşılır, informasiya-kommunikasiya texnologiyaları sahəsi sürətlə inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikasında 2003-cü illə müqayisədə 2018-ci ildə informasiya və rabitə xidmətləri 11,3 dəfə artmışdır.

Muxtar respublikanın telekommunikasiya infrastrukturunun yenilənməsi istiqamətində Softswich proqram kommutatoru ilə idarə olunan yeni və gələcək nəsil NGN (Next Generation Network) avtomat telefon stansiyaları istifadəyə verilərək Naxçıvan şəhəri, Şərur, Babək, Ordubad, Şahbuz və Sədərək rayonları telekommunikasiya xidmətləri ilə təmin olundu.

Muxtar respublikanın telekommunikasiya şəbəkəsi üzrə telefon nömrələri 7 rəqəmli nömrə planına keçirilmişdir. İstifadə olunan avtomat telefon stansiyalarının 184-ü yeni nəsil texnologiyaları təşkil edir. Hazırda Muxtar Respublikanın yaşayış ərazilərinin 99,1 faizində genişzolaqlı internet, 99,5 faizində isə simsiz internet xidmətləri göstərilir. Muxtar respublikaya daxil olan internet kanalının sürəti 512 kb/san-dən 10 gb/san-dək artırılmış, internet xidmətlərinin tarifləri aşağı salınmışdır.

Muxtar respublikanın telekommunikasiya şəbəkəsi beynəlxalq Trans-Asiya-Avropa fiber-optik kabel magistralına qoşulmuş, ilk dəfə Naxçıvanın tranzit telekommunikasiya imkanları yaradılmışdır. Magistralın Naxçıvan-Ordubad, Naxçıvan-Sədərək və Naxçıvan-Şahbuz hissələri üzərində qurulan optik rəqəmsal şəbəkələr elektron hökumət və genişzolaqlı xidmətlərin həyata keçirilməsinə şərait yaratmışdır. Bundan əlavə, daxili telekommunikasiya əlaqələrinin alternativliyinin təmin edilməsi məqsədilə Ordubad-Sədərək arası fiber-optik magistral kabel xəttinin tikintisi başa çatdırılmışdır. Hazırda muxtar respublikanın mövcud telekommunikasiya şəbəkəsinin 98 faizi optik şəbəkəyə birləşdirilmişdir. Optik şəbəkənin genişləndirilməsi evlərə də optik kabelin çəkilməsinə imkan vermiş, 2012-ci ilin avqust ayından etibarən Naxçıvan şəhərində "Evədək optika" layihəsinin icrasına başlanmışdır.

2013-cü ilin Azərbaycanda "İnformasiya-kommunikasiya texnologiyaları" ili elan olunması muxtar respublikada bu sahənin inkişafına xüsusi diqqət yetirilməsini ön plana çəkmişdir. Proqramın icrası dövründə muxtar respublikada 120 rabitə müəssisəsi tikilmiş, 76 rabitə müəssisəsi əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Naxçıvan şəhərində, Şərur, Sədərək rayonlarında 3-cü nəsil kommunikasiya sistemləri quraşdırılmışdır. Bu sistem hazırda istifadəçilərin 57 faizinə xidmət göstərir. Avtomat telefon stansiyalarının 94 faizi fiber-optik bağlantılarla təmin olunmuşdur. İnformasiya

cəmiyyətinin formalaşmasında xüsusi əhəmiyyətə malik olan "Elektron hökumət" portalı yaradılmışdır.

Telekommunikasiya əlaqələrinin alternativliyinin təmin edilməsi məqsədilə Naxçıvan-Türkiyə-Gürcüstan-Bakı istiqamətində optik kabel üzərindən rabitə kanalları yaradılmış, Naxçıvan-İran-Bakı istiqamətində yeni STM-16 səviyyəli telekommunikasiya əlaqələri təşkil edilmişdir. Ölkəmizdə "Azərspace-1" peykinin orbitə buraxılması ilə muxtar respublikanın ərazisində də keyfiyyətli televiziya və radio yayımı, o cümlədən sürətli internet xidmətlərin göstərilməsi təmin olunmuş, giriş-çıxış telekommunikasiya kanallarının üçüncü alternativi yaranmış, məsafədən təhsil və elektron səhiyyə kimi proqramlar üçün platforma yaradılmışdır. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin peyklərin idarə olunması üçün ehtiyat idarəetmə mərkəzinin Naxçıvan ərazisində yaradılması muxtar respublika üçün mühüm əhəmiyyətə malikdir.

Muxtar respublikada informasiya və rabitə sahəsində daha bir yenilik kimi 2016-cı ildə "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən dördüncü nəsil mobil rabitə şəbəkəsi istifadəyə verilmişdir. Baza stansiyalarının hər biri ilə mərkəzi idarəetmə sistemi arasında fiber-optik kabel xətləri çəkilmiş və saniyədə 1 giqabit informasiya daşıya bilən avadanlıqlar qurulmuşdur.

Rabitə və Yeni Texnologiyalar Nazirliyində, şəhər və rayon rabitə idarələrində müasir iş şəraitinin yaradılması diqqətdə saxlanılmış, təkcə 2018-ci ildə Ordubad rayonunda Rabitə Evi, Şərur rayonunda İbadulla Radio-Televiziya Verici Stansiyası üçün bina istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikasında informasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması sahəsində də ardıcıl tədbirlər görülür.

Bu gün informasiya sistemlərinin inkişafına, informasiya təhlükəsizliyinin təmin edilməsinə, elektron hökumət, elektron imza və elektron sənəd dövriyyəsinin tətbiqinə, elektron poçt-maliyyə xidmətlərinin, rəqəmsal yayımın təşkilinə, ayrı-ayrı sahələr üzrə informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsinə, internetdən istifadə səviyyəsinin artırılmasına xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikasında "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli fərmana əsasən dövlət orqanlarının göstərəcəyi elektron xidmətlərin reqlamentləri təsdiq edilmiş, reyestr kodları verilmiş və internet saytlarında yerləşdirilmişdir. Dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadənin təşkili məqsədilə "Elektron hökumət" portalı yaradılmış, 33 dövlət orqanının xidmətləri portala inteqrasiya edilmişdir.

İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı bu sahə üzrə göstərilən xidmətlərin həcminin dinamik artımına da zəmin yaratmışdır. Belə ki, 2022-ci ildə informasiya və rabitə xidmətləri 60 milyon 367 min 400 manat, ATS-lərin sayı 223 ədəd, ATS-lərin ümumi nömrə tutumu 100075, sabit şəbəkə telefonlarının sayı 79897 nömrə olmuşdur.

Nəticə

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Proqramın 2023-2024-cü illər üzrə Təfsilatlı

Tədbirlər Planında müasir texnologiyaların tətbiq edilməsi ilə telekommunikasiya və poçt xidmətlərinin çeşidinin və keyfiyyətinin artırılması, mobil rabitənin inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi, internet xidmətlərinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi, fiber-optik magistral şəbəkənin yenilənməsi nəzərdə tutulmuşdur. Qeyd olunan tədbirlərin mərhələli şəkildə həyata keçirilməsi rabitə sahəsinin daha da inkişafına, internet xidmətlərinin keyfiyyətinin yüksəlməsinə təkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Naxçıvan Muxtar Respublikası - 95. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2019, 184 s.
2. Hacıyev, İ., İsmayılov, B. Naxçıvan Muxtar Respublikası - 90. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2014, 184 s.
3. Qasımov, C.Y. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı regional Dövlət proqramlarının icrası müstəvisində (2004-2018-ci illər). Dərs vəsaiti. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2020, 320 s.
4. Hacıyev, İ. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı (1995-2019). Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2020, 224 s.
5. Azərbaycanda İnformasiya Cəmiyyəti statistik məcmuə. Bakı: 2023.
6. Azərbaycanda telekommunikasiya və poçt statistik məcmuə. Bakı: 2023.

ABSTRACT

Parvin Mammadli, Gumral Aliyeva

THE DEVELOPMENT PATH OF NAKHCHIVAN COMMUNICATION IN THE HISTORY OF AUTONOMY

The foundation of the communication system in the Nakhchivan Autonomous Republic was laid in the 20s of the last century. During the first reign of Heydar Aliyev, the field of communication rose to a new stage of development. After 1993, when the National Leader returned to power for the second time, this area was reconstructed in Nakhchivan, communication lines were renewed, new communication houses were built, electronic automatic telephone stations were put into use. In order to meet the needs of the population during that period, the number capacity of communication offices in the Nakhchivan Autonomous Republic and the number of public telephones were increased.

In addition to the development of telecommunication and postal services in the Nakhchivan Autonomous Republic, the development of information systems, ensuring information security, implementation of electronic government, electronic signature and electronic document circulation, organization of electronic mail and financial services, digital broadcasting, information in separate fields expanding the application of communication technologies, increasing the level of Internet use has been focused on.

In the action plan prepared on the basis of the decree of President Ilham Aliyev on the "State Program for the Socio-Economic Development of Nakhchivan Autonomous

Republic for 2023-2027", it is envisaged to apply modern technologies in Nakhchivan, as well as to increase the range and quality of telecommunication and postal services.

Keywords: *Nakhchivan Autonomous Republic, communication, telephone, automatic telephone exchange, telecommunications*

РЕЗЮМЕ

Парвин Мамедли, Гумрал Алиева

ПУТЬ РАЗВИТИЯ НАХЧЫВАНСКОЙ СВЯЗИ В ИСТОРИИ АВТОНОМИИ

Основы системы связи в Нахчыванской Автономной Республике были заложены в 20-х годах прошлого века. В годы первого правления Гейдара Алиева сфера связи поднялась на новый этап развития. После 1993 года, когда Национальный Лидер во второй раз вернулся к власти, в Нахчыване была реконструирована эта территория, обновлены линии связи, построены новые дома связи, введены в эксплуатацию электронные АТС. В целях удовлетворения потребностей населения в этот период в Нахчыванской Автономной Республике была увеличена емкость станций связи и количество таксофонов.

Помимо развития телекоммуникационных и почтовых услуг в Нахчыванской Автономной Республике, развитие информационных систем, обеспечение информационной безопасности, внедрение электронного правительства, электронной подписи и электронного документооборота, организация электронной почты и финансовых услуг, цифрового вещания, информационного в отдельных областях акцентировано внимание на расширении применения коммуникационных технологий, повышении уровня использования Интернета.

В плане действий, подготовленном на основе указа президента Ильхама Алиева «О «Государственной программе социально-экономического развития Нахчыванской Автономной Республики на 2023-2027 годы», предусмотрено применение современных технологий в Нахчыване, а также увеличить спектр и качество телекоммуникационных и почтовых услуг.

Ключевые слова: *Нахчыванская Автономная Республика, связь, телефон, АТС, телекоммуникации*

RUZİGAR ƏLİYEVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
ruzigareliyeva5@gmail.com

VEB-SAYTLARIN TƏHLÜKƏSİZLİK BOŞLUQLARI

XÜLASƏ

Veb-texnologiyalar e-dövlətdə, sosial mediada, mobil platformalarda, bank tranzaksiyalarında və s. geniş istifadə olunur. Bu səbəbdən də onlar bədniyyətlilərin hücum hədəflərinə çevrilir və veb-sistemlərdə informasiya təhlükəsizliyinin təmin olunması olduqca aktualdır. Veb-saytların dinamik yenilənməsi, funksionallığı, günün istənilən vaxtında istənilən yerdən əlyetən olması veb-saytların informasiya təhlükəsizliyi problemlərini daha da kəskinləşdirir. Bu işdə veb-saytların mövcud təhlükəsizlik boşluqlarının avtomatik analizi üzrə eksperimentlər aparılır və həmin analizin Nəticələri təqdim olunur. Veb-saytlarda olan boşluqların əvvəlcədən müəyyən olunması yarana biləcək bu və ya digər problemləri aradan qaldırmağa kömək edə bilər.

Açar sözlər: *veb-sayt, veb-təhlükəsizlik, təhlükəsizlik boşluqları*

Müasir dövrün xarakterik xüsusiyyətlərindən biri qlobal kompüter şəbəkələrinin surətli inkişafıdır. İnkişafın bu artımı problemlərin yaranması ilə müşayiət olunur ki, onların həllinə elmi yanaşma tələb edilir. Belə problemlərdən biri də İnternet şəbəkəsində xüsusi istifadəçilərin informasiya resurslarının funksional imkanlarından istifadə etmələridir.

Şəbəkədə informasiya-məlumat resursları yaranmışdır ki, bu da müəyyən şəraitdə öz istifadəçisinə müəyyən dəyərə malik əhəmiyyətli informasiya massivlərinə daxil olmaq imkanı yaradır. Müasir rabitə kanallarının kifayət qədər yüksək ötürücülük qabiliyyətləri maraqlı istifadəçilər üçün müstəqil yazılan proqramların köməyi ilə veb-saytların informasiya yığımının surətini tam götürə bilmələrinə imkan verir. Veb-əlavələrin adi istifadəçiləri və avtomatlaşdırılmış surət çıxarma vasitələrindən (ASV) istifadə edən istifadəçilərin tədqiqi, istifadəçilər arasında surət çıxarma proqramlarının işlənib hazırlanması metodikasının hazırlanmasına imkan verir.

Veb saytların idarə edilməsinə görə öz fəaliyyətlərinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün informasiya münasibətlərinin subyektlərinə (mal sahibləri, idarəçilər, inzibatçılar və s.) aşağıdakı təminatlar maraqlı ola bilər:

1. Onlar üçün zəruri olan informasiyalara müasir daxil olma;
2. İnformasiyanın müəyyən hissəsinin gizli saxlanması (konfidensiallıq);
3. İnformasiyanın həqiqətə uyğunluğu;
4. Onların yalan informasiyaların tətbiqindən qorunması;
5. İnformasiyanın hissələrinin qeyri-qanuni təkrarlanmasından müdafiə olunması (müəlliflik hüququnun qorunması);

6. Kəsilməz nəzarətin və idarəetmənin həyata keçirilməsinin informasiyanın emalı və ötürülməsi prosesləri ilə mümkünlüyü.

Maraqlananların təminatındakı informasiya münasibətlərinin subyektinin, adları yuxarıda çəkilən tələblərindən heç olmasa biri zəif olarsa, onda o, potensial zərbəyə məruz qalmışdır. Ona görə də informasiya münasibətlərinin bütün subyektləri öz informasiya təhlükəsizliyinin təminatı haqqında maraqlanmalıdır. Əgər informasiya ilə birbaşa qarşılıqlı təsir Nəticəsində və ya veb-serverin digər komponentləri birbaşa və ya dolayısı ilə veb-serverin məsul şəxslərinin maraqlarına zərər verərsə, onda təhlükəni potensial mümkün hadisə adlandırırıq.

Aşağıda informasiya təhlükəsizliyinin təhlükəsinin əsas növləri göstərilmişdir:

- informasiya və ya resursun gizliliyinin pozulması;
- informasiyanın tamlığının pozulması;
- sistemin iş qabiliyyətinin pozulması.

Obyektə qarşı müvəffəqiyyətlə reallaşan təhlükə veb-serverin sahibkarına zərər verir. Mümkün zərərlərə baxaq və onları təsnif edək:

- təşkilatın işgüzar nüfuzuna mənəvi və maddi zərər;
- qeyd olunmuş istifadəçinin fərdi verilənlərinin açılması ilə bağlı mənəvi, fiziki zərər;
- gizli informasiyanın açılmasından dəyən maddi (maliyyə) zərər;
- informasiya resurslarının qorunmasının pozulmasının bərpa edilməsi zərurətindən yaranan maddi ziyan;
- üçüncü tərəf qarşısında üzərinə götürdüyü öhdəliyi yerinə yetirmək imkanının olmamasından irəli gələn maddi itkilər;
- təşkilatın işinin pozulmasından yaranan mənəvi və maddi ziyan;
- beynəlxalq münasibətlərin pozulmasından yaranan maddi və mənəvi ziyan.

İstifadəçilərin davranışının bənzətmələrinin proqram vasitələri:

Müasir qlobal şəbəkədə şərti olaraq pulsuz kommunikasiya xidmətlərini təklif edən saytlar kateqoriyası mövcuddur. Məsələn, internet-xidmət. Populyarlığı ilə bu servisin xidmətləri xeyirli və əlverişlidir. Bunun Nəticəsi olaraq bu xassələrdən istifadənin avtomalaşdırılmasına imkan verən proqram vasitələrinin yaranmasıdır. Məsələn, telekommunikasiya xidmətinə heç bir aidiyyatı olmayan istifadəçi saytdan SMS göndərə bilər. Belə saytın sahibi bunu təşkil etməklə, saytın reytinqini yüksəyə qaldırır. Ancaq daxil edilmiş məlumat avtomatik olaraq telekommunikasiya kompaniyasına istiqamətləndirilir və sonra xüsusi qurğu ilə abonentin mobil əlaqə qurğusuna çatdırılır. Beləliklə, telekommunikasiya kompaniyası istifadəçilərin gözlədiyi başqa xidmət və reklamları internet şəbəkəsinin istifadəçisindən öz abonentləri üçün öz saytlarına məlumatın qəbul edilməsi xüsusi hüququnu itirir. Bu zaman telekommunikasiya kompaniyası ilə başqa çətinliklər yaranır. Zəif servis saytlarından istifadə edən ortaqlar yalnız məlumatların istiqamətini dəyişməklə yox, həm də özündə telefon nömrəsi saxlayırlar [1].

Müəyyən kontent veb-saytlardan avtomatik surət çıxarma:

Fərz edək ki, tədqiqat obyekti kifayət qədər yaxşı qorunur və tipik şəbəkə və server hücumlardan yaxşı müdafiə olunur və onları dəf etmə qabiliyyətinə malikdir.

Həmçinin fərz edirik ki, resursa yalnız qeyd olunmuş istifadəçilər daxil ola bilər. Bu ideal halda yalnız verilənlər açıq qalır. Həmişə inanmaq olmaz ki, istifadəçi qanuna tabedir və təyinatına görə olmayan informasiyadan, hətta o müəlliflik hüququ ilə qorunsa belə, istifadə etməyəcəkdir. Xüsusi ilə də müəlliflik hüququnun qorunması haqda beynəlxalq müqavilə ilə əlaqəsi olmayan istifadəçi xarici vətəndaş və ya başqa dövlətin kompaniyasının nümayəndəsi olduqda. Çox hallarda resursun sahibi maraqlı olur ki, informasiya ilə işdə (reklam, forumlarda iştirak və s.) istifadəçi şəxsən iştirak etsin. İstifadəçi öz ehtiyacı üçün verilənlər bazasının kiçik hissəsinin surətini çıxara bilər. Bu informasiya resursları müəyyən ödənişə görə təqdim olunur. Özü də qaydaya görə ödəniş müəyyən miqdarda informasiyaya görə yox, yalnız resursdan istifadə olunması hüququnu qarşılayır. Avtomatlaşdırılmış surət çıxarma vasitələrindən istifadə olunması, informasiyanın surətinin çıxarılması mərhələsində yuxarıda qeyd olunan hallarda son dərəcə arzuolunmaz ola bilər.

Daha bir təhlükə uzun müddət və ya yüksək sürətli belə avtomatlaşdırılmış proqram vasitələrindən istifadə onunla sonlanır ki, istifadəçi verilənlər bazasının tam surətini çıxarır. Bundan da analoji servis yaratmaq üçün istifadə edə bilər. Bu da verilənlər bazasının orijinal sahibinə maddi ziyan vurur.

Şəbəkələrin və şəbəkə əlavələrinin qorunması sisteminin hazırlanması texnologiyası:

Hücumu müəyyən edən sistemlərin qurulması texnologiyasını şərti olaraq iki kateqoriyaya bölürlər: qeyri-adi davranışın aşkar edilməsi və sui-istifadənin aşkar edilməsi. Lakin praktik fəaliyyətdə belə sistemlərin praktik tətbiqini reallaşdıran prinsipləri nəzərə alan şəbəkə səviyyəsində və host səviyyəsində hücumu aşkar edən başqa təsnifat tətbiq edilir. Birinci növ sistemlər şəbəkə trafikini analiz edirlər və şəbəkə səviyyəsində və ya veb-server səviyyəsində real zamanda işləyirlər. Hər bir kateqoriyanın müsbət və çatışmayan tərəfləri vardır. Bu sistemlərin qurulduğu texnologiya o hipotezə əsaslanır ki, istifadəçinin qeyri-adi davranışı normal davranışdan kənara çıxma ilə müşahidə olunur. Qeyri-adi davranışa qısa zamanda çox sayda qoşulmaların olması, mərkəzi prosessorun yüksək səviyyədə yüklənməsini misal göstərmək olar. Lakin qeyri-adi davranış həmişə hücum olmur. Buna eyni zamanda çox sayda sorğuların göndərişini misal göstərmək olar. Hücumu aşkar edən çox sistemlər bunu "xidmətdən imtina kimi" qeyd edirlər. Bunu nəzərə alaraq qeyd etmək olar ki, sistemin istismarında iki ekstremal hal mümkündür:

- hücum olmayan qeyri-adi davranışın aşkar olunması, lakin onun hücum sinfinə daxil edilməsi;
- qeyri-adi davranışın mənası ilə üst-üstə düşməyən hücumların buraxılması; Bu hal çox təhlükəlidir, nəinki yalan qeyri-adi davranışın hücum sinfinə aid edilməsi.

Ona görə də bu kateqoriyadan olan sistemlərin qurulmasında administratorlar aşağıdakı problemlərlə üzləşir:

- istifadəçinin profilinin qurulması. Administratordan böyük ilkin iş tələb edən, çətin formalaşdırılan və böyük həcmli məsələdir.
- yuxarıda deyilən iki ekstremal haldan birinin aşkar olunması ehtimalının aşağı salınması üçün istifadəçinin davranışının xarakteristikasının sərhəd qiymətlərinin təyin edilməsi [2].

Bir çox ekspertlər hesab edirlər ki, qeyri-adi davranışın aşkar edilməsinin reallaşdırılmasında o qədər də səhvə yol verilməyəcəkdir.

Ekspert sistemləri:

Hücumun aşkar edilməsinə digər yanaşma sui-istifadənin aşkar edilməsidir ki, bu da siqnaturada hücumun təsviri və nəzarət fəzasında bu siqnaturanın axtarışı ilə tamamlanır. Siqnaturalar şablonlardır. Satıcıların böyük hissəsi siqnaturaların verilənlər bazasını texniki xidmət müqaviləsinin bir hissəsi kimi müntəzəm yeniləyirlər. Buna baxmayaraq, ekspert sistemləri çox hallarda sui-istifadələrin aşkar olunması üçün anomalyaların aşkar edilməsi qaydalarını tətbiq edirlər. Lakin bu metodun da çatışmazlıqları vardır. Əgər verilənlər bazasında hücumun hər hansı ssenarisi təsvir olunmamışdırsa, onda bu hücumu aşkar etmək mümkün deyil. Bu çatışmazlıq bütün naməlum hadisələri hücum kimi qəbul etmək yolu ilə aradan qaldırılır.

Ekspert sistemlərinin üstünlükləri:

- reallaşdırılma sadəliyi;
- sürətliliyi;
- yalan həyəcan siqnallarının olmaması.

Ekspert sistemlərinin çatışmazlığı:

- naməlum hücumların aşkar edilə bilməməsi;
- hücumda olan kiçik dəyişiklik onun aşkar edilməsini mümkünsüz edir;
- sistem biliklər bazasını dolduran mütəxəssisin ixtisas səviyyəsindən asılı olur.

Hücumların aşkar edilməsi üsullarından biri də neyroşəbəkələrdir. Neyroşəbəkələrin texnologiyası klassik riyazi üsullarla həlli mürəkkəb olan məsələnin həllinə yeni yanaşmadır.

Statistik analiz: Bu üsul müəyyən zaman müddətində istifadəçinin davranışı haqqında yığılan məlumatların analiz edilməsinə əsaslanır. Qaydaya uyğun olaraq, bu məqsədlə qeydiyyat jurnalından istifadə edilir. Ardıcıl olaraq istifadəçinin hər bir əməliyyatı analiz edilir, hər hansı şablon yaradılır.

Statistik analiz sistemlərinin üstünlükləri:

- statistik sistemlər naməlum hücumları aşkar edə bilər;
- statistik metod digər metodlardan fərqli olaraq daha mürəkkəb hücumları aşkar edə bilər;
- statistik metod istifadəçinin davranışının dəyişməsinə adaptasiya oluna bilir.

Statistik analiz sistemlərinin çatışmazlıqları:

- cinayətkar sistemi aldada bilər;
- digər metodlardan fərqli olaraq, statistik metodda hücum haqqında yalan məlumatın əldə olunması ehtimalı yüksəkdir;
- statistik metodların istifadəçi fəaliyyətindəki dəyişikliklərin emalında düzgünlüyü aşağı olur;
- statistik metodlar tipik davranışların şablonlarını təsvir etmək mümkün olmadığı hallarda subyekt tərəfindən hücumu aşkar etmək qabiliyyətinə malik deyildir [3].

ƏDƏBİYYAT

1. Stuttard Dafydd və Marcus Pinto, The Web Application Hacker`s Handbook: Finding və Exploiting Security Flaws, 2011, s. 39-41
2. Owasp Top 10, The Most Critical Web Application Security Risks.
3. Anderson Ross, Security Engineering: A Guide to Building Dependable Distributed Systems, 2020, s. 561

ABSTRACT

Ruzigar Aliyeva

SECURITY VALUES OF WEBSITES

Web-technologies in e-government, social media, mobile platforms, banking transactions, etc. widely used. For this reason, they become targets of malicious attacks, and it is very important to ensure information security in web-systems. Dynamic updating of websites, functionality, accessibility at any time of the day from any place make the informations security problems of websites even more acute. In this work, experiments on the automatic analysis of existing security holes of websites are conducted and the results of that analysis are presented. Identifying the gaps in the websites in advance can help to eliminate these or other problems that may rise.

Keywords: *website, web-security, security holes*

RÖYA MƏMMƏDLİ

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
mammadliroya2@gmail.com

ŞAGİRD TƏFƏKKÜRÜNÜN İNKİŞAF ETDİRİLMƏSİNİN MÜKƏMMƏL ANLAMINDA PARADOKSAL SİTUASİYALARIN YARADILMASI VƏ ONLARDAN İSTİFADƏ METODİKASI

XÜLASƏ

Təqdim edilən işdə orta məktəb fizika kursunun tədrisi prosesində şagirdlərin tədris-təfəkkür fəaliyyətlərinin inkişafı zamanı mövzu ilə əlaqədar olaraq paradoksal vəziyyətin yaradılması, ziddiyyətlərin həlli yolunun axtarılması, şagirdlərin tənqidi düşünmə, yaradıcı tətbiqetmə qabiliyyətlərinin, o cümlədən günün tələbinə uyğun olaraq, şagirdlərin tədqiqatçı və şəxsiyyət kimi yetişdirilməsi məsələləri ön plana çəkilərək şərh edilmişdir.

Açar sözlər: *fizika kursu, təhsil, paradoks, situasiya, məntiqi təfəkkür, fasilitator, elmi tədqiqat, tendensiya*

Giriş

XXI əsrin təhsili, təlimin məzmun və texnologiyasında, strukturunda bir sıra dəyişmələrin zəruriliyini meydana gətirdi. Müasir dövrün qlobal çağırışları təhsildə həlli vacib olan bir sıra məsələləri, dövlət və cəmiyyət həyatının bir nömrəli prioritetinə çevirdi. Çünki müasir dövrdə təhsilin inkişafı, şagird şəxsiyyətinin inkişafının yüksək səviyyədə qurulmasını təmin edir ki, bu da şagirdlərin praktik bacarıqlarını məntiqi təfəkkürlərini və idrak fəallıqlarının inkişafına xidmət etməlidir. Bu məqsədlə müasir dövrün tələb və təkliflərinə uyğun olaraq, müəllimlər bilik, bacarıq, vərdişlərə yiyələnməklə yanaşı tədris prosesinin yüksək səviyyəli təşkili üçün bir sıra üsul və vasitələrdən istifadə etməlidir (İsmayılov, 2019, s.42-43). Şagird təfəkkürünün inkişaf etdirilməsi isə bu məsələnin ən başlıca meyarıdır. Hazırda təhsilin inkişafının əsas tendensiyası "Təhsil elmi tədqiqatın təhsil modelidir" konsepsiyasına əsaslanmaqla, orta məktəb fizika kursunun tədrisində şagirdləri tədqiqatçılığa, elmi yaradıcılığa sövq edən metodların tətbiq edilməsi başlıca məsələdir. Bu məqsədlə fizika müəllimləri tədris prosesində şagirdləri axtarışa istiqamətləndirən, bir sıra əqli əməliyyatlar icra etdirən (analiz, sintez, müqayisə, ümumiləşdirmə) şagirdləri analitik düşünməyə məcbur edən onlarda baxılan məsələnin həllinə tənqidi baxışlar formalaşdıran paradoksal situasiyalar yaratmalıdır. Təhsilin məzmununun dəyişməsilə, müəllimlərin funksiya və vəzifələri dəyişmiş bilik mənbəyi, bilik verən deyil, biliyin müstəqil mənimsənilməsini təşkil edən, öyrədən, fasilitatorluq funksiyasını ifadə etməyə başlamışdır. Məhz belə olan halda fizikanın öyrənilməsi prosesində, biliklərin müstəqil mənimsənilməsi və tətbiqində paradoksal situasiyaların yaradılması məqsədəmüvafiq hesab edilir.

Təsadüfi deyil ki, görkəmli fizik Albert Eynşteyn yazırdı: “Müəllimin ən böyük ustalığı - qarşısındakı tələbədə idraki məsələlərin həllinə və yaradıcılığına həvəs yaratmaqdır”. Bunu, fənninə maraq oyatmağa çalışan hər bir müəllim yadda saxlamalıdır. Xüsusən də bu məsələ ətraf aləmin öyrənilməsinə xidmət edən fizika fənni üçün olduqca önəmli hesab edilir (Əlizadə, 2018, s.24-26). Bu istiqamətdə müəllim tədris prosesində şagirdlərin sıxlıq anlayışına dair biliklərinə istinad edərək belə bir maraqlı sualla müraciət edir: “Sizin fikrinizcə, polad materialdan hazırlanmış iynə suda batarmı?” Şagirdlər bir qədər düşündükdən sonra bir qayda olaraq, cavab verirlər: “Bəli, batar”. Çünki iynənin hazırlandığı materialın sıxlığı suyun sıxlığından böyükdür. Lakin müəllim içərisində su olan nəlbəkiyə iynəni ehtiyatla qoyur və iynə batmır (Şəkil 1).

Şəkil 1.

Yaranan paradoksal vəziyyət şagirdlərin marağına səbəb olur. Adətən, cismin suda batmaması üçün onun sıxlığı ya suyun sıxlığından böyük, ya da ona bərabər olmalıdır. Əlbəttə, metalın sıxlığı suyun sıxlığından böyükdür. Lakin iynə ağırlıq qüvvəsindən daha güclü olan səthi gərilmə qüvvələri sayəsində suda batmır. Bu qüvvələrə görə su özünü səthi plyonka ilə örtülmüş kimi aparır. Bu plyonkada ilişmə qüvvələri ayrılma qüvvələrinə qarşı yönəlir və iynə batmır. Gec və ya tez iynənin səthi islanacaq və iynə batacaq. Lakin iynəni piylə yağlasaq onun batmasının qarşısını almaq olar. Su çubuqları canlıları da (həşəratlar) bu səthi gərilmə sayəsində su üzərində asanlıqla dura və sürətlə hərəkət edə bilərlər. İndi isə 8-ci sinif fizika dərsliyində “Cisimlərin istidən genişlənməsi” mövzusunun tədrisi ilə bağlı belə bir təcrübəyə nəzər yetirək.



Şəkil 2.

Şəkil 2-də göstərildiyi kimi, şüşə butulkanı isti su ilə doldururuq (a). Bir neçə dəqiqə keçdikdən sonra suyu boşaldıb, butulkanın ağzına dərhal rezin şar keçiririk (b).

Butulkanı soyuq su şırnağının altına tutduqda şarın butulkanın içərisinə tədricən sorulduğunu izləyirik (c). Belə olan halda müəllim sinifdə əyləşən şagirdlərə müraciət edərək soruşur: "Nə üçün butulkanı soyutduqda rezin şar onun içərisinə soruldu?" Müəllimin sorğusu ilə birlikdə şagirdlərdə əqli əməliyyatların icrası prosesi başlanır. Onlar təcrübənin nümayişi ilə əlaqədar müxtəlif fikirlər, fərziyyələr irəli sürürlər.

Yekunda müəllim şagirdlərin fikirlərini ümumiləşdirərək qeyd edir ki, butulkanı isti su ilə doldurduğumuz zaman divarları qızır. Butulkanın içərisindəki suyu boşaltdıqda butulkanın içərisinə müəyyən qədər hava dolmuş olacaq. Butulkanın içərisindəki istidən genişlənən hava butulkanı tərk edir və beləliklə, şüşə butulkanın içərisində seyrəkləşmiş hava yaranır. Şarı soyuq suya tutduğumuz zaman isə içərisindəki hava sıxılır (b). Və sıxılma Nəticəsində seyrəklik yaranır. Müəllim şagirdlərə müraciət edərək bildirir ki, seyrəkləşmiş qazda molekulların sayı azdır. Şagirdlər 7-ci sinif təzyiq bəhsinə dair biliklərinə istinad edərək bildirirlər ki, molekulların sayının azlığı təzyiqin azlığıdır. Axı qazın təzyiqi molekulların vurduğu zərbələrin sayıdır. Və beləliklə, müəllim Nəticəni belə əsaslandırır ki, soyuq su şırnağının altında genişlənən havanın sıxılması Nəticəsində şarın üzərinə xaricdən vurulan təzyiq daxildən vurulan təzyiqdən çox olduğundan şar butulkanın içərisinə doğru sorulmağa başlayır. 8-ci sinif fizika dərsliyində "İstilik balansı tənliyi" mövzusuna dair belə bir təcrübəyə diqqət yetirək.

Şəkil 3.

Şəkil 3-də təsvir edildiyi kimi, kağız stəkana bir qədər su töküb ştativin halqalı tutqacında yerləşdiririk. Stəkanın altında spirt lampası (və ya şam) qoyub fitili yandırın. Alov stəkanı altdan demək olar tamamilə bürüyür (Murquzov, 2018, s. 55-57). Şagirdlər belə hesab edirlər ki, indicə kağız stəkan alovlanacaq və su dağılacaqdır. Lakin nə baş verir: Alov stəkanı tamamilə bürüməkdə, su isə qızmaqda davam edir. Müəllim şagirdlərdən soruşur: "Niyə kağız stəkan alovlanmadı?" Şagirdlər hadisənin gedişi ilə əlaqədar kiçik qruplar daxilində və ya fərdi şəkildə mühakimə edirlər. Bu kimi situasiyalar şagirdləri qrup daxili ünsiyyətə cəlb etməklə onları baxılan hadisə və prosesin aktiv iştirakçısına çevirir. Sonda müəllim şagirdlərə xatırladaraq bildirir ki, maye daxilində olan cismə iki qüvvə təsir edir. Yuxarı yönələn Arximed qüvvəsi və aşağı yönələn ağırlıq qüvvəsi. Mayeni qızdırarkən əvvəlcə mayenin aşağı qatlarındakı

maye molekulları qızır, qızan molekullar Arximed qüvvəsinin təsiri Nəticəsində mayenin səthinə qalxarkən, mayenin səthində olan soyuq su molekulları isə ağırlıq qüvvəsinin təsiri altında aşağı qatlara enir. Bu proses maye daxilində istilik tarazlığı yaranana qədər davam edir.

Yuxarıda qeyd edilənlərdən belə bir Nəticəyə gəlmək olar ki, fizika fənninin tədrisinin səmərəliliyini və keyfiyyətini yüksəltmək üçün istifadə olunan təlim metodlarından paradoksal situasiyalar bu istiqamətdə böyük rol oynayır. Belə ki, yaradılan ziddiyyətli situasiyalarda demək olar ki, iki qütb mövcud olur. Qütbün birində sual, hadisə barədə ilkin özü topladığı məlumata söykənən şagird, digərində isə sualın doğru cavabına malik olan müəllim durur. Sanki bu iki qütb arasında həqiqət uğrunda mübarizə gedir. Doğru cavabı aldıqdan sonra şagird sanki yenidən öz əvvəlki tədqiqatçı mövqeyinə qayıdır. Və bu da verilən materialın mənimsəmə faizini artırır, məlumatların etibarlılığını, səmərəliliyini yüksəltməklə, onların təfəkkürünün inkişafına, yeni elmi məlumatların arxasınca getməyində əhəmiyyətli rol oynayır.

ƏDƏBİYYAT

1. Əlizadə, Ş.H. İsmayılov, İ.N. Fizikanın tədrisi metodikası (ümumi məsələlər). Bakı: 2018.
2. İsmayılov, İ.N. Fizikanın tədrisi metodikasının müasir problemləri. Bakı: "ADPU-nun nəşri", 2019.
3. İsmayılov, İ.N., Zümrüd Vidadi qızı. Fizikanin tədrisində paradokslardan istifadə şagird təfəkkürünü inkişaf etdirən amillərdən biri kimi (Ümumtəhsil orta məktəb fizika materialları əsasında). Pedaqoji Universitet Xəbərləri. Bakı, 2016, № 2, s.106-116
4. Ситнова, Е. В. Развитие парадоксальности мышления как фактор обеспечения качества физического образования. Санкт-Петербург: 2010, 156 с.
5. Murquzov, M. İ. və s. 7 və 8-ci sinfin fizika dərslikləri. Bakı: 2018

ABSTRACT

Roya Mammadli

CREATION OF PARADOXIC SITUATIONS IN THE PERFECT SENSE OF DEVELOPING STUDENT THINKING AND THE METHODOLOGY OF USING THEM

In the presented work, during the development of the teaching-thinking activities of the students in the process of teaching the high school physics course, the creation of a paradoxical situation in relation to the topic, the search for a solution to the contradictions, the critical thinking and creative application abilities of the students, including the development of the students as researchers and personalities in accordance with the requirements of the day, are highlighted and interpreted. has been done.

Keywords: *physics course, education, paradox, logical thinking, facilitator, research, tendency*

РЕЗЮМЕ

Ройа Мамедли

СОЗДАНИЕ ПАРАДОКСАЛЬНЫХ СИТУАЦИЙ В С ОВЕРШЕННОМ СМЫСЛЕ РАЗВИТИЯ МЫШЛЕНИЯ УЧАЩИХСЯ И МЕТОДИКА ИХ ИСПОЛЬЗОВАНИЯ

В представленной работе при развитии учебно-мыслительной деятельности студентов в процессе преподавания вузовского курса физики создание парадоксальной ситуации по отношению к теме, поиск решения противоречий, Выделены и осмыслены критическое мышление и творческие прикладные способности студентов, в том числе развитие студентов как исследователей и личностей в соответствии с требованиями времени.

Ключевые слова: *курс физики, образование, парадокс, ситуация, логическое мышление, фасилитатор, Исследование, тенденция*

TÜRKAN HÜSEYNOVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
mehemmed.huseyn.18@gmail.com

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ NAXÇIVAN TƏBİƏTİ

XÜLASƏ

Ümummilli Lider Heydər Əliyevin zəngin maddi sərvətlərimizə – yaşıllığa, meşələrə, dağlara, çaylara, bulaqlara, bir sözlə, təbiətə münasibəti onun azərbaycançılıq ideyasının tərkib hissəsi idi. Ulu Öndər Heydər Əliyev ölkəmizin analoqu olmayan flora və faunası ilə daim fəxr və iftixar hissi keçirir, onun torpağının, havasının, landşaftının qorunub saxlanmasını, zənginləşdirilməsini tələb edirdi. Bu da yurdumuzun torpaq, bitki, su, hava, meşə, bulaq, bitki örtüyü tərkibini daha da dərindən öyrənməyə istiqamət verirdi. Onun rəhbərliyi ilə qəbul edilmiş ekoloji qərarlar, qanunlar, sərəncamlar ölkəmizin təbiətinin sağlamlığına yönəlmişdir. Bu iş ardıcıl, müntəzəm və sistem halında görüldüyü üçün böyük səmərə vermişdir. 1969-cu ildə hakimiyyətə gəldiyi vaxtdan başlayaraq, Azərbaycanı ətalətdən yüksək inkişaf mərhələsinə çıxaran, bütün məqamlarda xalqın qüdrətini, qüvvətini, mənəvi və maddi dəyərlərini, mədəniyyətini, elmini postsovet məkanında tanıdan, onun üstünlüklərini, ululuğunu, qədimliyini, ədəb və əxlaqi keyfiyyətlərini, istedadını dünyaya bəyan edən Ümummilli Lider eyni missiyanı ölkənin zəngin təbiətinin təbliğində, Azərbaycana təbiətin verdiyi sərvətlərin dünyaya tanıdılması sahəsində də müdrik uzaqgörənliklə yerinə yetirmişdir.

Ümumiyyətlə, Ümummilli Lider Heydər Əliyevin fəaliyyətində ekoloji vəziyyətin daha da yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə edilməsi məsələləri həmişə xüsusi diqqət mərkəzində olmuşdur. Təsadüfi deyil ki, məhz Ümummilli Liderimizin 1969-1982 və 1993-2003-cü illərdə respublikamıza rəhbərlik etdiyi dövrlərdə ekologiya və ətraf mühitin mühafizəsi sahəsində mühüm qanunlar və qərarlar qəbul edilmiş, bu sahədə çox böyük dəyişikliklər həyata keçirilmişdir.

Açar sözlər: *ekologiya, qərarlar, qanunlar, ətraf mühitin mühafizəsi, qoruqlar, yasaqlıq, Qırmızı kitab, yaşıllaşdırma*

Giriş

Ekologiya anlayışı Azərbaycan xalqının elmi təfəkküründə keçən əsrin 50-ci illərindən sonra daxil olmuşdur. Lakin onun vacib şərtləndirici tərəfi olan tətbiqi ekologiya isə hələlik yox dərəcəsində olmaqla, uzun müddət zoologiya və botanikanın tərkibində qalmışdır. Əgər tətbiqi ekologiya fəaliyyət göstərsəydi, onda Sumqayıt şəhəri indiki kimi inşa edilməzdi, alüminium zavodu Gəncənin içərisində, Nizami məqbərəsi ətrafında tikilməz, şimal-şərq küləyi əsərkən şəhər toz dumanına bürünməzdi. 1953-cü ildə Samuq meşələri Mingəçevir dəryaçası altında qalmaz,

balıqların miqrasiya yolu bağlanmazdı. Müxtəlif növ ağaclardan ibarət olan tarlaqoruyucu meşə zolaqları monotərkib hala salınmazdı. Şəhərlərin yaşıllaşdırılmasında qovaq, qara tut və s. kimi çirkləndirici ağaclardan istifadə edilməzdi. Qoyunlardan bir az çox yun qırxmaq xatirinə xalq seleksiyaçılarının əsrlərlə yetişdirdiyi Qala, Qarabağ, Şirvan, Qaradolaq, Balbas və s. kimi yüksək keyfiyyətli cinslər, az əhəmiyyətli mələz merinos cinsləri ilə əvəz edilməzdi. Bakı ətrafında neft çıxaran dövlət müəssisələri faydasını götürdükdən sonra yerində neft buruqları və istifadəsi müşkül olan çirklənmiş torpaqlar qalmazdı. Azərbaycan təbiətinə yad olan, iqlimləşməyən (şinşilla, zubr, xallı maral, sayqak), bəzi hallarda isə zərər verən (yenot kimi) heyvanların introduksiya edilməsi hesabına 100-dən çox növün - muflon, bezoar keçisi, bəbir, maral, ceyran, doydaq, bala doydaq, turac, ular və s. nəslinin kəsilmə təhlükəsi yaranmazdı. Yay və qış otlaqlarımız Gürcüstan, Ermənistan və Dağıstanın qoyun sürüləri hesabına həddən çox yüklənib keyfiyyət və kəmiyyətcə kasıblaşmazdı. Malik olduğumuz bu qədər zənginliyin təhlükə altında olmasını hələ sovetlər dövründə elm və dövlət adamları görmüş, ətraf mühitin mühafizəsinə dair bəzi qərarlar qəbul edilmişdir. Lakin tarixi faktlar göstərir ki, 14 iyul 1969-cu ildə Azərbaycan KP MK-nın plenumunda Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra respublikamızda bütün sahələrə, o cümlədən təbiətin mühafizəsinə də diqqət artırılmışdır.

Doğrudan da, sovet plan sisteminin dar çərçivələrinə baxmayaraq, o illərdə görülən misilsiz tikinti - quraşdırma, sənayenin intensiv inkişafı, şəhərsalma və abadlıq işləri ilə bərabər, ekoloji və təbiəti mühafizə tədbirləri də H.Ə.Əliyev üçün prioritet məsələlərdən biri olmuşdur. Bu əlamətdar gündən başlayaraq 1982-ci ilədək respublika həyatının bütün sahələrində dərin canlanma baş verdi. Azərbaycanda, o cümlədən Naxçıvan MR ərazisində də yeni hidrokomplekslər, yaşıllıqlar, qoruq və yasaqlıqlar yaranmağa başlandı. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycan təbiətinin müdafiəsi, onun bərpası və zənginləşdirilməsi tədbirləri, sözün əsl mənasında tətbiqi ekologiya fəaliyyətə başladı.

1969-cu ildə "Azərbaycanda təbiətin mühafizəsi və səmərəli istifadəsi" qanunu qəbul olundu. Hazırda fəaliyyət göstərən, bəzən təkmilləşdirilən və ya sahələri artırılan Şirvan, Bəsitçay, Qarayazı, Ağgöl, İsmayıllı, İlisu, Altıağac dövlət qoruqları, Abşeron, Zuvand, Ordubad və Qubadlı yasaqlıqları Heydər Əliyev rəhbərliyə gəldikdən sonra yaradılmışdır. Yenə həmin ərəfədə təbiəti mühafizə işlərini daha da yaxşılaşdırmaq üçün Naxçıvan MR Təbiəti Mühafizə Müfəttişliyi təşkil edilmiş, daha sonra isə Azərbaycan SSR Nazirlər Sovetinin 18 oktyabr 1969-cu il qərarı ilə muxtar respublikanın Culfa və Ordubad rayonları ərazisində dağ qoyunu (muflon) və bezoar keçilərini qorumaq üçün 40 min hektar sahəni əhatə edən Ordubad yasaqlığı yaradılaraq, həmin sahədə ov edilməsi qadağan olunmuşdur .

1969-1982-ci illərdə ekologiya, təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadəyə dair qəbul olunmuş çox mühüm 8 qanun, Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin 32 qərarı olmuşdur. Bu dövrdə Azərbaycanın Dövlət siyasətində ekologiya da mühüm yer tutmuşdur. İlk olaraq Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutunda "Təbiəti mühafizə" şöbəsi açıldı və o şöbəyə institutun direktoru akad. Həsən Əliyev şəxsən özü rəhbərlik etdi. Müxtəlif nazirliklərin nəzdində olan

“Təbiəti mühafizə” idarəsi Heydər Əliyevin dəstəyi ilə Dövlət Ekologiya Komitəsi səviyyəsinə qaldırıldı. Həsən Əliyevin təklifi və Heydər Əliyevin dəstəyi ilə Bakı Dövlət Universitetində “Ətraf mühitin mühafizəsi” kafedrası açıldı. Coğrafiya və kimya fakültələrində “Təbiətin mühafizəsi”, biologiya fakültəsində “Ekologiyanın əsasları”, “Tətbiqi ekologiya”, hüquq fakültəsində “Ekoloji hüquq”, texniki ali məktəblərdə “Sənaye ekologiyası”, Kənd Təsərrüfatı Akademiyasında “Kənd təsərrüfatı ekologiyası”, Tibb Universitetində “İnsan ekologiyası” və s. fənlər tədris olunmağa başlanıldı .

İri şəhərlərin, xüsusən Bakının yaşıllaşdırılması işi plana uyğun olaraq, başlanıldı. Məlumdur ki, ilk dəfə olaraq Tiflis general - qubernatorunun oğlu, Bakı şəhər komendantı Roman Xoven tərəfindən 1852-ci ildə Bakıda bağ salınmağa başlanılmış və 1880-ci ildə salınmış bu Qubernator bağının ümumi ərazisi 3 hektara qədər olmuşdur. XX əsrin əvvəllərində Bakı şəhərində adambaşına 1-2 m^2 yaşıllıq düşdüyü halda, 05 fevral 1971-ci il tarixli məlumata əsasən Bakı şəhərində və onun rayonlarında adambaşına 6,5 m^2, şəhər daxilində isə 5 m^2 yaşıllıq düşürdü. 14 may 1977-ci il tarixdə Bakıda 6338,8 ha yaşıllıq sahəsi var idi ki, bu da adambaşına 18,4 m^2 edirdi, lakin bu göstəricinin 2000-ci ilədək adambaşına 23 m^2-ə çatdırılması nəzərdə tutulmuşdur. Heydər Əliyevin yüksək təşkilatçılığı Nəticəsində yaşıllaşdırmaya dair beşillik plan üç ildə yerinə yetirilərək, artıq 09 oktyabr 1981-ci il tarixdə şəhərdə adambaşına 20 m^2 yaşıllıq sahəsi düşmüşdür.

Heydər Əliyev deyirdi: "**1970-ci ildə mən ilk dəfə Bakıda yaşıllıq işlərinin aparılması təklifini irəli sürdüm, böyük bir proqram hazırladıq və Bakını sürətlə, ilbəil yaşıllaşdırmağa başladıq… Mən bunlar üçün fəxr edirəm. Ancaq bunların arasında ən çox fəxr etdiyim odur ki, mən Bakının geniş mənada yaşıllaşdırmasının bünövrəsini qoymuşam".** Həmin dövrdə "Bakı ən yaşıl şəhər olmalıdır!" devizi irəli sürülmüşdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin 01 aprel 1993-cü il tarixdə keçirilmiş geniş iclasında "Muxtar respublikanın kənd təsərrüfatı istehsalı sahəsində 1992-ci ilin yekunları, 1993-cü ildə qarşıda duran vəzifələr" və "Qış dövründə kəsilmiş ağacların yenidən bərpası sahəsində şəhər, rayon, kənd və qəsəbə xalq deputatları məclislərinin, onların icraiyyə komitələrinin vəzifələri" haqqında məsələlər müzakirə edilmişdir. Müzakirə zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev qeyd etmişdir ki, qışın sərt keçməsi ilə əlaqədar əhali meyvə və bəzək ağaclarının bir hissəsini kəsib yandırmış, bir hissəsi isə baxımsızlıq üzündən tələf olmuşdur. Ümummilli Liderimiz çıxışında **"Bunların hamısını bərpa etmək lazımdır. Ümumiyyətlə, tək meyvə ağacları deyil, ağır qış şəraiti ilə əlaqədar kəsilmiş bəzək ağacları da bərpa edilməli və biz bu sahədə rayon, kənd, xalq deputatları məclisləri və onların icra komitələri, təsərrüfat rəhbərləri qarşısında çox mühüm vəzifələr qoyaraq tələb etməliyik ki, onlar bu vəzifələri həyata keçirsinlər. Bununla yanaşı, mən Naxçıvan Muxtar Respublikasının bütün əhalisinə müraciət edirəm. Kim harada bir meyvə ağacı, bəzək ağacı əkərsə, o həm özü üçün, həm də öz ailəsi üçün, həm də öz şəhəri üçün, kəndi və qəsəbəsi üçün çox xeyirxah iş görmüş olacaqdır."** Təbiəti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadəyə dair qəbul edilmiş qanun və qərarlar müstəqillik bərpa edildikdən

sonra yenidən baxılmağa və bir sıra yeni qanunların qəbul edilməsinə, həmçinin beynəlxalq konvensiyalara qoşulmağa başlanıldı .

Azərbaycan Respublikası Prezidenti 15 iyul 2000-ci il tarixində 366 №-li "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Fərman imzalamışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 yanvar 2001-ci il tarixli 2 №-li qərarı ilə bu fərmandan irəli gələn məsələlərin yerinə yetirilməsi istiqamətləri göstərilmişdir.

Azərbaycan Respublikasında, o cümlədən də Naxçıvan MR-də Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır. Muxtar respublikanın Ali Məclisi sədrinin 25 may 2001-ci il tarixli 17-II-FR nömrəli fərmanı ilə Naxçıvan MR-də bu nazirlik təsis edilmiş, 01 oktyabr 2001-ci il tarixli fərmanı ilə isə nazirlik haqqında hazırlanmış əsasnamə təsdiq edilmişdir.

Bu gün Ulu Öndərin yolunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi **"Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir".** İlham Əliyev göstərir: **"Azərbaycanda elə bir sahə yoxdur ki, sürətli inkişaf etməsin… bununla bərabər, təbii ki, sürətli inkişaf istər-istəməz ətraf mühitə təsir göstərə bilir. Məhz buna görə də biz çalışırıq ki, öz ekoloji tədbirlərimizi geniş konteksdə həyata keçirək". "Ekologiyanın qorunması xalqımızın sağlamlığının, milli genefondumuzun qorunması deməkdir"**.

Respublikamızda aparılan genişmiqyaslı tədbirlər ekologiyaya birbaşa və ya dolayısı ilə aid olub, ətraf mühitin dayanıqlığına, eyni zamanda əhalinin maddi rifah halının yaxşılaşdırılmasına və sağlamlığının qorunmasına yönəldilmişdir.

Naxçıvan Muxtar Respublikasında da Heydər Əliyevin ideyaları bu gün də müvəffəqiyyətlə davam etdirilir. Belə ki, vaxtı ilə Heydər Əliyev tərəfindən keçirilməsi irəli sürülən 15 Mart - 15 aprel "Yaşıllaşdırma aylığı", artıq hər il yeni istiqamətdə "Yaşıllaşdırma və abadlıq aylığı", "Təmizlik və abadlaşdırma", "Yaşıllaşdırma abadlıq və quruculuq" aylığı keçirilməyə başlanılmış, genişmiqyaslı yaşıllaşdırma tədbirləri həyata keçirilmişdir. Artıq nəinki Naxçıvan şəhəri, eyni zamanda magistral yol kənarları, ətrafdakı çılpaq təpəliklər ardıcıl olaraq yaşıllığa qərq edilir. Şəhərimiz öz gözəl memarlıq üslublu yeni binaları ilə bərabər, salınan gülxarlıqları ilə də gələn qonaqları valeh edir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Meşə Məcəlləsinin təsdiq edilməsi haqqında. Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 30 dekabr 1997-ci il, № 424-IQ
2. Bababəyli, N.S., Talıbov T.H., Ələkbərov R.Ə. və b. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı. Naxçıvan: "Əcəmi" NPB, 2019, 288 s.
3. Əliyev, H.Ə. Həyəcan təbili. Bakı: Elm, 2002, 175 s.
4. Heyvanlar aləmi haqqında. Azərbaycan Respublikasının qanunu. Bakı şəhəri, 4 iyun 1999-cu il, № 675-IQ, 26 s.
5. Talıbov, T. Naxçıvan biomüxtəlifliyinin qorunması əsas vəzifəmizdir // Azərbaycan ekologiyası və təbiəti mühafizə 1969-1998. Bakı: Press-Alyans, 1998, s. 155-156

6. Talıbov, T. Naxçıvan Muxtar Respublikasının Qırmızı Kitabı, Onurğalılar üzrə, cild I. Naxçıvan: "Əcəmi" NPB, 2006, 211 s.
7. Talıbov, T.H., Bababəyli, N.S. Azərbaycan Respublikasında su problemlərinin həll edilməsində Heydər Əliyev mərhələsi //AMEA Naxçıvan Bölməsi. Xəbərlər, Xüsusi buraxılış, Naxçıvan: Tusi, 2013, s.177-180

ABSTRACT

Turkan Huseynova

NATIONAL LEADER HEYDAR ALIYEV AND NATURE OF THE NAKHCHIVAN

National leader Heydar Aliyev's attitude to our rich material resources - vegetation, forests, mountains, rivers, springs, in a word, nature was part of his idea of Azerbaijanism. Great leader Heydar Aliyev was always proud of our country's matchless flora and fauna, demanded preservation and enrichment of its land, air and landscapes. Therefore, he commissioned a more in-depth study of the soil, plants, water, air, forest, springs and the composition of our country's vegetation. The ecological decisions, laws, orders made under his leadership were aimed at the improvement of nature. As this work was carried out consistently, regularly and systematically, it yielded great results. Since coming to power in 1969, he brought Azerbaijan out of inertia to a high stage of development, introduced the power, strength, moral and material values, culture and science of the people to the post-soviet space, proclaimed its advantages, greatness, antiquity, decency and moral qualities, talent to the world. The same mission with wise foresight was fulfilled by the national leader in propaganda of the country's resources natural and in the field of presenting Azerbaijan's natural resources to the world. In general, issues of further improvement of ecological situation, environmental protection and effective use of natural resources have always been in the center of special attention in the activity of national leader Heydar Aliyev. It is not accidental that important laws and decisions in the field of ecology and environmental protection were adopted and great changes were made in this field in the periods when our national leader was leading the republic in 1969-1982 and 1993-2003.

Keywords: *ecology, decisions, laws, environmental protection, nature reserves, prohibition, Red Books, landscaping, natural resources*

YASİN ƏLİYEV

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
eliyevyasin08021978@gmail.com

ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNDƏ TƏLƏBƏLƏRİN KARGÜZARLIQ BİLİKLƏRİ VƏ KADR HAZIRLIĞI

XÜLASƏ

Respublikamızda qanunvericiliyin təkmilləşdirilməsi sahəsində işlər mütəmadi davam etdirilir. Sənədlərlə işin düzgün qurulması, elektronlaşmanın həyata keçirilməsi üçün qanunvericilik aktlarına mütəmadi olaraq əlavə və dəyişikliklər edilməklə bu sahə daha da təkmilləşdirilir. Bunlar milli və müasir idarəetmə modelinin qurulmasına, dövlət orqanlarının fəaliyyətində şəffaflığın, operativliyin təmin edilməsinə, xidmətlərin daha keyfiyyətli, rahat və əlçatan olmasına, bununla da ölkə vətəndaşlarının rifah və məmnunluq səviyyəsinin təmin olunmasına yönəlmişdir.

İstər dövlət, istərsə də özəl müəssisələrdə kargüzarlığın düzgün təşkilinin böyük əhəmiyyəti vardır. Müasir dövrdə elmi-texniki tərəqqi, müəssisələr və idarələr arasında müxtəlif formalı əlaqələrin genişlənməsi sənəd dövriyyəsinin həcminin artmasına səbəb olur. Təbii ki, kargüzarlıq əməliyyatlarının düzgün aparılmaması əlavə vaxt və vəsait itkisinə səbəb olmaqla bərabər müəssisənin fəaliyyətində də müəyyən çatışmazlıqlara səbəb olacaqdır. Bu da istər kollektivin, istərsə də digər aidiyyəti şəxslərin haqlı narazılığını yaradacaqdır. Kargüzarlıq sistemində qeyri-səmərəli qurulmuş iş müəssisənin hal-hazırkı və gələcək fəaliyyətinə birbaşa təsir edən amillərdəndir. Bu mənada ali və orta ixtisas tələbələrinin də gələcəkdə mükəmməl bir kadr kimi formalaşmasında sənədləşdirmə və sənədlərlə iş sahəsində müəyyən məlumatlara malik olmaları daha da effektli olar.

Bu mövzuya toxunmağımız əbəs deyildir. Kargüzarlıq sahəsində, yəni müxtəlif məzmunlu sənədlərin hazırlanmasında, mühazirələrin yazılmasında müxtəlif təhsil ocaqlarında təhsil alan tələbələr tərəfindən əsaslı nöqsanlara yol verilir. Əgər bilik, təcrübə, ümumiyyətlə, kadr hazırlığı aparılırsa, kargüzarlıq da ən aktual mövzulardan olmalıdır. Tələbə auditoriyada özünü necə aparmağı, necə ünsiyyət qurmağı, qarşı tərəfə hörmətlə yanaşmağı, səbirli olmağı, müəssisədaxili nizam-intizam qaydalarına əməl etməyi, öz geyimi və təmizliyinə diqqət yetirməyi bacarmaqla bərabər, təhsil almağı, öyrənməyi, sənədlərlə işin düzgün qurulmasını, elektronlaşmanı bacarmalı, mütəmadi mətbuatı izləməklə bu sahədə özünü daim təkmilləşdirməli, yeni qanunvericilik aktları, onlarda edilmiş dəyişikliklərlə tanış olmalıdır.

Müasir rəqabətli iş dünyası dövrün çağırışlarına cavab verən, təşkilatın səmərəli fəaliyyətini təmin etməklə məqsədlərinə çatmaq üçün lazımi bacarıqlara malik yeni mütəxəssislərə ehtiyac olduğunu və yalnız bu üstün keyfiyyətlərə önəm verildiyini göstərir. Fikrimcə, ixtisas seçiminin fəsadları, şəxsin özünə güvəni də burada böyük rola malikdir. Bu baxımdan məqalədə kadr hazırlığı məsələləri və təcrübi biliklər də

təhlil edilərək mövcud olan problemlərə toxunulmuş, aradan qaldırılması yolları araşdırılaraq oxucuların diqqətinə çatdırılmışdır.

Açar sözlər: *kargüzarlıq bilikləri, elektronlaşmanın təbliği, kadr hazırlığı, təcrübi biliklər, praktiki fəaliyyət, aparılan tədbirlər*

Giriş

Bir çox müəssisələrin, idarələrin iş təcrübəsi göstərir ki, müəssisədaxili və müəssisələrarası yazışmaların idarə edilməsində, kargüzarlıq işlərinin aparılmasında savadlı, öz işinin öhdəsindən gələ bilən kadrlara daha çox ehtiyac vardır. Bunun üçün də müasir idarəetmə sistemi hər sahədə olduğu kimi, kadrların üzərinə əlavə məsuliyyət qoyur. Bu, həmçinin müəyyən təhsil ocaqlarında öyrəndiklərindən əlavə daim yenilikçiliyə açıq olmağı, öz biliklərini mütəmadi yeniləməyi, mütaliəyə və ən əsası təcrübəyə daha çox vaxt ayırmağı tələb edir.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli Fərmanı ilə bir sıra əsaslı dəyişiklik və əlavələr edilmiş, Təlimatın adı dəyişdirilərək "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat" adlandırılmışdır. Təlimata edilmiş dəyişikliklər sənədləşmə işində yeni mərhələnin başlanğıcı olmuş, elektron sənədlərlə bağlı kargüzarlığın aparılmasının xüsusiyyətlərini də izah etmişdir.

Qanunvericiliyə əsasən, "Kargüzarlıq - təşkilatın, öz vəzifələrini həyata keçirməsi ilə əlaqədar sənədləşdirmə və sənədlərlə işin təşkili üzrə fəaliyyətidir". Sənədləşdirmə - sənədlər sisteminin yaradılması prosesidir.

Kargüzarlıq, ümumiyyətlə, sənədləşmə işlərinin düzgün aparılması nəinki təşkilatlarda, müəssisələrdə bu işlə məşğul olan məsul işçilərə, həm də fərdi fəaliyyətlə məşğul olan fiziki şəxslərə də bilməsi vacib olan bir sahədir. Tərtib edilən məktubların, ərizə və təkliflərin hansı şriftlə və intervalla hazırlanması, elektron sənədlərin hazırlanma qaydasına əməl edilməsi və s. tələblərin qanunvericiliyə uyğun yerinə yetirilməsi təbii ki, qarşı tərəfin biliyinin hansı səviyyədə olmasını göstərən birinci şərtdir. Bu mənada bu sahənin tədris ocaqlarında, (hətta orta məktəb səviyyəsində) ayrıca bir fənn kimi tədris edilməsi, fikrimcə, daha səmərəli olmaqla bərabər, bu sahədə mövcud problemlərin aradan qaldırılmasına müəyyən qədər zəmin yarada bilər.

Nəzərə alsaq ki, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyasını həyata keçirən, dövlət qulluğu üçün kadrların seçilməsi, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq ali və orta ixtisas təhsili müəssisələrinə, bakalavriat səviyyəsində hazırlıq qruplarına tələbə qəbulunun həyata keçirilməsi məqsədilə, həmçinin normativ hüquqi aktlarda müəyyən edilən hallarda hüquqi və fiziki şəxslər üçün imtahanlar təşkil edən təşkilat kimi sənədləşmə işlərində qüvvədə olan qanunvericilik aktlarının öyrənilməsinə və təbliğinə üstünlük verirsə, deməli, bu sahənin nə qədər əsas və aparıcı sahə olduğu da nəzərə alınmalı və öyrənilməsinə üstünlük verilməlidir.

Təlimatın 4-cü bölməsində kompüter üsulu ilə hazırlanan sənədlərə olan tələblər və digər məsələlər öz əksini tapmışdır. Sənədlərin çap qaydaları Təlimatda göstərilsə də, bu hal bəzən nəzərə alınmır, sərəncam mahiyyətli sənədlərin tərtib edilmə qaydasında qanunvericiliyə uyğun olmayan dəyişikliklər edilir.

Təlimatın 18-ci bölməsində "Elektron sənədlərlə bağlı kargüzarlığın aparılmasının xüsusiyyətləri"ndən bəhs edilir. Belə ki, bu sahədə həyata keçirilən proseslər "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa və "İdarələrarası elektron sənəd dövriyyəsi haqqında" Əsasnaməyə uyğun olaraq, hazırlanmışdır və müasir tələblərə cavab verir. Muxtar respublikada vahid elektron sənəd dövriyyəsinin təşkil edilməsi və ya mövcud olan sistemin təkmilləşdirilməsi vasitəsilə ölkənin digər regionları, əsasən də paytaxtda yerləşən təşkilatlarla inteqrasiyanın təmin olunması əsasdır.

Fikrimcə, mövcud çatışmazlıqların aradan qaldırılması üçün birinci növbədə maddi-texniki bazanın təmin edilməsi, bu sahə üzrə çalışan mütəxəssislərin, o cümlədən struktur bölmələrin rəhbərlərinin təcrübəsinin artırılması şərtdir. Çünki yalnız dövlət müəssisələrində deyil, özəl müəssisələrdə, o cümlədən fiziki şəxslərin fəaliyyətində də sənədləşdirmə və sənədlərlə işin təşkili düzgün qurulmalıdır. Haliyədə muxtar respublikada özəl fəaliyyətin genişlənməsinə şərait yaradılması gələcəkdə bu sahəyə diqqətin artırılmasını labüd edir. Bu baxımdan ali və ya orta ixtisas təhsili müəssisələrində yüksək bilik və bacarığa malik, ixtisaslı kadrların hazırlanması və ya seminarların təşkil edilməsi, təbii ki, müsbət hal olar. Mövcud problemlərin aradan qaldırılması üzrə səy göstərilməsinə, kargüzarlıq işini aparan işçilərin peşə hazırlığının artırılmasına, kargüzarlığın müntəzəm surətdə təkmilləşdirilməsi məqsədi ilə bütün fəaliyyət sahələrində kargüzarlıq və sənəd dövriyyəsinin təşkili ilə bağlı müəyyən edilən qaydalara düzgün riayət edilməsinə, bu sahədə qanunvericiliyin tələblərinin dərindən öyrənilməsinə və düzgün tətbiqinə diqqətin artırılması əsasdır. Muxtar respublikamızda bu sahəyə nəzarətin ayrıca bir quruma həvalə olunması sənədləşmə işlərinin ümumiləşdirilmiş və təkmilləşdirilmiş formada mövcud qanunvericiliklərin tələblərinə uyğun daha keyfiyyətlə təşkil edilməsinə səbəb olmaqla bərabər, kargüzarlıq sahəsindəki pərakəndəliyin aradan qaldırılmasına xidmət edə bilər. Çünki bu sahəyə aid kifayət qədər qanunvericilik aktları, internet materialları mövcuddur. Yalnız mövcud materialları öyrənib tətbiq etmək bu kimi çatışmazlıqları aradan qaldıra bilər.

Çoxlu məktublaşmaların, yazışmaların öhdəsindən gəlmək üçün kargüzarlığı səmərəli təşkil etmək əsas yoldur. Bunun üçün qanunvericilikdə təşkilatlara kargüzarlığı elektron formada da aparmaq hüququ verilmiş, təşkilatlarda elektron sənədlərin hazırlanmasına dair ümumi tələblər müəyyən edilmiş, gücləndirilmiş elektron imzanın tətbiq edilməsi və elektron sənədin bütün rekvizitlərinin düzgün qeyd edilməsi bildirilmişdir.

Kadr məsələləri

Elektronlaşmanın sürətlə tətbiq edildiyi müasir dövrdə əmək bazarında kadr seçimində əsasən aşağıdakı üstün biliklərə malik olanlara daha çox yer verilir:

- özünə nəzarət və özünü intizama cəlb etmək qabiliyyətinə malik olanlar;

- rəqabət qabiliyyətinə malik, daha çox məsuliyyətli və özünün biliklərini daim təkmilləşdirməyə malik olanlar;
- öz işini sevənlər və öz işinin mütəxəssisi olanlar;
- verilən tapşırıqları vicdanla, məsuliyyətlə və qüsursuz yerinə yetirənlər;
- daim yenilikçi, təşkilatçı, ünsiyyət qurma bacarığına malik olanlar;
- özünə güvənərək müəssisənin rentabelliyini artıracaq qüvvəyə malik olanlar.

Hər hansı peşəyə yiyələnmək üçün atılan ilk addım, yəni ixtisas seçimi daha önəmlidir. Təbii ki, pul qazanmaq, dolanışıq məqsədi ilə, diplom xatirinə seçilən peşə uğur gətirməyəcək. Öz məqsədlərini müəyyənləşdirmək, özünü ifadə etmək, doğrultmaq üçün sevilən, arzu olunan peşə daha önəmlidir.

Bəzən ilk seçim etmək çox çətin olur. Bu məlumatlı olmamaqla, ailənin maddi büdcəsi ilə və ya kifayət qədər təcrübəyə, biliyə malik olmamaq səbəbindən irəli gəlir. Bu zaman abituriyentlər öz ailələri, yaxınları və müəllimlərinin tam olaraq məsləhətlərinə ehtiyac duyurlar. Lakin burada ailə büdcəsinin də nəzərə alınması əsas şərtlərdən biridir. Əgər gəncin sevərək seçdiyi ixtisas ailə büdcəsi ilə uyğunlaşırsa, o zaman həmin peşə üzrə uğur qazanmaq onun yalnız düzgün təhsil almasına bağlı olur. Yox, əgər seçim düzgün aparılmamışdırsa, yəni abituriyent istəmədiyi ixtisası seçibsə, bu da təbii ki, onun davamiyyətinə təsir etməklə yanaşı, təhsil almağına marağı da azaldacaq. Bu baxımdan istər gənclər, istərsə də valideynlər ixtisas seçimində daha diqqətli olmalı, buna xüsusi önəm verməlidirlər. Çünki nəzərə alınmalıdır ki, sevilərək seçilən ixtisasda inkişaf etmək, peşəkar kadr kimi yetişmək mümkündür. Ümumiyyətlə, hər bir kəs daxilində bir arzusu, gələcək planları olduğu üçün inkişaf edəcəyi, səmərə, xeyir verə biləcəyi istiqamətə yönəlməlidir. Ali və ya orta ixtisas təhsili müəssisələrində istənilməyən ixtisasda təhsil almaqdansa, arzu olunaraq seçilən peşəyə yiyələnməyə üstünlük verməsi, təbii ki, daha uğurlu olar.

Təcrübi biliklər

Biliklə təcrübənin birlikdə üstünlüklərinə önəm verən bir sıra filosof, tarixçi, siyasi xadim və yazıçılar (Aristotel, İmmanuil Kant, Karl Marks, Frensis Bekon və s.) hesab edirdilər ki, təcrübənin insanlarda əmələ gəlməsinin səbəbi yaddaşdır. Auditoriyada mütaliə yolu ilə əldə edilən bilik, təcrübə vasitəsilə daha dolğun formada zənginləşdirilir və yaddaşa yazılır. Təcrübə, müşahidə, praktiki fəaliyyət və ya hər hansı bir təəssürat Nəticəsində qazanılmış bilik və bacarıqlar toplusudur. Ümumiyyətlə, istehsalat təcrübəsi və ya pedaqoji təcrübə təlim prosesinin ayrılmaz tərkib hissəsidir. Tələbənin təcrübədə olduğu müəssisədə yiyələndiyi təcrübə ali və orta ixtisas təhsil müəssisələrində qazanılmış nəzəri biliklərin təkrarlanması, təkmilləşdirilməsi, genişləndirilməsi, sistemləşdirilməsi, habelə onların istehsalatda tətbiq edilməsi məqsədini daşıyır. Bu zaman tələbə kifayət qədər bilik, bacarıq və qabiliyyət toplamaq imkanına malik olur. Ən əsası isə təhsili daha maraqlı edir, tələbədə məsuliyyəti artırmaqla bərabər, öyrənməyə də maraq aşılayır. Fikrimcə, təcrübənin nəinki ali və orta ixtisas təhsili müəssisələri tələbələri üçün, hətta orta məktəb səviyyəsində də tətbiq olunması təhsilalanlarda nəzəri bilikləri dərinləşdirməklə bərabər, dünya görüşünün formalaşmasında, onların gələcək ixtisas seçimində müsbət rolu olar. Bu baxımdan təhsil müəssisələrində təcrübəyə daha geniş yer verilməsi, hətta nəzəri və təcrübi biliklərin birlikdə vəhdət halında öyrənilməsi daha effektli olar.

Nəticə

Təbii ki, qeyd edilənlərə malik olan şəxslər birinci növbədə həqiqi biliklərə, elmə, təhsilə reklam, imtahan, qiymət xatirinə keçici olaraq yox, özünə və cəmiyyətə xeyirli töhfə verməyi qarşısına məqsəd qoymağı bacaranlara xas xüsusiyyətlərdir.

Ümumiyyətlə, zənnimcə, öz sahəsində daha çox təcrübəyə və biliyə malik olan şəxs, daha çox insani keyfiyyətlərə də malik olur. Deməli, nə qədər istedadlı, bilikli, müsbət şəxsi keyfiyyətlərə malik bir nəsl yetişdirsək, öz gələcəyimizi və təhlükəsizliyimizi də bir o qədər sığortalamış oluruq.

Ulu Öndər Heydər Əliyev həmişə təhsilə yüksək qiymət verərək demişdir:

"Təhsil millətin gələcəyidir. Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib, onları gələcəyə hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun. Dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun".

ƏDƏBİYYAT

1. Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının 30 sentyabr 2015-ci il tarixli, 1308-IVQ nömrəli Qanunu.
2. Telefon müraciət xidməti vasitəsilə şifahi müraciətlərin edilməsi, qəbulu, qeydiyyatı və cavablandırılması Qaydası; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 sentyabr tarixli, 339 nömrəli Qərarı.
3. Dövlət və bələdiyyə orqanlarında, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında vətəndaşların müraciətləri ilə bağlı kargüzarlığın aparılması Qaydası; Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli, 950 nömrəli Fərmanı.
4. Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat; Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2003-cü il tarixli, 935 nömrəli Fərmanı.
5. Elektron imza və elektron sənəd haqqında Azərbaycan Respublikasının 9 mart 2004-cü il tarixli, 602-IIQ nömrəli Qanunu.
6. Musayev, E. (2003). Kargüzarlığın təşkili.

ABSTRACT

Yasin Aliyev

CLERICAL KNOWLEDGE AND PERSONNEL TRAINING OF STUDENTS IN HIGHER AND SECONDARY SPECIALIZED EDUCATIONAL INSTITUTIONS

Work is constantly being carried out in the field of improving legislation in our republic. This area is being further improved by regularly making additions and amendments to legislative acts for the correct organization of work with documents and the implementation of electronicization. These are aimed at establishing a national and modern management model, ensuring transparency and efficiency in the activities of state bodies, making services more qualitative, convenient and accessible, and thereby ensuring the level of well-being and satisfaction of the country's citizens.

The correct organization of clerical work is of great importance in both state and private enterprises. In modern times, scientific and technical progress, the expansion of various forms of relations between enterprises and departments lead to an increase in the volume of document circulation.

Naturally, improper conduct of clerical operations will lead to additional loss of time and money, as well as certain shortcomings in the activities of the enterprise. This will also create justified dissatisfaction of both the collective and other relevant persons. Inefficiently organized work in the clerical system is one of the factors that directly affects the current and future activities of the enterprise. In this sense, it would be even more effective for higher and secondary specialized students to have certain knowledge in the field of documentation and work with documents in the future to form themselves as excellent personnel. It is not in vain that we touch on this topic. In the field of clerical work, that is, in the preparation of documents of various contents, in writing lectures, fundamental shortcomings are made by students studying in various educational institutions. If knowledge, experience in general, and personnel training are carried out, then clerical work should also be one of the most relevant topics. A student should be able to behave in the audience, how to communicate, treat the other party with respect, be patient, follow the rules of internal discipline of the institution, pay attention to his clothing and cleanliness, as well as be able to receive education, learn, properly organize work with documents, be able to use electronic technology, constantly improve himself in this field by regularly following the press, and be familiar with new legislative acts and changes made to them.

The modern competitive business world shows that there is a need for new specialists who meet the challenges of the time and have the necessary skills to achieve their goals by ensuring the efficient operation of the organization, and that only these superior qualities are given importance. In my opinion, the consequences of choosing a specialty and the self-confidence of the person also play a big role here. In this regard, the article also analyzes personnel training issues and practical knowledge, touches on existing problems, and examines ways to overcome them and brings them to the attention of readers.

***Keywords**: clerical skills, electronic implementation, personnel training, practical knowledge, practical activities, measures taken*

AİŞƏ MUSAYEVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
aismusayeva@gmail.com

İNSAN KAPİTALI VƏ SAHİBKARLIQ BACARIQLARI: NAXÇIVANDA YENİ YANAŞMALAR

XÜLASƏ

İnsan kapitalı və sahibkarlıq bacarıqları, hər bir iqtisadiyyatın inkişafında mühüm rol oynayır. Bu amillər işçi qüvvəsinin keyfiyyətini və məhsuldarlığını artırmaqla yanaşı, həm də yerli iqtisadiyyatın güclənməsinə, yeni iş yerlərinin yaradılmasına və sosial rifahın yüksəlməsinə gətirib çıxarır. Naxçıvan Muxtar Respublikasında da bu faktorlar iqtisadi inkişafın təməl daşları kimi əhəmiyyət kəsb edir. Xüsusilə son illərdə regionda insan kapitalının inkişafı və sahibkarlıq bacarıqlarının artırılması məqsədilə bir sıra mühüm təşəbbüslər həyata keçirilir. Təhsil sektorunun modernləşdirilməsi, yeni biznes mühitinin formalaşdırılması və yerli sahibkarların dəstəklənməsi, Naxçıvanın iqtisadi potensialını gücləndirmək üçün atılan addımlardandır.

Məqalə Naxçıvan Muxtar Respublikasında insan kapitalı və sahibkarlıq bacarıqlarının inkişafına dair yeni yanaşmaları araşdıracaqdır. Əsas məqsəd təhsil, peşə hazırlığı və işçi qüvvəsinin bacarıqlarının artırılması sahəsində atılan addımların iqtisadi inkişafla əlaqəsini təhlil etməkdir. Məqalə, həmçinin Naxçıvanda sahibkarlıq mühitinin gücləndirilməsi və yeni biznes bacarıqlarının formalaşdırılması istiqamətindəki təşəbbüsləri və innovativ biznes yanaşmalarını nəzərdən keçirəcək. Təhsil sisteminin müasir iş bazarının tələblərinə uyğunlaşdırılması, yerli təhsil müəssisələrinin inkişafı və sosial rifahın yüksəlməsi də araşdırılacaq əsas mövzulardandır. Bununla yanaşı, insan kapitalı və sahibkarlıq bacarıqlarının inkişafı ilə əlaqəli uzunmüddətli sosial və iqtisadi təsirlər qiymətləndiriləcək, bu sahələrin gələcəkdə daha da inkişaf etdirilməsi üçün nəzərdə tutulan tədbirlər və perspektivlər müzakirə olunacaq. Məqalə Naxçıvanın iqtisadi inkişafına töhfə verəcək yeni yanaşmalar və strateji planların formalaşdırılması baxımından əhəmiyyətlidir.

Açar sözlər: *insan kapitalı, təhsil sektoru, sahibkarlığın inkişafı, biznes mühiti*

İnsan kapitalının inkişafı və təhsil sektorunun gücləndirilməsi

İnsan kapitalı, hər bir ölkənin və regionun uzunmüddətli iqtisadi inkişafının əsas amillərindən biridir. İnsan kapitalı dedikdə, bir cəmiyyətin bilik, bacarıq, təcrübə və ümumilikdə insan potensialı nəzərdə tutulur. Bu kapitalın inkişafı, işçi qüvvəsinin keyfiyyətini artırmaqla yanaşı, həm də innovasiya, texnoloji tərəqqi və iqtisadi artımın sürətləndirilməsi üçün vacibdir. Naxçıvan kimi inkişaf etməkdə olan və coğrafi blokada şəraitində olan regionlar üçün insan kapitalının inkişafı daha da

əhəmiyyətlidir, çünki bu, regionun iqtisadi müstəqilliyinin artırılmasına, regional və beynəlxalq inteqrasiyasına töhfə verir.

İnsan kapitalının inkişafı üçün təhsil sektorunun gücləndirilməsi əsas rol oynayır. Təhsil yalnız biliklərin öyrədilməsi deyil, həm də yaradıcı düşüncə, problem həll etmə bacarıqları, əmək bazarına uyğun ixtisasların formalaşması və ümumi sosial rifahın artırılması prosesidir. Bu baxımdan, təhsil sektoru insan kapitalının inkişafının təməlini qoyan vacib bir sahədir.

İnsan kapitalının inkişafı, təhsil sistemi vasitəsilə həyata keçirilir. Yüksək keyfiyyətli təhsil, insanları daha ixtisaslı və məhsuldar işçilərə çevirmək qabiliyyətinə malikdir. Təhsil sistemi nə qədər mükəmməl və qabaqcıl olsa, regionun əmək bazarında tələb olunan biliklərə malik olan və bu bilikləri tətbiq edə bilən işçi qüvvəsi o qədər çox olar. Naxçıvanda da təhsil sektorunun gücləndirilməsi, onun iqtisadi inkişafının əsas istiqamətlərindən birini təşkil edir.

Naxçıvanın mövcud iqtisadiyyatında kənd təsərrüfatı, sənaye və infrastruktur sektoru önəmli yer tutur. Bu sahələrdə yüksək ixtisaslı işçi qüvvəsi olmadan effektiv inkişaf mümkünsüzdür. Bu səbəbdən, peşə təhsili və texniki bacarıqların inkişafı təhsilin əsas prioritetlərindən biri olmalıdır. Peşə təhsili mərkəzləri və texniki təhsil müəssisələri gəncləri spesifik sahələrdə (məsələn, elektrik, mexanika, kənd təsərrüfatı texnologiyaları və s.) hazırlayaraq onların iş gücünə qatılmalarını təmin edər (Əliyev, E. 2021).

Peşə təhsili mərkəzlərində praktik təlim və ixtisasartırma proqramlarının yaradılması, həmçinin yerli işgüzar sektorda mövcud tələblərə uyğun olaraq, təlimlər təşkil olunması çox vacibdir. Bununla yanaşı, universitetlər və peşə təhsil müəssisələri arasında əməkdaşlıq əlaqələrinin qurulması, tələbələrin nəzəri bilikləri praktikada tətbiq etmələri üçün geniş imkanlar yaradacaq.

Naxçıvanın yüksək təhsil müəssisələrində beynəlxalq standartlara uyğun təhsil proqramlarının tətbiqi, müasir elmi təhsil sistemlərinin qurulması və xarici universitetlərlə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi də əhəmiyyətlidir. Bu təşəbbüslər, tələbələrin beynəlxalq səviyyədə tanınan diplomlara sahib olmalarına və dünyanın müxtəlif yerlərində işləmələrinə imkan verəcəkdir.

Bu oxşarlıqlar ingilis və Azərbaycan yazıçılarının yaradıcılığının müxtəlif aspektlərini göstərir. Hər iki ədəbiyyatın nümayəndələri insan təbiətini, sosial və siyasi məsələləri, milli kimliyi və dini-fəlsəfi düşüncələri təsvir edərək oxşar mövzulara toxunmuşlar.

ƏDƏBİYYAT

1. Knight, Charles. Biography: Or, Third Division of “The English Encyclopedia” (ingilis). Bradbury, Evans & Company. 1867. 534.
2. Greenblatt, Stephen. Will in the World: How Shakespeare Became Shakespeare // (ingilis). London: Pimlico. 2005. ISBN 0-7126-0098-1.
3. Dobson, Michael. The Making of the National Poet: Shakespeare, Adaptation and Authorship, 1660–1769 (англ.) (ingilis). Oxford: Oxford University Press, 1992. ISBN 978-0-19-818323-5.
4. Craig, Leon Harold. Of Philosophers and Kings: Political Philosophy in Shakespeare’s Macbeth and King Lear (англ.) (ingilis). Toronto: University of Toronto Press, 2003. ISBN 0-8020-8605-5.
5. Craig, Leon Harold. Of Philosophers and Kings: Political Philosophy in Shakespeare’s Macbeth and King Lear (англ.) (ingilis). Toronto: University of Toronto Press.
6. Google.az
7. Yahoo.az

ABSTRACT

Nurlana Babayeva

MUTUAL ANALYSIS OF ENGLISH THINKERS AND AZERBAIJANI THINKERS

There are several similarities in the works of English and Azerbaijani writers. Both literary traditions delve deeply into human nature and emotions; for instance, Nizami Ganjavi and William Shakespeare explore themes of love and jealousy. In social and political criticism, Celil Memmedquluzade and George Orwell address societal injustices. On the themes of national identity and freedom, Mohammed Fuzuli and Robert Burns reflect their respective cultural and national identities. Religious and philosophical thoughts are depicted in the works of Nasimi and John Milton. The roles of women and family are highlighted in the works of Mirza Fatali Akhundov and Jane Austen. Satirical styles are evident in the writings of Sabir and Jonathan Swift, who critique societal issues and politics. These similarities highlight how both literary traditions address similar themes and employ comparable styles.

Analyzing English and Azerbaijani thinkers reveals interesting parallels and differences in culture, philosophy, literature, and other fields. Both England and Azerbaijan boast rich intellectual heritages, though these have developed in distinct historical, cultural, and social contexts. Below are some key similarities and differences in the works and ideas of prominent thinkers from both traditions.

Keywords: *creativity, national culture, industrial revolution, idea, similarity*

РЕЗЮМЕ

В произведениях английских и азербайджанских писателей существует множество сходств. Обе литературные традиции глубоко исследуют человеческую природу и эмоции; например, Низами Гянджеви и Уильям Шекспир рассматривают темы любви и ревности. В социально-политической критике Джалил Мамедкулизаде и Джордж Оруэлл обращают внимание на несправедливости в обществе. В темах национальной идентичности и свободы Мухаммед Физули и Роберт Бёрнс отражают свои культурные и национальные идентичности. Религиозные и философские мысли представлены в произведениях Насими и Джона Мильтона. Роли женщин и семьи подчеркиваются в произведениях Мирзы Фатали Ахундова и Джейн Остин. Сатирический стиль присутствует в произведениях Сабира и Джонатана Свифта, которые критикуют социальные проблемы и политику. Эти сходства показывают, как обе литературные традиции затрагивают схожие темы и используют аналогичные стили.

Анализ английских и азербайджанских мыслителей выявляет интересные параллели и различия в культуре, философии, литературе и других областях. Англия и Азербайджан обладают богатым интеллектуальным наследием, хотя это наследие развивалось в разных исторических, культурных и социальных контекстах. Ниже приведены ключевые сходства и различия в работах и идеях выдающихся мыслителей обеих традиций.

Ключевые слова: *творчество, национальная культура, промышленная революция, идея, сходство*

VÜSALƏ MƏMMƏDOVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci

NAXÇIVAN OBRAZININ BƏDİİ ƏKSİ HÜSEYN RAZİ ŞEİRLƏRİNDƏ

XÜLASƏ

Naxçıvanın yetişdirdiyi tanınmış şairlərdən biri də Hüseyn Razidir. 100 il əvvəl - muxtariyyətin elanından bir neçə ay sonra dünyaya gələn, muxtariyyətlə həmyaşıd olan şairin əsərlərində Naxçıvan obrazı özünəməxsus yer tutur. İstər şeirlərində, istər poemalarında, istərsə də pyeslərində Naxçıvan obrazını fərqli cəhətləri ilə tərənnüm edən şairin, demək olar ki, bütün kitablarında Naxçıvanla bağlı şeirə rast gəlmək mümkündür.

Muxtar respublikanın tərənnümünə həsr olunmuş həmin şeirlərdə Naxçıvan bir obraz kimi özünü göstərir. Bəzi hallarda biz Naxçıvanı canlı bir xarakter kimi müşahidə edirik. Bu şeirlərdə Naxçıvan dilə gələrək özünü təqdim edir, təsvir edir, fərqli yönləri ilə Hüseyn Razi qələmindən süzülərək bədii təxəyyül məhsulu kimi önə çıxır.

Məqalədə də Hüseyn Razinin Naxçıvan obrazına yanaşma tərzi araşdırılmış, şairin yaradıcılığında Naxçıvan obrazının hansı parametrlərlə özünü göstərməsi tədqiq olunmuş, eyni zamanda bu şeirlər vasitəsilə "Naxçıvanı nə dərəcədə tanıya bilərik?" sualı cavablandırılmışdır.

Açar sözlər: *Naxçıvan, muxtariyyət, Hüseyn Razi, şeir, şair, obraz*

Giriş

Ədəbi simalar həmişə yaşadıqları bölgənin sayılıb-seçilən ziyalılarından olub. Naxçıvan Muxtar Respublikasının çoxsaylı şəxsiyyətləri içərisində şairlərin hissedilən çəkisi danılmazdır. Naxçıvanın yetişdirdiyi çox istedadlı qələm sahiblərindən biri də Hüseyn Razidir. Muxtariyyətlə həmyaşıd olan Hüseyn Razi müxtəlif peşələrdə çalışsa da, bu gün hamı onu müəllim kimi, mədəniyyət işçisi kimi yox, "Şərq qapısı" qəzetində uzun illər Ədəbiyyat şöbəsinə rəhbərlik edən publisist, daha çox isə görkəmli şair kimi tanıyır, yad edir. Qəzet əməkdaşı kimi yüzlərlə publisist yazısında muxtar respublikamızda gedən çoxşaxəli hadisələrə jurnalist qələmi ilə işıq tutan Hüseyn Razi öz daxili duyğularını şair kimi vərəqlərə köçürmüşdür. Muxtar respublikamızın gözəlliklərini, tarixi və təbiət abidələrini tərənnüm edən şairin şeirlərində Naxçıvanın özünəməxsus gözəllikləri bədii boyalarla oxucuya təqdim olunub. Naxçıvan obrazı da bu baxımdan daha çox diqqət çəkir, Hüseyn Razi yaradıcılığında ən gözəl tərəflərilə dilə gətirilir.

Ömrünün gənclik illərində qələmə aldığı "Vətən" şeirində Naxçıvanın başı qarlı dağlarını ulu dədəmiz Qorquda bənzətməsi bu qədim diyarın həm də oğuzların məskəni olduğunu göstərən yazıçı cəsarəti idi. Sovet hakimiyyətinin sərt tələbləri, sosrealizm

prinsiplərinin bütün yazıçı və şairlər üzərindəki hissedilən təzyiqinə baxmayaraq, o öz milli təəssübkeşliyini ancaq bu şəkildə təqdim edə bilirdi:

Şeir sənətində bu nurlu yurdun
Alovlu ürəklər vəcdə gəlibdir.
Vətən dağlarına Dədə Qorqudun,
Vurğunun saçları səpələnibdir (Razi, H.M. 1977, 7).

Bir bəndini nümunə gətirdiyimiz şeirdə Dədə Qorqudla birlikdə Səməd Vurğunun da yer alması Hüseyn Razinin usta gedişlərindən biri idi. Sosrealizmin sovet şairi obrazı kimi Azərbaycan ədəbiyyatında önə çıxardığı Səməd Vurğun burada Dədə Qorqud milliliyindən yapışıb müəllifə təzyiq göstərmək istəyənlərə Vurğun qalxanı idi. Beləliklə də, müəllif həm özünü sığortalayır, həm də "oğuz türklərindən gəlirik, buralar oğuzların yurdudur" mesajını verərək Naxçıvan obrazına milli çalarlar qatırdı.

Yaşadığı şəhəri bütün varlığıyla sevən Hüseyn Razinin Naxçıvan obrazının canlandırıldığı şeirlərinin birində bu qədim diyar özünü təqdim edən canlı biri şəklində gözə çarpır. Bu dünyaya hansı uğurları, yenilikləri, gözəllikləri gətirdiyini şair vasitəsilə Naxçıvanın dilindən dinləyirik. Öz vətəndaşlarının zəhmət vurğunu olduqlarından söz açan Naxçıvan müxtəlif misralarda fərqli fikirlər irəli sürür. Şeirin iki bəndinə diqqət edək:

Halal zəhmət vurğunudur hər ürək
Bəzənmişdir Şərur düzü, Sədərək.
Hər məclisə biz bərəkət, duz-çörək
Bolluq, zəfər təranəsi gətirdik.

Geyib bayram paltarını Ordubad,
Bu torpağın hər evində bir büsat.
Qucağına Culfa, Şahbuz, Batabat,
Biz Arazdan nur şöləsi gətirdik (Razi, H.M. 1977, 9).

Təcrübəli qələm sahibinin başqa bir şeirində də yuxarıdakı misralarda olduğu kimi, Naxçıvan özü-özünü təqdim edir. Muxtar respublikanın bədii boyalarla təqdimatında müəllifin bir-birini təkrar etmədən maraqlı mənzərələr yaratdığının şahidi oluruq:

Əcəmi xalqının dağ vüqarını,
Naxış düzümündə cəm eləmişdir.
Göyün əsrarəngiz ulduzlarını
Torpağın üstündə cilvələmişdir (Razi, H.M. 1977, 12).

Azərbaycanda ədəbiyyatşünaslıq elminin inkişafında böyük xidmətlər göstərmiş professor Yavuz Axundlunun gəldiyi qənaət də Hüseyn Razinin yaradıcılığında Naxçıvan obrazının geniş şəkildə öz əksini tapdığını deməyə əsas verir. Y.Axundlu yazır: "H.Razi qədim Azərbaycan torpağında, Naxçıvanda yaşayır və onun şeirlərində bu yurdun özünəməxsus gözəllikləri, səciyyəvi cizgiləri əks olunur" (Axundlu Y.İ. 2013, 171). Məhz bu sevginin, Naxçıvana bağlılığın Nəticəsidir ki, Hüseyn Razi ömür boyu Naxçıvanda yazıb-yaratmış, buradan Azərbaycan ədəbiyyatına öz dəyərli töhfələrini vermişdir. Başqa bir şeirində bu bağlılığı şair özü belə ifadə edir:

Naxçıvana ana desək yeri var,
Onu sevin, sevin demiş babalar.
Azərbaycan torpağının, a dostlar,
Mən bu qədim guşəsinə bağlıyam (Razi, H.M. 1974, 35).

Bir şeirdə "Vətən", digər şeirdə "Bu yerlər", digər bir şeirdə "Ana yurdum" kimi təqdim olunan Naxçıvan başqa bir şeirdə "Gəncləşən diyar" kimi qarşımıza çıxır. Bu mənada Hüseyn Razi yaradıcılığında Naxçıvan obrazını müxtəlif adlarla görə bilirik. Elə "Gəncləşən diyar" adlı şeirində Hüseyn Razi Naxçıvan obrazını digər şeirlərindəki obrazlarla eyniləşməyən, fərqli formada təqdim etməyi bacarır. Qeyd edək ki, bu cəhət şairin özünəməxsus yaradıcı təfəkküründün göstəricisi sayılmalıdır. Bir neçə bəndini nümunə göstərməklə fikrimizi əsaslandıra bilərik:

Naxçıvan illərlə ürəkdə qəmi,
Boğuldu zülmətin məngənəsində.
Kaşı naxışlarla yazdı Əcəmi
Bu dərdi Atabəy məqbərəsində.

Çənlibel vüqarlı dağlar, dərələr,
Kükrədi illərlə yaz seli kimi.
Arazın üstündə hər axşam, səhər,
Sahillər görüşdü sevgili kimi.

Çox cavan görünür qoca Naxçıvan,
Şöhrəti, qüdrəti elin varıdır (Razi, H.M. 1974, 38-39).

Tarixi minilliklərə şahidlik edən qoca Naxçıvanın çox cavan göründüyü məqamlar şairin digər şeirlərində də qarşımıza çıxır. Əslində isə, bu yolla Hüseyn Razi daim yeniləşən Naxçıvanı bədii cəhətdən tərənnüm edir. Şairin belə şeirlərindən biri də "Naxçıvandadır" adlanır. Düzdür, bu adda bir çox şeirlər yazılmışdır. Lakin ilk belə şeiri, yəni bu adda ilk şeiri Hüseyn Razi qələmə almışdır və ondan sonra yazanlar da bir növü nəzirə kimi dəyərləndirilməlidir. Adıçəkilən şeirdə bütövlükdə Naxçıvanın obrazını görməklə yanaşı, nələrin Naxçıvanda olması gerçəkliyinə də şahid oluruq. Bir bəndini təqdim etməklə şeirin digər bəndləri haqqında da təəssürat yarada bilərik:

Bu yer sirdaşıdır Milin, Muğanın,
Başında yazılmış neçə dastanın.
Qurbanı olduğum Azərbaycanın
Gözəl bir guşəsi Naxçıvandadır (Razi, H.M. 1974, 59).

Ölkəmizin bu gözəl bir guşəsində Mirzə Cəlillər, Cavidlər, Tusilər, Səidlər, Bəhruzlar yaşayıblar ki, onların hər biri Naxçıvan obrazının, geniş mənada, hərtərəfli dərk edilməsində mühüm rol oynayıblar. Buna görə də adını çəkdiklərimiz və onlarla bir sırada dayanan Naxçıvan yetirmələri bu gözəl yurdun obrazının tam mənasıyla gözlər önündə canlanmasında aparıcı ştrixlər kimi vurğulanılır:

Tusi bu torpaqda baxıb göylərə,
Böyük Mirzə Cəlil əsri oyatdı.

Cavid eşqimizi gətirdi şeirə,
Səidim, Bəhruzum sənət yaratdı (Razi, H.M. 1985, 11).

Ona görə də bu torpaqdan göyə baxan Tusinin astronomiya elminə verdiyi töhfələr, böyük Mirzə Cəlilin satirik qələmindən diksinib oyanan qaranlıq bir əsr, Cavidin şeirlərində özünü tam mənasıyla ortaya qoyan böyük mənada türklük eşqi, həmçinin Məmməd Səid Ordubadinin tarixi roman sahəsində, Bəhruz Kəngərlinin realist rəssamlıqda yaratdığı sənət Naxçıvan obrazı konteksindən baxanda bir diyarın bütövləşmiş keyfiyyətləridir. Bu siyahıya Eynəli bəy Sultanovları, Əliqulu Qəmküsarları, Məhəmmədtağı Sidqiləri, Məmməd Arazları, Hüseyn İbrahimovları, hətta yaradıcılığı haqqında bəhs etdiyimiz Hüseyn Raziləri də əlavə edə bilərik. Onların hər biri ayrı-ayrılıqda fərqli sənət sahələrinin nümayəndələri olsalar da, bütöv halda Naxçıvan obrazının tərkib hissələridir. Bütün bunları oxuduqdan sonra şairin "Naxçıvanım" şeirindəki fikirləri ilə razılaşmalı olursan. Bu torpağın hər bir övladı üçün Naxçıvan dillər əzbəri, könülləri ehtizaza gətirən müqəddəslik anlayışıdır:

Büsatı el hünəridir,
Gözəl ömür səhəridir.
Bu gün dillər əzbəridir
Düz ilqarı Naxçıvanın (Razi, H.M. 1974, 59).

Dastanlara, nəğmələrə hoparaq dillər əzbəri olan düz ilqarlı Naxçıvan şairin əsl ilham mənbəyi, onun poeziya səltənətinin paytaxt mövzusudur. "Vətən" şeirindəki "Bu gün Naxçıvan, mənim ilhamımın qanadlarıdır" (Razi, H.M. 1985, 11) misraları da göstərir ki, Naxçıvan obrazı Hüseyn Razi şeirlərinin əsas xarakterik cəhətlərindən biridir.

Düşünürük ki, "Naxçıvan bağrımın başında durur" (Razi, H.M. 1985, 11) misrası, şairin bu mövzuda qələmə aldıqlarının bir cümləyə sıxışdırılmış ifadəsidir. Hər yönüylə şairi özünə cəlb edən Naxçıvana ithafən deyilmiş aşağıdakı etiraflar da diqqəti cəlb edir:

Bu gün çox sehrkar məlahətin var,
Eşqin alovludur, kamalın dərin.
Coşduqca qəlbində böyük arzular,
Məni şeirə çəkir gözəlliklərin (Razi, H.M. 2011, 234).

Naxçıvana həsr etdiyi, Naxçıvan obrazının ən qabarıq ştirxləri ilə göz önündə canlandığı şeirlərindən biri də "Gətirmişəm" adlanır. Şeir birbaşa Naxçıvan obrazının özünün özünü təqdimi ilə başlayır. "Naxçıvanam, Azərbaycan gözəliyəm" deyə sözə başlayan obraz müxtəlif keyfiyyətləri haqqında danışır, başqaları üçün özünü təsvir edir, həmçinin Azərbaycana, dünyaya hansı yenilikləri gətirdiyindən söz açır. Bu şeirdə biz Naxçıvan obrazını bir az da ulu əcdadlarımız timsalında gözlərimiz önündə xəyal etməli oluruq. Sanki Dədə Qorqud qiyafəsində bir addım önə çıxan Naxçıvan istər oğullarının igidliklərindən, qızlarının gözəlliyindən və nəcabətindən, tarixinin ululuğundan, mənəvi sərvətlərinin, mədəni varlıqlarının dəyərindən söz açır. Şeirin ilk misralarından bunu daha aydın görmək olur:

Naxçıvanam, Azərbaycan gözəliyəm,
Sözün, eşqin, düz ilqarın əzəliyəm.
Mən bir eləm,
Vüqarımı, baharımı iki bölən
Araz üstə Çənlibeləm.
Odum, suyum məlhəm olmuş
İgidlərin yarasına,
Od çaxarlı,
Sel baxarlı
Havaların sırasına
Mən cəngini gətirmişəm (Razi, H.M. 1970, 29).

Nümunə gətirdiyimiz şeir H.Razinin Naxçıvanla bağlı ən çox sevilən şeirlərindən olduğuna görədir ki, akademik İsa Həbibbəylinin də diqqətindən yayınmamışdır. Görkəmli ədəbiyyatşünas bu şeir barədə fikirlərini ifadə edərkən xəsislik etməmiş, geniş ürəklə, könül dolusu fikirlər ortaya qoymuşdur. Akademik yazır: "Şair Hüseyn Razinin coşqun ilhamının məhsulu olan "Azərbaycan gözəliyəm" şeiri Naxçıvanın poetik təqdimatının ifadəsi olan nümunələrin ideya-estetik və bədii-emosional keyfiyyətlərini müvəffəqiyyətlə yekunlaşdırır. Mövzuya dərindən bələdlik, yüksək bədii ümumiləşdirmə, ilhamın qanadlanmış vüsəti əsasında yaranmış bu şeirdə qədim diyarın dünya şöhrətli yetirmələrinin xidmətləri ilə coğrafi mövqeyinin, təbii gözəlliyinin, yeraltı və yerüstü sərvətlərinin bir axarda tərənnümü Azərbaycan gözəlinin – Naxçıvanın poetik obrazda zahiri və mənəvi amillərin ahəngdarlığını təmin etmişdir" (Həbibbəyli, İ.Ə. 2015, 548).

Qələm ustadının Naxçıvana həsr etdiyi əsərlərindən biri də "Odlu diyar" mənzum pyesidir (Razi, H.M. 2011, 239-295). Yeddi şəkilli səhnə əsərində, müəllifin özünün də qeyd etdiyi kimi "keçən əsrin iyirminci illərində Naxçıvanda gedən siyasi mübarizələr öz əksini tapıb". 1963-cü ildə Naxçıvan teatrında tamaşaya qoyulan bu əsər vasitəsilə də Naxçıvan obrazı tarixi aspektdən ələ alınaraq təqdim olunmuşdur. Bu cür tarixi hadisələrlə dolu əsəri oxuduqdan sonra xalq şairi Xəlil Rza Ulutürkün bu fikirləri yada düşür: "Hüseyn Razi öz doğma torpağını tanıyan, onun tarixini dərindən bilən, şirin söhbətləri ilə onu sevdirməyi bacaran bir vətəndaşdır" (Ulutürk, X. R. 2004, 35).

Qeyd etdiyimiz fikirlərdən sonra istər-istəməz şairin "Bu yerlər" adlı şeirini də yada salmalı olursan. Bu yerlər deyəndə Naxçıvanın Sədərəkdən Ordubada kimi olan bütün ərazisini nəzərdə tutan şair Naxçıvan obrazını misralarında daha odlu ürəklə, həssas şair şövqü ilə tərənnüm edir:

Məğrur qala görkəmində qurulmuş,
Nəğməkardır gözəlliyə vurulmuş,
Bulaqların axarında durulmuş,
Şimşəklərlə daranmışdı bu yerlər (Razi, H.M. 1996, 10).

Hər hansı bir bölgə haqqında hər hansı bir yazıçı, şair tərəfindən yaradılan obrazın tamlığı o yerin, yurdun, bölgənin ayrı-ayrı sahələrdə adından söz etdirən, sayılıb-seçilən adamları, təbiət mənzərələri, tarixi abidələri barədə yazılmış əsərlərlə daha

bitkin şəkildə tamamlanmış olur. Bu mənada Hüseyn Razinin qələmə aldığı "Xan Araz", "Arpa çayı", "Dübəndi çayı", "Gilan çayı", "Əlincə çayı", "Badamlı", "Qanlı göl", "Arpaçay dənizi", "Zor bulaq", "Ələngəz dağı", "Əlincə qalası", "Duz dağı", "Salvartı", "Batabat", "İlanlının", "Əlincə qayaları", "Gəmiqaya daşları", "Oğlanqala", "Nəiminin məzarı başında", "Mirzə Cəlil", "Böyük ustad", "Zirvələrdə dayandı", "Ölməzdir", "Məmməd Araz", "Hayqır", "İnsanlar, tələsin xeyirxahlığa", "Sənətkar ömrü", "Mənim arzum", "Səhnədə", "Ucalıq", "Ordubada gəlin", "Şərur düzündə", "Sahil həsrəti" kimi şeir və poemalarının hər biri ayrı-ayrılıqda fərqli mövzulara həsr olunsa da, onlar bütövlükdə Naxçıvan obrazının, Naxçıvan xarakterinin müxtəlif cizgilərini daşıyırlar.

Adlarını qeyd etdiyimiz şeirlərin hamısı Nəticə olaraq onu deməyə əsas verir ki, Hüseyn Razi yaradıcılığında Naxçıvan obrazı onlarla şeirdə öz əksini tapmışdır. Bu şeirlər istər birbaşa Naxçıvana həsr olunmuş nümunələr baxımından, istər Naxçıvanın müxtəlif görkəmli şəxsiyyətlərinə həsr olunmuş şeirlər baxımından, istər Naxçıvanın çayları, gölləri, yaylaqları, dağları, qalalarına həsr olunmuş nümunələr baxımından seçilirlər. Və bu nümunələrin hər biri Naxçıvan haqqında anlayışı olmayan birinin düşüncəsində bütöv bir Naxçıvan tablosunun, obrazının, mənzərəsinin yaranması üçün kifayət qədər mənalı, bədii və maraqlı əsərlərdir.

Bir sözlə, qədim tarixlərə şahidlik edən, həmçinin özü də tarixin bir parçası olan muxtar respublikamızın obrazı gözəl şairimiz, bu il 100 yaşını qeyd edəcəyimiz Hüseyn Razinin şeirlərində ən çox diqqəti cəlb edən cəhətlərdən biridir.

ƏDƏBİYYAT

1. Axundlu, Y. Seçilmiş əsərləri. 3 cilddə. III cild. Naxçıvan: "Əcəmi" NPB, 2013, 312 s.
2. Həbibbəyli, İ. Nuhçıxandan Naxçıvana. Bakı: Elm və təhsil, 2015, 846 s.
3. Razi, H. Canlı tonqal. Bakı: Azərnəşr, 1977, 94 s.
4. Razi, H. Gözün aydın. Bakı: Azərbaycan, 1996, 230 s.
5. Razi, H. Həmişəbahar. Bakı: Azərnəşr, 1974, 240 s.
6. Razi, H. Ömür keçdi. Bakı: Elm və təhsil, 2011, 304 s.
7. Razi, H. Sahil həsrəti. Bakı: Yazıçı, 1985, 292 s.
8. Razi, H. Səsləşən dağlar. Bakı: Azərnəşr, 1970, 148 s.
9. Ulutürk, X. R. Qədim diyarın tərənnümçüsü. (Xatirələr işığında: Hüseyn Razi-80). Bakı: Nurlan, 2004, 256 s.

ABSTRACT

Vusala Mammadova

THE ARTISTIC REFLECTION OF NAKCHIVAN'S IMAGE IN THE POEMS OF HUSSAIN RAZI

Huseyn Razi is one of the well-known poets trained by Nakhchiva. The image of Nakhchivan occupies a unique place in the works of the poet, who was born 100 years ago - a few months after the declaration of autonomy, and who was the same age as autonomy. It is possible to find a poem about Nakhchivan in almost all the books of the poet who glorifies the character of Nakhchivan in his poems, poems, and plays.

Nakhchivan appears as an image in those poems dedicated to the glorification of the Autonomous Republic. In some cases, we observe Nakhchivan as a living character. In these poems, Nakhchivan introduces himself, describes himself, and emerges as a product of artistic imagination, filtering through the pen of Huseyn Razi with his different aspects.

In the article, Huseyn Razi's approach to the image of Nakhchivan was investigated, the parameters of the image of Nakhchivan in the poet's work were studied, and at the same time, the question of how well we can recognize Nakhchivan through these poems was answered.

Keywords: *Nakhchivan, autonomy, Huseyn Razi, poetry, poet, image*

РЕЗЮМЕ

Вусала Мамедова

ХУДОЖЕСТВЕННОЕ ОТРАЖЕНИЕ ОБРАЗА НАХЧИВАНА В СТИХИЯХ ГУСЕЙИНА РАЗИ

Гусейн Рази – один из известных поэтов, воспитанников Нахчивы. Образ Нахчывана занимает уникальное место в творчестве поэта, родившегося 100 лет назад – через несколько месяцев после провозглашения автономии и ровесника автономии. Практически во всех книгах поэта, воспевающего характер Нахчывана в своих стихах, поэмах и пьесах, можно найти стихотворение о Нахчыване.

Нахчыван предстает как образ в стихах, посвященных прославлению Автономной Республики. В некоторых случаях мы наблюдаем Нахчыван как живой персонаж. В этих стихотворениях Нахчыван представляет себя, описывает себя и предстает как продукт художественного воображения, прошедшего через перо Гусейна Рази в различных своих аспектах.

В статье исследован подход Гусейна Рази к образу Нахчывана, изучены параметры образа Нахчывана в творчестве поэта и в то же время дан ответ на вопрос, насколько хорошо мы можем узнать Нахчыван через эти стихотворения.

Ключевые слова: *Нахчыван, автономия, Гусейн Рази, поэзия, поэт, образ*

ELNARƏ SEYİDOVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
eli.nebiyev.03@mail.ru

MÜASİR AZƏRBAYCANIN İNKİŞAFINDA İLHAM ƏLİYEVİN ROLU

XÜLASƏ

Müstəqil Azərbaycan Respublikasının çoxşaxəli inkişafı birbaşa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlı olmuşdur. Belə ki, İlham Əliyev Azərbaycan Respublikasının yüksək inkişafına böyük əhəmiyyət vermişdir. Daima xalqını düşünən İlham Əliyev dövlətinin ərazi bütövlüyünün qorunması yolunda da mühüm addımlar atmışdır. Atası Heydər Əliyevin siyasi kursunu məharətlə davam etdirən İlham Əliyev iqtisadi, siyasi və mədəni baxımdan Azərbaycan Respublikasının inkişaf etdirilməsində böyük rol oynamışdır. Xalqının rifahına, onların güzəranının günü gündən daha da yaxşılaşmasına diqqət ayıran dövlət başçımız Bu istiqamətdə bir çox qərar qəbul etmişdir. O, daim xalqın içərisində olmuş, onun problemlərini öyrənmiş, əhalinin sosial müdafiəyə ehtiyacı olan təbəqələrinə müntəzəm qayğı göstərmişdir. Həmin dövrdə İlham Əliyevin əhalinin müxtəlif təbəqələrinin nümayəndələrinə, qaçqınlara, məcburi köçkünlərə və Qarabağ müharibəsinin əlillərinə qayğısı, Qaradağ rayonunda və ölkənin digər bölgələrində apardığı böyük quruculuq işləri doğma xalqa göstərilən bu qayğının parlaq təzahürləridir. Bir sıra Avropa üslublu yeni tikililərin salınması, respublikamızın memarlıq inciləri ilə bəzədilməsi məhz İlham Əliyevin mədəniyyət, azadlıq və ədəbi irsimizin qorunub saxlanılması istiqamətində gördüyü mühüm işlərdəndir. Prezident İlham Əliyev, Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir. İlham Əliyev Azərbaycan Respublikasının Neft sahəsində müxtəlif strategiyalar həyata sürərək böyük nailiyyətlər əldə etmişdir. Təhsilə önəm verən Prezidentimiz gənclərin yüksək səviyyəli ölkələrdə təhsilə cəlb olunmasına böyük əhəmiyyət vermişdir. İlham Əliyev 2016-cı ili məhz "Multikulturalizm ili" kimi qəbul edərək Azərbaycanda multikultural dəyərlərin inkişafı baxımından da mühüm strateji addımlar atmışdır. İlham Əliyevin hakimiyyəti dövründə hərb sahəsində atdığı ən böyük və ən səs gətirən, uğurlu addımı isə məhz torpaqlarımızın qaniçən erməni cəlladlarının əlindən xilas edilməsi oldu. Belə ki, Ermənistanın iriçaplı silahlarla intensiv şəkildə davam edən terror aktlarına qarşı Azərbaycan tarixində hərb sahəsində böyük əhəmiyyət kəsb edən torpaqlarımızın azadlığı uğrunda "Dəmir Yumruq" əməliyyatı baş tutdu. "Dəmir Yumruq" əməliyyatı misli görülməmiş, İlham Əliyev tərəfindən həyata keçirilən ən böyük hərb planı sayılır ki, məhz bu planla Azərbaycan xalqının qisası qəddar düşməndən alınmış oldu.

Açar sözlər: *İlham Əliyev, Azərbaycan, müasir mərhələ, böyük inkişaf, xarici siyasət, dövlətlərarası münasibət, iqtisadi inteqrasiya, "Dəmir Yumruq" əməliyyatı, "44 günlük müharibə"*

Giriş

İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olub. 1967-1977-ci illərdə Bakı şəhərində 6 saylı orta məktəbdə təhsil alıb. 1977-1982-ci illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) təhsil alıb. MDBMİ-ni bitirdikdən sonra, 1982-ci ildə həmin institutun aspiranturasına daxil olub. 1985-ci ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsini alıb və 1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun müəllimi olub. 1991-1994-cü illər ərzində özəl biznes sahəsində çalışıb və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik edib. 1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin əvvəlcə vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olub. Ümummilli Lider Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində fəal iştirak edib. 1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə üzv seçilib. 2003-cü il avqustun 4-də Milli Məclisdə təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin olunub. Bununla əlaqədar deputat səlahiyyətlərinə xitam verilib. Heydər Əliyevin davamçısı görkəmli dövlət xadimi, əsrin yeni lideri, xalqımızın qəhrəman oğlu İlham Əliyevin ilk dəfə Prezident vəzifəsinə gəlməsindən tam 21 il ötür. 2003-cü il oktyabrın 15-i Azərbaycanın tarixində yeni bir mərhələ açıldı. Belə ki, İlham Əliyev ilk dəfə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə səs çoxluğu ilə seçilmiş oldu. Prezident İlham Əliyev ali dövlət vəzifəsini layiqli şəkildə həyata keçirərək, hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti Nəticəsində Azərbaycanın həyatında müsbət dəyişikliklərə imza atmışdır. Azərbaycanın bu cür inkişafı xalqın öz liderinə inam və etimadını doğrultdu. Məhz buna görə də 2008, 2013, 2018, 2023-cü illərdə keçirilən prezident seçkilərində İlham Əliyev mütləq səs çoxluğu ilə Prezident vəzifəsinə layiq görülmüşdür. İlham Əliyevin prezidentliyinin ilk 13 ilində ölkəmizdə daxili siyasətdə – dövlət idarəçiliyində, ictimai-siyasi, iqtisadi, mədəni həyatda müstəsna əhəmiyyət daşıyan işlər görülmüşdür. Tamamilə yenidən qurulan sosial-mədəni obyektlər, yaradılmış infrastruktur sayəsində Azərbaycan müasirləşən və modernləşən bir ölkəyə çevrilmişdir (Musa Qasımlı. "Prezident İlham Əliyev və Azərbaycan tarixi" Bakı: 2016, s.46). Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi uzunmüddətli iqtisadi inkişaf strategiyası ölkənin regionlarının davamlı və tarazlı inkişafının təmin olunmasını, o cümlədən yerlərdə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah, təbii resursların səmərəli istifadəsini və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasına imkan verən əlverişli mühit yaratmaq məqsədini daşıyır. Bu strategiyanın həyata keçirilməsində, o cümlədən ölkənin regionlarının sosial-iqtisadi inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı İlham Əliyev tərəfindən qəbul edilmiş beşillik dövlət proqramı böyük

əhəmiyyət kəsb edir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır. Kənd təsərrüfatı sahəsində ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilib, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılıb. İqtisadi siyasətin mərkəzində hər zaman Azərbaycan insanı dayanmış və iqtisadiyyatın sosial yönümlülüyünə böyük əhəmiyyət verilmişdir. Bu dövrdə pensiyalar, sosial müavinətlər, əməkhaqları daim artırılmış, dövlət büdcəsi sosial yönümlülüyünü qoruyub saxlamış, milyonlarla yeni iş yerləri açılmış, yoxsulluq və işsizlik minimuma endirilmişdir. Təhsilə insan kapitalının başlıca mənbəyi kimi baxılmış və Azərbaycan iqtisadiyyatının uzunmüddətli inkişafının birbaşa təhsildən asılı olacağı nəzərə alınmışdır. Bu baxımdan "Qara qızılı insan kapitalına çevirmək" devizi altında dövlət tərəfindən çoxlu sayda əməli tədbirlər həyata keçirilmişdir. Qeyd olunan hədəf Prezident İlham Əliyevin bu fikirlərində daha mükəmməl şəkildə öz əksini tapmışdır: "Mən Azərbaycanda, rəsmi tədbirlərdə dəfələrlə demişəm və indi də demək istəyirəm ki, ölkənin uğurunu müəyyən edən enerji ehtiyatları deyil, onun intellektual potensialıdır. Ölkəni tərəqqiyə doğru aparan kadrların, mütəxəssislərin hazırlanması, təhsilin, elmin inkişafıdır" (Vəliyeva, M., İbrahimova, M. Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı. Bakı: 2009).

İlham Əliyev 19 oktyabr 2006-cı ildə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında Sərəncam imzaladı və həmin Sərəncamla müvafiq icra hakimiyyəti orqanlarına Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almalarına dair Dövlət Proqramını hazırlamağı tapşırdı. Buna uyğun olaraq, o, 16 aprel 2007-ci ildə 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramını təsdiq etdi (İradə Nuriyeva. Azərbaycan tarixi, yenidən işlənmiş III nəşr. Bakı: Elm və təhsil, 2024, s. 67). İlham Əliyev beynəlxalq münasibətlər tarixi sahəsində dərin biliyə malik olan peşəkar siyasətçi kimi dünya miqyasında böyük hörmət və nüfuz qazanmışdır. Müstəqil dövlətimiz bu gün dünya ölkələrinin ən qabaqcıl təcrübələrindən bəhrələnərək inkişaf edir. Demokratik cəmiyyət, hüquqi dövlət, insan və vətəndaş haqlarının aliliyi kimi prinsipləri özünə rəhbər tutaraq Avropanın ən qabaqcıl dövlətləri ilə çiyin-çiyinə fəaliyyət göstərir. Ölkəmiz beynəlxalq aləmdə böyük bir nüfuz qazanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cari problemləri izləmək və lazımi vaxtda müvafiq qərarlar qəbul etmək bacarığına malikdir. İlham Əliyev, eyni zamanda iqtisadiyyatda sahibkarlığa verdiyi önəmlə diqqət çəkmiş və iqtisadiyyatın yüksək səviyyədə inkişafı yönündə mühüm strateji qərarlar qəbul etmişdir. Xüsusən də neft sahəsinə verdiyi mühüm önəmlə atası Heydər Əliyevin iqtisadi strategiyasını layiqincə davam etdirə bilmişdir. Belə ki, Heydər Əliyev yeni neft strategiyasının yaradıcısı və memarı olsa da, İlham Əliyev onun həyata keçməsinin ən fəal iştirakçısı və rəhbəridir (İlham Əliyev "Azərbaycanıma inanıram" Bakı: Azərnəşr, 2007, s. 156). Ölkədə turizm komplekslərinin, otellərin, istirahət mərkəzlərinin istifadəyə verilməsi turizm infrastrukturunun inkişafına və beləliklə, əhalinin istirahətinə geniş imkanlar yaradıb.

Siyasi, iqtisadi imkanlarının genişləndirilməsi Azərbaycanın beynəlxalq arenadakı mövqelərini möhkəmləndirib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Ölkəmizin ilk telekommunikasiya peykinin orbitə çıxarılması, idarə olunması və istismarı işlərinin həyata keçirilməsini təmin etmək məqsədi ilə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti yaradılıb. Azərbaycan bu gün dünyanın məhdud saylı kosmik ölkələri sırasında yer alır. "Azerspace-1", "Azersky" və "Azerspace-2" peykləri orbitdə uğurla fəaliyyət göstərir. Prezident İlham Əliyev dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması, vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsi istiqamətində bir çox inqilabi islahatların müəllifidir. Azərbaycan dünyada həm də mühüm beynəlxalq tədbirlərin, yarışların keçirildiyi ölkə kimi tanınıb. Bakı "Eurovision" mahnı müsabiqəsinə, ilk Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, "Formula 1" yarışlarına, futbol üzrə Avropa çempionatının final mərhələsinin bir neçə oyununa ev sahibliyi edib (Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin "Prezident kitabxanası" s. 6). İlham Əliyev bir övlad və bir vətənpərvər şəxsiyyət kimi xalqımızın yüzillərdir məruz qaldığı ədalətsiz sistemi devirmək məqsədi ilə atdığı mühüm addımlardan biri də məhz tariximizə qızıl hərflərlə həkk olunan "Dəmir Yumruq" əməliyyatı olmuşdur (Nazim Məmmədov "Zəfər Salnaməsi", Bakı: 2022, s. 464). Bu tarixi qalibiyyət Nəticəsində 26 avqust – Laçın, 4 oktyabr – Cəbrayıl, 17 oktyabr – Füzuli, 20 oktyabr – Zəngilan, 25 oktyabr – Qubadlı, 8 noyabr – Şuşa, 20 noyabr – Ağdam, 25 noyabr – Kəlbəcər işğaldan azad edilmişdir.

ƏDƏBİYYAT

1. Qasımlı, M. Prezident İlham Əliyev və Azərbaycan tarixi. Bakı: 2016
2. Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin "Prezident Kitabxanası"
3. Məmmədov, N. Zəfər Salnaməsi. Bakı: 2022
4. İlham Əliyev. Azərbaycanıma inanıram. Bakı: Azərnəşr, 2007.
5. Nuriyeva, İ. "Azərbaycan Tarixi" yenidən işlənmiş III nəşr, Bakı: Elm və təhsil, 2024
6. Mehdiyev, R. Azərbaycanın inkişafını XXI əsrin çağırışlarına uyğunlaşdıran Lider. Bakı: Elm, 2019
7. "Prezident İlham Əliyev və mədəniyyət". 2013-2018 (2 cilddə)
8. "Azərbaycanın regionları" yeni inkişaf dövrü (3 cilddə). Bakı: 2015

ABSTRACT

The multifaceted development of the independent Republic of Azerbaijan has been linked to the name of the President of the Republic of Azerbaijan Ilham Aliyev. Thus, Ilham Aliyev attached great importance to the high development of the Republic of Azerbaijan. Always thinking of his people, Ilham Aliyev has taken important steps towards protecting the territorial integrity of his state. Skillfully continuing the political course of his father Heydar Aliyev, Ilham Aliyev played a major role in the development of the Republic of Azerbaijan from the economic, political and cultural point of view. Our head of state, who pays attention to the well-being of his people and improving their livelihood day by day, has taken many decisions in this direction. He was always in the midst of the people, studied their problems, and regularly took care of the sections of the population in need of social protection. At that time, Ilham Aliyev's concern for representatives of various classes of the population, refugees, internally displaced persons and the disabled from the Karabakh war, the great construction works he carried out in the Garadagh region and other regions of the country are bright manifestations of this concern for the native people. Construction of a number of new buildings in European style, adorning our republic with architectural pearls is one of the important works done by Ilham Aliyev in the direction of preservation of our Culture, tradition and Literary heritage. President Ilham Aliyev successfully continues the democratic, legal and secular state-building policy of Heydar Aliyev, the genius son of the Azerbaijani people. Ilham Aliyev has achieved great achievements by implementing various strategies in the oil sector of the Republic of Azerbaijan. Our President, who attaches importance to education, attached great importance to the involvement of young people in education in high-level countries. Taking 2016 as the year of Multiculturalism, Ilham Aliyev took important strategic steps in the development of multicultural values in Azerbaijan. During the reign of Ilham Aliyev, the biggest and most popular and successful step in the military field was saving our lands from the hands of Armenian executioners. Thus, the "Iron Fist" operation was carried out for the liberation of our lands, which is of great importance in the military field in the history of Azerbaijan, against the intensively continuing terrorist acts of Armenia with heavy weapons. The "Iron Fist" operation is considered to be the largest military plan implemented by Ilham Aliyev, and it was precisely with this plan that the revenge of the Azerbaijani people was taken from the cruel enemy.

Keywords: *Ilham Aliyev, Azerbaijan, Modern stage, Great development, Foreign Policy, Interstate relations, Economic integration. "Iron Fist" operation, "44-day war"*

GÜLNAR NİFTƏLİYEVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
bagirovagulnar6@gmail.com

ZƏFƏR SALNAMƏMİZ – II QARABAĞ MÜHARİBƏSİ

XÜLASƏ

Qarabağ işğal edildikdən sonra Birləşmiş Millətlər Təşkilatı tərəfindən Ermənistanın Qarabağı tərk etməsinə dair 4 qətnamə (822, 853, 874, 884) qəbul edilsə də, Ermənistan bu qətnamələrə əməl etmədi. Hətta işğalçı ordu Azərbaycanı Ermənistanı blokadaya almaqda günahlandırıb, Azərbaycana qarşı ABŞ Konqresinin "Azadlığı Müdafiə Aktına 907-ci düzəliş" qəbul etməsinə nail ola bilmişdi. Azərbaycan Respublikası 1994-cü ildən bəri münaqişəni sülh yolu ilə həll etməyə çalışsa da, Ermənistan tərəfi hər dəfə müxtəlif bəhanələrlə danışıqlardan qaçmağa çalışırdı. 2020-ci ilin 27 sentyabr – 10 noyabr tarixlərində baş vermiş II Qarabağ müharibəsi Azərbaycanımızın tarixi qələbəsi idi. 30 illik işğaldan sonra doğma torpaqlarımızda yenidən Azərbaycanın üçrəngli, ay-ulduzlu, şanlı bayrağı dalğalanmağa başladı. Düzdür, bu şərəfli yolda Vətənimizin minlərlə qəhrəman oğulları canlarından keçdi. Ancaq tarixi missiyanı bir daha xatırlamaq lazımdır ki, "Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir" deyiblər. Qəhrəman ordumuzun apardığı hərbi əks hücum əməliyyatı dünya hərb tarixinə qızıl hərflərlə yazıldı. Xüsusilə Şuşanın əlbəyaxa döyüşlərlə azad edilməsi "Misli görülməmiş Şuşa əməliyyatı" kimi dünya tarixinə daxil oldu. Azərbaycan bu müharibədə təkcə döyüş meydanında deyil, diplomatik masa ətrafında da tarixi Zəfər qazandı. Belə ki, heç vaxt ərazimizi tərk etməyəcəyi gözlənilən rus sülhməramlıları 2024-cü ilin aprel ayından Qarabağı tərk etməyə başladılar. Bu proses mərhələlərlə iyunun 12-də başa çatdı. Bu isə Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin yeritdiyi siyasət Nəticəsində əldə olunmuş diplomatik qələbə idi. Qarabağ və ətraf ərazilər işğaldan azad edildikdən sonra bu ərazilərdə aparılan bərpa-quruculuq işlərinin Nəticəsində yerli sakinlər öz yurd–yuvalarına qayıtdı. Beləliklə, Böyük Qayıdış başlandı.

Açar sözlər: *İlham Əliyev, Dəmir Yumruq, Qarabağ, Şuşa, Tarixi Zəfər, diplomatik qələbə, Milli Qəhrəman, quruculuq, Böyük Qayıdış*

Giriş

Əvvəllər çar Rusiyası, daha sonra Sovet Rusiyası tərəfindən Qafqaza köçürülən ermənilər bir sıra ərazilərimizə iddialar irəli sürməyə başlamışdılar. Xüsusən bu ərazilərə Qarabağ, Naxçıvan, İrəvan və Zəngəzur daxil idi. Erməniləri Cənubi Qafqazda yerləşdirmək üçün Rusiya azərbaycanlılara qarşı qırğınlar törətmiş, bununla kifayətlənməyib XX əsrdə xalqımıza qarşı 3 dəfə böyük deportasiya həyata keçirtmişdi. Bu deportasiyalar Nəticəsində soydaşlarımız öz yurd-yuvalarından guya "könüllülük" prinsipi ilə çıxarılmışdır (Nağı, 2014, s.16).

Azərbaycanlıların ikinci deportasiyası 1947-1953-cü illərdə həyata keçirilmiş 100000-dən çox soydaşımız tarixi-etnik torpaqlarından Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülmüşdülər. Stalin-Beriya-Mikoyan üçlüyünün siyasəti Nəticəsində Azərbaycanda ermənilərin sayı kəskin surətdə artdı ki, bu da ermənilər tərəfindən daha çox ərazi iddiasının irəli sürülməsinə səbəb oldu (Nağı, 2014, s.30).

1988-ci ildən başlanan Ermənistan-Azərbaycan münaqişəsi 1992-ci ildə özünün pik nöqtəsinə çatdı. Azərbaycana qarşı 1992-ci il fevralın 25-26-da baş vermiş Xocalı soyqırımı Nəticəsində 613 nəfər qətlə yetirilmiş, 487 nəfər yaralanmış, 1275 nəfər əsir götürülmüş, 150 nəfər itkin düşmüş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmiş, 8 ailə tamamilə məhv edilmişdir. 1993-cü ilin aprel ayında Kəlbəcərin işğalından sonra Birləşmiş Millətlər Təşkilatı Ermənistanın 822, 853, 874, 884 saylı qətnamələrlə Azərbaycan ərazilərini qeyd-şərtsiz tərk etməsini tələb etdi. Ermənistan bu qətnamələrin heç birini yerinə yetirmədi. 1994-cü ildə imzalanmış Bişkek protokoluna əsasən atəşkəs elan olunsa da, Ermənistan tərəfi zaman-zaman cəbhə bölgəsində atəşkəsi pozmağa davam edirdi. ATƏT-in Minsk qrupunun həmsədr ölkələri tərəfindən 2007-ci ildə imzalanan Madrid prinsipləri 2009-cu ildə yenidən gündəmə gəldi. Lakin Ermənistan tərəfi Madrid prinsiplərini yerinə yetirməkdən boyun qaçırtdı. 2018-ci ildə Ermənistanda Nikol Paşinyanın hakimiyyətə gəlişi Qafqaz regionundakı bu münaqişəni daha da alovlandırmışdı. Azərbaycana qarşı Ermənistanın hərbi təcavüzü təkcə 90-cı illərdə deyil, o cümlədən 2016-cı, 2018-ci və 2020-ci illərdə də özünü göstərmişdir (Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, 2021, s.6-7).

2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Günnüt əməliyyatı və 2020-ci ilin Tovuz döyüşləri Böyük Zəfərin başlanğıcı idi. Xüsusən də Tovuz döyüşlərində içlərində general mayor Polad Həşimovun və polkovnik İlqar Mirzəyevin də olduğu 12 hərbi qulluqçumuzun şəhid olması 2020-ci ilin sentyabrın 27-də II Qarabağ müharibəsinin başlanması üçün zəmin yaratmışdı. Ermənistanın hərbi-siyasi rəhbərliyi təxribatçı əməllərini davam etdirərək, 3-cü ölkələrin münaqişəyə cəlb edilməsi üçün müxtəlif səylər göstərmiş, Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozmaqla dinc əhalinin sıx yaşadığı əraziləri ağır silahlardan atəşə tutmuş, bununla da mülki əhaliyə qarşı müxtəlif cinayətlər törətmişdir. Azərbaycan 90-cı illərdən fərqli olaraq, bu dəfə təxribatçı orduya qarşı tam hazırlıqlı idi (Beynəlxalq Avrasiya Mətbuat Fondu, 2020, s.5).

2020-ci il sentyabrın 27-də Ermənistan tərəfindən cəbhə xəttində atəşkəsin yenidən pozulmasına cavab olaraq ordumuz əks hücum əməliyyatına başladı. Elə həmin gün Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev tərəfindən Dəmir Yumruq əməliyyatı başladıldı. Ermənistanda ümumi səfərbərlik, Azərbaycanda isə qismən səfərbərlik elan edildi. Müharibənin ilk günlərində - sentyabrın 28-də ordumuz tərəfindən Füzuli və Tərtər istiqamətində, Murovdağda strateji məntəqələr düşməndən azad edildi. 2020-ci il oktyabrın 3-də Madagiz (Suqovuşan), oktyabrın 4-də Cəbrayıl, oktyabrın 9-da Hadrut (İkiçayarası), oktyabrın 17-də Füzuli, oktyabrın 18-də Xudafərin körpüsü, oktyabrın 20-də Zəngilan, oktyabrın 22-də Zəngilanın Ağbənd qəsəbəsi, oktyabrın 25-də Qubadlı, oktyabrın sonlarında Çanaqçı kəndi, Noyabrın 8-də isə Şuşa düşməndən azad edildi. 2020-ci il noyabrın 10-da imzalanmış Üçtərəfli birgə bəyanata uyğun olaraq, heç bir güllə atılmadan noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın işğaldan azad edildi (İsayev, 2024, s.470-471).

Cəbhə boyu məğlub olan Ermənistan ordusu Azərbaycan şəhərlərinə və mühüm infrastruktur obyektlərinə raket zərbələri endirdi. Oktyabrın 4-də Azərbaycanın Mingəçevir şəhəri Ermənistan tərəfindən raket hücumuna məruz qaldı. Ermənistan Mingəçevirin elektrik stansiyasını və su anbarını hədəf aldı. Azərbaycanın hava hücumundan müdafiə sistemi bu hücumu zərərsizləşdirərək böyük bir ekoloji fəlakətin qarşısını almağa nail oldu. Müharibə zamanı erməni qüvvələri Toçka-U və BM-30 Smerç raketlərindən istifadə edərək Gəncə və Bərdə şəhərlərinə də hücum etdi. Hücumlar Nəticəsində çoxsaylı mülki şəxs yaralandı və həlak oldu. Qeyd etmək lazımdır ki, Gəncə şəhəri o zamankı cəbhə xəttindən 100 kilometr aralıda yerləşirdi. Ermənistan ordusunun Azərbaycana qarşı, həmçinin "İsgəndər-E" raketlərindən istifadə etməsi barədə də məlumatlar vardır. Bu raketlərin uçuş məsafəsi 280 kilometr olduğu üçün Azərbaycandakı bütün strateji infrastrukturu təhdid altına alırdı (Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, 2021, s.8).

Azərbaycan ordusu isə Türkiyə istehsalı olan Bayraktar – TB2, İsrail istehsalı olan Harop və Azərbaycanın öz istehsalı olan Zərbə pilotsuz uçuş aparatlarından istifadə etmişdir. Azərbaycan tərəfi Ermənistandan fərqli olaraq mülki əhalini hədəf almırdı. Bu müharibədə Azərbaycanın haqq müharibəsini dəstəkləyən ölkələr əsasən, Türkiyə, Pakistan, İsrail, Ukrayna, Əfqanıstan, Şimali Kipr Türk Respublikası olmuşdur ki, həmçinin bu dövlətlər Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını bildirmişdilər (İsayev, 2024, s.473).

Azərbaycan ordusu Şuşanın azad edilməsi zamanı heç bir silahdan istifadə etməmişdir. Şuşa əlbəyaxa döyüşlərlə işğaldan azad edildi. Ordumuz Şuşanın azad edilməsi ilə strateji üstünlüyü tam olaraq ələ almışdı. Şuşanın azad edilməsi müharibənin taleyini demək olar ki, həll etdi. Məhz buna görə də Şuşanın azad edilməsi müasir hərb tarixinə "Misli görülməmiş Şuşa əməliyyatı kimi daxil olmuşdur. Noyabrın 8-də Prezident İlham Əliyev Şəhidlər Xiyabanında Şuşa şəhərinin işğaldan azad edildiyini elan etdi (İsayev, 2024, s.474). Azərbaycan öz ərazilərini işğaldan azad etdikdən sonra Qarabağda bərpa-quruculuq işlərinə başlamışdır. İşğaldan azad edilmiş ərazilərdə Prezident İlham Əliyevin iştirakı ilə 2021-ci ilin fevralında istifadəyə verilən ilk infrastruktur layihə Güləbird Su Elektrik Stansiyası idi. 2021-ci ilin oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanı, 2021-ci il noyabrın 7-də Zəfər Yolu istifadəyə verilmiş, 2021-ci il sentyabrın 27-də Zəfər Muzeyinin və Vətən Müharibəsi Memorial Kompleksinin, 2024-cü il fevralın 25-də isə Xocalı Soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Xocalı Soyqırımı Memorial Abidə Kompleksinin təməli qoyulmuşdur. Həmçinin İşğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" da dövlətimizin qarşısında duran əsas prioritetlərdən biri idi ki, Qarabağa ilk Böyük Qayıdış Zəngilanın Ağalı kəndindən başladı. 2022-ci ilin iyulunda Zəngilanın Ağalı kəndinə 60 ailənin köçürülməsi bayrama çevrildi. Daha sonra 2023-cü il mayın 28-də Laçına, 2023-cü ilin avqustunda Füzuli şəhərinə, 2024-cü il mayın 8-də "Qarabağın üzük qaşı" adlandırılan Şuşaya, mayın 28-də isə Xocalıya ilk ailələr köçürüldü (İsayev, 2024, s.496).

Qarabağ və Şərqi Zəngəzur işğaldan azad edildikdən sonra Azərbaycanın ümumi enerji sisteminə qoşuldu. "Yaşıl enerji" texnologiyalarının tətbiqi sayəsində həm külək, həm də günəş enerjisindən istifadə edilərək əhalinin, həmçinin yeni yaradılan sosial-

iqtisadi infrastrukturların fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təminatı təşkil ediləcəkdir. Qeyd etmək lazımdır ki, Zəngəzur bölgəsi regional iqtisadi inteqrasiya baxımından çox əhəmiyyətlidir və 10 noyabr Üçtərəfli Bəyanatın 9-cu maddəsinə əsasən bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələr bərpa edilməlidir və Ermənistan – İran sərhədini qoruyan rus sərhədçiləri Azərbaycanın qərb bölgələri ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyini təmin edəcək. Bu o deməkdir ki, Azərbaycan onilliklər ərzində bağlanmış Zəngəzur Dəhlizi vasitəsilə öz anklavına gedən köhnə nəqliyyat yolunu bərpa edə biləcək. Zəngəzur Dəhlizi iqtisadi inteqrasiyanı və region ölkələrinin iqtisadi inkişafını sürətləndirəcək.

ƏDƏBİYYAT

1. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi “44 Günlük Qarabağ müharibəsi – “Mülahizə və Nəticələr” Bakı, 2021
2. Nağı, A. Qarabağ Müharibəsi: qısa tarix. Bakı, 2014
3. Beynəlxalq Avrasiya Mətbuat Fondu “İkinci Qarabağ müharibəsi başlama səbəbləri, yaratdığı fəsadlar və törədilən cinayətlərə dair HESABAT” Bakı, 2020
4. İsayev, A. Azərbaycan tarixi. Bakı: RM nəşriyyatı, 2024

ABSTRACT

After the occupation of Karabakh, the United Nations adopted 4 resolutions (822, 853, 874, 884) on Armenia's withdrawal from Karabakh, but Armenia did not comply with these resolutions. The occupying army even accused Azerbaijan of blocking Armenia and managed to achieve the adoption of the "907th Amendment to the Freedom Defense Act" by the US Congress against Azerbaijan. Although the Republic of Azerbaijan has been trying to resolve the conflict peacefully since 1994, the Armenian side has always tried to avoid negotiations under various pretexts. The Second Karabakh War, which took place from September 27 to November 10, 2020, was a historic victory for our Azerbaijan. After 30 years of occupation, the tricolor, crescent-star, glorious flag of Azerbaijan began to fly again in our native lands. True, thousands of heroic sons of our Motherland lost their lives on this glorious path. However, it is necessary to recall the historical mission once again, as they say, “Land is the Motherland, if there is one who dies for it.” The military counterattack operation carried out by our heroic army was written in golden letters in world military history. In particular, the liberation of Shusha through hand-to-hand fighting went down in world history as the “Unparalleled Shusha Operation.” Azerbaijan won a historic Victory in this war not only on the battlefield, but also around the diplomatic table. Thus, Russian peacekeepers, who were expected to never leave our territory, began to leave Karabakh in April 2024. This process ended in stages on June 12. This was a diplomatic victory achieved as a result of the policy pursued by the Supreme Commander-in-Chief of the Armed Forces, President Ilham Aliyev. After Karabakh and the surrounding territories were liberated from occupation, local residents returned to their homelands as a result of the reconstruction work carried out in these territories. Thus, the Great Return began.

Keywords: *Ilham Aliyev, Iron Fist, Karabakh, Shusha, Historical Victory, diplomatic victory, National Hero, construction, The Great Comeback*

AYSU ƏMİROVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
turanamirov055@gmail.com

RİYAZİYYAT FƏNNİNİN TƏDRİSİNDƏ YARADICI VƏ KRİTİK DÜŞÜNCƏ BACARIQLARININ İNKİŞAFI

XÜLASƏ

Heydər Əliyev xarici siyasət kursunun uğurlarından biri də 2001-ci il 11 sentyabr hadisələrindən dərhal sonra Azərbaycanın ABŞ başda olmaqla yaradılan Antiterror Koalisiyasına qoşulması və terrorizmə qarşı mübarizədə öz səylərini əsirgəməməsidir. Terrorizmə qarşı mübarizədə Azərbaycan Beynəlxalq qurumlar və ayrı-ayrı dövlətlərlə sıx əməkdaslıq etmişdir. Hava məkanına hücümlara və digər terror aktlarına qarşı Konvensiyanın və ümumilikdə terrorizmlə mübarizəyə dair 12 Beynəlxalq konvensiyanın və protokolun Azərbaycan Respublikası tərəfindən ratifikasiya olunması Beynəlxalq birliklər, eləcə də ABŞ dövlət departamenti tərəfindən yüksək qiymətləndirilmişdir. Beynəlxalq terorrorizmə qarşı mübarizədə Azərbaycanın qətiyyətli mövqeyi onun antiterror koalisiyasının etibarlı üzvü kimi tanıtmış Azərbaycana həm erməni terrorizminə qarşı mübarizədə, həm də Azərbaycan-Amerika münasibətlərinin inkişafında uğurlar gətirmişdir. ABŞ və Avropa İttifaqı ilə əməkdaşlığımızın səmərəliyi artırılmışdır. Heydər Əliyevin qətiyyətli xarici siyasəti və siyasi uzaqgörənliyi sayəsində Azərbaycan beynəlxalq təhlükəsizlik sisteminin yaradılması işinə yaxından cəlb edilmiş, bu sahədəki müxtəlif sülhməramlı proqramlara qoşulmuş və antiterror koalisiyasına yaxından dəstək vermişdir. Bütün bunlar və Qərbə istiqamətlənən iri enerji layihələrinin gerçəkləşdirilməsi, Nəticə etibarilə xalqımızın haqlı narazılığına səbəb olan məlum 907-ci düzəlişin, ABŞ prezidenti və dövlət katibinin konqresə müraciəti Nəticəsində qüvvəsinin dayandırılması ilə Nəticələnmişdir. 907-ci düzəlişin qüvvəsinin dayandırılması Azərbaycan üçün böyük qələbə, Heydər Əliyev siyasətinin isə növbəti ən böyük uğuru idi. Heydər Əliyevin reallaşdırdığı neft strategiyası ölkəmizin region dövlətləri ilə qarşılıqlı münasibətlərinin konstruktivliyini və intensivliyini artırdı. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri layihəsinin, bütövlükdə Şərq-Qərb enerji dəhlizinin gerçəkləşməsi iqtisadi maraqları üst-üstə düşən Azərbaycanın, Gürcüstanın və Mərkəzi Asiya dövlətlərinin siyasi mövqelərinin də yaxınlaşmasına və beləliklə, regional təhlükəsizliyin möhkəmlənməsinə şərait yaratmışdır. Neft strategiyasının həyata

keçirilməsi Azərbaycan üçün iqtisadi və siyasi əhəmiyyət kəsb etməklə yanaşı, həm də Respublikamıza böyük fayda gətirir. Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar sənədlərin imzalanması mərasimindəki nitqində inteqrasiya layihələrinin Azərbaycan üçün əhəmiyyətini (Akademik Tarih ve Düşünce Dergisi Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı Cilt 10 / Özel Sayı 1 / Yıl 2023 267) səciyyələndirərək demişdir: "Bizim hamımızın məqsədi ondan ibarətdir ki, xalqlarımız bu layihələrdən fayda götürsün. Mən əminəm ki, belə də olacaqdır. Artıq bu baş veribdir. Minlərlə yeni iş yerləri açılıbdır. On minlərlə insanımız maddi fayda əldə etmişdir və bu proses davam edəcəkdir" (Azərbaycan qəzeti, 04 fevral 2004). Heydər Əliyevin bu uğurli siyasətinin Nəticəsi olaraq 2005-ci il fevralın 18-də "Əsrin müqaviləsi" çərçivəsində "Mərkəzi Azəri" platforması, 2006-cı il iyul ayının 13 də Bakı-Tbilisi-Ceyhan kəməri istismara verildi. Beləliklə, Azərbaycanın neft strategiyasının həyata keçirilməsində yeni mərhələnin başlanğıcı qoyuldu. Xəzər dənizinin zəngin enerji ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəql edilməsi istiqamətində həyata keçirilən irimiqyaslı layihələrin uğurla başa çatdırılması əhalinin maddi rifahının yaxşılaşması, ölkəmizin iqtisadi potensialının yüksəldilməsi və xarici investisiyaların həcminin artmasına geniş imkanlar yaratdı. Heydər Əliyevin neft strategiyasının Azərbaycan üçün açdığı imkanları Azərbaycan Prezidenti İlham Əliyev Cenevrədə İnformasiya Cəmiyyəti üzrə ümumdünya sammitindəki nitqində belə dəyərləndirmişdir: "Ölkəmizin əlverişli coğrafi-siyasi mövqeyi Azərbaycanı Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin vacib hissəsi etmişdir. Bu nəqliyyat dəhlizləri vasitəsilə Azərbaycana yeni bizneslər və yeni informasiya növləri axıb gəlir" (Azərbaycan qəzeti, 11 dekabr 2003). Ölkəmizdə uğurla həyata keçirilən neft diplomatiyası Azərbaycanı bütövlükdə Cənubi Qafqaz və MDB dövlətləri sırasında enerji asılılığı olmayan dövlətə çevirmişdir. Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri dünya miqyaslı layihələr olmaqla Azərbaycanın enerji təhlükəsizliyinin təminatına geniş imkanlar açır. Bu layihələr eyni zamanda respublikamızın müstəqilliyinin möhkəmlənməsinə və Azərbaycanın regionda müstəqil siyasət aparmasının təminatıdır. Bu layihələr həm də region dövlətlərinin enerji sahəsində qlobal əməkdaşlığının rəmzinə çevrilmişdir. Zəngin neft ehtiyyatlarına malik Qazaxstanın Bakı-Tbilisi-Ceyhan kəmərinə qoşulması buna əyani sübutdur. Heydər Əliyevin şəxsi təşəbbüsü uzaqgörən siyasəti Nəticəsində tarixi ipək yolunun bərpası ilə bağlı Şərq-Qərb, Şimal-Cənub kommunikasiya layihələrinin həyata keçirilməsi Azərbaycan bölgələrinin iqtisadi dirçəlişinə zəmin yaratmışdır. Avropa Birliyinin dəstəyi ilə həyata keçirilən "Böyük İpək yolu" layihəsi gerçəkləşdirilərkən yeni iş yerləri və istehsal kompleksləri yaradılır, xidmət sahələri təkmilləşdirilir, tikinti işləri və şəhərsalma sürətləndirilir və modernləşdirilir. Bu layihə həm də Avropa ilə Asiya arasında körpü rolunu səmərəli surətdə həyata keçirməyə qadir olan Azərbaycanın böyük potensial qüdrətini nümayiş etdirir (Akademik Tarih ve Düşünce Dergisi Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı Cilt 10 / Özel Sayı 1 / Yıl 2023 268). Heydər Əliyevin xarici siyasət konsepsiyasının uğurlarından biri də Azərbaycan diasporunun təşkilatlanması və dünya azərbaycanlılarının Azərbaycan Respublikası ilə sosial-siyasi və mədəni

əlaqələrinin gücləndirilməsidir. Onun təşəbbüsü ilə 2001-ci ilin noyabr ayının 9-10 da 36 ölkədə yaşayan azərbaycanlıların nümayəndələrinin iştirakı ilə dünya azərbaycanlılarının I qurultayı keçirildi. 2002-ci ilin iyun ayının 5-də isə Heydər Əliyevin sərəncamı ilə xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət komitəsi yaradıldı. 2002-ci ilin dekabr ayının 27 də 11 maddəlik "xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasət haqqında" qanun qəbul edildi. Qanunda xaricdə yaşayan azərbaycanlılarla iş üzrə dövlət siyasətinin məqsədləri və prinsipləri onlarla bağlı iqtisadi, sosial, mədəni, təhsil və dil məsələləri, informasiya sahəsində onlara köməklik göstərilməsi və monitorinqlərin keçirilməsi nəzərdə tutulmuşdur. Qanunda eləcə də xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikası dövlət orqanlarının fəaliyyəti və vəzifələri müəyyənləşdirilmişdir. Nəticədə indi Azərbaycan çoxşaxəli diplomatik əlaqələrə malikdir, ən nüfuzlu beynəlxalq təşkilatların, birliklərin, iqtisadi və maliyyə qurumlarının üzvüdür. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla iş aparmaq, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq və Azərbaycanın problemlərini həll etmək sahəsində böyük əhəmiyyət kəsb edir. Azərbaycan bu gün BMT, ATƏT, Avropa Şurası, MDB, GUAM, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu Beynəlxalq təşkilatların üzvüdür. Bununla yanaşı, Azərbaycan bir çox beynəlxalq təşkilatlarla, başlıca olaraq Avropa İttifaqı, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı ilə də fəal əməkdaşlıq edir. Azərbaycanın davamlı şəkildə Avroatlantik məkanına inteqrasiyası da Heydər Əliyevin xarici siyasət kursunun əsas istiqamətlərindən olmuşdur. 1994-cü ildə Azərbaycanın NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması haqqında çərçivə sənədini imzalayan uzaqgörən siyasətçi Şimali Atlantika ittifaqının Azərbaycanla tərəfdaşlığının əsas prioritetlərini müəyyənləşdirmişdir. Əsası Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanın Avroatlantik strukturlarına inteqrasiyası prosesi bu gün də uğurla davam etməkdədir. Respublikamızda NATO təcrübəsindən yararlanaraq, NATO standartlarına cavab verən peşəkar ordu quruculuğu ardıcıl və sistemli şəkildə həyata keçirilir.Azərbaycan alyansın müxtəlif proqramlarında da iştirak edir. Belə ki, ordumuzun zabit və əsgər heyətinin NATO sülhməramlılarının tərkibində Kosovo və Əfqanıstandakı əməliyyatlarda iştirak etməsi beynəlxalq sülh və sabitliyin təminatında Azərbaycan potensialının qiymətləndirilməsidir. Bu gün Azərbaycanın Ümummilli Lideri tərəfindən əsası qoyulan və Azərbaycanı dünyaya tanıdan (Akademik Tarih ve Düşünce Dergisi Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı Cilt 10 / Özel Sayı 1 / Yıl 2023 269) xarici siyasət kursu uğurla davam etdirilir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan ölkə Prezidenti İlham Əliyevə böyük xalq sevgisi vardır və xalqımız onun siyasətini yekdilliklə dəstəkləyir. Bu uğurlu siyasət Azərbaycanı demokratik və inkişaf etmiş dövlətlər sırasına çıxarmışdır.

ƏDƏBİYYAT

1. Əliyev, H.Ə. (1997). Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. İyun, 1993 - may, 1994. K.: 1 (H.Ə.Əliyev; Buraxılışa məsul: R. Mehdiyev, H.Orucov.- B.) Azərnəşr.
2. Əliyev, H.Ə. (1997). Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. İyun, 1993 - may, 1994. K.: 1 (H.Ə.Əliyev; Buraxılışa məsul: R. Mehdiyev, H.Orucov.- B.) Azərnəşr.
3. Xalqa bağışlanan ömür [Mətn]: Bu kitab müstəqil Azərbaycan Respublikasının qurucusu, bütün azərbaycanlıların Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin Azərbaycanda hakimiyyətə gəlişinin 35 illiyinə həsr olunur (2004). (Tərtibçi. Ə.Əliyev; Elmi red. M.Urud). (V kitab). Şəms.
4. (2003, 11 dekabr). "Azərbaycan" qəzeti.
5. (2004, 04 fevral). "Azərbaycan" qəzeti.
6. https://files.preslib.az/projects/azerbaijan/gl9.pdf

ABSTRACT

Rafail Abdullayev

HEYDAR ALIYEV'S FOREIGN POLICY AND AZERBAIJAN'S INTERNATIONAL SUCCESSES

Thanks to the determined foreign policy and political foresight of the national leader of Azerbaijan, Heydar Aliyev, Azerbaijan was closely involved in the creation of the international security system, joined various peacekeeping programs in this field, and provided close support to the anti-terrorist coalition. All this and the implementation of large energy projects directed to the West, as a result, resulted in the termination of the well-known 907th amendment, which caused the rightful dissatisfaction of our people, as a result of the appeal of the US President and the Secretary of State to the Congress. Suspension of the 907th amendment was a great victory for Azerbaijan, and the next greatest success of Heydar Aliyev's policy. The article analyzes and evaluates Heydar Aliyev's foreign policy and international successes on the basis of full historical facts.

Keywords: *Azerbaijan, Heydar Aliyev, foreign policy, international success*

SONA İSMAYILOVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
mirisim2007@gmail.com

NAXÇIVANIN MUXTARİYYƏTİ

XÜLASƏ

Qədim Azərbaycan bölgəsi olan Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol keçmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır. Naxçıvan Muxtar Respublikasının yaradılması isə Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsinə çevrilmişdir.

XX əsrin 20-ci illərində Naxçıvan diyarı çox çətin və mürəkkəb hadisələrlə qarşılaşmış, Zəngəzurun itirilməsi ilə Azərbaycandan ayrı düşmüş, məkrli düşmənimiz olan erməni millətçiləri Naxçıvanı tutmaq üçün hər cür vasitələrə əl atmışlar. Lakin qəhrəman naxçıvanlılar bölgənin işğal edilməsinə yol verməmiş, onu qoruyub saxlamış və Azərbaycanla birləşməsinə nail olmuşlar. O dövr hadisələri çətinləşdirən ən mühüm cəhətlərdən biri də bir sıra iri dövlətlərin tutduqları mövqe, Naxçıvan diyarının Ermənistana verilməsi üçün müxtəlif yollardan istifadə etmələri idi. Bu dövlətlərdən biri general-qubernatorluq yaratmaqla, başqa birisi bitərəf, yaxud neytral zona formalaşdırmaqla, üçüncüsü isə torpaqları güzəşt etməklə Ermənistanı sovetləşdirmək yolunu tuturdular. Ermənilərin iddiaları bu idi ki, Cənubi Qafqazda inzibati ərazi bölgüsü aparılarkən onlara az pay düşmüşdür. Lakin onlar başa düşmək istəmirdilər ki, ərazilərin əsl sakinləri və sahibləri azərbaycanlılardır.

Açar sözlər: *muxtariyyət, Qars müqaviləsi, Naxçıvan, Heydər Əliyev, qədim torpaq*

Giriş

XIX əsrin əvvəllərində Rusiya-İran, Rusiya-Türkiyə müharibələrinin Nəticəsi olaraq yaşadıqları ərazilərdən azərbaycanlıların dədə-baba yurdları olan İrəvan, Qarabağ, Naxçıvan torpaqlarına köçürülən ermənilərin sonradan yerli əhalinin başına gətirdikləri zülm və müsibətləri insanlıq naminə olan hansı qanunlara yazmaq mümkündür? Tarixən ermənilər kölə vəziyyətində saxlayıb ən ağır işgəncələrə məruz qoyan çar Rusiyası qərbin Qafqazda nüfuzunun artmasından əndişələnərək XIX əsrin əvvəllərindən etibarən İran, Türkiyə və Qafqazda yaşayan ermənilərin xəyanət və satqınlığından bəhrələnməyə çalışır. Ermənilər də öz növbəsində çar Rusiyasının bu siyasətindən faydalanır, tarixən birgə yaşadıqları türklərə arxa çevirib, gizli planlar qurur, gələcək erməni dövlətinin yaradılması haqqında fikirləşir və bu dövrdən etibarən tədricən Qafqaz ərazisinə – Azərbaycana yığılmağa başlayırlar (Nizami Muradoğlu. "Qədim Türk Yurdu Naxçıvan". Bakı: Afpoliqraf, 2019, s. 28).

Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli hökumət düşdüyü çətin və mürəkkəb vəziyyət ucbatından Naxçıvana yetərincə diqqət yetirə bilmirdi. Bundan istifadə edən erməni daşnakları Azərbaycanın qədim torpağı Zəngəzuru işğal etdilər. Onların əsas məqsədi Naxçıvanı "Böyük Ermənistan" a birləşdirmək idi. Lakin Naxçıvan diyarı əhalisinin inadlı müqavimətləri Nəticəsində buna imkan verilmədi. Türkiyə ilə Rusiya arasında bağlanan Moskva müqaviləsinə (1921, 16 mart) əsasən Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verildi. Qars müqaviləsi (1921, 13 oktyabr) ilə Cənubi Qafqaz Respublikaları bunu etiraf etdi və Türkiyə ilə müqavilə imzaladılar (İsmayıl Hacıyev. "Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvan". Bakı: Elm, 2018).

O dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərləri naxçıvanlıların qəhrəmanlığını yüksək qiymətləndirir, hətta parlamentin iclaslarında bunu qeyd edirdilər. Parlamentin 18 avqust 1919-cu il tarixli iclasında bundan bəhs edən Nəsib bəy Yusifbəyli Naxçıvanın öz qüvvələri ilə istilaçıları devirərək Azərbaycanla birləşməyə hazır olduğunu vurğulamışdı (Fəxrəddin Səfərli. "Heydər Əliyev irsi - əbədiyaşar təlim". Naxçıvan: 2014).

1918-1920-ci illərdə Naxçıvan diyarında baş verən hadisələr, Andronik başda olmaqla erməni quldurlarının Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarında törətdikləri milli qırğınlar, bununla əlaqədar olaraq dəhşətli və faciəli şəkil almış ictimai və siyasi vəziyyət Zaqafqaziya hüdudları çərçivəsindən çox-çox kənara çıxaraq beynəlxalq problemə çevrilmişdi. Törədilmiş milli qırğınlar Nəticəsində diyarın təsərrüfat həyatı ciddi tənəzzülə uğramış, mədəniyyəti əvəzolunmaz itkilərə məruz qalmış, əhalisinin sayı isə azalmışdı. Hərbi əməliyyatlar kənd və şəhərlərin dağılmasına, boşalmasına səbəb olmuşdur. Göstərilən illərdə Naxçıvan, Ordubad, Şərur-Dərələyəz qəzalarında təkcə kənd əhalisinin sayı 52 min nəfər azalmış, 287 kənd ya tamam, ya da qismən dağıdılmışdı. Naxçıvan məsələsi 1918-ci ildə bir neçə dəfə Zaqafqaziya seymində, 1918-1920-ci illərdə dəfələrlə Azərbaycan Demokratik Respublikasının parlamentində və Milli Şurasında, Erməni Milli Şurasında, Ermənistan və Türkiyə parlamentlərində, Təbriz bələdiyyə idarəsində, Maku xanlığında, 1919-cu ildə Versal sülh konfransında, 1919-1920-ci illərdə Ermənistanda və Naxçıvanda olan ABŞ nümayəndəliyində, 1920-1921-ci illərdə Azərbaycan SSR və Ermənistan SSR inqilab komitələrində, 1921-ci il martın 16-da RK(b)P Siyasi Bürosunda və 1920-1921-ci illərdə RSFSR Xalq Komissarları Sovetində, həmçinin 1920-ci ildə Moskva və Qars şəhərlərində keçirilmiş beynəlxalq sülh konfranslarında müzakirə edilmişdir. Naxçıvan məsələsinin həllinin bir o qədər də asan bir iş olmadığını bundan da görmək olar ki, Zaqafqaziyanın, RSFSR-in, Türkiyənin, İranın və hətta Avropa ölkələrinin bir çox görkəmli dövlət xadimləri, diplomatları, hərbçiləri vaxtilə həmin məsələ ilə ciddi məşğul olmuş və onu dinc vasitələrlə nizama salmağa çalışmışlar. Onların bir çoxunun məsələyə vicdanla və məsuliyyətlə yanaşması müşkül görünən düyünlərin açılmasına və beləliklə də, məsələnin ədalətli, ən başlıcası isə həmişəlik həllinə imkan vermişdir (Səid Sadıqov. "Naxçıvan Muxtar Respublikası tarixindən". Bakı: 1995, s. 8).

1921-ci il martın 16-da Moskvada RSFSR-in, Türkiyənin, Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR nümayəndələrinin iştirakı ilə aparılmış danışıqlar

başa çatmışdı. Danışıqlar RSFSR-lə Türkiyə arasında dostluq və qardaşlıq haqqında müqavilənin imzalanması ilə Nəticələnmişdi. Müqavilənin RSFSR tərəfdən xarici işlər naziri K. Çiçerin, Dağıstan İnqilab Komitəsinin sədri, RSFSR MİK-in üzvü, C. Korkmasov, Türkiyə tərəfdən isə Yusif Kamal, Riza Nuri, Əli Fuad imzalamışdılar. Müqavilədə Naxçıvan məsələsi də özünün ədalətli həllini tapdı. Müqavilənin üçüncü maddəsində deyilirdi: "Danışıqlar aparan tərəflər razılığa gəlirlər ki, Naxçıvan vilayəti həmin müqavilənin 1 (s) saylı əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın protektoratlığı altında muxtar ərazi yaradır, bu şərtlə ki, Azərbaycan həmin protektoratlığı üçüncü dövlətə güzəştə gedə bilməz"

Müqavilənin həmin maddəsinə sonuncu bəndin əlavə edilməsi Naxçıvan məsələsinin sonralar yenidən müzakirə obyektinə çevrilməsinin qarşısının alınmasında mühüm rol oynadı. Ermənistan SSR-in Naxçıvana olan ərazi iddialarını heçə endirdi Müqavilənin əhəmiyyəti RSFSR rəhbərliyi, o cümlədən V.İ.Lenin tərəfindən də qeyd edildi. Beləliklə, Naxçıvanın tarixən təşəkkül tapmış milli xüsusiyyətləri və ənənələri, əhalinin arzu və istəkləri uğrunda uzun müddətdən bəri daşnak qəsbkarlarına qarşı apardığı mübarizə, nəhayət ki, yüksək səviyyədə nəzərə alındı və ona Azərbaycan SSR tərkibində əlahiddə Sovet Sosialist Respublikası kimi təşkil olunmaq hüququ verildi. 1921-ci ilin sentyabrında Naxçıvan SSR Xalq Komissarları Soveti təşkil edildi. 1922-ci ilin yanvarında Naxçıvan SSR Mərkəzi İcraiyyə Komitəsi yaradıldı. Naxçıvan 1920-1923-cü illərdə Naxçıvan SSR adlanmışdır. Totalitar sovet rejiminin təzyiqi altında Naxçıvanın hüquqları məhdudlaşdırılaraq Naxçıvan muxtar diyarına çevrilmişdir (1923-1924). Azərbaycan SSR MİK-in 9 fevral 1924-cü il tarixli dekreti ilə Naxçıvan MSSR təşkil edildi. Naxçıvan 1921-ci ildən Azərbaycanın muxtar qurumu kimi idarə olunurdusa da, 30-cu illərin ortalarına qədər o bütün rəsmi sənədlərdə Naxçıvan SSR adlandırılmışdır (İsmayıl Hacıyev. Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvan" Bakı: Elm, 2018).

Naxçıvan Muxtar Respublikası yarandıqda onun sahəsi Naxçıvanın tarixi ərazisinin yalnız 5.998 kv.km-ni əhatə edirdi. 1929-cu ildə Zaqafqaziya MİK-in qərarı ilə Naxçıvanın 657 kv. Km ərazisi (9 kəndi) Ermənistana verildi. 1924-cü ildə Naxçıvan Muxtar MSSR-də 3 qəza və 12 dairə təşkil olundu. 1925-ci ildə qəzalar ləğv edildi, 8 dairə saxlanıldı. 1930-cu ildə 6 rayon yaradıldı: Şərur, Naxçıvan, Culfa, Ordubad, Şahbuz, Əbrəqunus. Naxçıvanın muxtariyyət statusunun hüquqi bazasının yaradılması 1924-cü ildə Naxçıvan MSSR haqqında Əsasnamənin qəbulu ilə başlanmışdır. Əsasnaməyə görə Naxçıvan Azərbaycan SSR-nin tərkib hissəsi kimi, ona muxtar respublika hüququnda daxil olurdu. Naxçıvan MSSR-in Konstitusiyaları da Naxçıvanın muxtar ərazi statusunu möhkəmləndirdi (İsmayıl Hacıyev. "Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvan". Bakı: Elm, 2018).

Naxçıvanın ərazi bütövlüyünün və muxtariyyət statusunun qorunub saxlanılması üçün Ümummilli Liderimiz Heydər Əliyev mühüm siyasi fəaliyyət göstərmişdir. Hələ 1991-ci il yanvar ayının 11-də Ulu Öndərin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Moskva və Qars müqavilələrinin iştirakçısı olan dövlətlərə bəyanat verərək həmin ölkələri muxtar respublikanın ərazi bütövlüyünün erməni təcavüzü Nəticəsində kobud şəkildə pozulması faktlarına münasibət bildirməyə çağırmışdır. Bu, Naxçıvanın muxtariyyət statusunun beynəlxalq müqavilələrlə

qorunması faktının aktuallaşdırılması ilə yanaşı, muxtar respublikanın məruz qaldığı hərbi müdaxilə təhlükəsindən diplomatik yolla qorunmasına şərait yaratmışdır. Ümummilli Liderimizin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə də Naxçıvanın muxtariyyət statusu daim diqqət mərkəzində olmuş, Ulu Öndərimizin müəllifi olduğu Konstitusiyamızın 134-cü maddəsində Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlət kimi təsbit edilmişdir. Ulu Öndərimiz Naxçıvanın muxtariyyət statusu əldə etməsinin və Qars müqaviləsinin imzalanmasının mühüm tarixi əhəmiyyət daşıdığını bildirərək demişdir: "Naxçıvanın muxtariyyəti tarixi hadisədir. Bu, çətin bir dövrdə böyük bir mübarizənin Nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".

Qeyd etmək lazımdır ki, 1921-ci ildən 1924-cü ilədək, yəni muxtariyyət statusundan muxtar respublikanın təşkilinə kimi çoxsaylı müzakirələr getmişdi. Bu müzakirələrdə bir məsələ aydın idi ki, Azərbaycanın daxilində Naxçıvanın muxtariyyət təşkil etməsi bölgənin spesifik ərazi vəziyyəti – geosiyasi şəraiti ilə bağlı idi. Naxçıvanın Azərbaycandan aralı düşməsi, heç bir ortaq sərhədə malik olmaması onun inzibati idarəçiliyini qəza və ya rayon hüquqlarında təşkil etməyə imkan vermirdi. 1923-cü il iyunun 16-da Naxçıvan muxtar diyar adlandırıldı. 1924-cü il fevralın 9-da Azərbaycan MİK-in Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında dekret qəbul etdi (İ. Hacıyev. "Qars müqaviləsi muxtar respublikanın siyasi və tarixi taleyində mühüm rol oynayır. "Şərq qapısı" qəz, Naxçıvan: 17 iyun 2024).

Naxçıvan Muxtar Respublikasının tarixində Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Heydər Əliyevin itirilmiş dövlətçilik ənənələrinin yenidən dirçəldilməsi, Azərbaycan xalqının ən böyük milli dəyəri olan müstəqil Azərbaycan dövlətinin yaradılması yolundakı atdığı mühüm addımlar tarixə həkk olunub. Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının həyatında böyük tarixi qərarlar qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikasının, onun ali hakimiyyət orqanının adları dəyişdirilmiş, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul olunmuşdu. Heydər Əliyevin Naxçıvanın muxtariyyət statusunun qorunub saxlanılması yolunda da misilsiz xidmətləri olmuşdur. 1991-ci il yanvarın 11-də onun təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi Moskva və Qars müqavilələrinin iştirakçısı olan dövlətlərə bəyanat verərək onları muxtar respublikanın ərazi bütövlüyünün erməni təcavüzü Nəticəsində pozulması faktına münasibət bildirməyə çağırdı. Bu, Naxçıvan muxtariyyətinin beynəlxalq müqavilələrlə, muxtar respublikanı hərbi müdaxilə təhlükəsindən diplomatik yolla qorumaq istiqamətində mühüm səylər idi. Ulu Öndərimiz Naxçıvanın muxtariyyət statusu əldə etməsinin və Qars müqaviləsinin imzalanmasının mühüm tarixi əhəmiyyət daşıdığını bildirərək demişdir: "Naxçıvanın muxtariyyəti tarixi hadisədir. Bu, çətin bir dövrdə böyük bir mübarizənin Nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından

ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir". Bu kimi faktlar Heydər Əliyevin milli-mənəvi dəyərlərimizdən olan dövlətçiliyimizin qorunması sahəsindəki xidmətlərindən biri olan muxtariyyətimizin möhkəmləndirilməsi yolundakı fəaliyyəti olmuşdur (E.Kəlbizadə "Qars müqaviləsi muxtar respublikanın siyasi və tarixi taleyində mühüm rol oynayır" "Şərq qapısı" qəz, Naxçıvan: 12 oktyabr 2013).

Nəticə

Beləliklə, naxçıvanlıların ciddi müqaviməti və aparılan gərgin diplomatik mübarizənin Nəticəsi o oldu ki, bu diyarın əzəli və əbədi sakinləri Naxçıvan regionunun Azərbaycanın ayrılmaz bir hissəsi olduğunu bütün dünyaya sübut etdilər. Bununla yanaşı, XI əsrdən Naxçıvanşahlıqla başlanan, XVII əsrdə Naxçıvan xanlığı, sonralar isə digər formalarda davam edən yerli özünüidarəetmə xarakterli dövlətçilik ənənələrini də qoruyub saxlaya bildilər. Müasir dövrdə bu ənənələr ən mükəmməl formada davam etdirilməkdədir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulan müdrik siyasət ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün mövcud olan muxtar dövlət idarəçiliyinin "Naxçıvan modeli" qloballaşan dünyada muxtar qurumlar üçün ən mükəmməl model hesab oluna bilər. Azərbaycançılıq ideologiyasına sadiqlik, inkişaf edən iqtisadiyyat, milli sosialyönümlü demokratiya, genişlənən beynəlxalq iqtisadi və mədəni əlaqələr isə Azərbaycanın dövlətçilik beşiyi olan Naxçıvanın parlaq gələcəyindən xəbər verir.

ƏDƏBİYYAT

1. Hacıyev, İ. Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvan. Bakı: Elm, 2018.
2. Səfərli, F. Heydər Əliyev irsi - əbədiyaşar təlim. Naxçıvan: 2014.
3. Hacıyev, İ. "Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı (1991-2011-ci illər)" Naxçıvan: "Əcəmi" Nəşriyyat- Poliqrafiya Birliyi, 2011.
4. Sadıqov, S. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı: 1995
5. Muradoğlu, N. Qədim türk yurdu Naxçıvan. Bakı: Afpoliqraf, 2019.
6. "Şərq qapısı" qəzetinin müxtəlif sayları

ABSTRACT

Sona Ismayilova

THE AUTONOMY OF NAKHCHIVAN

Nakhchivan, the ancient region of Azerbaijan, has historically passed a complicated and at the same time glorious path full of difficult trials. This land with centuries-old traditions of statehood has always preserved the rich cultural heritage of our people and played an invaluable role in the socio-economic, social and political life of our country. The establishment of the Nakhchivan Autonomous Republic has become an important event in the political history of Azerbaijan.

In the 20s of the 20th century, the land of Nakhchivan faced very difficult and complex events, it was separated from Azerbaijan with the loss of Zangezur, and our insidious enemy, the Armenian nationalists, used all means to capture Nakhchivan. However, the heroic people of Nakhchivan did not allow the region to be invaded, protected it and managed to unite it with Azerbaijan. One of the most important aspects that complicated the events at that time was the position taken by a number of major states and their use of different ways to transfer the land of Nakhchivan to Armenia. One of these states took the path of sovietizing Armenia by creating a general governorship, another by forming a neutral or neutral zone, and the third by ceding lands. Armenians' claims were that during the administrative territorial division in the South Caucasus, they had a small share. However, they did not want to understand that the real inhabitants and owners of the territories are Azerbaijanis.

Keywords: *autonomy, Kars treaty, Nakhchivan, Haydar Aliyev, ancient land*

SƏRVƏR ƏLİYEV

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
sarvaraliyev1971@gmail.com

ANA DİLİNİN QORUNMASI

XÜLASƏ

Ana dili bir xalqın milli kimliyinin, mədəniyyətinin və tarixi yaddaşının qorunmasında əsas rol oynayır. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də xalqın ruhunun və mənəvi dünyasının ifadəsidir. Azərbaycan dilinin qorunması və inkişafı bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Ana dilinin itməsi milli kimliyin və mədəni irsin tədricən yox olmasına gətirib çıxara bilər. Dilin qorunması və itməsinin qarşısını almaq üçün təhsil sistemi mühüm vasitədir. Məktəblərdə, universitetlərdə və kolleclərdə Azərbaycan dili dərsləri vasitəsilə şagirdlərə və tələbələrə dilin zənginliyi və gözəlliyi öyrədilir. Eyni zamanda ədəbiyyat, musiqi və kino kimi sahələrdə də ana dilində yaradılan əsərlər dilin yaşamasına töhfə verir. Nizami Gəncəvi və Məhəmməd Füzuli kimi böyük şəxsiyyətlərin əsərlərini, milli dəyərləri gənclərə çatdırmaqda böyük rol oynayır. Müasir texnologiyaların inkişafı ilə ana dilində rəqəmsal məzmunun artırılması da vacibdir. Mobil tətbiqlər, sosial media platformalarında ana dilində yayımlanan keyfiyyətli materiallar, gənclərin dilə marağını artırır. Bununla yanaşı, ailələr uşaqlara ana dilini sevdirmək və bu dildə danışmağa həvəsləndirmək üçün mühüm rol oynayır. Xarici dillərin öyrənilməsi müasir dövrdə zəruridir, lakin bu, ana dilinə marağın azalmasına səbəb olmamalıdır. Hər bir fərd və cəmiyyət ana dilinin qorunmasında məsuliyyət daşımalıdır. Dövlət səviyyəsində dil siyasəti gücləndirilməli, ana dilinə olan ehtiram bütün sahələrdə təşviq edilməlidir. Nəticə etibarilə, Azərbaycan dilinin qorunması və inkişafı üçün fərdi və kollektiv səylər vacibdir. Dilimizin yaşaması milli irsimizin və kimliyimizin qorunmasının ən mühüm şərtidir.

Açar sözlər: *Azərbaycan dili, dil, ana dilin qorunması*

Giriş

Dil, insanların bir-biri ilə ünsiyyət qurması üçün istifadə etdiyi əsas vasitədir. O, sözlər, cümlələr və nitq formaları vasitəsilə düşüncələri, hissləri və məlumatları ifadə etmək imkanı yaradır. Dil təkcə sözlərdən ibarət deyildir. O, həm də jestlər, işarələr və simvolik ifadələri əhatə edə bilir. Dil mədəniyyətin, millətin və cəmiyyətin güzgüsüdür. Dil həm şifahi (danışıq) formada, həm də yazılı formada mövcuddur və insanın düşüncə tərzini formalaşdırır. Hər dil özünəməxsus qrammatika, lüğət və fonetika sisteminə malikdir. Dil insan həyatında əvəzolunmaz rol oynayan mühüm ünsiyyət vasitəsidir. O, yalnız fərdlər arasında əlaqə yaratmır, həm də mədəniyyətin, tarixin və milli kimliyin daşıyıcısıdır. Dilin vacibliyini anlamaq üçün onun bir çox sahədəki təsirini araşdırmaq mümkündür.

1. Ünsiyyət və anlaşma. Dil insanların gündəlik həyatında əsas ünsiyyət vasitəsidir. İnsanlar düşüncələrini, hisslərini və fikirlərini dil vasitəsilə bir-birinə çatdırır. Şifahi və yazılı dil formaları insanın sosial münasibətlər qurmasını asanlaşdırır. Həmçinin dil informasiya mübadiləsini təmin edir və cəmiyyətdə birliyin qorunmasında mühüm rol oynayır.

2. Mədəniyyətin və kimliyin daşıyıcısı. Hər bir xalqın dili onun mədəniyyətini, tarixi irsini və milli dəyərlərini özündə ehtiva edir. Məsələn, Azərbaycan dili zəngin ədəbiyyatı və poeziyası ilə xalqımızın keçmişini və ruhunu əks etdirir. Milli dil yalnız bir ünsiyyət vasitəsi deyil, həm də xalqın kimliyini qoruyan əsas amildir.

3. Təhsil və inkişaf. Dil təhsil prosesinin əsasını təşkil edir. Biliklərin əldə edilməsi, elmi və texnoloji inkişaf dil vasitəsilə mümkün olur. Uşaqlar dil vasitəsilə dünyanı tanıyır və öz düşüncə qabiliyyətlərini inkişaf etdirirlər. Xarici dillərin öyrənilməsi isə fərdlərə qlobal səviyyədə özlərini ifadə etmək imkanı verir və onların intellektual inkişafını sürətləndirir.

4. İctimai əlaqələr və diplomatiya. Cəmiyyətin inkişafı və idarə olunması dilin düzgün istifadəsindən asılıdır. Sosial qruplar, təşkilatlar və dövlətlər arasında əlaqələr dil vasitəsilə qurulur. Beynəlxalq səviyyədə diplomatiya və əməkdaşlıq da dilin rolu ilə sıx bağlıdır. İngilis dili, məsələn, qlobal ünsiyyət dili olaraq müxtəlif xalqlar arasında körpü yaradır.

6. İnsan düşüncəsinin formalaşması. Dil düşüncə ilə sıx əlaqəlidir. İnsanlar fikirlərini məhz dil vasitəsilə formalaşdırır və başqalarına çatdırırlar. Müxtəlif dillərin öyrənilməsi insanın dünyagörüşünü genişləndirir və daha yaradıcı düşünməsinə imkan verir.

Dil hər bir xalqın mədəniyyətinin və milli kimliyinin ayrılmaz hissəsidir. O, bir tərəfdən insanları birləşdirən, digər tərəfdən isə bir milləti başqa millətlərdən fərqləndirən əsas vasitədir. Hər bir xalqın dili onun tarixi, adət-ənənələri, inancları və dünyagörüşünün güzgüsü kimi çıxış edir. Dil, min illər boyu bir millətin topladığı biliklərin, dəyərlərin və təcrübənin qorunub saxlanılmasında mühüm rol oynayır. Məsələn, Azərbaycan dili əsrlər boyu xalqımızın keçmişini, milli mübarizəsini və mədəniyyətini qoruyaraq gələcək nəsillərə çatdırıb. Nizami Gəncəvi, Məhəmməd Füzuli, Xurşidbanu Natəvan kimi klassiklərimizin əsərləri yalnız ədəbi məna daşımır, həm də xalqımızın mədəni irsini əks etdirir. Bu əsərlər vasitəsilə milli ruh və mədəniyyət yeni nəsillərə ötürülür.

Dil milli adət-ənənələrin və dini inancların qorunmasında vacibdir. Toy, yas mərasimləri, bayramlar və digər ənənələr məhz dil vasitəsilə ifadə olunur və gələcək nəsillərə ötürülür. Məsələn, Novruz bayramı ilə bağlı nəğmələr, atalar sözləri və deyimlər xalqın dəyərlərini gələcəyə daşıyır. Dil millətin kimliyini müəyyən edən əsas amillərdən biridir. Hər bir xalqın özünəməxsus dili onun fərdiliyini qoruyur və onu digər millətlərdən fərqləndirir. Azərbaycan dili xalqımızın milli birliyinin rəmzidir. Ana dili ilə danışmaq, yazmaq və düşünmək millətimizin öz kimliyini qoruyub saxlamasına kömək edir. Dildə mədəniyyətin müxtəlif sahələri öz əksini tapır. Ədəbiyyat, musiqi, folklor və incəsənət dillə ifadə olunur. Azərbaycan xalq mahnıları, dastanlar və aşıq sənəti dilin zənginliyini və mədəni irsimizin dərinliyini əks etdirir.

Məsələn, “Kitabi-Dədə Qorqud” dastanı həm ədəbi, həm tarixi, həm də mədəni dəyərə malikdir.

Ana dili bir millətin milli kimliyini, mədəniyyətini və tarixi yaddaşını qoruyub saxlayan əsas vasitədir. Hər bir insanın ilk öyrəndiyi dil onun mənəvi dünyasını formalaşdırır. Azərbaycan dili də bizim ana dilimizdir. O, tarixi ədəbiyyatımızı, musiqimizi, adət-ənənələrimizi və mənəvi dəyərlərimizi yaşadan bir xəzinədir. Lakin müasir dövrdə ana dilinin qorunması bir çox təhdidlərlə üzləşir. Qloballaşmanın təsiri, xarici dillərə üstünlük verilməsi və ana dilinin kütləvi informasiya vasitələrində bəzən yetərincə istifadə olunmaması bu dəyərləri təhlükə altına ala bilər. Xarici dillərin öyrənilməsi vacib olsa da, bu, ana dilinə olan marağı azaltmamalıdır. Ana dilinin qorunmasında təhsil sisteminin və xüsusilə də Azərbaycan dili fənninin tədrisi mühüm əhəmiyyət kəsb edir. Ana dili fənni yalnız dil biliklərinin aşılanması deyil, həm də milli kimliyin, mədəniyyətin və tarixi yaddaşın qorunması üçün bir vasitədir. Bu fənnin tədrisi vasitəsilə şagirdlər həm dilin qrammatik qaydalarını mənimsəyir, həm də milli ədəbiyyat nümunələri ilə tanış olur, tarixi və mədəni dəyərlərimizi öyrənirlər. Azərbaycan dili fənni uşaqlarda dilə sevgi və hörmət hissi oyadır. Bu dərslər vasitəsilə şagirdlər ana dilinin gözəlliyini və zənginliyini dərk edirlər. Xüsusilə klassik ədəbiyyat nümunələrinin, məsələn, Nizami Gəncəvi, Məhəmməd Füzuli və digər böyük şəxsiyyətlərin əsərlərinin öyrənilməsi gənclərdə milli qürur hissi yaradır. Azərbaycan dilinin incəliklərini öyrənən şagirdlər, həm də sözün gücünü başa düşərək dilin qorunması və inkişaf etdirilməsi üçün məsuliyyət hiss edirlər.

Medianın və sosial şəbəkələrin rolu da burada əvəzsizdir – ana dilində keyfiyyətli məzmun yaradılmalı, gənclər bu məzmuna cəlb edilməlidir. Valideynlər isə uşaqlara ana dilində danışmağı öyrətməli və onları bu dildə danışmağa həvəsləndirməlidirlər. Ədəbiyyat, musiqi və kino kimi sahələrdə ana dilində yaradılmış əsərlər xalqın milli kimliyini, mədəniyyətini və dil zənginliyini qorumaq və inkişaf etdirmək baxımından xüsusi əhəmiyyət daşıyır. Bu sahələr yalnız sənət əsərlərinin yaradıldığı platformalar deyil, həm də dilin yaşamasını və gələcək nəsillərə ötürülməsini təmin edən mühüm vasitələrdir.

Ədəbiyyat ana dilinin incəliklərini və gözəlliklərini ən mükəmməl şəkildə əks etdirən bir sahədir. Ana dilində yazılmış əsərlər, xalqın tarixi, mədəniyyəti və dünyagörüşünü əks etdirir. Azərbaycan ədəbiyyatının klassikləri xalqımızın milli dəyərlərini əsərləri vasitəsilə qoruyub gələcək nəsillərə çatdırmışlar. Müasir dövrdə də ana dilində yeni ədəbi əsərlərin yazılması, gənc nəslin dilə marağını artırır və dilin zənginliyini qorumağa töhfə verir.

Musiqi sahəsində ana dilinin rolu, xüsusilə xalq mahnılarında və aşıq sənətində özünü göstərir. Ana dilində ifa olunan mahnılar və musiqi nümunələri, xalqın mədəniyyətini və mənəvi dəyərlərini ifadə edir. Məsələn, "Sarı Gəlin" kimi xalq mahnıları, Azərbaycan dilinin gözəlliyini və xalqımızın hisslərini musiqi vasitəsilə bütün dünyaya çatdırır. Eyni zamanda müasir musiqi janrlarında da ana dilində yaradılan əsərlər gənclər arasında dilə sevgi və bağlılıq yaradır.

Kino isə dilin və mədəniyyətin vizual şəkildə təbliği baxımından güclü təsir vasitəsidir. Ana dilində çəkilən filmlər, xalqın gündəlik həyatını, adət-ənənələrini və mənəvi dəyərlərini geniş auditoriyaya təqdim edir. Azərbaycan kinosunun klassik

nümunələri, məsələn, "Arşın mal alan" və "Ögey Ana" kimi filmlər, dilimizin zənginliyini əks etdirməklə yanaşı, milli kimliyimizi də dünyaya tanıtdı. Müasir dövrdə də yüksək səviyyəli filmlərin ana dilində çəkilməsi dilin istifadəsini təşviq edir və onu qloballaşmanın təsirindən qoruyur. Ədəbiyyat, musiqi və kino sahələrində ana dilində yaradılmış əsərlər həm dilin zənginliyini və funksionallığını qoruyur, həm də xalqın mədəni irsini gücləndirir. Bu əsərlər gələcək nəsillərə dilimizin gözəlliklərini və xalqımızın milli dəyərlərini ötürmək üçün mühüm vasitələrdir. Ana dilində yaradılmış sənət əsərləri, dilimizin yaşaması və inkişafı üçün ən güclü dayaqdır və bu sahələrdə yaradıcıların fəaliyyətləri daim dəstəklənməlidir.

Ana dilinin qorunmasında təhsil sisteminin və xüsusilə Azərbaycan dili fənninin tədrisi mühüm əhəmiyyət kəsb edir. Ana dili fənni yalnız dil biliklərinin aşılanması deyil, həm də milli kimliyin, mədəniyyətin və tarixi yaddaşın qorunması üçün bir vasitədir. Bu fənnin tədrisi vasitəsilə şagirdlər həm dilin qrammatik qaydalarını mənimsəyir, həm də milli ədəbiyyat nümunələri ilə tanış olur, tarixi və mədəni dəyərlərimizi öyrənirlər.

Azərbaycan dili fənni uşaqlarda dilə sevgi və hörmət hissi oyadır. Bu dərslər vasitəsilə şagirdlər ana dilinin gözəlliyini və zənginliyini dərk edirlər. Xüsusilə klassik ədəbiyyat nümunələrinin, məsələn, Nizami Gəncəvi, Məhəmməd Füzuli və digər böyük şəxsiyyətlərin əsərlərinin öyrənilməsi gənclərdə milli qürur hissi yaradır. Azərbaycan dilinin incəliklərini öyrənən şagirdlər, həm də sözün gücünü başa düşərək dilin qorunması və inkişaf etdirilməsi üçün məsuliyyət hiss edirlər.

Müasir dövrdə xarici dillərin öyrənilməsinin vacibliyi danılmazdır, lakin bu, ana dilinin ikinci plana keçməsinə səbəb olmamalıdır. Tədris prosesində Azərbaycan dili fənni balanslı şəkildə və yüksək səviyyədə tədris olunmalıdır. Bu fənn yalnız şagirdlərin dil biliklərini inkişaf etdirmək deyil, eyni zamanda onların milli dəyərlərə bağlılığını gücləndirmək məqsədi daşımalıdır. Azərbaycan dili dərsləri mədəniyyətin və tariximizin qorunması üçün əsas platformadır.

Bundan əlavə, Azərbaycan dili fənninin müasir texnologiyaların köməyi ilə daha maraqlı şəkildə tədris edilməsi gənclərin diqqətini dilə cəlb edə bilər. İnteraktiv dərs metodları, audiovizual materiallar və rəqəmsal resurslar vasitəsilə dərslər daha dinamik və cəlbedici hala gətirilə bilər.

Nəticədə Azərbaycan dili fənninin tədrisi ana dilinin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm rol oynayır. Bu fənnin tədrisinə göstərilən diqqət yalnız dilin yaşamasını təmin etmir, həm də şagirdlərin milli kimliyini və mədəni dəyərlərini dərk etməsinə töhfə verir. Təhsildə ana dilinin mövqeyinin möhkəmləndirilməsi, xalqımızın milli irsinin qorunmasının və gələcək nəsillər üçün yaşadılmasının təminatıdır.

Ədəbiyyat ana dilinin incəliklərini və gözəlliklərini ən mükəmməl şəkildə əks etdirən bir sahədir. Ana dilində yazılmış əsərlər, xalqın tarixi, mədəniyyəti və dünyagörüşünü əks etdirir. Azərbaycan ədəbiyyatının klassikləri, məsələn, Nizami Gəncəvi, Məhəmməd Füzuli və Xurşidbanu Natəvan kimi şəxsiyyətlər, xalqımızın milli dəyərlərini əsərləri vasitəsilə qoruyub gələcək nəsillərə çatdırmışlar. Müasir dövrdə də ana dilində yeni ədəbi əsərlərin yazılması, gənc nəslin dilə marağını artırır və dilin zənginliyini qorumağa töhfə verir.

Musiqi sahəsində ana dilinin rolu, xüsusilə xalq mahnılarında və aşıq sənətində özünü göstərir. Ana dilində ifa olunan mahnılar və musiqi nümunələri, xalqın mədəniyyətini və mənəvi dəyərlərini ifadə edir. Məsələn, "Sarı Gəlin" kimi xalq mahnıları, Azərbaycan dilinin gözəlliyini və xalqımızın hisslərini musiqi vasitəsilə bütün dünyaya çatdırır. Eyni zamanda müasir musiqi janrlarında da ana dilində yaradılan əsərlər gənclər arasında dilə sevgi və bağlılıq yaradır.

Dilin itməsinin qarşısının alınması və onun qorunması hər bir millətin mədəni irsinin, tarixi yaddaşının və milli kimliyinin qorunması ilə birbaşa bağlıdır. Ana dili yalnız ünsiyyət vasitəsi deyil, həm də bir xalqın ruhunun daşıyıcısıdır. Bu səbəbdən, dilin itməsi həmin xalqın mənəvi varlığının zəifləməsinə və tədricən yox olmasına gətirib çıxara bilər. Dilin itməsi xalqın mədəni irsinin və milli kimliyinin tədricən yox olmasına gətirib çıxara bilər. Bu səbəbdən, ana dilinin qorunması və inkişafı üçün hər bir fərd öz töhfəsini verməlidir. Azərbaycan dili yalnız ünsiyyət vasitəsi deyil, həm də milli sərvətimizdir. Onun zənginliyi və gözəlliyi xalqımızın gücünü və varlığını təmsil edir. Ana dilimizə sevgi və qayğı göstərməklə biz onun yaşamasını və gələcək nəsillərə ötürülməsini təmin edirik.

Nəticə olaraq, ana dilinin qorunması və inkişafı, hər bir millətin mədəniyyətinin, milli kimliyinin və tarixi yaddaşının yaşaması üçün həyati əhəmiyyət kəsb edir. Dil yalnız ünsiyyət vasitəsi deyil, eyni zamanda bir xalqın ruhunun və mədəniyyətinin ifadəsidir. Bu baxımdan, təhsil, ədəbiyyat, musiqi və kino kimi sahələrdə ana dilinin tədrisi və istifadəsi, gənclər arasında dilə olan marağın artırılması vacibdir. Müasir dövrdə, xüsusən qloballaşma və xarici dillərin geniş yayılması şəraitində, Azərbaycan dilinin qorunması və inkişafı daha da əhəmiyyətli hala gəlir. Təhsildə ana dilinin gücləndirilməsi, mədəni sahələrdə dilə olan ehtiramın təşviqi və dövlət dəstəyi ilə bu prosesin təmin edilməsi, dilin itirilməsinin qarşısını almaq və gələcək nəsillərə ötürülməsini təmin etmək üçün əsas amillərdir. Ana dilinə sevgi və hörmət aşılamaq, onu gündəlik həyatın bir hissəsi halına gətirmək hər bir fərdin və cəmiyyətin məsuliyyətidir. Ana dilinin qorunması, yalnız dilin yox, milli kimliyin və mədəniyyətin də qorunması deməkdir. Bu prosesdə hər bir fərd, ailə və cəmiyyətin rolu böyükdür və bu kollektiv səylə dilimiz yaşamağa davam edəcəkdir.

ƏDƏBİYYAT

1. Abdulla, K. M. Dilçiliyə səyahət: Dilçi olmayanlar üçün dilçilik. - Bakı: Mütərcim, 2010. - 200 s.
2. Aydın, A. A. Mənşəyinə görə şəxs adları lüğəti. - Bakı : Şirvannəşr, 2010. - 164 s.
3. Heyət, C. M. Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda. - Bakı: Elm və təhsil, 2011. - 704 s
4. Xəlilov, B. Ə. Müasir Azərbaycan dili: dərslik. - Bakı: Bakı Çap Evi, 2013. - 310 s.
5. Xudiyev, N. Xalqın tarixi haqqı: dilimiz, varlığımız. - Bakı: Azərbaycan, 2003. - 336 s. Xudiyev N. Zamanın axarı ilə: məqalələr, rəylər, müsahibələr, xatirələr, çıxışlar, ssenarilər. - Bakı: Azərnəşr, 2004. - 744 s.
6. Kaşğari, M. Divanü Lüğat-it-türk: 4 cilddə. I cild. - Bakı: Ozan, 2006. - 512 s.

7. Dədə Qorqud Kitabı: ensiklopedik lüğət. - Bakı: Öndər, 2004. -368 s. - (Azərbaycan xalq ədəbiyyatı).
8. www. nizamiganjavi.az
9. www.azerbaycandili.az

ABSTRACT

Sarvar Aliyev

THE IMPORTANCE OF PROTECTING THE MOTHER TONGUE

The mother tongue plays a fundamental role in preserving a nation's identity, culture, and historical memory. Language is not merely a tool for communication but also an expression of a people's soul and spiritual essence. The preservation and development of the Azerbaijani language hold special importance in this regard. The loss of a language can lead to the gradual disappearance of national identity and cultural heritage. Education serves as a key means to protect and prevent the loss of language. Through Azerbaijani language lessons in schools and universities, students learn about the richness and beauty of the language. Moreover, fields such as literature, music, and cinema, where works are created in the mother tongue, contribute significantly to the survival of the language. The works of great figures like Nizami Ganjavi and Muhammad Fuzuli play an essential role in conveying national values to younger generations. In today's era of technological advancement, increasing digital content in the mother tongue is equally vital. Mobile applications and high-quality content on social media platforms in the Azerbaijani language spark interest among the youth. Additionally, families play a crucial role in fostering a love for the mother tongue and encouraging children to speak it. While learning foreign languages is necessary in the modern world, it should not diminish interest in the mother tongue. Every individual and society bears responsibility for the protection of their native language. Language policies should be strengthened at the state level, and respect for the mother tongue should be promoted across all fields.

Keywords: *language, Azerbaijani language, protection of language*

ARZU ƏSGƏROV

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
arzuesgerov594@gmail.com

NAXÇIVAN TURİZM SEKTORUNUN İNKİŞAFI

XÜLASƏ

Qədim Azərbaycan torpağı olan Naxçıvan Yer kürəsində həyatın başlandığı ilk insan məskənlərindən biridir. Azərbaycan xalqı bu diyarda qədim və zəngin mədəniyyət yaradıb. Naxçıvan, eyni zamanda dünyanın da ən qədim mədəniyyət mərkəzlərindəndir. Azərbaycanın digər bölgələri kimi, Qədim Şərq sivilizasiyaları ilə sıx bağlı olan Naxçıvan tarixi inkişafın gedişində dərin iz qoyub. Bu diyarda Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşıb. Naxçıvan ən qədim yaşayış məskənlərindən biri olmaqla bərabər, həm də tarixin demək olar ki, bütün dövrlərinə aid izləri özündə saxlayan zəngin diyardır. Burada qədim insanların yaşayış tərzini əks etdirən məkanlardan tutmuş orta əsrlərdə müharibələrin şahidi olmuş qalalara, müasir memarlıq nümunələri, türbələrə qədər çoxsaylı tarixi abidəyə rast gəlmək olar. Naxçıvanın hələ erkən dövrlərdən yaşayış məskəni kimi formalaşması, müxtəlif dövlətlərin paytaxtı və əsas şəhərlərindən biri olması burada mədəniyyətin, sənətkarlığın inkişafına da təkan vermişdir. Odur ki, burada qayaüstü təsvirlərdən memarlığa, xalçaçılığa, milli rəqslərə qədər mədəni irsin ən nəfis nümunələrinə rast gəlinir və uzaq keçmişə dayanan sənətkarlıq ənənələri bu gün də davam etdirilir.

Açar sözlər: *tarix, tələbat, inkişaf, formalaşma, statistika, turizm*

Giriş

Özünəməxsus iqlimi, coğrafi mövqeyi, mədəniyyəti, tarixi – memarlıq abidələri və təbiəti ilə ön plana çıxır. Bununla yanaşı, Naxçıvan, arxeoloji və tərəqqi edən bölgələri ilə də məşhurdur. Bu unikal şərait Naxçıvanı turizm mərkəzi halına gətirir və bir çox turistləri bu bölgəyə çəkir. Bəs Naxçıvan turizmi üçün tarixi və əhəmiyyətli turistik məkanlar hansılardır? Və onlar hansı kateqoriyalara ayrılır? Müalicə turizmi Duzdağ Müalicə Mərkəzi, Azərbaycanın Naxçıvan Muxtar Respublikası içində yerləşir və bölgədə sağlamlığın qorunması üçün əhəmiyyətli bir rolu ifa edir. Mərkəz, müasir tibbi texnologiyalara və peşəkar heyətə sahibdir. Naxçıvanın idarəetməsi, Duzdağ Müalicə Mərkəzi vasitəsilə əhalinin sağlamlığının təmininə və müalicə xidmətlərinə geniş mövcudluq və yüksək keyfiyyət təmin etməyə nail olmağı hədəfləyir. Mərkəzin əsas fəaliyyət sahələri arasında tibbi müayinələr, xüsusi xidmətlər, peşəkar konsultasiyalar və müalicə planlaması yer alır. Duzdağ Müalicə Mərkəzi, həm də ətraflı diaqnostika, laboratoriya tədqiqatları və tibbi avadanlıqla təchiz edilmişdir. Bu müalicə mərkəzinin mövcud imkanları və təchizatı ətrafında sosial və tibbi inkişafın dərinləşdirilməsi, əhalinin sağlamlığının artırılması və tibbi sahədə təcrübələrin artırılması üçün əhəmiyyətli bir resurs olduğunu söyləyə bilərik. Naxçıvanda yerləşən

Duzdağ müalicə kompleksində olan və duzdan hazırlanan suvenirlər gələn qonaqların maraqlarını cəlb etdikləri üçün buraya turist axını hər mövsümdə özünü göstərir. Burada turistlərə müxtəlif qonaqlama variantları təklif edilir. Otellərə və xidmət çeşidinə görə isə qiymətlər dəyişir. Qeyd etmək lazımdır ki, qiymətlər sezona uyğun təklif olunur. Hazırdakı qiymətlər 1 böyük və 1 uşaq üçün 7 gün 8 gecə 595 AZN-dir. Bu qiymətə isə hava limanı transferləri, Duzdağ oteldə qonaqlama, həkim müayinəsi, mağarada qonaqlama, 3 dəfə qidalanma və otel fəaliyyətlərindən yararlanmaq (SPA Fitness...) imkanları daxildir. 2 böyük və 1 uşaq üçün isə qiymət 840 AZN-ə qalxır". Tarixi – mədəni turizm Naxçıvanın turizm potensialından danışdıqda ilk başda onun özünəməxsus tarixi-mədəni irsi ön plana çıxır. Bu torpaqların tarixi ən azı 3000 il bundan əvvələ qayıdır.

Burada bir çox tarixi abidələr, məbədlər və memarlıq kompleksləri mövcuddur. Dünya memarlığının incisi hesab oluna biləcək tarixi memarlıq abidələrinə Yusif Küseyir oğlu türbələri, Naxçıvan qala abidəsi, Qarabağlar Memarlıq Kompleksi, "Xanəgah" Abidə Kompleksi və çox vaxt turistlərin axınına məruz qalan Möminə Xatun Türbəsini sadalamaq olar. Möminə Xatun türbəsi Azərbaycanın ən məşhur və müqəddəs strukturlarından biridir. Türbə heyranedici memarlıq quruluşuna malikdir. Səkkizguşəli günbəzlə bəzədilən bu memarlıq abidəsi üzərinə yerləşdirilən badam ağacı formasındakı iki minarə türbəyə özünəməxsus görkəm verir. Bu minarələr İran Azərbaycanının mədəniyyət və memarlığını Naxçıvan bölgəsinə daşıyan mühüm elementlərdir. Türbənin içində, mozaika ilə bəzədilmiş Möminə Xatunun türbəsi yerləşir. Gözəl naxış və rənglərlə işlənmiş mozaika İslam sənətinin mühüm nümunəsini təmsil edir. Bundan əlavə, türbənin içərisində ziyarətçilərə ibadət imkanı təklif edən yerlər də mövcuddur.

12-ci əsrdə Nizam əl-Mülkün hakimiyyəti dövründə yaşamış Möminə Xatun, Atabəy Şəmsəddin Eldənizin yoldaşı olmuşdur. Ölümündən sonra onun xatirəsini yaşatmaq və ehtiramla anmaq üçün bu məqbərə inşa edilmişdir. Bu bölgə tarix boyu müxtəlif sivilizasiyalara ev sahibliyi etmişdir və bu da Möminə Xatun türbəsi bu zəngin keçmişi əks etdirir.

Nəticədə Möminə Xatun türbəsi Azərbaycanın ən mühüm mədəni və dini tikililərindən biridir. İnanc turizmi baxımından da böyük əhəmiyyətə malik olan bu türbə, tarixi və mədəni irsimizin bir hissəsidir. Kənd-yaşıl turizmi Böyük şəhərlərdən və xaricdən gələn insanların sadə bir kənd evində istirahət etmək arzuları hər zaman olur. Kənd turizmi adlanan bu turizmin məhz yerləşmə obyekti kənd evləridir. Artıq insanlar şəhərin abhavasından əziyyət çəkib məhz bu kənd evlərinə üz tuturlar. Muxtar respublikanın mövqeyi, inzibati ərazisi bu baxımdan böyük potensiala malikdir. Bu potensialı artıran ən mühüm obyektlərdən biri Şahbuz rayonunun eyniadlı kəndində fəaliyyət göstərən Ağbulaq İstirahət Mərkəzidir. Bu istirahət mərkəzi: Azərbaycanın turizm güzgahındakı incilərdən biridir. Azərbaycanın təbiət baxımından zəngin ərazilərindən biri olan Ağbulaq, şəhərdən uzaq, təbii gözəllikləri ilə məşhur bir istirahət mərkəzidir. Şimalda yerləşən bu gözəl ərazi, təbiət dostları və səyahət sevərlər üçün ən maraqlı tətil mövsümlərindən birinə çevrilib. Ağbulaq İstirahət Mərkəzi şəhərin səs-küyündən uzaq və sakit bir mühitdir. Əyləncə və istirahət imkanları Ağbulaq İstirahət Mərkəzi ilə məhdud deyil. Burada çimərlik sahələri, piknik əraziləri, yürüş parkurları

və su əyləncələri üçün təyin olunmuş yerlər mövcuddur. Mərkəzdə təşkil edilən müxtəlif tədbirlər və festivallar, əyləncəli və maraqlı bir tətil keçirmək istəyənlər üçün ideal bir imkan təşkil edir. Ağbulaq İstirahət Mərkəzi, yerli və xarici turistlərin marağını cəlb etməkdədir və regionun turizm potensialını artırmağa nail olur. Bu təbii cənnət, sürətli şəhər tempindən qaçmaq və təbiətdən zövq almaq istəyənlər üçün mükəmməl bir tətil məkanı olaraq tanınmağa davam edir. Dini-ziyarət turizmi Naxçıvan, zəngin tarixi və mədəniyyəti ilə tanınan bir region olduğu üçün dini ziyarət turizminin də böyük potensialı var. Şəhərlərdə və ətraf ərazilərdə bir çox dini məkan və abidələr tapa bilmək mümkündür. Turizmin inkişafına təsir göstərən, mühüm faktorlardan olan dini ibadətgahlar və abidələr turistlərin maraq dairəsini əhatə edən məkanlardandır.

Naxçıvan Muxtar Respublikası öz dini ziyarətgahları ilə ön plana çıxır. Burada mövcud olan dini obyektlərdən ən mühümü isə müqəddəs Qurani Kərimin "Əl-Kəhf" surəsində haqqında bəhs edilən Əshabi-Kəhf ziyarətgahıdır. 2004-cü ildən "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi adı altında fəaliyyət göstərən ziyarətgahda ziyarətçilər üçün hər cür şərait yaradılmışdır. Hər il buraya on minlərlə insan ziyarətə gəlir. Əshabi-Kəhf ziyarətgahının tarixi miladi əsrin III-IV minilliyinə qədər uzanır. Bu ənənəvi məkan, müstəqil bir şəxsiyyət kimi, müxtəlif dövrlərdə müxtəlif mədəniyyətlər tərəfindən istifadə edilmişdir. Arxeoloji qazıntılar zamanı tapılan əsrlərlə əvvəlki abidələr və qəbir yerləri, Əshabi-Kəhf ziyarətgahının müxtəlif tarixi dövrlərdə əhəmiyyətli bir məkan olaraq fəaliyyət göstərdiyini təsdiqləyir. Ziyarətgahın əsas hissələrindən biri Əshabi-Kəhf mağarasıdır. Bu mağara, təqribən 300 metr uzunluğunda və müxtəlif bölmələrdən ibarətdir. Mağara, qarğıdalı və səki dağların altında yerləşir və insanların burada yaşamağa başladığı neolit dövründən bu günə qədər fəal olmuşdur. Əshabi-Kəhf mağarasının içində tapılan arxeoloji tədqiqat Nəticəsində, bu mağaranın təqribən 7000 il əvvəl insanların yaşadığı bir məkan olduğu müəyyənləşib. Əshabi-Kəhf ziyarətgahında yerləşən digər bir əsas abidə də Əshabi-Kəhf məscididir. Məscid, VII əsrdə tikilmişdir və müasir görünüşü ilə ziyarətçiləri gözləyən bir abidə kimi qarşılayır. Məscidin memarlığı, ƏshabiKəhf ziyarətgahının dini və mədəni ənənələrinin möhkəmlənməsində rol oynamışdır.

Aydın olur ki, Əshabi-Kəhf ziyarətgahı, Azərbaycanın və regionunun tarixi və mədəniyyət varlığı üçün əhəmiyyətli bir məkan olmağa davam edir. Ziyarətgah, təbii gözəllikləri, tarixi ənənələri və dini mədəniyyəti bir araya gətirərək turistlər və tədqiqatçılar üçün maraqlı bir təcrübə təmin edir. Zəngəzur dəhlizi, əsasən, iqtisadi, siyasi və mədəni sahələrdə bir birləşdirici və əlaqə yaratmaq üçün strateji bir mövqe əldə edir. Bu dəhlizin ətrafında tarix boyunca müxtəlif imperiyaların hakimiyyətində olmuşdur, amma Azərbaycanın müstəqil dövlət kimi birləşməsindəki rolu və strateji əhəmiyyəti daima öz əlamətlərini saxlamışdır. Naxçıvan Zəngəzur dəhlizi, regional əməkdaşlıq və əlaqələrin gücləndirilməsi üçün əhəmiyyətli bir potensiala sahibdir. Zəngəzur dəhlizi ilə birlikdə Qarabağın ərazisi, bölgədəki turizm potensialını bir araya gətirən əhəmiyyətli məkanlardır. Zəngəzur dəhlizi, Azərbaycan və Ermənistan arasında strateji bir əhəmiyyətə sahibdir və bu ərazidə turistlərə tarixi və təbii zənginliklər təklif edir. Qarabağ isə tarixi və mədəni güzgüsü ilə tanınan bir bölgədir. Bu iki ərazilərin birləşdirilməsi, Azərbaycan turizmi üçün tərəqqi yarada biləcək bir

hadisədir. Bu gün dünyada baş verən siyasi qalmaqallar, siyasi krizislər, müharibələr dünya turizmini ciddi təhdidlər qarşısında qoyub. Azərbaycanın 20 %-dən çox ərazisinin 30 illik işğalı dövründə də atəşkəs rejimi olmasına baxmayaraq, mütəmadi olaraq cəbhə boyu atəşkəsin pozulması Azərbaycana gələn turistləri narahat etməyə bilməzdi. Əlbəttə ki, bu başa düşülən idi. Artıq biz o günləri geridə qoyduq, Qarabağda 4 böyük beynəlxalq hava limanı tikildi. Bu aeroportlar Zəngilan, Qubadlı, Şuşa, Xankəndi, Laçın, Kəlbəcər, Xocalı və ətraf rayonlara qayıdacaq sakinlərə xidmət edəcək, eyni zamanda xarici turistlər üçün də Qarabağa səfər etmək daha əl çatan olacaq. Yaxın 5 ildə Qarabağ bölgəsində termal xarakterli sanatoriyaların tikilib istifadəyə verilməsini zəruri hesab edirəm. Çünki Qarabağın havası suyu müalicəvi əhəmiyyətli florası buna böyük imkan yaradır. Biz Qarabağ sanatoriyalarını beynəlxalq turizm sərgilərində böyük formatda sərgiləməli, reklam etməli və Qarabağı dünyaya şəfa ocağı kimi tanıtdırmalıyıq. Dağ xizək komplekslərinin də Kəlbəcərdə, Zəngilanda yaradılmasının böyük əhəmiyyəti ola bilər, çünki burada adı çəkilən rayonların dağ relyefləri də tam uyğun gəlir.

ƏDƏBİYYAT

1. Naxçıvan Muxtar Respublikası - 95. Naxçıvan: "Əcəmi" NPB
2. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, F.1. S.2
3. Hacıyev, İ., İsmayılov, B. Naxçıvan Muxtar Respublikası
4. Cabbarov, Ə. Turizm marşrutları və ekskursiya işinin təşkili
5. Cabbarov, Ə. Turizmin iqtisadi əsasları

ABSTRACT

Arzu Asgarov

DEVELOPMENT OF NAKHCHIVAN TOURISM SECTOR

Nakhchivan, the ancient land of Azerbaijan, is one of the first human settlements on Earth where life began. The Azerbaijani people created an ancient and rich culture in this land. Nakhchivan is also one of the oldest cultural centers in the world. Like other regions of Azerbaijan, Nakhchivan, which is closely connected with the civilizations of the Ancient East, has left a deep mark on the course of historical development. The rich historical, scientific and cultural heritage of the Azerbaijani people was formed in this land. Nakhchivan is not only one of the oldest settlements, but also a rich land that retains traces of almost all periods of history. Here, you can find numerous historical monuments, from places reflecting the lifestyle of ancient people to castles that witnessed wars in the Middle Ages, modern architectural examples, and tombs. The formation of Nakhchivan as a settlement from early times, and its being the capital and one of the main cities of various states, has also given impetus to the development of culture and craftsmanship here. Therefore, here, from rock carvings to architecture, carpet weaving, and national dances, one can find the most exquisite examples of cultural heritage, and artisanal traditions dating back to the distant past are continued today.

Keywords: *history, demand, development, formation, statistics, tourism*

MÖMÜNƏ İMANOVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
imanovamomune@gmail.com

NoSQL VƏ NewSQL VERİLƏNLƏR BAZALARININ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Müasir dövrdə etibarlı məlumat əldə etmək təşkilatların üzləşdiyi əsas problemlərdən biridir. Bu vəzifə ya vahid ümumi məlumat mənbəyinə, ya da müxtəlif mənbələrdən məlumat toplamaq üçün yaxşı təşkil edilmiş sistemə sürətli çıxış tələb edir. Sonuncu halda problem ondadır ki, informasiya mənbələrinin hər biri, adətən, orada saxlanılan yüksək ixtisaslaşdırılmış spesifik məlumatları əldə etməyə imkan verir və bu, Nəticədə bütövlükdə tələb olunan obyektin başa düşülməsinin itirilməsinə və ya informasiyanın təhrif edilməsinə səbəb olur. Məsələn, keyfiyyətsiz məlumat sinxronizasiyası. Buna görə də müxtəlif müstəqil mənbələrdən alınan məlumatların, xüsusən də mətn məlumatlarının birləşdirilməsi (konsolidasiyası) vəzifəsi aktuallaşır.

İnformasiya əsrində insan fəaliyyəti ilə davamlı olaraq müxtəlif məlumatlar hazırlanır və toplanır. İnsanlar və təşkilatlar gündəlik problemlərini həll etmək üçün müasir məlumatlara ehtiyac duyurlar. Toplanmış məlumatlar məlumat əldə etmək üçün istifadə olunur. Düzgün qərarlar qəbul etmək yeni və etibarlı məlumat tələb edir.

Verilənlər bazaları müasir kompüter sistemlərində məlumatların saxlanması və idarə edilməsi üçün istifadə olunur. Məlumat bazaları həyatımızın demək olar ki, bütün sahələrində iştirak edir: təhsil müəssisələrində, biznes və ya istehsalın idarə edilməsində, bank işində, elmi, mühəndislik və tibbi problemlərin həllində. Verilənlər bazaları böyük həcmli verilənləri mütəşəkkil və səmərəli şəkildə idarə etmək zərurətindən yaranmışdır.

Bu gün mövcud olan verilənlər bazaları müxtəlif növ verilənlər üçün (əlaqəli, əlaqəsiz, strukturlaşdırılmış, strukturlaşdırılmamış və s.) nəzərdə tutulmuşdur və hər zaman konkret tapşırığın şərtləri üçün öz fərdi, məntiqi arxitekturasına malikdir. Bütün müxtəlif verilənlər bazaları arasında NoSQL və NewSQL verilənlər bazalarının intensiv inkişafını görmək olar.

Açar sözlər: *sorğu, sistem, baza, struktur, verilən, sxem, yaddaş*

Giriş

2000-ci illərin əvvəllərindən web texnologiyalarının, sosial şəbəkələrin, mobil cihazların və Əşyaların İnternetinin inkişafı strukturlaşdırılmış, yarı strukturlaşdırılmış və strukturlaşdırılmamış məlumatların artmasına səbəb olmuşdur. Bu verilənlərlə işləyən proqramlar sorğuların işlənməsi sürətinin artması; əlavə resurslardan istifadə etmək imkanı; yüksək məlumat mövcudluğu; nasazlıqlara, aparat və proqram təminatı-

nın nasazlığına, hadisələrin yenilənməsinə qarşı müqavimət; əməliyyatların etibarlılığı; verilənlərin ardıcıllığını qorumaq və verilənlər bazası sxemini dəyişdirərkən xərcləri minimuma endirmək artan məlumat həcminə dərhal uyğunlaşmaq üçün verilənlər bazasının üfüqi miqyaslaşmasını tələb edir.

Əlaqəli verilənlər bazasında yuxarıda göstərilən tələblərə nail olmaq çox çətindir və çox vaxt qeyri-mümkündür. Birincisi, əlaqə sxeminin sərtliyi verilənlərin transformasiyasına maneədir və buna görə də dinamik və ya tez-tez dəyişən böyük verilənlərin işlənməsi ssenariləri olan tətbiqlərin tələblərinə cavab verə bilməz. İkincisi, əlaqəli verilənlər bazasını miqyaslaşdırmaq mövcud olanları əvəz etmək üçün yeni, daha güclü müstəqil serverlərin quraşdırılmasını tələb edir. Bu, hər dəfə yeni serverə köçürüldükdə sistemin əlçatmazlığı və paylanmış normallaşdırılmış məlumatların uzlaşdırılmasında çətinliklərlə Nəticələnən bahalı prosesdir. Bundan əlavə, əlaqəli verilənlər bazasında dəstəklənən ACID (Atomicity, Consistency, Isolation, Durability) əməliyyatları səbəbindən mövcudluq və məhsuldarlıqla bağlı problemlər olur. Bu ƏVB problemlərinin həlli məlumatların əlçatanlığını və miqyasını yaxşılaşdırmaq məqsədi daşıyan NoSQL adlanan qeyri-relyasion (qeyri-əlaqəli) verilənlər bazası adlanan yeni nəsil verilənlər bazalarının inkişafına gətirib çıxardı.

NoSQL, əlaqəli verilənlər bazasına xas olan məlumatların saxlanması və istifadəsində məhdudiyyətlərdən xilas olmağa imkan verən məlumatların təşkilinə yanaşmadır. Strukturlaşdırılmamış yanaşmadan istifadə edən NoSQL verilənlər bazaları verilənləri emal etmək üçün bir çox səmərəli yollar təklif edir.

SQL və NoSQL-in müqayisəsi:

✓ məlumatların saxlanmasının strukturu və metodu: əlaqəli verilənlər bazası əvvəlcədən müəyyən edilmiş məlumat saxlama strukturunu tələb edir, NoSQL verilənlər bazası belə məhdudiyyətlər qoymur;

✓ sorğular: lisenziyadan asılı olmayaraq, əlaqəli VBİS-lər vahid SQL dilindən istifadə edir, hər bir NoSQL VBİS verilənlərlə işləmək üçün öz üsulunu həyata keçirir;

✓ miqyaslılıq: əlaqəli və NoSQL verilənlər bazaları asanlıqla şaquli olaraq miqyaslanır (məsələn, sistem resurslarını artırmaqla). Bununla belə, NoSQL VBİS-ləri üfüqi miqyasda daha asan yollar təqdim edir (məsələn, bir neçə maşından ibarət klaster yaratmaq).

✓ etibarlılıq: əlaqəli VBİS-lər ACID xassələrini dəstəkləyir, buna görə də NoSQL-dən daha etibarlı və daha yaxşı məlumatların bütövlüyünü təmin edirlər. Digər tərəfdən, NoSQL VBİS-lər, ACID xüsusiyyətlərindən imtina edərək, səmərəliliyi və miqyaslılığı artırır;

✓ texniki dəstək: əlaqəli verilənlər bazası üçün istehsalçılardan və ya istifadəçi qrupundan dəstək almaq asandır, çünki əlaqəli verilənlər bazaları daha uzun inkişaf tarixinə və daha çox istifadəçi əhatəsinə malikdir;

✓ saxlanma və mürəkkəb verilənlər strukturlarına giriş: əlaqəli verilənlər bazaları əvvəlcə mürəkkəb çox əlaqəli verilənlərin emalı üçün nəzərdə tutulmuşdu və buna görə də bu baxımdan NoSQL həllərindən üstündür;

✓ funksionallıq: əlaqəli verilənlər bazaları çoxlu sayda müxtəlif funksiyaları yerinə yetirir və məlumatların ciddi ardıcıllığını təmin edir. Bununla belə, bir çox

tətbiqlər üçün bu cür funksiyalar dəsti, eləcə də ACID tələblərinə cavab vermək lazım deyil.

NoSQL təsnifatı onların istifadə etdikləri məlumat saxlama mexanizminin növünə əsaslanır. Bu baxımdan NoSQL verilənlər bazalarının dörd əsas növü mövcuddur: açar-dəyər, açar-sənəd, sütun ailəsi və qrafik verilənlər bazası.

NoSQL açar-dəyər verilənlər bazası NoSQL verilənlər bazalarının ən sadə növlərindən biridir, çünki verilənlər sadəcə olaraq açar-dəyər cütləri ilə təmsil olunur, burada unikal açarlar verilənlər bazasında müəyyən bir dəyərə işarə edir. Bu struktur heş-cədvəlinə bənzəyir. Əsas məşhur NoSQL açar-dəyər verilənlər bazalarına Riak, Redis, Berkeley DB daxildir.

NoSQL açar-sənəd verilənlər bazası açar-dəyər strukturuna əsaslanır, lakin məlumatları JSON, BSON, XML və YAML kimi sənədlərdə saxlayır. Bu tip verilənlər bazasında sənədlər əsas anlayışdır. Bu sənədlərdə çoxlu müxtəlif növ məlumat və digər subsənədlər ola bilər. MongoDB, CouchDB, TerraStore, OrientDB, RavenDB ən məşhur açar-sənəd NoSQL verilənlər bazalarıdır.

Rank			DBMS	Database Model	Score		
Aug 2021	Jul 2021	Aug 2020			Aug 2021	Jul 2021	Aug 2020
1.	1.	1.	Oracle	Relational, Multi-model	1269.26	+6.59	-85.90
2.	2.	2.	MySQL	Relational, Multi-model	1238.22	+9.84	-23.36
3.	3.	3.	Microsoft SQL Server	Relational, Multi-model	973.35	-8.61	-102.53
4.	4.	4.	PostgreSQL	Relational, Multi-model	577.05	-0.10	+40.28
5.	5.	5.	MongoDB	Document, Multi-model	496.54	+0.38	+52.98
6.	6.	↑ 7.	Redis	Key-value, Multi-model	169.88	+1.58	+17.01
7.	7.	↓ 6.	IBM Db2	Relational, Multi-model	165.46	+0.31	+3.01
8.	8.	8.	Elasticsearch	Search engine, Multi-model	157.08	+1.32	+4.76
9.	9.	9.	SQLite	Relational	129.81	-0.39	+3.00
10.	↑ 11.	10.	Microsoft Access	Relational	114.84	+1.39	-5.02
11.	↓ 10.	11.	Cassandra	Wide column	113.66	-0.35	-6.18
12.	12.	12.	MariaDB	Relational, Multi-model	98.98	+0.99	+8.06
13.	13.	13.	Splunk	Search engine	90.60	+0.55	+0.69
14.	14.	↑ 15.	Hive	Relational	83.93	+1.26	+8.64
15.	15.	↑ 17.	Microsoft Azure SQL Database	Relational, Multi-model	75.15	-0.06	+18.31
16.	16.	16.	Amazon DynamoDB	Multi-model	74.90	-0.30	+10.15
17.	17.	↓ 14.	Teradata	Relational, Multi-model	68.82	-0.13	-7.96
18.	18.	↑ 21.	Neo4j	Graph	56.95	-0.21	+6.77

Şəkil 1. *Verilənlər bazası idarəetmə sistemlərinin reytinqi*

Şəkil 1-də Verilənlər bazası idarəetmə sistemlərinin reytinqi verilmişdir. Reytinq göstərir ki, əlaqəli (relyasiya) verilənlər bazası (Oracle, MySQL, SQL server) ilə yanaşı, ən populyar iyirmi ilk verilənlər bazasına MongoDB, Cassandra kimi NoSQL verilənlər bazaları daxildir.

Sütun ailəsi NoSQL verilənlər bazaları: hər bir sətirdə bir çox sütundan ibarət olan və hər sütunun açar-dəyər cütü olduğu məlumat modelindən istifadə edin. Hər sətirdəki

sütunların sayı fərqli ola bilər (Apte və b., 2013, s.83). Sütunlu verilənlər bazalarına misal olaraq Cassandra, HBase, Hypertable və Amazon DynamoDB daxildir.

NoSQL qrafik verilənlər bazaları qrafik modelindən istifadə edir, burada kənarlar və qovşaqlar verilənlər bazasındakı obyektlər arasındakı əlaqələri təmsil edir. Belə verilənlər bazalarına nümunələr Neo4j, Infinite Graph, OrientDB və ya FlockDB-dir (Mosin, Zykin, 2015, s.248).

NewSQL, NoSQL-dən yeni paylanmış sistem yanaşmalarını götürən və əlaqəli məlumat təqdimetmə modelini və SQL sorğu dilini geridə qoyan verilənlər bazasıdır. Başqa sözlə desək, NewSQL SQL və NoSQL-in üstünlüklərinin effektiv birləşməsidir (Pavlo, Aslett, 2016, s.45).

NewSQL Xüsusiyyətləri:

- ✓ SQL verilənlərlə işləmək üçün əsas mexanizm kimi;
- ✓ əməliyyatların etibarlılığı;
- ✓ real vaxtda bloklama yoxdur;
- ✓ ənənəvi əlaqəli verilənlər bazası idarəetmə sistemi;
- ✓ paylanmış arxitektura;
- ✓ RAM-da (Random Access Memory) verilənlərlə işləmək;
- ✓ "Paylaşılan-heç bir şey" arxitekturası: Bu, hər bir yeniləmə sorğusunun bir qovşaq üzərində yerinə yetirildiyi paylanmış hesablama arxitekturasıdır. Bu, müxtəlif sorğulardan istifadə edərək eyni məlumatları eyni vaxtda yeniləməyə imkan verir.

Mütəxəssislər NewSQL kateqoriyasında informasiya verilənlərinin saxlanması və emalı sahəsində bütün effektiv həlləri bir neçə sinfə bölürlər.

1. NewSQL kiçik ölçülü klasterlərdə standart SQL verilənlər bazalarından - Oracle RAC, MySQL Cluster və s.-də istifadə prosesini sadələşdirən təhlükəsiz və etibarlı İT üsullarıdır. Bu cür həllər ara proqramda işləyir - sorğuların verilənlər bazası arasında arakəsmələr üzərində paylanmasına cavabdeh olan unikal ara qatdır.
2. NewSQL hazırda istifadə olunan verilənlər bazası üçün yaradılmış informasiya məlumatlarının emalı və saxlanması üçün mexanizmlərin innovativ modelidir. Bu kateqoriyada ən populyar mexanizm fraktal iyerarxiya əlaqəli indekslərlə işləyən, konfiqurasiyası asan və yüksək məhsuldarlığa malik olan TokuDB-dir.
3. NewSQL, SQL ilə asanlıqla qarşılıqlı əlaqədə ola bilən, demək olar ki, sıfırdan yaradılmış VBİS-dir. Fakt budur ki, bir çox müasir NewSQL verilənlər bazası yaddaşdaxili verilənlər bazalarıdır, onların əsas məlumat saxlama yeri RAM-da yerləşir.

Vacib iş məlumatlarının diskdə saxlanması bütün mövcud əlaqəli verilənlər bazalarında bir qüsurdur. Sürətli məlumat emalı yalnız bütün məlumatlar RAM-da saxlandıqda mümkündür. Maşındakı RAM miqdarı nisbətən kiçik olsa belə, məlumatların işlənməsi sürətinin itirilməsi bir neçə yüz qovşaqdan ibarət klasterin yığılması ilə asanlıqla kompensasiya edilə bilər.

Qeyd etmək lazımdır ki, məlumatların əməli yaddaşda saxlanması enerjinin gözlənilmədən söndürülməsi dəyərli məlumatların itirilməsinə səbəb olmur, çünki bütün verilənlər bazaları yerinə yetirilən əməliyyatları qeyd edir və məlumatların anlıq görüntülərini mütəmadi olaraq diskdə saxlayır.

Bu yaxınlarda bir çox NewSQL tərtibatçıları səylərini buludlarda və virtual mühitlərdə VBİS-lərin yerləşdirilməsi və idarə edilməsi prosesinin sadələşdirilməsinə yönəltməyə başladılar. Məsələn, NuoDB klaster verilənlər bazası idarəetmə sistemlərinə nəzarət və monitorinq üçün nəzərdə tutulmuş xüsusi web interfeysdir.

Strukturlaşdırılmış məlumatlarla işləmək üçün universal platformaların yaradılmasına çox diqqət yetirilir. Burada biz xüsusilə FoundationDB, çeşidlənmiş açar-dəyər cütlərini saxlayan sərbəst paylanmış NoSQL VBİS-ni vurğulamalıyıq.

Beləliklə, yalnız həm NoSQL, həm də SQL ola bilən VBİS-i NewSQL həlli adlandırmaq olar. Digər variantlar yalnız müvəqqəti əvəzedicilər kimi nəzərə alınmalıdır.

NewSQL verilənlər bazası nümunələri NuoDB, ClustrixDB, Voltdb, Xeround, MemSQL-dir.

Nəticə

Əlaqəli verilənlər bazasının NoSQL-ə keçid prosesini iki mərhələyə bölmək olar:

1) Əlaqəli verilənlər bazası strukturunun dəyər açarı, sənəd açarı, sütun ailəsi və ya qrafik verilənlər bazası kimi NoSQL verilənlər bazası formatına tərcüməsi (translyasiyası). Əlaqəli verilənlər bazalarını NoSQL formatına çevirmək üçün ən məşhur yanaşmalara aşağıdakılar daxildir: verilənlər bazası arxitekturasının dəyişdirilməsi üçün qaydaların qurulması və əlaqəli cəbri metodlara əsaslanan tərcümə. Məsələn, Y.Gu, S.Shen, J.Wang, J.Kim əlaqəli verilənlər bazası sxeminin normallaşdırılması nəzəriyyəsinin ənənəvi qaydalarını (normal forma teoremləri: ikinci və üçüncü normal formalar (2NF, 3NF) və Boyce-Codd normal forması (BCNF)) inkişaf etdirmək üçün tətbiq edirlər (Gu və b., 2015, s.158).

2) Sorğuların əlaqəli verilənlər bazası formatından NoSQL verilənlər bazası formatına tərcüməsi. Əksər işlərdə sorğunun tərcüməsi prosesi NoSQL verilənlər bazası üçün, verilənləri emal etmək üçün SQL əmrlərini yerinə yetirən ara proqram təminatının inkişafına yönəldilmişdir.

ƏDƏBİYYAT

1. İsayev, M., Mahmudbəyli, L., Qurbanov, F. İnformasiya sistemləri və verilənlər bazası. – Bakı: – 2019. – 162 s.
2. Məhərrəmov. Z.T. Verilənlər bazası. – Bakı: – 2015
3. Кириллов, В.В., Громов, Г.Ю. Введение в реляционные базы данных. Санкт-Петербург: СПб.: БХВ-Петербург, – 2009. – 464 с.
4. Application of NoSQL database MongoDB / Y.Gu, S. Shen, J.Wang, J.Kim // 2015 IEEE International Conference on Consumer Electronics. Taiwan. IEEE, – 2015. – Pp.158-159
5. Apte, T., Ingle, M., Goyal, A.K. Column-Store Databases: Approaches and Opti mization Techniques // International Journal of Data Mining and Knowledge Management Process. – 2013. – Vol.3. – Pp.83-89.

6. Mosin, S.V., Zykin, S.V. Truth space method for caching database queries // Моделирование и анализ информатиционных систем. – 2015. – Vol.22, no.2. – Pp.248-258.
7. Pavlo, A., Aslett, M. What's Really New with NewSQL? // SIGMOD Rec. – 2016. – Vol.45, no.2. – Pp.45-55.

ABSTRACT

Momuna Imanova

FEATURES OF NoSQL AND NewSQL DATABASES

Obtaining reliable information is one of the major challenges faced by organizations nowadays. This task requires quick access to either a single common data source or a well-organized system for collecting data from various sources. In the latter case, the problem is that each source of information usually allows one to obtain highly specialized specific information stored in it, which ultimately leads to a loss of understanding of the sought object as a whole or to distortion of information. For example, poor data synchronization. Therefore, the task of combining (consolidating) information from various independent sources, especially text data, becomes urgent.

In the information age, human activity is constantly preparing and collecting various types of information. People and organizations need up-to-date information to solve their daily problems. The information collected is used to obtain information. Making the right decisions querys new and reliable information.

Databases are used to store and manage data in modern computer systems. Databases are involved in almost all spheres of our life: in educational institutions, in business or production management, in the banking sector, in solving scientific, engineering and medical problems. Databases arose out of the need to manage large volumes of data in an organized and efficient manner.

The databases available today are designed for different types of data (relational, non-relational, structured, unstructured, etc.) and always have their own individual, logical architecture for the conditions of a specific task. Among the many different databases, you can see the intensive development of NoSQL and NewSQL databases.

Keywords*: query, system, database, structure, data, scheme, memory*

РЕЗЮМЕ

Момуна Иманова

ОСОБЕННОСТИ БАЗ ДАННЫХ NoSQL И NewSQL

Получение достоверной информации является одной из основных проблем, с которыми сталкиваются организации в наше время. Эта задача требует быстрого доступа либо к единому общему источнику данных, либо к хорошо организованной системе сбора данных из различных источников. В последнем случае проблема заключается в том, что каждый из источников информации обычно позволяет получить хранящуюся в нем узкоспециализированную специфическую информацию, что в конечном итоге приводит к потере понимания искомого объекта в целом или к искажению информации. Например, плохая синхронизация данных. Поэтому актуальной становится задача объединения (консолидации) информации из разных независимых источников, особенно текстовых данных.

В век информации человеческая деятельность постоянно подготавливает и собирает различную информацию. Людям и организациям нужна актуальная информация для решения своих повседневных проблем. Собранная информация используется для получения информации. Для принятия правильных решений требуется новая и достоверная информация.

Базы данных используются для хранения данных и управления ими в современных компьютерных системах. Базы данных задействованы практически во всех сферах нашей жизни: в образовательных учреждениях, в управлении бизнесом или производством, в банковской сфере, при решении научных, инженерных и медицинских задач. Базы данных возникли из-за необходимости организованно и эффективно управлять большими объемами данных.

Доступные сегодня базы данных рассчитаны на разные типы данных (реляционные, нереляционные, структурированные, неструктурированные и т.д.) и всегда имеют свою индивидуальную, логическую архитектуру для условий конкретной задачи. Среди множества различных баз данных можно увидеть интенсивное развитие баз данных NoSQL и NewSQL.

***Ключевые слова**: запрос, система, база, структура, данные, схема, память*

YAQUB HÜSEYNOV

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
yaqubhuseynov977@gmail.com

NAXÇIVANDA TƏNƏZZÜLƏ UĞRAYAN İQTİSADİYYATIN İNKİŞAFI

XÜLASƏ

Bu məqalədə istər XX əsrin əvvəlləri, istərsə də XX əsrin sonlarında Naxçıvanda baş verən iqtisadi-siyasi vəziyyət haqqında məlumat verilmişdir. Bildiyimiz kimi, Azərbaycan SSRİ tərəfindən işğal olunduqdan sonra rus məmurlarının özbaşınalığı ölkədə bir sıra geriləmələrin yaranmasına gətirib çıxarmışdır. Tənəzzülə uğrayan iqtisadiyyatın dirçəldilməsi üçün, əlbəttə, mühüm addımlar atılmalı idi. Ümummilli Lider Heydər Əliyevin təkidi və səyi Nəticəsində Azərbaycanda tənəzzülə uğrayan iqtisadiyyat dirçəlmişdir. Türkiyə Cümhuriyyəti ilə əlaqələrin gücləndirilməsi, o cümlədən aparılan geniş miqyaslı tədbirlər, Ümid körpüsünün açılması, gənclərin təhsil alması və s. Naxçıvanın inkişafına və əhatə dairəsinin genişlənməsinə gətirib çıxarmışdır. Azərbaycanın müasir dövrünə nəzər salsaq, onun iqtisadi cəhətdən güclə-ndiyini və inkişafında uğurlu siyasətin aparıldığını görə bilərik. İqtisadi göstəricilə-rin günü-gündən artdığı Odlar Yurdunda baş verən sosial hadisələr haqqında da məqalədə geniş məlumat verilmişdir. Azərbaycan Respublikasının ayrılmaz tərkib his-səsi olan Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi vəziyyəti ilə fərqlənir. Sevin-dirici haldır ki, müasir dövrdə Naxçıvan sosial-iqtisadi cəhətdən inkişaf edir

Açar sözlər: *anklav, Ümid körpüsü, siyasi vəziyyət, Zəngəzur, Kərki*

Giriş

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi vəziyyəti ilə fərqlənir. Naxçıvan Muxtar Respublikası Türkiyə Cümhuriyyəti Ermənistan və İran İslam Respublikası ilə həmsərhəddir. Azərbaycanın qədim torpaqlarından və mədəniyyət mərkəzlərindən biri olan Naxçıvana 1900-1905-ci illərdə ermənilər tərəfindən bir sıra basqınlar edilmiş və soyqırımlar törədilmişdir. M.M.Sultanovun "Qanlı illər" adlı kitabında bu fakt aydın göstərilməkdədir. Naxçıvanın bölgələrində amansızca basqınlar edilmiş və bir sıra qətliamlar törədilmişdir.

Tarixə nəzər salsaq, görərik ki, 1920-1924-cü illərdə aparılan ilk sovetləşmə dövründə kommunist-erməni birləşmələrindən ibarət, rəhbər mövqe tutmuş dövlət qüvvələri ilə gərgin mübarizə Nəticəsində ətrafındakı Azərbaycan torpaqlarından təcrid edilərək anklav ərazi şəklinə salınması cəhdlərinə baxmayaraq, Azərbaycan SSR-in tərkibində muxtar respublika kimi saxlanmışdır.

Azərbaycan SSRİ-nin tərkibinə daxil olduqdan sonra, əlbəttə, bu mövcud vəziyyət Naxçıvandan da yan keçmədi. Bunların Nəticəsində uzun illərdən bəri Sovetlər Birliyi tərkibində vahid nəqliyyat-kommunikasiya və təsərrüfat sistemi ilə bir-birinə bağlı olan Cənubi Qafqaz ölkələri arasında blokada yarandı və bir sıra iqtisadi çətinliklər əmələ gəldi. Belə ki, Naxçıvan Muxtar Respublikasını Azərbaycanla birləşdirən nəqliyyat-kommunikasiya sistemləri - dəmir və avtomobil yolları, qaz kəməri, elektrik ötürücü xətləri Ermənistanın regionda apardığı işğalçılıq siyasəti Nəticəsində blokadaya alınmışdır. Nəticədə Naxçıvanın iqtisadiyyatı 1990-cı illərin əvvəllərində Azərbaycanın digər regionları ilə müqayisədə daha ağır vəziyyətə düşmüşdü.

XX əsrin sonlarında Naxçıvanda iqtisadi-siyasi vəziyyət

1989-cu il dekabrın axırlarında Naxçıvan Araz boyu sərhəd qurğularının dağıdılması tarixə həmrəylik günü adı altında düşmüşdür. Əlbəttə ki, bu şanlı hadisə tarixdə dərin iz buraxmışdır. Tarixə nəzər salsaq, görə bilərik ki, Naxçıvanın geniş strateji mövqeyə malik ərazisi olan Kərki 1990-cı ildə ermənilər tərəfindən işğal olunmuşdur. Yaxınlıqdakı yaşayış məntəqələrinin təhlükəsizliyi və təbii ki, Ermənistanın cənubunun logistik təminatı da bu kənddən asılıdır. Əslində, bu kənd Naxçıvanla həmsərhəd olan strateji cəhətdən əhəmiyyətli kənddir. Naxçıvanın didərgin düşmüş əhalisini məskunlaşdırmaq üçün Kəngərli rayonunda yeni qəsəbə salınmışdır. Məcburi köçkünlər Yeni Kərki kəndində məskunlaşmışdır.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının erməni təcavüzü Nəticəsində ölkənin əsas ərazi hissəsindən təcrid olunması ilə bağlı yaranan problemləri aradan qaldırmaq və mövcud blokada şəraitini yarmaq üçün 1991-ci il sentyabr ayının 3-dən Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədr seçilərək rəhbərlik edən Ümummilli Liderimiz Heydər Əliyev qonşu Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə qarşılıqlı əlaqələr qurulması istiqamətində məqsədyönlü addımlar atdı. Heydər Əliyev tərəfindən atılan bu addımın digər məqsədi xarici ticarət əlaqələri formalaşdırmaqla muxtar respublika iqtisadiyyatının, o cümlədən milli iqtisadiyyatın gələcək optimal inkişafını təmin etmək idi. Muxtar respublikanın ən ağır dövründə Ümummilli Liderimiz Heydər Əliyevin səyi ilə 1991-ci ilin 29 oktyabrında Araz çayı üzərində Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələrini birləşdirən körpünün açılışı həyata keçirilmişdir. 1992-ci ilin 28 mayında Naxçıvanla Türkiyə arasında Araz çayı üzərində tikilmiş "Ümid" körpüsünün rəsmi açılışı olmuşdur.

İqtisadiyyatın canlanması və atılan mühüm addımlar

Muxtar respublikanın düşdüyü iqtisadi çətinlikləri aradan qaldırmaq üçün Ümummilli Liderimiz Heydər Əliyev 1992-ci ilin 22 martında Türkiyə Cümhuriyyətinə işgüzar səfər etmiş, Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl ilə aparılan görüşlər Nəticəsində Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsi barədə və hər il 100 tələbənin Türkiyənin müxtəlif universitetlərində təhsil almasını nəzərdə tutan birgə əməkdaşlıq protokolu imzalanmışdır. Qeyd edək ki, muxtar respublikanın ən ağır dövründə belə Ümummilli Liderimiz Heydər Əliyev müasir idarəçilik təcrübəsi qazanacaq yerli kadrların hazırlanmasına xüsusi diqqət yetirmişdir. Bu dövrdə 1992-ci ilin 22-26 avqustunda Ulu Öndər Heydər Əliyev İran İslam Respublikasına səfər etmiş, ali dini lider Ayətulla Xamneyi və İran İslam

Respublikasının prezidenti Əli Əkbər Rəfsəncani və digər rəsmi şəxslərlə görüşmüş, Naxçıvan Muxtar Respublikası ilə İran islam Respublikası arasında əməkdaşlığa dair protokollar imzalanmışdır. İmzalanmış əməkdaşlıq protokollarına əsasən Naxçıvan Muxtar Respublikasına 40 meqavata qədər elektrik enerjisi verilişi razılaşdırılmış, Bakı və Naxçıvan arasında gediş-gəlişi asanlaşdırmaq üçün Arazboyu qısa məsafədə İran İslam Respublikası ərazisindən keçən yol istismara verilmiş, muxtar respublikada kənd təsərrüfatı istehsalı üçün lazım olan toxumluq taxıl və kartof alınmış, 1992-ci il avqust ayının 24-də bağlanan müqaviləyə görə istehsal gücü 60 milyon ədəd olan kərpic istehsal edən zavodun, Naxçıvan şəhərində plastik qablar, xına sexi, Naxçıvan alt trikotaj fabriki və xalçaçılıq kombinatının fəaliyyəti üçün lazımi vəsait ayrılmışdır. 1992-ci ildə Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə bağlanmış əməkdaşlıq müqavilələri əsasında Sədərək, Culfa və Şahtaxtı keçid məntəqələrinin yaradılması muxtar respublikanın düşdüyü blokada şəraitinin yarılması, başqa sözlə desək, blokadanın yumşaldılması və sərhədyanı ticarətin genişləndirilməsi istiqamətində atılmış ardıcıl tədbirlərdən biri idi. Qeyd edək ki, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə yaradılan qarşılıqlı iqtisadi əlaqələr müstəqilliyin ilk illərində idxal üzərində qurulsa da, sonralar bu əlaqələr həm idxal, həm də ixrac əməliyyatlarının həyata keçirilməsi istiqamətində davam etdirilməkdə idi. Bu əməkdaşlıq müqavilələrinin geostrateji əhəmiyyəti Azərbaycan Respublikasının quru yolla Türkiyə və Avropaya bilavasitə çıxışını təmin etməkdən və iqtisadi inteqrasiyanı genişləndirməkdən ibarət idi.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Naxçıvan bütün çətinliklərə baxmayaraq, yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ötən əsrin 90-cı illərində muxtar respublikanın ən böyük problemi onun təhlükəsizliyi ilə bağlı idi. Həmin dövrdə Ulu Öndər Heydər Əliyevin nüfuzu və Naxçıvanlıların onun ətrafında birləşməsi Nəticəsində qədim diyarın ərazi bütövlüyü qorunub saxlanılmışdır.

ƏDƏBİYYAT

1. Süleymanov, N. İqtisadi tarix. Bakı:1999
2. Hacıyev, İ., Məmmədov, Ş. Naxçıvan və naxçıvanlılar. Bakı: 2001
3. XX əsr Azərbaycan tarixi. II cild. Bakı: 2009
4. Azərbaycan tarixində Naxçıvan (tarixi oçerkləri) Bakı: 1996
5. Şahverdiyev, Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: 2008
6. Azərbaycan tarixi 7 cilddə. IV cild. Bakı: 2000
7. Bağırov, M.S., Mahmudov, C.İ. Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı: problemlər və həlli yolları. Naxçıvan: "Əcəmi" NPB, 2017
8. Əhmədov, N.H. Naxçıvan Muxtar Respublikasının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Naxçıvan: Sabah, 2008.
9. Əhmədov, N.H. Azərbaycanda turizmin inkişafı və onun Regional problemləri (monoqrafiya). Naxçıvan: "Əcəmi" NPB, 2020.

ABSTRACT

This article provides information about the economic and political situation in Nakhchivan at the beginning of the 20th century and at the end of the 20th century. As we know, after the occupation of Azerbaijan by the USSR, the arbitrariness of the Russian officials led to a number of setbacks in the country. Of course, important steps had to be taken to revive the declining economy. As a result of the insistence and efforts of national leader Heydar Aliyev, the declining economy of Azerbaijan has been revived. Strengthening of relations with the Republic of Turkey, including large-scale measures, opening of the Bridge of Hope, education of young people, etc. have led to the development of Nakhchivan and expansion of its scope. If we look at the modern era of Azerbaijan, we can see that it has become economically stronger and a successful policy has been implemented in its development. The article also provides extensive information about the social events in Odlar Yurdun, where economic indicators are increasing day by day. The Nakhchivan Autonomous Republic, which is an inseparable part of the Republic of Azerbaijan, differs in its socio-economic situation. It is gratifying that in modern times, Nakhchivan is developing socio-economically.

Keywords: *enclave, Bridge of Hope, political situation, Zangezur, Karki*

AYSEL SEYİDLİ

Naxçıvan Dövlət Universitetinin
nəzdində Naxçıvan Dövlət Texniki Kolleci
ayselseyidli83@gmail.com

NAXÇIVANIN 100 İLLİK AZADLIQ MÜBARİZƏSİ VƏ SON İLLƏR BURADA KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI

XÜLASƏ

Məqalədə Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə əlaqədar olaraq, muxtariyyətin yaranma səbəbləri və bunun üçün yaranmış zəruriyyət qeyd olunmuşdur. Hələ 1826-1828-ci illərdə Rusiya-Qacar müharibəsi dövründə baş vermiş tarixi hadisələr nəzərdən keçirilmiş, bu dövrdə Naxçıvanın işğal edilməsi diqqətə çatdırılmışdır. O dövrdə İran və Türkiyədən erməni ailələrinin Naxçıvana köçürülərək burada demoqrafik quruluşun pozulması və onun mənfi Nəticələri araşdırılmışdır.

1849-cu ildə Naxçıvan mahalının İrəvan quberniyasının tabeliyinə verilməsinin ədalətsiz bir siyasət olması diqqətə çatdırılmışdır.

1917-ci ildə çar hakimiyyətinin devrilməsi ilə əlaqədar ikihakimiyyətliliyin yaranması və bundan istifadə edən mənfur erməni daşnaklarının Naxçıvanda qırğınlar törətməsi, mahalı zəbt etməyə cəhd etmələri qeyd edilmişdir.

1918-ci ildə Naxçıvanda Araz-Türk Respublikasının yaranması və sonrakı dövrlərdə respublikanın devrilmə səbəbləri göstərilmişdir.

1920-ci ildə Azərbaycan SSR-nin yaranması, Zəngəzur mahalının Ermənistana birləşdirilməsi və Naxçıvanda muxtariyyətin yaradılmasına olan zərurət işıqlandırılmışdır.

Açar sözlər: *Naxçıvan, erməni, daşnak, muxtariyyət, mahal, çar rusiyası, Araz-Türk Respublikası*

Giriş

Bu günlərdə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyi təntənəli surətdə qeyd olunmaqdadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü ilin 30 dekabr tarixində imzaladığı Sərəncama uyğun olaraq, muxtar respublikanın 100 illik tarixi ölkəmizin hər bir guşəsində qeyd edilir.

Naxçıvan Muxtar Respublikasının ərazisi hələ çox qədim zamanlardan Azərbaycan Respublikasının ayrılmaz hissəsi olmuşdur. Lakin qədim yurdumuz öz əsrarəngiz təbiəti, təbii sərvətləri ilə əlaqədar tarix boyu xarici işğaslçıların təsirinə və hücumlarına zaman-zaman məruz qalmışdır. Belə tarixi hadisələrdən biri də 1826-1828-ci illərdə Rusiya-Qacar müharibəsi dövründə baş vermişdir. Belə ki, bu müharibə zamanı Naxçıvan rus qoşunlarının işğalına məruz qalmış, Türkmənçay müqaviləsinə əsasən Naxçıvan xanlığının ərazisi Çar Rusiyasına tabe edilmişdir. Bu işğaldan sonra çar hökumətinin mənfur siyasəti Nəticəsində İrandan və Türkiyədən 10 minlərlə erməni ailəsi Naxçıvana köçürülərək burada demoqrafik quruluşu pozmaqla gələcək

nəsillər üçün bir münaqişə zonası yaradılmışdır ki, bunu Çar Rusiyasının uzunmüddətli siyasəti adlandırmaqda yanılmarıq. Bundan sonra Naxçıvan və İrəvan xanlıqları ərazisində qondarma Ermənistan vilayəti yaradıldı, Naxçıvan diyarı Gürcüstan-İmeretiya quberniyasının tərkibində Naxçıvan qəzası kimi təşkil edildi və 1849-cu ildən isə İrəvan quberniyasının tərkibinə verildi.

1917-ci ilin fevral ayında Rusiyada çar hakimiyyəti devrildikdən sonra imperiyanın bəzi əyalətlərində olduğu kimi, Naxçıvanda da ikihakimiyyətlilik meydana gəlmişdir. Naxçıvanda yerli hakimiyyət orqanlarının - qəza və kənd ictimai təşkilatları icraiyyə komitələrinin təşkilinə başlanıldı. Bütün bunlar Naxçıvan diyarında vəziyyətin daha da mürəkkəbləşməsi ilə Nəticələndi. 1918-ci ildə erməni-daşnak hökumətinin dəstəyi ilə Naxçıvanın ərazi vahidində qarşıdurmanın, qırğınların sayı günü-gündən artmağa başladı.

1918-ci ildə bu qarşıdurmanın qarşısını almaq və yerli milliyyətcə türk olan əhalini erməni soyqırımından qorumaq məqsədi ilə Araz-Türk Respublikası yaradıldı. Türk ordusunun polkovniki Xəlil bəy Araz-Türk Respublikasının səlahiyyətli nümayəndəliyinin başçısı təyin edildi. Nəticədə erməni daşnak hökumətinin Naxçıvanı ilhaq etmək kimi siyasətinin qarşısını almaq mümkün oldu. Lakin bəla bununla ötüşmədi, belə ki, 1919-cu ildə mənfur ingilislər Naxçıvanı işğal edərək, Araz-Türk Respublikasını və Naxçıvan Milli Komitəsini ləğv etdi [1].

1919-cu ilin iyul ayında erməni daşnaklarının hərbi hissələri ingilislərin köməyi ilə hücuma keçib Şərur mahalını ələ keçirdilər. Bu işğala məruz qalan yerli əhali canını qurtarmaq üçün Güney Azərbaycana sığınmalı oldular. Bu hadisədən qısa bir müddət sonra Naxçıvan Milli Komitəsi yenidən güc toplayaraq daşnakların hərbi birləşmələrini Naxçıvan diyarından çıxarmağa nail oldular. Elə bu vaxtlarda düşmənlərin Naxçıvan diyarında Amerika general-qubernatorluğunun yaradılması təşəbbüsü də iflasa uğradı.

28 aprel 1920-ci ildə Azərbaycan Sovet Sosialist Respublikası yaradıldı. Naxçıvan əhalisi kömək üçün Azərbaycan Sovet Sosialist Respublikasına müraciət etdi və Nəticədə 28 iyul 1920-ci ildə Naxçıvan Sovet Respublikası yaradıldı. Naxçıvanda əmin-amanlığın yaradılmasında, diyarın erməni daşnaklarından təmizlənməsində A.Şadlinskinin başçılıq etdiyi "Qırmızı tabor"-un fəal iştirakı tarixin yaddaşına yazılmış tarixdir və bu tarix hər bir azəri türkünün qəlbində daima yaşayacaq. Çox təəssüflə qeyd etməliyik ki, bu dövürdə tarixin qara yaddaşına qara hərflərlə yazılmış bir hadisə baş verdi. Belə ki, tarixi və əzəli Azərbaycan torpağı olan Zəngəzur mahalı xarici və daxili düşmənlərin əli ilə Ermənistan Respublikasına birləşdirildi. Beləliklə də, Naxçıvanın Azərbaycan Respublikası ilə əlaqəsi kəsildiyindən Naxçıvanda muxtariyyətin yaradılması zərurəti meydana çıxdı [2].

Ermənistan hökuməti dəfələrlə Naxçıvanın Ermənistana birləşdirilməsi üçün müxtəlif siyasi manevrlər etməsinə baxmayaraq, buna nail ola bilmədi. Nəhayət, 1921-ci ilin yanvar ayında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilən rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizindən çoxu Naxçıvan mahalının muxtar respublika statusunda Azərbaycan SSR-nin tərkibində qalmasına səs verdi. Naxçıvan mahalına bu statusun verilməsi RSFSR və Türkiyə Cümhuriyyəti arasında 1921-ci ildə bağlanmış Moskva müqaviləsində, sonralar isə Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ildə bağlanmış Qars

müqaviləsində qüvvəyə minmişdir. Hər iki müqavilədə qeyd edilir ki, Naxçıvan ərazisinə Azərbaycan ordusundan başqa digər bir ölkənin hərbi qüvvələri yeridilərsə, Türkiyə Cümhuriyyəti Naxçıvanın təhlükəsizliyini qorumaq üçün bütün hüquqlara malikdir [3].

Həmin tarixi müqavilədən 1990-cı ilə kimi Naxçıvan Muxtar Respublikası Azərbaycan SSR-nin tərkib hissəsi kimi Sovet İttifaqının ərazi vahidi hesab olunmuşdur. 1990-cı ildə Sovetlər İttifaqı mərkəzi hakimiyyətinin Dağlıq Qarabağda ermənilərin apardığı soyqırıma, işğala və Naxçıvan Muxtar Respublikasına göz dikməsinə qarşı ədalətsiz yanasma və biganəliyinə cavab olaraq Naxçıvan Muxtar Respublikası Sovetlər İttifaqının tərkibindən ayrılaraq müstəqilliliyini elan etdi və bu amil zaman-zaman qana susamış Sovet İttifaqının dağılmasında mühüm hadisə hesab olunmalıdır.

O dövrdə AXC və Müsavat cütlüyünün apardığı yarıtmaz siyasət Nəticəsində ölkəmizdə siyasi durum həddindən artıq gərgin bir vəziyyət almışdı. Elə bu zamanda tale xalqımızın üzünə güldü. Azərbaycanın dünya şöhrətli görkəmli siyasi xadimi, Ulu Öndərimiz Heydər Əlirza oğlu Əliyev 1991-ci ildə Moskva şəhərindən ana vətəni olan Naxçıvan şəhərinə dönüş etdi. Xalqımızın xilaskarını Naxçıvan əhalisi təsəvvürolunmaz bir coşqu ilə qarşıladı.

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəylik və bütövlüyü təmin edən, azərbaycançılıq ideologiyasının banisi, xalqın və dövlətin xilaskarı H.Əliyev 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildi. Yalnız bundan sonra Ümummilli Lider Heydər Əliyevin gərgin əmək fəaliyyəti və səyləri Nəticəsində muxtar respublikada sabitlik təmin edildi, Naxçıvanda sosial-iqtisadi vəziyyət yaxşılaşdırıldı. Ümummilli Liderin həyata keçirdiyi islahatlar, gördüyü tədbirlər və işlər sayəsində Naxçıvanda sabitliyin, tərəqqinin və həmrəyliyin təmin olunmasına nail olundu [4].

Həmin dövrə nəzər saldıqda bu mərhələnin milli dövlətçilik ənənələrinin bərpası baxımından nə qədər böyük əhəmiyyətli olduğunu görə bilərik. Bu dövr həm də muxtar respublikada kənd təsərrüfatının inkişafına böyük təkan vermişdir.

"Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununun 1996-cı ildə qəbul edilməsinə baxmayaraq, bu məsələnin təməli, əslində, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik etdiyi dövrdə - 1992-ci ildə Culfa rayonunun Şurut və Gal kəndlərindəki torpaqların kəndlilərə verilməsi ilə qoyulmuşdu. Torpaq-vətəndaş münasibətlərində həyata keçirilən tarixi və inqilabi hadisənin birinci mərhələsinin yekunlarını Ulu Öndər olduqca yüksək qiymətləndirərək demişdir: "Biz torpaq islahatının aparılmasında radikal tədbirlərə əl atmışıq. Deməliyəm ki, Nəticə idealdır. özü də bu, hələlik başlanğıcdır". Beləliklə, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ümumxalq müzakirələrindən sonra torpaq islahatı proqramı hazırlandı və həmin proqram əsasında torpaq islahatlarının həyata keçirilməsini təmin edən hüquqi baza yaradıldı. İndi qürurla deyə bilərik ki, ölkəmizdə aparılan torpaq islahatları tarixə "Heydər Əliyev torpaq islahatları" modeli kimi düşdü. Aqrar-torpaq islahatı Ulu Öndərin şah əsəridir. Çünki məhz müstəqillik qazandıqdan sonra torpaq öz sahibinə verildi və bununla da Azərbaycanda vətəndaşlar torpaq mülkiyyətçisinə çevrildilər.

Naxçıvan Muxtar Respublikasında da kənd təsərrüfatının inkişafı daim diqqətdə saxlanılmışdır. Muxtar respublikada əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması burada heyvandarlığın inkişafını şərtləndirir.

Keçən əsrin 90-cı illərinin əvvəlində ikinci dəfə müstəqillik əldə etmiş Azərbaycan İlham Əliyev cənabları hakimiyyətinin ilk dövründən aqrar sahəni iqtisadiyyatın qeyri-neft bölməsinin prioritet istiqaməti elan etmiş və ölkənin aqrar siyasətinin əsas məqsədinin Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyinin tamamilə yerli istehsal hesabına ödənilməsi və bəzi kənd təsərrüfatı məhsulları və ərzaq mallarının xarici bazarlara ixracının təmin edilməsi olduğunu önə çəkib.

Hörmətli Prezidentimiz aqrar sahədə uğurlu Nəticələr əldə etmək üçün ilk növbədə kənd təsərrüfatında çalışan sahibkarlara əlverişli şərait yaradılmasının və onlara dövlət dəstəyinin göstərilməsinin vacibliyini nəzərə alaraq kənd təsərrüfatı məhsul istehsalçılarının 2001-ci ildən başlayaraq torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilməsi müddəti 2018-cü ilin sonuna kimi uzadılıb. Respublikamızda aqrar sahədə yüksək Nəticələr əldə edilməsində və kənd təsərrüfatında hər il dinamik artıma nail olunmasında fermerlərə güzəştli kreditlərin verilməsi və onlara müasir texnika və texnologiyaların lizinq yolu ilə güzəştli qiymətlərlə satılması və ya icarəyə verilməsi də mühüm rol oynayıb.

Məlumdur ki, müasir şəraitdə aqrar bölmənin emal sənayesini inkişaf etdirmədən kənd təsərrüfatının artımına nail olmaq qeyri-mümkündür. Son illər bu istiqamətdə əsaslı işlər görülmüş, respublikamızın bir çox rayonlarında kənd təsərrüfatının inkişafını təmin edən yeni bitkiçilik və heyvandarlıq məhsulları emalı obyektləri, soyuducu və taxıl anbarı kompleksləri və digər emal müəssisələri tikilib istifadəyə verilmiş, onlar müasir texnologiya ilə təchiz olunublar [5].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının daxili bazarın tələbatını ödəmək və xarici bazarlara çıxmağa dair formalaşdırdığı müasir aqrar siyasətin mühüm istiqamətlərindən biri də ölkəmizdə kənd təsərrüfatının inkişafında iri təsərrüfatların və aqroparkların yaradılmasına xüsusi önəm verilməsidir. Bu isə ölkəmizdə mövcud olan müxtəlif təsərrüfatçılıq formaları içərisində xırda təsərrüfatların xüsusi çəkisinin həddindən çox yüksək olması ilə əlaqədardır. Xırda təsərrüfatlar isə məlum olduğu kimi, əhalinin ərzaq təhlükəsizliyini və xarici bazarlara çıxışı təmin etmək üçün lazımi imkanlara malik deyillər. Məhz iri təsərrüfatlarda yüksək məhsuldar bitki sortları və heyvan cinsləri, yeni müasir texnika və texnologiyalar tətbiq etmək üçün əlverişli şərait yaranır ki, bu da əmək məhsuldarlığını artırmağı və rəqabət qabiliyyətli məhsul istehsalını təmin edir.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qüdrətli yaradıcısıdır. Müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir. Heydər Əliyev siyasi kursu bu böyük dühanın parlaq adını və çoxcəhətli fəaliyyətini, geniş dünyagörüşünü və mənalı irsini əhatə edən zəngin dövlətçilik təlimi, siyasi-ideoloji baxışlar sistemidir. Heydər Əliyev siyasi kursu - qlobal yanaşma ilə milli dəyərlərin vəhdətindən yoğrulmuş düşünülmüş yetkin təlimdir. Heydər Əliyev siyasi kursu - milli dövlətçilik təliminin strategiyasından, xalqın inkişaf dialektikasının taktikasından ibarətdir. O, böyük siyasətin uzaqvuran topu, ağır artilleriyası idi. Heydər Əliyev siyasi kursu - xalqı bir yumruq kimi birləşdirən, yaşadan, səfərbər edən və daha böyük gələcəyə aparan gerçəkçi siyasətin ifadəsidir. Nəhayət, Heydər Əliyev siyasi kursu - cəmiyyət həyatının, ümummilli inkişafın əbədiyyət ünvanlı lokomotividir (Həbibbəyli, İ. Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr, 2013, s. 89). Məlumdur ki, böyük sınaqlardan çıxmış Heydər Əliyev siyasi kursunun nüvəsini, cövhərini Azərbaycançılıq təlimi təşkil edir. Azərbaycançılıq çoxcəhətli istiqamətlərə malik olan Heydər Əliyev siyasi kursunun tac damarıdır. Müstəqil Azərbaycan isə universal zəkaya malik olan Heydər Əliyev dühasının şah əsəridir. Görkəmli dövlət xadimi Heydər Əliyev azərbaycançılıq siyasətini özünün dərin məzmunlu fəaliyyətinin bütün mərhələlərində əsas kimi götürmüş, həmin ümummilli ideyanın daha da möhkəmləndirilməsi işini həyatının mənasına, siyasətinin əsas hərəkətverici qüvvəsinə çevirmişdir. Məhz Heydər Əliyevin dolğun və ardıcıl siyasəti Nəticəsində azərbaycançılıq ictimai-ədəbi mühitdə ümummilli hərəkat, siyasi müstəvidə isə dövlət ideologiyası mahiyyəti qazanmışdır. Bu elmi-məntiqi qənaətimiz ondan qaynaqlanır ki, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının tarixini, mədəniyyətini, ədəbiyyatını bütün fəlsəfəsi ilə dərindən bilmiş və milli istiqlal uğrunda apardığı məsuliyyətli mübarizələrdə ədəbi-

tarixi irsdən və təcrübədən bacarıqla istifadə etmişdir. Böyük siyasətdə ədəbiyyatdan yaradıcılıqla istifadə etməyin mükəmməl nümunəsini göstərən Heydər Əliyev həm də mənsub olduğu ölkənin milli maraqlara əsaslanan ədəbiyyat siyasətini də müəyyən etmişdir. Fikrimizcə, qüdrətli dövlət xadimi Heydər Əliyevin yarım (Akademik Tarih ve Düşünce Dergisi Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı Cilt 10 / Özel Sayı 1 / Yıl 2023 7) əsrə yaxın apardığı böyük siyasətin böyük ədəbiyyatını və elmini yaratmaq Azərbaycan bədii və elmi təfəkküründür borcudur. Bu həm də dərin siyasi və elmi-ədəbi düşüncənin möhtəşəm sintezindən yaranmış Heydər Əliyev zəkasından doğan qeyri-adi dövlətçilik modelinin nəsildən-nəslə çatdırılması baxımından da zəruridir.

Beləliklə, Heydər Əliyev Azərbaycanda və dünyada müstəqil dövlətçilik modelinin müəllifidir. Heydər Əliyevin müstəqil dövlətçilik idealları və təlimi bu gün də, gələcəkdə də yeni dövlət müstəqilliyi qazanmış xalqlar və ölkələr üçün mükəmməl bir məktəb mahiyyətindədir. Müasir dövrdə Heydər Əliyevin müstəqil dövlət quruculuğu strategiyası Azərbaycan Respublikasının bütün sahələrdə uğurlu və dinamik inkişafının möhkəm bünövrəsi kimi XXI əsrin dünya siyasi arenasında yüksək qiymətləndirilir. Hazırda Azərbaycan Respublikasında Heydər Əliyevin müstəqil dövlətçilik təlimi, azərbaycançılıq ideologiyası dünyada dəyişən və inkişaf edən reallıqlarla, zənginləşən yeni proseslərlə birlikdə ölkəmizdə yaradıcı şəkildə ardıcıl olaraq həyata keçirilir.

Beləliklə, möhkəm bünövrələr, böyük sütunlar üzərində yeni və möhtəşəm Azərbaycan qurulur. Bəli! Heydər Əliyev elə nadir tarixi şəxsiyyətlərdəndir ki, həyatını bütünlüklə xalqına və ölkəsinə həsr etmişdir. Xalqın mənafeyini hər şeydən üstün tutmuş Ulu Öndərin "Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" (Heydər Əliyev Atatürk haqqında. http://elibrary.bsu.az/books_460/N_195.pdf) - müdrik düşüncəsi atalar sözünə çevrilmişdir. Həmçinin "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışır və çalışacağam" (Heydər Əliyev. Müdrik fikirlər. http://www.heydar-aliyev-foundation.org/az/content/index/85/) fikri görkəmli dövlət xadimi Heydər Əliyevin azərbaycançılıq təliminin dərinliyini və dönməzliyini, əbədiyaşarlığını bütün ruhu ilə ifadə edir. Seçilmiş sovet rəhbərlərindən yalnız Heydər Əliyev xalqının azadlığının və müstəqil dövlətinin qorunub saxlanılması, onun daha da möhkəmləndirilməsi naminə özünün layiqli siyasi varisini yetişdirib hazırlamışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çoxcəhətli, məqsədyönlü və yorulmaz fəaliyyəti, dövlətçilik işinə çoxaspektli düşünülmüş yanaşmaları, analitik təfəkkürü, müdrik siyasəti, dərin düşüncəsi ilə müstəqil Azərbaycan dövlətçiliyinin yeni epoxası formalaşır. Artıq hər kəsə yaxşı məlumdur ki, Ulu Öndər Heydər Əliyevin dövlətçilik təliminə uyğun olaraq, ümummilli mənafenin, dövlətçilik maraqlarının daim üstün tutulması və yaradıcılıqla inkişaf etdirilməsi İlham Əliyev siyasətinin təməl prinsipidir. Prezident İlham Əliyevin (Academic Journal of History and Idea Special Issue Dedicated to 100th Anniversary of Heydar Alirza Oghlu Aliev National Leader of Azerbaijan People Volume 10 / Special Issue 1 / Year 2023

8) siyasətində ən müxtəlif mövqelərdən, fərqli bucaqlardan ifadə olunan siyasi yanaşmaların hamısı Azərbaycançılıq fəlsəfəsində, Azərbaycanın inkişafı naminə aparılan qlobal işlərdə tamamlanır. Azərbaycançılıq bu böyük və müdrik siyasətin cövhərini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müstəqil Azərbaycanı inkişaf etməkdə olan ölkədən bütün istiqamətlər üzrə inkişaf etmiş dövlətlərin cərgəsinə doğru aparmaqla yeni tarixi epoxada öz erasını yaratmış qüdrətli liderdir. Cənab Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsində işğalçı Ermənistan üzərində qazandığı tarixi zəfər Azərbaycanın çoxəsrlik tarixinin möhtəşəm qəhrəmanlıq dastanıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dünyada BMT-dən sonra ən böyük siyasi təşkilat olan Qoşulmama Hərəkatına liderlik etməsi Ulu Öndər Heydər Əliyevin sovet hakimiyyəti illərində siyasi büro zirvəsini fəth etməsinin yeni tarixi şəraitdəki nümunəsidir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, ölkəmizin birinci xanımı Mehriban Əliyeva da özünün çoxcəhətli fəaliyyəti, Heydər Əliyev Fondunun dəstəyilə keçirilmiş tədbirlər vasitəsilə bu böyük idealın – Ümummilli Lider Heydər Əliyev yolunun ölkəmizdə daha da genişlənməsinə və möhkəmlənməsinə sanballı töhfələrini verməkdədir. Mənsub olduğu xalqın tarixində və taleyində davamlı inkişafa nail olması və ideyalarının davam etdirilərək yaşadılması Heydər Əliyevi Azərbaycan xalqının Ümummilli Lideri səviyyəsinə ucaltmışdır. Ümummilli Liderlik Heydər Əliyevin Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinə gətirdiyi yeni zirvədir. Ümummilli Liderlik dünya liderliyi miqyasında da fərqli və parlaq bir səhifədir. Ulu Öndər Heydər Əliyev dünya liderləri sırasında ümummilli liderlik miqyası nümayiş etdirən nadir tarixi şəxsiyyətlərdəndir.

Azərbaycan xalqı və müstəqil Azərbaycan dövləti Prezident cənab İlham Əliyevin elan etdiyi (Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 29 sentyabr 2022 https://president.az/az/articles/view/57413) "Heydər Əliyev İli"ni təntənəli surətdə bayram etməklə müstəqil dövlətçiliyin əbədiyyət qazanmasının şərəfini yaşayır. Görkəmli dövlət xadimi Heydər Əliyev əbədiyyət qazanmış Ümummilli Lider kimi müstəqil dövlətçilik idealları və dərsləri ilə həm xalqının qəlbində, həm də Azərbaycan Respublikasının inkişafının hər addımında yaşamaqda davam edir. Ulu Öndərin başladığı böyük iş dünya birliyinin yeni çağırışları əsasında ölkəmizin Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

ƏDƏBİYYAT

1. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar). (1993). (I. Cild). Azərnəşr.
2. Akademik Tarih ve Düşünce Dergisi Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı Cilt 10 / Özel Sayı 1 / Yıl 2023 9 Heydər Əliyev Müstəqilliyimiz əbədidir çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar. (1997). (2. Cild). Azərnəşr.
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar. (1997). (3. Cild). Azərnəşr.
4. Heydər Əliyev və Azərbaycan elmi: biblioqrafik göstərici (2010).
5. Heydər Əliyev Atatürk haqqında http://elibrary.bsu.az/books_460/N_195.pdf.

6. Heydər Əliyev. Müdrik fikirlər.http://www.heydar-aliyev-foundation.org/az/content/index/85/ Həbibbəyli, İ. (2013). Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. "Əcəmi" NPB.
7. Həbibbəyli, İ. (2002). Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti. Qeyrət.
8. Quliyeva, X. (2002). Heydər Əliyev və mənəvi-estetik dəyərlər. Azərnəşr.
9. Quliyeva, X. (2019). Heydər Əliyev Siyasəti: Milli Dövlət, Milli Lider, Vətəndaşlıq, Mənəviyyat. Elm.
10. Əliyev, Q. (2003) Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Qismət.
11. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Bakıda Türk Yazıçılarının III qurultayında nitqi. 1996. http://elibrary.bsu. az/yenii/ebookspdf/-H.%C6%- 8Fliyev_8ci_kitab.pdf.
12. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 29 sentyabr 2022. https://president.az/az/articles/view/57413

ABSTRACT

Allahverdi Allahverdiyev

HAYDAR ALIYEV'S IDEALS OF INDEPENDENT STATEHOOD AND THE MODERN ERA

Haydar Aliyev, the eldest son of the Azerbaijani people, an outstanding statesman, has played a decisive role in the historical destiny of his nation since the second half of the 20th century. He took great steps to protect the national interests of the Azerbaijani people even during the years of Soviet rule. Haydar Aliyev is an outstanding statesman who raised the Azerbaijani language to the level of the state language during the Soviet era. Thanks to his services, Azerbaijan became one of the most developed countries in the former Soviet Union. The establishment and strengthening of the state independence of Azerbaijan is organically connected with the name and struggle of Haydar Aliyev. Due to all this, Haydar Aliyev has gained a great historical name as the national leader of the Azerbaijani people. The article "Ideals of Independent Statehood of Haydar Aliyev and the Modern Era" describes the worldview of Haydar Aliyev, the mission of national statehood that he carried out in a long period of more than forty years, the idea of an independent republic, his brave and brave services for the mother tongue, education, science, literature, and culture of his people, our territorial integrity. he values his struggle for the sake of, at the same time, his tumultuous life path comprehensively and with high respect, in other words, he engraves in history with the thinking of a true scientist. At the same time, in the article "Haydar Aliyev's Ideals of Independent Statehood and the Modern Era", the main essence and goals of the education of statesmanship of the national leader of the Azerbaijani people, Haydar Aliyev, are presented. is analyzed, the importance of the national historical idea of a prominent statesman in modern times is assessed with scientific objectivity. In the article "Haydar Aliyev's Ideals of Independent Statehood and the Modern Era", the main essence and goals of the education of statesmanship of Haydar Aliyev, the national leader of the Azerbaijani Akademik Tarih ve Düşünce

Dergisi Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı Cilt 10 / Özel Sayı 1 / Yıl 2023 3 people, are analyzed. is done, the importance of the nationalistic idea of a prominent statesman in modern times is assessed with scientific objectivity.

Keywords: *Azerbaijan, Haydar Aliyev, independent, state, modern era*

TURAL MƏMMƏDOV

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
t.memmedli@hotmail.com

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ HÜQUQİ STATUSU

XÜLASƏ

Təqdim edilən məqalədə yaxın şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanın keçmişdən bugünə keçdiyi tarixi yolunu, dünya birliyinə uğurlu inteqrasiyasını, hüquqi statusunu və eyni zamanda Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi istiqlal mübarizəsi haqqında danışılır. Naxçıvan qədim zamanlardan bəri hər baxımdan əlverisli zona olduğu üçün daima düşmənlərin diqqət mərkəzində olub. Dünyanın əvvəlindən, sivilizasiyanın ilkin çağlarından başlayan Naxçıvanın tarix yolu min illər bəri şəraflə irəlilədi.46 yaşında Azərbaycanın rəhbəri seçilən general Heydər Əliyevin bütünlüklə Azərbaycana həsr olunan fədakar, fenominal fəaliyyətində Naxçıvan mühüm yer tuturdu. 1921-ci il 16 mart tarixli Moskva və 13 oktyabr tarixli Qars beynəlxalq müqavilələri Naxçıvanın Azərbaycanın tərkibində muxtar respublika statusunu təsdiq etdi. Məqalədə Naxçıvanın 100 illik yubileyi münasibətilə keçmişdən bugünə keçdiyi hüquqi statusuna geniş şəkildə toxunulur.

Açar sözlər: *konstitusiya, hüquqi status, müasirlik, müstəqillik, qanun*

Giriş

Naxçıvan Muxtar Respublikasının yaranmasının siyasi tariximizə çox mühüm hadisə olduğunu nəzərə alan Prezident cənab İlham Əliyev 2023-cü il dekabrın 30-da Muxtar Respublikanın 100 illik yubileyinin qeyd olunması ilə bağlı 4248 nömrəli sərəncam imzalamışdır. Sərəncamda deyilir: " Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai, siyasi və mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri-Eldəgizlər dövlətinin paytaxtı olmuş, islam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir".

2024-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam oldu. Naxçıvan, başqa bir ifadə ilə desək, Şərqin qapısı. Tarixi ipəkyolu üzərində yerləşən, strateji, coğrafi mövqe. Məhz onun belə bir mövqeyə malik olması daim yadelli düşmənlərin diqqətini cəlb etmiş və əsrlər boyu bu qədim məmləkət qəsbkarlıq hücumlarına məruz qalmışdır. Lakin bütün bunlara baxmayaraq, bu diyarın igid insanları qəhrəmanlıq mübarizəsi göstərərək öz doğma yurdlarını igidliklə qorumuşlar.

Naxçıvan bugün dinamik, inkişaf edən, Azərbaycan Respublikasının tərkibində çox önəmli bir bölgədir. Naxçıvanın keçdiyi qədim və uzun tarixi inkişaf yolunun hər bir səhifəsi aydın sübut edir ki, bu diyar ən qədim zamanlardan türk yurdu kimi Azərbaycana məxsus olmuşdur, onun ayrılmaz tərkib hissəsidir. İndi isə Naxçıvanın keçmişdən bugünə keçdiyi tarixi, huquqi inkişaf yoluna nəzər salaq.

Naxçıvan qədim tarixi və dövlətçilik ənənələri ilə diqqəti cəlb etmişdir. 1918-1920-ci illərdə Azərbaycan torpaqlarına erməni hərbi təcavüzü Nəticəsində Zəngəzurun işğalı və Naxçıvanın ölkəmizin əsas ərazilərindən coğrafi cəhətdən ayrı düşməsi muxtariyyət statusunun yaranmasını doğuran ən mühüm səbəb oldu [4, s. 67]. Ermənilər Zəngəzurun işğalını Naxçıvan torpaqlarının ilhaq edilməsi üçün mühüm bir mərhələ hesab edirdilər. Ancaq Naxçıvan əhalisinin qəhrəmancasına mübarizəsi, Azərbaycan rəhbərliyi ilə Türkiyə diplomatlarının birgə mübarizəsi Nəticəsində Türkiyə ilə Sovet Rusiyası arasında bağlanan 16 mart 1921-ci il tarixli Moskva və Rusiyanın iştirakı ilə bir tərəfdən Türkiyə və digər tərəfdən Cənubi Qafqazda yaradılmış üç sovet respublikası - Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR tərəfindən imzalanmış 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsi Naxçıvanla bağlı erməni təcavüz planlarının qarşısını almışdır [1, s.11].

XIX əsrdə çar Rusiyası tərəfindən Gülüstan (1813) və Tükmənçay (1828) müqavilələri ermənilərin Türkiyə və İrandan Cənubi Qafqaza, tarixi Azərbaycan torpaqlarına, həmçinin Naxçıvana köçürülməsində əsas məqsəd gələcəkdə bu bölgələrin ələ keçirilməsini asanlaşdırmaq idi. Rusiya öz mənafeyi naminə erməni planlarını reallaşdırmaq üçün Cənubi Qafqazın işğalına, Türkiyə və İranda yaşayan ermənilərin kütləvi şəkildə köçürülməsinə başladı. Amerika alimi C.Makkarti "Genosid olmuşdurmu?" kitabında yazır ki, 1828-ci ilədək irəvan xanlığında əhalinin 80 faizi azərbaycanlılar olmuşdur. Daha sonra Rusiyanın siyasi planlarına əsasən Naxçıvana yadellilərin yerləşdirilməsi başlamışdı. Naxçıvanın Qars müqaviləsində aldığı muxtariyyət statusu ermənilərin bütün bu planları alt-üst etdi.

Naxçıvanın muxtariyyət statusu ilə bağlı proseslərin getdiyi bir vaxtda, 1921-ci il mayın 19-da I Ümum-Azərbaycan Sovetlər qurultayı tərəfindən qəbul edilən ilk Azərbaycan konstitusiyasında Naxçıvanla bağlı heç bir müddəa əks olunmasa da, 1927-də Konstitusiyasının ayrı-ayrı maddələrində Naxçıvanın statusu ilə bağlı məsələlər öz əksini tapmış, 1937-ci və 1978-ci il Azərbaycan SSR-in Konstitusiyalarında isə xüsusi fəsillər muxtar respublikanın statusuna həsr edilmişdir [1, s.22].

Sovetlər imperiyasının dağılması ərəfəsində Azərbaycan xalqı öz müstəqilliyi uğrunda mübarizəyə qalxdı. Belə bir zamanda yenə mənfur ermənilər Azərbaycan ərazilərinə qarşı torpaq iddiaları irəli sürərək, minlərlə Azərbaycanlıları öz ata-baba yurdlarından qovaraq onları işgəncələrə məruz qoydular. Ölkəmizdə hakimiyyət uğrunda gedən daxili çəkişmələr və Naxçıvanın blokadaya alınması vəziyyəti daha da çətinləşdirdi. Həmin tarixi dövrdə Ulu Öndər Heydər Əliyevin Naxçıvana gəlişi və Naxçıvan xalqı ilə birlikdə olması bu diyarı gələcək faciələrdən xilas etdi. Azərbaycanın müstəqilliyə gedən yolu və onun əbədi olması Naxçıvandan başladı. Bütün dövlətçilik tariximiz boyu Azərbaycanın ictimai-siyasi inkişafında özünəməxsus yeri və rolu olan qədim Naxçıvan diyarı bu mərhələdə də xalqımızın milli-azadlıq hərə-

katının mühüm mərkəzlərindən birinə çevrildi [3, s.68]. Bu, heç şübhəsiz ki, ilk növbədə Ümummilli Lider Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb-yaratması, muxtar respublikaya rəhbərlik etməsi, onu düşmən təcavüzündən qoruyaraq gələcək taleyində çox mühüm inkişaf mərhələsinin əsasını qoyan tarixi qərarlara imza atması ilə sıx əlaqəlidir. 1995-ci ildə Azərbaycanda artıq möhkəmlənməkdə olan ictimai-siyasi şərait zəminində noyabrın 12-də ölkəmizin müstəqillik tarixində ilk demokratik parlament seçkilərinin keçirilməsi və referendumla yeni Konstitusiyanın qəbul edilməsi Azərbaycan Respublikasının demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu prosesində çox mühüm bir vəsilə oldu.

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra qəbul edilən 1995-ci il Konstitusiyasının 134-cü maddəsi Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının tərkibində muxtar dövlət və Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu elan edir. Naxçıvanın muxtariyyətinin əsasları hazırda qüvvədə olan 16 mart 1921-ci il tarixli Qars beynəlxalq müqaviləsində Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması bir daha bəyan edilərək Naxçıvanın ərazi hüdudları dəqiqləşdirilmişdir. Naxçıvan 1921-ci il martın 16-dan başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan başlayaraq Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

1926-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ilk, 1937-ci ildə ikinci, 1978-ci ildə üçüncü Konstitusiyası qəbul edilmişdir [9]. Naxçıvan Muxtar Respublikasının bu Konstitusiyasının əsasını Azərbaycan Respublikasının 1995-ci il 12 noyabrda ümumxalq səsverməsində-referendumda qəbul edilən Konstitusiya təşkil edir. Naxçıvanın Azərbaycan Respublikası Konstitusiyası ilə üzvi surətdə bağlı olan bu Konstitusiyası qəbul edilərkən aşağıdakı qərarlar bəyan edildi:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;
- Haqq-ədalətə, qanuna əsaslanaraq Naxçıvan Muxtar Respublikasının əhalisinin layiqli həyat səviyyəsini təmin etmək, güzəranını yaxşılaşdırmaq;
- Naxçıvan Muxtar Respublikasında Konstitusiya çərçivəsində demokratik, hüquqi, dünyəvi, dövlət quruluşuna təminat vermək, qanunun aliliyini qorumaq.

Yuxarıdakı ülvi niyyətlərlə bu Konstitusiya qəbul edilir. Azərbaycan Konstitusiyasının VIII fəsli Naxçıvan Muxtar Respublikasının statusuna həsr olunub, 134-cü maddədə qeyd olunur ki, Naxçıvan Muxtar Respublikası Azərbaycanın tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu Konstitusiya ilə müəyyən edilir.

Öz konstitusiyasına müvafiq olaraq Naxçıvan Muxtar Respublikası özünün ali qanunvericilik, icra və məhkəmə orqanlarının şəxsində geniş dairədə dövlət vəzifələrini həll edir. Sözügedən vəzifələr bunlardır:

a) Muxtar Respublikanın Konstitusiyasının qəbulu və ona düzəlişlər edilməsi: Naxçıvan Muxtar Respublikası Konstitusiyasına və qanunvericiliyinə riayət olunmasına nəzarət, dövlət asayişinin, vətəndaşların hüquq və azadlıqlarının mühafizəsi;

b) Respublikanın yerli dövlət hakimiyyəti orqanlarının təşkili və fəaliyyət qaydalarının müəyyənləşdirilməsi, dövlət büdcəsinin işlənib hazırlanması və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf göstəricilərinin qəbul edilməsi

Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyət orqanları bir-biri ilə üzvi surətdə bağlıdır və qarşılıqlı şəkildə təsirdədirlər. Naxçıvanda icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir və Naxçıvan Muxtar Respublikasının yuxarı icra orqanıdır [9]. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ali məclisə tabedir. Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirir.

Hər bir demokratik ölkədə məhkəmə hakimiyyəti orqanlarının fəaliyyəti dövlətin konstitusion quruluşunun əsaslarının, fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni maraqlarının müdafiəsinin təmin olunmasına xidmət edir [3, s.35]. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmələrin tarixinin arxiv mənbələri və elmi ədəbiyyatlar əsasında ciddi şəkildə tədqiqinə böyük ehtiyac vardır. Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış, 12 noyabr 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında ölkəmizdə məhkəmə hakimiyyətinin ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr tərəfindən həyata keçirilməsi müəyyən olunmuş, Konstitusiyanın 125-133-cü maddələrini özündə birləşdirən 7-ci fəsli bütövlükdə məhkəmə hakimiyyətinə həsr edilmişdir. Həmin fəslin II paraqrafında müasir dövrümüzdə, daha dəqiq desək, 2003-cü ildən bugünədək Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyətinin təşkilindən bəhs olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" imzaladığı fərman isə sözün əsl mənasında ölkəmizdə bu sahədə həyata keçirilən islahatın dönüş nöqtəsi olmuşdur.

Naxçıvanın, bütövlükdə Azərbaycanın siyasi tarixində əsas yeniliklərdən biri də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi institutunun yaradılmasıdır. Azərbaycan Prezidentinin 2022-ci il 22 dekabr tarixli 1917 nömrəli fərmanı ilə sözügedən institut təsis edilmişdir. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən yerli icra hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirmək və onların fəaliyyətinə nəzarəti həyata keçirmək, muxtar respublikanın davamlı sosial-iqtisadi inkişafını təmin etmək məqsədilə yerli icra hakimiyyəti orqanlarının digər dövlət orqanları ilə qarşılıqlı fəaliyyətini təmin etmək, ictimai, sosial və iqtisadi vəziyyətlə əlaqədar Azərbaycan Respublikasının Prezidentinə mütəmadi hesabatlar təqdim etmək və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər istiqamətlərdə fəaliyyət göstərmək səlahiyyətli nümayəndəliyin əsas fəaliyyət istiqamətləridir [3].

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin açıq iclasları haqqında məlumatlar hamının tanış olması üçün "Şərq qapısı" qəzetində, digər qəzetlərdə dərc olunur, digər informasiya vasitələri ilə təqdim olunur [7]. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiya iclasları Azərbaycan dövlət dilində aparılır. Azərbaycan dilini

bilməyən deputatlar bildiyi dildə danışa bilər. Onların danışıqları Azərbaycan dilinə tərcümə edilir. Hüquq ədəbiyyatının mühüm məsələlərindən biri də muxtar respublika parlamentinin qanunvericilik fəaliyyətidir. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 23-cü maddəsinə görə Naxçıvan Muxtar Respublikasının qanunverici orqanı olan Ali Məclis qanunlar və qərarlar qəbul edir [6].

Son illər Naxçıvan Muxtar Respublikası Ali Məclisi geniş dövlət quruculuğu məsələlərini əhatə edən bir sıra qanunvericilik aktları qəbul etmişdir. Məsələn, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə secki haqqında qanun, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Daxili Nizamnaməsinin qəbul edilməsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının statusu haqqında qanunvericilik aktları qəbul etmişdir. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası əsas qanun kimi dövlət orqanlarının normativ fəaliyyəti üçün hüquqi bazadır. Dövlət orqanlarının normayaradıcı fəaliyyətinə Konstitusiyasının təsiri iki yolla baş verir. Bilavasitə təsir və qanunların köməyi ilə. Hüquqi aktlar içərisində Ali Məclisin verdiyi qanunlar xüsusi yer tutur.

XX əsr həm qlobal mənada, həm ölkəmizin mənafeləri baxımından zəngin ictimai-siyasi hadisələrin gərgin dinamikası ilə səciyyələnsə də, əsrin sonu Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə əlamətdar oldu [10]. Ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində muxtar respublika sakinləri yaxından iştirak edir. Naxçıvan camaatı tarix boyu Naxçıvanı canı bahasına, qəhrəmancasına mudafiə edib. 44 günlük İkinci Qarabağ müharibəsində bütün Azərbaycan dəmir yumruq kimi bir amal ətrafında birləşdi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən siyasəti Nəticəsində Azərbaycan torpaqları düşmən işğalından azad olundu. Naxçıvanın Xüsusi Təyinatlı qüvvələri də bu zəfər yolunda igidcəsinə mübarizə apardı. Vətən müharibəsində iştirak edən, şəhid olan qəhrəmanların şücaəti gələcək nəsillərə örnəkdir və onların sırasında doğma Naxçıvanımızın mərd oğulları da çoxdur.

Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardan birinə çevrilib [11]. Bu gün Azərbaycan Naxçıvan Muxtar Respublikasının bir əsrlik zəngin tarixi yolunu böyük ruh yüksəkliyi ilə qarşılayır. Ulu Öndər Heydər Əliyev və onun davamçısı Prezident cənab İlham Əliyev Naxçıvanı daima diqqət mərkəzində saxlayıb, bütün sahələrin inkişafı üçün lazımi tədbirlər görüb. Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 100 illiyi ilə bağlı verdiyi Sərəncam Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasına ali səviyyədə göstərilən dövlət qayğısının bariz nümunəsi kimi böyük əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Naxçıvan Muxtar Respublikası Konstitusiyalarda. Bakı: Elm və təhsil, 2014, 208 s.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 56 s.
3. Naxçıvanın məhkəmə tarixi. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi - 2018, 280 s.

4. Hacıyev, İ., İsmayılov, B. Naxçıvan Muxtar Respublikası-90 (quruculuq salnaməsi). Naxçıvan: "Əcəmi" Nəşriyyat- Poliqrafiya Birliyi, 2014, 184 s.
5. Qafarov, V. Batum konfransı və Azərbaycan // tarix və onun problemləri jurnalı. №1-2. Bakı: 2009, s. 81-89.
6. Naxçıvan Ensiklopediyası. 2 cilddə. Cild 2. İstanbul 2005, 381 s. Qəzet materialları
7. Hacıyev, İ. Naxçıvanın muxtariyyət statusunu rəsmiləşdirən beynəlxalq müqavilə// Şərq qapısı qəzeti, № 58(20950), 15 mart 2014-cü il.
8. Daimi Komissiyanın iclası// Şərq qapısı qəzeti, № 018 (16110), 5 fevral 1992-ci il.
9. Qarayev, S. Muxtariyyət illərində Naxçıvanda Konstitusiya qəbulu tarixindən// Şərq qapısı qəzeti, № 58 (20959), 3 aprel 2014-cü il.
10. https://www.google.com/url?sa=t&source=web&rct=j&opi=89978449&url=https://serqqapisi.gov.az/xeberler/naxcivan-muxtar-respublikasinin-siyasi-huquqi-statusu1&ved=2ahUKEwitrcv1k9SGAxW2SPEDHWMkBJoQFnoECBIQAQ&usg=AOvVaw3OcPUvvZLvXU42C2Oh1x7A
11. https://www.google.com/url?sa=t&source=web&rct=j&opi=89978449&url=https://www.elibrary.az/docs/qazet/qzt2024_769.pdf&ved=2ahUKEwitrcv1k9SGAxW2SPEDHWMkBJoQFnoECBQQAQ&usg=AOvVaw1L1FJN8iihQw3B6qCEASYc

ABSTRACT

Tural Mammadov

LEGAL STATUS OF NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

The presented article talks about the historical path of Nakhchivan, one of the oldest cultural centers of the Middle East, from the past to the present, its successful integration into the world community, its legal status, and at the same time about the struggle for independence led by the great leader Heydar Aliyev. Since ancient times, Nakhchivan has always been the center of attention of enemies, as it is a favorable zone from every point of view. The historical path of Nakhchivan, which started from the beginning of the world, from the early ages of civilization, has progressed with honor for thousands of years. Nakhchivan occupied an important place in the selfless and phenomenal activity of General Heydar Aliyev, who was elected as the leader of Azerbaijan at the age of 46. The international treaties of Moscow dated March 16 and Kars dated October 13, 1921 confirmed the status of Nakhchivan as an Autonomous Republic within Azerbaijan. In the article, the legal status of Nakhchivan from the past to the present on the occasion of its 100th anniversary is widely touched upon.

Keywords: *constitution, legal status, modernity, independence, law*

ÇİNARƏ ƏLİYEVA
Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kolleci
cinare1983@gmail.com

SƏİDƏ ABDULLAYEVA
nihadmurad4022@gmail.com

NAXÇIVAN TƏHSİLİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV SİYASƏTİ

XÜLASƏ

Məqalədə Ulu Öndərimiz Heydər Əliyevin Naxçıvan təhsilinin inkişafında apardığı siyasətdən bəhs edilir. Dahi şəxsiyyət Heydər Əliyev yüksək vəzifələrdə olduğu illərdə Naxçıvan Muxtar Respublikasında elm, təhsil, mədəniyyətin inkişafı üçün mühüm qərarlar qəbul etmiş və yerinə yetirmişdir. Dahi dövlət xadiminin vəzifədə işlədiyi dövrdə Naxçıvan MR özünün intibah dövrünü yaşamış, bir sıra məktəbəqədər müəssisələr, yeni məktəb binaları istifadəyə verilmiş, orta təhsillilərin sayı azalmış, ali təhsillilər isə artmışdır. Onun siyasətinin ən mühüm məramı güclü dövlət qurmaq və sağlam milli kadrlar yetişdirməkdir. Uzaqgörən siyasi liderin hakimiyyətdə olduğu bütün dövrlərdə ölkədə yüksəkixtisaslı, peşəkar kadrların hazırlanması, ali təhsildə rəqabət mühitinin formalaşdırılması ön planda olmuşdur.

Açar sözlər: *Ulu Öndər, təhsil, strategiya, islahat, kadr hazırlığı*

Giriş

Müstəqil və qüdrətli Azərbaycan dövlətinin banisi, Ulu Öndər, dahi dövlət xadimi Heydər Əliyev xalqının xilaskarı, millətin atasıdır. O dahilərin, sərkərdələrin vətəni sayılan Naxçıvanın inkişafında əvəzolunmaz rola malikdir. Naxçıvanın xilaskarı və inkişafının banisi olmaqa yanaşı onun təhlükəsizliyinin təmin olunmasında əvəzsiz xidmətləri vardır. Ulu Öndərimiz müxtəlif vəzifələrdə işləyərkən Naxçıvanı unutmayıb, həmişə diqqət mərkəzində saxlamışdır. İlk dəfə hakimiyyətə gəldiyi 1969-cu il iyulun 14-dən başlayaraq Azərbaycanın, o cümlədən Naxçıvanın gələcəyi ilə bağlı bir sıra qərarlar qəbul etmişdir. Dahi şəxsiyyət ilk təhsilini də Naxçıvanda almış, 1939-cu ildə pedaqoji məktəbi uğurla bitirmişdir. O təhsil aldığı həmin mərhələni yüksək qiymətləndirərək deyib: "Mən həmişə Naxçıvanda təhsil aldığım illəri xatırlayıram. Bu illər mənim yaddaşımdan heç vaxt silinməyəcək... Mən burada mükəmməl təhsil almışam, özü də elə həvəs və aludəçiliklə oxumuşam ki, sonralar digər ali təhsil müəssisələrində oxumaq mənim üçün çətin olmayıb" [2].

1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə nisbətən xeyli geridə olmaqla sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yer tutmuşdur. Bu geriliyin aradan qaldırılması və Naxçıvanın inkişafının başlanmasında da Ulu Öndərin birbaşa rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin "Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında" 1974-cü

il 8 yanvar tarixli birgə Qərarının böyük əhəmiyyəti olmuşdur. Sənəddə muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulmuş, onların icra müddəti müəyyənləşdirilmişdir. Qərarda nəzərdə tutulan bütün vəzifələr vaxtında yerinə yetirilmişdir.

Muxtar respublikanın sənaye potensialı 1970-1982-ci illərdə üç dəfə yüksəlmişdir. Dahi şəxsiyyət 1970-1982-ci illərdə 4 dəfə doğma diyarda səfərdə olmuş, muxtar respublikada aparılan quruculuq-abadlıq işlərinin vəziyyətini öyrənmişdir. İlk səfərini 1974-cü il fevralın 22-də gerçəkləşdirmişdir. Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində saxlanılan Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin büro iclaslarının protokollarından da aydın olur ki, o, 1978-ci il oktyabrın 15-də, 1980-ci il mayın 24-də, 1982-ci il oktyabrın 2-də etdiyi səfərlərin hər birində Naxçıvanın gələcəyi üçün mühüm qərarlar qəbul etmiş, gələcəyə hesablanmış addımlar atmışdır.

Ümummilli Liderimizin təşəbbüsü və diqqəti sayəsində kompleks tədbirlər həyata keçirilmiş və tədbirlərin Nəticəsi olaraq 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı təxminən üç dəfə yüksəlmişdir. Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, eyni zamanda 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Aparılmış genişmiqyaslı quruculuq fəaliyyəti Nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artmışdır.

Azərbaycana ikinci dəfə rəhbərliyi dövründə Ümummilli Liderimiz Naxçıvan Muxtar Respublikasından diqqət və qayğısını əsirgəməmişdir. 1969-cu ildən başlanan quruculuq və inkişaf istiqaməti Naxçıvanda da uğurlu şəkildə davam etdirildi. Bu quruculuq işləri sonrakı illərdə özünü tam doğruldaraq bir idarəetmə modeli olaraq tarixə düşdü. Sənaye müəssisələrinin yenidən işə salınması və yeni müəssisələrin yaradılması Nəticəsində 1993-2003-cü illərdə muxtar respublikanın sənaye məhsulu 3,4 dəfə artdı. Bu dövrdə 15 inzibati bina, 60 elm və təhsil müəssisəsi, o cümlədən 16 min 38 şagird yerlik 55 ümumtəhsil məktəbi, 43 mədəniyyət obyekti, 28 səhiyyə müəssisəsi, 5 idman obyekti, 24 nasos stansiyası, 135 subartezian quyusu, 34 körpü, 6 ticarət mərkəzi, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətdən zərərçəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 47 fərdi ev, 123 istehsal və xidmət obyekti tikilərək istifadəyə verildi. Əhalinin gəlirləri isə 10,5 dəfə artdı. Qeyd edilən nailiyyətlərin hamısı böyük dövlət xadimi, uzaqgörən siyasətçi Heydər Əliyevin böyük uğurlarının kiçik bir hissəsidir.

Ulu Öndərin Azərbaycanda ikinci hakimiyyəti dövründə də Naxçıvan Muxtar Respublikasında görülən kompleks quruculuq işlərini daim dəstəkləmiş və bir sıra sosial, ictimai obyektlərin açılışında iştirak etmək üçün 4 dəfə muxtar respublikaya səfər etmişdir. Birinci səfəri 1996-cı il oktyabrın 29-da, daha sonra 1999-cu il oktyabrın 10-da, digərləri 2002-ci ilin iyunun 15-də və həmin il avqustun 10-da reallaşmışdır.

Dahi şəxsiyyətin Naxçıvanın bu günü və gələcəyi üçün gördüyü ən böyük işlərdən biri də qədim diyarın muxtariyyətinin qorunub saxlanılması olmuşdur. 1995-ci il noyabrın 12-də referendumla qəbul edilmiş, onun müəllifi olduğu müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası Naxçıvanın muxtariyyət statusunu hüquqi cəhətdən möhkəmləndirmişdir. Həmin Konstitusiyanın VIII fəsli Naxçıvan Muxtar Respublikası ilə əlaqədardır. Konstitusiyanın 134-cü maddəsində deyilir:

“Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu konstitusiya ilə müəyyən edilir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir”.

Ulu Öndərimiz “Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi haqqında” imzaladığı 1999-cu il 4 fevral tarixli Fərmanda Naxçıvanın muxtariyyətini şərtləndirən başlıca tarixi-coğrafi amillər belə ifadə olunub: “Azərbaycan Xalq Cümhuriyyəti dövrünədək sərhədlər alt-üst edilməyə başlandı. İlk olaraq Azərbaycan torpağı Zəngəzur mahalı Ermənistan SSR-nin tərkibinə qatıldı. Əslində isə, ermənilərin planları daha geniş idi və onların torpaq iddialarının əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun Ermənistana ilhaq edilməsini bu yolda atılmış mühüm addım hesab edirdilər. Beləliklə də, Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının - Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi” [2].

Ümummilli Liderimizin Azərbaycana rəhbərliyinin birinci dövründə digər sahələrlə yanaşı, elmin inkişafı da diqqət mərkəzində saxlanılmış, 1972-ci ildə təşkil olunmuş Naxçıvan Elm Mərkəzində fundamental elmin müxtəlif sahələri üzrə genişmiqyaslı tədqiqatlar aparılmışdır. Burada muxtar respublikanın təbii sərvətlərinin, tarix və mədəniyyət abidələrinin öyrənilməsi istiqamətində çoxlu səmərəli işlər görülmüşdür.

Xalqımızın xilaskarı ötən əsrin 70-80-ci illərində ölkənin tərəqqisinin mühüm şərti kimi təhsilin inkişafının əsas götürüldüyünü xatırladaraq söyləmişdir: “Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal birinci növbədə təhsil müəssisələri ilə məşğul olmağa başladım. Bilirsiniz ki, mən o vaxta qədər də dövlət işində işləmişdim. Azərbaycanda təhsilin, xüsusən də ali təhsilin vəziyyəti məni daim maraqlandırmışdır. Təhsilin nailiyyətlərini də, qüsurlarını da, nöqsanlarını da bilirdim. Şübhəsiz ki, respublikanın başçısı kimi məsuliyyətimi də dərk edirdim. Ona görə də birinci növbədə təhsil məsələlərinə ciddi fikir verirdim”. Məhz bu amil hesabına Azərbaycan ötən yüzillikdə sürətli inkişaf və tərəqqi yoluna qayıtmaqla elm, təhsil, mədəniyyət inkişaf yolunu tutdu.

1970-1980-ci illərdə muxtar respublikada məktəbəqədər tərbiyə müəssisələrinin şəbəkəsi genişlənmiş, yeni obyektlər istifadəyə verilmişdir. Belə ki, uşaq bağçalarının sayı Naxçıvan şəhəri üzrə 7-dən 13-ə, Şərur rayonu üzrə 4-dən 10-a, Babək rayonu üzrə 4-dən 6-ya, Culfa rayonu üzrə 5-dən 10-a, Şahbuz rayonu üzrə 4-dən 7-yə artmışdır. Bütövlükdə, 1970-1980-ci illərdə muxtar respublikada 3690 yerlik məktəbəqədər uşaq müəssisələri tikilmişdir [1, s. 48].

Bütün respublikada olduğu kimi, Naxçıvan MR-də də dövlətin təhsil-tərbiyə sisteminin əsas halqası olan gənc nəslin istirahətinə böyük diqqət göstərilirdi. 1970-1980-ci illərdə uşaq istirahət mərkəzlərinin, parkların və pioner düşərgələrinin sayı, bu sahələrə ayrılan vəsaitlərin həcmi xeyli artmışdır. Bu baxımdan muxtar respublika hökumətinin “Uşaqların sağlamlığının qorunmasının vəziyyəti və onun daha da yaxşılaşdırılması tədbirləri haqqında” 1974-cü il 14 fevral tarixli qərarı təqdirəlayiq idi. Bu qərarda uşaqların istirahətinin daha da səmərəli təşkili, istirahət zonaları və pioner düşərgələrinin sayının artırılması, oradakı şəraitin yaxşılaşdırılması,

günüuzadılmış müəssisələrdə uşaqların təlim-tərbiyəsinə və istirahətlərinə daha böyük diqqət yetirilməsi məsələləri müzakirə olunmuşdur. Əgər 1970-ci ildə muxtar respublikada cəmi 9 pioner düşərgəsində 1660 nəfər məktəbli dincəlmişdirsə, 1980-ci ildə 43 pioner düşərgəsində 9396 nəfər uşaq istirahət etmişdir. Muxtar respublika məktəblərində günüuzadılmış qrupların sayı 1980-ci ildə 435-ə çatmış, sonrakı illərdə onların sayı daha da artırılaraq 1988/1989-cu tədris ilində 612 qrup təşkil etmişdir. Bu qruplarda 19553 nəfər məktəbli məşğul olurdu ki, bu da cəmi oxuyanların 39,1 faizini təşkil edirdi. Bununla yanaşı, məktəbə qədər müəssisələrin, pioner düşərgələrinin maddi-texniki bazası, avadanlıq və inventarlarla təminatı respublika səviyyəsindən aşağı idi. Pioner düşərgələri bir qayda olaraq, məktəb binalarında yerləşir, yaşayış və istirahət üçün münasib deyildi. Həmin illərdə Ulu Öndərin uzaqgörən siyasəti Nəticəsində ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan MR-də də məktəb tikintisi geniş miqyas aldı. Belə ki, Naxçıvan şəhərində 8, Şərur rayonunda 46, Babək rayonunda 12, Culfa rayonunda 15 olmaqla bütün muxtar respublika üzrə 103 məktəb inşa edilmişdir [1, s. 50].

Ulu Öndərin hakimiyyətə gəlişinə qədər muxtar respublikada ümumtəhsil məktəblərinin şagirdlərinin 59,8 faizi ikinci növbədə oxuyurdusa, 1980-ci illərin əvvəllərində yeni məktəb binalarının istifadəyə verilməsi ilə əlaqədar bu göstərici 44,2 faizə enmişdir. Muxtar respublikanın bir çox kəndlərində artıq məktəblilər müasir məktəb binalarında təhsil alırdılar.

Muxtar respublikada sənaye və kənd təsərrüfatının inkişafı ilə əlaqədar texniki peşə məktəbləri şəbəkəsinin genişləndirilməsi daim ölkə rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Belə ki, 1970-ci ildə muxtar respublikada 2 texniki peşə məktəbi mövcud idisə, 1980-ci ildə bu göstərici 8-ə çatdırıldı. Bütövlükdə, 1971-1980-ci illərdə bu məktəblərdə 9800 nəfərə yaxın ixtisaslı fəhlə kadrı hazırlanmışdır. 1970-ci ildə peşə məktəblərində 9 ixtisas üzrə 44 usta çalışırdısa, 1980-ci ildə 22 ixtisas üzrə 62 usta təlim vermişdir. 1980-ci ildə Naxçıvanda bütün təhsil müəssisələri üzrə müəllimlərin sayı 5276 nəfər təşkil edirdi. Onların 3974 nəfəri ali, 517 nəfəri natamam, 785 nəfəri isə orta pedaqoji təhsilə malik idi. Müqayisə üçün 1970-ci ildə bu göstəricilər müvafiq olaraq 3120, 1415, 662 və 1133 nəfər təşkil edirdi. Müəllimlərin sayında ali təhsillilər təqribən 2,8 dəfə artmış, orta təhsillilər isə təqribən 1,4 dəfə azalmışdır. 1984-cü ildə Naxçıvan MSSR-də 210 ümumtəhsil məktəbi, o cümlədən 21 ibtidai, 68 əsas, 121 orta məktəb, 61 məktəbəqədər uşaq müəssisəsi, 6 texniki peşə məktəbi və 4 texnikum fəaliyyət göstərirdi [1, s.55].

1993-cü ildə yenidən hakimiyyətə qayıdan xalqımızın xilaskarı gənc, müstəqil Azərbaycan Respublikasının üzləşdiyi problemlərə baxmayaraq, təhsil sahəsindəki mövqeyini xalq arasında belə ifadə etdi: “Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam. Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir”.

Muxtar respublikada 1995-ci ildə 29-u şəhər, 75-i kənd yerlərində olmaqla, ümumilikdə, 104 məktəbəqədər uşaq müəssisəsi fəaliyyət göstərmişdi. Təhsil müəssisələrində 5719 uşaq təhsil almışdır ki, bunun da 2570-i şəhər, 3149-u kənd yerlərinin payına düşmüşdür. Bu dövrdə 11 peşə məktəbi və peşə liseyi, 5 orta ixtisas

müəssisəsi, 1 ali məktəb fəaliyyət göstərmiş və bu təhsil müəssisələrində təhsil alanların sayı müvafiq olaraq 1230, 1351 və 2254 nəfər olmuşdur [1, s. 56].

Ulu Öndərimiz təhsil sahəsində geniş islahatların həyata keçirilməsini bir vəzifə olaraq qarşıya qoydu. Bu baxımdan 1999-cu ilin iyununda imzalanmış "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" xüsusi əhəmiyyət kəsb edir. Bu proqram Azərbaycanın milli təhsil sisteminin idarə olunmasını, yeni prinsiplərin tətbiq olunmasını və beynəlxalq normalara uyğunlaşdırılmasını, eyni zamanda dünya təhsil sisteminə inteqrasiyasının sürətləndirilməsini özündə əks etdirir. Təhsil sisteminin strukturunun yeniləşdirilməsi məqsədilə Ulu Öndər Heydər Əliyev "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun tarixdə Fərman imzalamışdır. Bu fərman təhsilin inkişaf istiqamətlərini müəyyən etməklə yanaşı, təhsil işçilərinin fəaliyyəti üçün də stimul yaratmışdır [3].

Ümummilli Liderimiz Heydər Əliyevin 2001-ci il 18 iyun tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında", 2001-ci il 9 avqust tarixli "Azərbaycan əlifbası, Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanları və digər qərarlar təhsilin və elmin inkişafında, mədəni dəyərlərimizin qorunub saxlanılmasında, milli şüurumuzun formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Naxçıvan Muxtar Respublikası - 95. Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2019, 184 s.
2. Heydər Əliyev "Müstəqilliyimiz əbədidir". Çıxışlar. Nitqlər, Bakı, 2008-ci il, VIII cild, s.368
3. Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Heydər Əliyev dühası və müasir Azərbaycan" mövzusunda elmi-nəzəri konfransın materialları, Mingəçevir, 4-5 may 2022
4. "Elm" qəzeti, 23 may 2002
5. https://azedu.az/az/news/9316-heyder-eliyevin-tehsil-yolu-ve-bu-sahedegorduyu-boyuk-isler-anim-gunu

ABSTRACT

Çinara Aliyeva, Saida Abdullayeva

HEYDAR ALIYEV POLICY IN THE DEVELOPMENT OF NAKHCHIVAN EDUCATION

The article deals with the policy of our great leader Heydar Aliyev in the development of Nakhchivan education. The genius person Heydar Aliyev made and implemented important decisions for the development of Science, Education and culture in the Nakhchivan Autonomous Republic during his high positions. During his tenure as a great statesman, Nakhchivan AR experienced its Renaissance, a number of preschool institutions, new school buildings were put into operation, the number of secondary education decreased, and higher education increased. The most important

goal of his policy is to build a strong state and train healthy National Personnel. During the entire period of the far-sighted political leader in power, the country has been at the forefront of training highly qualified, professional personnel, and the formation of a competitive environment in higher education.

Keywords: *great leader, education, strategy, reform, staff training*

РЕЗЮМЕ

Чинара Алиева, Саида Абдуллаева

ПОЛИТИКА ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ ОБРАЗОВАНИЯ НАХЧЫВАНА

В статье рассказывается о политике нашего великого лидера Гейдара Алиева в развитии Нахчыванского образования. Гениальный человек Гейдар Алиев, занимая высокие посты, принимал и претворял в жизнь важные решения по развитию науки, образования и культуры в Нахчыванской Автономной Республике. За время его пребывания на посту великого государственного деятеля Нахчыванская АР пережила свое возрождение, был сдан в эксплуатацию ряд дошкольных учреждений, новые школьные здания, сократилось количество средних учебных заведений и увеличилось количество высших учебных заведений. Важнейшей целью его политики является построение сильного государства и подготовка здоровых национальных кадров. На протяжении всего периода пребывания у власти дальновидного политического лидера страна была на переднем крае подготовки высококвалифицированных, профессиональных кадров и формирования конкурентной среды в сфере высшего образования.

Ключевые слова: *великий лидер, образование, стратегия, реформа, подготовка персонала*

SAMİRƏ MUSTAFAYEVA **CAVAD BAYRAMLI**

mustafasamire26@gmail.com *cavadbayramli7@gmail.com*

SƏKİNƏ MUSTAFAYEVA

sekinemustafayeva004@gmail.com

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci

AZƏRBAYCANIN "YAŞIL ENERJİ" SAHƏSİNDƏ ATDIĞI ADDIMLAR

XÜLASƏ

"Yaşıl enerji"dən istifadə edilməyi müasir dövrümüzün ən başlıca istiqamətlərindən biridir. Buradakı əsas məqsəd alternativ enerji mənbələrindən istifadə etməklə ekologiyaya təbii hadisələrdən enerji yaratmaqla ekologiyaya zərər vermir. Fosil yanacaqlardan istifadə edilmir və atmosferə karbon qazı buraxılmır. Azərbaycanda xüsusən işğaldan azad edilmiş ərazilərdə yaşıl enerjidən istifadə edərək yenidənqurma, inkişaf və ekoloji təmiz bir mühit qurmağı hədəfləyir.

Açar sözlər: *Yaşıl enerji, davamlılıq, ekologiya, gələcək*

Giriş

"Yaşıl enerji" istifadəsi müasir dövrümüzdə ekologiyanın xilaskarı ola bilər. Bundan səmərəli istifadə etməklə mövcud ekoloji böhranı aradan qaldırmaq, karbon tullantılarını azaltmaq və bunun Nəticəsində istixana effektini azaltmağı hədəfləyir. "Yaşıl enerji"nin təməlində təbii enerji mənbələri olan günəş enerjisi, külək enerjisi, su (hidroenerji) enerjisi, biokütlə enerjisi, geotermal enerji dayanır. Bu enerjidən istifadə edilməsi həm ətraf mühitin qorunmasına, həm də sosial-iqtisadi inkişafın təşviqinə köməklik edir. "Yaşıl enerji"nin istifadəsinin Nəticəsində iqlim dəyişikliklərinin qarşısının alınmasına və qlobal istiləşmənin azaldılmasına böyük töhfə verir. Ayrıca, hava və suyun çirklənməsi riskini azaldır, ekosistemləri qoruyur və təbii sərvətlərin istifadəsini optimallaşdırır. Yaşıl enerji mənbələri təbii olaraq yenilənə biləndir. Günəş, külək, su və biokütlə kimi mənbələr heç bir zaman tükənmir. Bu yaşıl enerjinin gələcəkdə də mövcud olacağını və istifadə olunacağını mənasına gəlir. Yaşıl enerji tükənən fosil yanacaqlardan asılılığın azaldılmasına kömək edir və enerjinin təminatını uzunmüddətli perspektivdə daha dayanıqlı edir. Yaşıl enerji mənbələri ölkələrin xarici enerji resurslarına olan asılılığını azaldır. Burada ölkələr öz yerli və milli təbii resurslarından istifadə etməklə enerji müstəqilliyi qazanmış olurlar.

Yaşıl enerji insan sağlamlığını qorumağa da kömək edir. Fosil yanacaqların istifadəsi Nəticəsində havaya atılan zəhərli maddələr (karbon monoksid, azot oksidləri) insan sağlamlığını ciddi şəkildə təhlükədə saxlayır. Yaşıl enerjinin istifadəsi ilə bu maddələrin miqdarı azaldıqca hava keyfiyyəti yaxşılaşır və nəfəs alma problemləri, ürək-damar xəstəlikləri və digər hava çirkliliyi ilə yaranan xəstəliklər azalır. Yaşıl

enerji qlobal istiləşmənin və iqlim dəyişikliliyinin qarşısının alınmasında əsas faktorlardan biridir. Yaşıl enerji mənbələri, karbon emissiyalarını azaldaraq atmosferin təmizlənməsinə və temperatur artışının yavaşlamasına köməklik edir. Bu, xüsusilə dünya üzrə təbii fəlakətlərin azalmasına və ekosistemlərin qorunmasına şərait yaradır. Yenilənə bilən enerji mənbələrindən daha çox ölkədə istifadə edilməsi qlobal enerji təchizatının daha etibarlı və təhlükəsiz olmasına imkan verir. Bu enerji qıtlığı və qiymət dalğalanmağını azaldır, dünya enerji bazarını sabitləşdirir.

Yaşıl enerjinin faydaları yalnız ətraf mühitin qorunmasına yönəlmiş deyil, həm də iqtisadi və sosial inkişafı təşviq edir. Bu enerji mənbələrinin istifadəsi, təbii sərvətlərin səmərəli istifadəsi, enerji müstəqilliyinin artırılması və yeni iş yerlərinin yaradılması baxımından böyük əhəmiyyət kəsb edir. Yaşıl enerjinin daha geniş tətbiqi, gələcəkdə daha təmiz, dayanıqlı və iqtisadi cəhətdən faydalı bir dünya qurmağa imkan verir.

Azərbaycan Respublikası da dünyanın iqliminin dəyişdiyi bu dövrdə həm dünyanın, həm də ölkənin gələcək taleyini daha da yaxşılaşdırmaq üçün addımlar atır. Elə bu addımlardan biri də yaşıl enerji sahəsində atılan addımlardır. Azərbaycan Respublikası yaxın gələcəkdə "yaşıl artım" ölkəsinə və yaşıl enerji ixracatçısına çevrilməyi hədələyir. Bu hədəni reallaşdırmaq üçün isə Azərbaycanın yetərincə potensialı mövcuddur. Belə ki, ölkəmizin təsdiq edilmiş bərpaolunan enerji mənbələrinin texniki potensialı 184 GVt-dan (GW) çoxdur və bundan istifadə edərək yaşıl enerji istehsalını artırmaq imkanları mövcuddur. Artıq bu istiqamətdə əməli fəaliyyət göstərilir və işğaldan azad edilmiş ərazilərin yaşıl enerji zonasına çevirmək yönündə iş aparılır. Eyni zamanda Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payını 2021-ci ildəki 17,3 faizdən 2030-cu ildə 30 faizə çatdırılmasını planlaşdırır. Qeyd edilənlərlə yanaşı, Azərbaycan özü ilə Avropa arasında yaşıl enerji dəhlizinin yaradılması istiqamətində mühüm addımlar atır və 2022-ci ildə Buxarestdə Gürcüstan, Rumıniya və Macarıstanla yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalamışdır. Azərbaycan partnyorları ilə reallaşdırmağı hədələdiyi bu layihədə Qara dənizin dibi ilə elektrik kabelinin çəkilişi nəzərdə tulub. Bu isə Azərbaycana yaşıl enerjini Avropa bazarına çıxartmağa imkan verəcəkdir (Hüseyn, 2022, s.16).

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yaşıl enerjinin inkişafı ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edir. Bu ərazilərdə müasir enerji infrastrukturunun yaradılması, həmçinin ekologiyanın qorunması məqsədi ilə bərpa olunan enerji mənbələrindən istifadənin artırılması böyük bir potensiala malikdir. Son illərdə dünya miqyasında təbii resursların qorunması və davamlı inkişaf prinsiplərinə uyğun olaraq, yaşıl enerji texnologiyalarının tətbiqi ön plana çıxmışdır. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələri bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu ərazilərdə günəş, külək, biokütlə kimi bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsi həm enerji təhlükəsizliyini təmin etməyə, həm də ekoloji təmiz enerjinin istehsalına imkan verir. Xüsusilə Şuşa, Laçın, Zəngilan, Kəlbəcər kimi ərazilər günəş və külək enerjisi üçün əlverişli ərazilərdir. Yaşıl enerjinin inkişafı,eyni zamanda, yerli əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması və iş yerlərinin yaradılmasına da müsbət təsir edir. İşğaldan azad olnmuş ərazilərdə yaşıl enerji layihələrinin həyata keçirilməsi Azərbaycanın enerjiyə olan tələbatını qarşılamanın ən müasir və təmiz

yoludur. Bu yanaşma həm iqtisadiyyatın, həm də ekoloji tarazlığın qorunmasına xidmət edəcəkdir. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində günəş enerjisi potensialı 7200 MVt və külək enerjisi potensialı 2000 MVt təşkil edir. Hesablamalara görə günəş və külək enerji növlərinin istehsalı təxminən 10 min meqavata çatabilər. Xüsusən də Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı isə Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur. Bu potensialdan dolğun istifadə etmək üçün də Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 3 may tarixli Sərəncamı ilə işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün Energetika Nazirliyinə müvafiq tapşırıq verilmişdir. Sözügedən sərəncama uyğun olaraq, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı" 2022-ci il 21 iyun tarixində Nazirlər Kabineti tərəfindən qəbul edilmişdir. Tədbirlər Planı çərçivəsində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə yaşıl texnologiyaların və enerji səmərəliliyi tələblərinin tətbiqi üzrə dövlət və özəl təşkilatlar tərəfindən müvafiq tədbirlərin görülməsi nəzərdə tutulur. Həmin tədbirlər Naxçıvandan keçməklə Azərbaycan-Türkiyə-Avropa Enerji Dəhlizinin yaradılmasını, bərpa olunan enerji mənbələrinin potensialının ölçülməsini, Xudafərin və Qız Qalası suelektrik stansiyalarının, Laçın-Kəlbəcər rayonlarında külək elektrik stansiyalarının tikintisini və s. məsələləri əhatə edir. Həmçinin Cəbrayıl və Zəngilan rayonlarının ərazisində 240 meqavatlıq Günəş Elektrik Stansiyası tikilməsi planlaşdırılır. "Yaşıl Enerji Zonası"nın yaradılmasına töhfə verəcək digər bir layihə isə Kəlbəcər və Laçın rayonlarında külək elektrik stansiyalarının tikilməsi ilə bağlıdır. İlkin hesablamalar göstərir ki, qeyd edilən ərazidə 100 MVt-dək gücdə külək elektrik stansiyasının tikilməsi perspektivlidir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində "netto sıfır emissiya" zonasının yaradılması istiqamətində atılan addımlar yaxın gələcəkdə yaşıl enerji ixracına töhfə verəcəkdir. Artıq Azərbaycan Zəngəzur dəhlizindən elektrik enerjisinin ötürülməsi məsələsini də gündəmə gətirmişdir. Cəbrayıl rayonunda enerji qəbuledici və çevirici stansiya tikilməsi də yaxın gələcəkdə yaşıl enerji ixracına xidmət edə bilər. Belə ki, Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana ötürülən enerji oradan Türkiyəyə və digər ölkələrə ixrac etmək imkanları yaranacaqdır. Yəni Azərbaycan-Türkiyə-Avropa Enerji Dəhlizinin yaradılması prosesinə xidmət edəcəkdir (Hüseyn, 2022, s.17).

Azərbaycan Respublikasının hədəflədiyi, ekoloji yenidənqurma və karbon emissiyalarının azaldılması işləri bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında uğurlu davam edir. Bunun bariz bir nümunəsi kimi bu il ölkəmizdə keçirilən beynəlxalq miqyaslı COP29 konfransını misal göstərmək olar. Yaşıl enerjinin tətbiqi işğaldan azad olmuş yerlərdə illər boyu ekoloji terrora məruz qalmış ərazilərin ekoloji tarazlığının bərpası və qorunmasına müsbət təsir göstərir. Bu prosesin müsbət Nəticələrlə davam etdiyinin bariz nümunəsi COP29-dur. Bu beynəlxalq konfransda dünyanın yaşıl enerjiyə keçidi ilə bağlı mühüm qərarlar da qəbul ediləcək. Azərbaycan Avropaya yaşıl enerjinin ixracı ilə bağlı layihənin reallaşdırılması üçün mühüm tərəfdaşlar cəlb edə biləcək ki, bu da gələcəkdə ölkəmizin iqtisadi baxımdan inkişafına dəstək olacaq. Bu gün Azərbaycanın alternativ enerji mənbələri üzrə təsdiqlənmiş

böyük potensialının olduğunu nəzərə alsaq, bu kimi vacib layihələrin həyata keçirilməsi üçün beynəlxalq maliyyə kanallarının açılması ilə böyük sərmayələrin yatırılması yeni yaşıl enerji əsrinin başlanğıcına start verməyə imkanlar açacaq.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb.İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

İqlim dəyişikliyi vəhşi təbiət üçün görünməmiş təhlükə yaradır. Əgər karbon çirklənməsini azaltmaq üçün indi qətiyyətli addımlar atmasaq, bütün vəhşi təbiət növlərinin üçdə biri növbəti əsrdə yox olmaq riskinin artması ilə üzləşəcək. İqlimimizdəki dəyişikliklər vəhşi təbiətin kritik yaşayış mühitini məhv edir, yaşayış sahələrinin dəyişməsinə səbəb olur, zərərvericilərin və invaziv növlərin hallarının artmasına və qida və suyun mövcudluğunun azalmasına səbəb olur. İqlimimizin necə dəyişdiyi qədər vacib olan odur ki, o qədər sürətlə dəyişir ki, növlər daha uyğun ərazilərə kifayət qədər tez uyğunlaşa və ya köçə bilməyəcəklər. Yaxşı xəbər budur ki, biz vəhşi təbiəti qoruyacaq və çirklənməni azaldacaq təmiz enerji həllərini inkişaf etdirmək üçün bu gün hərəkətə keçə bilərik. Külək inkişafında çox müsbət impuls olsa da, bu böyüyən sənaye ağır subsidiyalaşdırılan qalıq yanacaqlarla rəqabətdə çətin problemlərlə üzləşir. Karbon emissiyalarının atılmasına səbəb olan fosil yanacaqların istifadəsi, odun və kömür yaratmaq üçün ağacların kəsilməsi və bunun Nəticəsində meşə massivlərinin azalması, qanunsuz ovlamalar, su israfı və sadalana biləcək bir çox səbəb heyvanların da həyatını təhlükəyə atır. Yaşam əraziləri azalır, qida tapmaqları çətinləşir. Yaşıl enerjiyə keçid sadəcə biz insanlara deyil, həmçinin heyvanlara, digər canlı aləmə də müsbət təsir verdi. Artıq ağaclar kəsilmir yeni yaşam əraziləri yaranır və qida tapmaq asanlaşır. Azərbaycan Respublikası vəhşi həyatın da ekologiyanın çirklənməsindən ala biləcəyi zərərləri ən aşağı səviyyəyə salır. Ekologiyanın və hər birimizin gələcəyi üçün hər birimiz əl-ələ çalışırıq və çalışmağa da davam edəcəyik.

Külək enerjisi küləyi meydana gətirən hava axınının sahib olduğu hərəkət (kinetik) enerjisidir. Bu, alternativ (bərpaolunan) enerji mənbələrindən biri hesab olunur. Bu enerjinin bir hissəsi faydalı olan mexaniki və ya elektrik enerjisinə çevrilə bilər.

Qiymətləndirmələr göstərir ki, küləyin sürəti saniyədə 3-4 metr olduğu halda elektrik enerjisinin əldə edilməsi mümkündür. Bakıda küləyin orta sürəti saniyədə 11 metrdir. Bundan başqa, işğaldan azad edilmiş Laçın və Kəlbəcər rayonlarında da küləkdən elektrik enerjisi alınması potensialı böyükdür. Kəlbəcər rayonunun dağlıq ərazilərində küləyin orta illik sürəti saniyədə 7-8 metr təşkil edir. Deməli, külək enerjisindən istifadə imkanlarımız genişdir.

Keçən ilin oktyabr ayında Prezident İlham Əliyev "Qaradağ" Günəş-Elektrik Stansiyasının rəsmi açılış mərasimindəki çıxışında Qarabağın, Şərqi Zəngəzurun və Naxçıvanın "yaşıl enerji" zonası elan olunduğunu bir daha vurğulayıb. Dövlətimizin başçısı külək enerjisindən də danışaraq deyib: "Bizim təbii sərvətlərimizin istifadəsi üçün böyük potensial var və aydındır ki, külək də artıq bu sərvətə çevrilib. Çünki külək həmişə, xüsusilə də təyyarə ilə enəndə bəzən müəyyən problemlərin mənbəyi olub. Lakin indi külək təbii sərvətdir. Bunu ola bilsin, 10-20 il bundan əvvəl təsəvvürə gətirmək çətin olardı. Lakin indi bu belədir və xüsusilə Xəzər dənizində külək çox güclüdür. Hətta bu gün buradakı külək onu göstərir ki, bu potensial buradadır". Azərbaycan bu sahədə də bir sıra tanınmış xarici şirkətlərlə tərəfdaşlıq edir. Bunlardan biri Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətidir. Bu şirkətlə tikilməkdə olan "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası xüsusi əhəmiyyət kəsb edir. Stansiyanın təməli 2022-ci il yanvarın 13-də Xızı rayonunun ərazisində qoyuldu. Bu, ölkəmizdə xarici sərmayə cəlb edilməklə həyata keçirilən ilk sənaye həcmli bərpaolunan enerji layihəsidir. Eyni zamanda stansiya Azərbaycanda ən böyük külək enerji stansiyası olacaq. Müqayisə üçün qeyd edək ki, hazırda Xızı rayonunun ərazisində yerləşən 50 MVt gücündə "Yeni Yaşma" Külək-Elektrik Stansiyasında 20 külək turbini var və onların hər birinin gücü 2,5 MVt-dır. Bu layihədə isə təxminən 37 külək turbini olacaq və hər biri 6,5 MVt gücündə planlaşdırılıb. Layihənin investisiya dəyəri 300 milyon dollar həcmində qiymətləndirilir. "Xızı-Abşeron" stansiyasında ildə 1 milyard kilovat/saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır ki, bu da təxminən 300 min evin elektrik enerjisi ilə təmin olunması deməkdir. Bu layihənin həyata keçirilməsi ilə ildə atmosferə atılan 400 min tondan artıq karbon qazı emissiyasının qarşısı alınacaq. Bu da təbii ki, ekoloji baxımdan əhəmiyyət daşıyır. Həmçinin ildə 200 milyon kubmetr qaza qənaət ediləcək. Beləliklə, layihə ekoloji faydaları ilə qlobal iqlim hədəflərinə yaxınlaşmağa kömək edəcək.

ABSTRACT

Sakina Mustafayeva, Javad Bayramli,
Sakina Mustafayeva

STEPS TAKEN BY AZERBAIJAN IN THE FIELD OF "GREEN ENERGY"

The use of "Green Energy" is one of the most important directions of our modern era. The main goal here is to create energy from natural phenomena and not harm the environment by using alternative energy sources. Fossil fuels are not used and carbon dioxide is not released into the atmosphere. It aims to create a reconstruction, development and an ecologically clean environment by using green energy in Azerbaijan, especially in the territories freed from occupation.

Keywords: *Green energy, sustainability, ecology, future*

РЕЗЮМЕ

Самира Мустафаева, Джавад Байрамлы,
Сакина Мустафаева

ШАГИ, ПРЕДПРИНЯТЫЕ АЗЕРБАЙДЖАНОМ В СФЕРЕ «ЗЕЛЕНОЙ ЭНЕРГЕТИКИ»

Использование «Зеленой энергетики» – одно из важнейших направлений нашей современной эпохи. Основная цель здесь – создавать энергию из природных явлений и не наносить вред окружающей среде, используя альтернативные источники энергии. Ископаемое топливо не используется и углекислый газ не выбрасывается в атмосферу. Целью проекта является создание реконструкции, развития и экологически чистой окружающей среды за счет использования зеленой энергии в Азербайджане, особенно на территориях, освобожденных от оккупации.

Ключевые слова: *зеленая энергия, устойчивость, экология, будущее*

DİLBƏR BABAYEVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
dilbər.babayeva97@gmail.com

ALMAN YAZIÇILARI İLƏ AZƏRBAYCAN YAZIÇILARININ MÜQAYİSƏLİ TƏHLİLİ

XÜLASƏ

Azərbaycan və Almaniya yazıçıları müxtəlif mövzulara, janrlara və dövrlərə aid olan əsərlərində bir çox oxşar cəhətlərə malikdirlər. Hər iki ölkənin yazıçıları mövzu çeşidliliyi, realizm, modernizm, romantizm, müharibə ədəbiyyatı, simvolizm və metaforaların istifadəsi baxımından oxşarlıq göstərirlər. Bu, onların əsərlərində insan təcrübələrini, sosial və psixoloji mövzuları təsvir etməyə çalışdıqlarını göstərir. Fərqli mədəniyyətlərdən olmalarına baxmayaraq, həm Azərbaycan, həm də Alman yazıçıları universal insan həyatının aspektlərini əks etdirmişlər. Alman və Azərbaycan mütəfəkkirlərinin qarşılıqlı təhlili mədəniyyət, fəlsəfə, ədəbiyyat və digər sahələrdə müxtəlif maraqlı paralelləri və fərqləri üzə çıxara bilər. Hər iki ölkənin zəngin fəlsəfi və ədəbi irsi var, lakin bu irslər fərqli tarixi, mədəni və sosial kontekstlərdə formalaşıb. Aşağıda bir neçə əsas mütəfəkkirin əsərləri və ideyaları arasındakı bəzi oxşarlıqları və fərqləri qeyd olunur.

Açar sözlər: *simvolizm, müharibə ədəbiyyatı, metaforalar, teleologiya*

Alman mütəfəkkirləri
İmmanuel Kant
- Əsərləri: “Saf ağlın tənqidi,” “Praktik ağlın tənqidi”
- Fikirləri: Kant epistemologiya və etikaya böyük töhfələr vermişdir. Onun tənqidi fəlsəfəsi biliklərin təcrübə və ağlın birləşməsi ilə əldə edildiyini iddia edir.

İmmanuel Kant (1724-1804) Alman fəlsəfəsinin ən mühüm simalarından biridir. Onun ideyaları epistemologiya, əxlaq fəlsəfəsi, estetika və metafizikaya dair geniş təsir göstərmişdir. Königsbergdə (indiki Kalininqrad, Rusiya) doğulan Kant bütün həyatını burada keçirərək genişmiqyaslı əsərlər yaratmışdır.

Həyatı

Kant 1724-cü ildə Königsbergdə doğulub. Onun atası yəhər ustası idi və ailəsi mülayim dini inanclara malik idi. Kantın gənclik illəri çətin keçdi, lakin onun akademik bacarıqları erkən yaşlarda bəlli oldu. Königsberg Universitetində təhsil aldı və burada daha sonra professor oldu. Bütün həyatını doğma şəhərində keçirən Kant, heç vaxt Königsberqdən çıxmamışdır.

Əsas əsərləri

Kantın ən məşhur əsərləri onun üç əsas tənqidi işidir:

1. “Saf ağlın tənqidi” (Kritik der reinen Vernunft) (1781): Bu əsər Kantın epistemologiya və metafizikaya dair fikirlərini ehtiva edir. Kant burada insan biliyinin sərhədlərini və əsaslarını araşdırır, fenomen və numen anlayışlarını təqdim edir. O, biliyin təcrübə və ağlın qarşılıqlı təsiri ilə əldə edildiyini irəli sürür.

2. “Praktik ağlın tənqidi” (Kritik der praktischen Vernunft) (1788): Bu əsər əxlaq fəlsəfəsinə həsr olunmuşdur. Kant burada kateqorik imperativ anlayışını təqdim edir, hansı ki, hərəkətlərin universal qanunlar kimi qəbul edilməsi prinsipi üzərində qurulmuşdur. Bu prinsiplə hərəkətlərin əxlaqi dəyəri müəyyən edilir.

3. “Mühakimə qabiliyyətinin tənqidi” (Kritik der Urteilskraft) (1790): Kant bu əsərdə estetika və teleologiya mövzularını araşdırır. O, estetik mühakimə və təbiətin məqsədyönlü görünüşü arasında əlaqələri tədqiq edir.

Fikirləri

Epistemologiya və metafizika

Kantın epistemologiyası “tənqidi fəlsəfə” adlanır. O, insan biliyinin məhdudiyyətlərini və əsaslarını müəyyən etməyə çalışır. Kant iddia edir ki, biz “şeylərin özündə” (noumenal dünya) bilə bilmərik, yalnız onların bizə necə göründüyünü (fenomenal dünya) bilə bilərik. Bu, insan təcrübəsinin təbiəti və biliyin sərhədləri haqqında əhəmiyyətli bir yanaşmadır.

Əxlaq fəlsəfəsi

Kantın əxlaq fəlsəfəsi kateqorik imperativ anlayışına əsaslanır. Bu, hərəkətlərin yalnız fərdi məqsədlərə görə deyil, həm də universal qanunlar kimi qəbul edilə biləcək prinsiplər əsasında olmalıdır. Kantın fikrincə, əxlaqi hərəkətlər azad iradə və rasional qərarlar əsasında olmalıdır.

Estetika və teleologiya

“Mühakimə qabiliyyətinin tənqidi” əsərində Kant estetik mühakimə və təbiətin məqsədyönlü görünüşünü araşdırır. O, estetik təcrübənin subyektiv olduğunu, lakin müəyyən universal prinsiplərə əsaslana biləcəyini iddia edir. Kantın teleologiya anlayışı təbiətin məqsədyönlü göründüyünü və bu məqsədyönlülüyün ancaq estetik və tənqidi mühakimə ilə dərk edilə biləcəyini vurğulayır.

Təsiri və irsi

Kantın ideyaları fəlsəfənin müxtəlif sahələrinə böyük təsir göstərmişdir. Onun epistemologiyası və əxlaq fəlsəfəsi 19-cu və 20-ci əsrin fəlsəfi düşüncəsinə dərin təsir etmişdir. Hegel, Schopenhauer, Nietzsche kimi filosoflar Kantın ideyalarından ilhamlanmış, lakin onları fərqli istiqamətlərdə inkişaf etdirmişdir. Müasir fəlsəfədə də Kantın ideyaları aktualdır və fəlsəfi diskussiyalarda geniş istifadə olunur.

Nəticə

İmmanuel Kantın fəlsəfəsi insan biliyinin, əxlaqının və estetikasının təməl prinsiplərini araşdıraraq bu sahələrdə yeni perspektivlər açmışdır. Onun əsərləri və fikirləri yalnız fəlsəfi sahədə deyil, həm də elmdə, siyasətdə və incəsənətdə geniş təsir göstərmişdir. Kantın irsi müasir fəlsəfənin əsas sütunlarından biri olaraq qalmaqda davam edir.

Georg Wilhelm Friedrich Hegel

- Əsərləri: “Ruhun fenomenologiyası,” “Hüquq fəlsəfəsi”

- Fikirləri: Hegel dialektik metodun inkişafında önəmli rol oynamışdır. Onun fəlsəfəsi tarixi proseslərin və insanın özü dərk etmə prosesinin dialektikası üzərində qurulub.

Azərbaycan mütəfəkkirləri

Nizami Gəncəvi

- Əsərləri: “Xəmsə” (beş poema daxil: “Leyli və Məcnun,” “Xosrov və Şirin”)

- Fikirləri: Nizami Gəncəvi sevgi, ədalət, və insan münasibətləri mövzularında yazıb. Onun əsərləri etik və humanist dəyərləri vurğulayır.

Mirzə Fətəli Axundov

- Əsərləri: “Aldanmış Kəvakib,” “Molla İbrahimxəlil Kimyagər”

- Fikirləri: Axundov maarifçilik ideyalarını Azərbaycana gətirmiş, dini və sosial islahatları müdafiə etmişdir. O, həm də realist və satirik üslubu ilə tanınır.

Qarşılıqlı təhlil

1. Epistemologiya və əxlaq:

- Kant ağlın və təcrübənin bilik əldə etmədəki rolunu vurğulayır. Onun etikası kateqorik imperativ konsepsiyasına əsaslanır.

- Nizami isə daha çox humanist və etik dəyərləri poetik formada ifadə edir, lakin onun əsərlərində də insanın özünü dərk etməsi və əxlaqi kamilləşmə mövzuları vardır.

2. Dialektika və tarix:

- Hegel tarix və dialektikanın inkişafını vurğulayır. Onun fəlsəfəsi insanın tarixi prosesdə özünü dərk etməsinə əsaslanır.

- Axundov isə tarixi və sosial problemlərə maarifçilik baxımından yanaşır, satirik əsərlərində bu problemləri tənqid edir və islahatlara çağırır.

3. İnsanın təbii vəziyyəti və qanunlar:

- Kant və Hegel insanın təbii vəziyyəti, qanunlar və azadlıq mövzularında dərin fəlsəfi müzakirələr aparmışdırlar.

- Axundov və Nizami isə bu mövzuları daha çox ədəbiyyat və etik müstəvidə müzakirə etmiş, sosial ədalət və insani dəyərləri ön plana çəkmişlər.

Nəticə

Alman və Azərbaycan mütəfəkkirlərinin əsərləri arasında müəyyən paralellər çəkmək mümkündür. Kant və Hegel daha çox fəlsəfi sistemlər və nəzəriyyələrlə məşğul olmuş, epistemologiya, əxlaq və tarix kimi mövzuları dərindən araşdırmışdırlar. Nizami və Axundov isə daha çox poeziya və ədəbiyyat vasitəsilə etik və sosial məsələləri işıqlandırmış, insani dəyərləri və maarifçilik ideyalarını ön plana çəkmişdirlər. Bu mütəfəkkirlərin əsərləri müxtəlif mədəni kontekstlərdə formalaşsa da, insan təcrübəsi və dəyərlərinə dair ortaq mövzular tapmaq mümkündür.

Alman fəlsəfəsi zəngin və çoxşaxəli ənənəsi ilə məşhurdur. Alman mütəfəkkirlərinin ideyaları yalnız fəlsəfi sahədə deyil, həm də ədəbiyyat, incəsənət, siyasət və elmdə böyük təsir göstərmişdir. Bu mütəfəkkirlər arasında bir neçə önəmli sima var ki, onların fikirləri və əsərləri dünya fəlsəfə tarixinə əhəmiyyətli töhfələr vermişdir. Aşağıda bu mütəfəkkirlərdən bəziləri haqqında geniş məlumat verəcəyəm.

İmmanuel Kant (1724-1804)

Königsbergdə doğulan Immanuel Kant Alman idealizminin əsasını qoyan və epistemologiya, əxlaq fəlsəfəsi və estetika sahələrinə böyük təsir göstərmiş bir mütəfəkkirdir.

Əsərləri:

- Saf ağlın tənqidi (1781): Kantın ən məşhur əsərlərindən biridir. Bu əsərdə o, insan biliyinin sərhədlərini və imkanlarını araşdırır. Kantın "fenomen" və "numen" (ya da şeylərin özündə mahiyyəti) anlayışları burada əsas rol oynayır.

- Praktik ağlın tənqidi" (1788): Bu əsərdə Kant əxlaq fəlsəfəsini tədqiq edir və kateqorik imperativ nəzəriyyəsini təqdim edir.

-Mühakimə qabiliyyətinin tənqidi (1790): Bu əsərdə Kant estetika və teleologiya mövzularını araşdırır.

Fikirləri:

Kant epistemologiya sahəsində "tənqidi fəlsəfə"ni inkişaf etdirmişdir. O, biliyin nə təcrübəyə, nə də yalnız ağlın Nəticəsi olmadığını, bunların vəhdətindən yaranan bir şey olduğunu iddia edir. Əxlaq sahəsində isə onun kateqorik imperativ nəzəriyyəsi fərdin hərəkətlərinin universal qanunlara uyğun olması ideyasını vurğulayır.

Georg Wilhelm Friedrich Hegel (1770-1831)

Stuttgartda doğulan Hegel dialektik metodun inkişafında mühüm rol oynayan və tarix fəlsəfəsinə böyük töhfələr verən bir mütəfəkkirdir.

Əsərləri:

- "Ruhun fenomenologiyası" (1807): Hegel bu əsərdə şüurun inkişafını və özünü dərk etməsini araşdırır.

- "Hüquq fəlsəfəsi" (1820): Burada Hegel hüququn və azadlığın fəlsəfi əsaslarını tədqiq edir.

- "Logic's science" (1812-1813): Dialektik metodun əsaslarını burada təqdim edir.

Fikirləri:

Hegel dialektikanın inkişafını və tarixin dialektik prosesini vurğulamışdır. Onun fikrincə, hər bir tarixi proses antitez və sintez yolu ilə irəliləyir və bu proses insanın özü dərk etməsinə yönəlmişdir.

Arthur Schopenhauer (1788-1860)

Danzigdə doğulan Schopenhauer iradə və varlıq haqqında pessimist fəlsəfi nəzəriyyələri ilə tanınır.

Əsərləri:

- "Dünya iradə və təsəvvür kimi" (1818): Schopenhauer bu əsərdə dünyanın əsasını iradə kimi görür və onu təsəvvürlə əlaqələndirir.

- "Əxlaqın iki əsas problemi" (1841): Əxlaq və insan davranışının əsaslarını burada araşdırır.

Fikirləri:

Schopenhauerin əsas fikri dünyanı iradə kimi görmək və bu iradənin insanın əzablarının mənbəyi olduğunu düşünməkdir. Onun fəlsəfəsi pessimistdir və insanın əzablarını azaltmaq üçün iradədən imtina etməyi təklif edir.

Fridrix Nitsşe (1844-1900)

Röcken şəhərində doğulan Nietzsche, nihilizm, iradə gücü və üstinsan (Übermensch) kimi anlayışları ilə tanınır.

Əsərləri:

- "Zərdüşt belə dedi" (1883-1885): Nietzsche burada öz fəlsəfi baxışlarını poetik formada ifadə edir.
- "Əxlaqın genealogiyası" (1887): Əxlaq anlayışının tarixi inkişafını araşdırır.
- "Tragediyanın doğuluşu" (1872): Estetika və Dionisian və Apolloncu dəyərlərin qarşıdurmasını tədqiq edir.

Fikirləri:

Nietzsche nihilizmin Nəticələrini və dəyərlərin yenidən qiymətləndirilməsini vurğulamışdır. Onun iradə gücü (Wille zur Macht) anlayışı fərdin öz potensialını aşmağı və üstinsan (Übermensch) anlayışı insanın özünü yaradıcı güc kimi inkişaf etdirməsini tərənnüm edir.

Martin Heidegger (1889-1976)

Messkirchdə doğulan Heidegger ontologiya və varlıq anlayışı üzərində dərin tədqiqatları ilə tanınır.

Əsərləri:

- "Varlıq və zaman" (1927): Heideggerin ən məşhur əsəridir və burada o, varlıq anlayışını və insanın dünyada mövcudluğunu araşdırır.
- "Məktublar və yazılar": Heideggerin fəlsəfi düşüncələrini əks etdirən digər əsərlər.

Fikirləri:

Heidegger ontologiyanı mərkəzə qoyaraq, varlıq və zaman anlayışlarını dərindən tədqiq etmişdir. Onun fikrincə, insanın dünyada varlığı "Dasein" anlayışı ilə izah edilir və bu varlıq dünyada mənalı həyat sürməyi tələb edir.

Alman mütəfəkkirlərinin ideyaları müxtəlif sahələrdə dərindən araşdırılmış və böyük təsir gücünə malikdir. Kantın tənqidi fəlsəfəsi, Hegelin dialektikası, Schopenhauerin iradə fəlsəfəsi, Nietzschenin nihilizmi və Heideggerin ontologiyası hər biri öz dövrünün və sonrakı dövrlərin düşüncəsinə böyük təsir göstərmişdir. Bu mütəfəkkirlərin əsərləri və ideyaları fəlsəfənin müxtəlif sahələrində dərin izlər qoymuş və müasir fəlsəfi düşüncəni formalaşdırmışdır.

Azərbaycan və Almaniya yazıçılarının oxşar cəhətləri ədəbiyyatın müxtəlif dövrlərində və janrlarında müşahidə oluna bilər. Aşağıda bəzi əsas oxşarlıqları qeyd edəcəyəm:

1. Mövzu çeşidliliyi:

- Hər iki ölkənin yazıçıları əsərlərində geniş mövzu dairəsini əhatə edirlər: müharibə, sevgi, sosial və siyasi məsələlər, insan psixologiyası və s. Məsələn, Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadə ilə alman yazıçısı Thomas Mann-ın əsərlərində insan və cəmiyyətin müxtəlif aspektləri təhlil olunur.

2. Realizm:

- Həm Azərbaycan, həm də Alman yazıçıları realizm janrında önəmli əsərlər yaratmışlar. Azərbaycan ədəbiyyatında realizm nümayəndələri kimi Mirzə Fətəli Axundzadə, Mirzə Cəlil, Almaniyada isə Theodor Fontane və Gerhart Hauptmann kimi yazıçılar bu janrda əsərlər yazıblar.

3. Modernizm:

- Hər iki ölkədə modernizm ədəbiyyatında böyük nümayəndələr olmuşdur. Azərbaycanın Cəfər Cabbarlı ilə Almaniyanın Franz Kafka və Hermann Hesse kimi yazıçıları modernist cərəyanın əsas nümayəndələri sayılır.

4. Romantizm:

- Romantizm dövründə həm Azərbaycan, həm də Alman ədəbiyyatında böyük əsərlər yaranmışdır. Azərbaycan ədəbiyyatında Molla Pənah Vaqif və Qasım bəy Zakir, Alman ədəbiyyatında isə Johann Wolfgang von Goethe və Friedrich Schiller kimi yazıçılar romantizm dövründə əsərlər yazmışlar.

5. Müharibə ədəbiyyatı:

- Hər iki ədəbiyyatın nümayəndələri müharibə mövzusunu əsərlərində əks etdirmişlər. Məsələn, Azərbaycan yazıçısı İlyas Əfəndiyev və alman yazıçısı Erich Maria Remarque müharibə dövrünün insan talelərinə təsirini araşdırmışlar.

6. Simvolizm və metaforalar:

- Hər iki ədəbiyyatda yazıçılar simvolizm və metaforalardan geniş istifadə etmişlər. Bu, onların əsərlərinə dərinlik və mənəvi zənginlik qatmışdır.

Bu oxşarlıqlar həm Azərbaycan, həm də Alman yazıçılarının ümumi insan təcrübələrinə, sosial və psixoloji mövzulara diqqət yetirdiklərini göstərir. Onlar fərqli mədəniyyətlərdən olsalar da, insan həyatının universal aspektlərini öz əsərlərində təsvir etməyə çalışmışlar.

ƏDƏBİYYAT

1. M.Friedrich Schrenk: Geschichte der deutschen Kolonien. In: Geschichte der deutschen Kolonien in Transkaukasien. Tiflis, 1869
2. Paul Hoffmann: Die deutschen Kolonien in Transkaukasien. Berlin, 1905
3. Werner Krämer: Grünfeld, ein deutsches Dorf im Südkaukasus. O. O., o. J.
4. Max Baumann, Peter Belart: Die Familie Horlacher von Umiken in Katharinenfeld (Georgien)
5. Andreas Groß: Missionare und Kolonisten: Die Basler und die Hermannsburger Mission in Georgien am Beispiel der Kolonie Katharinenfeld; 1818-1870. Lit, Hamburg: 1998, ISBN 3-8258-3728-9
6. U.Hammel: Die Deutschen von Tiflis. In: Georgica. Bd. 20 (1997), pp 35–43
7. Immanuel Walker: Fatma. Landsmannschaft der Deutschen aus Russland, Stuttgart, 1966, 3. Edition
8. Mammad Jafarli: Politischer Terror und Schicksale der aserbaidschanischen Deutschen. Baku, 1999
9. Chelkowski, P. Niẓāmī Ganḏjawī, Ḏjamal al-Dīn Abū Muḥammad Ilyās b. Yūsuf b. Zakī Muʾayyad // P.J. Bearman, Th. Bianquis, K. Эд. Босворт, E. Van Donzel and W.P.Heinrichs (redaktor). Encyclopaedia of Islam. Brill Academic Publishers.

ISSN 1573-3912. UNESCO recognised the 1141 date as his birth date and declared 1991 the year of Niẓāmī.

10. K.A.Luther. “ATĀBAKĀN-E ĀḎARBĀYJĀN”. Encyclopedia (eng). Iranica. December 15, 1987. 2011-08-28 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2010-09-02. ATĀBAKĀN-E ĀḎARBĀYJĀN, an influential family of military slave origin, also called Ildegozids, ruled parts of Arrān and Azerbaijan from about 530/1135-36 to 622/1225; as “Great Atābaks” (atābakān-e aʿẓam) of the Saljuq sultans of Persian Iraq (western Iran), they effectively controlled the sultans from 555/1160 to 587/1181; in their third phase they were again local rulers in Arrān and Azerbaijan until the territories which had not already been lost to the Georgians, were seized by Jalāl-al-dīn Ḵʷārazmšāh in 622/1225.
11. K.A.Luther. “ATĀBAKĀN-E ĀḎARBĀYJĀN”. Encyclopedia (eng). Iranica. December 15, 1987. 2011-08-28 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2010-09-02. Īldegoz… He also sought to secure his position on the edges of the declining Saljuq empire by gaining control over parts of Azerbaijan; he probably gained clear control over it only after the death of Masʿūd’s last favorite, Ḵāṣṣ Beg Arslān b. Palangarī in 548/1153, who had been given a position in that area as well.

ABSTRACT

Dilbar Babayeva

COMPARATIVE ANALYSIS OF GERMAN AND AZERBAIJANI WRITERS

Azerbaijani and German writers share many similarities in their works, spanning various themes, genres, and periods. Both countries’ writers exhibit commonalities in terms of thematic diversity, realism, modernism, romanticism, war literature, symbolism, and the use of metaphors. This indicates their efforts to portray human experiences and social and psychological issues in their literature. Despite their different cultural backgrounds, Azerbaijani and German writers have reflected universal aspects of human life.

A comparative analysis of Azerbaijani and German thinkers can reveal interesting parallels and differences in culture, philosophy, literature, and other fields. Both countries have rich philosophical and literary heritages, yet these heritages have developed within different historical, cultural, and social contexts. Below are some noted similarities and differences between the works and ideas of key thinkers from both traditions:

1. Thematic Diversity:

- Both Azerbaijani and German writers cover a wide range of themes such as love, war, social and political issues, and human psychology. For example, Azerbaijani writer Jalil Mammadguluzadeh and German writer Thomas Mann analyze various aspects of human and society in their works.

2. Realism:

- Realism is prominent in the literature of both nations. Azerbaijani writers like Mirza Fatali Akhundov and Mirza Jalil, and German writers like Theodor Fontane and Gerhart Hauptmann have made significant contributions to this genre.

3. Modernism:

- Both Azerbaijani and German literature have significant modernist representatives. Azerbaijani writer Jafar Jabbarly and German writers like Franz Kafka and Hermann Hesse are key figures in modernist literature.

4. Romanticism:

- Romanticism is also evident in both literatures. Azerbaijani poets such as Molla Panah Vagif and Qasim bey Zakir, and German writers Johann Wolfgang von Goethe and Friedrich Schiller have created influential works in this period.

5. War Literature:

- Writers from both nations have addressed the theme of war. Azerbaijani writer Ilyas Afandiyev and German writer Erich Maria Remarque explore the impacts of war on human destinies.

6. Symbolism and Metaphors:

- The use of symbolism and metaphors is common in both literatures, adding depth and richness to their works.

Analyzing the mutual influences and parallels between Azerbaijani and German thinkers offers insights into how these rich heritages, despite different contexts, have explored and depicted universal human experiences**.**

РЕЗЮМЕ

Азербайджанские и немецкие писатели имеют много общего в своих произведениях, охватывающих различные темы, жанры и периоды. Писатели обеих стран проявляют схожесть в тематическом разнообразии, реализме, модернизме, романтизме, военной литературе, символизме и использовании метафор. Это указывает на их стремление изображать человеческий опыт и социально-психологические вопросы в литературе. Несмотря на различия в культурных контекстах, азербайджанские и немецкие писатели отражают универсальные аспекты человеческой жизни.

Сравнительный анализ азербайджанских и немецких мыслителей может выявить интересные параллели и различия в культуре, философии, литературе и других областях. Обе страны обладают богатым философским и литературным наследием, но это наследие формировалось в различных исторических, культурных и социальных контекстах. Ниже приведены некоторые из отмеченных сходств и различий между работами и идеями ключевых мыслителей обеих традиций:

1. Тематическое разнообразие:

- И азербайджанские, и немецкие писатели охватывают широкий спектр тем, таких как любовь, война, социальные и политические вопросы, человеческая психология. Например, азербайджанский писатель Джалил

Мамедкулизаде и немецкий писатель Томас Манн анализируют различные аспекты человека и общества в своих произведениях.

2. Реализм:

- Реализм занимает важное место в литературе обеих стран. Азербайджанские писатели, такие как Мирза Фатали Ахундов и Мирза Джалил, и немецкие писатели, такие как Теодор Фонтане и Герхарт Гауптман, внесли значительный вклад в этот жанр.

3. Модернизм:

- Как в азербайджанской, так и в немецкой литературе есть значительные представители модернизма. Азербайджанский писатель Джафар Джаббарлы и немецкие писатели, такие как Франц Кафка и Герман Гессе, являются ключевыми фигурами модернистской литературы.

4. Романтизм:

- Романтизм также очевиден в обеих литературах. Азербайджанские поэты, такие как Молла Панах Вагиф и Касум-бек Закир, и немецкие писатели Иоганн Вольфганг фон Гёте и Фридрих Шиллер создали влиятельные произведения в этот период.

5. Военная литература:

- Писатели обеих стран обращались к теме войны. Азербайджанский писатель Ильяс Эфендиев и немецкий писатель Эрих Мария Ремарк исследуют влияние войны на судьбы людей.

6. Символизм и метафоры:

- Использование символизма и метафор характерно для обеих литератур, добавляя глубину и богатство их произведениям.

Анализ взаимных влияний и параллелей между азербайджанскими и немецкими мыслителями дает представление о том, как эти богатые наследия, несмотря на различные контексты, исследовали и изображали универсальные человеческие опыты.

ARAZ MƏMMƏDOV

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
araz.mammadov.1976.2022@gmail.com

MÜSTƏQİLLİK DÖVRÜNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SİLAHLI QÜVVƏLƏR

XÜLASƏ

Bu məqalə Naxçıvan Muxtar Respublikasının müdafiə tarixi və ordu quruculuğunu əhatə edir. XX əsrin sonları və XXI əsrin əvvəllərində erməni işğalı təhlükəsi ilə üz-üzə olan Naxçıvan, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müdafiə edilmişdir. Onun yaratdığı Dövlət Müdafiə Komitəsi sonralar davamçısı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin dövründə güclü və müasir orduya dönmüşdür.

Bir zamanlar Naxçıvanı müdafiə etmək üçün yaradılmış ordu layiqincə öz vəzifəsinin öhdəsindən gələrək illər sonra Azərbaycan ordusunun tərkib hissəsi halında Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası və tam suverenliyi uğrunda gedən döyüşlərdə yüksək döyüş bacarığı sərgiləmiş, torpaqlarımızın azad olunmasında fəal iştirak etmişdir.

XX əsrin sonlarında eynilə əsrin əvvəlində olduğu kimi, Naxçıvan işğal təhlükəsi ilə üz-üzə idi. Ermənilər sovet hərbi birləşmələrinin dəstəyi ilə beynəlxalq andlaşmalara məhəl qoymadan Naxçıvan Muxtar Respublikasını işğal etmək həvəsinə düşmüşdülər. Məhz belə dərin siyasi böhran dövründə 1991-ci ilin 7 sentyabrında Naxçıvan Muxtar Respublikasını yaranmış vəziyyətdən xilas etmək, ərazisini erməni basqınlarından qorumaq, əhalini talan və qırğınlardan qurtarmaq məqsədilə, o zaman Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri olmuş Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə artıq mövcud olan ayrı-ayrı özünümüdafiə bölmələrini birləşdirərək vahid komandanlıq prinsipi əsasında Dövlət Müdafiə Komitəsi yaratdı.

Ümummilli Lider Heydər Əliyevin gərgin iş rejimində çalışması Nəticəsində 1992-ci il sentyabrın 15-də, Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu birliyindən biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada formalaşdırdı.

Naxçıvan rəhbərliyinin və 705-ci əlahiddə gücləndirilmiş motoatıcı briqadanın zabit və komandir heyətinin mətanəti və iradə gücü ilə Naxçıvan Muxtar Respublikasının müdafiəsi kimi ağır vəzifəni layiqincə yerinə yetirmişdir. Bununla da 705-ci əlahiddə gücləndirilmiş motoatıcı briqadanın uğurlu döyüş yolu davam edərək, 21 may 1995-ci ildə motoatıcı diviziyaya, daha sonra isə 8 dekabr 1998-ci ildə Ordu Korpusu səviyyəsinə qədər yüksəldi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə"

2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən, 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordu yaradılıb.

Əlahiddə Ümumqoşun Ordu müxtəlif qoşun növünə aid birləşmə və hissələrdən ibarətdir. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisini, o cümlədən hava xətti ilə 275 km-dən (ərazi relyefinə uyğun olaraq, 405 km) artıq erməni silahlı birləşmələri ilə sərhəd olan əraziləri şərəflə müdafiə edir.

Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları 2018-ci ildə uğurlu Günnüt əməliyyatında və 2020-ci ildə Vətən müharibəsində iştirak edərək torpaqlarımızın azad olunmasında şücaət göstəriblər.

Ölkə rəhbərliyi Naxçıvan Muxtar Respublikasının bütün türk dünyası üçün qlobal strateji əhəmiyyət kəsb etdiyini dərindən dərk etdiyi üçün, bu ərazilərin düşməndən müdafiəsinə daim böyük diqqət yetirmişdir. Məhz bu səbəbdən Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli sərəncamı və müdafiə nazirinin 09 aprel 1998-ci il tarixli əmri ilə 1998-ci ildə Naxçıvan Muxtar Respublikasında C.Naxçıvanski adına Hərbi liseyin Naxçıvan filialı açılmışdır.

Daha sonra Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2004-cü il tarixli sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi liseyin Naxçıvan filialı ləğv edilərək, onun bazasında Ulu Öndər Heydər Əliyevin adını daşıyan Hərbi lisey yaradılmışdır.

Zamanında Azərbaycanın müdafiəsini və müstəqilliyini təmin edə bilmək üçün komandir korpusu yaratmaq məqsədilə Ümummilli Lider Heydər Əliyev Bakıda Cəmşid xan Naxçıvanskinin adını əbədiləşdirib onun adına hərbi liseyin yaradılmasına nail olmuşdur. Yeni nəsil isə Naxçıvan Muxtar Respublikasında yaradılmış hərbi liseyə öz Ulu Öndərinə ehtiram olaraq Heydər Əliyev adını vermişdir.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə, Heydər Əliyev adına Hərbi Liseyin məzunları Hərbi liseyin adını daim yüksək tutaraq şücaət və qəhrəmanlıqlar göstərmişdilər.

Dövlətimizin müstəqilliyi dövründə Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu ilə yanaşı başqa silahlı birləşmələrə də böyük əhəmiyyət verilmişdir.

Bu il həm də "Naxçıvan" Əlahiddə Sərhəd Divizyasının yaranmasının 32-ci ildönümü tamam olur. "Azərbaycanın dövlət sərhədi Azərbaycanın müstəqilliyini, suverenliyini nümayiş etdirən amildir", - deyən Ümummilli Liderimiz Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda həyata keçirdiyi müstəqil dövlət quruculuğu tədbirləri sırasında sərhəd qoşunlarının formalaşması və inkişafı mühüm yer tutur. Həmin dövrdə Sovetlər Birliyinin muxtar respublikadakı sərhədlərində 4-ci Sərhəd Dəstəsi dayanırdı. Sərhədin Ordubad və Sədərəkdən keçən hissəsinin mühafizəsini aparan sərhəd zastavaları isə Ermənistandakı sərhəd dəstəsinin tabeliyində idi. Ulu Öndərin təşəbbüsü ilə həmin zastavalar Naxçıvandakı 41-ci Sərhəd Dəstəsinə birləşdirildi. Bunun ardınca 41-ci Sərhəd Dəstəsi də bütün əmlakı və silah-sursatı ilə birlikdə Naxçıvan Muxtar Respublikasının tabeliyinə verildi. 1992-ci il avqustun 22-də Naxçıvandakı sərhəd dəstəsində üçrəngli bayrağımız qaldırıldı. Bununla da Azərbaycanın ilk milli sərhəd dəstəsinin təməli qoyuldu. Ümummilli Liderimiz Heydər Əliyev bu barədə deyirdi: "Biz keçmiş Sovetlər İttifaqının, sonra isə Rusiyanın 41-ci Sərhəd qoşunları hissəsinin buradan tamamilə çıxıb getməsinə nail olduq. Azərbaycanda ilk dəfə olaraq milli sərhəd qoşunlarının 1-ci dəstəsi yaradıldı.

Bütün bunlar tarixi hadisələrdir və nəinki bugünkü, hətta gələcək nəsillər tərəfindən layiqincə qiymətləndirilməlidir".

Azərbaycan Prezidenti İlham Əliyev də Ümummilli Liderin yolunu davam etdirərək ordu quruculuğuna və sərhədlərimizin etibarlı mühafizəsinə diqqəti artırmış, dövlət başçısının müvafiq fərmanları ilə 2004-cü ildə Naxçıvan Sərhəd Dəstəsinin bazasında "Naxçıvan" Sərhəd Diviziyası yaradılmış, 2015-ci ildə Sərhəd Diviziyası "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına çevrilmişdir. Muxtar respublikada sərhədlərimizin mühafizəsi, bu sahədə həyata keçirilən quruculuq işləri yeni mərhələdədir. Sərhəd hər bir ölkənin müstəqilliyini təsdiq edən amil, sərhədlərin etibarlı mühafizəsi isə inkişaf və sabitlik deməkdir.

Azərbaycan xalqının milli sərvətinə çevrilən müstəqillik və onun qarantı olan ordu quruculuğu Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısında mühüm tarixi xidmətidir. Ulu Öndərimiz deyirdi ki, "hər bir müstəqil dövlət müstəqil olmaq üçün bir neçə amillərə malik olmalıdır. Onun müstəqil yaşaması üçün ərazisi, iqtisadiyyatı, təbii sərvətləri, dövləti qoruyan ordusu, ictimai asaişi qoruyan qüvvələri olmalıdır. Bunlar olmasa, müstəqil dövlət ola bilməz". Ümummilli Liderimizin ali hakimiyyətə ikinci qayıdışından sonra dövlət müstəqilliyimiz sarsılmaz xarakter aldı. Artıq bu dövrdən ölkəmizdə sabitliyin qorunmasının mühüm təminatçısı kimi Daxili İşlər Nazirliyinin, o cümlədən onun Daxili Qoşunlarının funksiya və vəzifələri dövlətin təhlükəsizlik prinsiplərinə əsasən formalaşdırıldı. 1994-cü il fevralın 8-də qəbul edilmiş "Daxili qoşunların statusu haqqında" Azərbaycan Respublikasının Qanunu Daxili Qoşunların əsas vəzifələrini və fəaliyyət prinsiplərini müəyyənləşdirdi. Daxili Qoşunları xalqın və dövlətin layiqli müdafiəçisi kimi görmək istəyən Ulu Öndərimiz deyirdi: "Gərək Daxili Qoşunlarda yüksək vətənpərvərlik ruhu olsun. Gərək bizim Silahlı Qüvvələrimizdə Azərbaycanın dövlətçiliyinə daim sədaqət olsun. Azərbaycanın güclü ordusu bu gün də, sabah da, yüz il bundan sonra da lazımdır. Bunun üçün planlı iş aparılmalı, peşəkar münasibət göstərilməlidir".

Ordu quruculuğuna münasibətdə Ümummilli Liderimizin irəli sürdüyü "planlı iş, peşəkar münasibət" siyasəti bu gün Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının diqqət və qayğısı ilə Azərbaycan Silahlı Qüvvələrinin mühüm tərkib hissəsi olan Daxili Qoşunların təkmilləşdirilməsi sahəsində ardıcıl tədbirlər görülür. Bu tədbirlər Daxili Qoşunların Naxçıvandakı hərbi hissəsinin fəaliyyətinin gücləndirilməsində də öz əksini tapmışdır. 1995-ci il aprelin 10-da Naxçıvanda yaradılan Daxili Qoşunlar taboru böyük təşkilatlanma yolu keçmiş, inkişaf edərək alaya, 2014-cü ildə isə Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasına çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev "Daxili Qoşunlar Azərbaycanda sürətlə inkişaf etməklə bərabər, onlarda çox yüksək səviyyədə peşəkarlıq və vətənpərvərlik vardır. Bu, bizim üçün çox böyük nailiyyətdir. Azərbaycanda ictimai-siyasi vəziyyətin qorunması və möhkəmləndirilməsi bizim hamımız üçün başlıca şərt olmalıdır. Yalnız bu şəraitdə ölkə uğurla inkişaf edə bilər", - demişdir.

Muxtar respublikanın quruculuq işlərində yaxından iştirak edən Fövqəladə Hallar Nazirliyi Ümummilli Lider Heydər Əliyevin "Bir hadisənin qarşısını almaq, o hadisə

baş verəndən sonra onun Nəticələrini aradan götürməkdən daha asandır" müdrik sözlərini rəhbər tutaraq muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması sahəsində qarşıya qoyulmuş vəzifələri daim yerinə yetirməyə çalışır.

Naxçıvan Muxtar Respublikası Fövqəlada Hallar Nazirliyinin Mülki Müdafiə Alayında və Xüsusi Riskli Xilasetmə Xidmətində döyüş (peşə) hazırlığı təsdiq olunmuş plan və proqramlara uyğun yerinə yetirməklə üstün bacarıq nümayiş etdirirlər. Mülki Müdafiə Alayının və Xüsusi Riskli Xilasetmə Xidmətinin şəxsi heyətinin daimi hazırlıq mərhələsində olmaları təmin edilib, muxtar respublika ərazisində ehtimal olunan fövqəladə hallara çevik reaksiyanın verilməsi üçün müvafiq hazırlıq işləri aparılır.

Bütün qeyd olunanları diqqətə alaraq, əminliklə demək olar ki, artıq suveren Azərbaycan Respublikasının ayrılmaz bir parçası olan Naxçıvan Muxtar Respublikasının müdafiəsi Ümummilli Lider Heydər Əliyevin cızdığı siyasi kursu davam etdirən Ali Baş Komandan İlham Əliyev tərəfindən dəqiq addımlarla davam və inkişaf etdirilir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının MN-nin "Azərbaycan Ordusu" qəzeti – 26 dekabr 2020-ci il №89(2507).
2. Azərbaycan Respublikasının DİN Daxili Qoşunlarının "Əsgər" qəzeti – 15 aprel 2015 №07(449).
3. AZƏRTAC 03.02.2021

ABSTRACT

Araz Mammadov

DURING THE PERIOD OF INDEPENDENCE, THE ARMED FORCES OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC

This article covers the defense history and establishment of the army of the Nakhchivan Autonomous Republic. In the late 20th and early 21st centuries, facing the threat of Armenian occupation, Nakhchivan was defended under the leadership of the National Leader Heydar Aliyev. The State Defense Committee he created later evolved into a strong and modern army under the presidency of Ilham Aliyev, Commander-in-Chief of the Armed Forces of the Republic of Azerbaijan.

The army, once created to defend Nakhchivan, has fulfilled its duties admirably, becoming a part of the Azerbaijani Armed Forces and demonstrating high combat skills in the fights for the restoration of Azerbaijan's territorial integrity and full sovereignty over the years.

РЕЗЮМЕ

Араз Мамедов

В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ ВООРУЖЕННЫЕ СИЛЫ В ПЕРИОД НЕЗАВИСИМОСТИ

Данный статья охватывает историю обороны и создание армии Нахчыванской Автономной Республики. В конце XX и начале XXI веков Нахчыван столкнулся с угрозой армянской оккупации, которая была успешно отражена под руководством Национального Лидера Гейдара Алиева. Созданная им Государственная Оборонительная Комитет впоследствии превратилась в сильную и современную армию во времена президентства Ильхама Алиева, Верховного Командующего Вооружёнными Силами Республики Азербайджан.

Однажды созданная для защиты Нахчывана армия в последующие годы стала частью Вооружённых Сил Азербайджана и продемонстрировала высокие боевые навыки в боях за восстановление территориальной целостности и полную суверенность Республики Азербайджан.

ZƏRGÜL NOVRUZOVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
zargulnovruzova@gmail.com

AZƏRBAYCAN VƏ İNGİLİS PEDAQOQLARI

XÜLASƏ

Azərbaycanın pedaqoji ənənələri XIX əsrin sonlarından başlayaraq inkişaf etməyə başlamışdır. Sovet İttifaqı dövründə mərkəzləşdirilmiş və autoritar bir sistem tətbiq olunurdu. 1991-ci ildən sonra müstəqillik dönəmində təhsil sistemində islahatlar həyata keçirilib, müasir pedaqoji yanaşmaların tətbiqi ilə şagirdmərkəzli və interaktiv metodlara yönəlib.

Müasir dövrdə Azərbaycan pedaqogikası şagirdlərin aktiv iştirakını təşviq edir. Dərslərdə interaktiv metodlar (qrup işləri, layihə əsaslı öyrənmə) istifadə edilir. İnklüziv təhsil prinsipləri qəbul edilərək xüsusi ehtiyaclı şagirdlər üçün uyğun mühit yaradılır.

2009-cu ildən etibarən yeni milli kurikulum qəbul olunub, bu da şagirdlərin praktiki bacarıqlarını artırmağa yönəlib. Müəllimlərin peşəkar inkişafı üçün ixtisasartırma proqramları tətbiq edilir. Təhsildə mədəni dəyərlərin qorunması və milli identitetin formalaşması vacibdir. Azərbaycan mədəniyyətinin öyrədilməsi, gənc nəsilin yetişməsində əhəmiyyətli rol oynayır.

İngiltərənin təhsil tarixi isə uzun bir inkişaf prosesi keçmişdir. 19-cu əsrdə ictimai təhsil hərəkatı ilə genişlənən məktəb sistemləri müasir dövrdə daha çox özəl və dövlət məktəbləri arasında müxtəliflik yaratmışdır. İngiltərədə şagirdmərkəzli yanaşma və innovativ tədris metodları geniş tətbiq olunur. İngiltərə pedaqogikası şagirdmərkəzli yanaşma ilə yanaşı, texnologiyanın geniş istifadəsini əhatə edir. Müəllimlər şagirdlərin fərdi öyrənmə tərzlərinə uyğun dərslər hazırlayır və interaktiv resurslardan faydalanırlar.

İngiltərədə təhsil islahatları keyfiyyətin artırılması məqsədilə həyata keçirilir. Müxtəlif öyrənmə metodları və inklüziv yanaşmalar şagirdlərin müstəqil düşünmə bacarıqlarını inkişaf etdirir. İngiltərədə təhsil sosial ədalət və bərabər imkanlar prinsiplərinə əsaslanır. İnklüziv təhsil müxtəlif sosial qrupların təhsilə cəlb olunmasına yönəlib.

Açar sözlər: *təhsil, inkişaf, pedaqoq, pedaqoji yanaşma, bilik, məktəb*

Hər bir dövlətin və millətin inkişafında təhsilin əvəzsiz rolu vardır. Ulu Öndər Heydər Əliyev təhsili millətin gələcəyi və müstəqil dövlətin əsasını təşkil edən bir amil kimi qiymətləndirmişdir: "Təhsil millətin gələcəyidir". Pedaqoji alimlərimiz təhsilə müxtəlif təriflər veriblər, amma ümumiləşdirərək belə demək olar: "Təhsil cəmiyyətin və dövlətin mənafeyinə xidmət edən, şəxsiyyətin intellektual, əxlaqi, mənəvi və idraki keyfiyyətlərinin inkişafı məqsədilə sistemli bilik, bacarıq, təcrübə və vərdişlərin

mənimsənilməsi prosesi və onun Nəticəsidir". Təhsilin məqsədi mənəvi cəhətdən zəngin, əxlaqca saf, fiziki cəhətdən kamil və hərtərəfli hazırlıqlı bir şəxsiyyət yetişdirməkdir [9; 89]. Bu, eyni zamanda iqtisadi həyatda rəqabətə qabil mütəxəssis, cəmiyyətə faydalı insan və ləyaqətli vətəndaş formalaşdırmaq deməkdir. Müasir dövrdə təhsilin iqtisadi həyatda rolu əhəmiyyətli dərəcədə artmışdır. Hazırda təhsil iqtisadiyyatda tələb olunan bilik və bacarıqların aşılanması ilə yanaşı, vətəndaşın gələcək həyata və cəmiyyətə inteqrasiyasına hərtərəfli hazırlığını da təmin etməlidir. İnsanın ömür boyu təhsilalma tələbatının ödənilməsi, təhsilin iqtisadi həyatda rolunu yüksəldən əsas amillərdən biridir. Təhsil məqsəddən Nəticəyə doğru irəliləmə prosesidir. Bu, geniş bir anlayışdır və onun bütün səviyyələri və sahələri – məktəbəqədər, ibtidai, orta, tam orta, orta ixtisas, peşə, ali, magistr və doktorantura təhsili, həmçinin pedaqoji, tibbi, hərbi, dini, texniki, hüquqi və psixoloji təhsil – təhsilin ümumi anlayışına daxildir [5; 14].

XIX əsrin sonlarında Azərbaycan pedaqoq və alimlərinin bir çoxu – Mirzə Kazım bəy, Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Həbib bəy Mahmudbəyov, Mahmud bəy Mahmudbəyov, Sultan Məcid Qənizadə, Nəriman Nərimanov, Üzeyir Hacıbəyov və başqaları həm məktəblərdə dərs tədris etmiş, həm də dərsliklər və dərs vəsaitləri hazırlamış, tədris metodikası ilə bağlı məsələlər üzərində işləmişlər.

Pedaqoji cərəyanlardan biri XX əsrin ortalarında formalaşan mütərəqqi pedaqoqlar birliyidir. Bu birliyin nümayəndələri arasında İ. Adler, U. Foster, P. Krosser (ABŞ), B. Saumon, M. Morris (İngiltərə), R. Harodin və J. Konyo (Fransa) yer alır. Onlar demokratik, mütərəqqi və məqsədyönlü bir təhsil sistemi yaratmağı təklif edirdilər [11; 13].

Mahmud bəy Mahmudbəyov (1863-1923) Azərbaycan tarixində əhəmiyyətli bir pedaqoq, jurnalist, etnoqraf və dərslik müəllifi kimi tanınır. O, Azərbaycanda maarifin demokratikləşdirilməsi, təlimin ana dilində aparılması və tədris planında humanitar fənlərlə yanaşı təbiət fənlərinin də daxil edilməsi kimi pedaqoji ideyalar irəlilətmişdir. Mahmudbəyov, dərsliklərin sadə dildə yazılmasının, xalqın maariflənməsi və inkişafına kömək etməsinin vacibliyini vurğulamışdır.

O, Azərbaycanda yeni tipli dərsliklərin hazırlanmasının banisi hesab olunur. "Birinci il" dərsliyinin müəllifi olan M. Mahmudbəyov, daha sonra müəlliflər kollektivi ilə birlikdə "İkinci il", "Üçüncü il", "Yeni məktəb", "İmlamız" və "Türk ədəbiyyatına ilk qədəm" kimi qiymətli dərsliklər tərtib etmişdir. Onun didaktik görüşlərinə doğulduğu Şamaxı mühiti mühüm təsir göstərmişdir. Didaktik yanaşmalarında təbiilik və millilik önəmli yer tutmuşdur. Azərbaycan məktəbi və pedaqoji fikir tarixində onun rolu əhəmiyyətlidir [11; 69].

Təhsildə və tərbiyədə öz zəngin töhfələrini vermiş ingilis pedaqoqlarından birinin fikirlərinə nəzər salaq. Bunlardan biri ingilis pedaqoqu Con Lokk-dur (1632-1704). O, qərbdə burjua inqilabları dövrünün məşhur pedaqoji fikir sahiblərindən biri idi. C. Lokk İngiltərədə vəkil ailəsində dünyaya gəlmişdir. O, Oksford Universitetində təhsil almış, burada təbiət elmləri ilə maraqlanmış və tibb sahəsində çalışmışdır.

Lokk empirizmin banisi hesab olunur. Onun fikrincə, bütün biliklər təcrübədən əldə edilir. O, anadangəlmə biliklər ideyasını rədd edərək, təcrübəyə əsas yer vermişdir. Lokk insanın şüurunda və təsəvvüründə fitri ideyaların olmadığını qeyd

edərək, uşağın ruhunu "ağ lövhə" kimi təsvir etmişdir. Bu yanaşma ilə, o, insanın tərbiyə və sosial mühitin məhsulu olduğunu, beyninin "dünyaya ağ lövhə" şəklində gəldiyini, oraya həyatda istənilən biliklərin yazıla biləcəyini vurğulamışdır.

C.Lokk tərbiyənin məqsədinin ağıllı, planlı şəkildə fəaliyyət göstərə bilən centlmen yetişdirmək olduğunu bildirirdi. Centlmen mənşəcə zadəgan olmalı, evdə fərdi tərbiyə almalı, həm əqli, həm də əxlaqi baxımdan düzgün yetişdirilməlidir. O, fiziki tərbiyənin də vacibliyini qeyd edərək, "sağlam bədəndə sağlam ruh olar" fikrini irəli sürmüşdür. Bu səbəbdən uşaqları aşağı yaşlardan etibarlı şəkildə yetişdirmək və onlara çətinliklərə qarşı mübarizə aparmağı öyrətmək zəruridir. C. Lokk məktəbə, xüsusən də xalq məktəblərinə mənfi yanaşırdı. Onun "fəhlə məktəbləri haqqında" yazdığı məktubda xalqa və onların uşaqlarına qarşı duyduğu nifrət açıqca görünür. O, fəhlə uşaqlarının cəmiyyətə yük olduğunu düşünərək, dövlətə yardım üçün müraciət edən fəhlələrin 3 yaşdan 14 yaşadək olan uşaqları üçün fəhlə məktəblərinin açılmasını, bu uşaqların orada məcburən oxumasını və yalnız çörəklə təmin edilməsini təklif edirdi. İsti xörəyin verilməsini isə müstəsna hal kimi qiymətləndirirdi, uşaqlara işləməyi öyrətməli və əldə olunan pulla onların xərcləri ödənilməlidir.

Bəzi Amerika pedaqoqları "Müəllim-şagird münasibətləri" kontekstində müəllimin subyektiv ünsiyyət xüsusiyyətlərini araşdırmışlar. Bu tədqiqatlarda məlum olub ki, müəllimlər özlərindən daha çox xoşlanan şagirdlərlə daha intensiv əlaqə qurur, eyni zamanda diqqətsiz yanaşdıqları şagirdlər isə onların marağından kənarda qalır. Müəllimlər daha çox intellektual və intizamlı, sözə baxan şagirdlərə üstünlük verirlər. Passiv şagirdlər isə ikinci sıradadır. Müstəqil, fəal, özünə güvənən və tənqidi yanaşan şagirdlər isə müəllimin xüsusi diqqətindən kənar qalırlar.

XX əsrin əvvəllərində Amerikada təlimin dərs formasına qarşı etirazlar artmağa başladı və yeni tədris metodları təklif olundu. ABŞ-ın Dalton şəhərində pedaqoq Ellen Parkherst yeni bir məşğələ forması təqdim etdi və bu, Dalton planı adını aldı. Parkherst iddia edirdi ki, klassik sinif-dərs sistemi istedadlı uşaqların inkişafına mane olur, onları zəif uşaqlarla bərabər çalışmağa məcbur edir. Dalton planı çərçivəsində siniflər kabinələr və laboratoriyalarla əvəz olunur, kollektiv məşğələlər isə ləğv edilirdi [12; 101]. Hər fənn üzrə kabinələrdə həftəlik, iki həftəlik və ya aylıq fərdi tapşırıqlar təqdim edilirdi. Şagirdlərə hansı kitabları oxumaq, hansı təcrübələri aparmaq lazım olduğu və əldə etməli olduqları biliklər haqqında göstərişlər verilir, onların işinə yönləndirici məsləhətlər təqdim olunurdu. Şagirdlər bir və ya bir neçə fənn üzrə tapşırıqlar seçir, müstəqil şəkildə çalışır və ehtiyac duyduqda müəllimdən kömək alırdılar. Özlərini hazır hesab etdikdə, "məqbul" dərəcəsi alırdılar. Bu sistem Nəticəsində şagirdlər orta məktəbi hər kəsin fərdi inkişafına uyğun olaraq, müxtəlif vaxtlarda bitirirdilər. Ancaq Dalton planının çatışmazlığı müəllimin rolunu zəiflətməsi və şagirdlərə müstəqil işin yollarını öyrətmədən onlara müstəqil tapşırıqlar verməsidir.

Pedaqoji ünsiyyət pedaqoji fəaliyyətin bir hissəsi kimi müəllimin üslubuna əsaslanaraq üç əsas növə ayrılır: "proaktiv" (fəal), "reaktiv" (az fəal), və "overactive" (çox fəal).

- "Fəal" müəllim ünsiyyətin təşkilində təşəbbüskar olur, şagirdlərlə fərdi əlaqələr qurur və öz mövqeyini təcrübə əsasında dəyişir. O, nə istədiyini bilir və hərəkətlərinin məqsədinə necə çatacağını anlayır.

- “Az fəal” müəllim çevik olsa da, öz mövqeyində zəifdir və onun siniflə əlaqəsi şagirdlər tərəfindən müəyyən edilir.
- “Çox fəal” müəllim şagirdlərinə yüksək qiymət verir, qeyri-real ünsiyyət modelləri qurur və yaradıcı fəaliyyətə meyl göstərir.

Fərqli ölkələrdəki ictimai, iqtisadi və siyasi strukturların müxtəlifliyi, müxtəlif pedaqoji cərəyanların yaranmasına səbəb olmuşdur. Azərbaycan pedaqoqları digər ölkələrin təhsil sistemlərini və pedaqoji fikirlərini öyrənərək, mütərəqqi cəhətlərdən faydalanmağa çalışmışlar. Burada daha geniş yayılmış bəzi pedaqoji cərəyanlara diqqət yetirmək vacibdir.

“Praqmatizm” pedaqogikası yunan mənşəli “pragmatos” sözündən gəlir və “iş”, “əməl” anlamını ifadə edir. Bu fəlsəfi cərəyan, cəmiyyətdəki bütün fəaliyyətin subyektiv mənada həyata keçirilməsini, yəni təcrübəyə əsaslanmasını ön planda tutmaqdadır. ABŞ-ın tanınmış pedaqogu Con Duyi (1859-1952) praqmatizm pedaqogikasının əsasını qoymuşdur [1; 379].

Duyi məktəblilərin həyatda iştirakını təmin etməyə, uşaqların maraqlarını önə çəkməyə və onların fərdi xüsusiyyətlərini nəzərə almağa, məktəbin cəmiyyətlə əlaqəsini gücləndirməyə, tərbiyəvi təlimə üstünlük verməyə yönəlib. Praqmatizm pedaqogikasının əsas xüsusiyyətlərindən biri şagirdlərə yalnız praktikada tətbiqi mümkün bilik və bacarıqları öyrətməkdir. Duyinin fikrincə, anlayışlar, ideyalar və nəzəriyyələr, yalnız gündəlik praktik fəaliyyət üçün yarandığı zaman faydalı hesab olunmalıdır. Bu fəlsəfəyə görə, həqiqət obyektiv aləmin insan şüurundakı inikasından ibarət deyil, əksinə, konkret situasiyalarda insanın fəaliyyətini istiqamətləndirən və ona fayda verən bir anlayışdır. Praqmatizmin tanınmış nümayəndələrindən biri olan Vilyam Kilpatrik, “layihələr metodu”nun nəzəriyyəçilərindən biri kimi, həqiqətin obyektiv ola bilməyəcəyini, çünki həqiqətin dəyişkən olduğunu vurğulayır. O, tədqiqatda yalnız eksperimentin qəbulunu müdafiə edir [5; 15].

Azərbaycanla yanaşı Böyük Britaniya da (İngiltərə) müxtəlif mədəni və tarixi köklərə malik ölkələrin təhsil sistemləri pedaqoji yanaşmaları, tədris metodları fərqliliklər və oxşarlıqlar təşkil edir.

Azərbaycanın təhsil sistemi son illərdə əhəmiyyətli islahatlara məruz qalmışdır. Bu islahatlar əsasən aşağıdakı sahələri əhatə edir:

- Tələbəmərkəzli təhsil: Azərbaycan təhsil sistemində ənənəvi müəllimmərkəzli yanaşmalardan tələbəmərkəzli təlimə keçid müşahidə olunur. Bu yanaşma tələbələrin fərdi bacarıqlarının inkişafına diqqət yetirir.
- Pedaqoji kadrların hazırlığı: Azərbaycan Dövlət Pedaqoji Universiteti və digər ali təhsil müəssisələri vasitəsilə müəllimlər müasir tədris metodları ilə tanış olurlar.
- Rəqəmsal təhsil texnologiyaları: "Elektron məktəb" kimi layihələr vasitəsilə təhsildə rəqəmsal texnologiyaların tətbiqi genişlənir [2; 123].
- Böyük Britaniyanın təhsil sistemi dünya üzrə tanınmış və nüfuzlu bir sistemdir. İngilis pedaqoji yanaşmalarının əsas xüsusiyyətləri aşağıdakılardır:
- Fərdiləşdirilmiş təhsil: İngiltərədə təhsil sistemi tələbələrin fərdi ehtiyaclarına uyğunlaşdırılmışdır. Bu yanaşma tələbələrin müxtəlif bacarıqlarını inkişaf etdirməyə imkan yaradır.

- Müəllimlərin peşəkar inkişafı: İngiltərədə müəllimlər üçün davamlı peşəkar inkişaf imkanları mövcuddur. Bu, müəllimlərin müasir tədris metodları ilə tanış olmasını təmin edir.

- İnteraktiv tədris metodları: İngilis məktəblərində interaktiv dərslər, qrup işləri və praktiki tapşırıqlar geniş yayılmışdır.

Azərbaycan və ingilis pedaqoqlarının müqayisəsi

- Tədris metodları: Azərbaycan ənənəvi yanaşmalardan müasir metodlara keçid edir, İngiltərə isə uzun illərdir interaktiv və fərdiləşdirilmiş təhsil metodlarından istifadə edir.

- Texnologiyanın tətbiqi: Hər iki ölkədə rəqəmsal təhsil texnologiyalarına diqqət artır, lakin İngiltərə bu sahədə daha inkişaf etmişdir [3; 23].

- Müəllim hazırlığı: İngiltərədə müəllimlərin peşəkar inkişafı daha sistemli şəkildə təşkil olunub, Azərbaycan isə bu istiqamətdə addımlar atır.

- Müasir pedaqoji texnologiyaların tətbiqi: Azərbaycanda "Elektron məktəb", "Virtual laboratoriyalar" kimi layihələr vasitəsilə rəqəmsal təhsil alətləri tətbiq edilir, İngiltərədə isə "Smart Classrooms", "E-Learning Platforms" kimi texnologiyalar geniş yayılmışdır. Bu texnologiyalar tələbələrin öyrənmə prosesini daha maraqlı və effektiv edir.

Azərbaycan və İngiltərədə təhsilin hüquqi tənzimlənməsi fərqlidir. İngiltərədə təhsil çox ciddi qanunlarla tənzimlənir və məktəblər bu qanunlara uyğun fəaliyyət göstərirlər [7; 46]. Azərbaycanda isə son illərdə təhsil islahatları sürətlənmiş və təhsil hüququnun qorunması məqsədilə qanunvericilikdə dəyişikliklər edilmişdir.

Təhsil sistemi hər iki ölkədə mədəniyyət və sosial kontekstdən asılı olaraq, fərqlənir. Azərbaycanda xüsusən şəhər və kənd məktəbləri arasında təhsil keyfiyyətində fərqlər müşahidə olunur, İngiltərədə isə məktəblər arasında bərabərsizliklərə qarşı mübarizə məqsədilə sosial dəstək proqramları mövcuddur.

İngiltərədə pedaqoji təhsil çox inkişaf etmiş və müxtəlif sahələrə ayrılmışdır [4; 56]. Müəllimlər öz ixtisaslarını inkişaf etdirmək və təhsilin müxtəlif sahələrində dərin biliklər əldə etmək üçün çoxsaylı təlim və seminarlar keçirirlər. Azərbaycanda isə müəllimlərin peşəkar inkişafı üzərində daha çox fokuslanmağa başlanılıb.

Hər iki ölkənin təhsil sistemi özünəməxsus xüsusiyyətlərə malikdir. Azərbaycan təhsil sistemi müasir dövrün tələblərinə cavab vermək üçün ciddi islahatlar həyata keçirir, xüsusilə müasir pedaqoji yanaşmaların tətbiqi və ingilis dilinin tədrisi sahəsində inkişaflar müşahidə edilir. İngiltərə isə təhsil sahəsində dünya üzrə lider ölkələrdən biridir və burada şagirdmərkəzli yanaşmalar, innovativ metodlar və inklüziv təhsil prinsipinə böyük önəm verilir.

Azərbaycanın pedaqoji yanaşması, tarix boyunca bir sıra sosial, mədəni və siyasi amillərdən təsirlənmişdir. Bu günkü təhsil sistemi ölkənin müstəqillik dövründəki inkişaflarla yanaşı, tarixi köklərə də malikdir [6; 34].

Sovet İttifaqı Dönəmi: 20-ci əsrin əvvəllərində Azərbaycan Sovet İttifaqının tərkibində olduğu üçün təhsil sistemində ciddi islahatlar baş vermişdir. Bu dövrdə təhsil sisteminin mərkəzləşdirilməsi, ideologiyanın ön planda olması və müəllimlərin autoritar yanaşması hakim idi. Lakin eyni zamanda oxuma-yazma səviyyəsinin

artırılması və geniş kütlələrə təhsilin yayılması məqsədilə məktəblərin açılması təşviq edilmişdir.

Azərbaycan dilinin məktəblərdə tədrisi prioritetdir. Bununla yanaşı, ingilis dili, fransız dili və digər xarici dillərin öyrədilməsi də artır [8; 278]. Bu, gənc nəsilin beynəlxalq standartlarda təhsil almasına və qlobal dünyaya inteqrasiya etməsinə kömək edir.

Müasir yanaşmalar çərçivəsində inklüziv təhsilin tətbiqi də diqqət mərkəzindədir. Xüsusi təhsil ehtiyacı olan şagirdlər üçün uyğun mühitin yaradılması və onların təhsilə cəlb edilməsi üçün xüsusi proqramlar hazırlanır. Təhsil Azərbaycan mədəniyyətinin və dəyərlərinin gənc nəsilə çatdırılmasında mühüm rol oynayır. Müxtəlif mədəni tədbirlər, ədəbiyyat, incəsənət və milli ənənələrin öyrədilməsi, şagirdlərin mədəni identitetinin formalaşmasına kömək edir.

Azərbaycan və İngiltərənin pedaqoji yanaşmaları, hər iki ölkənin tarixi, mədəniyyəti və sosial kontekstindən təsirlənmişdir. Hər iki ölkənin təhsil sistemlərinin öyrənilməsi, qlobal təhsil standartlarına uyğunlaşmaq üçün dəyərli dərslər təqdim edir [10; 12].

Nəticə

Azərbaycan və İngilis pedaqoqları arasında təhsil metodları və yanaşmalar baxımından həm oxşarlıqlar, həm də fərqliliklər mövcuddur. Azərbaycan təhsil sistemində davam edən islahatlar və rəqəmsal texnologiyaların tətbiqi İngiltərənin təcrübəsindən yararlanmaqla daha da inkişaf etdirilə bilər. Hər iki ölkənin təhsil sistemləri tələbələrin fərdi potensialını inkişaf etdirmək məqsədi daşıyır və bu istiqamətdə əməkdaşlıq geniş imkanlar təqdim edir.

Həm Azərbaycan, həm də İngiltərə pedaqoqları müasir təhsilin tələblərinə cavab verməyə çalışır. Müxtəlif mədəniyyətlərin və sosial kontekstlərin təsiri altında pedaqoji yanaşmaların inkişafı, qlobal təhsil standartlarına uyğunlaşma prosesini dəstəkləyir. Azərbaycan və İngilis pedaqoqları haqqında bir məqalə yazarkən, hər iki ölkənin təhsil sistemi və pedaqoji yanaşmalarını müqayisə edərək təhsil sahəsindəki fərqləri və oxşarlıqları ön plana çıxarmaq mümkündür. Hər iki ölkənin təhsil tarixçəsi və pedaqoji ənənələri müxtəlif mədəniyyətlər və sosial mühitlərdən qaynaqlanır.

ƏDƏBİYYAT

1. Cohen, L., Manion, L., Morrison, K. (2018). Research Methods in Education. 8th Edition. London: Routledge. 462 p.
2. Əhmədov, A. (2015). Müasir pedaqogika: teoriya və praktika. Bakı: Elm və təhsil, 320 s.
3. Gove, M. (2012). Education Reform: The Future of Education in England. London: Department for Education. 150 p.
4. Həsənova, N. (2017). İnklüziv təhsil: prinsiplər və tətbiqlər. Bakı: Nəsimi. 180 s.
5. Hüseynzadə, R.L., Əzizova, Z.M., Əliyev, S.H., Verdiyeva, Ü.M. (2021). Pedaqogika. Dərslik. Bakı: Mütərcim, 488 s.

6. Kərimov, R. (2020). Şagirdmərkəzli yanaşmalar: Yeni düşüncə tərzi. Bakı: Qafqaz. 200 s.
7. Məmmədov, S. (2018). Təhsil islahatları və ikişaf prosesi. Bakı: Nurlar, 250 s.
8. Rəhimov, F. (2021). Təhsildə innovasiyalar və texnologiyalar. Bakı: Azərbaycan Universiteti. 300 s.
9. Smith, M. K. (2014). An Introduction to the Study of Education. London: SAGE Publications. 360 p.
10. Willis, J. (2013). Learning to Teach: Becoming a Teacher. 3rd Edition. London: SAGE Publications. 408 p.
11. Qasımova, L.N., Mahmudova, R.M. (2012). Pedaqogika. Dərslik. Bakı: Çaşıoğlu, 548 s.
12. Bədəlova, Ə.S. (2015). Təlim-tərbiyə. Bakı: ADPU nəşriyyatı. 291 s.

ABSTRACT

Zargul Novruzova

AZERBAIJAN AND ENGLISH TEACHERS

Pedagogical traditions of Azerbaijan began to develop from the end of the 19th century. During the Soviet Union, a centralized and authoritarian system was applied. After 1991, in the period of independence, reforms were implemented in the education system, with the application of modern pedagogical approaches, it was focused on student-centered and interactive methods.

In modern times, Azerbaijani pedagogy encourages the active participation of students. Interactive methods (group work, project-based learning) are used in classes. By adopting the principles of inclusive education, a suitable environment is created for students with special needs.

Since 2009, a new national curriculum has been adopted, which is aimed at improving students' practical skills. Professional development programs are implemented for the professional development of teachers. It is important to protect cultural values and form national identity in education. Teaching Azerbaijani culture plays an important role in the development of the young generation.

The history of education in England has gone through a long process of development. Expanded by the public education movement in the 19th century, school systems have created more diversity between private and public schools in the modern era. Student-centered approach and innovative teaching methods are widely used in England. English pedagogy includes a student-centered approach as well as extensive use of technology. Teachers design lessons to suit students' individual learning styles and take advantage of interactive resources.

Education reforms in England are carried out in order to improve quality. Different learning methods and inclusive approaches develop students' independent thinking skills. Education in England is based on the principles of social justice and equal opportunities. Inclusive education is aimed at involving different social groups in education.

Keywords: *education, development, teacher, pedagogical approach, knowledge, school*

ÜLVİYYƏ ƏMİROVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
ulviyyamirova@gmail.com

AZƏRBAYCAN DƏMİR YOLLARI

XÜLASƏ

Məqalədə Azərbaycanın dəmir yolu nəqliyyat sisteminin infrastruktur özəllikləri iqtisadi dəyərləndirmələr zəminində tədqiq olunur, yeni geosiyasi situasiyadan irəli gələrək bu kompleksinin logistik imkanları və tranzit potensialı təhlil edilir. Onun "Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2015-2020-ci illərdə inkişafına dair Dövlət Proqramı" və "Azərbaycan 2025: gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində modernizasiyasının başlıca hədəfləri göstərilir.

Məqalədə, həmçinin Avropa ilə Asiya arasında mühüm bağlantı olaraq Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin layihəsinin iqtisadi əhəmiyyəti və Azərbaycanın dəmir yolu nəqliyyat sisteminin regional sərnişin və yük daşımalardakı rolu və əhəmiyyəti əsaslandırılır.

Açar sözlər: *Azərbaycanın dəmir yolu nəqliyyatı kompleksi, Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsi, TRASEKA, logistika*

Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin inkişafı daim dövlət qayğısı və tənzimlənməsi əsasında həyata keçirilir. Ölkənin sosial-iqtisadi həyatında mühüm əhəmiyyətə malik olan dəmir yolu nəqliyyat sisteminin daha da inkişaf etdirilməsini, əhalinin və iqtisadiyyatın dəmir yolu nəqliyyatı xidmətlərinə olan tələbatlarının ödənilməsini, daşımaların təhlükəsizliyini, onun infrastrukturunun yeniləşdirilməsini, ərazidən keçən nəqliyyat dəhlizlərinin rəqabət qabiliyyətinin yüksəldilməsini, tranzit daşımaların həcminin artırılmasını, dəmir yolu sahəsi üçün kadrların hazırlanmasını təmin etmək məqsədilə hazırda "Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2010-2014-cü illərdə inkişafına dair Dövlət Proqramı" reallaşdırılır. Ölkədə dəmir yolu nəqliyyat sisteminin inkişafı həm də daha uzaq hədəfləri nişan alan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində həyata keçirilir. Konsepsiyaya görə Azərbaycanın rəqabətqabiliyyətinin artırılması məqsədi ilə ölkə ərazisində Avropa-Qafqaz-Asiya və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərində daşıma xərclərinin azaldılması, idxal, ixrac əməliyyatları və tranzit daşımaları üçün sərf edilən vaxtın qısaldılması və sərhəd-keçid prosedurlarının sadələşdirilməsi üçün tədbirlər görüləcəkdir. Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi fəaliyyətə başlayacaq, dəniz donanması yeniləşdiriləcək, nəqliyyat-logistika mərkəzləri yaradılacaq, Bakı-Böyük Kəsik, Bakı-Astara və Bakı-Yalama dəmir yolu xətləri yenidən qurulacaq və modernləşdiriləcəkdir. Eyni zamanda dəmir yolu nəqliyyatının baş yollarında zəruri yenidənqurma işləri aparılacaq, daşıma parkı yenilənəcək, bütün yollarda dəyişən cərəyanlı dartı sisteminə

keçid təmin olunacaq, işarəvermə və siqnalizasiya sistemi müasirləşdiriləcəkdir. Bütün bu strateji hədəfli tədbirlər Nəticəsində Azərbaycanın dəmir yolu sisteminin yenidən qurulması və modernləşdirilməsi yeni mərhələyə qədəm qoyacaqdır.

Azərbaycanın əlverişli coğrafi mövqeyi ona həm özünün sahib olduğu zəngin karbohidrogen resurslarının, həm də qonşu Asiya ölkələri neftinin, neft-qaz məhsullarının Avropa bazarlarına daşınmasında çox vektorlu logistik imkanlar yaradır. Özünün tranzit imkanlarından çıxış edərək, Azərbaycan mühüm regional nəqliyyat infrastruktur layihələrinin təşəbbüsçüsü və stimullaşdırıcısı kimi bu istiqamətdəki fəaliyyətini genişləndirir. Bunlar içərisində müəllifi olduğu qlobal mahiyyətli nəhəng nəqliyyat şəbəkəsi - Azərbaycanla Türkiyəni, bütövlükdə isə Avropa ilə Asiyanı birləşdirəcək, müasir dünyanın 100 layihəsi siyahısına daxil olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası xüsusi strateji əhəmiyyət daşıyır. Artıq reallaşmaqda olan bu dəmir yolu xətti üzrə hər il milyonlarla ton yük daşınacaqdır. Gələcəkdə isə onun rolu sərnişin daşınmalarında da artacaqdır. Bu layihənin əhəmiyyətinə yaxın zamanlarda Bosfor boğazı altı keçəcək dəmir yolu tuneli - "Mərməray" layihəsi daha bir effektivlik qatacaqdır. Bununla da, Asiyanın ən ucqar şərqindən dəmir relslər üzərindən Avropanın bütün nöqtələrinə yetişəcək tarixi bir nəqliyyat marşrutu gerçəkliyə çevriləcəkdir.

Bütün bu effektivliklər Azərbaycanın dəmir yolu nəqliyyat sistemi infrastruktur kompleksinin və tranzit potensialının tədqiqinə yeni aktuallıqlar gətirir. Bu baxımdan da bizim tədqiqat araşdırmamızın predmetini də Azərbaycanın dəmir yolu nəqliyyat sistemi infrastruktur kompleksinin və tranzit potensialının analitik dəyərləndirilməsi və xüsusi olaraq da Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin layihəsinin iqtisadi əhəmiyyəti ilə bağlı məsələlər təşkil edir.

Nəticə

Azərbaycanın genişlənən inteqrasiya əlaqələri, yüksələn iqtisadi ixrac potensialı, ölkə ərazisindən keçən tranzit xətlərlə daşınmaların artması dəmir yolunun inkişafına daha strateji ahəng verir. Diversifikasiya olunan neft-qaz və yeni yaradılan sənaye sahələri mallarının, kənd təsərrüfatı məhsullarının dünya bazarlarına daşınmasında ölkənin dəmir yolu fərqli əhəmiyyət kəsb edir. Bu istiqamətdə səmərəliliyi artırmaq, tranzit potensialdan daha dolğun bəhrələnmək və başlıca olaraq da Azərbaycanın dünya okeanına birbaşa çıxış məhdudluğu amilini mülayimləşdirmək üçün bütün dəmir yolu infrastrukturunda sistem dəyişiklikləri yaradan layihələrin həyata keçirilməsi zərurəti yaranmışdır. Müasir məqamda belə strateji hədəflərin önündə Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsi dayanır. Bu layihənin reallaşmasında Azərbaycanın mənfəətləri olduqca əvəzsizdir. Burada ilk növbədə, Sovetlər İttifaqının dağılması və Ermənistanın təcavüzü Nəticəsində itirilən və sərtləşən nəqliyyat kommunikasiyalarına alternativliklərin təmin edilməsi, qardaş Türkiyə ilə genişlənən iqtisadi əlaqələrin möhkəmləndirilməsi və çox strateji əhəmiyyət kəsb edən Azərbaycandan ərazicə ayrı düşmüş Naxçıvan Muxtar Respublikası ilə yeni və əlverişli bağlantıya nail olunması strategiyası dayanır. Elə bütün bunlara görə də Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası Azərbaycan üçün həm siyasi, həm iqtisadi, həm də strateji əhəmiyyət daşıyır. Bu layıhənin reallaşması Nəticəsində Azərbaycan dəmir yolu vasitəsi ilə həm də

beynəlxalq nəqliyyat dəhlizlərinə birbaşa çıxış əldə edərək tranzit daşımaların mühüm mərkəzinə çevriləcək və regionda siyasi gücü daha da artacaqdır.

ƏDƏBİYYAT

1. Hacızadə, E.M. (2006). Sosiallaşan iqtisadiyyat. Bakı: Elm, 509 s.
2. Аксенов, И.Я. (2000). Транспорт: история, современность, перспективы, проблемы. М.: ТЕИС, 216 с.
3. Транспортная логистика (2002). Учебник для транспортных вузов. / Под общей редакцией Л.Б. Миротина. М.: Изд-во «Экзамен», 512 с.
4. www.worldmetro.org.ua - Dünya nəqliyyat ensiklopediyası və yenilikləri saytı.
5. www.zdmira.com - Dünya dəmir yolları jurnalının saytı.
6. http://addy.gov.az – "Azərbaycan Dəmir Yolları" QSC-nin saytı.
7. www.elshanhajizadeh.com - prof. Elşən Hacızadənin saytı.

ABSTRACT

Ulviyya Amirova

AZERBAIJAN RAILWAYS

The article studies the infrastructure features of the railway transport system of Azerbaijan on the basis of economic assessments, analyzes the logistics capabilities and transit potential of this complex in the light of the new geopolitical situation. The main goals of its modernization within the framework of the "State Program on the Development of the Railway Transport System in the Republic of Azerbaijan in 2015-2020" and the Development Concept "Azerbaijan 2025: A Look into the Future" are indicated.

The article also substantiates the economic significance of the Baku-Tbilisi-Kars railway project as an important link between Europe and Asia, and the role and significance of the Azerbaijani railway transport system in regional passenger and freight transportation.

Keywords: *Azerbaijani railway transport complex, Baku-Tbilisi-Kars railway project, TRACECA, logistic*

TURAN ZEYNİYEVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
turanzeyniyeva@gmail.com

QƏDİM ALİMLƏR YURDUNDA MODERN ELMİ YENİLİKLƏR

XÜLASƏ

"Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir", - deyən Ulu Öndərimiz Heydər Əliyev Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi üçün mühüm işlər görüb. Belə ki, onun layiqli davamçısı cənab Prezident İlham Əliyev "Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun tarixli fərmanla təhsilimizin dünya standartları səviyyəsinə qaldırılmasında böyük rol oynayıb. O, təhsilin hər bir dövlətin, ölkənin, cəmiyyətin mühüm sahəsi olduğunu ön plana çəkmişdir. Ümumilikdə Azərbaycan Respublikasında və onun ayrılmaz hissəsi olan qədim alimlər yurdu doğma Naxçıvan torpaqlarında dünəndən bugünədək bütün sahələrdə olduğu kimi, təhsil və elm sahəsində qət etdiyi yollar biz Azərbaycan vətəndaşlarını həm ruhlandırır, həm fərəhləndirir, gələcəyimizə olan inamı artırır. Hər keçən saniyədə dayanmadan inkişaf edən, qloballaşan dünyamızda baş verən yeniliklərə ayaq uydurmaq üçün təhsilimizi gücləndirərək beynəlxalq səviyyəyə çatdırmalıyıq. Milli dəyərlərimizi, tariximizi, ölkəmizin gələcəyini qorumaq naminə öz ana dilimizlə yanaşı, xarici dilləri ən əsası da dünyaya açılan qapı olan ingilis dilini bilməyimiz şərtdir. Bu məqsədlə ölkəmizdə və onun ayrılmaz hissəsi Naxçıvanda baş verən yeniliklər, inkişaf dinamikası dünya arenasında onun danılmaz yüksək səviyyəsinin sübutu və xəbərçisidir.

Açar sözlər: *Ulu Öndər Heydər Əliyev, Naxçıvan Muxtar Respublikası, ingilis dili, elm və təhsil, dinamika*

Giriş

Millətin, hətta bir bölgənin də tarixdə yaşamasının əbədiliyini şərtləndirən başlıca amillərdən biri təhsil və onun inkişaf səviyyəsidir. Müstəqil Azərbaycan Respublikasının ayrılmaz və qədim hissəsi olan Naxçıvanda maarif və təhsil hələ orta əsrlərdə inkişaf etmiş, məktəb və mədrəsə təhsili geniş yayılmışdır. Elxanilər dövrünə aid bir fərmandan məlum olur ki, hələ XII əsrin sonlarında Naxçıvanda iki mədrəsə mövcud olmuşdur. Orta əsr mənbələrinə görə, XIII əsrin sonlarında Naxçıvanda 4 ali tipli mədrəsə, məscidlərin nəzdində mollaxana adlanan 60-a qədər ibtidai mədrəsə fəaliyyət göstərirdi. Dünyəvi fənlərin də tədris edildiyi Naxçıvan və Ordubad mədrəsələrində Yaxın Şərq ölkələrindən gəlmiş tələbələr də təhsil alırdı.

Belə ki, Naxçıvan Muxtar Respublikasında ilk dünyəvi məktəb Ehsan xan Kəngərlinin XIX əsrin 30-cu illərində açdığı rus-tatar qəza məktəbidir. XIX əsrin sonlarında Naxçıvanda üsuli-cədid məktəbləri yaranmağa başlamışdır. Ordubadda

M.T.Sidqi tərəfindən “Əxtər” (1892), Naxçıvanda “Məktəbi-tərbiyə” (1894), “Qız məktəbi” (1896) kimi o dövr üçün uşaqlara zəngin bilik verən məktəblər təsis edilmişdir. Bununla bərabər “Məhəlli məktəblər”, “Məktəbi-xeyriyyə”, “Rüşdiyyə” kimi məktəblər də fəaliyyət göstərirdi.

1918-1924-cü illərdə Azərbaycanın siyasi və mədəni həyatında həmişə mühüm rol oynayan qədim Naxçıvan diyarı özünün çox ziddiyyətli və mürəkkəb bir dövrünü yaşamışdır. “Birinci Dünya müharibəsi, xarici hərbi müdaxilə, daşnak fitnəkarlıqları və basqınları şəraitində Naxçıvan məktəbləri də demək olar ki, tamamilə bağlanmış, məktəb binaları kazarmalara, xəstəxanalara və yaxud qaçqınlar üçün sığınacaqlara çevrilmişdi” [167, 48]. Belə bir vəziyyət mövcud məktəb şəbəkəsinin kəmiyyətcə azalmasına, şagird kontingentinin xeyli dərəcədə aşağı düşməsinə, təlim-tərbiyə işlərinin zəifləməsinə səbəb olmuşdur (Vahid Rzayev. Naxçıvanda məktəb və pedaqoji fikir (XIX əsr və XX əsrin əvvəlləri) (ikinci nəşri) Naxçıvan: 2018, s.348).

Ümumiyyətlə, 1920-ci ilədək Naxçıvanda 45 məktəb yaradılmış və 1921-ci ildən etibarən isə Naxçıvanda təhsil, mədəniyyət və digər sahələrdə inkişaf meylləri güclənmişdir. Bu və ya digər sahələrdə işləyəcək kadrların hazırlanması məqsədi ilə orta ixtisas məktəbləri-texnikumlar yaradılmışdır. Naxçıvan MSSR Xalq Komissarları Şurasının 14 avqust 1939-cu il tarixli qərarı ilə yaradılan Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu 1939-cu il sentyabrın 15-də cəmi iki fakültə olmaqla (dil-ədəbiyyat, fizika-riyaziyyat) fəaliyyətə başlamışdır. Əvvəllər heç bir tədris avadanlıqları, kifayət qədər maddi-texniki bazası olmayan institut işgüzar və təşəbbüskar pedaqoji kollektivin səyləri ilə çox qısa vaxtda xeyli əyani vəsaitlərlə və tədris avadanlıqları ilə zənginləşdirilmişdir. Ümumtəhsil məktəbləri üçün müəllim hazırlamaqda çox böyük rolu olan, müəllimlərin tərkib və təhsil dərəcələrinin artmasına böyük təsir edən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu 15 ilə yaxın davam edən fəaliyyəti dövründə, sözün əsl mənasında, muxtar respublikanın pedaqoji kadr potensialının yaranmasında müstəsna rol oynamışdır (“Azərbaycan məktəbi” elmi-nəzəri pedaqoji jurnal).

Tarix elmləri doktoru, professor Həmzə Cəfərovun "Naxçıvanda təhsil: inkişaf yolu və imkanları" adlı monoqrafiyası Azərbaycanda təhsil tarixinin tədqiqində mühüm hadisə hesab edilməlidir. Gətirilən faktlar Naxçıvan Muxtar Respublikasında təhsilin dinamikasını izləməyə imkan verir. Kitabda qeyd olunur ki, 1939-cu ildə muxtar respublikada əhalinin hər 10 min nəfərinə 77 nəfər ali təhsilli düşürdüsə, 1989-cu ildə bu rəqəm 223, 1995-ci ildə 554, 2008-ci ildə isə 685 nəfər olmuşdur. Bütün bu gerçəkliklər təhsil sahəsindəki uğurların göstəricisidir (Həsənbala Sadiqov, Gəncə Dövlət Universitetinin professoru. Azərbaycan.- 2011.- 14 aprel.- s. 7).

Belə ki, ölkəmizin təhsil sahəsindəki inkişaf pillələrinə qədim tarixi dövrlərindən, müasir günümüzə qədər olan zaman diliminədək nəzər salsaq, Azərbaycan təhsilinin son 30 illik tarixi inkişafını, milli təhsilimizi aşağıdakı mərhələlərə bölə bilərik:

- Azərbaycan təhsilinin inkişafının yüksəlişləri (1970-1982);
- Azərbaycan təhsili (1982-1987);
- Azərbaycan təhsili depressiya illərində (1988-1993);
- Müstəqil Azərbaycanda yeni təhsil quruculuğu dövrü [8].

İlk təhsilini Naxçıvan şəhərində alan H.Əliyev o dövrdə burada fəaliyyət göstərən orta məktəblər haqqında deyib: "XX əsrin əvvəllərində Naxçıvanda təhsil və mədəniyyət çox geniş olub. Burada çox yüksək səviyyəli məktəblər var idi. Naxçıvanda insanlar çox yüksək təhsil alırdılar. Məktəblərdə verilən dərslər və şagirdlərin dərsləri qavramaları çox yüksək səviyyədə idi" ("Azərbaycan" qəzeti, 1994, 4 oktyabr). Görkəmli dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin inkişaf və tərəqqi strategiyasının layiqli davamçısı İlham Əliyev isə Azərbaycan Respublikasının Prezidenti seçildiyi ilk gündən ölkəmizdə təhsilin inkişafına böyük önəm vermiş, onun müasir dünya standartları səviyyəsinə çatması üçün bütün imkanları səfərbər etmişdir.

"Milli ideologiyamızı hər yerdə tətbiq etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır...Gənclərimiz öz tarixini, öz tarixi keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır" [8]. Ümummilli Liderimizin bu kimi dəyərli cıxışları yolumuza işıq tutmuş və müasir təhsil sisteminin tələbləri ilə gənclərimizi gələcəyə hazırlamaqda, milli ideologiyamızı dünyaya tanıtmaqda, mənfur düşmənlərimizə qarşı qələmimizi möhkəmlətməkdə xarici dilin əvəzsiz rolunu bizlərə bir daha sübut etmişdir.

Müasir dövrümüzün başlıca tələbinə çevrilən, beynəlxalq dil olan və dünyaya açılan qapı əhəmiyyətini daşıyan İngilis dilinin tədrisi üçün ümumtəhsil məktəblərində aparılan qabaqcıl islahatlar ilə dərs saatlarının artırılması, şagirdlərin maraqlarına uyğun motivasyaedici kurikulum dərslərinin aparılması xarici dildə bünövrənin möhkəmləndirilməsində mühüm rol oynamışdır. Bu məqamda Ümummilli Liderimiz Heydər Əliyevin dəyərli söz və fikirlərini vurğulamaq vacibdir. Belə ki, Heydər Əliyevin "Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir. Bununla yanaşı, biz çalışmalıyıq ki, məktəblərimizdə, universitetlərimizdə gənclərimiz bir neçə dil öyrənsinlər. Biz artıq dünyaya qovuşmuşuqsa, dünya birliyinə daxil olmuşuqsa, gərək insanlarımız bir neçə dil bilsinlər" [8] sözləri dünyada dil bilməyin əhəmiyyətini insanlara izah edir.

Ulu Öndərin ideyaları ölkəmizdə, eləcə də muxtar respublikada uğurla həyata keçirilir, təhsil müəssisələrində xarici dillərin tədrisi və öyrənilməsi diqqətdə saxlanılır. Bu fikri belə bir sual ilə möhkəmləndirə bilərik. Muxtar respublikanın ucqar dağ kəndlərinin şagirdləri bilik səviyyəsinə görə Azərbaycan miqyasında davamlı şəkildə necə rekordçu olurlar? Bəs Azərbaycanda ən çox xarici tələbənin hansı ali məktəbdə təhsil aldığını bilirsinizmi? Bu, heç də yaşı 80-100 olan universitetlər, tanınmış akademiyalar deyil. Blokada şəraitinin ağır çətinlikləri, fəsadları altında fəaliyyət göstərən Naxçıvan Dövlət Universitetidir (İxtiyar Hüseynli, "Azərbaycan" qəzeti. Bakı-Naxçıvan-Bakı). Belə ki, Naxçıvan Dövlət Universitetində Xarici dillər fakültəsi müstəqil olaraq 2020-ci ildən fəaliyyətə başlamışdır. Fakültənin müasir tələblərə cavab verən maddi-texniki bazası mövcuddur. Fakültədə Xarici ölkə ədəbiyyatı kabinəsi də mövcuddur. Əsasən, İngilis və Amerika ədəbiyyatına aid olan bədii əsərlər, tərcümə əsərləri tələbələrin dərsdən kənar mütailələri, fəaliyyətləri üçün olduqca faydalıdır. İngilis dili kafedrası 1998-ci ildə təşkil olunmuş, 2015-ci ildən etibarən isə

ixtisaslaşmaya əsasən " İngilis dili və tərcümə", "İngilis dili və metodika" kafedraları olaraq fəaliyyət göstərməyə başlamışdır [7].

Bununla yanaşı, Naxçıvan Dövlət Universiteti 2023-2024-cü tədris ili üçün ilk dəfə olaraq ingilis dilində Tibb ixtisası üzrə tələbə qəbulu elan etmişdir. Onu da diqqətə çatdıraq ki, Naxçıvan Dövlət Universiteti, ötən günlərdə yayılan beynəlxalq xəbərlərə əsasən Webometrics Ranking of Word Universitiesin 2023-cü il sıralamasında 15-ci yerdə qərar tutub. Bu, ali təhsil ocağının dünya sıralamalarında qazandığı növbəti uğurlardan biridir.

Prezident İlham Əliyevin təsdiqlədiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda yer alan və sənəddə qeyd olunan orta təhsilin keyfiyyət göstəricilərinin artması məqsədi güdən məktəblərin yaradılması ilə bağlı Naxçıvan Dövlət Universitetinin nəzdində ingilisdilli orta məktəbin yaradılması layihəsinin icra olunması bu sahədə aparılan ən uğurlu islahatlardan biri olmuşdur. Belə ki, dünyada qloballaşma gedir və bir sıra yeni innovativ, modern ixtisaslar yaranır. Bununla bərabər, ənənəvi ixtisaslar da qloballaşmanın bir hissəsinə çevrilir. İngilis dili artıq dünyanın əsas dillərindən biri kimi istifadə olunur. Təhsili ingilis dilində aparılan şagird və tələbələr üçün gələcək iş perspektivləri daha asan, rahat olur. Onların işlə təmin olunma prosesləri çox sürətlə gedir.

Əsası 1925-ci ildə qoyulmuş, 2023-cü ilin avqustun 1-də Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Naxçıvan Dövlət Universitetinin nəzdinə verilmiş Naxçıvan Dövlət Texniki Kollecində isə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na əsasən aparılan islahatlardan əlavə olaraq xarici dillərin tədrisində bir sıra yeniliklər edilmiş, dərs saatları artırılmış, xarici dildə tələbələrin ixtisasları üzrə biliklərə yiyələnməsi məqsədi ilə aparılan ingilis dili dərslərində ixtisaslaşmaya üstünlük verilmiş və bu məqsədlə müasir texnologiyalardan geniş istifadə edilməsi mühüm əhəmiyyət kəsb etmişdir.

Linqvistika mütəxəssisləri hesab edirlər ki, ingilis dilində, o cümlədən hər hansı başqa dildə həmin dilin daşıyıcıları qədər yaxşı danışa bilmək üçün onu mümkün qədər çox dinləmək və o dildə mümkün qədər çox danışmaq lazımdır. Belə ki, Naxçıvan Dövlət Universitetinin Xarici Dillər fakültəsində yerləşən hər bir tədris otağı müasir informatika texnologiyaları sistemi ilə təchiz olunmuşdur. İki ədəd 20 nəfərlik linqafon otağı oxu-dinləmə (reading-listening) dərslərinin tədrisi üçün tələbələrin xidmətinə verilmişdir.

Həmçinin 01 fevral 2014-cü ildə fəaliyyətinə başlamış Naxçıvan Gənclər Mərkəzində xarici dil kurslarının tədrisi üçün 3 linqafon sinfi yaradılmışdır. Siniflərdə 58 kompüter və 3 elektron lövhə quraşdırılmışdır. Gənclər burada istənilən xarici dil üzrə həm nəzəri biliklərə, həm də praktik olaraq düzgün tələffüz vərdişlərinə yiyələnə biləcəklər. Bütün bu innovativ texnologiyanın yaxın gələcəkdə bütün təhsil ocaqlarında mövcud olması gözlənilən və arzu olunan tələblər və yeniliklər sırasındadır.

Nəticə

Bu inkişaf dinamikası onun göstəricisidir ki, Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə olduğu kimi, elm və təhsildə də nailiyyətlər əldə edilir. İntellektli və

vətənpərvər gənclərin yetişməsinə, gənclərin sosial problemlərinin həllinə, bu sahədə müasir infrastrukturun yaradılmasına xüsusi diqqət yetirilir. Bunun bəhrəsi göz qabağındadır. Artıq gənclərimiz diplomatiya, iqtisadiyyat, mədəniyyət, incəsənət, idman və digər sahələrdə ölkəmizi dünyada layiqincə təmsil edir və edəcəklər.

ƏDƏBİYYAT

1. “Azərbaycan” qəzeti, 1994, 4 oktyabr.
2. Sadiqov, H. “Azərbaycan” qəzeti.- 2011.- 14 aprel.- s. 7.
3. Cəfərov, H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: Elm və təhsil, 2011, 544 s. 8.
4. Hüseynli, İ. “Azərbaycan” jurnalı. Bakı-Naxçıvan-Bakı.
5. Rzayev, V. Naxçıvanda məktəb və pedaqoji fikir (XIX əsr və XX əsrin əvvəlləri) (İkinci nəşri) Naxçıvan: 2018, s.348.
6. “Azərbaycan məktəbi” elmi-nəzəri pedaqoji jurnalı
7. https://old.ndu.edu.az/fakulteler/xarici-diller/
8. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev.

ABSTRACT

Turan Zeyniyeva

MODERN SCIENTIFIC INNOVATIONS IN THE LAND OF ANCIENT SCIENTISTS

"After deeply studying the current position of our education system and its problems, the priority areas should be determined," said our Great Leader Heydar Aliyev, who has done important works for the implementation of the educational strategy in accordance with the experience of the developed countries of the world in Azerbaijan. Thus, his worthy successor Mr. President Ilham Aliyev played a great role in raising our education to the level of world standards with the decree dated June 13, 2000 "On the improvementation of the education system of the Republic of Azerbaijan". He emphasized that education is an important area of every state, country and society. In general, in the Republic of Azerbaijan and in the lands of Nakhchivan, the homeland of ancient scientists, which is an inseparable part of it, the paths taken by him in the field of education and science from yesterday to today inspire and delight us as the citizens of Azerbaijan, it increases confidence in our future. In order to keep up with the innovations that are happening in our world, which is constantly developing and becoming globalized at every second, we need to strengthen our education and reach it to the international level. In order to protect our national values, history, and its future, it is necessary to know English, which is the door to the world, in addition

to our mother tongue, and the most importantly, foreign languages. For this purpose, the innovations and development dynamics in our country and its integral part Nakhchivan, are proof and heralds of its undeniable high level in the world arena.

Keywords: *Our Great Leader Heydar Aliyev, Nakhchivan Autonomous Republic, English language, science and education, dynamics*

РЕЗЮМЕ

Туран Зейниева

СОВРЕМЕННЫЕ НАУЧНЫЕ ИННОВАЦИИ НА ЗЕМЛЕ ДРЕВНИХ УЧЕНЫХ

"После углубленного изучения нынешнего состояния нашей системы образования и ее проблем должны быть определены приоритетные направления", - сказал наш Великий Лидер Гейдар Алиев, проделавший в Азербайджане важную работу по реализации стратегии образования в соответствии с опытом Таким образом, его достойный преемник, господин Президент Ильхам Алиев Указом от 13 июня 2000 года «О совершенствовании системы образования Азербайджанской Республики» сыграл важную роль в повышении нашего образования. до уровня мировых стандартов. Он подчеркнул, что образование является важной сферой каждого государства, страны и общества в целом, в Азербайджанской Республике и в Нахчыване, на родине древних ученых, которая является неотъемлемой частью пути, по которому он прошел. сфера образования и науки вдохновляют нас, граждан Азербайджана, обоих. И это повышает уверенность в нашем будущем. Чтобы идти в ногу с инновациями, происходящими в нашем мире, который постоянно развивается и с каждой секундой глобализируется, мы должны укреплять наше образование и выводить его на международный уровень. Чтобы защитить наши национальные ценности, историю и будущее нашей страны, помимо нашего родного языка, иностранные языки являются важнейшими воротами в мир. Для этого нам необходимо знать английский язык. и динамика развития нашей страны и ее неотъемлемой части – Нахчывана – являются доказательством и провозвестником ее неоспоримо высокого уровня на мировой арене.

Ключевые слова: *Наш великий лидер Гейдар Алиев, Нахчыванская Автономная Республика, английский язык, наука и образование, динамика*

FƏXRƏDDİN ABBASOV

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci

COP29: ALTERNATİV ENERJİ MƏNBƏLƏRİ VƏ İQLİM DƏYİŞİKLİYİ

COP29 BMT İqlim Dəyişikliyi Üzrə Çərçivə Konvensiyasının 29-cu sessiyası olub, alternativ enerji mənbələri və iqlim dəyişikliyi ilə bağlı mühüm qərarlar qəbul olunmuşdur. Bu konfransda alternativ enerji mənbələrinin inkişafı və genişlənməsinə böyük diqqət yetirilmişdir.

Alternativ enerji mənbələri, neft, kömür və digər fosil yanacaqlardan asılı olmayan enerji mənbələridir. Bunlar arasında günəş enerjisi, külək enerjisi, hidroelektrik enerji, biyomasa, geotermal enerji və atom enerjisi daxil olur. Bu mənbələr, iqlim dəyişikliyini azaltmaq və enerji səmərəliliyini artırmaq üçün vacibdir

Alternativ enerji mənbələrinin inkişafı və tətbiqi üzrə bir sıra mühüm layihələr və proyektlər həyata keçirilir. Bu layihələr arasında günəş panellerinin quraşdırılması, külək enerjisi stansiyalarının inşası, hidroelektrik stansiyalarının yenidən qurulması və geotermal enerji mərkəzlərinin yaradılması daxil olur.

Azərbaycan təbii resurslarla zəngin bir ölkə olmasına baxmayaraq, bərpa olunan enerji mənbələrinə də böyük diqqət yetirir. Günəş və külək enerjisi bu mənbələr arasında ən böyük potensiala sahib olanlardan biridir. Bu məqalədə, günəş və külək elektrik stansiyaları, onların inkişafı, təsirləri və gələcək planları haqqında ətraflı məlumat verilmişdir.

Qaradağ Günəş Elektrik Stansiyası, Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Bu stansiya 230 MVt gücündədir və 2023-cü ilin 26 oktyabr tarixində rəsmi açılışı olub. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcək və 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Bu, atmosferə atılan karbon emissiyasının 200 min ton azalmasına gətirəcək. Stansiya, müasir "şüşə-şüşə" formalı günəş panelləri və invertorlar ilə təchiz olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında günəş elektrik stansiyalarının inkişafı müxtəlif layihələrlə həyata keçirilir. 2019-cu ildə İsveçrənin “Pure Energy Development” şirkəti ilə müqavilə imzalanaraq, Kəngərli rayonunda 3 meqavat gücündə yeni günəş elektrik stansiyası tikilmişdir. Bu stansiyalar enerji təhlükəsizliyini təmin etmək və ekoloji vəziyyəti yaxşılaşdırmaq məqsədilə müasir texnologiyalarla təchiz olunmuşdur. Naxçıvan günəş elektrik stansiyalarının illik istehsal gücü 40,5 milyon kilovat-saata çatdırılmışdır.

Naxçıvan Muxtar Respublikasında günəş elektrik stansiyalarının inkişafı və istifadəsi, enerji təhlükəsizliyini artırmaq və ekoloji vəziyyəti yaxşılaşdırmaq üçün böyük bir addım olmuşdur. Bu stansiyalar Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyini təmin etməyə və iqlim dəyişikliyinə müqavimət göstərməyə kömək edir.

Şəmkir rayonunda yerləşən günəş elektrik stansiyası 2015-ci ildə istismara verilmişdir. Bu stansiya 2 meqavat gücündədir və ildə təqribən 3,5 milyon kilovat-saat

elektrik enerjisi istehsal etmək qabiliyyətinə malikdir. Bu stansiya da müasir avadanlıqlarla təchiz olunmuşdur və təbii resurslardan səmərəli istifadə etməyə imkan verir.

Azərbaycanda külək enerjisi istehsalı üzrə layihələr də həyata keçirilmişdir. Bu layihələr ölkənin enerji təhlükəsizliyini artırmağa və bərpa olunan enerji mənbələrinin payını genişləndirməyə yönəlmişdir. Şimalı külək zonasında yerləşən bu stansiyalar, həm enerji mənbələrini müxtəlifləşdirmək, həm də ekoloji təmiz enerji təmin etmək məqsədilə tikilir.

Pirallahı Külək Elektrik Stansiyası, Azərbaycanın ən önəmli külək enerjisi layihələrindən biridir. Bu stansiya 50 MVt gücündədir və külək enerjisi potensialından səmərəli istifadə etmək məqsədilə tikilib. Stansiyanın illik istehsal gücü milyonlarca kilovat-saat elektrik enerjisinə bərabərdir və bu enerji ilə çoxsaylı ev və müəssisələr təmin olunur.

Xızı-Abşeron Külək Parkı, 2022-ci ildə fəaliyyətə başlamışdır və 240 MVt gücündədir. Bu park, Azərbaycanın ən böyük külək enerji layihələrindən biridir və illik 1 milyard kilovat-saat elektrik enerjisi istehsal etmək qabiliyyətinə malikdir. Park, modern texnologiyalarla təchiz edilmişdir və Azərbaycanın enerji təhlükəsizliyini gücləndirir.

Azərbaycanın bərpa olunan enerji mənbələri sahəsində gələcək inkişaf planlarına diqqət yetirmək vacibdir. Bu planlar arasında yeni günəş və külək elektrik stansiyalarının tikintisi, mövcud stansiyaların gücləndirilməsi və enerjiyə olan tələbatın daha səmərəli idarə olunması üçün tədbirlər daxildir.

Lənkəran Külək Enerjisi Layihəsi Azərbaycanın cənub regionunda külək enerjisi potensialını inkişaf etdirmək məqsədilə planlaşdırılmışdır. Bu layihə çərçivəsində 2026-cı ildə 75 MVt gücündə yeni külək elektrik stansiyası tikiləcəkdir.

Qusar Külək Elektrik Stansiyası, Azərbaycanın şimal regionunda külək enerjisindən istifadə edərək elektrik enerjisi istehsal etmək məqsədilə planlaşdırılmışdır. Bu stansiyanın tikintisi 2027-ci ildə başlanacaq və 150 MVt gücündə olacaq.

Bərpa olunan enerji mənbələrinin istifadəsi, həm ekoloji, həm də iqtisadi baxımdan bir çox üstünlüklərə malikdir. Günəş və külək elektrik stansiyaları atmosferə atılan karbon emissiyalarını azaldır, iqlim dəyişikliyinə qarşı mübarizədə mühüm rol oynayır. Eyni zamanda yerli iqtisadiyyata da dəstək olur, yeni iş yerləri yaradır və enerjiyə olan xarici asılılığı azaldır

Azərbaycanın günəş və külək elektrik stansiyaları, enerji təhlükəsizliyini artırmaq və ekoloji vəziyyəti yaxşılaşdırmaq məqsədilə böyük əhəmiyyət kəsb edir. Bu stansiyalar, ölkənin enerji mənbələrinin diversifikasiyası və bərpa olunan enerji mənbələrinin istifadəsi sahəsində vacib bir rol oynayır. Gələcək inkişaf planları isə Azərbaycanın enerji sektorunun davamlı inkişafını təmin edəcəkdir.

Azərbaycan, təbii resurslarla zəngin bir ölkə olmasına baxmayaraq, bərpa olunan enerji mənbələrinə də böyük diqqət yetirir. Günəş və külək enerjisi bu mənbələr arasında ən böyük potensiala sahib olanlardan biridir. Bu məqalədə, günəş və külək elektrik stansiyaları, onların inkişafı, iqtisadi səmərəsi və gələcək planları haqqında ətraflı məlumat verilmişdir.

Azərbaycanda külək enerjisi istehsalı üzrə layihələr də həyata keçirilmişdir. Bu layihələr ölkənin enerji təhlükəsizliyini artırmağa və bərpa olunan enerji mənbələrinin payını genişləndirməyə yönəlmişdir. Şimalı külək zonasında yerləşən bu stansiyalar, həm enerji mənbələrini müxtəlifləşdirmək, həm də ekoloji təmiz enerji təmin etmək məqsədilə tikilir.

Şəmkir rayonunda yerləşən günəş elektrik stansiyası 2015-ci ildə istismara verilmişdir. Bu stansiya 2 meqavat gücündədir və ildə təqribən 3,5 milyon kilovat-saat elektrik enerjisi istehsal etmək qabiliyyətinə malikdir. Bu stansiya da müasir avadanlıqlarla təchiz olunmuşdur və təbii resurslardan səmərəli istifadə etməyə imkan verir.

Günəş və külək elektrik stansiyaları, xarici investisiyaların cəlb edilməsinə və yerləşdirilmiş investisiyaların geri qaytarılmasına kömək edir. Məsələn, Qaradağ Günəş Elektrik Stansiyası 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə ilə tikilmişdir. Bu cür layihələr xarici investisiyaların cəlb edilməsi ilə yanaşı, yerləşdirilmiş investisiyaların qısa müddət ərzində geri qaytarılmasına da kömək edir.

Günəş və külək elektrik stansiyaları, uzunmüddətli perspektivdə elektrik enerjisi xərclərinin azalmasına kömək edir. Bərpa olunan enerji mənbələri, fosil yanacaqlarla müqayisədə daha aşağı istismar və baxım xərclərinə malikdir. Bu da istehlakçılar üçün daha ucuz elektrik enerjisi təmin edir.

Bərpa olunan enerji mənbələri, ekoloji təsirin azaldılmasına və atmosferə atılan karbon emissiyalarının azaldılmasına kömək edir. Bu da qlobal istiləşmə və iqlim dəyişikliyi ilə mübarizə üçün vacibdir. Məsələn, Qaradağ Günəş Elektrik Stansiyası hər il atmosferə atılan karbon emissiyasının 200 min ton azalmasına səbəb olacaq.

Bərpa olunan enerji mənbələrindən əldə olunan elektrik enerjisi, iqtisadi gəlirlərin artmasına və dövlət büdcəsinə töhfə verir. Bu, ölkənin iqtisadi inkişafına dəstək olur. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur bölgələri, işğaldan azad edildikdən sonra yenidənqurma və bərpa işləri çərçivəsində bərpa olunan enerji mənbələrinin istifadəsi üzrə böyük potensiala malikdir. Bu bölgələrdə günəş, külək və su enerjisinin inkişaf etdirilməsi üçün bir sıra layihələr və planlar həyata keçirilir.

Qarabağda 4 min meqavatdan artıq günəş enerjisi potensialı mövcuddur. Bu enerji mənbəyi, xüsusilə Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarında daha çox yayılmışdır. Bu rayonlarda günəş elektrik stansiyalarının tikintisi üçün ümumi sahəsi 14 min 427 hektar və güc qoyuluşu potensialı 7 min 214 meqavat olan 8 perspektiv ərazi müəyyənləşdirilib.

Günəş enerji potensialından istifadə edərək bir neçə günəş elektrik stansiyası tikilməsi planlaşdırılır:

- **Füzuli Günəş Elektrik Stansiyası**: 500 MVt gücündə olacaq və illik elektrik istehsalı 1 milyard kilovat-saatı aşacaq.
- **Cəbrayıl Günəş Elektrik Stansiyası**: 300 MVt gücündə olacaq və il ərzində 600 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcək.
- **Zəngilan Günəş Elektrik Stansiyası**: 400 MVt gücündə olacaq və hər il 800 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcək.

Qarabağda külək enerjisi potensialı əsasən dağlıq ərazilərdə yerləşir. Bu bölgələrdə külək sürəti yüksək olduğu üçün külək elektrik stansiyalarının tikintisi üçün əlverişli şərait mövcuddur. 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metr olduğu geniş ərazilərdə külək enerjisi istehsalı planlaşdırılır.

- **Laçın Külək Elektrik Stansiyası**: 250 MVt gücündə olacaq və hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcək.

- **Kəlbəcər Külək Elektrik Stansiyası**: 150 MVt gücündə olacaq və il ərzində 300 milyon kilovat-saat elektrik enerjisi təmin edəcək.

- **Qubadlı Külək Elektrik Stansiyası**: 100 MVt gücündə olacaq və hər il 200 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcək.

Bərpa olunan enerji mənbələrinin istifadəsi, ölkənin enerji müstəqilliyini artırmağa kömək edir. Qarabağda və Şərqi Zəngəzurda bu mənbələrin istifadəsi, enerjiyə olan xarici asılılığı azaldır və ölkənin iqtisadi təhlükəsizliyini artırır.

Bu layihələr, bölgədə yeni iş yerlərinin yaradılmasına imkan verir. Günəş və külək elektrik stansiyalarının tikintisi və istismarı prosesində çoxsaylı iş imkanları yaranır. Bu da yerli iqtisadiyyata müsbət təsir edir və işsizliyi azaldır.

Bərpa olunan enerji mənbələri, ekoloji təsirin azaldılmasına və atmosferə atılan karbon emissiyalarının azaldılmasına kömək edir. Bu da qlobal istiləşmə və iqlim dəyişikliyi ilə mübarizə üçün vacibdir.

Qarabağ və Şərqi Zəngəzur bölgələrində yaşıl enerji mənbələri, enerji təhlükəsizliyini təmin etmək və ekoloji vəziyyəti yaxşılaşdırmaq məqsədilə mühüm rol oynayır. Bu bölgələrdə həyata keçirilən və planlaşdırılan layihələr, Azərbaycanın enerji sektorunun davamlı inkişafına və enerji müstəqilliyinə böyük töhfə verəcəkdir.

Xəzər dənizi ətrafında yerləşən ölkələr, enerji təhlükəsizliyini təmin etmək, enerji diversifikasiyası və karbon emissiyalarını azaltmaq məqsədilə hibrid elektrik stansiyaları inşa edirlər. Bu stansiyalar, günəş, külək və su enerjisi kimi bərpa olunan enerji mənbələrinin kombinasiyasından istifadə edərək enerji istehsal edir..

Hibrid elektrik stansiyaları müxtəlif enerji mənbələrinin kombinasiyasından istifadə etməklə enerji istehsal edən qurğulardır. Bu stansiyalar, adətən, günəş, külək və su enerjisinin kombinasiyasını istifadə edərək elektrik enerjisi istehsal edir. Xəzər dənizi ətrafında yerləşən hibrid elektrik stansiyaları həm enerji təchizatının sabitliyini təmin edir, həm də karbon emissiyalarını azaldır. Bu stansiyalar həm texnoloji, həm də iqtisadi baxımdan böyük əhəmiyyətə malikdir. Hibrid elektrik stansiyaları, xarici investorları cəlb etmək üçün əlverişli layihələrdir. Bu stansiyalar ölkəyə xarici investisiyaların cəlb olunmasına və iqtisadiyyatın inkişafına kömək edir. Məsələn, beynəlxalq enerji şirkətləri bu layihələrə sərmayə qoyaraq ölkənin enerji sektorunun inkişafına dəstək olurlar. Xarici investisiyalar, həmçinin ölkədə yeni texnologiyaların tətbiq edilməsinə və iqtisadi inkişafın sürətlənməsinə kömək edir.

Neftçala Hibrid Elektrik Stansiyası, Azərbaycanın Xəzər dənizi sahillərində yerləşən bir stansiyadır. Bu stansiya günəş və külək enerjisinin kombinasiyasından istifadə edir və ümumi gücü 100 MVt-dır. Stansiyanın illik istehsal gücü 250 milyon kilovat-saatdır. Stansiya, günəş panelləri və külək turbinləri ilə təchiz olunmuşdur. Günəş panelləri gün ərzində günəş enerjisini toplayır və elektrik enerjisinə çevirir.

Külək turbinləri isə küləyin gücünü elektrik enerjisinə çevirir. Bu kombinasiyalı sistem, enerji təchizatının sabitliyini və təhlükəsizliyini təmin edir.

Lənkəran Hibrid Elektrik Stansiyası, Azərbaycanın cənub sahillərində yerləşən bir stansiyadır. Bu stansiya, həm günəş, həm də külək enerjisi potensialından istifadə edir. Stansiyanın ümumi gücü 150 MVt-dır və illik istehsal gücü 375 milyon kilovat-saatdır. Lənkəran stansiyası müasir texnologiyalarla təchiz edilmişdir və ekoloji cəhətdən təmiz enerji təmin edir. Stansiya küləkli günlərdə külək enerjisindən, günəşli günlərdə isə günəş enerjisindən istifadə edir. Bu da enerji istehsalının davamlılığını təmin edir.

Hibrid elektrik stansiyaları, uzunmüddətli perspektivdə elektrik enerjisi xərclərinin azalmasına kömək edir. Bərpa olunan enerji mənbələri, fosil yanacaqlarla müqayisədə daha aşağı istismar və baxım xərclərinə malikdir. Bu da istehlakçılar üçün daha ucuz elektrik enerjisi təmin edir. Hibrid elektrik stansiyaları, enerjinin daha ucuz qiymətə istehlakçılara çatdırılmasını təmin edir və bu da iqtisadi səmərəliliyi artırır.

Xəzər dənizində hibrid elektrik stansiyaları, enerji təhlükəsizliyini təmin etmək, karbon emissiyalarını azaltmaq və iqtisadi səmərəliliyi artırmaq məqsədilə böyük əhəmiyyət kəsb edir. Bu stansiyalar enerji təchizatının sabitliyini təmin edir, iş yerləri yaradır və xarici investisiyaları cəlb edir. Gələcəkdə daha çox hibrid elektrik stansiyalarının tikintisi ilə Azərbaycanın enerji sektoru daha da güclənəcəkdir.

MEHRİ İBRAHİMOVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
email.mehrikalashova9888@gmail.com

MƏKTƏBLİLƏRDƏ RİYAZİYYAT BACARIQLARININ İNKİŞAFI METODOLOGİYASI

XÜLASƏ

Bu məqalə məktəblilərdə riyaziyyat bacarıqlarının inkişafı üçün tətbiq edilən metodların və yanaşmaların təsirini müzakirə edir. Məqsəd, uşaqların riyazi problemlərini həll etmək və analitik düşünmə bacarıqlarını inkişaf etdirmək üçün tətbiq olunan ən effektiv metodologiyaları müəyyən etməkdir. Riyaziyyat, məntiqi və analitik düşünmə bacarıqlarını inkişaf etdirmək üçün çox güclü bir vasitədir. Məktəblilər üçün riyaziyyat dərslərində tətbiq edilən metodlar, onların problemləri təhliletmə, Nəticə çıxarma, və məntiqi əlaqələri müəyyənetmə bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Şagirdlərə riyaziyyat problemini həll etməyi öyrətmək, onların məntiqi düşünmə və ardıcıl düşüncə bacarıqlarını artırır. Məntiqi ardıcıllıq və əlaqə qurma şagirdlərin riyaziyyatla yanaşı, ümumi təfəkkür bacarıqlarını da inkişaf etdirir. Riyaziyyat problemlərinin həlli zamanı qrafiklər və cədvəllər istifadə etmək, şagirdlərin anlayışını dərinləşdirir. Həmçinin bu yanaşma, məlumatları düzgün şəkildə təsvir etməyə kömək edir və uşaqların məntiqi düşüncə qabiliyyətini inkişaf etdirir. Riyaziyyatın tədrisində interaktiv metodlar və oyunlardan istifadə etmək, şagirdlərin marağını artırmaq və onların tədrisə aktiv qatılmasını təmin etmək üçün çox faydalıdır. Müəllimlər şagirdlərin bacarıqlarına uyğun olaraq, dərsləri tənzimləməli və hər bir şagirdin inkişafını izləməlidir. Riyaziyyat dərslərində şagirdlərə fərdi tapşırıqlar verərək, onların bacarıqlarını inkişaf etdirmək mümkündür. Konstruktivizm yanaşması, şagirdin öyrənmə prosesində fəal iştirakını təmin edir. Bu yanaşmada şagirdlər öz biliklərini yaradaraq öyrənir və bu, onların analitik düşüncə bacarıqlarını artırır. Riyaziyyat dərslərində şagirdlərə öz problemlərini həll etmək üçün müxtəlif yanaşmalar təqdim edilməli, onların öyrənmə prosesi aktiv şəkildə müşahidə olunmalıdır.

Açar sözlər: *metodologiya, analitik düşünmə, konstruktivizm, interaktiv, məntiqi oxu*

Giriş

İnformasiya ilə işləmə bacarığı məktəblilərin düşüncə səviyyəsinin mühüm göstəricisidir. Bu bacarıq analitik fəaliyyət səviyyəsini əks etdirir və şagirdin sosial adaptasiyasına əhəmiyyətli təsir göstərir. Məktəbdə təhsilin ilk günlərindən başlayaraq uşaqları informasiya ilə işləməyə sistemli şəkildə öyrətmək və bu prosesi tədricən mürəkkəbləşdirmək lazımdır. Şagirdlərin ən çətin məsələsi mətn tapşırıqlarını həll etmək bacarığıdır [1]. Bu bacarığı mənimsəyən şagird, mətnin mənasını yalnız başa düşməklə kifayətlənməyib, həm də müstəqil Nəticələr çıxara bilər ki, bu da mətnə daxil edilmiş

məlumatların mənimsənilməsini təmin edir. Bu bacarığın formalaşdırılması "Riyaziyyat" fənni ilə əlaqələndirilmişdir, mətn məsələləri isə informasiya ilə işləmək üçün əsas tədris fəaliyyəti növü kimi nəzərdə tutulur. Riyaziyyat, məntiqi və analitik düşünmə bacarıqlarını inkişaf etdirmək üçün çox güclü bir vasitədir [3]. Məktəblilər üçün riyaziyyat dərslərində tətbiq edilən metodlar, onların problemləri təhlil etmə, Nəticə çıxarma, və məntiqi əlaqələri müəyyən etmə bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir.

Mətn üzərində işləmə bacarığının formalaşdırılması mərhələləri nümunəvi əsas təhsil proqramında müəyyən edilmiş və şagirdlərinin məntiq məsələlərini həll edərkən informasiya ilə işləməyi öyrənməsi üçün istiqamət müəyyən etmişdir . Müasir peda-qoqlar mətn tapşırığını təbii dildə müəyyən bir vəziyyətin təsviri olaraq təyin edirlər və bu vəziyyətin hansısa komponentinin kəmiyyət göstəricisini verməyi, onun kompo-nentləri arasındakı əlaqənin olub-olmamasını müəyyənləşdirməyi və bu əlaqənin növünü təyin etməyi tələb edir [3]. Belə tapşırıqların düzgün həlli, şagirdin zehni fəaliy-yətin təhlil, təsnifat, müqayisə, ümumiləşdirmə və s. kimi üsullarını formalaşdırmasını nəzərdə tutur [1]. Doğru riyazi əməliyyatın seçilməsi və lazımlı hesablamaların aparılması, tapşırığın şərti ilə tələb arasındakı əlaqələri təhlil etməyi tələb edir.

Nəzəri materialın öyrənilməsi zamanı şagirdlər mətnin mənalı oxunmasını, əsas fikri ayırd etməyi və elmi formulaların yadda saxlanmasını öyrənirlər. Müəllimlə dərs zamanı kommunikativ qarşılıqlı əlaqə, məsələn, suallara cavab vermək və ya seçilmiş həll yolunun əsaslandırılması, şifahi və yazılı nitq söyləmə bacarığının inkişafını, təhlil etmə, sübut etmə və məntiqi mühakimə qurma bacarıqlarını inkişaf etdirir [2]. Qrafik materiallardan istifadə edərək tapşırıqların həlli, lazımlı məlumatların axtarılması və seçilməsi, onların müxtəlif formalarda tətbiqi və təqdim edilməsi bacarığının inkişafına kömək edir.

Mətn məsələlərinin həlli mərhələləri ilə mənalı oxu arasında rabitə aşağıdakı kimi izah edilə bilər:

1. Mətnin məzmununun qavranılması

Mətn oxunduqdan sonra onun ümumi mənası başa düşülməlidir. Şagird, məsələnin mətnində təqdim edilən vəziyyəti və hadisələri təsəvvür etməlidir.

Məqsəd: Mətnin əsas fikrini və mövzunu müəyyənləşdirmək.

2. Mühüm məlumatların seçilməsi

Mətnin əsas məqamlarını ayırmaq və problemi həll etmək üçün lazım olan məlumatları seçmək.

Məqsəd: Vacib olanı əhəmiyyətsizdən fərqləndirmək.

3. Məntiqi əlaqələrin qurulması

Mətnin müxtəlif hissələri arasında məntiqi əlaqələrin müəyyənləşdirilməsi, məsələnin şərt və suallarının əlaqəsini qurmaq.

Məqsəd: Mətnin strukturunu və məna əlaqələrini anlamaq.

4. Həll yolunun axtarışı

Məsələnin həlli üçün uyğun üsul və alqoritmi seçmək.

Məqsəd: Mətnin təqdim etdiyi məlumatları istifadə edərək problemi həll etmək.

5. Nəticənin təhlili

Əldə olunan Nəticəni nəzərdən keçirmək, məsələnin şərti ilə uyğunluğunu yoxlamaq.

Məqsəd: Həllin düzgünlüyünü və məntiqi tamlığını təsdiqləmək.

Bu mərhələlər məntiqi oxu ilə paralel şəkildə icra olunur. Məntiqi oxu şagirdin mətnlə işləmə qabiliyyətini inkişaf etdirir və hər mərhələdə düzgün istiqamət almasına kömək edir [2]. Beləliklə, hər bir mərhələ şagirdin həm mətnlə işləmə bacarığını, həm də analitik düşünmə qabiliyyətini inkişaf etdirir.

Mətnin məzmununun qavranılması mərhələsində mənalı məzmunun başa düşülməsi vacibdir, çünki yalnız bu halda şagird informasiyanı şüurlu şəkildə işləyə biləcəkdir. Misal kimi belə bir tapşırığı nəzərdən keçirək:

Qutuda müxtəlif dadı olan şokolad konfetlər var. Bu dadlar üç növdür: çiyələkli, portağallı və bananlı. Cəmi 22 konfet var. Məlumdur ki, çiyələkli konfetlər portağallı konfetlərdən 9 dəfə çoxdur, bananlı konfetlər isə çiyələkli konfetlərdən azdır. Bananlı konfetlər neçə ədəddir?

Belə bir tapşırıq üzrə mətn üzərində işi şagird oxumaq və mənimsəməklə başlayır. Ona mətnin mənasını və mahiyyətini anlamaqda necə kömək etmək olar? İlk növbədə, mətni şərt və tapşırığın əsas sualına ayırmağı öyrətmək lazımdır. Daha sonra şərt və sualdakı vacib sözləri ayırmaq, ədədi məlumatları müəyyən etmək, əhəmiyyətsiz detalları çıxarmaq və alınan məlumatlarla tapşırıq mətnini yenidən qurmaq lazımdır. Şagird bu tapşırığı həm çatışmayan məlumatlı (bananlı konfetlərin çiyələkli konfetlərdən nə qədər az olduğu göstərilməyib), həm də artıq məlumatlı (həll üçün lazım olmayan "üç" ədədi göstərilib) kimi təsnif edə bilər. Əsas və dəstək sözləri, əlaqələndirici sözləri və ölçülər arasında olan asılılıq və münasibətləri göstərən sözləri ayıraraq mühakimə etməyə (informasiya ilə işləməyə) başlayır və bu Nəticəyə gəlir ki, bu tapşırıq üzrə qısa yazı tərtib etmək çətindir. Məlumatı düzgün həllə gətirəcək başqa kodlaşdırma üsulu axtarmaq lazımdır.

Belə tapşırığın həlli üçün məlumatları sistemləşdirmək və əlaqələri görmək üçün cədvəl qurmaq ən rahat üsuldur. Cədvəli aşağıdakı kimi qura bilərik:

Konfet növü	**Miqdarı**	**Şərh**
Çiyələkli	9x	Portağallı konfetlərin miqdarından 9 dəfə çoxdur.
Portağallı	x	Əsas dəyişən olaraq götürülüb.
Bananlı	22−10x	Ümumi konfetin miqdarından çiyələkli və portağallının miqdarını çıxırıq.

İzah:

1. Portağallı konfetlərin miqdarını x kimi götürürük.
2. Çiyələkli konfetlərin miqdarı, şərtə əsasən, 9x-dir.
3. Ümumi miqdar 22 konfet olduğuna görə, bananlı konfetlərin miqdarı $22-(x+9x)=22-10x$

Şərt:

Bananlı konfetlərin miqdarı mənfi ola bilməz, buna görə $22-10x>0$ bərabərsizliyini həll edirik:

$22>10x \implies x<2.2$

Buradan çıxış edərək x yalnız tam ədədlər ola bilər. Beləliklə, x=2 ola bilər.

Nəticə:

1. Portağallı: x=2
2. Çiyələkli: 9x=18
3. Bananlı : 22−10x=22−20=2

Beləliklə, bananlı konfetlərin miqdarı 2 ədəddir.

Bu tapşırıq nümunəsi əsasında demək olar ki, şagird öz mülahizələrində bu suallara cavab tapır: “Bu tapşırığı oxuyaraq nə öyrəndim?”, “Konfet növləri haqqında nə deyilir?”, “Cəmi neçə konfet var?”, “Çiyələkli içlikli konfetlər haqqında nə öyrəndim?”, “Tapşırıqda portağallı konfetlər haqqında nə deyilir?”, “Mən nəyi öyrənməliyəm?”.

Bu tapşırıq, məlumatla işləmək bacarıqlarının əsaslarını aydın şəkildə nümayiş etdirir: mətnin mənalı oxunması, tapşırıq şərtində məlumatların təhlili, səbəb-Nəticə əlaqələrinin axtarılması, həll taparkən Nəticə çıxarma bacarığı, məlumatın müxtəlif formalarda təqdim edilməsi və tapşırığın həllinin və şərtinin düzgün tərtib edilməsi və s. [2]. Məlumatla işləmək bacarığının formalaşması problemi aktualdır, çünki bu keyfiyyət uşağın şəxsiyyətinin inkişafında böyük rol oynayır. Uşağa uyğun həll yolunu görməyi öyrətmək üçün ilk növbədə ona özünə suallar verməyi öyrətmək lazımdır. Müntəzəm olaraq dərslərdə mətn tapşırıqları həll edərkən müəllim hazır həlli təklif etmir, şagirdləri müstəqil "açılışa" çatdırmaq üçün tapşırığı müzakirə edərək, əsasını çıxararaq, geniş və dar suallar verərək, tapşırıqda təsvir olunan vəziyyəti modelləşdirərək, yəni oxunanın tam təhlilini aparır [3].

Dərsdə mətn məsələlərini müntəzəm olaraq təhlil edərək, müəllim hazır həlli təklif etmir, əksinə, şagirdləri müstəqil şəkildə "kəşf etməyə" yönəldir. Bu proses hər dəfə tapşırığın oxunmuş hissəsini müzakirə etməklə, onun mahiyyətini müəyyən etməklə, geniş və dar suallar verməklə, məsələdə təsvir olunan vəziyyəti modelləşdirməklə, yəni oxunanın tam təhlilini aparmaqla həyata keçirilir.

Riyaziyyatın tədrisində interaktiv metodlar və oyunlardan istifadə etmək, şagirdlərin marağını artırmaq və onların tədrisə aktiv qatılmasını təmin etmək üçün çox faydalıdır. Oyun əsaslı öyrənmə, şagirdlərin riyazi məlumatları daha yaxşı mənimsəmələrini və həll prosesində kreativ yanaşmalar tapmalarını təmin edir [1]. Riyaziyyatla əlaqəli oyunlar uşaqların riyazi düşüncə bacarıqlarını inkişaf etdirir. Bu oyunlar vasitəsilə şagirdlər, məsələn, müxtəlif hesablamaları həyata keçirmək, məntiqi əlaqələri müəyyən etmək və strateji düşüncə bacarıqlarını inkişaf etdirirlər. Riyaziyyatla bağlı qrup tapşırıqları məktəblilərin əməkdaşlıq etmə və müxtəlif yanaşmaları müzakirə etmə bacarıqlarını inkişaf etdirir. Bu, onların həm sosial bacarıqlarını, həm də riyazi düşünmə qabiliyyətlərini gücləndirir.

Müəllimlər, şagirdlərin bacarıqlarına uyğun olaraq, dərsləri tənzimləməli və hər bir şagirdin inkişafını izləməlidir. Riyaziyyat dərslərində şagirdlərə fərdi tapşırıqlar verərək, onların bacarıqlarını inkişaf etdirmək mümkündür. Bu tapşırıqlar uşaqların mövcud səviyyəsinə uyğun olmalı və onlar üçün yeni biliklərə açıq olmalıdır. Fərdi yanaşma vasitəsilə şagirdlərə öz sürətlərinə uyğun oyunlar və tapşırıqlar təqdim edilə bilər ki, bu da onların riyaziyyat biliklərini və bacarıqlarını inkişaf etdirir. Konstruktivizm yanaşması, şagirdin öyrənmə prosesində fəal iştirakını təmin edir. Bu yanaşmada şagirdlər öz biliklərini yaradaraq öyrənir və bu, onların analitik düşüncə

bacarıqlarını artırır [3]. Riyaziyyat dərslərində şagirdlərə öz problemlərini həll etmək üçün müxtəlif yanaşmalar təqdim edilməli, onların öyrənmə prosesi aktiv şəkildə müşahidə olunmalıdır. Müəllimlər şagirdlərə suallar verərək və onların düşüncələrini təhlil edərək onların riyaziyyatla bağlı anlayışlarını dərinləşdirə bilərlər.

Nəticə

Məktəblilərdə riyaziyyat bacarıqlarının inkişafı üçün metodologiyalar uşaqların məntiqi və analitik düşüncə bacarıqlarını artırmağa yönəlmişdir. Riyaziyyat tədrisi şagirdlərin problemləri təhlil etmə, məntiqi Nəticələr çıxarma və müxtəlif həll yolları tətbiq etmə bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif yanaşmalar tələb edir. İnteraktiv metodlar, oyunlar, fərdiləşdirilmiş yanaşmalar və konstruktivizm prinsiplərinin birləşdirilməsi uşaqların riyazi bacarıqlarını inkişaf etdirir və onların təhsil prosesində daha fəal və müstəqil olmalarına kömək edir.

ƏDƏBİYYAT

1. Артемов, А. К. Теоретические основы методики обучения математике в начальных классах / А. К. Артемов, Н. Б, Истомина и др. / Под ред. Н. Б. Истоминой. - Московский департамент образования. - Москва-Воронеж, 1996.
2. Мендыгалиева, А. К. Общие вопросы методики преподавания математики в начальной школе. учебное пособие Оренбург – 2019
3. Кравченко, О.Ю. Методика формирования элементарных математических представлений РИПО 2024

ABSTRACT

This article discusses the impact of methods and approaches used to develop mathematical skills in schoolchildren. The goal is to identify the most effective methodologies applied to help children solve mathematical problems and develop analytical thinking skills. Mathematics is a powerful tool for developing logical and analytical thinking abilities. The methods used in mathematics lessons for schoolchildren aim to enhance their skills in analyzing problems, making inferences, and identifying logical relationships. Teaching students to solve mathematical problems improves their logical thinking and sequential reasoning skills. Logical consistency and establishing connections not only improve students' mathematics abilities but also enhance their general cognitive skills. Using graphs and tables when solving mathematical problems deepens students' understanding. This approach also helps in accurately presenting data and develops children's logical thinking capabilities. Interactive methods and games in mathematics teaching are very useful for increasing students' interest and ensuring their active participation in the learning process. Teachers should adjust lessons according to the students' abilities and monitor each student's progress. Giving individual tasks in mathematics lessons can help develop students' skills. The constructivist approach ensures active participation in the learning process. In this approach, students learn by creating their own knowledge, which enhances their analytical thinking abilities. In mathematics lessons, students should be presented with various approaches to solve problems, and their learning process should be actively observed.

Keywords: *methodology, analytical thinking, constructivism, interactive, logical reading*

AİŞƏ MİRZƏYEVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
aise.mirezeyeva90@gmail.com

MUXTARİYYƏT DÖVRÜNDƏ YAŞAYIB-YARADAN NAXÇIVANLI RƏSSAMLAR

XÜLASƏ

Azərbaycan rəssamlıq sənətində və bu sənətin inkişaf tarixində Naxçıvan rəssamlarının özünəməxsus yeri və rolu vardır. Azərbaycanın bu qədim diyarında yaşayıb-yaradan rəssamların sayəsində Naxçıvan rəssamlıq sənəti bir məktəb kimi formalaşıb və bu məktəbin nümayəndələrinin rəsm əsərləri milli incəsənət tariximizdə əvəzolunmaz irs hesab edilir. Naxçıvan rəssamlıq məktəbi Bəhruz Kəngərli yaradıcılığından başlayaraq müasir dövrümüzə qədər böyük inkişaf yolu keçmişdir. Məşhur Azərbaycanlı rəssam İbrahim Səfi, əməkdar incəsənət xadimi Əyyub Hüseynov, xalq rəssamı Cəmil Müfidzadə və bir çox tanınmış rəssamlar məhz bu məktəbin yetirmələridir. Bu məqamda vurğulamaq lazımdır ki, Azərbaycan təsviri sənətinin rəssamlıq sahəsinin qiymətli nümunələrindən bir çoxu şüphəsiz ki, Naxçıvan rəssamları yaradıcılığına aiddir. Biz bu məqalədə H.Əliyev, T.Abidinov, C.İsmayılov, Ə.Axundov, H.Allahverdiyeva, Ü.Həmzəyeva,F.Quliyeva, Ş.Zalova və başqa rəssamların yaradıcılıqlarını tədqiqata cəlb etmişik. Son illərdə isə Naxçıvanda yaşayıb-yaradan rəssamların fəaliyyətində yenidən canlanma, ən əsası isə onların istər məzmun, istərsə də bədii forma cəhətdən fərqli üslubda çalışmaları müşahidə olunur.

Açar sözlər: *Azərbaycan, Naxçıvan, muxtariyyət, rəssam, rəssamlıq məktəbi, təsviri sənət*

"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq".

Ümummilli Lider Heydər Əliyev

Giriş

Naxçıvanın muxtariyyəti Azərbaycanın XX əsrdə əldə etdiyi böyük tarixi nailiyyət idi. Naxçıvanın muxtariyyəti hərbi-siyasi və diplomatik mübarizələrin Nəticəsi kimi meydana çıxmış, gərgin, ağır, eyni zamanda şərəfli bir yol keçmişdir. Azərbaycanın qədim və zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarının muxtariyyət tarixinin diqqətlə öyrənilməsi və təbliğ olunması vacibliyini bir vəzifə kimi qarşıya qoyan Prezident İlham Əliyev demişdir: "Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez

bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, bu diyarın tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir".

Əlverişli təbii-coğrafi mövqeyi, Şərqlə Qərbi birləşdirən qədim İpək yolunun üstündə yerləşməsi onu fatehlərin, böyük dövlətlərin geosiyasi maraqlarının kəsişdiyi regiona çevirmişdir. Ərazisi dəfələrlə işğal olunsa da, əldən-ələ keçsə də, Naxçıvan heç vaxt əyilməmiş, xalqımıza məxsus mədəniyyəti, adət-ənənələri, ən vacibi isə tarixi ərazisini qoruyub saxlaya bilmiş, müasir dövrümüzədək gətirib çıxarmışdır.

Naxçıvan heç vaxt özünü Azərbaycandan ayrı təsəvvür etməmiş, bütün dövrlərdə dünyanın bir çox dövlətləri üçün də böyük coğrafi-siyasi və strateji əhəmiyyət kəsb etmişdir. Xüsusilə keçən əsrin əvvəllərində yaranmış şəraitdən istifadə edən erməni daşnakları Naxçıvana qarşı ərazi iddiaları irəli sürmüş, bu diyarı Ermənistana qatmaq üçün bütün vasitələrə əl atmışdır. Bölgə əhalisinin inadlı müqavimətləri Nəticəsində Naxçıvan Azərbaycanın əzəli və əbədi tərkib hissəsi kimi qorunub saxlanılmış və son Nəticədə ona Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir.

Naxçıvan diyarının tarixi taleyini, yəni onun Azərbaycanın tərkibində muxtar respublika kimi qalmaq imkanlarını bu beynəlxalq müqavilələr reallaşdırdı. Muxtar qurumlar yaranma əsaslarına görə milli-ərazi və inzibati-ərazi əlamətlərinə ayrılır. Belə coğrafi-siyasi əlamət tarixi zərurət kimi Naxçıvana muxtar hüquqların verilməsini şərtləndirmiş və qismən özünüidarə hüququnun tanınmasına yol açmışdır. Çünki Zəngəzur mahalının Ermənistan tərəfindən işğal edilməsi ilə Naxçıvan diyarı Azərbaycanın əsas ərazilərindən aralı düşmüş, Nəticədə onun muxtariyyət məsələsi gündəliyə gəlmişdir. Ümummilli Lider Heydər Əliyevin qeyd etdiyi kimi, "əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də, Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi". Bu diyara muxtariyyət statusunun verilməsi ilə Azərbaycan SSR Naxçıvan üzərində hüquqlarından irəli gələn vəzifələri həyata keçirirdi.

Ötən əsrin 90-cı illərində bölgəyə erməni hücumlarının aramsız xarakter aldığı bir dövrdə, Azərbaycanın əsas ərazisi ilə əlaqələrin kəsildiyi şəraitdə Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasına, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasına, beləliklə də, Azərbaycanın tarixi ərazisinin qorunub saxlanmasına imkan yaratmışdır.

Bu gün Naxçıvan bütün ölkədə aparılan quruculuq işlərində fəal iştirak edir, bunlarla yanaşı, muxtar respublika ərazisində bütün sahələr elm, təhsil, səhiyyə, idman, incəsənət uğurla inkişaf edir. Bütün bunların kökündə isə Ulu Öndər Heydər Əliyev tərəfindən hazırlanan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi inkişaf proqramı dayanır. Müasir dövrdə Naxçıvanda rəssamlığın demək olar ki, bütün növlərində yaradan rassamlar fəaliyyət göstərmişdir. Muxtariyyət dövrü rəssamlığının inkişafıda həmin dövrdə yaşayıb yaradan rəssamların əzimli fəaliyyəti danılmazdır. Naxçıvanda yaradıcılıq fəaliyyəti ilə məşğul olan hər bir rəssamın özünəməxsus üslubu, xüsusi texnikası var. Onların əsərlərində doğma təbiətimiz, insanların

məişətindən rəngarəng lövhələr və yurdun dahi övladlarının əzəmətli simaları özünəməxsus şəkildə əks olunub. Bu rəsm əsərləri qədim Naxçıvan, onun tarixi keçmişi, bu diyarda yaşayan insanların həyat tərzi, qəhrəmanlığı haqqında dastanlar danışır. Naxçıvanlı rəssamların fəaliyyətinin son dövrlərdə daha da genişlənməsi vaxtilə Ulu Öndər Heydər Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğının Nəticəsidir. Naxçıvanda rəssamlıq sənətinin inkişafının perspektivini yüksək qiymətləndirən Ulu Öndərimiz bu sahəni həmişə diqqət mərkəzində saxlamış, Naxçıvan rəssamlıq sənətinin inkişafı üçün bir sıra tarixi əhəmiyyətli qərarlara imza atmışdır. Naxçıvanlı rəssamlar bu gün də öz üzərlərində dövlət dəstəyini hiss edir, öz yaradıcılıqlarını daha da inkişaf etdirirlər. Bu qayğının daha bir təzahürü isə günü-gündən inkişaf etməkdə olan Naxçıvan rəssamlıq sənətinin yeni üslub xüsusiyyətləri ilə zənginləşməsidir. Naxçıvanda yaşayıb yaradan rəssamların bir neçəsinin fəaliyyətinə nəzər yetirək.

Hüseynqulu Əliyev. Geniş yaradıcılıq diapazonuna malik olan rəssam təsviri sənətin rəngkarlıq, qrafika, teatr rəssamlığı istiqamətlərində və heykəltəraşlıq sahəsində tanınmış simalardandır. Xalq rəssamının yaradıcılıq üslubunun başlıca xüsusiyyəti tünd kolorit, ideal ölçü, bütövlük, kompozisiya dərinliyidir. Böyük sənətkar təsviri sənət istiqamətində Toğrul Nərimanbəyov rəngkarlıq məktəbinə xas olan sənət üslubunu yaradıcılığında davam etdirməklə öz dəsti-xəttini müəyyən etmişdir. "Bəhruz Kəngərli" memorial abidəsinin, "Koroğlu", "Diskatan", "Ana" kimi monumental heykəllərin müəllifidir [2, s. 39]. Rəssam eyni zamanda Tokay Məmmədovdan heykəltəraşlıq sənətinin sirlərini öyrənərək sənətini bu istiqamətdə də inkişaf etdirmiş, özünün bədii yaradıcılığı ilə Naxçıvan rəssamlıq məktəbinin formalaşmasında və inkişafında müstəsna xidmətlər göstərmişdir.

Telman Abdinovun. Rəssamlıq sənətində məzmun və bədii ifadə vasitələrinin orijinallığı, üslub müxtəlifliyi, cəsarətli rəng axtarışları əməkdar rəssam Telman Abdinovun yaradıcılığını səciyyələndirən cəhətlərdəndir. T.Abdinovun "Axşam", "Rəssamın stulu", "Sönməyən günəş" və bir çox əsəri, onun bu yöndə əldə etdiyi yaddaqalan uğurlarındandır [4, s.337]. Bu tablolardakı rənglərin dekorativliyi rəssamın bədii irsinin fərqləndirici xüsusiyyətlərindəndir. Rəssamın diqqətçəkən yaradıcılığında realizm bədii üslubunun yeni ifadə imkanlarını görmək mümkündür. Onun müxtəlif janrları əhatə edən tablolarında fərdi üslub estetikası öz zənginliyi ilə seçilir. Rəssam təsvirlərində bədii təxəyyülündən doğan sərbəst və cəsarətli formalara əl atır, kompozisiyalarını orijinal qurmağa çalışır. Həmin lövhələrdə dekorativ təsvir vasitələri üstünlük təşkil edir, lakin realist təmayüllər də az deyil.

Cavid İsmayılov. Bədii üslub, fərdi təsvir manerasının orijinallığı hal-hazırda Naxçıvan rəssamlarını düşündürən ən mühüm yaradıcılıq problemlərindəndir. Bu problem portret janrının da inkişafı üçün səciyyəvidir. Rəssam tarixi şəxsiyyətləri həvəslə öz tablolarında təsvir edir. Rəssam qeyd edir ki, onun bu tabloları arasında görkəmli dövlət xadimi Heydər Əliyevin monumental surətinin əks olunduğu 15 portret mövcuddur. C.İsmayılovun yaratdığı Heydər Əliyev ünvanlı rəngkarlıq əsərləri ilk növbədə məna-məzmun tutumunun zənginliyi ilə göz oxşayır. Onların çoxu Naxçıvandakı "Heydər Əliyev muzeyi" ndə nümayiş olunur [1, s. 31]. Portret yaratmaq sənətkardan böyük məsuliyyət və peşəkarlıq tələb edir. Bu məsuliyyət və peşəkarlıq

Cavid İsmayılovun yaratdığı portretlərdə ciddi şəkildə hiss olunur. Rəssam portretlərini hər şeydən əvvəl coşqun ilhamla fırçaya alır, təsvir etdiyi şəxsin təkcə zahiri bənzəyişini verməklə kifayətlənmir, onun mənəvi həyatı, təbiəti üçün səciyyəvi olan cizgiləri dolğun şəkildə nəqş edir. Rəssamın portret janrında işlərinə nəzər saldıqda görünür onu canlı naturanın rəng keçidlərini, perspektivini düzgün verməklə yanaşı eyni zamanda rənglərin parlaqlığı, dekorativliyi də maraqlandırır. Cingiltili rənglər ritminin təkrarı, isti tonlardan geniş istifadə edilməsi həmin rəsmlərin kolorit zənginliyinə səbəb olmuş, bütün bu keyfiyyətlər ümumi bir vəhdət təşkil etmişdir.

Əbülfəz Axundov. Azərbaycan realist rəssamlığında fərqli texnikası, müasir üslubu ilə seçilən, yaddaqalan sənətkarlardan biri də Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, mərhum Əbülfəz Axundovdur. O, qrafika və rəngkarlığın müxtəlif janrlarına tez-tez müraciət edər, sulu boyalarla çəkdiyi mənzərələr, səhnəqrafika sahəsində yaratdığı kompozisiya və portretlər hamının diqqətini cəlb edərdi. Onun özünəməxsus yaradıcılıq texnikası tərtibat verdiyi tamaşaların ideya-məzmununun açılmasında da xüsusi rol oynayardı. 2004-cü ildə Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı fəxri adına layiq görülmüşdür. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının quruluşçu rəssamı, təəssüf ki, ömrünün ən məhsuldar çağında, 2019-cu ilin avqust ayının 5-də Naxçıvan şəhərində əbədiyyətə qovuşdu. 1987-ci ildə Naxçıvan teatrında rəssam kimi fəaliyyətə başlayan Ə.Axundov burada 62 əsərə yaddaqalan bədii quruluş verib. "Bir gün də insan ömrüdür", "Bəxt üzüyü", "Dəyirman", "Qəribə adam", "Aydın", "Şəhidlər", "Dəli yığıncağı", "Nadir şah", "Ər və arvad", "Fərhad və Şirin", "Atabəylər", "Pompeyin Qafqaza yürüşü", "Şeyx Xiyabani", "Arılar arasında", "İblis", "Dirilən adam", "Araz sahilində doğan günəş", "Müdrik Natan", "Yəhya və Dilqəm", "Qurtuluş dastanı", "Əli və Nino", "Ehsan xan Kəngərli" və s. tamaşalara verdiyi bir-birindən fərqli, maraqlı, rəngarəng kompozisiya quruluşları diqqəti cəlb edirdi [5]. Ə.Axundovun yaratdığı əsərlər rənglərin şuxluğu və aydınlığı, kompozisiyanın sadəliyi ilə fərqlənirdi. Tamaşalara verdiyi tərtibat işləri isə dramaturq və rejissor fikri ilə poetik ahəngdarlıq yaratması baxımından səciyyəvi idi. O, səhnə tərtibatında müasir və klassik üslubda işləməyə üstünlük verirdi. Hazırladığı kompozisiyalar monumentallığı və obrazlı səhnə həlli ilə maraq doğururdu. Tərtibatlarındakı və geyimlərdəki rənglər şux və koloritli, ahəngdar və cazibəli idi. Ə.Axundov Naxçıvan teatrında bədii tərtibat sahəsində səmərəli fəaliyyəti ilə diqqət çəkirdi. Onun tərtibatları monumental olduğu qədər, ifaçılar üçün hərəkət və ifa imkanları yaradan genişliyə malik idi.

Naxçıvan Muxtar Respublikasında peşəkar qadın rəssamların formalaşması, püxtələşməsi bu qədim diyarın muxtariyyət dövrünə təsadüf etmişdir. Əslində, bu təsadüfi deyil, muxtariyyətin bəxş etdiyi imkan və şəraitdən yerində, lazımi səviyyədə yararlanmağın Nəticəsidir. Həmin dövr ərzində burada ictimai-siyasi, elmi və mədəni sahələrdə qadınların fəallığı nəzərəçarpacaq dərəcədə, xeyli fəallaşmış, onlar öz peşə yönümləri ilə qazandıqları nailiyyətlərə görə ölkə miqyasında da məşhurlaşmışlar. Bütün sahələrdə olduğu kimi, rəssamlıqda da öz istedadları ilə uğur qazanan qadınların sayı ilbəil artmışdır. Bununla belə rəssamlığın bir sıra növlərində qadınların imzalarına rast gəlinsə də, teatr rəssamlığı sahəsində qadın imzasına, belə ifadə etmək mümkündürsə, bir növ tamarzı qalmışdır. Naxçıvanda peşəkar teatr sənətinin yaşı 135-

ə çatır. Lakin üç əsri əhatə edən bu illər ərzində, daha dəqiqi Naxçıvan Teatrının 130 illik yubileyinə qədər olan müddətdə bu qocaman sənət ocağının heç bir afişasında qadın-rəssam imzasına rast gəlinməmişdir. Bunun başlıca səbəbi Naxçıvanda hətta sovet dövründə belə ümumilikdə peşəkar qadın rəssamların olmaması, müstəqilliyin ilk illərində isə yenicə formalaşan qadın rəssamlar arasında səhnəqrafiyaya-teatr rəssamlığına marağın yaranmaması olmuşdur.

Fizzə Quliyeva. Naxçıvan teatrında ilk qadın rəssam olan F.Quliyeva, həmçinin Azərbaycan Rəssamlar İttifaqının və Naxçıvan Muxtar Respublikası Rəssamlar birliyinin üzvü olmuş, AMEA-nın Naxçıvan bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutun Təsviri və dekorativ-tətbiqi sənətlər şöbəsinin müdiri və hazırda da Naxçıvan Dövlət Tarix Müzeyinin müdiridir. O, 3 kitabın, 80-ə yaxın elmi və publisistik məqalənin müəllifidir. F.Quliyeva 2010-cu ildə ilin ən yaxşı gənc rəssamı, 2016-cı ildə isə ilin ən fəal gənc rəssamı adına layiq görülmüşdür [2, s.100]. Xeyli sayda müsabiqənin qalibi olmuşdur.

2015-ci ili Naxçıvan Teatrının səhnəqrafiya tarixində əlamətdar və dönüş ili hesab etmək olar. Belə ki, həmin ildə görkəmli dövlət xadimi, yazıçı-dramaturq Nəriman Nərimanovun 145 illiyi münasibətilə Naxçıvan Dövlət Musiqili Dram Teatrı da bu yubileyə öz töhfəsini təqdim etməyə hazırlaşırdı. Teatrda hazırlıq proseslərinə başlanılan "Nadanlıq" tamaşasının quruluşçu rejissoru, Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüş Tofiq Seyidov yeni işinin bədii quruluşunu teatrın baş rəssamı, respublikanın xalq rəssamı Hüseynqulu Əliyevə həvalə etməklə yanaşı, inamlı bir addım ataraq o dövrdə Naxçıvan Dövlət Universitetində təsviri incəsənət kafedrasının müəllimi, universitetdə artıq bir səhnə rəssamı kimi də tanınmış Fizzə Quliyevanı ikinci rəssam olaraq hazırlıq prosesinə cəlb etdi. Quruluşçu rejissorun belə bir yeniliyə təşəbbüs etməsinə - ilk dəfə olaraq qədim sənət ocağına qadın rəssamın dəvət olunmasına səy göstərməsinə səbəb isə NDU Tələbə Teatr Studiyasında hazırlanan Nazim Hikmətin "Qəribə adam" (2012) və Esxilin "Zəncirlənmiş Prometey" (2013) tamaşalarında məhz Fizzə Quliyevanın quruluşçu rəssam olması idi. Fizzə xanım bu tamaşalarda dekorasiyalardan əlavə geyim və qrim eskizlərinin də müəllifi olmuşdur [7]. O, "Nadanlıq" əsərinin tamaşası günü, Muxtar Respublika Ali Məclisi sədrinin, dövlət və hökumət rəsmilərinin, həmçinin qabaqcıl ziyalıların və tələbələrin də iştirak etdikləri Nəriman Nərimanovun yubileyinə həsr olunmuş təntənəli gecənin ikinci-bədii hissəsində bu yeni tamaşa qocaman teatrın səhnəsindən ilk dəfə təqdim olundu. Mübaliğəsiz demək olar ki, həmin gecə yaradıcı heyətin ən çox həyəcan keçirən üzvü də elə Fizzə Quliyeva idi və o həmin gün də Naxçıvan Teatrında, nəhayət ki, ilk qadın rəssam oldu.

Həbibə Allahverdiyeva. Rəssamın portret yaradıcılığında Ümummilli Lider Heydər Əliyevə ithaf etdiyi əsərlər üstünlük təşkil edir. Rəssamın bu silsiləyə həsr etdiyi dörd tablonun içərisində "Azərbaycanın sönməz günəşi" və "Türk dünyasının Ümummilli Lideri" adlı əsərləri xüsusilə diqqəti cəlb edir. Rəssamın Turan Cavidi təsvir etdiyi portretdə gecə panoraması fonunda "Hüseyn Cavid məqbərəsi" nin əzəmətli duruşu insanı valeh edir. H.Allahverdiyevanın portret əsərlərinin məzmununu yalnız təqdirə və tərifə layiq insanların həyatı və fəaliyyəti təşkil etmir. Rəssamın

portretləri arasında nurani qocaların müdrikliyini, qadınların gözəlliyini, uşaqların məsumluğunu tərənnüm edən tablolar da son dərəcə mənalıdır. H.Allahverdiyeva qadın surətlərində psixoloji ifadənin müxtəlifliyinə xüsusilə diqqətlə yanaşır. Sanki bir baxışdan nəqş olunmuş bu surətlərdə Azərbaycan qadınının müasir simasını görürük. İrəli baxan qara gözlər, ifadəli üzün nəcib cizgiləri, çiyinlərə tökülmüş qəhvəyi saçlar... bütün bu detallarda surətin daxili aləmini açan bütövlük və milli xüsusiyyət olduqca qabarıq nəzərə çarpır. Rəssam "Möminə xatın", "Ana", "Sarı gəlin", "Toxucular" və s. kimi tablolarına romantika pafosu aşılamış, insanları nəcib arzulara ruhlandırmışdır. Rəssamın bu portret əsərləri bəzən psixoloji, bəzən də lirik səciyyə daşıyır. H.Allahverdiyevanın mövzu və süjetində, obrazlarının təsvirində təkrarçılığa rast gəlmirik. Rəssam mənzərə rəsmlərinin bir çoxunun fonunda "Möminə xatın türbəsi" nin möhtəşəm silüetini əks etdirərkən, yüksək bədii ümumiləşdirməyə nail olmuşdur. Beləliklə, rəssamın plener təcrübəsinə mükəmməl şəkildə yiyələndiyini deyə bilərik [4, s. 337-338]. Rəssamın bu tablolarında dəqiq və kəsərli kompozisiyaya, dekorativ rənglərə, cizgilərin ritminə müraciət etməsi təqdirəlayiqdir. O, bu tablolarının bir çoxunda mürəkkəb rəng münasibətləri və təzadları əvəzinə qarışdırılmamış, saf rənglərdən istifadə etmişdir. Rəssamın mənzərə rəsmlərini izlədikdə onun bu tablolarının bir çoxunu açıq səmada ərsəyə gətirdiyi anlaşılır. Rəssam təbiət motivlərinə xas olan konkret formaları, işığı, havanı, rəng uyğunluğunu mükəmməl şəkildə ifadə etməyə xüsusi meyl göstərir.

Ülviyyə Həmzəyeva. Ülviyyə Həmzəyeva həm də Azərbaycanda ilk dəfə olaraq 2001-ci ildə Naxçıvan Dövlət Universitetinin gənclik parkında soyqırım qurbanlarının xatirəsinə ucaldılan abidənin müəllifidir. Rəssamın əsərləri, Azərbaycan, ABŞ, Çin, Türkiyə, Portuqaliya, Gürcüstan, İspaniya və.s. ölkələrdə 200-ə yaxın qarışıq və fərdi sərgilərdə nümayiş olunub. 2008-ci ildə "Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı", 2009-cu ildə isə "Azərbaycan Respublikasının Əməkdar rəssamı" fəxri adlarına layiq görülüb. Azərbaycan Rəssamlar İttifaqının üzvüdür, 2013-cü ildə "Yeni Era" Dünya Rəssamlıq Akademiyasının həqiqi üzvlüyünə qəbul edilib. UNESCO-nun Beynəlxalq İncəsənət Assosiasiyasının üzvüdür. 2011-ci ildən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədridir. Milli Məclisin V və VI çağırış deputatıdır. Əsərləri şəxsi kolleksiyalarda və muzeylərdə saxlanılır [6]. Əsərlərində əsasən milliliyi, qədimliyi, mifologiyanı və real həyatın fəlsəfəsini özünəməxsus tərzdə əks etdirməyə çalışan rəssamlarda biri də Ülviyyə Həmzəyevadır. Ülviyyə Həmzəyevanın rəsmlərinin janrını müəyyən etmək elə də asan deyil. İlk baxışdan onun əsərləri müasir alleqoriyalar kimi görünsə də, burada təsviri görmək kifayət etmir. O həm də başa düşülməlidir. Eyni zamanda onun əsərləri Azərbaycan sənətinin qədim ənənələri ilə dərin əlaqəlidir. Xalçaların, miniatürlərin və qədim petroqliflərin nümunələrini xatırladan rəsm əsərləri, əfsanələr və nağılların fantastik personajlarını canlandırır. Onun tarixi dəqiqliyi əks etdirən dünyagörüşü, müəlliflik hüququ ilə qorunan müasir qrafika texnikalarında "toxunmuş", qədim simvolizmə söykənən "fəlsəfi əsərləri" çox böyük maraq doğurub və ona geniş bir izləyici auditoriyası qazandırıb.

Zalova Şəmsiyyə. Azərbaycan Rəssamlar İttifaqının və Naxçıvan Muxtar Respublikası Rəssamlar birliyinin üzvü olan Zalova Şəmsiyyə əsasən karikatura və şarj

janrlarında işləyir. Yaradıcılığında respublikamızın tanınmış elm, incəsənət və dövlət xadimlərinin portret şarjları əsas yer tutur [2, s.156]. Çəkdiyi karikaturalarda tənqidi realizm üstünlük təşkil edir.

Nəticə

Sonda onu da deyə bilərik ki, Naxçıvanlı rəssamların fəaliyyətinin son dövrlərdə daha da genişlənməsi vaxtilə Ulu Öndər Heydər Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğının Nəticəsidir. Naxçıvanda rəssamlıq sənətinin inkişafının perspektivini yüksək qiymətləndirən Ulu Öndərimiz bu sahəni həmişə diqqət mərkəzində saxlamış, Naxçıvan rəssamlıq sənətinin inkişafı üçün bir sıra tarixi əhəmiyyətli qərarlara imza atmışdır. Naxçıvanlı rəssamlar bu gün də öz üzərlərində dövlət dəstəyini hiss edir, öz yaradıcılıqlarını daha da inkişaf etdirirlər. Naxçıvan rəssamlarının hamısı barəsində məlumat vermək bir yazının imkanı çərçivəsinə sığmasa da, əminliklə deyə bilərik ki, müasir dövr Naxçıvan rəssamlarının bədii irsi, Naxçıvan rəssamlıq sənətini yaradıcılıq məktəbi əhəmiyyətində saxlayacaqdır.

ƏDƏBİYYAT

1. Əliyev, Z. Heydər Əliyev obrazı təsviri sənətdə. Təhsil, 2024, 176 s.
2. Naxçıvan rəssamlarının ensiklopediyası. "Əcəmi" NPB, 2022, 158 s.
3. Salahov, T. Sərvət, 2013, 104 s.
4. Zalova, Ş. Müasir dövr Naxçıvan rəssamlıq sənətində üslub müxtəlifliyi. "Naxçıvan Muxtar Respublikasının yaradılması: keçmişdən bu günə və sabaha" mövzusunda beynəlxalq elmi konfransının materialları. Bakı: Elm və təhsil, 2024, s.336-342.
5. https://naxcivanxeberleri.com/bloq/bu-gun-gorkemli-ressam-ebulfez-axundovun-dogum-gunudur-38810
6. https://az.baku-art.com/az/emekdar-ressam-mill-t-v-kili-ulviyy-h-mz-yeva
7. https://kaspi.az/az/naxivanin-ilk-qadin-teatr-ressami

ABSTRACT

Aisha Mirzayeva

NAKHCHIVAN ARTISTS WHO LIVED AND WORKED IN THE PERIOD OF AUTONOMY

Nakhchivan artists have a special place and role in the art of painting in Azerbaijan and in the history of the development of this art. Thanks to the artists who lived and worked in this ancient land of Azerbaijan, the art of painting in Nakhchivan was formed as a school, and the paintings of the representatives of this school are considered an invaluable heritage in our national art history. Famous Azerbaijani artist Ibrahim Safi, honored art worker Ayyub Huseynov, people's artist Jamil Mufidzade and many well-known artists are students of this school. At this point, it is necessary to emphasize that

many of the valuable examples of the painting field of Azerbaijani fine art undoubtedly belong to the creativity of Nakhchivan artists. In this article, we have included in the research the works of H. Aliyev, T. Abidinov, J. Ismayilov, A. Akhundov, H. Allahverdiyeva, U. Hamzayeva, F. Guliyeva, Sh. Zalova and other artists. In recent years, there has been a revival in the activity of artists living and creating in Nakhchivan, and most importantly, their work in different styles, both in terms of content and artistic form.

Keywords: *Azerbaijan, Nakhchivan, autonomy, artist, art school, art*

РЕЗЮМЕ

Айша Мирзаева

НАХЧЫВАНСКИЕ ХУДОЖНИКИ, ЖИВУЩИЕ И ТВОРИВШИЕ В ПЕРИОД АВТОНОМИИ

В изобразительном искусстве Азербайджана и в истории развития этого искусства Нахчыванские художники занимают особое место и роль. Благодаря художникам, жившим и творившим в этом древнем крае Азербайджана, Нахчыванское изобразительное искусство сформировалось как школа, а картины представителей этой школы считаются бесценным наследием в истории нашего национального искусства. Знаменитый азербайджанский художник Ибрагим Сафи, заслуженный деятель искусств Эйуб Гусейнов, народный художник Джамиль Муфидзаде и многие известные художники являются воспитанниками этой школы. Здесь необходимо подчеркнуть, что многие ценные образцы живописной области азербайджанского изобразительного искусства, несомненно, принадлежат творчеству нахчыванских художников. В данной статье мы включили в исследование произведения Х.Алиева, Т.Абидинова, Дж.Исмайлова, А.Ахундова, Х.Аллахвердиевой, У.Хамзаевой, Ф.Гулиевой, Ш.Заловой и других художников. В последние годы наблюдается оживление в деятельности художников, живущих и творящих в Нахчыване, и самое главное, они работают в другом стиле, как по содержанию, так и по художественной форме.

Ключевые слова: *Азербайджан, Нахчыван, автономность, художник, художественная школа, изобразительное искусство*

AYTAC NƏBİYEVA

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
aytacnebiyeva29@gmail.com

"AZƏRBAYCAN DİLİ" FƏNNİNİ ÖYRƏNMƏYİN ƏHƏMİYYƏTİ

XÜLASƏ

Məqalədə Azərbaycan dili tədrisinin əhəmiyyətli cəhətlərindən danışılır. Bu məqsədlə ana dili öyrənməyin əsas məzmunu izah olunur, milli mədəniyyətin qorunub saxlanmasında, effektiv ünsiyyətin təmin edilməsində, tələbələrdə özünəməxsusluq hissinin formalaşmasında onun mühüm rolu vurğulanır. Tələbələrdə ana dilini səlis başa düşmək, danışmaq, oxumaq və yazmaq bacarıqlarını formalaşdırıb inkişaf etdirmək üçün yollar göstərilir. Məqalədə qeyd edilir ki, Azərbaycan dilinin öyrədilməsində hamıya uyğun olan konkret bir yanaşma yoxdur və metod seçimi müxtəlif amillərdən asılıdır. Təcrübədə bir çox müəllim daha əhatəli və cəlbedici öyrənmə təcrübəsi yaratmaq üçün bir neçə metodu birləşdirir. Ona görə də tədris zamanı bəzi müəllimlərin bir neçə metodu birləşdirməsi məqbul hesab edilir.

Məqalədə doğma dil mədəniyyətin əsas aspekti kimi dəyərləndirilir. Onun cəmiyyətin tarixini, dəyərlərini, adət-ənənələrini, dünyagörüşünü qoruyub saxlamaq xüsusiyyəti vurğulanır. Azərbaycan dilini öyrənmək və mənimsəməyin koqnitiv inkişafda və yaddaşın təkmilləşdirilməsində nə qədər faydalı olması şərh edilir.

Dilin insan şəxsiyyətinin və ünsiyyətinin vacib hissəsi olmaqdan başqa, onun ailələrin cəmiyyətlə əlaqələri gücləndirmək vasitəsi olmağı da göstərilir. Azərbaycan dilinin öyrədilməsində mənlik hissinin gücləndirilməsi, şəxsiyyətə inam kimi keyfiyyətlərin yaranması əsaslandırılır. Ona görə də hələ kiçik yaşlardan uşaqlarla məişətdə, ictimai yerlərdə ardıcıl olaraq ana dilində danışmaq, mahnılar, hekayələr və oyunlardan istifadə ilə dili təkmilləşdirmək tövsiyə edilir. Azərbaycan dilinin tədrisində bütün nailiyyətlərin qeyd olunması və qiymətləndirilməsi əsas məsələ kimi irəli sürülür. Ana dilində kitab, jurnal və qəzetlərin evlərə daxil edilməsi də əhəmiyyəti iş hesab olunur. Məqalədə Azərbaycan dilinin tədrisi haqqında müxtəlif pedaqoq-alimlərin fikirlərinə istinad edilməklə orijinal mülahizələri irəli sürülür.

Açar sözlər: *Azərbaycan dili, tədris, tələbə, öyrənmə, nitq*

Azərbaycan dilinin öyrədilməsi ailədən başlayaraq bağçada, məktəbdə, ali və orta ixtisas təhsili müəssisələrində davam etdirilir. "Pedaqoji elmlər sisteminə daxil olan Azərbaycan dilinin tədrisi metodikası elmi, ilk növbədə, "Azərbaycan dili" fənninin məqsəd və vəzifələrini, məzmun, həcm və strukturunu; ikincisi, Azərbaycan dili təliminin rasional metod, üsul, vasitələrini; nəhayət, sərhədləri dəqiqləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi yollarını öyrənir" (Balıyev, 2014, s.7). Bu fənnin öyrənilməsinin əhəmiyyəti çoxdur. Bunlardan aşağıdakıları xüsusi olaraq qeyd etmək lazımdır:

1. Azərbaycan dilinin öyrədilməsi milli mədəniyyətin qorunub saxlanmasında mühüm rola malikdir.

2. Effektiv ünsiyyətin təmin edilməsində Azərbaycan dilinin öyrənilməsi əvəzsiz əhəmiyyət daşıyır.

3. Azərbaycan dilinin öyrənilməsi özünəməxsusluq hissinin formalaşmasına kömək edir və s.

Əslində, Azərbaycan dilinin öyrədilməsinin məqsədi sadə görünür. Lakin bu məqsədə nail olmaq üçün öyrənənlərə səlis başa düşmək, danışmaq, oxumaq və yazmaq imkanı verməkdən başqa, onların inkişaf ehtiyaclarını nəzərə alaraq dilin spesifik xüsusiyyətlərinə cavab verən müxtəlif üsullardan istifadə etmək lazımdır. Bu üsullardan biri təhrikedici üsuldur ki, o, nitq və dinləmə bacarıqlarının inkişafına diqqət yetirir. Bu üsul dildən kortəbii istifadəyə imkan vermir, səlis danışıq hissini aşılayır, real həyati söhbətlərlə təbii dilin mənimsənilməsinə sövq edir, öyrədən və öyrənən arasında birbaşa qarşılıqlı əlaqəni təmin etməklə dinləmə və danışma bacarıqlarını çoxaldır. "Ümumtəhsil məktəblərində Ana dili təliminin məqsədi ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir" (Nəbiyeva, 2010, s.8).

Azərbaycan dilinin öyrədilməsində maraqlı üsullardan biri kommunikativ yanaşmadır. Bu üsul ünsiyyətlə bağlıdır. O, öyrənənlərə real situasiyalarla əlaqəli debatlar və problem həlletmə çalışmaları kimi mənalı, kontekstlə zəngin ünsiyyət tapşırıqlarından baş çıxarmağın yollarını təqdim edir. Beləliklə də, qrammatika təcrid olunmuş bir mövzu kimi deyil, ünsiyyət vasitəsi kimi tədris olunur. Bu üsulun üstünlükləri gündəlik həyatda istifadə oluna bilən praktik dil bacarıqlarını inkişaf etdirmək, fəal iştiraka və tənqidi düşünməyə həvəsləndirmək, şagird və tələbələrin kontekstli dildən istifadə etməklə mədəni anlayışlara yiyələnməsi kimi məsələləri əhatə edir.

Ana dilinin öyrədilməsində hər kəsə uyğun gələn bir yanaşma yoxdur. Metod seçimi çox vaxt öyrənənin yaşı, tədris mühiti və dil təhsilinin məqsədləri kimi amillərdən asılıdır. Tədris zamanı bir çox müəllim daha əhatəli və cəlbedici öyrənmə təcrübəsi yaratmaq üçün bir neçə metodu birləşdirir. Hansı üsuldan istifadə edilməsinə baxmayaraq, öyrənməkdə öyrənənlərə dillə mənalı şəkildə məşğul olmaq imkanı vermək, ana dilindən düzgün istifadə etməyi bacarmaq və onu sevmək uğurun açarı sayılır. "… Azərbaycan dilinin tədrisi metodikası qarşısında iki mühüm məsələ durur: birincisi, məlum biliklər fəndaxili əlaqədə necə tətbiq olunmalıdır ki, yeninin mənimsənilməsini təmin etsin, ikincisi, yeninin mənimsənilməsi prosesində məlum olanlar özü də zənginləşdirilsin" (Qurbanov, 2014, s.8).

Qloballaşma və çoxdilliliyin getdikcə daha çox hökm sürdüyü dünyada xarici dillərin öyrənilməsinə diqqətin həmişəkindən daha vacib olduğu vurğulana bilər. Bununla belə, insanın öz ana dilini mükəmməl bilməsi həm şəxsi, həm də ictimai səviyyədə geniş imkanlar yaradır. Ana dilində danışmaq qabiliyyəti çox vaxt təbii hesab olunsa da, onu dərindən dərk etmək və mənimsəmək idrak, emosional və sosial inkişaf üçün vacibdir.

Araşdırmalar təsdiq edir ki, Azərbaycan dilinin tədrisi uzaq tarixlərə dayanır. "Bu fənn ədəbi dilimizin formalaşması ilə birlikdə tədris olunmağa başlamışdır. Mahir söz

ustalarımız – Həsənoğlu, Nəsimi, füzuli, Vaqif və Vidadi kimi şəxsiyyətlər təhsillərini həmin dildə almış və sonralar Azərbaycan dilində yazıb yaratdıqları qiymətli əsərləri ilə ədəbiyyatımızın dil xəzinəsinə daxil olmuşlar" (Məmmədova, 2010, s.5).

Koqnitiv inkişaf və yaddaşın təkmilləşdirilməsi üçün ana dilini öyrənmək və mənimsəmək çox əhəmiyyətlidir. Yaddaşın güclənməsində, problem həll etmə və tənqidi düşünmə bacarıqlarının artırılmasında Azərbaycan dilinin tədrisi vacibdir. Araşdırmalar göstərir ki, yeni lüğət öyrənəndə, qrammatikanı başa düşəndə və ya milli dildə söhbət etdikdə beyinin sinir əlaqələri güclənir. Başqa dillərin öyrənilməsi də ana dilini bilməkdən keçir. Belə ki, doğma dil nə qədər yaxşı öyrənilsə, digər dillərin linqvistik strukturlarını anlamaq və müqayisə etmək də bir o qədər asan olar. İlk növbədə ana dilini mükəmməl öyrənən uşaqlar milli dildə möhkəm təməllər olduğundan əlavə dilləri öyrənməkdə çox vaxt daha yaxşı Nəticə göstərirlər. Ana dilində qrammatik strukturları, lüğəti və sintaksisi anlamaq digər dillərdə oxşar nümunələrlə əlaqə yaratmağa kömək edə bilər. Bu, eyni dil ailəsindən olan dillərin də mənimsənilməsində faydalıdır. Bundan əlavə, öyrənənlərin özlərini təfərrüatlı şəkildə ifadə etmək və yaradıcı düşünmək bacarığı ana dilini mükəmməl bildikdə daha yaxşı inkişaf edir.

Dil mədəniyyətin əsas aspektidir. O, özündə cəmiyyətin tarixini, dəyərlərini, adət-ənənələrini, dünyagörüşünü daşıyır. Y. Kərimov "İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları" əsərində "öz orijinal mədəniyyəti çərçivəsində sərbəst inkişaf etməyə imkan verilsə, yalnız bu halda təlim prosesinə müasir yanaşmadan danışmaq mümkündür" (Kərimov, 1978, s.111).

Deməli, Azərbaycan dilini öyrənmək mədəni irslə güclü əlaqə saxlamaq deməkdir. Ana dilimizdə idiomatik ifadələri, folkloru və ədəbiyyatı başa düşmək insana soy-kökünü daha dərindən dərk etməyə imkan verir. Milli dil itirilə biləcək ənənələri qoruyub saxlayaraq yaşlı nəsillərlə ünsiyyət qurmağa imkan verir. Bundan başqa, ana dilini mükəmməl bilmək özünü daha effektiv və orijinal şəkildə ifadə etməyə, sevinc, kədər və ya məyusluq hisslərini, müxtəlif emosiyaları mümkün olan ən dəqiq şəkildə bildirməyə imkan verir. Bu, zehni rahatlıq üçün çox vacib məsələlərdəndir. "XXI əsrin ilk on illiyi Azərbaycan təhsil sistemində köklü dəyişikliklərin baş verdiyi bir dövr kimi səciyyələnir" (Nəbiyeva, 2010, s.7). Bu, Azərbaycan dilinin tədrisinə diqqətin artırılmasını tələb edir.

Ana dilini mənimsəmək həm şifahi, həm də yazılı şəkildə olan bütün ünsiyyət formalarını təkmilləşdirir. Bu, müxtəlif mövzulu söhbətlərdə iştirak etməyə, inandırıcı arqumentlər gətirməyə və fikirləri aydın şəkildə ifadə etməyə imkan verir. Güclü dil bacarıqları təkcə sosial qarşılıqlı əlaqə üçün deyil, həm də effektiv ünsiyyətin daha yaxşı əməkdaşlığa, danışıqlara və problemlərin həllinə səbəb ola biləcəyi peşəkar şəraitdə çox önəmlidir. Bundan əlavə, ana dilini dərindən bilmək başqalarının baxışlarını anlamaq qabiliyyətini zənginləşdirir, esse, hesabat, tədqiqat məqalələri yazan zaman fikirləri aydın və qısa şəkildə ifadə etmək bacarığının güclənməsinə təsir edir. Bundan başqa, ana dilini dərindən bilmək digər fənləri daha yaxşı başa düşməyə imkan verir, çünki bir çox akademik sahələr dilin təməli üzərində qurulur. Azərbaycan dilinin öyrənilməsi elmlər arasında inteqrasiya yaradır ki, bu, "fənlərarası əlaqənin

keyfiyyətcə yeni təlim pilləsinə keçidinin yüksək forması" kimi dəyərləndirilir (Rəhimov, 1996, s.47).

Təsadüfi deyildir ki, güclü dil bacarıqları çox vaxt yüksək peşəkarlıq və liderlik səviyyəsi ilə əlaqələndirilir. Sosial birlik çox vaxt dildən başlayır. Ana dili sağlam münasibətlərin vacib komponentləri olan inam və əlaqə yaratmağa kömək edir. Ailə münasibətlərindən tutmuş dostluqlara və hətta romantik münasibətlərə qədər, ana dilində aydın və mənalı ünsiyyət qurma bacarığı daha güclü sosial bağlar yaradır. Ana dilinizin qorunub saxlanması hazırda vacib problemlərdən biridir. Dünyanın bir çox yerlərində dillər təhlükə altındadır və nəsillər qloballaşan qüvvələr qarşısında ana dillərini itirə bilərlər. Azərbaycan dilini fəal şəkildə öyrənmək, danışmaq və gələcək nəsillərə ötürmək dilin canlılığını əsaslandırır, onun bəşər mədəniyyətinin inkişaf edən bir hissəsi olmasını təmin edir.

Azərbaycan dilini öyrənmək və mənimsəmək sadəcə funksional bacarıq deyil, bu, koqnitiv zənginləşmə, emosional rifah, mədəni qorunma və daha güclü şəxsi və peşəkar əlaqələrin açarıdır. Qloballaşan dünyada tez-tez xarici dilləri öyrənməyin üstünlükləri təbliğ edilir, lakin ana dilini – doğma Azərbaycan dilini dərindən dərk etməyin və mənimsəməyin vacibliyi daha çox vurğulanmalıdır. Dil insan şəxsiyyətinin mədəniyyət və ünsiyyətinin vacib hissəsidir. Ana dilini öyrətmək təkcə mədəni irsinizi qorumur, həm də ailələrin cəmiyyətlə əlaqələri gücləndirir. Ana dilini başqalarına, xüsusən də gənc nəsillərə öyrətmək, sürətlə qloballaşan dünyada tez-tez itirilən milli-mənəvi mədəniyyətin müxtəlif aspektlərini qoruyub saxlamağa kömək edir.

Azərbaycan dilinin tədrisi öyrənənlərdə mənlik hissini gücləndirir, şəxsiyyətlərinə inam yaradır. Ona görə də hələ kiçik yaşlardan uşaqların bu dili müntəzəm olaraq eşitməsi, mənimsəməsi üçün məişətdə, ictimai yerlərdə ardıcıl olaraq ana dilində danışmaq, dili özündə birləşdirən mahnılar, hekayələr və oyunlardan istifadə etmək lazımdır. Azərbaycan dilini öyrənmək təkcə sözləri əzbərləmək deyil, həm də onlardan real həyat vəziyyətlərində istifadə etmək bacarığı yaratmaqdır. Öyrənənləri yemək yemək, tapşırığı yerinə yetirmək və ya qohumları ilə söhbət etmək kimi gündəlik fəaliyyətlər zamanı dildən istifadə etməyə həvəsləndirmək onlara dilin praktik faydasını görməyə kömək edir. Şagirdlərin ana dilində nağıl danışmaq, rol oynamaq, filmlərə baxmaq və ya musiqi dinləmək kimi fəaliyyətlərə cəlb edilməsi üçün interaktiv üsullar öyrənməni daha zövqlü və effektiv edə bilər. "Təhsilin keyfiyyəti o zaman yüksək olur ki, təlim metodları öyrənənlərin təfəkküründün, dərketmə prosesinin genişləndirsin və bilikləri fəal şəkildə mənimsəməsini təmin edə bilsin" (Əliyeva, 2018, s.25).

Hazırda texnologiya dilin tədrisində müəyyən qədər köməkçi ola bilər. Dil proqramları, onlayn kurslar, ana dilində videolar zəngin resursları təmin edir. Bu alətlər öyrənənlərə tələffüz, qrammatika və başa düşməyə kömək etməklə, Azərbaycan dilinin tədrisini tamamlaya bilər.

Azərbaycan dilinin tədrisində böyüklüyündən, kiçikliyindən asılı olmayaraq, bütün nailiyyətlər qeyd olunmalı, qiymətləndirilməlidir. Ana dilində kitab, jurnal və qəzetlərin evlərə daxil edilməsinin də əhəmiyyəti böyükdür, çünki Azərbaycan dili ilə zəngin mühit təbii öyrənməyə sövq edir.

Təcrübə göstərir ki, Azərbaycan dilinin tədrisi düşüncə və duyğuları yüksək səviyyədə ifadə etməyi formalaşdırır. Tələbələr öz ana dillərindən rahatlıqla istifadə etdikdə öz düşündüklərini və ya duyğulu məsələləri müzakirə edərkən daha effektiv ünsiyyət qura bilirlər. "Bu gün təhsil sistemində aparılan islahatlar bir daha onu göstərir ki, artıq təhsil sistemində islahatlar konkret dövlət proqramı əsasında həyata keçirilir" (Mikayılzadə, 2023, s.3).

Azərbaycan dilini öyrətməkdə müxtəlif strategiyalardan istifadə etmək öyrənməyin keyfiyyətinə səbəb olur. Bu prosesin faydaları sinif və ya auditoriyadan kənara çıxır və hərtərəfli, özünə inamlı və mədəniyyətdən xəbərdar olan fərdlərin formalaşmasına gətirib çıxarır.

ƏDƏBİYYAT

1. Balıyev, H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Qismət, 2014, 384 s.
2. Əliyeva, G. Azərbaycan dili tədrisinin müasir problemləri (Magistr elmi dərəcəsi almaq üçün tədqim edilmiş dissertasiya). Bakı: 2018, 72 s.
3. Kərimov, Y. İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları, Bakı: Maarif, 1978, 219 s.
4. Qurbanov, V. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: "Müəllim" nəşriyyatı, 2014, 258 s.
5. Məmmədova, A. Azərbaycan dilinin tədrisi tarixi. Bakı: Kitab aləmi, 2010, 138 s.
6. Mikayılzadə, L. Azərbaycan dilinin tədrisi məsələləri (əcnəbi tələbələr üçün dərs vəsaiti). Bakı: CLASS PRİNT, 2023, 174 s
7. Nəbiyeva, Ş. Ana dili tədrisi metodikasının aktual problemləri (Metodik vəsait). Bakı: ADPU, 2010, 127 s.
8. Rəhimov, A. İbtidai siniflərdə sintaksisin tədrisinin nəzəri və praktik əsasları. Bakı: Mütərcim, 1996, 220 s.

ABSTRACT

Aytac Nabiyeva

THE IMPORTANCE OF LEARNING THE SUBJECT "AZERBAIJAN LANGUAGE"

The article discusses important aspects of teaching the Azerbaijani language. For this purpose, the main content of learning the native language is explained, its important role in preserving national culture, ensuring effective communication, and forming a sense of identity in students is emphasized. Ways are shown to form and develop students' skills in fluently understanding, speaking, reading and writing the native language. The article notes that there is no specific approach that is suitable for everyone in teaching the Azerbaijani language and the choice of method depends on various factors. In practice, many teachers combine several methods to create a more comprehensive and attractive learning experience. Therefore, it is considered acceptable for some teachers to combine several methods during teaching.

The article evaluates the native language as a key aspect of culture. Its feature of preserving the history, values, customs and traditions, worldview of society is emphasized. The usefulness of learning and mastering the Azerbaijani language in cognitive development and improving memory is explained.

In addition to being an important part of human identity and communication, it is also shown that the language is a means of strengthening family ties with society. The strengthening of a sense of self and the formation of qualities such as self-confidence are justified in teaching the Azerbaijani language. Therefore, it is recommended to improve the language by consistently speaking in the native language with children from an early age in everyday life and in public places, using songs, stories and games. The main issue in teaching the Azerbaijani language is to record and evaluate all achievements. The importance of introducing books, magazines and newspapers in the native language into homes is also considered important. The article puts forward original considerations about teaching the Azerbaijani language, referring to the opinions of various educators-scientists.

Keywords: *Azerbaijani language, teaching, student, learning, speech culture*

YUSİF ŞİRƏLİYEV

Naxçıvan Dövlət Universitetinin nəzdində
Naxçıvan Dövlət Texniki Kolleci
yusifforever@icloud.com

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİK KONSEPSİYASI

XÜLASƏ

Yaxın tarixi təcrübəmiz real şəkildə sübut etdi ki, əgər müstəqillik həqiqi mənada xalqa xidmət edirsə, millətə öz milli həyatını sərbəst, özünəməxsus şəkildə qurmaq imkanı verirsə, yalnız bu halda o, milli inkişafın ən müqəddəm şərti hesab oluna bilər. Ümummilli Lider Heydər Əliyevin vaxtilə söylədiyi "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" deyimini bu gün də həyəcansız xatırlamaq mümkün deyil. Ona görə ki, xalqımızın əsrlər boyu uğrunda mübarizə apardığı, lakin əsl milli dəyər mahiyyətini bugünkü uğurlarımızda daha real dərk etdiyi müstəqillik idealında cəmiyyətimizin qarşılaşdığı məşəqqətli, faciəli anlar, ağrılı günlər öz izini qoymuşdur. Ulu Öndərin bu həyat manifesti bizdə ölçüyəgəlməz qürur hissi doğurur, çünki bu optimizmdə onun rəhbərliyi ilə milli varlığımızın taleyüklü problemlərinin həlli yolunda atılan uğurlu addımları, milli tərəqqiyə mane olan neqativ əyintiləri vaxtında təmkin və qətiyyətlə aradan qaldırmaq əzmi və bacarığı, elin güdrətindən mayalanan milli təfəkkürün yaradıcı potensial təcəssümünü tapmışdır. Məhz buna görə Heydər Əliyevin müstəqillik konsepsiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlar fonunda xüsusi aktuallıqla səslənir. Doğrudur, Ümummilli Lider milli müstəqillik probleminə həsr edilmiş xüsusi elmi əsərlər yazmamışdır. Lakin özünün bütün siyasi karyerası boyu xalqımızın müstəqilliyə yetmək istəyini dərindən duymuş və müdafiə etmiş, bu taleyüklü milli problemin məzmun və mahiyyətinə dərindən nüfuz etmiş, bu amalı özünün fəaliyyət kredosuna çevirmişdir. O, istər dərin məzmunlu çıxışlarında, istərsə də xalqla keçirdiyi görüşlərdə səsləndirdiyi ideyalarla müstəqillik konsepsiyasının nəzəri-praktiki əsaslarını yaratmışdır. Bu konsepsiyada milli dövlətçilik ideyaları ilə həmin ideyaları həyata keçirən müdrik siyasətin obrazının dialektik vəhdətini görürük. Sxolastik düşüncə tərzini kəskin tənqid edən Heydər Əliyevin müstəqillik konsepsiyası mühüm nəzəri-praktik model kimi milli reallıqlarımızın və bu reallıqların xarici faktorlarla şərtlənməsinin analitik, yaradıcı dərkinin məhsuludur. Odur ki, biz Heydər Əliyevin müstəqillik konsepsiyasının formalaşmasının ilkin şərtləri olan xarici və daxili faktorlara toxunmaq istərdik.

Açar sözlər: *konsepsiya, müqəddəm, kredo, sxolastik*

Kontinental imperiya olmuş Sovetlər İttifaqının dağılmasından sonra "soyuq müharibə", "qorxunun tarazlığı", "nüvə qışı" kimi düşüncələri narahat edən metaforik

ifadələrin qlobal siyasi şüurdan hələ tam psixoloji mənada sıxışdırılmadığı bir beynəlxalq şəraitdə Azərbaycan Respublikasının dünya inteqrasiya proseslərinə qoşulması hakimiyyətə qayıdışının ilk günlərindən Ulu Öndərin başlıca və ardıcıl dövlətçilik idealı olmuşdur. Konsepsiyanın beynəlxalq dəyərindən söhbət salarkən belə bir tarixi paraleli xüsusi göstərmək lazımdır ki, Heydər Əliyev milli varlığımızın təminatı olan müstəqillik konsepsiyasını işləyərkən sabiq Fransa prezidenti F.Mitteranın Avropa konfederasiyası, ABŞ prezidenti C.Buşun (ata) bütöv demokratik Avropa, Almaniyanın xarici işlər naziri Q.Qenşerin Avropada yeni dünya nizamı haqqında konseptual mülahizələri irəli sürülürdü. Deməli, Azərbaycan üçün o dövrdə öz müstəqilliyini təsdiq etdirmək dünya birliyinə tədricən inteqrasiya etmək zərurəti idi. Bu mənada müstəqillik konsepsiyasını zamanın konkret sosial-siyasi vəziyyət məcrasında nəzərdən keçirmək lazımdır. Məsələ burasındadır ki, konsepsiyanın işlənildiyi ziddiyyətli dövrdə, yəni Azərbaycanda 80-ci illərin sonu və 90-cı illərin əvvəlində fərdi, ictimai və milli şüur haçalanmışdı. Kütləvi şüurda qarşıdurmaya və başdan-başa dağıdıcılığa olan meyil sosial həyatın təşkilinin pozitiv prinsiplərini üstələyirdi. Sovet rejiminin struktur böhranının tələblərini analitik təhlil edən Heydər Əliyev görürdü ki, 1989-cu ildən başlayaraq yenidənqurmanın əsas problemlərinin həllinin uğursuzluğa düçar olması Nəticəsində ölkə uçurum qarşısındadır. Yeniliklərlə ayaqlaşan idarəçilik konsepsiyasının olmaması və rəhbərliyin açıq-aşkar zəifliyi və acizliyi ucbatından yenidənqurmanın "sosializmi yeniləşdirmək" kimi ritorik nəzəriyyəçiliyə aludə olmuş Moskva "memarları" tarixi məqamı ötürmüş, mərkəzin yeni orqanları isə səriştəli qərar qəbul etmək qabiliyyətini itirmişlər. Belə halda, onların fikrincə, kontinental imperiyanın iflası daha geniş miqyas, qlobal xarakter alacaq və bu, yeni demokratiyaların müstəqillik uğrunda mübarizəsinə qlobal təsir göstərəcəkdir. Sonralar dünya miqyasında baş verən qlobal transformasiya prosesləri, onların yeni demokratiyaların formalaşmasına təsiri Ulu Öndərin müdrik uzaqgörənliyini təsdiq etdi. Bəs Heydər Əliyevin müstəqillik konsepsiyasının yaşarlığı və həyatiliyi nədədir? Bunun nəzəri fikir tariximizdə yeri və önəmliliyini şərtləndirən amillər hansılardır? Birincisi, özünün müstəqillik konsepsiyasını işləyərkən Ulu Öndər konkret və real cəmiyyətin iqtisadi, siyasi, sosial və mənəvi-əxlaqi sahələrinin bütün kompleks problem və qayğıları ilə real Azərbaycan gerçəkliyindən çıxış edirdi. Lakin o, həmişə "qlobal düşünüb lokal hərəkət etmək lazımdır" prinsipinə riayət edərək Azərbaycan xalqının müstəqilliyinin qorunmasını dünya hadisələri məcrasında həll etməyə çalışmışdır. Təcrübəli dövlət başçısı diplomatiyanın belə bir ümdə prinsipindən çıxış etmişdir ki, daxildə aparılan nadan və səriştəsiz siyasət ölkənin nəinki dünya birliyinə daxil olmasına mane olur, daha çox, məsələn, Azərbaycanın nümunəsində götürsək, xaricdə onun başına gələn müsibətlərə laqeyd münasibət yaradır. Xalqımız cəbhəçilərin hakimiyyətdə olduğu dövrdə ölkəmizdə baş verənlərin timsalında bunun şahidi olmuşdur. Dünya proseslərindən kənarda qalmağın xalqın tarixi şüuruna, onun milli identifikasiyasına vurduğu mənəvi ziyanı başa düşmək çətin deyildir. Daxildə isə bu, xalqın etimad hissini öldürmək, onun dövlətçiliyinə olan inamını şərəfsizcəsinə qırmaq deməkdir. Bu mənada Heydər Əliyevin əqidəsincə, milli müstəqillik millətin mədəniyyətini, iqtisadiyyatını, elmini, incəsənətini inkişaf etdirməklə özünü realizə və özünü təsdiq üçün şərait yaratmaq və bununla başqa dövlətlərdən asılılığı minimuma endirmək deməkdir, çünki prinsipcə, bütün dünya dövlətləri inteqrasiya şəraitində bir-birilərindən asılıdır. İkincisi, Ümummilli Liderin müstəqillik konsepsiyasından belə

görünür ki, milli müstəqillik millətin hər bir nümayəndəsinin şüurunda və psixologiyasında öz millətinin keçmişi, bugünü və gələcəyi barədə həqiqətləri dərk etmədən mümkün deyildir. Heydər Əliyevin nəzərincə, müstəqillik xalqın mənəviyyatını qorumaq deməkdir. Bir mənəvi hadisə kimi, o, daim hər bir vətəndaşın milli şüurunda möhkəm yer tutmalıdır. Onun müstəqillik tariximizə düşmüş məşhur "91" - lərin müraciətinə verdiyi cavabların tezisləri ilə tanışlıq deməyə əsas verir ki, ölkənin önəmli ziyalılarının müraciətlərinə cavabı xalqın müstəqilliyinin vacibliyini dərk edən siyasətçinin mənəviyyat seçimidir, milli reallığı fəlsəfi idrak səviyyəsində düzgün və analitik qiymətləndirməyin bariz nümunəsidir. Müraciətə cavabın başlıca leytmotivi belədir: artıq belə yaşamaq olmaz, xalq sosial-siyasi fəlakətdən xilas olmalıdır.

Ümummilli Liderin müstəqillik konsepsiyasının strukturunda Vətən, dövlətçilik, suverenlik, vətənpərvərlik anlayışları önəmli yer tutur. Vətənimizin taleyi hər bir soydaşımızın taleyi olmalıdır, belə olmasa milli müstəqilliyi qorumaq, onu möhkəmləndirmək mexanizmi zəif olar. Müstəqilliyimizin taleyindən söhbət açarkən ingilis filosofu Arnold Toyubinin bu sözlərini xatırlamalı oluruq: "Biz elə bir dövrdə yaşayırıq ki, tarix hamımıza meydan oxuyur". Həqiqətən də, Azərbaycanın müstəqilliyi qarşısında tarixi məsuliyyəti dərk edərkən ən yeni tariximizdə, əslində, dövlətçiliyin olduqca təhlükəli dövrü kimi qiymətləndirilən 1991-1992-ci illərdə və 1993-cü ilin birinci yarısında tüğyan etmiş siyasi, iqtisadi, hərbi anarxiyanı unutmaq olmur. Bu, müstəqillik tariximizin elə məqamıdır ki, bütün dövrün tədqiqatçıları bu problemə labüdən toxunmalı olacaqlar. Ulu Öndərimiz o dövrdəki vəziyyəti realistcə qiymətləndirərək belə bir haqlı Nəticəyə gəlmişdi ki, 1991-1993-cü illər Azərbaycanın müstəqilliyi tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "ölüm, ya olum" dilemması qarşısında qalmışdı. Məlumdur ki, hələ klassik alman fəlsəfəsinin baniləri millətlərin tarixi inkişafını dövlət quruluşu ilə bağlayırdılar. Azərbaycan xalqının müstəqilliyi barədə dövlətçilikdən və suverenlikdən kənarda hər hansı söhbət predmet məzmunundan məhrumdur. Xalqın dünya birliyi tərəfindən tanınmış dövləti olmasa, onun öz müstəqilliyini müdafiə etməyin hüquqi imkanları da məhdud olur. Buna görə də Azərbaycan dövlətçiliyinin təkmilləşdirilməsi və suverenliyinin möhkəmləndirilməsi, eyni zamanda xalqın milli müstəqilliyinin müdafiəsinin əsaslarının möhkəmləndirilməsi deməkdir. "Azərbaycan Respublikası milli dövlətçilik quruculuğu yolunda müvəffəqiyyətlər qazanaraq şərəfli gələcək istiqamətində inamla addımlayır" - Ulu Öndərin bu sözlərində mühüm bir ideya durur: milli dövlətçiliyi qorumaqla, möhkəmləndirməklə xalq özünün müstəqilliyinin möhkəmləndirilməsi üçün müstəsna təminat yaradır. Bu hadisələr bir daha belə bir tarixi həqiqəti üzə çıxardı ki, böhranlı anlarda xalqlar və onların liderləri bir qayda olaraq, tarixin sınaqlarından çıxmış öz milli təcrübəsinə müraciət etməli olur. İntensiv cərəyan edən transformasiya prosesləri xalqların ənənəvi təcrübəsinə yenidən baxmağı tələb edir. Bu gün aydın olur ki, cəmiyyətin ənənəvi təcrübəsinin potensialı zamanın sərt tələblərinə cavab verməyə hazır deyil və xalqlar labüd olaraq qaçılmaz seçim qarşısında qalmışdır: ya millətin yaradıcı potensialını artırıb yeni reallıqların mürəkkəbliyinə uyğun həyat keyfiyyətini formalaşdırmaq, ya da mədəniyyətin dərin qatlarında durğunluq keçirən dəyərlərlə kifayətlənib qloballaşmanın tələbləri qarşısında təslim olmaq. Bunlar dövlətçiliyin möhkəmləndirilməsinin, vətənin gələcəyini qorumağın mühüm sosial-ideoloji təminatıdır. Ona görə də Heydər Əliyevin

müstəqillik konsepsiyasında "vətən" kateqoriyası mücərrəd anlayış olmayıb, övladlarının ölkəsinin nemətlərindən azad və bərabər bəhrələnən suveren Azərbaycan vətəndaşlarının məkanı kimi təqdim edilir. Hər bir xalqın yaşadığı torpaq onun ruhi beşiyidir, çünki vətən hissi özündə millətin mənəvi-əxlaqi dəyərlərini ehtiva edir. Bu gün insanlarımızın vətənpərvərlik hissi, onların öz doğma etnik beşiyinə ülvi məhəbbəti yeni dünyagörüşü sisteminin təməlini təşkil edir. Ulu Öndər millətin mənəvi və əxlaqi dayağı kimi, onun sosial yaddaşının mühafizəçisi və mənbəyi olan tarixin ən yüksək rolunu vətənpərvərliyin, vətən amalının formalaşmasında görür. O, tez-tez qeyd edirdi ki, "bizim tariximiz bizə ibrət dərsi verməlidir".

Bu kəlamda Heydər Əliyevin əxlaqi və dünyagörüşü kredosu ifadəsini tapmışdır. Tarixi unutqanlıq millətin ruhunu öldürür, onun şərəf və ləyaqətinə ziyan vurur. Milli tariximizi bilmədən, keçmişimizə pozitiv yanaşmadan, tarixən itirdiklərimizi tənqidi dərk etmədən və əldə etdiklərimizin qədrini bilmədən, eynilə də tarixi hadisələr və faktlardan razılıq hissi, yaxud məyusluq keçirmədən özündə vətənpərvərlik duyğusunu tərbiyə etmək, ulu babalarımızın pak adını və nəcib işlərini təhriflərdən və qarayaxanlardan qorumaq mümkün deyildir. Özünün ictimai görüşlərində Heydər Əliyev belə bir düzgün metodoloji Nəticəyə gəlir ki, özünüdərk çərçivəsində millət Vətən tarixinin bütün mühüm tarixi fakt və hadisələrinə yetkin vətəndaşlıq münasibətini müəyyənləşdirməli, tarixi prosesin məntiqinə ardıcıl riayət edərək dəyərlərə yeni düşüncə mövqeyindən baxmalı, özü də tarixə heç bir siyasi məqsədə uyğunluq ünsürləri daxil etməməlidir. Elə buna görə də təsadüfi deyil ki, özünün müstəqillik konsepsiyasında vətənin taleyi üçün məsuliyyət hissini mühüm struktur elementi kimi təqdim edir. Ulu Öndərin Bakıda (avqust 1993) ümumrespublika müşavirəsindəki çıxışından bir epizodu xatırlayaq: "Biz, yəni Azərbaycan xalqı, böyük imtahan içindəyik və bu imtahandan ləyaqətlə çıxmalıyıq. Hər bir Azərbaycanlı, əgər onun qəlbində doğrudan da, azərbaycanlı hissiyyatı varsa, nəbzi Azərbaycan xalqının ümumi nəbzi ilə həmahəng vurursa, bu yolla getməlidir". Ölkəmizin ərazisində yaşayan hər bir millət və xalq vətən qarşısındakı vəzifəsini aydın dərk edib öz fəaliyyətini onun çiçəklənməsinə istiqamətləndirməlidir. Çünki Azərbaycan Respublikası onların hamısı üçün vətən ocağıdır. Heydər Əliyev vətənçilik və vətənpərvərlik ideyalarının müstəqil Azərbaycanın gənclərinin düşüncəsində möhkəm yer tutmasının müstəsna əhəmiyyətini qeyd edirdi: "Siz də (Gənclər - müəllif) Azərbaycan xalqına xidmət edərək ... vətənpərvərlik hissi ilə yaşayaraq özünüzü qəhrəman kimi, cəsur, qüdrətli bir insan kimi formalaşdırmalısınız və qarşıdan gələ biləcək bütün çətinliklərə hazır olmalısınız". Ulu Öndərin "Mən - milli ordu - müstəqillik" triadası mühüm əxlaqi mahiyyət daşıyır. O, xalqını inandıra bilmişdi ki, güclü milli ordunun yaradılması müstəqilliyin qorunmasında milli ləyaqət və şərəf işidir.

Acınacaqlı səslənsə də, onilliklər ərzində bu həqiqəti dərk etmiş və ya bəzən dərk etsək də, ona qarşı mübarizə aparmaq iqtidarında olmamışıq. Bu tarixi həqiqət ilk dəfə xalqına və dünya ictimaiyyətinə rəsmi dövlət səviyyəsində bütün qətiyyətlə Heydər Əliyev tərəfindən elan edildi. Azərbaycan Respublikasının Prezidenti olarkən onun imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-in ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanda deyilir: "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti cinayət aktı

olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar... Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin ...törədilən cinayətlərin təşkilində iştirakı da az olmamışdır". Fərmanın başlıca qayəsi budur ki, tarix xalqın yaddaşıdır, yaddaşdan isə heç bir şey atmaq lazım deyil, tarixi həqiqətlər özümüzü dərk etmək üçün vasitədir. Lakin heç bir şey unudulmamalı, deməli, yeni fəlakətlərə yol verilməməlidir. Bu Fərman nəinki tariximizi dərindən öyrənməyə, həmçinin milli sərvətimizin, milli-mənəvi dəyərlərimizin qorunmasının təminatçısı olan müstəqilliyimizin qədrini bilməyə, onu qorumağa və daha da möhkəmləndirməyə səsləyir. Ümummilli Lider həmişə qeyd edirdi ki, "Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi-əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik". Bununla bağlı Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunub saxlanması, inkişaf etdirilməsi haqqında 13 avqust 2001-ci il tarixli bəyanatı müstəsna əhəmiyyət kəsb edir. Həqiqətən də, öz mənəvi-əxlaqi dəyərlərini yalnız azad və müstəqil xalq saxlaya bilər. Bu bəyanat, hər şeydən əvvəl, azərbaycançılıq ideologiyasına sadiq qalan xalqı öz tarixi köklərinə, əcdadlarının yaratdığı milli-mənəvi dəyərlərə daha sıx bağlı olmağa çağırır. Deyilənlərlə bağlı Ulu Öndərimizin müstəqillik konsepsiyası barədə çoxlu önəmli fikirlər və mülahizələr söyləmək mümkündür. Bu, əslində, monoqrafik bir mövzu olub, tədqiqatçıları dərindən düşündürməlidir. Lakin məqalə çərçivəsində məhdudluğa baxmayaraq, bir daha milli liderlik probleminə toxunmaq istərdik. Heydər Əliyev bir çox çıxışlarında sərişdəsiz, xalqdan uzaq "liderləri" hakimiyyət üçün barışmaz qüsur saymışdır.

ƏDƏBİYYAT

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 17 cilddə. VI cild, Bakı: Azərnəşr, 1997-2007, 800 s.
2. Məqsədimiz Azərbaycanın hərtərəfli inkişafına, xalqın rifahının daim yüksəlməsinə nail olmaqdır. Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // Dirçəliş-XXI əsr. 2004, № 78-79, s. 21-25
4. Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında. Bakı: Azərnəşr, 2000, 412 s.
5. Əliyev, O. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı: Zahid, 2003, 246 s.
6. İsmayılov, Ə., Əliyev, Q. Heydər Əliyev və milli ləyaqət fəlsəfəsi. Bakı: Təbib, 1998. 149 s. 6. Kazımlı X. Böyük siyasətin davamı. Bakı: Nurlan, 2007, 768 s.
7. Mehdiyev, R. XXI əsrdə milli dövlətçilik. Bakı: Azərnəşr, 2003, 340 s.
8. Mehdiyev, R. Yeni siyasət: inkişafa doğru. I-II cildlər. Bakı: Oskar MTM, 2008, 581, 343 s 9. Xudiyev N. Xalqın İlhamı. Bakı: Azərnəşr, 2000, 300 s.
9. Гегель. Сочинения, том III. М.: Издательство политической литературы, 1934. 683 с. 11. Менегетти А. Психология лидера. М.: НБФ, 2002, 31-40 с

Çapa imzalanmışdır: 23.07.2025
Formatı: 60x90, 16/1, həcmi: 41.5 ç/v.
Tiraj: 65, sifariş № 051